- MATLAB (ing. "Matrix Laboratory" sözünün qısaldılmış forması). 4-cü nəsil proqramlaşdırma dili olub, rəqəmsal hesablama sistemidir. MATLAB-la aşağıdakı əməliyyatlar yerinə yetirilə bilər:
- Matriks əməliyyatları;
- Funksiya və dataların qrafiklərinin çəkilməsi və təhlili;
- Alqoritmlərin tətbiqi;
- Başqa dillərdə (C, C++ və Fortran daxil) yazılmış proqramlarla əməliyyatlar.

2004-cü ildə MathWorks təşkilatı dünyada bir milyondan artıq insanın MatLab istifadə etdiyini elan etdi. Bu proqramın istifadəçiləri çox fərqli sahələrdə çalışırlar: mühəndislik, elm, iqtisadiyyat və s. Böyük müştərilər arasında Massaçusets Texnologiya İnstitutu, NASA, Max Planck Cəmiyyəti və RWTH Aachen Universiteti kimi elmi tədqiqat mərkəzlərindən yanı sıra ABB Grupu, Boeing, Ford Motor, Halliburton, Lockheed Martin, Motorola, Novartis, Pfizer, Philips, Toyota, and UniCredit Bank kimi sənayə quruluşları da var.

MatLab – ("Matrix Laboratory" ifadəsinin qısaltması) - texniki hesablamalarla bağlı məsələlərin həlli üçün nəzərdə tutulmuş tətbiqi proqramlar paketi və bu paketdə istifadə olunan eyniadlı proqramlaşdırma dili. MATLAB - müasir əməliyyat sistemlərinin əksəriyyətində, o cümlədən Linux, Mac OS və Microsoft Windows sistemlərində işləyir [7, s.996].

Mathcad riyazi proqram paketi 1988-ci ildə Math Soft Inc firması tərəfindən riyazi məsələlərin ədədi üsullarla həll etmək üçün yaradılmışdır. 1994-cü ildə Maple paketinin simvolik hesablama vasitələrinin Mathcad paketinə inteqrasiyası və paket üzərində edilən təkmilləşmələr nəticəsində o, bu gün geniş istifadəçi kütləsinin: şagird, tələbə, müəllim, elmi işçi, mühəndis texnoloqların, iqtisadçı menecerlərin və s. əməyini avtomatlaşdıran və yüngülləşdirən əvəzolunmaz bir vasitəyə çevrilmişdir. Mathcad 12 Professional paketi inteqral sistem olub, özündə hesablama prosessoru ilə yanaşı mətn, düstur, qrafiki redaktorları birləşdirir. Bunun nəticəsində proqramdan hesablama məqsədilə yanaşı, çap məhsullarının, elektron kitabların və hipermətn sənədlərin yaradılmasında geniş istifadə olunur. Qeyd edək ki, Mathcad-la nəinki hesablamalar aparmaq, həmçinin teorem və lemmalar isbat etmək olar. Mathcad Professional 12 bütün Windows əlavələri kimi Baş menyunun Proqramlar bölməsinin Mathsoft Apps proqram qrupunun Mathcad Professional 12 əmrini yerinə yetirməklə və ya kursoru İşçi stolda yerləşən proqram yarlığının üzərinə qoyub siçanın sol düyməsini iki dəfə sıxmaqla yüklənir. Bu zaman ilk öncə ekranda proqramın "loqotipi", sonra isə əsas interfeys pəncərəsi açılır. Belə ki, proqramın əsas interfeys pəncərəsi aşağıdakı elementlərdən ibarətdir: Başlıq sətri; Menyu sətri; Standart alətlər və formatlaşma paneli; Xüsusi alətlər panelləri; İşçi sahə; Cari vəziyyət sətiri [8, s.7].

Proqramın "intellektual" imkanları menyu sətiri və alətlər panelləri vasitəsilə reallaşır. Menyu sətiri 9 ədəd menyudan: File (Fayl), Edit (Redaktə), View (Görünüş), İnsert (Daxiletmə), Format (Format), Math (Riyazi), Symbolics (Simvollar), Window (Pəncərə), Help (Kömək) menyularından ibarətdir. Konkret alətlər panelinin ekranda əks olunması View menyusunun Toolbars əmrini yerinə yetirdikdə açılan altmenyuda müvafiq alətlər panelini aktivləşdirməklə tənzimlənir. Alətlər panelinin ekrandan "gizlədilməsi" həmçinin kontekst menyunun Hide əmri vasitəsilədə təmin olunur. Qeyd edək ki, Standart və Formatlaşma panelinin alətlərinin sayını istifadəçi öz tələbatına uyğun tənzimləyə bilər. Belə ki, istifadəçi kursoru panelin üzərinə qoyub, siçanın sağ düyməsini sıxdıqda açılan kontekst menyunun Customize əmrini yerinə yetirməklə açılan dialoq pəncərəsində yeni alətlər əlavə edə bilər və ya qeyd olunmuş aləti paneldən ləğv edə bilər. Proqram informasiyaya müxtəlif miqyasda baxmağı təmin edir. Bunun üçün View→Zoom əmrini yerinə yetirib, açılan pəncərədə miqyas vahidini seçmək lazımdır. Cari vəziyyət sətiri isə yardımçı informasiyanın əks olunmasına xidmət edir və onun ekranda əks olunması View→Status Bar əmri vasitəsilə tənzimlənir. Mathcad həqiqi, kompleks, tam, rasional ədədlərlə işləməyi təmin edir. Həqiqi ədədlər müxtəlif formatda: sürüşkən vergüllü, mühəndis, eksponensial formatda daxil oluna

bilər. Kompleks ədədlər riyaziyyatdan məlum yazılış formasında daxil olunur. Kompleksə dəyən xəyali vahidi i və ya j hərfi ilə işarə olunur [8, s.15].

Ədədlər həmçinin səkkizlik və on altılıq say sistemində ola bilər. Səkkizlik say sistemində ədədin yazılışının sonunda "O", on altılıq say sistemində isə ədədin yazılışının sonunda "H" və ya "h" işarəsi olmalıdır. Mathcad-da hesablama əməliyyatı adətən avtomatik hesablama rejimində, ədədi və ya analitik-simvolik olaraq həyata keçirilir. Bu rejimdə dəyişənin müəyyən qiymətlərində riyazi ifadənin və funksiyanın ədədi qiymətinin hesablanması üçün riyazi ifadəni və ya funksiyanı daxil etdikdən sonra klaviaturanın "=" düyməsini sıxmaq kifayətdir. Hesablamanın nəticəsi "=" işarəsinin sağında əks olunacaqdır. Əgər hesablamanı yerinə yetirmək mümkün deyilsə, hesablama blokunun aşağısında sarı fonlu düzbucaqlı çərçivədə səhv haqqında məlumat əks olunacaqdır. Riyazi ifadəni və ya funksiyanı simvolik hesablamaq üçün kursoru Symbolic alətlər panelində yerləşən "→" alətinin üzərinə qoyub siçanın sol düyməsini sıxmaq lazımdır. "→" işarəsi cari hesablama blokunda ifadənin sağında əks olunduqdan sonra isə Enter düyməsini sıxmaq lazımdır. Bundan sonra hesablamanın nəticəsi işarənin sağında əks olunacaqdır. İfadəni simvolik hesablamaq mümkün olmadıqda "→" sağında ifadə təkrar əks olunur. İfadənin hesablanması tələb olunmadıqda istifadəçi kontekst menyunun Disable Evaluation əmri vasitəsilə cari ifadə üçün hesablama rejimindən imtina edə bilər. Bu zaman düsturun sağ yuxarı küncündə qara rəngli nişan yaranır.

MatLabın üstün və çatışmayan cəhətlərinə gəldikdə, onun ən üstün cəhəti istifadəsinin asan olmasıdır. Bundan əlavə qrafiki istifadəçi interfeysinə malikdir ki, bu da istifadəçilərin bu proqramda işini asanlaşdırır. Matlab həmçinin asanlıqla kompilyasiya edilmə imkanına sahibdir.

Çatışmayan cəhətinə isə yaddaşda çox yer tutması daxildir. Təbii ki, bu halda sürəti zəif olan kompüterlərdə proqramın icrası zamanı müəyyən problemlər yarana bilər.

MatCad üstünlüyü isə bu proqramda işləyən insanlara hesablama prosesində ümumi riyazi prinsiplərdən istifadə imkanı yaradır. Çatışmayan cəhəti isə cədvəlləri Excel tətbiqi kimi qüsursuz göstərə bilmir.

Bəs MatLab yoxsa Matcad proqramlarından hansı əlverişlidir deyə soruşulsa, Matlab riyazi məsələlər üçün nəzərdə tutulmuş və burada daha çox riyazi proqramların icrası mümkündür. MatCad isə mühəndis hesablamaları üçün əvəzolunmaz bir tətbiqdir.

# Nəticə

1. Bəzi tətbiqi məsələlərin müasir riyazi proqram paketlərində həlli tələbələrin fəallığının, motivasiyasının və iştirakının artması ilə nəticələnə bilər.
2. MatLab və MatCad proqramları təlim məqsədlərinin möhkəmləndirilməsində və tələbələrin materialı başa düşməsində yüksək effektivlik göstərə bilər.
3. Müəllimlər bu tətbiqi proqramlardan istifadənin zamana və resurslara qənaət baxımından çox faydalı olduğunu bildirirlər.
4. Bu proqramların vasitəsi ilə məsələlərin həll edilməsi yeni və innovativ tədris nəticələrini artıra bilər.

***Ədəbiyyat***

1. *Ə.M.Abbasov, M.A.Camalbəyov və b. "Market Manager" İdarəetmə sistemi. Elmi-metodik vəsait. – "İqtisad Universiteti" nəşriyyatı. Bakı - 2002.*
2. *Hesablama maşınları və kompüterlər haqqında ümumi məlumat, R.Q. Ələkbərov, t.e.n., AMEA İnformasiya Texnologiyaları İnstitutu.*
3. *Соломенчук В.Г. Аппаратные средства персональных компьютеров – СПБ.: БХВ – Петербург, 2003.*
4. *Колесниченко О.В., Шишичин И.В. Аппаратные средства ПК – СПБ. БХВ – Санкт-Петербург, 2000.*
5. *http://ru/wikipedia/org%5B%C3%B6l%C3%BC+ke%C3%A7id%5D*
6. *https://biaz.ucoz.net/publ/informatikadan_distant_t_hsil/komputer/proqramlar/37-1-0-156*
7. *İsmayıl Calallı (Sadıqov), "İnformatika terminlərinin izahlı lüğəti", "Bakı" nəşriyyatı - 2017.*
8. *Qurbanov İsabala Əli oğlu, Qurbanov Azad İsa oğlu - Riyazi Proqram Paketlər.*

**İ.R.Məmmədli**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*ilhami.memmedli00@gmail.com*

# EKSPERT SİSTEMLƏRİNİN YARANMA METODOLOGİYASI VƏ MƏQSƏDLƏRİ

***Xülasə***

*Gündəlik fəaliyyətimizin müxtəlif sahələrində - təhsildə, tibbdə, iqtisadiyyatda, istehsalatda və s. bu kimi müxtəlif sahələrdə süni intellekt və ekspert sistemləri geniş tətbiq olunur. Bu cür sistemlərdən istifadə etməkdə əsas məqsəd vaxt itikisini minimuma endirmək və insan ekspertlər yarana biləcək səhvlərin qarşısını almaqdır. Buna əsasən də deyə bilərik ki, bu cür sistemlər həyatımızın ayrılmaz parçasına çevrilib.*

*Bu məqalədə süni intellekt və ekspert sistemlərinin əhəmiyyəti, həmçinin ekspert sistemlərinin üstün və çatışmayan cəhətləri, əsas komponentləri və öhdəliklərindən bəhs olunub.*

# МЕТОДОЛОГИЯ И ЗАДАЧИ СОЗДАНИЯ ЭКСПЕРТНЫХ СИСТЕМ

***Резюме***

*В различных сферах нашей повседневной деятельности - образовании, медицине, экономике, производстве и т.д. искусственный интеллект и экспертные системы широко используются в различных областях, подобных этой. Основная цель использования таких систем - свести к минимуму потери времени и предотвратить ошибки экспертов - людей.*

*Исходя из этого, можно сказать, что такие системы стали неотъемлемой частью нашей жизни.*

*В данной статье рассматривается важность искусственного интеллекта и экспертных систем, а также преимущества и недостатки, ключевые компоненты и обязанности экспертных систем.*

# METHODOLOGY AND OBJECTIVES OF CREATION OF EXPERT SYSTEMS

***Summary***

*In various fields of our daily activities - education, medicine, economy, production, etc. artificial intelligence and expert systems are widely used in various fields like this. The main purpose of using such systems is to minimize the time loss and prevent human experts from making mistakes.*

*Based on this, we can say that such systems have become an integral part of our life.*

*This article discusses the importance of artificial intelligence and expert systems, as well as the advantages and disadvantages, key components and responsibilities of expert systems.*

***Açar sözlər:*** *süni intellekt, süni intellekt sistemləri, ekspert sistemləri, ES-nin tətbiq sahəsi, ES-nin komponentləri, ES-nin öhdəlikləri*
***Ключевые слова:*** *системы искусственного интеллекта, экспертные системы, область применения экспертных систем, компоненты экспертных систем, обязанности экспертных систем*
***Key words:*** *artificial intelligence systems, expert systems, application field of expert systems, components of expert systems, responsibilities of expert systems*

**Mövzunun aktuallığı:** Məqalədə Ekspert sistemlərinin inkişafı və tətbiq sahələri barədə məlumatlar əks olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi:** İnsanların rahat istifadəsi üçün yaradılmış ekspert sistemlərinin insan ekspertlərindən fərqi və üstünlükləri haqqında təhlil aparılmış, əsaslandırma ilə nümunələr göstərilmişdir.

Müasir dünyamızı süni intellekt və ekspert sistemləri olmadan təsəvvür etmək mümkün deyil. Bu sistemlər müxtəlif peşə istiqamətlərində fəaliyyət göstərən insanlara çoxlu sayda imkanlar təqdim etməklə onların işlərini asanlaşdırır və onları əlavə vaxt itkisindən azad edir.

Süni intellekt (Artificial Intelligence - Aİ) sistemlərinin yaradılmasında əsas məqsəd insan məntiqini əvəz etmək, insan zəkasına uyğun olan məsələlərin həllini təmin etmək və yekun qərar qəbulunu həyata keçirə bilməkdir. Süni intellekt qurğu və cihazların nümayiş etdirdiyi intellektdir [4,s.55].

Süni intellekt termini elmə ilk dəfə 1956-cı ildə ABŞ universitetində Con Makkarti tərəfindən daxil edildi. Süni intellekt hüquq, maliyyə, istehsalat və s. kimi müxtəlif sahələrdə istifadə olunan texnologiyalarda tətbiq edilir. Günümüzdə süni intellektin ən məşhur tətbiq sahəsi isə tibb sahəsidir. Tibbdə istifadə olunan İBM Watson texnologiyası məhz süni intellektə bariz nümunədir [8,s.3].

Süni intellekt daxilində inkişaf edən texnologiyalara misal olaraq Ekspert sistemlərini göstərə bilərik. Ekspert sistemləri süni intellekt sahəsində yaradılmış ən mükəmməl intellektual sistemdir və süni intellekt sahəsinin əsas uğuru hesab olunur. Bu sistemlər insan zəkasının və təcrübəsinin ən yüksək səviyyəsi hesab olunur. İlk ekspert sistemi 1965-ci ildə Kaliforniyada yerləşən Stenford universitetində Edward Feigenbaum və Coşua Lederberg tərəfindən hazırlanmış və cəmiyyətə təqdim olunmuşdur. Bu sistemlərin yaranma tarixi XX əsrin 60-cı illərinə dayansa da inkişafı 1980-ci ildən sonra mümkün

olmuşdur. Feigenbaum süni intellekt sahəsində tanınmış şəxslərdən biridir. O, Stanford universitetində "Bilik Sistemləri Labaratoriyası"nı qurdu.

Ekspert sistemlərinin əsas məqsədi insan ekspertləri əvəz etmək deyil, onları tamamlamaqdır. Problemlərin həllində insan ekspertlərin görmüş olacağı işlərin ekspert sistemləri tərəfindən görülməsi daha məqsədəuyğundur. Bu zaman həm vaxt itkisinin qarşısı alınır, həm də bu sistemlər insan ekspertlərdən daha cəld işləyirlər [10].

Ekspert sistemləri insan zəkası və təcrübəsi səviyyəsində hər hansı bir sahədə mürəkkəb problemləri həll etmək üçün yaradılmış, insan mütəxəssisi kimi qərar qəbul etmək qabiliyyətinə malik olan kompüter proqramlarıdır. Ekspert sistemləri problemlərin həllində istifadəçilərə "Niyə?" və "Nə üçün?" suallarını verməklə qərar qəbul edən sistemlərdir. Ekspert sistemləri ekspertlər və mütəxəssislər tərəfindən hazırlanmış olsalar belə sonda ekspertlərdən daha yaxşı işləyə bilirlər. Ekspert sistemlərinin hər biri müəyyən biliyə əsaslanır və süni intellektin bir növüdür. Süni intellektlə müqayisədə ekspert sistemlərinin tək fərqi bu sistemlərin daha effektiv olmasıdır. ES-nin əsas məqsədi müəyyən bir sahədə olan ən mürəkkəb məsələləri həll edə bilməkdir. Bu sistemlər problemləri həll etmə və qərar qəbul etmə işlərini istifadəçilərin sorğularına uyğun olaraq əsaslandırma və nəticə çıxarma qaydalarından istifadə edərək və bilik bazasından biliklər çıxarmaqla həyata keçirir. Ekspert sistemlərinin təşkil olunduğu biliklər ekspertlərdən alınmış olan biliklərdir və bu biliklər sayəsində ekspert sistemləri insan ekspertləri təqlid edə bilirlər. ES biliklər əsasında qurulmuş ilk kommersiya sistemləridir. Bu sistemlər mürəkkəb qərar qəbul etmə problemlərini həll edə bilmək üçün həm faktlardan, həm də evristikadan istifadə edir. ES müəyyən bir sahədə təcrübəyə malik olan bir insanın və ya təşkilatın mühakimə və davranışını simulyasiya etmək üçün süni intellekt texnologiyalarından istifadə edən sistemlərdir. Ekspert sistemləri yaradılarkən müxtəlif ümumi təyinatlı proqramlaşdırma dillərindən istifadə olunub. Bu sistemlərin yaradılmasında ən çox istifadə olunan dillər isə LISP və Prolog dilləri olmuşdur. Yaxşı ekspert sistemi problemi dəqiq, tez, düzgün həll edir və istifadəsi də olduqca asandır.

Ekspert sistemlərinin əsas tətbiq sahələri - tibbi diaqnostika, mühasibat uçotu, kodlaşdırma, oyunlar və s. bu kimi bir çox sahələrdir [9].

Ekspert sisteminin daxili strukturunu üç əsas hissədən ibarət olduğunu demək düzgün olar. Bu hissələr – bilik bazası, verilənlər bazası və qaydalar tərcüməçisidir. Bu forma insan mütəxəssisdə olan istehsal sisteminin analoqudur: - istehsalat dəsti, iş yaddaşı və qayda tərcüməçisi.

Ekspert sistemlərinin üç əsas komponenti mövcuddur: nəticə çıxarma mühərikki, bilik bazası, istifadəçi interfeysi.

Bilik bazası toplanmış olan faktların anbarı kimi qəbul edilir. Bu komponent bütün bilikləri özündə saxlayır və müxtəlif peşə istiqamətlərinin mütəxəssislərindən əldə edilən biliklərin toplusudur.

Nəticə çıxarma mühərriki ekspert sistemlərin beyni hesab olunur. Bu mühərrik müəyyən problemləri həll etmək üçün yararlı olan qaydalar toplusunu özündə saxlayır. Bilik bazasında olan məlumatlar haqqında əsaslandırmanı təmin edir və istifadəçilərin sorğularına cavab verərkən tətbiq edəcəyi qaydaları və faktları bilik bazasından seçir.

Bu komponent qarşıya qoyulmuş problemin həlli istiqamətində nəticə çıxarır.

Sonuncu komponent olan İstifadəçi İnterfeysi Ekspert sistemlərinin vacib hissəsi hesab olunur. Bu komponent istifadəçinin sorğusunu sistemin başa düşəcəyi formada qəbul edir və növbəti mərhələdə nəticə mühərrikinə göndərir. Daha sonra isə nəticə mühərrikindən almış olduğu nəticələri istifadəçiyə göstərir. Məhz buna görə də ekspert sistemlərinin vacib komponenti hesab olunur. Bu komponent istifadəçi ilə ekspert sisteminin əlaqəsini təmin edən komponentdir.

Ekspert sistemlərinin bu üç komponentini nümunə üzərində izah edək. Avtomatlaşdırılmış Bankomatlar (ATM) Ekspert sistemlərinin bir nümunəsidir. Bu sistem müştəri ilə qarşılaşdıqda bank işçisinin yəni insan ekspertinin yerinə yetirəcəyi hərəkətləri yerinə yetirir.

Müştəri pul kartını bankomata saldıqda ilk öncə istifadəçi interfeysi müştərinin daxil etdiyi əmrləri sistemin başa düşəcəyi şəklə salır və nəticə mühərrikinə göndərir. Nəticə mühərriki Biliklər bazasında olan biliklərə əsasən lazım olan qaydalar toplusunu seçir və həyata keçirir. Bundan sonra müştəri bankomata daxil etdiyi miqdarda pulu oradan çıxara bilir.

Bu cür ekspert sistemləri həm banklarda olan növbələrin qarşısını alır, həm də müştəri və bank işçilərini artıq vaxt itkisindən azad edir.

Bütün ekspert sistemlərinin əsas üstün cəhətləri düzgün qərar qəbul etmə, ardıcıllıq, sürətlilik və etibarlılıqdır.

Ekspert sistemlərinə aşağıdakı texnologiyaları misal göstərə bilərik:

MYCIN – bu texnologiya tibb sahəsində geniş istifadə olunur. Bu texnologiyanı yaratmaqda əsas məqsəd kəskin infeksiyalara səbəb ola biləcək bakteriyaları müəyyən edə bilmək idi. Həmçinin bu sistem insanın çəkisini nəzərə alaraq ona dərman tövsiyyə edə bilir [5,s.3].

Dendral – kimya sahəsində istifadə edilən ekspert sistemdir. Bu sistem molekulyar quruluşu proqnozlaşdıra bilir.

SHINE – NASA tərəfindən real vaxt və qeyri-real sistemlərin kəşfi, diaqnostikası, monitorinqi, təhlili və s. məsələlərin həlli üçün nəzərdə tutulmuş ekspert sistemdir.

PXDES – tibb sahəsində istifadə olunan növbəti bir ekspert sistemidir. Ağciyər xərçənginin növünü və dərəcəsini müəyyənləşdirə bilir.

CaDet – xərçəngi erkən mərhələdə müəyyən edə bilən ən yaxşı texnologiyadır.

XCON – kommunikasiya texnologiyaları sahəsində istifadə olunan bir sistemdir. Bu texnologiya kompüter sistemlərinin konfiqurasiyası və şəbəkə sistemlərinin fərdiləşdirilməsi üçün nəzərdə tutulub.

Google – daha çox maşın öyrənməsinin istifadəsi ilə getdikcə çoxyönlü hala gələn ekspert sistemidir.

Ekspert sistemləri həmçinin proqram təminatı, mühəndislik, insan – kompüter münasibətləri, fərdi metodlar, biliklərin əldə edilməsi və təqdim edilməsində istifadə olunan texnologiyalar ilə də məşğul olur.

Ekspert sistemlərinin əsasən aşağıdakı xüsusiyyətləri təsnif edilir:

- Ekspert sistemlərinin yüksək performans səviyyələri var;
- Ekspert sistemləri asan başa düşüləndir;
- Ekspert sistemləri tamamilə etibarlıdır və s.

İndi isə ekspert sistemlərinin öhdəliklərinə baxaq:

- Cəld reaksiya – ekspert sistemlər istifadəçi ilə çox qısa bir müddət ərzində əlaqə qurur. Ekspert sistemlərinin istifadəçi ilə məşğul olduğu vaxt, insan ekspertin müştəri ilə məşğul olduğu vaxtdan az olmalıdır.
- Etibarlılıq – ekspert sistemləri etibarlı olmalı və bu sistemlərdə səhv olmamalıdır.
- Çeviklilik – ekspert sistemləri vaxt itkisi etməmək üçün çevik olmalıdır.
- Effektiv mexanizm – ekspert sistemlərində mövcud biliklər toplusunu idarə etmək üçün səmərəli mexanizm olmalıdır.

Ekspert sistemlərinin öhdəkilərindən əlavə bu sistemlər istifadəçilərə ən yüksək səviyyədə təcrübə təklif edir. Problemlərin həllində səmərəli, dəqiq və yaradıcı yollar təklif edirlər. Çətin qərarların və problemlərin həllinə qadirdirlər.

Hər bir sistemdə olduğu kimi ekspert sistemlərinin də müsbət cəhətləri olduğu kimi, çatışmayan cəhətləri də var; - ekspert sistemlərində qərar qəbul edilərkən sağlam düşüncədən istifadə olunmur, bu da bəzi problemlərin həllində effektiv nəticələr verməyə bilər. İnsan ekspertlərin verə biləcəyi yaradıcı cavabların ekspert sistemləri tərəfindən təmin olunmaması onun daha bir mənfi cəhətidir. İnsan ekspertlərin verdikləri cavablar əsaslandırılmış və məntiqi izah olunmuş olur, ancaq ekspert sistemlərdə bəzən bu tələb də ödənməyə bilər.

Bu sistemlərin üstün və çatışmayan cəhətlərini nəzərə alaraq deyə bilərik ki, bu sistemlərin səmərə verə bilməsi üçün onlar yüksək dəqiqliyə malik olmalıdırlar.

## Nəticə

1. Süni intellekt sistemlərinin hansı vəzifələri yerinə yetirdiyini bilməklə bu cür sistemlərin bu günün və gələcəyin sistemləri olduğunu demək mümkün olar.

2. Ekspert sistemlərinin yaranma səbəblərini və qurulma prinsiplərini təyin etməklə, bu sistemlərin öhdəliklərini müəyyənləşdirmək olar.

3. Ekspert sistemləri haqqında dərin biliyə malik olduqdan sonra bu sistemləri təhsilə tətbiq etmək mümkün olar.

***Ədəbiyyat***

1. *Kərimov S.Q., Rəhimova N.A. "Ekspert sistemləri". Bakı: Çaşıoğlu, 2004.*
2. *Kərimov S.Q. İnformatika sistemləri. Bakı: Elm, 2008.*
3. *Bernard Marr "Artifical İntelligence in Practice".*
4. *Betül Akalın "Sağlık Hizmetleri ve Yönetiminde Yapay Zeka".*
5. *Peter Lucas, Linda van der Gaag "Principles of Expert Systems", 1991.*
6. *Joseph C. Giarratano, Gary Riley "Expert Systems Principles and Programming", 1989.*
7. *Margaret. A. Boden "Artifical İntelligence", 1996.*
8. *Lasse Rouhiainen "Artifical İntelligence 101 Things You Must Know Today about Our Future", 2018.*
9. *http://www.academia.edu/5971912/ Expert Systems in Real World Business.*
10. *https://www.techtarget.com "What is an Expert System?".*

**İ.A.Süleymanova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***incisuleymanova801@gmail.com***

# VII SİNİF AZƏRBAYCAN TARİXİ DƏRSLƏRİNDƏ ŞAGİRDLƏRDƏ FORMALAŞDIRILAN İNFORMASİYA KOMPETENSİYALARI

***Xülasə***

*Bu məqalə VII sinif Azərbaycan tarixi dərslərində şagirdlərdə formalaşdırılan informasiya kompetensiyalarından bəhs edir. Məqalədə kompetensiya nədir, növləri hansılardır, informasiya kompetensiyaları nədən ibarətdir və bütün bunları şagirdlərdə necə formalaşdırmaq olar. Bütün bunlar haqqında xarici alimlərin fikirləri araşdırılmış və mövzu geniş şəkildə şərh edilmiş, aydınlaşdırılmışdır.*

# ИНФОРМАЦИОННЫЕ КОМПЕТЕНЦИИ, ФОРМИРОВАННЫЕ У УЧАЩИХСЯ НА УРОКАХ ПО ИСТОРИИ АЗЕРБАЙДЖАНА VII КЛАССА

***Резюме***

*В данной статье рассказывается об информационных компетенциях, сформированных у учащихся VII класса на уроках истории Азербайджана, что такое компетенции, каковы ее виды, что такое информационные компетенции и как все это можно сформировать у учащихся. Рассмотрены мнения зарубежных ученых обо всем этом, широко осмыслена и уточнена тема.*

# INFORMATION COMPETENCIES FORMED IN STUDENTS IN THE CLASS VII AZERBAIJAN HISTORY LESSONS

***Summary***

*This article talks about the information competencies formed in students in the 7th grade Azerbaijani history classes. In the article, what is competence, what are its types, what are information competencies and how can all these be formed in students. The opinions of foreign scientists about all this have been examined and the topic has been widely interpreted and clarified.*

***Açar sözlər:*** *bacarıq, müəllimin bacarığı, peşəkar kompetensiya, rəqəmsal kompetensiya, kompetensiya, informasiya kompetensiyası*

***Ключевые слова:*** *умения, мастерство учителя, профессиональная компетентность, цифровая компетентность, компетентность, информационная компетентность*

***Key words:*** *skill, teacher's skill, professional competence, digital competence, competence, information competence*

Kompetensiya nədir? - verilən tapşırıqları səmərəli yerinə yetirmək üçün lazım olan bacarıq bilik və təcrübənin məcmusudur [2, s. 56].

Kompetensiyaya əsaslanan təhsil ilk dəfə XX əsrin 70-ci illərində ABŞ-da (Massaçusets Universiteti) formalaşmışdır. 1965-ci ildə N.Xomskinin təklif etdiyi konsepsiya ilə təhsil kompetensiyalarının əsası qoyulmuşdur. Avropa Şurası "gənc avropalıların mənimsəməli olduğu" 5 əsas kompetensiyanı müəyyən etmişdir:

1. Siyasi və sosial kompetensiyalar – qrup qərarlarının qəbulunda iştirak etmək, məsuliyyəti öz üzərinə götürmək, münaqişələri həll etmək bacarığı, demokratikliyin yaranmasında və təkmilləşməsində iştirak;
2. Multikultural cəmiyyətdə və ya mədəniyyətlərarası səlahiyyətlərlə bağlı kompetensiyalar - tolerantlıq, başqalarına hörmət, insanlar arasında fərqləri qəbul etmək, multikulturalizm, davamlılıq;
3. İş və sosial həyat üçün xüsusilə vacib olan komunikativ kompetensiyalar;
4. Cəmiyyətin artan informasiallaşması ilə bağlı kompetensiyalar-informasiya texnologiyalarına sahib olmaq, başa düşmək və tətbiq etmək;
5. Ömür boyu təhsili əsas götürüb həyat boyu öyrənmə bacarığı [5, s. 6-7].

A.V.Xutorskoy kompetensiyaları 7 hissəyə ayırır. Bunlar aşağıdakılardır:

1. Təhsilin ümumi (meta-mövzu) məzmununa aid olan kompetensiyalar. Bu səlahiyyətlər təhsil və digər fəaliyyət situasiyalarında tələbənin öz müqəddəratını təyinetmə mexanizmini təmin edir;
2. Ümumi mədəni kompetensiyalar - milli və ümumbəşəri mədəniyyət sahəsində bilik və təcrübə, insan həyatının mənəvi və əxlaqi əsasları bəşəriyyət, ayrı-ayrı xalqlar, kult fəaliyyətləri, elm və dinin insan həyatında rolu; məişət, mədəni və istirahət sferasında bacarıqlar;
3. Tədris və idrak kompetensiyaları - məntiqi, metodiki, ümumi təhsil fəaliyyətinin elementləri daxil olmaqla, müstəqil idrak fəaliyyəti sahəsində şagird kompetensiyalarının məcmusu. Buraya məqsəd qoyma, planlaşdırma, təhlil, əks etdirmə, özünüqiymətləndirmənin təşkili yolları daxildir;
4. İnformasiya kompetensiyaları - təhsil fənlərində və təhsil sahələrində, eləcə də ətraf aləmdə informasiya ilə bağlı fəaliyyət bacarıqları;

5. Kommunikativ kompetensiyalar - dil bilikləri, ətrafdakı və uzaq insanlar və hadisələrlə qarşılıqlı əlaqə üsulları; qrupda, komandada işləmək bacarığı, müxtəlif sosial biliklər;
6. Sosial və əmək kompetensiyaları - vətəndaş, müşahidəçi, seçici, nümayəndə, istehlakçı, alıcı, müştəri, istehsalçı, ailə üzvü rolunu oynaması. İqtisadiyyat və hüquq məsələlərində, peşə öz müqəddəratını təyinetmə sahəsində hüquq və vəzifələr;
7. Şəxsi özünütəkmilləşdirmə kompetensiyaları - fiziki, mənəvi və intellektual özünüinkişaf, emosional özünütənzimləmə və özünə dəstək yollarının mənimsənilməsinə yönəlmişdir [6, s. 10-11].

D.M.Musayevin fikrincə, müəllim olmaq özündə bir çox məqamları birləşdirir. XX yüzilliyin sonu XXI yüzilliyin əvvəllərində müəllimlik sənətinə tələblər də dəyişib. Müəllimlər yeni postmodern zəmanəyə uyğunlaşmalıdır. Müəllimin peşəkar kompetensiyası olmalıdır, bunların içində şəxsi (bəzi şəxsiyyət xüsusiyyətlərinə malik olmaq) və texnoloji (tarixin tədrisinin müasir metodlarına malik olmaq) kompetensiyanı misal göstərmək olar. O, müəllimin mühüm xüsusiyyətlərini sadalayır: daim özünü təkmilləşdirmək, özünütəhsil, özünütənqid, məqsədyönlülük, yeni texnologiyalara yiyələnmə və s. müəllim təkcə öz fənnini yaxşı bilən şəxs deyil, həm də psixoloji və pedaqoji kompetensiyalara malik olan peşəkardır. Sinifdə müəllimlər kompetensiyaların komponentlərinə malikdirlər və onlar şagirdləri nəinki gələcəyə hazırlamaq, həm də indiki zamanda yaşamağı öyrətmək üçün müəllim təhsil baxımından bu kompetensiyaların necə mənimsənilməsini şagirdlərə öyrətməlidir [3, s.25-28].

D.M.Musayev qeyd edir ki, müasir dünyada insan həyatının və cəmiyyətin bütün sahələrini dəyişdirəcək informasiya inqilabı baş verir. Distant təhsil zamanın tələblərinə cavab verir, davamiyyət tələb etmir və hətta ənənəvi təhsilin ödəyə bilməyəcəyi vaxt və səylərə qənaət edir. Bütün dünyada distant təhsil xüsusilə ali təhsil sistemində geniş yayılmışdır və müasir təhsilin tərkib hissəsidir. Statistikaya görə, distant təhsili seçən tələbələrin əksəriyyəti 25 yaşdan yuxarı insanlardır. Ümumiyyətlə, distant təhsil vaxt çatışmazlığını daha çox hiss edən və işini itirmədən peşəkar biliklərini genişləndirmək istəyən böyüklər tərəfindən seçilir. Məhz distant təhsil problemləri həll etmək üçün nəzərdə tutulmuş təhsil kompetensiyasıdır. Distant təhsili nəzərə alsaq, onun digər səlahiyyət növləri ilə, məsələn, İKT kompetensiyaları ilə əlaqəsi göz qabağındadır. Elmi-pedaqoji ədəbiyyatı təhlil edən müəllif göstərdi ki, A.V.Xutorskoy, V.V.Kraevski, E.F.Zeer, I.A.Qış, N.V.Brit, M.N.Skatkin, İ.Y.Lerner, Y.B.Rubin, B.S.Gerşunski, D.L.Titarev, A.A.Verbitski, V.İ.Baydenko, H.G.Əhmədov, E.Əliyev, İ.İsmayılov, L.Bayramova və

başqaları mövzunu tətqiq ediblər. İKT kompetensiyası aşağıdakı səlahiyyətlərin cəmidir:

1. İnformasiya və kommunikasiya kompetensiyası;
2. İnformasiya axtarışı kompetensiyası;
3. İnformasiya və analitik kompetensiya;
4. Özünü təkmilləşdirmə və özünü inkişaf etdirmək üçün informasiya kompetensiyası;
5. İnformasiyanın mühafizəsi (informasiya təhlükəsizliyi) üzrə informasiya kompetensiyası;
6. İnformasiya-qiymətləndirici (refleksiv) kompetensiya.

Distant dərslərin proqramı tələbənin interaktiv rejimdə tədris-metodiki materialları müstəqil öyrənməsi əsasında qurulur. Nəzarət formaları test, fərdi tapşırıqlar və tədqiqat işləri ola bilər. Tədris prosesinə metodist-təşkilatçı rəhbərlik edir. Xarici alimlərin bu sahədə apardıqları tədqiqatların nəticələrini ümumiləşdirərək, informasiya səriştəsinin strukturunu aşağıdakılara bölmək olar:

1. Motivasiya komponenti - İKT ilə işləməyin vasitələri və üsullarının öyrənilməsinə marağın olması;
2. Şəxsi komponent - tələbənin informasiya səriştəsini mənimsəmək üçün müstəqil və səmərəli fəaliyyətə hazır olmasıdır;
3. İdrak komponenti - informasiya fəaliyyətinin məqsədləri, informasiyanın əldə edilməsi, emalı və saxlanması üsulları haqqında biliklər;
4. Praktiki-fəaliyyət komponenti - bacarıqlar, yaradıcı təcrübə fiziki fəaliyyət və İKT alətlərindən istifadə;
5. Emosional-iradi komponent - bunlar təşkilatçılıq, nizam-intizam, əzmkarlıq, müstəqillik, qətiyyət, təşəbbüskarlıq və s. kimi iradi keyfiyyətlərdir;
6. Dəyər-semantik komponent informasiyanın əhəmiyyətinin dərk edilməsində, İKT alətlərindən istifadədə ifadə olunan ən aparıcı və sistem formalaşdıran komponentdir [1, s. 27-29].

Vilfried Sühl-Strohmengerin fikrincə, bir neçə alt kompetensiyalar və rəqəmsal səriştə rəqəmsallaşdırma ilə bağlı kompetensiyalar altında ümumiləşdirilə bilər ki, bunlar texnoloji tərəfə aiddir - aparat və proqram təminatı, eləcə də tətbiqi proqramlarla işləmək bacarığı və bacarıqları, müstəqil proqramların və vasitələrin öz məqsədləri və layihələri üçün istifadəsi, habelə rəqəmsal obyektlərin və proqramların sosial əhəmiyyətinə görə istifadə edərkən tənqidi əks etdirilməsi. Təcrübə, həm də rəqəmsal transformasiya zamanı istifadə olunan alətlərə, eyni zamanda rəqəmsal məkanlara və ölçülərə idrak yanaşmalarını da əhatə edir. Hartman/Hundertpfund vurğulayır - xüsusilə

məktəb təhsili ilə bağlı - rəqəmsal dünyada bilik və anlayış səviyyəsindən əlavə, tənqidi və çevik düşüncə, mədəni və sosial ölçü, abstraktlaşdırma və modelləşdirmə qabiliyyəti, rəqəmsal alətlərdən istifadə, yaradıcı və məhsuldar düşüncə, qeyri-rəsmi və öz müqəddəratını təyin edən öyrənmə və virtual əməkdaşlığa dair fikir rəqəmsal kompetensiyanın bir hissəsidir [4, s. 736].

Vilfried Sühl-Strohmenger öz məqaləsində informasiya kompetensiyasını yeni bir mərhələyə daşımış və onu müasir kitabxanalarla əlaqələndirmişdir. Akademik kitabxanalar rəqəmsal kompetensiyaların inkişafına töhfə verirlər, yəni informasiya və medianı bütün formalarda axtarmaq, tapmaq, seçmək, qiymətləndirmək, təhlil etmək və məhsuldar şəkildə emal etmək bacarıqlarından danışırıq [4, s. 730]. Bunuda qeyd edək ki, korona pandemiyası rəqəmsal öyrənmə resurslarının istifadəsinə təşviq etdi, uzunmüddətli də effekt verdi. Tələbələrin elmi işləri və bilik əldə etmələri üçün xüsusilə kitabxananın təqdim etdiyi media ehtiyatları, rəqəmsal və xarici informasiya resurslarına çıxış, onların tədqiqi, ciddiliyi baxımından seçilməsi və qiymətləndirilməsi ilə bağlı yüksək araşdırmalar olmalıdır. Bütün bunlar üçün də tələbə və şagirdlər informasiya, yəni rəqəmsal kompetensiyalara yiyələnməlidirlər [4, s. 734-735].

Şagirdlərdə informasiya kompetensiyalarını necə formalaşdıracağımızı 7-ci sinif Azərbaycan tarixi dərsliyində "Mərkəzləşdirilmiş vahid Azərbaycan dövləti" mövzusunun timsalında aydınlaşdıraq. Mövzunun İKT ilə öyrədilməsində ilk növbədə müəllimin PoverPoint və MİMO proqramlarında işləmə bacarığı olmalıdır, eyni zamanda dərsin rahat gedişi və məlumatların bütün şagirdlər tərəfindən görülə bilməsi üçün proyektordan istifadə olunmalıdır. Dərsin ilkin mərhələsində müəllim elektron lövhədə I Şah Təhmasib və I Şah Abbasın oxşar və fərqli cəhətlərini əks etdirən Venn diaqramı qurur və qruplar halında olan şagirdlər öz düzgün variantlarını lövhədə qeyd edirlər. Tədqiqatın aparıldığı mərhələdə bütün qruplar kompüterlə təchiz olunublarsa, 6-7 dəqiqəlik müddətdə öz araşdırmalarını apara bilərlər. Bütün bu sadalananlar İKT vasitələrindən istifadədir və bu kompetensiyalar ilk öncə müəllimlərdə olmalı daha sonra davamlı istifadə nəticəsində bu kompetensiyalar şagirdlərdə formalaşdırılmalıdır.

**Mövzunun elmi yeniliyi.** 7-ci sinif Azərbaycan tarixi dərslərində şagirdlərdə formalaşdırılan informasiya kompetensiyalarından bəhs edilir.

**Mövzunun nəzəri əhəmiyyəti.** 7-ci sinif Azərbaycan tarixinin tədrisində informasiya kompetensiyalarından istifadənin nəzəri əsaslarının tətqiq edilərək müəyyənləşdirilməsidir. Müəyyənləşdirilmiş həmin müddəalar məktəblərdə tarixin tədrisi metodikası elminin nəzəri əsaslarının zənginləşməsinə xidmət edir.

**Mövzunun praktik əhəmiyyəti.** Məqalənin məzmunundan və onun nəticələrindən magistrantlar və ali məktəbin Azərbaycan tarixi müəllimləri gündəlik pedaqoji fəaliyyətlərində istifadə edə biləcəklər.

**Nəticə:** Beləliklə, 7-ci sinif Azərbaycan tarixi dərslərində şagirdlərdə formalaşdırılan informasiya kompetensiyaları məqalədə öyrənilərək ümumiləşdirilmişdir. İlk öncə bu kompetensiyaları şagirdlərdə formalaşdırmaq üçün müəllimlərin bu kompetensiyalara sahib olması lazımdır. Məqalədə çoxsaylı tətqiqatçıların fikir və müddəalarından istifadə edilərək şagirdlərə çatdırılması üçün müəllimlərin sahib olması lazım olan kompetensiyalar sistemləşdirilmişdir. Həmçinin kompetensiya mövzusunda müasir istiqamətlərə toxunulmuş, distant təhsil və müasir kitabxanalar haqqında da tədqiqatçıların fikirləri tədqiq edilərək ümumiləşdirilmişdir.

***Ədəbiyyat***

1. *Мусаев. Д.М. ИКТ-компетенции будущего учителя истории как фактор повышения качества дистанционного образовани (с. 26-33). Сборник научных статей по итогам работы Межвузовского научного конгресса Том 2 Москва, 2020.*
2. *Sultonov Sherzod Elmuratovich. Pedagogikada Kompetentsiya Tushunchasi. Scientific Journal (elmi jurnal). VOLUME 2 (cild 2) s.55-59, Özbəkistan, Qo'qon davlat pedagogika institute, July 2022.*
3. *Мусаев. Д.М. Образовательные компетенции – как основной критерий для будущих преподавателей истории Азербайджана (с. 25-30). Научие Известия №21, Декабрь 2020.*
4. *Sühl-Strohmenger Vilfried. Digitale Kompetenz, Informationskompetenz, Medienkompetenz, Datenkompetenz, Schreibkompetenz ...? Was sollen wissenschaftliche Bibliotheken fördern und für wen? Digital Literacy, Information Literacy, Media Competence, Data Competence, Writing Skills ... – What are Academic Libraries expected to promote and for whom? 2022; 56(12): p. 729–751*
5. *Иванов Д.А. Компетентности и компетентностный подход в современном образовании. М.: Чистые пруды, 2007.*
6. *Хуторской. А.В. Педагогические основания диагностики и оценки компетентностных результатов обучения, Москва, 2013.*

**A.R.Yaqubova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***ayselyaqubova1998@gmail.com***

# ALİ TƏHSİLDƏ RİYAZİYYAT VƏ İNFORMATİKANIN İNTEQRASİYA ASPEKTLƏRİNİN ƏSASLARI

***Xülasə***

*İxtiyari dərs öz strukturu ilə birgə o zaman inteqrasiyalı dərs adlanır ki, onun keçirilməsində digər elmlərin, digər tədris predmetlərinin bilik, bacarıq, öyrənilən materialın tədqiqinin nəticələri cəlb edilir.*

# ОСНОВЫ ИНТЕГРАЦИОННЫХ АСПЕКТОВ МАТЕМАТИКИ И ИНФОРМАТИКИ В ВЫСШЕМ ОБРАЗОВАНИИ

***Резюме***

*Факультативный урок вместе с его структурой называется интегрированным уроком, когда он включает в себя результаты знаний, умений и навыков, а также изучение других предметов других наук, других учебных предметов.*

# FUNDAMENTALS OF INTEGRATION ASPECTS OF MATHEMATICS AND INFORMATICS IN HIGHER EDUCATION

***Summary***

*An optional lesson, together with its structure, is called an integrated lesson when it involves the results of the knowledge, skills, and study of other subjects of other sciences, other educational subjects.*

**Mövzunun aktuallığı:** Təhsilə inteqrasiyalı yanaşmanın metodiki əsasları ətraf aləm və onun tam qanuna uyğunluqları haqqında biliklərin formalaşması, həmçinin elmin əsaslarının öyrənilməsində predmetlər daxili və predmetlər arası əlaqələrin müəyyənləşməsidir.

**Mövzunun elmi yeniliyi:** İnteqrasiya ideyaları təhsildə differensasiya proseslərinin başlanması ilə əlaqədar son vaxtlar intensiv nəzəri və praktik tədqiqatların predmeti olmuşdur. Bunun indiki mərhələsi empirik istiqamətlər-

müəllimlər tərəfindən yaradılan və həyata keçirilən inteqrasiya olunmuş dərslər, həmçinin nəzəri, bir sıra hallarda ali texniki təhsil müəssisəsinin tədris planında öyrənilməsi nəzərdə tutulan fənlərin birləşdirilməsi kimi inteqrasiya kurslarının yaradılması və təkmilləşdiriməsi ilə səciyyəvidir.

**Mövzunun nəzəri əhəmiyyəti:** Təhsil müəssisəsinin məzunu olan mütəxəssis öz praktiki iş sahəsində mövcud məsələləri lazımı riyazi aparat və hesablama texnikasının köməyi ilə həll etməyə əsaslar verir.

**Mövzunun praktiki əhəmiyyəti:** Təhsilə inteqsiyalı yanaşmanın metodiki əsasları ətraf aləm və onun tam qanunauyğunluqları haqqında biliklərin formalaşması, həmçinin elmin əsaslarının öyrənilməsində predmetlərdaxili və predmetlərarası əlaqələrin müəyyənləşməsidir.

Ali texniki təhsil müəssisəsinin məzunu olan mütəxəssis öz praktiki iş sahəsində mövcud məsələləri lazımi riyazi aparat və hesablama texnikasının köməyi ilə həll etməyi bacarmalıdır. Ona görə də riyaziyyat fənni kompüterlərin istifadəsi ilə tam ümumtexniki və xüsusi fənlər toplusunun öyrənilməsi üzrə tələbələrin professional təhsil əldə edilməsinin əsası olmalıdır.

Riyaziyyatın öyrənilməsinin tətbiqi istiqamətlərinin problemləri müxtəlif ixtisaslar üçün bir sıra elmi tədqiqatlarda baxılmışdır. Ənənəvi olaraq riyaziyyatın öyrənilməsinin tətbiqi istiqamətlərinin həyata keçirilməsi predmetlərarası mahiyyət daşıyan məsələlərin bilavasitə həlli, peşəkar fəaliyyətin müxtəlif sahələrində riyazi üsulların tətbiqinin göstərilməsi, riyazi obyektlərin predmet mahiyyətinin nümayişi kimi yerinə yetirilir.

Müasir dövrdə bu tədris fəaliyyətinin köklü intensivləşməsi üçün münbit şərait yaranmışdır. Kompüter texnologiyasının imkan verdiyi hesablama, qrafik, vizual, arayış-informasiya xarakterləri professional fəaliyyətin müxtəlif sahələrinə aid olan tətbiqi məsələlərin həllində ümumi yanaşmaların formalaşmasini reallaşdırır. Bu da öz növbəsində riyaziyyatın öyrənilməsi keyfiyyətini nəzərə çarpacaq dərəcədə artırır.

Ali təhsil müəssisələrində riyaziyyatın öyrənilməsinin tətbiqi istiqamətləri nəzərə alınmalıdır:

1. Ümumtexniki və xüsusi ixtisaslarda riyaziyyatın tətbiqinin tərkibi və öyrənilmə üsullarındakı yanaşmaların tələbələrin peşəkar hazırlığına uyğunluğunu;
2. Riyazi kursun struktur və tərkibinin özəlliklərini.

Predmetlərarası tərkibli məsələ-iqtisadi, fiziki və texniki şərtləri qeyi-standart şərtlərin formallaşmasının qavranma və bacarığının əldə edilməsi effektivliyinin, tələbələrin öyrənmə marağının artırılmasına kömək edən tədqiq edilən riyazi aparatın aktuallaşması, mənimsənilməsi və tətbiqi üçün nəzərdə tutulan məsələdir.

*Tətbiqi məsələ* - tədqiq edilən riyazi aparatın tətbiqi sahələrdə istifadə edilməsinin öyrənilməsi üçün nəzərdə tutulan məsələdir. Bu məsələnin qeyri-riyazi-iqtisadi, fiziki, və texniki şərtləri riyazi modelin optimal seçilməsi üçün xüsusi sahələrdən lazımı biliklər tələb edir.

İnteqrasiya ideyaları təhsildə differensasiya prosesslərinin başlanması ilə əlaqədar son vaxtlar intensiv nəzəri və praktik tədqiqatların predmeti olmuşdur. Bunun indiki mərhələsi empirik istiqamətlər - müəllimlər tərəfindən yaradılan və həyata keçirilən inteqrasiya olunmuş dərslər, həmçinin nəzəri, bir sıra hallarda ali texniki təhsil müəssisəsinin tədris planında öyrənilməsi nəzərdə tutulan fənlərin birləşdirilməsi kimi inteqrasiya kurslarının yaradılması və təkmilləşdiriməsi ilə səciyyəvidir.

İnteqrasiya bir tərəfdən ayrı-ayrı fənlər üzrə elmi biliklərin dağınıqlığını dəf etməklə "mövcud varlığı tam şəkildə göstərmək", digər tərəfdən yuxarıda göstərilənlər əsasında azad olunan tədris vaxtından təhsildə ixtisaslar üzrə differensasiyanı tam həyata keçirmək üçün istifadə edilir. Başqa sözlə, praktiki nöqteyi nəzərdən inteqrasiya predmetlər arası əlaqələrin güclənməsinə, tələbələrin dərslə yüklənməsinin azaldılmasina, tələbələrin məlumatalınma sahəsinin genişlənməsinə, təhsilalma maraqlarının möhkəmlənməsinə xidmət edir.

Təhsilə inteqrasiyalı yanaşmanın metodiki əsasları ətraf aləm və onun tam qanunauyğunluqları haqqında biliklərin formalaşması, həmçinin elmin əsaslarının öyrənilməsində predmetlərdaxili və predmetlərarası əlaqələrin müəyyənləşməsidir.

İxtiyari dərs öz strukturu ilə birgə o zaman inteqrasiyalı dərs adlanır ki, onun keçirilməsində digər elmlərin, digər tədris predmetlərinin bilik, bacarıq, öyrənilən materialın tədqiqinin nəticələri cəlb edilir.

İnteqrasiyalı dərslərin onların təşkili əlaməti ilə ümumi təsnifatı aşağıdakı şəkildə olmaqla inteqrasiya pillələri ierarxiyasının tərkib hissələrinə daxildir:

1. Dərsin təşkili və keçirilməsi müxtəlif fənlər üzrə iki və daha çox müəllim tərəfindən yerinə yetirilir;
2. Dərsin təşkili və keçirilməsi müxtəlif fənlər üzrə baza hazırlığı olan bir müəllim tərəfindən yerinə yetirilir;
3. Bu əsasda inteqrasiyalı mövzu, bölüm və nəhayət kursların yaradılması.

Riyaziyyat və informatikanın inteqrasiya ideyası demək olar ki, ali məktəb və orta məktəblərdə informatika kursunun daxil edilməsi ilə eyni vaxtda yarandı. Bundan əlavə uzun müddət riyaziyyat və informatikaya bir təhsil sahəsinin elementləri kimi baxılırdı. Lakin reallıqda riyaziyyat və

informatikanın heç bir inteqrasiyası baş vermədi. Belə ki, abstrakt riyaziyyat və informatika xeyli fərqlənirdi.

İnformatika və riyaziyyat çoxplanlı elmi fənlərdir. Texnoloji aspektdə informatikanı "computer science" elminə yaxın fənn kimi, təbiət elmli fənn kimi və nəhayət, müxtəlif formallaşmış və formal dilləri öyrənən dilyönümlü fənn kimi baxmaq olar. Riyaziyyata gəlincə abstrakt, nəzəri çoxluq, tətbiqi riyaziyyat, universal riyaziyyat dilləri haqqında danışmaq olar. Bu aspektlər arasında fərqlər kifayət qədərdir. Məsələn, tətbiqi riyaziyyat - ümumiyyətlə, predmetyönümlü abstrakt riyaziyyat deyil, abstrakt riyaziyyatın prinsip və üsullarından fərqli olan öz prinsip və üsulları olan sahədir.

Ona görə də riyaziyyat və informatikanın dərk edilməsinin başqa aspektlərinə keçsək, məsələn "dil" aspektinə, bu sahələrin xeyli inteqrasiyası, beləliklə də müxtəlif ixtisaslar üzrə tələbələrin informasiya-riyaziyyat hazırlığının artırılması üçün imkanların olduğunu görərik.

Ancaq faktiki olan odur ki, əksər ali təhsil müəssisələrində riyaziyyat və informatikanın tədrisi əvvəlki kimi ya ayrıca keçirilir, ya da riyazi məsələlərin həllində istifadə edilən müxtəlif proqram vasitələrinin istifadəsində inteqrasiya olunur.

Ona görə də müasir dövrdə informasiya-riyaziyyat hazırlığı sistemində yeni öyrənmə mahiyyəti axtarışı aktual məsələ olaraq qalır. Lakin bu yeganə məsələ deyil: təkcə yeni mahiyyət deyil, həm də metodik sistemin yeni strukturu zəruridir.

Təhsilin keyfiyyəti əksər hallarda metodik öyrənmə sisteminin hansı prinsiplər üzərində qurulması ilə təyin edilir.

Müasir dövrdə metodik öyrənmə sisteminin vacib xüsusiyyəti, daxili komponentlərin - təhsilin məqsəd, mahiyyət, vasitə və formaları, həmçinin onlar arasında informasiya əlaqələri - daxili dinamikası vasitəsi ilə təzahür edən açıqlıqdır. Bu cür şəraitdə mütəxəssislərin hazırlığı səviyyəsinin keyfiyyət təminatı bütün təhsil sisteminin modernləşdirilməsini tələb edir.

Metodik sistemin ənənəvi "ciddi" strukturu həyata keçirilmə prosesində onun digər komponentlərinin mümkün dəyişmələrini nəzərə almır. Sistemin effektiv fəaliyyətinin əsas prinsipinin - fəaliyyət şərtlərinin, məxsusi informasiya mühitinin tez dəyişilməsi şərtlərinin adekvatlığının pozulması baş verir. Beləliklə, müasir dövrdə təhsilin metodik sistemi açıqlıq və özünü təşkiletmə əsasında qurulmalıdır.

***Ədəbiyyat***

1. *Əliyev A.H. Riyazi proqramlaşdırma. Dərs vəsaiti - Bakı, İqtisad Universiteti, 2010, 476 s.*

2. *Ə.M.Abbasov, M.N.Əlizadə, E.V.Seyidzadə, İ.K.Musayev, informatika və kompüterləşmənin əsasları, "Səda", Bakı - 2012, 944 s.*
3. *Seyidov M.İ., Yusifov R.F. Modelləşdirmə və ədədi üsullar. Dərs vəsaiti. - Bakı, Şirvannəşr, 2009.*
4. *Qurbanov İ.Ə., Qurbanov A.İ. Riyazi proqram paketləri. Bakı - 2005 -168s.*
5. *Кремер Н,Ш., Исследование операций в экономике, -М, ЮНИТИ 2002-407 с.*
6. *Курицкий Б. Поиск оптимальных решений средствами MS Excel 7.0. - СПб.: BHV - Санкт-Петербург, 2011. - 384 с.*

**T.E.Bəybalayeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**turkan.beybalayeva.99@mail.ru**

# İNFORMASİYA TƏHLÜKƏSİZLİYİNİN İNKİŞAFI VƏ TƏHLÜKƏSİZLİYİN NÖVLƏRİ

***Xülasə***

*Məqalədə informasiya təhlükəsizliyinin inkişafı və təhlükəsizliyin növləri müzakirə olunur. Müxtəlif təhlükəsizlik növləri aydın şəkildə göstərilir. İnformasiyanın qorunması yolları sadalanır.*

# РАЗВИТИЕ ИНФОРМАЦИОННОЙ БЕЗОПАСНОСТИ И ВИДОВ БЕЗОПАСНОСТИ

***Резюме***

*В статье рассматривается развитие информационной безопасности и видов безопасности. Различные типы безопасности четко отображаются. Перечислены способы защиты информации.*

# DEVELOPMENT OF İNFORMATİON SECURİTY AND TYPES OF SECURİTY

***Summary***

*The article examines the development of information security and types of security. Different types of security are clearly displayed. Information protection methods are listed.*

***Açar sözlər:*** *təhlükəsizlik, informasiya axını, təhlükəsizlik siyasəti, informasiya mübadiləsi, şəbəkə*

***Ключевые слова:*** *безопасность, информационный поток, политика безопасности, инфор-мационный обмен, сеть*

***Key words:*** *security, information flow, security policy, information exchange, network*

İnformasiya təhlükəsizliyini təmin etmək üçün tarix boyu müxtəlif təhlükəsizlik üsullarından istifadə edilmişdir. Bu gün demək olar ki, bütün qurumlar öz ehtiyaclarına uyğun informasiya axını təmin etmək üçün informasiya infrastrukturu yaratmağa başlayıblar. İndiki vaxtda informasiya sistemlərindən daha çox məlumat əldə etmək və saxlamaq kimi adi işlərdə

istifadə olunur. Biznesin informasiya aktivlərinin artırılması və mühafizəsi həmin biznesi rəqabət mühitində bir addım irəli aparır. Qurumlar getdikcə kritik dəyərə çevrilən informasiyanı daxili və xarici təhdidlərdən qorumaq və zədələnməsinin qarşısını almaq üçün informasiya təhlükəsizliyi siyasəti və təcrübələri yaratmalıdır. İnformasiya təhlükəsizliyinin dəyişdirilməsi və inkişafı informasiya təhlükəsizliyinin təmin edilməsində izlənilən üsulların başa düşülməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Keçmişdən bu günə qədər informasiya təhlükəsizliyini təmin etmək məqsədilə fiziki və ekoloji təhlükəsizlik, rabitə təhlükəsizliyi, kompüter təhlükəsizliyi, şəbəkə təhlükəsizliyi, tətbiqlərin təhlükəsizliyi, verilənlər bazası təhlükəsizliyi, veb təhlükəsizliyi kimi mövzularda araşdırmalar aparılmışdır.

İnformasiya təhlükəsizliyini təmin etmək üçün qeyd olunan təhlükəsizlik tədbirləri birlikdə nəzərdən keçirilməlidir. Bu tədbirlər aşağıdakı alt başlıqlarda ardıcıllıqla izah edilmişdir.

**Fiziki və ekoloji təhlükəsizlik**

Təhlükəsizlik hər zaman insanları maraqlandıran məsələ olub. Keçmişdə insanlar üçün vacib məlumatlar müxtəlif işarəli qaya və daşlar üzərində oyma və sonra onları mədənlərə çevirməklə saxlanılırdı. Daha sonra ağaclara, dərilərə, daha sonra kağıza yazılaraq fiziki təhlükəsizliyi olan mühitlərdə saxlanılır. Bu gün bu yazı virtual mediada işlənir. Fiziki təhlükəsizliyin təmin edilməsi məqsədi ilə divarlar tikilmiş, qalalar və arxlar çəkilmiş, divarlar hörülmüş, giriş-çıxışa nəzarət edən mühafizəçilər növbə çəkmişlər. İnformasiyanın təhlükəsizliyini təmin etmək üçün fiziki tədbirlər görülsə də, bu mühafizələr ümumilikdə kifayət etməmiş, məlumatın oğurlanması və ya ona icazəsiz girişin qarşısı alınmamışdır.

Bu gün fiziki təhlükəsizlik öz əhəmiyyətini qoruyub saxlayır və bu mövzuda lazımı araşdırmalar aparılır. Məsələn, binanın ətrafına hündür divarların və ya lövbərlərin çəkilməsi, binanın girişində xüsusi mühafizə dəstələrinin olması, mühüm məlumatların saxlandığı otaqların kilidlənməsi və ya bu otaqların şifrəli təhlükəsizlik sistemləri ilə daxil olması, binanın giriş-çıxışına nəzarət və ətrafı kameralarla istifadə olunur. Fiziki və ekoloji təhlükəsizlik təcrübədə informasiya təhlükəsizliyi baxımından qiymətləndirildikdə bu, quruma icazəsiz girişin qarşısının alınması və informasiya aktivlərinin oğurluq və ya təhlükədən qorunması kimi qəbul edilə bilər. Mövzu ilə bağlı bir sıra əsərlər indi standart hal alıb. Bu işlər aşağıda ümumiləşdirilmişdir. Bu işlərin həyata keçirilməsi informasiya təhlükəsizliyi baxımından zəruridir.

- İnformasiya emalı xidmət mərkəzlərini qorumaq üçün fiziki sərhəd təhlükəsizliyi obyekti (səlahiyyət tərəfindən idarə olunan kart sistemi, mühafizə işçiləri və s.) quraşdırılmalıdır.

• Fiziki sərhəd təhlükəsizliyi informasiya aktivlərinin təhlükəsizlik ehtiyaclarına və risklərin qiymətləndirilməsi prosesinin nəticələrinə uyğun olaraq qurulmalıdır.

• Müəssisə daxilində müəyyən yerlərə yalnız səlahiyyətli şəxslərin daxil olmasına imkan verən nəzarət mexanizmləri yaradılmalıdır.

• Ziyarətçilərin giriş və çıxış vaxtları qeyd edilməlidir.

• Vacib və həssas məlumatları ehtiva edən sahələr icazəsiz giriş üçün bağlanmalıdır.

• Bütün işçilər və ziyarətçilər təhlükəsizlik işçiləri tərəfindən asanlıqla tanınmasına imkan verəcək şəxsiyyət vəsiqələri taxmalıdırlar.

• Təhlükəsiz ərazilərə giriş hüquqları mütəmadi olaraq nəzərdən keçirilməlidir.

• Ofislər və otaqlar üçün fiziki təhlükəsizlik tədbirləri görülməlidir.

• Personalın təhlükəsizliyi və sağlamlığı ilə bağlı qaydalar həyata keçirilməlidir.

• Kritik obyektlər asanlıqla əldə edilə bilməyən yerlərdə yerləşdirilməlidir.

• Binada informasiya emalı fəaliyyətinin həyata keçirildiyini göstərən işarələr və s. olmamasına diqqət yetirilməlidir.

• Məlumat mərkəzlərinin yerini ehtiva edən daxili və xarici telefon kataloqları ictimaiyyət üçün bağlı olmalıdır.

• Xarici və ətraf mühit təhdidlərindən qorunmalıdır.

• Yanğın, sel, zəlzələ, partlayış və digər təbii fəlakətlər və ya sosial qarışıqlığın nəticəsi mümkün zədələrə qarşı fiziki mühafizə tədbirləri görülməli və tətbiq edilməlidir.

• Qonşu obyektlərin potensial təhlükələri nəzərə alınmalıdır.

• Yedəklənmiş material və ehtiyat sistemləri əsas obyektdən kifayət qədər uzaqda yerləşdirilməlidir.

• Təhlükəsiz ərazinin mövcudluğu və ya orada həyata keçirilən müxtəlif fəaliyyətlərlə bağlı personal və üçüncü tərəf işçiləri üçün "lazım olduqda bilin" prinsipi tətbiq edilməlidir.

• Səsyazma cihazlarının təhlükəsiz ərazilərə gətirilməsinin qarşısı alınmalıdır.

• İstifadə olunmayan təhlükəsiz sahələr mütəmadi olaraq bağlanmalı və yoxlanılmalıdır.

• Zərərli cəhdlərin qarşısını almaq üçün təhlükəsiz ərazilərdə işlərə nəzarət edilməlidir.

• Məlumatların emalı xidmətləri, paylama və yükləmə sahələri və icazəsiz şəxslərin obyektlərə daxil ola biləcəyi nöqtələr bir-birindən təcrid olunmalıdır.

- Avadanlıq yerləşdirmə edərkən ekoloji təhdidlər və icazəsiz girişdən yarana biləcək ziyan minimuma qədər yükləmək üçün öyrənilməlidir.
- Avadanlıq elə yerləşməlidir ki, lazımsız giriş minimuma endirilsin.
- Tərkibində kritik məlumatlar olan alətlər elə yerləşdirilməlidir ki, icazəsiz şəxslər onları müşahidə edə bilməsin.
- Xüsusi mühafizə tələb edən avadanlıq təcrid olunmalıdır.
- Rütubət və temperatur kimi parametrlərə nəzarət edilməlidir.
- Oğurluq, yanğın, tüstü, partlayıcı maddələr, su, toz, vibrasiya, kimyəvi maddələr, elektromaqnit şüalanma, sel kimi potensial təhlükələrdən yaranan riskləri azaldan nəzarət tədbirləri həyata keçirilməlidir.
- İldırımötürən istifadə edilməlidir.
- Məlumat emalı avadanlığının yaxınlığında yemək, içmə və siqaret çəkməyi tənzimləyən qaydalar olmalıdır.
- Elektrik, su, kanalizasiya və kondisioner sistemləri dəstəklədikləri İT departamenti üçün kifayət qədər olmalıdır.
- Elektrik şəbəkəsinə lazımsız qoşulma, fasiləsiz enerji təchizatı və avadanlığın elektrik nasazlığından qorunması tədbirləri görülməlidir.
- Ehtiyat generator və generator üçün kifayət qədər yanacaq mövcud olmalıdır.

**Rabitə təhlükəsizliyi**

Qarşılıqlı informasiya mübadiləsi üçün təhlükəsiz kommunikasiya mühitinin yaradılması məqsədilə həyata keçirilən fəaliyyətlərin ümumi adı rabitə adlanır. Rabitə zamanı informasiyanın təhlükəsizliyinin fiziki olaraq təmin edilməsi təhlükəsizlik baxımından kifayət deyil. Ünsiyyət zamanı məlumatın digər insanlar tərəfindən tutulması və məzmunun hədəfə çatmazdan əvvəl öyrənilməsi riski həmişə mövcuddur. Rabitə təhlükəsizliyini təmin etmək üçün istifadə edilən üsullar tarix boyu dəyişməyib, lakin bu təhlükəsizliyi təmin etmək üçün istifadə olunan texnika və üsullar davamlı olaraq təkmilləşib. Rabitə təhlükəsizliyini təmin etmək üçün kriptoqrafiya və steqanoqrafiya üsullarından istifadə olunur. Məlumatda verilənlərin saxlanması mənasını verən steqanoqrafiya yunanca “gizli yazı” və ya ünsiyyətin varlığını gizlədən üsul kimi tanınır. Kriptoqrafiya gizli mesajı anlaşılmaz edir, yəni mesajın varlığı bilinir, lakin məzmunu başa düşülə bilməz. Kriptoqrafiya mesajın məzmununu anlaşılmaz edirsə, steqanoqrafiya mesajı görünməyəcək şəkildə gizlədir.

Kriptoqrafiya, məlumatları yalnız oxuması tələb olunanlar tərəfindən oxuna biləcək şəkildə saxlamaq və göndərmək üçün istifadə olunan bir texnologiyadır. Kriptoqrafiyada verilənlər riyazi üsullarla kodlaşdırılır və başqaları tərəfindən oxunmaz hala gətirilir. Bu riyazi kodlaşdırma “kripto

alqoritmlər" adlanır. İlk məlum kripto alqoritmləri təxminən 4000 il əvvəl ortaya çıxdı. Zaman keçdikcə istifadə edilən texnika və cihazlar inkişaf etdirildi və hər gün yeni texnikalar istifadə edildi və yeni alqoritmlər istehsal edildi. Bu texnologiya indi informasiya təhlükəsizliyi üçün əvəzolunmazdır. Şifrələnməmiş informasiya "aydın mətn" adlanır. Aydın mətn insan tərəfindən oxuna bilən mətn və ya icra edilə bilən proqram və ya kompüterin başa düşə biləcəyi məlumat faylı ola bilər - Kripto alqoritmi ilə kodlaşdırılmış məlumat. Hər kəsin oxuya bilmədiyi üsul "şifrəli mətn" dir.

**Kompüter təhlükəsizliyi**

Kompüterlərin yaranması və geniş yayılması ilə demək olar ki, bütün məlumatlar bu gün kompüter mühitlərində saxlanmağa başlamışdır. Fiziki təhlükəsizlik və kommunikasiya təhlükəsizliyindən sonra informasiya təhlükəsizliyinin təmin edilməsi baxımından kompüter təhlükəsizliyi əhəmiyyət qazanmışdır. İlk elektron kompüter yaradılanda fiziki təhlükələrdən başqa təhlükəsizlik problemləri yox idi, çünki savadlı insanlar çox az idi və bu insanlar yalnız iş tələblərini yerinə yetirirdilər. Kompüterlər iş dünyasında istifadə olunmağa başladıqda, haker hücumları və kompüterlərə cavabdeh olan şəxslərin zərərli və mənfəətyönümlü davranışları kompüterlərin təhlükəsizliyini təhdid etməyə başladı. 1970-ci illərin əvvəllərində David Bell və Leonard La Padula kompüter təhlükəsizliyi modelini işləyib hazırladılar. Bu model, 1983-cü ildə ABŞ Müdafiə Nazirliyi bu standart 5200.28-i qəbul etdi və Təhlükəsiz Kompüter Sistemi Qiymətləndirmə Kriteriyalarının (Orange Book) yaradılmasına səbəb oldu.

**Şəbəkə təhlükəsizliyi**

Şəbəkə bir-biri ilə əlaqə saxlayan ikidən çox kompüterdir (simli və ya simsiz). Bu rabitə yan-yana iki kompüter və ya cihaz, internet üzərindən müxtəlif qitələrdə iki kompüter və ya cihaz ola bilər. Şəbəkə mühitlərinin əsasını təşkil edən paylaşma və uzaqdan giriş imkanlarından istifadə nəticəsində yeni təhlükəsizlik zəiflikləri yaranıb. Bu zəifliklər zərərli və ya maraqlı insanlar tərəfindən istifadə olunur. İnformasiyaya icazəsiz giriş, sistem və xidmətlərin əlçatan olmaması, məlumatın dəyişdirilməsi və ya açıqlanması kimi təhlükəsizlik pozuntuları baş verir. Kompüter şəbəkələrinin geniş tətbiqi ilə təhlükəsizlik pozuntuları artıb və informasiya təhlükəsizliyi üçün görüləcək tədbirlər artıb. Kompüterlər bir-biri ilə simli və ya simsiz şəbəkələr vasitəsilə əlaqə qururlar. Simli və simsiz şəbəkə mühitlərinin təhlükəsizliyini təmin etmək üçün müxtəlif həllər işlənib hazırlanmışdır. Bu bölmədə, ilk növbədə, ümumiyyətlə şəbəkə təhlükəsizliyini təmin etmək üçün aşağıda sadalanan əsas həllər izah ediləcək, daha sonra simsiz şəbəkələr üçün hazırlanmış təhlükəsizlik həlləri qeyd ediləcəkdir.

- Təhlükəsizlik divarı;

- Müdaxilənin aşkarlanması sistemləri;
- Müdaxilənin qarşısının alınması sistemləri;
- DOS hücumlarının qarşısının alınması sistemləri;
- Simsiz şəbəkə təhlükəsizliyi həlləri;
- NAC (Network Access Control-Şəbəkə Girişinə Nəzarət) həlləri.

**İnformasiya təhlükəsizliyi**

İnformasiya təhlükəsizliyini təmin etmək üçün əvvəlki bölmələrdə təsvir edilən bütün təhlükəsizlik tədbirləri birlikdə qiymətləndirilməlidir. Bir qurumun və ya təşkilatın mənfəət əldə etmək, dəyər yaratmaq, rəqabət üstünlüyü və davamlı böyümə əldə etmək üçün malik olduğu və ya malik olması lazım olan bütün bazar, məhsul, texnologiya və təşkilati məlumat informasiya aktivləri kimi müəyyən edilə bilər. İnformasiya aktivlərinin fiziki mühafizəsi üçün fiziki təhlükəsizliyi, ötürülmə zamanı məlumatların təhlükəsizliyini təmin etmək üçün rabitə təhlükəsizliyini, kompüterlərimizə girişi idarə etmək üçün kompüter və şəbəkə təhlükəsizliyini təmin etmək lazımdır. İnformasiya təhlükəsizliyinin yüksək səviyyədə təmin edilməsi üçün yuxarıda qeyd olunan təhlükəsizlik növlərinin hamısı mütəşəkkil şəkildə həyata keçirilməlidir.

İnformasiya təhlükəsizliyi məlumatın yalnız ona daxil olmaq üçün səlahiyyətli şəxslər üçün əlçatan olmasını təmin etmək, məlumatın və emal üsullarının düzgünlüyünü və bütövlüyünü təmin etmək və səlahiyyətli istifadəçilərin lazım olduqda məlumat və əlaqəli resurslara çıxışını təmin etmək kimi müəyyən edilir. İnformasiya təhlükəsizliyinin təmin edilməsində riayət edilməli və həyata keçirilməli olan bir çox təhlükəsizlik komponentləri vardır. Hər şeydən əvvəl məxfilik, bütövlük və əlçatanlıq kimi üç əsas prinsipə əməl edərək, daha sonra bu prinsiplərə əlavə olaraq qiymətləndirilə bilən girişə nəzarət, təhlükəsizlik, rəddetmə, etibarlılıq, qeydlərin aparılması və identifikasiya kimi prinsiplərə riayət etməklə, informasiya təhlükəsizliyini yüksək səviyyədə təmin etməyə kömək edir.

**Mövzunun aktuallığı:** Müasir dövrdə informasiya təhlükəsizliyinin inkişafı aktual problemlərdən biridir. Məqalədə bu problemlərin hamısı nəzərdən keçirilir.

**Mövzunun elmi yeniliyi:** Məqalədə informasiya təhlükəsizliyinə dair yeni prinsiplər nəzərdən keçirilmiş və qruplaşdırılmışdır.

**Mövzunun nəzəri praktik əhəmiyyəti:** Məqalədə informasiya təhlükəsizliyinin növləri açıqlanmış və praktiki olaraq bu təhlükəsizliyin praktik yolları göstərilmişdir.

***Ədəbiyyat***

1. *Андреев А.А. Введение в дистанционное обучение: учебно- методическое пособие. -М.: ВУ, 1997.*
2. *Андресва Г.М. Социальная психология. -М., 2006.*
3. *Зайченко Т.П. Основы дистанционного обучения: теоретико-практический базис учебное пособие. -СПб.: Изд-во РГПУ им. И.Герцена, 2004.-167 с.*
4. *Лугин В.Г. Формы и методы Дистанционного обучения. Режим доступа* http://repetitmaster.ru/forms-and-methods-remote-education.html

**R.F.Rzayeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**rzayeva.rena00@gmail.com**

# COĞRAFİYA DƏRSLƏRİNDƏ TƏBİƏTİ MÜHAFİZƏ MƏSƏLƏLƏRİNİN ÖYRƏNİLMƏSİ YOLLARI

***Xülasə***

*Ətraf mühitin mühafizəsi və bərpası günümüzün ən aktual məsələlərindən biridir. Ekoloji problemlərin kəskinləşdiyi bir dövrdə insanlarda ekoloji mədəniyyətin formalaşdırılması mühüm haldır. Təbii ki, bu mədəniyyətin formalaşdırılması üçün məktəb şagirdlərinə fənlərin tədrisində ekoloji biliklər verilməlidir. Məktəb fənlərinin tədrisi prosesində gənc nəslə ekoloji məzmunlu biliklər verilməli, ekoloji tərbiyə aşılanmalıdır. Şagirdlərə təkcə elmi biliklər verməklə kifayətlənməməli, onlarda təbiətə, onun sərvətlərinə düzgün münasibət formalaşdırmaq və vərdişlər yaratmaq əsas məsələ olmalıdır.*

# СПОСОБЫ УЗНАТЬ ВОПРОСЫ ОХРАНЫ ПРИРОДЫ НА УРОКАХ ГЕОГРАФИИ

***Резюме***

*Охрана и восстановление окружающей среды – одна из самых актуальных проблем современности. Важно формировать у людей экологическую культуру в эпоху обострения экологических проблем. Безусловно, для формирования этой культуры школьникам необходимо давать экологические знания при преподавании предметов. В процессе преподавания школьных предметов подрастающему поколению необходимо давать экологические знания и прививать экологическое образование. Недостаточно дать учащимся только научные знания, главное – сформировать правильное отношение к природе и ее ресурсам, сформировать привычки.*

# WAYS TO LEARN ABOUT NATURE CONSERVATION ISSUES IN GEOGRAPHY CLASSES

***Summary***

*Environmental protection and restoration is one of the most urgent issues of our time. It is important to form an ecological culture in people in an era of worsening environmental problems. Of course, in order to form this culture, school students should be given environmental knowledge in the teaching of subjects. In the process of teaching school subjects, the young generation should be given environmental education and knowledge should be inculcated. It should not be enough to give students only scientific knowledge, but the main thing should be to form the right attitude towards nature and its resources and create habits.*

***Açar sözlər:*** *təbiətin mühafizəsi, ekoloji bilik, ekoloji bacarıq, coğrafiya elmi*
***Ключевые слова:*** *охрана природы, экологические знания, экологическая компетентность, наука география*
***Key words:*** *nature conservation, environmental knowledge, environmental competence, the science of geography*

Təbiətin mühafizəsi və bərpası günümüzün ən aktual məsələlərindən biridir. XXI əsr ekologiyanın müasir qlobal probleumlərinin kəskinləşməsi ilə səciyyələnir. Bu gün ekoloji problemlərin həlli bəşəriyyətin böyükdən kiçiyə qədər hamının bu işə cəlb olunmasını tələb edir. Planetimizi ekoloji böhrandan xilas etməyin və onun qarşısını almağın yeganə çıxış yolu isə təbiətə və onun sərvətlərinə cəmiyyətin münasibətinin müsbət istiqamətdə qlobal dəyişməsidir ki, bu da ilk növbədə əhalinin maariflǝndirilməsi hesabına mümkündür.

Azərbaycan Respublikasında və bütünlükdə dünyada ekoloji problemlərin gərginləşdiyi indiki şəraitdə şagirdlərə ekoloji biliklərin verilməsi, ekoloji anlayışların aşılanması təhsilin qarşısında mühüm bir vəzifə kimi durur. Ekoloji tərbiyəyə, ekoloji təfəkkürə malik gənclərin yetişdirilməsi bu gün aktual bir problemə çevrilir. Belə bir vaxtda ekoloji problemləri ətraf mühitin mühafizəsi və sağlamlaşdırılması məsələlərini dərindən öyrənmək və onları fənlərin tədrisi prosesində şagirdlərə öyrətmək hər bir müəllimin müqəddəs borcu olmalıdır.

Ekoloji mühitə və təbii sərvətlərə insanın təsirinin xarakteri onun intellektual səviyyəsindən, ekoloji biliklərindən, tərbiyəsindən, əqidəsindən çox asılıdır. İnsanı şəxsiyyət kimi yetişdirən isə məktəbdir. Məktəb fənlərinin tədrisi prosesində gənc nəslə ekoloji məzmunlu biliklər verilməli, ekoloji tərbiyə aşılanmalıdır. Böyüməkdə olan gənc nəslə təkcə elmi biliklər verməklə kifayətlənməməli, onlarda təbiətə, onun sərvətlərinə düzgün münasibət formalaşdırmaq və vərdişlər yaratmaq əsas məsələ olmalıdır. Bu işdə müəllim və tərbiyəçilərin nümunə olması daha zəruridir.

Ekoloji təhsilin məqsədi və onun təsiri bütün dünyada oxşardır: ətraf mühitin qorunması və keyfiyyətinin yaxşılaşdırılması, yaranan ekoloji problemlərin həllini göstərmək. Məhz ekoloji təhsillə şagirdlər qlobal istiləşməni, çirklənmələri, tullantıların xarakterini, dünyəvi ekoloji problemləri öyrənirlər. Onlar planetimizin sonrakı taleyinin nə ilə nəticələnəcəyinə əmin olurlar; ekoloji problemlərin necə həll olunmasını anlamağa çalışırlar [1, s.32].

Təbiətin mühafizəsi və onun sərvətlərindən istifadə edilməsi böyük əhəmiyyət daşıyır. İnsan təbiətlə heç də sadəcə olaraq bağlı qalmır, onun bir hissəsi - “övladı” olur. Şəxsiyyətin təbiətdəki rolunu anlamaq, onun ətraf mühitlə qarşılıqlı əlaqəsinin prinsiplərini öyrənmək üçün Yer kürəsinin dünəni, bu günü haqqında öyrənmək, gələcəyinə dair proqnoz vermək, insanın təbiətlə qarşılıqlı əlaqəsinin inkişaf tarixi haqqında biliklərə yiyələnmək lazımdır. Ətraf

mühitə münasibət orta məktəblərdə coğrafiya fənninin tədrisində daha geniş öyrənilmişdir. Coğrafiya elmi tarixən təbii və ictimai sistemlərin qarşılıqlı təsir edilməsi qovşağında inkişaf edir. Bu qarşılıqlı təsirin sistemləşdirilməsi və normallaşdırılması təbiətin səbəb-nəticə əlaqələrinin, qanunauyğunnluqlarının mütləq nəzərə alınmasına əsaslanır və müasir elmi-texniki inkişafın vüsət tapmasında öz əksini tapır. Belə halda şagirdlərin təbiəti mühafizə fəaliyyətinin tərbiyə edilməsi planında "Təbiət-insan-cəmiyyət" sistemində təbiətlə qarşılıqlı əlaqələrin təhlili xüsusi əhəmiyyət kəsb edir və məktəbdə coğrafiya elminin ümumtəhsil əsaslarının öyrənilməsi prosesində bu sistem müxtəlif formada əhəmiyyətlidir və tətbiq edilməlidir.

Məktəb coğrafiya kurslarının təbiəti mühafizə fəaliyyətinin seçilməsində aşağıdakı müddəaları rəhbər tutmaq lazımdır:

- Şagirdlərdə müxtəlif sosial-iqtisadi inkişafın ayrı-ayrı mərhələlərində cəmiyyyətlə təbiət arasında konkret spesifik şəkildə təzahür edən tələblərin obyektiv cəhətlərini və tarixən yaranmış qarşılıqlı milli xüsusiyyətlərlə bağlı əlaqə haqqında ideyanın formalaşdırılması;
- Şagirdlərdə təbiəti mühafizə istiqamətində fəaliyyətin psixoloji mahiyyətini dərk etməklə, ətraf mühitlə daim ünsiyyətdə olub fəaliyyət göstərməsi, fəaliyyətin mahiyyətini, onun qanunauyğunluqlarını bilməsi;
- Şagirdlərdə təbiətlə cəmiyyətin qarşılıqlı əlaqəsi baxımından insanların təsiri ilə ətraf mühitin çirklənməsi və antropogen dəyişilməsi sahəsində biliklərinin sistemli surətdə məlumatlandırılması coğrafiya kurslarının əsas məqsədidir.

Ənənəvi dərsliklərin təhlilinə nəzər salsaq görərik ki, ənənəvi dərsliklərdə ətraf mühitin mühafizəsi və bərpasına dair biliklərə hər kursda çox da geniş yer verilməmişdir, sadəcə VIII, IX, X siniflərdə bu məsələlər qabardılmış, dərin məlumatlar göstərilmişdir. Bu da şagirdlərin ekoloji biliklərinin formalaşdırılmasında əksikliklərin yaranmasına gətirib çıxarmışdır. Ona görə də, yeni fənn kurikulumunda dərslikləri hazırlayarkən ekoloji biliklərə bütün kurslarda yer verilmişdir. Müasir dövr ekoloji problemlərin gərginləşdiyi bir dövrdə şagirdlərin aşağı siniflərdən bu biliklərin aşılanması onların ekoloji mədəniyyətinin formalaşmasına ciddi təsir göstərəcəkdir.

XXI əsr elm, texnikanın sürətlə inkişaf etdiyi, daim dəyişən informasiya axını artıq köhnə təhsildən qurtulmağa sövq edirdi. Şagirdlərə sadəcə bilik verməklə yetinməmək, onların öyrəndikləri bilikləri praktikada tətbiq etmək, təhlillər aparmaq kimi bacarıqların formalaşdırılması artıq dövrün tələbi halına çevrilmişdir. Bu da təhsil sahəsində köklü dəyişikliklərin edilməsinə, islahatlar keçirilməsinə səbəb oldu.

Respublikada aparılan təhsil islahatına müvafiq olaraq orta ümumtəhsil məktəblərində tədris proqramlarının yenidən hazırlanmasına başlanıldı.

Coğrafiya fənni üzrə də kurikulumun hazırlanması məktəb coğrafiyasının məzmununda əsaslı dəyişikliklərə səbəb oldu. Bu islahatlar əsasında məktəb coğrafiyasının strukturu ilə yanaşı ayrı-ayrı coğrafiya kurslarının məzmununda və quruluşunda, ən mühüm coğrafi anlayış və təsəvvürlərin seçilməsi və formalaşdırılmasındakı yanaşmalar da müəyyən dəyişikliklərə uğramışdır. Kurikulum islahatından sonra dərsliklər və proqramlar fərqli qaydada məzmun xətləri, standartlara əsasən hazırlanırdı. Coğrafiya kurikulumunda ənənəvidən fərqli olaraq fiziki və iqtisadi coğrafiyanın öyrənilməsinə kompleks şəkildə yanaşılmışdır.

Coğrafiya fənn kurikulumunda inteqrativlik də əsas məsələlərdən biridir. Coğrafi biliklərin verilməsində həm coğrafiya fənninin ayrı-ayrı kurslarına, həm də müxtəlif fənlərə inteqrasiya edilməsi əhəmiyyətlidir. Ətraf mühitin mühafizəsi və bərpasına dair biliklərin verilməsində müəllim həyat bilgisi, biologiya, kimya, fizika fənlərində olan ekoloji biliklərdən istifadə edə bilər. Bu həm şagirdlərin bilik əhatəsinin genişlənməsinə, dərsləri daha asan qavramalarına, həm də fənləri əlaqəli şəkildə öyrənmələrinə kömək edə bilər.

Yuxarıda göstərilənlərdən aydındır ki, coğrafiya fənninin məzmununda əsaslı surətdə dəyişiklik edilmişdir. Ənənəvi coğrafiya proqramından fərqli olaraq fənn kurikulumunda bütün biliklər VI sinifdən XI sinifə qədər sadədən mürəkkəbə doğru işlənmişdir. Ətraf mühitin mühafizəsi məsələlərinə bəlli kurslarda toxunulurdusa, fənn kurikulumunda bütün siniflərdə asandan çətinə doğru, şagirdlərin yaş səviyyəsinə uyğun onların fəaliyyətlərinin inkişafını təmin etmək üçün biliklər göstərilirdi. Yeni dərsliklərin bütün pillələrində ətraf mühitin mühafizəsi, ekoloji biliklərə şagirdlərin səviyyəsinə uyğun yer verilmişdir.

Məzmun standartları şagirdlərə təbiətin mühafizəsinə dair biliklərin verilməsində mühüm əhəmiyyət kəsb edir. Siniflər üzrə ekoloji təhsilin formalaşdırılmasını təmin edən əsas standart Təbiət məzmun xətti üzrə “2.1.Coğrafi təbəqədə baş verən hadisə və proseslərin ekocoğrafi nəticələrini mənimsədiyini nümayiş etdirir” əsas standartıdır. Ekoloji təhsilin formalaşdırılmasını təmin edən Cəmiyyət məzmun xətti üzrə alt standartlar siniflər üzrə dəyişir.

Coğrafiya dərsliklərindəki mətn və mətndənkənar komponentlər şagirdlərin təbiətin mühafizəsinə dair biliklərinin formalaşmasında mühüm rol oynayır. Coğrafiya dərsliklərindəki mətnlərin ilk vəzifəsi məzmun standartlarının reallaşdırılmasıdır. Mətnlər şagirdlərin yaş səviyyəsindən asılı olaraq tərtib edilir və bilik, dil, siyası, psixoloji, pedaqoji ustalıq, tərbiyə, inkişaf etdiricilik baxımından təhlil olunur. Coğrafiya dərsliklərindəki VI-XI siniflər üzrə təbiəti mühafizə üzrə biliklərin verilməsinin mətnlər üzrə təhlilinə nəzər salaq:

VII sinifdə “Yerin canlı təbəqəsi” tədris vahidində “Torpaqların mühafizəsi” mövzusunda torpaqların müxtəlif amillərin təsiri nəticəsində korlanmasından və torpaqların mühafizəsi istiqamətində görülən tədbirlərdən bəhs olunur. Torpaqlar təbii – su, külək temperatur dəyişilməsi və antropogen – torpaqlara həddindən artıq gübrə verilməsi, düzgün suvarılmaması, dağ yamaclarında aqrotexniki qaydalara əməl edilməməsi, otlaq və biçənəklərdə otarılma qaydalarının pozulması, yolların çəkilməsi, faydalı qazıntıların çıxarılması, yaşayış məntəqələrinin tikilməsi nəticəsində korlanır. Torpaqların mühafizəsi istiqamətində rekultivasiya və meliorasiya tədbirləri həyata keçirilir. Şagirdlər torpaqların çirklənmə səbəbləri və torpaqların mühafizəsi istiqamətində görülən tədbirlər barədə məlumatlar alırlar [2, s.106].

VIII sinifdə “Ekoloji mühit və onun mühafizəsi” tədris vahidində “Ətraf mühitin mühafizəsi yolları” mövzusunda ətraf mühitin mühafizəsində müxtəlif yollardan və bu sahədə keçirilən beynəlxalq və regional tədbirlərdən bəhs olunur. Ətraf mühitin mühafizəsi yollarına aşağıdakılar daxildir: tullantıların təkrar emalı, torpaqların rekultivasiyası, təmizləyici qurğuların tikilməsi, yeni texnologiyaların tətbiq edilməsi, dövriyyəli su təchizatı sisteminə keçmək. Şagirdlər ətraf mühitin mühafizə yolları ilə tanış olmaqla onu qorumağın vacibliyini dərk edirlər [3, s.140].

IX sinifdə “Bioehtiyatların müxtəlifliyi və ondan istifadə” tədris vahidində “Ekoloji siyasət” mövzusunda ətraf mühitin ekoloji vəziyyətindən, əhatə etdiyi əraziyə görə ekoloji böhranın formalarından və ekoloji siyasətin məqsəd və vəzifələrindən bəhs olunur. Mövzuda ətraf mühitin ekoloji vəziyyətinin təbii, müvazinət, böhran, faciəli, kollaps səviyyələri anlayışlarını izah edilir və qlobal (istixana effekti), regional (Afrikada səhralaşma), lokal (sənayə tullantıları ilə çirklənmiş su hövzələri) problemlərə dair nümunələr göstərilir. Eyni zamanda ekoloji siyasətin məqsəd və istiqamətləri izah edilir. Ekoloji siyasət ekoloji problemlərin həll edilməsi, təbiətin mühafizəsi məqsədilə dövlətin həyata keçirdiyi tədbirlər sistemidir. Beləliklə, şagirdlər ekoloji siyasət anlayışının mahiyyəti ilə tanış olurlar və təbiətin qorunmasında bilavasitə özləri də iştirak edirlər [4, s.152].

X sinifdə “Elmi-texniki inqilab və iqtisadiyyat” tədris vahidində “Qlobal ekoloji problemlər” mövzusunda qlobal ekoloji problemlərdən və onların həlli yollarından bəhs olunur. Mövzuda qlobal ekoloji problemlərin yaranmasında antropogen təsirin rolu və yerin ayrı-ayrı təbəqələrinin çirklənməsində iqtisadiyyatın sahələrinin təsiri qeyd olunub. Qlobal ekoloji problemlər təbiət və cəmiyyətin qarşılıqlı münasibətlərindən, ətraf mühitin tarazlığının pozulmasından, çirklənmədən, antropogen yüklərin artmasından yaranan problemlərdir. Qlobal ekoloji problemlərə qlobal istiləşmə, səhralaşma, meşə yanğınları, su, torpaq, hava hövzəsinin çirklənməsi, ozon təbəqəsinin

seyrəlməsi aiddir. Ekoloji problemlərin həlli üçün müxtəlif yollar təklif olunur: alternativ enerji mənbələrinə keçid, tullantıların emalı, torpaqların rekultivasiyası, tullantısız texnologiyalara keçid, çirkli təsərrüfat sahələrinin optimal şəkildə yerləşdirilməsi [5, s.275].

XI sinifdə "Təbiətdən səmərəli istifadə" tədris vahidində "Tullantılar və onlardan istifadə" mövzusunda müxtəlif tullantılardan və onlardan səmərəli istifadə yollarından bəhs olunur. Tullantılar ətraf mühiti çirkləndirməklə 2 qrupa ayrılırlar məişət və istehsalat tullantıları. Tullantılardan səmərəli istifadə olunması üçün tullantılar utilizasiya prosesindən keçir. Tullantıların utilizasiyasının əsas istiqamətləri basdırılma, yandırılma, təkrar emal və kompostdur. Bu mövzu şagirdlərin ekoloji maarifləndirilməsi və ekoloji mədəniyyətinin formalaşmasında mühüm rol oynayır, onlarda ətraf mühitə həssas münasibət göstərmək, təbiətin və özünün sağlamlığının qayğısına qalmaq, təmizliyə nəzarət etmək, zibilləri yerə atmamaq vərdişləri formalaşır [6, s.134].

İqtisadi inkişafın istiqamətləri tədris vahidində "Davamlı inkişaf" mövzusunda davamlı inkişafa nail olmağın yollarından və davamlı inkişaf modelinin istiqamətlərindən bəhs olunur. Mövzuda davamlı inkişaf anlayışının mahiyyəti və davamlı inkişafın tənzimlənməsi izah olunur. Davamlı inkişaf modelinin iqtisadi sosial və ekoloji istiqamətləri mövcuddur. Ekoloji istiqamətə ətraf mühitin qorunması, ekosistemin bərpası, ekoloji problemlərin həll olunması daxildir. Davamlı inkişaf ətraf mühitin qorunmasını, təbii ehtiyatlardan səmərəli istifadəni, aztullantılı və tullantısız texnologiyaların tətbiqini, ixtisaslı kadrların hazırlanmasını və əhali məşğulluğunun artırılmasını nəzərdə tutur.

***Ədəbiyyat***

1. *Göyçaylı Ş.Y. Ətraf mühiti mühafizə. Dərs vəsaiti. Bakı, NBM, 2008, 278 səh.*
2. *Qəribov Y., Seyfullayeva N., Hümbətova Ş., İsmayılova T. Ümumtəhsil məktəblərinin 7-ci sinifi üçün coğrafiya dərsliyi. Bakı - 2014, 144 səh.*
3. *Zakir Eminov., Qabil Səmədov., Aygün Əliyeva. Ümumtəhsil məktəblərinin 8-ci sinifi üçün coğrafiya dərsliyi. Bakı, Xəzər etiket, 2015, 191 səh.*
4. *E.Əlizadə., N.Seyfullayeva., Y.Şabanova., İ.Aktoprak. Ümumtəhsil məktəblərinin 9-ci sinifi üçün coğrafiya dərsliyi. Bakı, 2016, 203 səh.*
5. *Y.Qəribov., O.Alxasov., Ş.Hüseynli., M.Babayeva. Ümumtəhsil məktəblərinin 10-ci sinifi üçün coğrafiya dərsliyi. Bakı, Bakı nəşr, 208 səh.*
6. *N.Seyfullayeva., Z.İmrani., Y.Şabanova. Ümumtəhsil məktəblərinin 11-ci sinfi üçün coğrafiya dərsliyi. Bakı, Bakı nəşr, 208 səh.*

**Y.V.Cəfərbəyli**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
***yusif.cafar@mail.ru***

# SOSİAL VƏ MƏDƏNİ SAHƏLƏRİN İQTİSADİYYATI

***Xülasə***

*Sosial sahələrin idarə olunması bu sahələrin əhalinin həyat səviyyəsinin formalaşmasında rolu ilə müəyyənləşir. İdarəetmə prosesi məqsədlərə nail olmaq üçün mövcud imkanlar olan səmərəli istifadə etmək yollarını hazırlamaq, onları tətbiq etməklə iqtisadi cəhətdən səmərəli regionların seçilməsi ilə baş verir. Sosial sfera insanın və mövcud şəraitin, əlverişli tələbatın ödənilmə variantlarının elmi əsaslarla proqnozlaşdırılması metodologiyasına əsaslanır. Ona görə də idarəetmədən əvvəl sosial proqnozlar verilir. O cümlədən əhalinin həyat səviyyəsinin yüksəldilməsi, mənzil-kommunal, iş şəraitinin yaxşılaşdırılması təhsil və mədəni səviyyənin yüksəldilməsi məqsədlərinə uyğun lazım olan yolların və tədbirlərin hazırlanması ilə baş verir.*

# ЭКОНОМИКА СОЦИАЛЬНО-КУЛЬТУРНОЙ СФЕРЫ

***Резюме***

*Управление социальными территориями и уровнем жизни населения этих территорий определяется его ролью в его формировании. Процесс управления для достижения целей разработать способы эффективного использования имеющихся у них возможностей это происходит путем выбора экономически эффективных регионов путем его применения. Социальное Сфера - наука о человеке и существующих условиях, вариантах удовлетворения благоприятных потребностей на основе методологии прогнозирования. Таким образом, управление социальные прогнозы даются до того, как их делают. В том числе уровень жизни населения воспитательная, жилищно-коммунальная, улучшение условий труда, образовательная и культурная необходимые пути и меры в соответствии с целями повышения уровня происходит с подготовкой.*

# ECONOMICS OF SOCIAL AND CULTURAL AREAS

***Summary***

*Management of social areas and the standard of living of the population of these areas is defined by its role in its formation. Management process to achieve goals to develop ways to effectively use existing opportunities for them it happens by choosing economically efficient regions by applying it. Social The sphere is the science of human and existing conditions, options for meeting favorable needs based on the methodology of forecasting. Therefore, management social forecasts are given before making. Including the standard of living of the population raising, housing-communal, improving working conditions, educational and cultural the necessary*

*ways and measures in accordance with the goals of raising the level happens with the preparation.*

***Açar sözlər:*** *sosial sfera, mədəni sahə, maddi istehsal, əmək resursları*
***Ключевые слова:*** *социальная сфера, сфера культуры, материальное производство, трудовые ресурсы*
***Key words:*** *social sphere, cultural sphere, material production, labor resources*

Bazar iqtisadiyyatına keçidin mütəşəkkil, davamlı və kompleks şəkildə həyata keçirilməsi günümüzdə sosial mədəni sahələrin fəaliyyətində çox önəmli vəzifələr müəyyənləşdirir.

Cəmiyyətin inkişafının müasir mərhələsində tələblərin çoxu maddi nemətlər istehsalı hesabına, qalan hissəsi isə sosial sferaya aid edilən insan fəaliyyəti nəticəsində təmin edilir. Sosial sferanın müstəqil bir sahə kimi ayrılması XIX əsrin axırı XX əsrin əvvəlində, tarixi inkişaf nəticəsində maddi nemətlər istehsal edən sahələrdən fərqlənən təsərrüfat və əmək sahələrinin formalaşması zamanı baş vermişdir.

Sosial sfera - sosial proses subyektlərinin durmadan təkrar istehsalı zərurətindən doğan obyektiv tələbatın yaratdığı, cəmiyyətə məxsus bütöv, daim dəyişməkdə olan bir altsistemdir. Başqa sözlə bu, insanın öz həyatını təkrar istehsal edən fəaliyyət sahəsidir, cəmiyyətin sosial funksiyasını həyata keçirən fəzasıdır. Burada insanın sosial və vətəndaş hüquqları reallaşır. Onun fəaliyyət göstərməsi obyektiv qanunlarla müəyyənləşdirilir və sosial idarəçiliyin müəyyən prinsiplərinə əsaslanır.

Sosial mədəni sahələr xalq təsərrüfatının vacib sahələrindən biri olmaqla yanaşı, insan həyatının maddi və mənəvi mühitinin yaxşılaşdırılmasına istiqamətlənmişdir. Odur ki, bu baxımdan onun formalşması bir tərəfdən əhalinin yerləşdirilməsi prosesi ilə əlaqədar olmaqla, həm də onların həyat şəraitini daha da (təhsil, mədəniyyət, incəsənət, ticarət, mənzil şəraiti, tibb xidməti və s.) yaxşlaşdırılmasına böyük imkanlar yaradır.

Maddi istehsal fəaliyyətinin mahiyyətini insanlar arasında baş verən maddələr mübadiləsi təşkil edir. İnsanla təbiət arasında maddələr mübadiləsini təmin etməyən başqa fəaliyyət növləri maddi istehsal sferasından kənarda qalır və sosial sferanı təşkil edir. Sosial sfera, sosial proses subyektlərinin durmadan təkrara istehsalı zərurətindən doğan obyektiv təlabatın yaratdığı cəmiyyətə məxsus bütün tam bir alt sistemdir. Başqa sözlə bu insanın son həyatını təkrar istehsal edən fəaliyyət sistemidir. Cəmiyyət sosial funksiyanı həyata keçirən fəzasıdır. Burada insanın və sosial vətəndaş hüquqları reallaşır. Onun fəaliyyət göstərməsi obyektiv qanunlarla müəyyənləşdirir və sosial idarəçiliyin müəyyən prinsipinə əsaslanır. Sosial sfera əşya prosesual ideya və insani cəhətli zəruri komponentlər dəstəsinə malikdir. Bunlara sosial infrastruktur və onların

istehsal etdiyi istehlak məhsulları təhsil səhiyyə sosial və məişət xidmətləri prosesini sosial sfera idarəetmə orqanları və institutları əhalinin istehlakçı davranışı mexanizmi və normativ tənzimlənməsi bazasını əhatə edir.

Bazar iqtisadiyyatının aparıcı ölkələri təhsil, mədəniyyət, səhiyyə, turizm və istirahət, yaşayış - komunal təsərüffatı və ekologiya kimi sahələrin funksiyalarının effektiv yerinə yetirilməsinə diqqəti artır. Bu sahələr birgə sosial sfera adlanır. Bazar iqtisadiyyatı inkişaf etdikcə sosial sferada öz növbəsində inkişaf edir. Sosial-iqtisadi proqnozlaşmasının istiqamətinin əsas məqsədi ondan ibarətdir ki, gələcəkdə həmin sahələrin perspektivini öyrənmək, real iqtisadi prosesləri idarə etmək inkişafın məqsədini formalaşdırmaq, digər tərəfdən optimal planları hazırlamaq, hal-hazırdakı real vəziyyəti qiymətləndirməkdir. Sosial sfera – bu milli təsərüffatın sahələrinin bazasıdır. Bu əhalinin həyat keyfiyyətinə və rifahının səviyyəsinə birbaşa təsir edir. Bazar iqtisadiyyatı ölkələrində sosial sferaya hər gün böyük investisiyalar yatırılır. Həmin artımların tərkibinə maddi, əmək və maliyyə resursları aiddir.

Azərbaycanda sosial sferanın sahələrinin inkişafı ləng baş verir. Azərbaycanın müstəqillik əldə edən hələ gənc ölkə olduğunu nəzərə alsaq, bunu başa düşmək olar. Müasir cəmiyyətdə sosial sferanın rolunu dərk etmək bizim üçün hələ tam dərəcədə nail olunmayıb. Sosial-iqtisadi irəliləyişin, iqtisadiyyatın sosial orientasiyasının keyfiyyətində onun rolunun əsas faktorlarından biri olmasını anlamamaq, şübhəsiz, iqtisadi reforma üsullarını tormozlaşdırır.

Sosial sferanın əsas sahələrindən birini təhsil tutur. O işçilərin inkişafının, savadlığın, intelektuallığın və cəmiyyətin ruhi potensialının artmasına istiqamətlənib. İstehsalat əməyində təhsil vacib rol oynayır. XXI əsrin əvvələrində uğurlu sosial cəmiyyətin inkişafı yüksək keyfiyyətli işçi qüvvəsi, yüksək səviyyəli təhsilə və peşəkar hazırlığa malik olmağı tələb edir. Yüksək keyfiyyətli işçi qüvvəsi milli məhsulun həcminin artımını, məhsulun keyfiyyətinin artımını, məhsulun keyfiyyətinin qalxmasını resurslardan qənaətlə istifadəni  və s. təmin edir.

Sosial - mədəni sahələrin idarə olunma mexanizminin makro və mikro səviyyələrdə araşdırılması, sosial bölmənin maliyyələşdirilməsi və idarə edilməsində, həmçinin dövlət və qeyri-dövlət bölmələrinin qarşılıqlı fəaliyyətinin optimallaşdırılmasını tələb edir.

Sosial – mədəni sahələr öz mahiyyəti etibarı ilə sosial tələbatı ödəmək üçün fəaliyyət göstərən sahələdir. Sosial mədəni sahələrin məqsədi və vəzifəsi xidmət tələbatını ödəmək və onu təşkil etməkdən ibarətdir. Hər bir xidmət sahəsinin özünə xas olan obyektiv məqsədi, resursu, bütövlükdə mövcud imkanları vardır. Bu imkanların səfərbər olunub istifadə olunması idarəetmənin başlıca vəzifəsidir. Beləliklə, idarəetmənin məqsədi mövcud olan imkanlar

şəraitində maksimum rasional fəaliyyət formasını təşkil etmək deməkdir. İdarəetmə prosesində hər bir sosial sahənin özünəməxsus məqsədi mövcuddur. Məsələn: mədəni xidmət sahələrindən, məişət obyektlərindən, kommunal sahələrindən, səhiyyə, təhsil, mədəniyyət və digərlərinin hər birinin konkret resursları daxilində məqsədi formalaşır. Bu məqsədə nail olmaq yolları axtarılır və bu yolların ən uyğun variantı idarəetmənin optimal təşkilini müəyyənləşdirir. İdarəetmənin məqsədinə uyğun olaraq idarəetmə obyektinin təşkilatı quruluşu formalaşır. Məsələn: hər bir sahənin daxili strukturu ayrı-ayrı alt sistemlər, fərqli resurslar və bu resurslardan istifadə mexanizmləri, bütövlükdə vahid idarəetmə strukturunu meydana gətirir. Onu da qeyd edək ki, Azərbaycan iqtisadiyyatının makro iqtisadi-sosial vəzifələri bu gün hər bir sosial obyektin idarə olunmasının müasir prinsiplərini müəyyən edir. İdarəetmədə az məsrəflərlə minimum vaxt ərzində qarşıya qoyulmuş məqsədə çatmaq yolları araşdırılır. İdarəedilən sahələr və idarəetmə funksiyaları birgə vəhdət təşkil etməlidirlər. İdarəetmə iqtisadi ədəbiyyatda və təcrübədə forma və məzmunca təsnifatlaşdırılır. Məsələn: idarəetmənin obyektləri funksional təyinatına görə təsnifatlaşdırılır. Ayrı-ayrı sahələr üzrə idarəetmənin təşkili, ərazilər üzrə idarəetmə və hər hansı konkret əşya, əmtəə və xidmətə görə idarəetmə sistemləri yaradılır. Ola bilsin ki, bunların hər birində konkret meyar göstəricilər sistemi mövcuddur. Lakin onların ümumi bir cəhəti həmin obyektlərə yanaşma prinsiplərindədir. Sosial mədəni sahənin təşkili prinsipləri aşağdakılardır:

1. Məqsədyönlü strukturların təşkili prinsipi, yəni idarəetmə funksiyası və vəzifəsi, onun əsas təşkilati quruluşu bu məqsədin ətrafında formalaşır. Hər bir obyektin ali fəaliyyət məqsədi formalaşdırılır. Bu məqsəd iqtisadi və sosial effekt baxımından qiymətləndirilir. Bütün mümkün variantlardan ən effektivlisi tapılır.

2. İdareətmə prosesi həm iqtisadi cəhətdən, həm də sosial səmərə baxımından effektli təşkil olunmalıdır. İqtisadi cəhətdən daha ucuz strukturaya malik olunmalıdır, sosial cəhətdən isə daha dolğun, daha geniş tələbata, ehtiyyatlara münasib olmalıdır. Buna görə də hər bir idarəetmə layihəsi tərtib olunarkən onun xərclər smetası ilə idarəetmə nəticəsində alınan iqtisadi effekt müqayisə olunur, qiymətləndirilir.

3. İdarəetmə prosesində sosial sahələrin ərazi və sahə prinsipləri uzlaşdırılmalıdır. Yeni hər bir təşkil olunan idarəetmə obyekti həm ərazinin mənafeyi baxımından qorumalıdır, həm də sahənin inkişafına uyğun olmalıdır.

4. İdarəetmə müxtəlif variantlarda olmalıdır. Hər bir variant eyni məqsədə nail olmağın müxtəlif resursların istifadəsi nəticəsində alınan effektin səmərəliliyini üstünlüklə qiymətləndirir. Variant səmərəli olduqda son nəticə kimi qəbul olunub, real təcrübədə istifadə olunur. Fərqli variantların ən yaxşısı optimal variant hesab olunur. Optimal variant idarəetmə qərarlarının

formalaşmasına deyilir. O iqtisadi cəhətdən daha səmərəlidir. Texniki, psixoloji forma və digər parametrlərinə görə başqa variantlarla müqayisədə sərfəlidir və sosial tələbat sisteminə uyğundur. Optimal idarəetmə prinsipləri kimi, həyatda bütün resurslar məhdud saydadır. Onlardan daha səmərəli istifadə etmək üsullarının tamamlanması və əsaslandırılması hər zaman tədqiqat obyektidir. Bu anlamda əsaslandırılan məqsədə nail olmaq üçün bu resurslardan istifadənin ən səmərəli yolu tapılır. Məsələn: bütün resursların tərkibində neçə faiz canlı əmək, yeni texnologiya, yeni keyfiyyətli son məhsul və digər tərkib elementlər tapılır. Beləliklə, üstünlüklə qiymətləndirilir. Variant səmərəli olduqda son nəticə kimi qəbul olunub real praktikada istifadə olunur. Müxtəlif variantların ən yaxşısı optimal variant hesab olunur.

5. İdarəetmədə tarixilik və varislik prinsipləri gözlənilməlidir. Yeni hər bir sosial obyekt uzun tarixi bir prosesdən müəyyən formalaşma meyllərinə malikdir. Bu meylləri davam etdirmək, saxlamaq və aktiv olaraq dəyişdirmək ehtiyatla həll olunmalıdır. Hər iki halda idarəetmə meyarlarına uyğun olaraq götür-qoy etmək lazımdır. Buna görə də uzun müddət formalaşmış təcrübəni inqilabi yolla yox, təkamül nəticəsində inkişaf etdirmək lazımdır. Formalaşmış iqtisadi sistem, tələbat sistemini, ənənə, milli xüsusiyyətləri, demoqrafik inkişafı nəzərə alaraq idarəetmə strukturları formalaşdırılır. İdarəetmədə varislik hər bir sonrakı qərar qəbulunda əldə olunan keçmiş nəticələri nəzərə almaqla reallaşdırılır. İdarəetmənin inkişaf dinamikası onun strukturunu təkmilləşdirmə obyektidir.

Həm vasitələr, həm də obyektlər müəyyən dövr ərzində kəmiyyət və keyfiyyət etibarı ilə dəyişilir. Ona görə də idarəetmə perspektiv istiqamətlər deməkdir. Forma etibarı ilə idarəetmə funksional xətti və qarışıq idarəetmə sistemləri formalaşır. Belə ki, hər bir konkret sahərin funksional təyinatına görə idarəetmə məsələləri qoyulur, inkişaf etdirilir, dəyişdirilir və s. İdarəetmə obyekti məhsullar üzrə və texnologiya üzrə formalaşır, bu zaman eyni növ məhsulların istehsalının və xidmətin ixtisaslaşdırılması, kombinələşdirilməsi və təsərrüfat əlaqələri idarə olunur. Eyni texnologiyaya əsaslandırılan idarəetmədə isə oxşar texnologiya meydana çıxır.

Sosial - mədəni sahələrin təşkili elmi məqsədyönlü fəaliyyətin elmi nəzəri və praktiki aspektlərini öyrəndiyinə görə geniş bir elmdir. Onun nəzəri əsasını mülkiyyət münasibətləri təşkil edir. Uzun müddət mərkəzləşdirilmiş idarəetmə formaları ümumxalq dövlət mülkiyyətinin olması ilə səciyyələnirdi. İndiki şəraitdə mülkiyyətin yeni formaları yarandığına görə idarəetmənin funksiyaları və vəzifələri formaca və məzmunca geniş vüsət alır. Hər bir mənafe idarəetmə elminin məqsədi olmalıdır. Əvvəlki vaxtlardan fərqli olaraq, demokratik prinsiplər əsas götürülməlidir. Bu zaman eyni bir vəzifəni, funksiyanı yerinə yetirə bilən müxtəlif alternativ şərtlər, o cümlədən sosial

tələbatlar nəzərə alınmalıdır. İdarəetmə obyektinin və subyektinin maraqları təmin olunmalıdır. Belə subyektlərə daxildir: sahələr, insanlar, kapital qoyanlar. Ona görə də idarəetmədə kapitalistik, sistemlilik prinsipləri və metodları meydana gəlir. Sosial sahələr yuxarıda göstərilən obyekt və subyektlərinə görə daha müxtəlifdir. İnsan faktoru sosial idarəetmənin əsas məqsədidir. Nəhayət, idarəetmə elmi iqtisadi elmdir, iqtisadiyyatın bütün sahələri ilə bağlıdır.

***Ədəbiyyat***

1. *Rəhmanov F.P. "Sosial sfera keçid iqtisadiyyatı şəraitində". Bakı - 2002.*
2. *Azərbaycanın statistik göstəriciləri, Dövlət Statistika Komitəsi. 2009.*
3. *Azərbaycan Respublikasında iqtisadi islahatlar: ilkin nəticələr, problemlər və perspektivlər, Bakı - 2003.*
4. *Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf istiqamətləri. Bakı - 2008. 278 s.*
5. *Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri. Humanitar və ictimai elmlər seriyası. İqtisadiyyat. Bakı - Elm. 2008-1.*
6. *http://www.musigi-dunya.az/new/read_magazine.asp?id=318*
7. *http://www.musigi-dunya.az/article/67/67_4.htm*
8. *http://www.anl.az/el/h/he_si.pdf*

**N.İ.Xosuzadə**
**İnformasiya Texnologiyaları İnstitutu**
***nuranakhosuzada@gmail.com***

# LEONTYEV MODELİ ƏSASINDA İNVESTİSİYALARIN PAYLANMASI VASİTƏSİLƏ SƏMƏRƏLİ İSTEHSAL PLANLARININ FORMALAŞDIRILMASI

***Xülasə***

*Məqalədə innovasiya müəssisələrində, onların idarəetmə fəaliyyətində investisiyaların rolu göstərilmiş, müəssisələrdə investisiya qoyuluşunun bəzi xüsusiyyətləri nəzərdən keçirilmiş, investisiya mühitinin formalaşdırılması vasitəsilə istehsal planlarının tərtibi məsələlərinə nəzər salınmış və mövzu ilə əlaqəli olan bəzi elmi tədqiqat işlərinin təhlili aparılmışdır. İnnovasiya müəssisələrində investisiyalarla bağlı yarana biləcək bəzi problemlərə baxılmışdır. Müəssisələrin investisiya fəaliyyəti ilə bağlı modelin qurulmasının vacibliyi göstərilmişdir. İnnovativ sənaye müəssisələrində investisiyaların idarə edilməsi modellərinin növləri nəzərdən keçirilmiş və Leontyev modeli vasitəsi ilə innovativ sənaye müəssisələrinin fəaliyyətində investisiyaların qoyuluşu üçün balans modeli işlənib hazırlanmış və qurulmuş modeldən məhsul istehsalı planlarının tərtibində istifadə olunması üçün tövsiyələr qeyd edilmişdir. Tədqiqat işinin nəticəsi üzrə bəzi təklif və tövsiyələr verilmişdir.*

# ФОРМИРОВАНИЕ ЭФФЕКТИВНЫХ ПРОИЗВОДСТВЕННЫХ ПЛАНОВ ПУТЕМ РАСПРЕДЕЛЕНИЯ ИНВЕСТИЦИЙ НА ОСНОВЕ МОДЕЛИ ЛЕОНТЬЕВА

***Резюме***

*В статье показана роль инвестиций в инновационные предприятия и их управленческая деятельность, рассмотрены некоторые особенности инвестирования в предприятия, рассмотрены вопросы производственных планов через формирование инвестиционной среды, а также проведены некоторые научно-исследовательские работы, связанные с данной темой. проанализировано. Рассмотрены некоторые проблемы, которые могут возникнуть в связи с инвестициями в инновационные предприятия. Показана важность построения модели, связанной с инвестиционной деятельностью предприятий. Рассмотрены виды моделей управления инвестициями в инновационно-промышленных предприятиях и разработана балансовая модель инвестиций в деятельность инновационно-промышленных предприятий с помощью модели Леонтьева, отмечены рекомендации по использованию установленной модели при формировании планов производства продукции. По результатам исследовательской работы даны некоторые предложения и рекомендации.*

# FORMATION OF EFFICIENT PRODUCTION PLANS THROUGH ALLOCATION OF INVESTMENTS BASED ON THE LEONTIEV MODEL

***Summary***

*In the article, the role of investments in innovation enterprises and their management activities was shown, some features of investment in enterprises were reviewed, issues of production plans were considered through the formation of investment environment, and some scientific research works related to the topic were analyzed. Some problems that may arise in connection with investments in innovative enterprises have been considered. The importance of building a model related to the investment activity of enterprises has been shown. The types of investment management models in innovative industrial enterprises were reviewed and a balance model for investments in the activity of innovative industrial enterprises was developed by means of the Leontyev model, and recommendations were noted for using the established model in the formulation of product production plans. Some suggestions and recommendations are given on the result of the research work.*

***Açar sözlər:*** *innovasiya, investisiya, innovasiya müəssisəsi, investisiya qoyuluşu, Leontyev modeli, məhsul istehsalı planları*

***Ключевые слова:*** *инновации, инвестиции, инновационное предприятие, инвестиции, модель Леонтьева, производственные планы*

***Key words:*** *innovation, investment, innovation enterprise, investment, Leontiev model, production plans*

## Giriş

Dünya iqtisadiyyatında müasir problemlərdən biri də elmin istehsalata tətbiq edilməsi məsələləridir. Elmin və istehsalın inteqrasiyası innovasiya müəssisələrində həyata keçirilir. Müasir dövrdə müəssisələrin mövcud olan ənənəvi texnoloji proseslərdən istifadə etməklə bazarda uzun müddət qalması mümkün deyil. Buna görə də müəssisələr daim innovasiya fəaliyyəti ilə məşğul olmalıdır. Müəssisələrdə innovasiyaların tətbiqi bilikyönümlü sənayelər üçün mühüm əhəmiyyətə malikdir. İnnovasiya müəssisələrində hər bir yenilik resurslara çıxış yoluyla investisiya tələb edir [2]. Yəni iqtisadi artım məqsədi ilə innovasiyalara, innovasiyalar üçün də investisiyalara ehtiyac vardır [11]. Bir çox müəssisələrdə innovativ sistem institutlarının qurulması mühüm məsələdir. Yüksək texnologiyalı mühitə keçid də məhz bu institutların əsasında həyata keçirilir. Bu institutlar sayəsində müəssisələrdə elmi və texnoloji cəhətdən yeniliklər həyata keçirilir, istehsal proseslərində elmi və texnoloji yeniliklərdən və nailiyyətlərdən istifadə olunur, biliyin kommersiyalaşdırılması həyata keçirilir. Belə müəssisələrin də əsasını innovasiya müəssisələri, texnoparklar

təşkil edir. Onlar sayəsində işlərin istehsal proseslərinin sürətləndirilməsi və elmtutumlu məhsulların inkişafı həyata keçirilir [8].

İnnovasiya müəssisələrinin idarə edilməsi mürəkkəb və mərhələli bir prosesdir. Müəssisələrin idarəetmə prosesinin effektivliyi üçün fəaliyyətin hər bir mərhələsində müəyyən vəzifələr həyata keçirilir. Bu vəzifələrə aiddir: innovasiya müəssisələrində güzəştli imtiyazlar üzrə yeni innovasiya və investisiya layihələrinin hazırlanmasına dəstək göstərilməsi; innovativ biznesin yaradılması məqsədilə investisiyaların cəlb edilməsinə dəstək göstərilməsi; elm və istehsal proseslərinin inteqrasiyasının effektiv təşkili; innovasiya müəssisələrinin effektiv fəaliyyətinə təsir göstərən amillərin müəyyənləşdirilib seçilməsi; biliklərə əsaslanan istehsalın inkişaf etdirilməsi məqsədi ilə investisiyaların cəlb edilməsinə dəstək göstərilməsi və s. [1] Göründüyü kimi innovasiya müəssisələrinin idarə edilməsində əsas vəzifələrin bir çoxu investisiyalarla bağlıdır. Bu da investisiyaların rolunun innovasiya müəssisələri üçün əhəmiyyətinin göstəricisidir. Məlumdur ki, müasir dövrdə iqtisadi inkişafın əsas səbəblərindən biri də elmi və texniki tərəqqiyə nail olmaqdır. Qlobal iqtisadi rəqabətdə öndə olan ölkələr də əsasən, innovasiya və investisiya üçün əlverişli mühit yaradan ölkələrdir [7]. İnnovasiya müəssisələrinin fəaliyyətində investisiyalar cəlb edilərək innovativ proqram və layihələr hazırlanır. Bu proses də yeni texnologiyaların yaradılması, onların inkişaf etdirilməsi və artırılması məqsədi ilə layihələr formasında həyata keçirilir [6].

İnvestisiya qoyuluşlarının birbaşa nəticəsi kimi effektiv məhsul istehsalı prosesində müəssisələrin fəaliyyətinin düzgün prinsiplərlə təmin edilməsi əsas məsələlərdən biridir. Aydındır ki, müəssisələrin əsas məqsədi resursların məhdudluğunu nəzərə almaq şərti ilə maksimum gəlir əldə etməkdir. Bu məsələ istehsala investisiya qoyarkən də nəzərə alınmalıdır. İnvestisiya qoyuluşundan əvvəl maliyyə vəziyyəti, investisiyanın nə qədər müddətdə geri qaytarılması və s. kimi məsələlər təhlil olunur və proqnozlaşdırılır [10]. İnnovativ sənaye müəssisələrinin fəaliyyətinin səmərəli idarə edilməsində investsiya resurslarının böyük rolu vardır. Çünki investisiyaların dəyişməsi xərclərə birbaşa təsir edən amilərdən biridir [8]. Bu müəssisələrdə yeni innovativ məhsullar yaradılmasına və biliyin istehsalda tətbiqinə geniş şərait yaradır. Hər bir innovativ sənaye müəssisələrinin vəsaitlərinin fərdi dövriyyəsi üçün əsas meyarlardan biri də onun investisiya fəaliyyətinin olmasıdır. İnnovativ istehsal şəraiti özü də investsiyalar üçün bir şərait yaradır. Ümumiyyətlə, innovativ məhsulların rəqabətyönümlü şəkildə bazarlara çıxarılmasında investisiyaların idarə edilməsinin mühüm rolu vardır [7]. Bunu da qeyd etmək lazımdır ki, lazımi qədər vəsait ayrılması heç də həmişə müəssisələrin fəaliyyətinin yüksək səviyyədə təşkil olunması demək deyil. İnnovasiya müəssisələrinin fəaliyyətinin effektiv və səmərəli həyata keçirilməsi üçün başlıca vəzifələrdən biri müəssisələrdə investisiya

strukturluluğuna riayət etmək, bundan başqa istehsal prosesləri üçün lazım olan hər hansı cihaz, avadanlıq, materiallar və bu kimi vasitələrin strukturlu şəkildə idarə edilməsi də əsas vəzifələrdən biridir [14].

Ekspert rəylərini nəzərə alaraq innovasiya fəaliyyətlərində investisiya qoyuluşu məsələsinin bəzi xüsusiyyətləri nəzərdə saxlanılmalıdır:

1) investisiya qərarlarının qeyri-müəyyən şəraitdə qəbul edilməsi;

2) başqa investisiya növlərilə müqayisəsində innovasiya risklərinin yüksək səviyyəsi;

3) innovasiya yönümlü investisiyaların dinamik şəkildə idarə edilməsi;

4) innovasiya layihəsinin aralıq mərhələlərində aşağı likvidliyi yəni, dəyər itkisi və əhəmiyyətli qiymət fərqi olmadan tez reallaşdırıla bilməsi [17];

5) innovativ investisiyaların payının innovativ sənaye müəssisələrinin ümumilikdə investisiyalarında daimi artımı;

6) qoyulan xərclərlə nəticə arasındakı müvəqqəti fərq riskini artıran geri ödəmə müddəti və nisbətən uzun investisiya müddəti [11].

Bir çox ölkələrdə investisiya mühitinin formalaşdırılması üçün bir sıra tədbirlər və layihələr həyata keçirilir. Bununla bağlı iqtisadiyyata investisiyaların cəlb olunması üçün "açıq qapı" siyasəti də həyata keçirilir. Bundan başqa iqtisadi islahatların davam etdirilməsi, qeyri-neft sektorunun, innovasiya müəssisələrinin inkişaf etdirilməsi ilə bağlı tədbirlər də həyata keçirilir. Bununla yanaşı həm də investisiyayla bağlı "İnvestisiya fəaliyyəti haqqında", "Xarici investisiyaların qorunması haqqında" və bu kimi digər qanunlar və normativ sənədlər də fəaliyyət göstərir və təsir gücünə malikdir [18].

**Əlaqəli elmi-tədqiqat işlərinin tədqiqi.** İnvestisiya və innovasiya şəraitini yaxşı təmin edən ölkələr iqtisadi rəqabətdə həmişə daha irəlidə olurlar. Bu zaman müəssisələr üçün investisiya problemləri daha yaxından təhlil edilir. Burada məqsəd optimallaşdırma modellərinin hesablanması ilə investisiyaların idarə edilməsində konkret bir innovasiya layihəsi həyata keçirmək üçün optimal qərarqəbuletmə ilə iqtisadi-riyazi modelləşdirmə, abstrakt-məntiqi metod, qrafik metod kimi elmi tədqiqat metodlarından istifadə etməklə alqoritmlərin hazırlanmasıdır. Bu işin nəticəsindən müəssisələrdə istehsal proseslərini, investisiya axınını planlaşdırmaq, proqnozlaşdırmaq və eyni zamanda nəzarət etmək və s. kimi məsələlər üçün istifadə edilə bilər [7]. Məlumdur ki, istehsal fəaliyyətində investisiyalarla bağlı bir sıra problemlərlə rastlaşmaq mümkündür. Burada istehsala qoyulan investisiyalarla bağlı olan problemlərin nəzərdən keçirilməsindən bəhs edilir. Buraya investisiyaların həcmi və geri qaytarılma müddətləri ilə bağlı problemlər daxildir. İnvestisiyaların həcmi və geri qaytarılma müddətləri ilə bağlı problemlər iqtisadi tədqiqatlarda ən çox istifadə olunan beş istehsal funksiyasından (CobbDouglas, CES-funksiya, xətti funksiya, Leontief və Allen funksiyaları)

istifadə etməklə təhlil olunmuşdur. Bu problemlərin həlli yolları sənaye müəssisələrində investisiya mühitinin inkişafına gətirib çıxaracaqdır [10]. Məlumdur ki, innovasiyaların və investisiyaların inkişaf etdirilməsi innovativ müəssisələrlə yanaşı kənd təsərrüfatı müəssisələri üçün də mühüm məsələlərdən biridir. Bu məqalədə isə innovasiya və investisiyaların inkişafının vacibliyi kənd təsərrüfatı müəssisələri üçün nəzərədən keçirilmişdir. Bu məqalənin məqsədi investisiyaların innovativ inkişafa təsirini qiymətləndirmək, eyni zamanda kənd təsərrüfatı müəssisələri üçün də innovasiyaların və investisiyaların inkişafı üçün tövsiyyələr hazırlamaqdan ibarətdir. Tədqiqatçılar bu məqsədlə innovasiyaların yayılması, NIS konsepsiyası, iqtisadiyyatın struktur transformasiyası nəzəriyyələri ilə bu məsələləri formalaşdırmaq üçün işlər aparmışdır. Bunun nəticəsində innovativ fəallığın yüksəldilməsinə nail olunmuşdur. Bundan başqa burada investisiya qoyuluşları təhlil edilərək regionlararası fərqlər aşkar edilmişdir. Bu tədqiqat işinin nəticəsinin vacibliyi innovasiya fəallığının yüksəldilməsi üçün təşkilati və iqtisadi dəstəyin inkişafına nail olunmasıdır [8]. Dünya bazarlarında ölkələrin həm rəqabətqabiliyyətliliyini, həm də iqtisadi artımını inkişaf etdirmək üçün innovasiyalar tələb edilir. Çoxlu sayda innovasiyaların həyata keçirilməsi üçün də böyük investisiyalara ehtiyac yaranır. Bu zaman müəssisələrdə bir çox problemlər yarana bilir ki, bunlardan biri də artan investisiya riskinin yaranmasıdır. Bu səbəbdən də innovativ sənaye müəssisələrində innovasiyaların investisiya modelləşdirilməsinə və eyni zamanda investisiyaların qiymətləndirilməsinə ehtiyac yaranır. Bu məqalənin məqsədi də bununla bağlı innovasiya layihələrinin cəlbediciliyinin qiymətləndirilməsi üçün konseptual modelin qurulmasıdır. Tədqiqatçılar innovasiya məhsulunun onun həyat dövrünün mərhələləri üçün investisiyaların qoyuluşunun qrafik modelini qurmuş, daha sonra müəssisələrin innovasiya layihələri üçün investisiya cəlbediciliyinin qiymətləndirilməsinin modeli və bu modeldə də innovasiya fəaliyyətinin, layihə dövrünün və risklərin idarə edilməsinin mərhələləri yer almışdır. Hazırlanmış bu modelin əsas məqsədi də investisiyaların konkret innovasiya risklərinin səviyyəsinə təsiri ilə idarə edilməsidir [11]. Bu məqalədə innovasiya müəssisələrinin idarə edilməsi məsələlərinə, idarəetmə modellərinə baxılmış, innovasiya müəssisələrinin idarəetmə xüsusiyyətləri, eyni zamanda idarəetmə göstəriciləri müəyyənləşdirilmişdir. İnnovasiya müəssisələrinin səmərəli şəkildə idarə edilməsinin və intellektual idarəetmə sisteminin konseptual modelləri, innovasiya müəssisələrində istehsal proseslərinin inkişaf etdirilməsi ilə əlaqədar model və yanaşmalar təklif edilmişdir [1]. Bu məqalədə müəssisələr üçün innovasiya və investisiya proseslərinin idarə edilməsi səmərəliliyinin qiymətləndirilməsi üçün çoxvariantlı təhlillər əsasında model hazırlanmışdır. İnnovasiya və investisiyaların təkmilləşdirilməsi üçün təklif edilən

prosedurlara uyğun şəkildə hər bir müəssisənin innovasiya və investisiya proseslərinin səmərəli şəkildə idarə edilməsi üçün layihə paketləri işlənib hazırlanmışdır [16]. İnvestisiyaların qeyri-bərabər bölüşdürülməsi müəssisələrin innovativ inkişafına mənfi təsir göstərən amillərdən biridir. İnnovativ sənaye müəssisələri tez-tez resurs çatışmazlığı problemi ilə qarşılaşırlar. Bunun səbəbi də müəssisələrin innovasiya fəaliyyətində investisiyaların boşluğudur. Müəssisələr öz innovasiya fəaliyyətinin effektiv həyata keçirilməsi üçün kifayət qədər resurslara sahib olmalıdır. Burada investisiyalar üçün balans modeli işlənib hazırlanmışdır. Bu model resurslara olan ehtiyacı düzgün qiymətləndirmək iqtidarındadır [14].

**Problemin qoyuluşu və tədqiq olunma səviyyəsi.** İnnovasiya müəssisələri ilə bağlı yarana biləcək problemlərin müəyyənləşdirilməsi və eyni zamanda problemlərin həlli yollarının axtarılması yalnız müəssisələr üçün deyil, ölkənin iqtisadi inkişafı üçün də əsas prioritetlərdən biridir. Buna görə də hər bir sahədə olduğu kimi bu sahədə də problemlərin aşkarlanmasına və onların həllinə yönələn bir çox tədqiqat işləri mövcuddur. İnnovasiya müəssisələrinin investisiyalarla bağlı da bir sıra problemləri mövcuddur. Onlardan innovasiya müəssisələri üçün investisiya dəstəyinin kifayət qədər olmaması problemi aktual məsələlərdəndir. Bu problem kapital bazarları hələ də tam inkişaf etməyən ölkələrin innovasiya müəssisələrində özünü daha çox göstərir. Bəzən müəssisələr innovasiyaları hətta öz vəsaitləri hesabına maliyyələşdirirlər [6]. Bunun nəticəsində də bu müəssisələr öz gəlir və mənfəətlərini mövcud ehtiyacları üçün istifadə edirlər. Buna görə də innovasiya müəssisələrində investisiyaların idarə edilməsinə, bölüşdürülməsinə xüsusi diqqət yetirmək lazım gəlir. Bu həm də innovasiya müəssisələrinin ümumi vəziyyətinin təhlilinə, innovasiya layihələrinin seçilməsi məsələlərində optimal qərar qəbuletməyə və proqnozlaşdırma məsələsinin sadələşdirilməsinə şərait yaradır [7]. İnnovasiya müəssisələrində investisiyaların yetərincə təmin olunması müəssisə rəhbərlərinin də səmərəli fəaliyyətinə müsbət təsirini göstərir. İnnovasiya müəssisələrinin investisiya ilə bağlı əsas problemlərindən biri də investisiya təhlükəsizliyinin idarə edilməsi məsələsidir. Bu problemin qarşısını almaq məqsədi ilə innovativ müəssisələrdə fəaliyyətin təhlili, planlaşdırılması, təşkilati və proqnozlaşdırma məsələləri, nəzarəti və uçotu həyata keçirilir. Bu problemin qarşısının alınması məsələləri idarəetmə məsələləri ilə birlikdə innovasiya müəssisələrinin idarə edilməsinin bütövlüyünü təmin edir [5]. İnnovasiyalar üçün investisiya qoyuluşunda əsas problemlərdən biri də investisiya risklərinin idarə edilməsidir. Müxtəlif vasitələrdən istifadə edərək bu riskləri azaltmaq və optimal idarə etmək mümkündür. Bu da investisiyaların cəlbediciliyinə birbaşa təsirini göstərir. Riskin həcminə təsir edən və eyni zamanda xərclərin azalmasına şərait yaradan amillərə innovasiya layihələrinin maliyyələşdirilmə mexanizmləri, elmi

cəhətdən əsaslandırılan proqnozlaşdırma və s. aid etmək olar [11]. İnvestisiyalarla bağlı daha bir problem də ümumilikdə iqtisadiyyatın inkişafında əsas problemlərdən olan investisiyaların balanssızlığıdır. Belə ki, innovasiya fəaliyyətinin müəyyən aralıqlarında ya istehsal, ya da istehlak fəaliyyəti zamanı investisiyaların boşluğu meydana gəlir. Elmi tədqiqat işlərinin görülməsi üçün dövlət tərəfindən xeyli vəsait ayrılır. Lakin buna baxmayaraq bəzən innovasiya müəssisələrində yetərli resurs olmadığından onların yeni məhsullar üçün lisenziya ala bilməmə halları yaranır. İnnovasiya müəssisələri üçün ayrılan vəsait səmərəli şəkildə idarə edilmədikdə resursların fəaliyyət prosesinin mərhələlərində düzgün bölünməməsinə gətirib çıxara bilər. Göstərilən bu problemə əsaslanaraq innovasiya müəssisələrində investisiya fəaliyyətinin düzgün idarə edilməsi ilə bağlı modelin qurulmasının vacibliyini qeyd edə bilərik. Ölkədə innovativ məhsul istehsalının inkişaf etdirilməsində, yeni innovativ məhsullar yaradılmasında və dünya bazarlarına yeni texnoloji məhsullar çıxarmaqda innovasiya müəssisələri üçün investisiya sistemini inkişaf etdirmək çox mühüm məsələlərdən biridir [14]. Təhlillərdən göründüyü kimi, investisiya qoyuluşu vasitəsilə istehsal planlarının səmərəli tərtibi və icrası müəyyən müsbət nəticələrə gətirə bildiyinə görə həmin məsələlər sahələrarası balans üsulu ilə və ya Leontyev modeli əsasında formalaşdırılmalıdır.

**Material və metodlar.** İnnovasiya müəssisələrində investisiyaların idarə edilməsi modelləşdirmə vasitəsi ilə aparılır. Bu isə modelləşdirmə vasitəsi ilə ümumi iqtisadi vəziyyəti təhlil etməyə və eyni zamanda proqnozlaşdırmağa imkan yaradır. Modelləşdirmə üçün əvvəlcə modelin ətraflı şəkildə ilkin tədqiqi aparılır. Biz innovasiya müəssisələri üçün üç cür modelləri nəzərdən keçirə bilərik:

1) avadanlıq və xammalla kredit istifadə edilmədən optimallaşdırma modeli: bu modeldən innovasiya müəssisələri bütün növ istehsal ehtiyatlarına malik olduqda müəssisələrin istehsal proqramını hesablamaq üçün istifadə edilir,

2) istehsalı artırmaq məqsədi ilə qismən avadanlıq və xammala malik innovativ müəssisədə kreditə əsaslanan optimallaşdırma modeli: bu modeldən əlavə resurslardan istifadə olunduğu zaman məhsulların artırılması üçün istifadə olunur,

3) məhsulun diferensiallaşdırılması məqsədi ilə qismən avadanlıq və xammala malik innovativ müəssisədə kreditə əsaslanan optimallaşdırma modeli: bu modeldən istehsal proseslərini genişləndirmək, yeni innovativ modellər istehsal etmək üçün istifadə olunur. Bu investisiya modelləri innovativ sənaye müəssisələrində innovativ layihələrin yaradılması ilə bağlı qərarların verilməsində mühüm rol oynayır. Bu proses müəyyən bir zaman müddəti ərzində innovativ sənaye istehsalı fəaliyyətində maliyyə resurslarının

uyğunluğunu, çatışmazlığını müəyyənləşdirmək, innovativ müəssisənin maliyyə imkanlarını artırmaq, maliyyə imkanlarını bərpa etmək kimi məqsədlərə nail olmaq üçün müəyyən bir ardıcıllıq tələb edir. Bu ardıcıllığın birinci mərhələsində innovativ məhsul istehsalı üçün müəssisənin özünün investisiya mənbələrinin qiymətləndirilməsi, innovativ sənaye müəssisəsinin investisiya fəaliyyətinin təhlil edilməsi, maliyyə-iqtisadi vəziyyətinin, əlavə investisiyaya ehtiyacın olub olmamasının və digər mühit amillərinin təhlil edilməsi, ikinci mərhələdə inkişaf strategiyalarına düzəlişlər etmək, innovativ fəaliyyət zamanı yaranan zəruri investisiyaların gətirilməsi üçün tədbirlər görmək, investisiyaların məbləği, gətirilmə yolları və s. informasiyaları qiymətləndirmək, mənfəət və yarana biləcək zərərləri proqnoz etmək, üçüncü mərhələdə innovativ sənaye müəssisələrinin investisiya təminatının optimallaşdırılması, dördüncü mərhələdə innovativ sənaye müəssisələri üçün zəruri olan resursların təmin edilməsi və sonda beşinci mərhələsində isə nəzarət qiymətlərinin hesablanması yer alır. Hər hansı bir innovasiya layihəsinin məqsədəuyğun olub-olmamasını aydınlaşdırmaq üçün əvvəlcə bu ardıcıllığı yerinə yetirmək lazım gəlir [7]. Bazar iqtisadiyyatı mühitində investisiyalar gəlirə yönəlmiş kommersiya ilə reallaşdırılır. İnnovasiyalara investisiya qoyarkən onun modelləşdirilməsi və qiymətləndirilməsi üçün etibarlı üsullara ehtiyac yaranır [5]. Ona görə də innovasiya müəssisələrində innovasiyaları artırmaq, intellektuallaşmanı yüksəltmək, rəqabətqabiliyyətliliyi təmin etmək üçün investisiyaların fəaliyyətinin qiymətləndirilməsi və modelləşdirilməsini həyata keçirmək lazımdır. Bunun nəticəsində də həm innovasiya məhsulları üçün istehsalın artımına, həm də artımın innovasiya tipinə keçidində yaranan problemlərin həllinə nail olunacaqdır [11]. Bundan əlavə qeyd etmək olar ki, məhsul istehsalının proqnozlaşdırılması və modelləşdirilməsi üçün istehsal funksiyalarından istifadə edilməsi onları əsaslı şəkildə genişləndirə bilir [10]. Belə ki, müəssisələrdə məhsul istehsalı fəaliyyətinin planlaşdırılması üçün Leontyev modelindən geniş istifadə edilir. Lakin bu model yalnız istehsal planlanlaması məsələlərinə deyil, həm də investisiyaların innovativ fəaliyyət aralıqlarında düzgün paylanmasına da şərait yaradır [14]. Vasili Leontyev tərəfindən hazırlanmış modelin əsasını cədvəl təşkil edir ki, bu cədvəl hər bir məhsulun digər sahələr və sektorlar arasında necə bölüşdürüldüyünü və bir innovasiya müəssisəsinə digər müəssisələrdən və sektorlardan daxil olan məlumatları göstərir [9]. Leontyev metodunu bir çox ölkələrin mühüm dövlət qurumları əsas analitik vasitə kimi istifadə edirlər. Hazırda mərkəzləşdirilmiş planlı iqtisadi sistemləri olan dövlətlərdə də bu metoddan istifadə edilir. Leontyev modelindən iqtisadi inkişafın öyrənilməsi məsələlərində də istifadə olunur. Bunun nəticəsində o hər hansı bir iqtisadi dəyişikliyin ümumi iqtisadiyyatda yaratdığı təsirini müəyyənləşdirə bilir [15].

İnnovasiya fəaliyyətində elmi tədqiqat və istehsal mərhələlərindən ibarət olan bir balans modelini nəzərdən keçirək. Elmi tədqiqat mərhələsinin nəticəsini, yəni elmi məhsulları A ilə işarə edək. Burada onu da qeyd edək ki, elmi-texnoloji nəticələrin həmişə bir hissəsi innovasiya məhsullarının hazırlanması üçün istifadə olunur. Biz A11 ilə elmi tədqiqatın nəticəsindən alınan məhsulların daxili istehlakını işarə edək. Aydındır ki, istehsal prosesləri zamanı lazım olan əsas vəsaitlərdən biri də avadanlıqlardır. Bu avadanlıqların həcmini A21 ilə işarə edək. Müəyyən sənədlərin alınması xərclərini isə modeldə indekslə A12 ilə işarə edək. Tikintinin, materialların, avadanlıqların və bu kimi obyektlərin dəyərlərini isə A22 ilə işarə edək. Bu halda innovasiya müəssisələrinin fəaliyyəti üçün balans modelini Cədvəl 1-dəki kimi verə bilərik.

| | Elmi tədqiqat | Sənaye istehsalı | Son məhsul | Ümumi məhsul |
|---|---|---|---|---|
| Elmi tədqiqat | A11 | A12 | $C_1$ | $A_1$ |
| Sənaye istehsalı | A21 | A22 | $C_2$ | $A_2$ |
| İnvestisiya | $İ_1$ | $İ_2$ | $İ= İ_1+ İ_2$ | İ/A |
| Son məhsul | $B_1$ | $B_2$ | $B= B_1+B_2$ | B/A |
| Ümumi məhsul | $A_1$ | $A_2$ | $C= C_1+ C_2$ | $A= A_1+ A_2$ |

**Cədvəl 1.** İnnovasiya müəssisələrinin fəaliyyəti üçün balans modeli

**Modelin struktur təhlili.** İnnovativ layihələrin tamamlanması üçün tədqiqat proseslərinə investisiyaların qoyulması lazım gəlir. Bunu elmi tədqiqat üçün nəzərə alsaq, İ1= A11+ A21, daha sonra isə istehsal sənayesi üçün nəzərə alsaq, İ2 = A12 + A22 olar. Leontyev modelinə əsasən deyə bilərik ki, iqtisadiyyatın bütün sahələrinin bir-biri ilə arasında olan münasibətlər proqnozlaşdırıla bilər və eyni zamanda, sabitdirlər. Onda buna əsaslanaraq deyə bilərik ki, ümumi elm üçün qoyulan investisiyaların təkcə istehsal üçün qoyulan investisiyalara nisbəti M sabit kəmiyyətdir. Yəni, M=İ1/İ2 → const. Uyğun olaraq, istifadə olunan avadanlıqların dəyərinin elmi və texniki məhsulların əldə olunmasına nisbətini də sabit kəmiyyət hesab edə bilərik. Yəni K1 = A11 / İ1→ const. Bunu sənaye istehsalı üçün də nəzərə alsaq, K2 = A12 / İ2 → const olar. Əgər elmi tədqiqat İ1 investisiya məbləği ilə maliyyələşirsə, onda istehsal sənayesində İ2 maliyyələşmə investisiyasına ehtiyac olacaqdır. Yəni, İ2=İ1/M. İnvestisiyaların ÜDM-də payı L iqtisadi cəhətdən artımın keyfiyyətinin göstəricisidir və aşağıdakı kimi ifadə olunur:

$$L=İ/A$$

Yuxarıda qeyd edilən sabitlik nisbətləri nəzərə alınmadıqda bəzi mənfi nəticələr yarana bilər. Bu nəticələrə nəzər salaq: 1) istehsal sənayesi üçün qoyulan investisiyalar təqribi gözləniləndən az olacaqdır. Bunun nəticəsində də lisenziyaların alına bilməməsi, rəqabətqabiliyyətliliyin azalması və bu kimi hallar yaranacaqdır, 2) elmi tədqiqatlar üçün qoyulan investisiyalar təqribi gözləniləndən az olacaqdır. Bunun nəticəsində isə tədqiqat işlərinin bir hissəsinin həyata keçirilməməsi, xaricdən gələn mallara asılılığın artması kimi mənfi hallar baş verəcəkdir (14).

## Nəticə

İnnovasiya müəssisələrində yaranan problemlər yalnız müəssisənin fəaliyyətinə deyil, ümumilikdə iqtisadi inkişafa da öz təsirini göstərir. Müəssisənin effektiv fəaliyyəti üçün bu problemlərin hər biri müəyyənləşdirilməlidir və həlli yolları axtarılmalıdır. Ümumiyyətlə, innovasiya müəssisələrinin effektiv fəaliyyət göstərməsi üçün investisiyalarla bağlı yaranan problemlərə də diqqət yetirilməli, müəssisələrdə investisiyaların düzgün idarə edilməsi və bölüşdürülməsinə xüsusi diqqət yetirilməlidir. Digər problemlər kimi innovasiya müəssisələrinin fəaliyyətinin müəyyən dövrü ərzində investisiyaların düzgün bölüşdürülməməsi problemi də müəssisələrin fəaliyyətində bir sıra çətinliklər yaradır ki, bu çətinliklər müəssisələrin ümumi fəaliyyət səmərəliliyinin, rəqabətqabiliyyətinin azalmasına, gəlirlərin itirilməsinə səbəb olur. Leontyev modeli əsasında təklif olunmuş model vasitəsi ilə innovasiya müəssisələrində investisiyaların müəssisələrin fəaliyyət mərhələlərinə uyğun olaraq bölüşdürülməsinə nail olmaq olar. İnnovasiya müəssisələrinin fəaliyyətində resursların fəaliyyət müddətinin mərhələlərinə uyğun səmərəli şəkildə bölüşdürülməsi investisiyaların səmərəliliyinə gətirib çıxarır. İnvestisiyaların Leontyev modeli vasitəsi ilə bölüşdürülməsi yalnız innovasiya müəssisələrində deyil, eyni zamanda digər sənaye müəssisələrinin fəaliyyətində də tətbiq edilə bilər. İnvestisiya qoyuluşları nəticə etibarı ilə məhsul istehsalı planlarına təsir etdiyinə görə hesab etmək olar ki, Leontyev modeli istehsal planlarının tərtibi üçün effektiv instrumentariyadır. Onun tətbiqi istehsalda müəyyən əlavə faydaların qazanılmasına gətirə bilər.

***Ədəbiyyat***

1. *Aliyev, Alovsat G. Some methodological problems of improving the effectiveness of the management of innovative enterprises. Management Dynamics in the Knowledge Economy / 177 Vol.8 (2020) no.2, pp.175-191*
2. *Anamika Deya, Anil K. Guptab, Gurdeep Singh. Innovation, investment and enterprise: Climate resilient entrepreneurial pathways for overcoming poverty. Agricultural Systems, 2018. pp.2-8*
3. *Chenery, H.B., 1975, The structuralist approach to development policy //*

*American association Papers and Proceedings. No 65. pp. 310–316.*

4. *Decree of the President of the Russian Federation No. 204 of may 7, 2018 «National goals and strategic objectives for the development of the Russian Federation for the period up to 2024» (may 8, 2018) //https://www.garant.ru/products/ipo/prime/doc/71837200/, Accessed on February 02, 2020.*
5. *Hnatenko, I., Kuksa, I., Naumenko, I., Baldyk, D., Rubezhanska, V. (2020). Infrastructure of innovation enterprise: features of formation and regulation in modern market conditions // Management Theory and Studies for Rural Business and Infrastructure Development. 2020. pp.97-104.*
6. *Ihor Kuksa, Iryna Shtuler, Olga Orlova-Kurilova, Iryna Hnatenko, Viktoriia Rubezhanska, ınnovatıon cluster as a mechanısm for ensurıng the enterprıses ınteractıon ın the ınnovatıon sphere, Management Theory and Studies for Rural Business and Infrastructure Development: Vol. 41 No. 4 (2019).*
7. *Lyudmila Ganushchak-Efimenko, Iryna Hnatenko, Roman Kozhushko, Rafał Rębilas, Viktoriia Rubezhanska, Tetiana Krakhmalova. Optimization models of investment management in the activities of innovative enterprises. Management Theory and Studies for Rural Business and Infrastructure Development 2020. pp. 225-234.*
8. *Marianna Vasilchenko, İvan Sandu. Innovative-investment development of agriculture in the conditions of formation of the export-oriented economic sector: system approach. Scientific Papers Series Management, Economic Engineering in Agriculture and Rural Development Vol. 20, Issue 1, 2020. pp.599-612.*
9. *Musayev A., Qəhrəmanov A.. İqtisadiyyatda riyazi modelləşdirmə və proqnozlaşdırma. "Kür" nəşriyyatı, Bakı 1999.*
10. *Oleksandr Yankovyi, Viktor Koval, Olena Trokhymets, Maryna Karpenko, Yuliia Matskevich. Economic assessment of investment on the basis of production functions. Turismo: Estudos & Práticas (UERN), Mossoró/RN, Caderno Suplementar 02. 2020. pp.2-11.*
11. *Olena Petryka, Andriy Semenovb, Iryna Hnatenkoc, Andrii Samiilenkoa, Viktoriia Rubezhanskad and Oleksiy Patsarniuka. Conceptual model for assessing the investment attractiveness of innovative projects of industrial enterprises. Contents lists available at GrowingScience. 2020, pp.1345–1350.*
12. *Paptsov, A.G., Nechaev, V.I., Mikhailushkin, P.V., Towards to a single innovation space on the agrarian sector of the member states of the Eurasian economic union: a case study. Entrepreneurship and sustainability issues. 2019. pp. 637-648.*
13. *Sandu, I.S., Veselovsky, M.Y., Semyonova, E.I., Fedotov, A.V., Doshchanova, A.I., Methodological aspects of social and economic efficiency of the regional activities, 2015. Journal of Advanced Research in Law and Economics. pp. 650-659.*
14. *Slavianov A.. Balance model of resource support of innovative development programs. International journal of Professional Science №11-2019. pp.7-9.*
15. *William H. Miernyk. The Elements of Input-Output Analysis. The Web Book*

*of Regional Science, 2020. pp-4-15.*

16. *Zaburanna, L., & Lutska, T. (2017). Assessment of management effectiveness of innovation and investment activity of enterprises. Marketing and Management of Innovations, 4, 162- 175. DOI: 10.21272/mmi.2017.4-14.*
17. *https://az.wikipedia.org/wiki/Likvidlik*
18. *https://www.economy.gov.az/az/page/iqtisadiyyat/investisiya/investisiya-muhiti*

**İ.Ç.Cəfərova**
**Gəncə Dövlət Universiteti**
**ilaheceferova8@gmail.com**

# ORTA ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNİN TƏDRİS PLANINDA COĞRAFİYANIN METODOLOJİ MƏZMUNU

***Xülasə***

*Əsas məqsəd isə informasiya məkanında sərbəst hərəkət edə bilmək, məqsədyönlü fəaliyyətə yönəltməkdir. Buradan belə bir pedaqoji zərurət meydana çıxır ki, məktəb şagirdlərə təbiət, cəmiyyət, ətraf aləm haqqında bolluca informasiyalar verməkdən çox bu informasiyalardan baş açmaq, onları təhlil etmək bacarığı verməli, öz zehni fəaliyyətini elmi şəkildə və müstəqil olaraq təşkil etməyə qabil olan intellekt yetişdirməlidir [1].*

# МЕТОДИЧЕСКОЕ СОДЕРЖАНИЕ ГЕОГРАФИИ В УЧЕБНОЙ ПРОГРАММЕ СРЕДНИХ ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛЫ

***Резюме***

*Основная цель – иметь возможность свободно перемещаться в информационном пространстве, направлять целенаправленные действия. Отсюда вытекает такая педагогическая необходимость, что школа должна давать учащимся не обильные сведения о природе, обществе и окружающем мире, а умение обнаруживать и анализировать эту информацию, воспитывать интеллект, способный организовать свою мыслительную деятельность. научно и независимо [1].*

# METHODOLOGICAL CONTENT OF GEOGRAPHY IN THE CURRICULUM OF SECONDARY GENERAL EDUCATION SCHOOLS

***Summary***

*The main goal is to be able to move freely in the information space, to direct targeted action. From here, such a pedagogical necessity emerges that rather than providing students with abundant information about nature, society, and the surrounding world, the school should give them the ability to discover and analyze this information, and cultivate an intellect capable of organizing their mental activity scientifically and independently [1].*

***Açar sözləri:*** *Coğrafiyadan yeni fənn kurikulumu, coğrafi mədəniyyət, coğrafiyanın differensasiyası, tədqiqatın obyekti və predmeti*

***Ключевые слова:*** *новая предметная программа от географии, географическая культура, дифференциация географии, объект и предмет исследования*

***Key words:*** *new subject curriculum from geography, geographical culture, differentiation of geography, object and subject of research*

Əsrimiz intellekt əsridir. İnsan öz fəaliyyətinin məqsədi, ona çatmağın vasitə və yollarını düzgün müəyyənləşdirmək üçün ətrafında və dünyada baş verən iqtisadi-sosial, siyasi və mədəni hadisə və proseslərdən baş açmağı bacarmalıdır. Fəaliyyət məqsədi aydın olmadıqda informasiya boşluğu insana ondan faydalanmağa imkan vermir. Eyni zamanda informasiya bolluğu insan fəaliyyətinə mənfi təsir göstərir. Bütün bunlar da müvafiq tədris mühitində formalaşmalıdır. Buna görə də məktəbi düşünməyə cəhd göstərmək, onu daha çevik etmək və müasirləşdirmək lazımdır. Azərbaycan dövlətinin demokratik dövlət quruculuğu yolunda fəaliyyətinin ən vacib istiqamətlərindən biri təhsil islahatıdır. Azərbaycanın həyata keçirməli olduğu möhtəşəm məsələlərin həllini yüksək səviyyəli mütəxəssislər və ixtisaslı işçi qüvvəsi olmadan yerinə yetirməyi təsəvvür etmək mümkün deyil. Respublikamızda təhsil islahatı Azərbaycanın intellektual potensialının qorunmasına və inkişaf etdirilməsinə yönəldilmişdir. Bazar iqtisadiyyatı şəraitində təhsil sistemi dövləti çevik düşünməyə qabiliyyətinə malik olan, beynəlxalq tələblərə cavab verən kadrlarla təmin etməlidir. Təhsil islahatının əsas istiqamətlərindən biri tədris proqramlarının, təlimin məzmununun və tədris metodikasının yeniləşməsidir. Onlar zamanın tələblərinə uyğun gəlməli, Azərbaycan iqtisadiyyatının inkişaf meyllərini nəzərə almalı və beynəlxalq təcrübəyə əsaslanmalıdır. Bu mənada Coğrafiya fənninin üzərinə mühüm vəzifələr düşür. Coğrafiyanın təlimi şagirdləri təbiət və cəmiyyətin qarşılıqlı əlaqəsi haqqında biliklərlə silahlandırır, onlarda bir sıra həyati əhəmiyyətli bilik və bacarıqların formalaşdırılmasına şərait yaradır. Müasir mərhələdə coğrafiyanın tədrisi şagirdlərə bol-bol informasiya verməkdən daha çox həmin informasiyalardan baş açmaq, zehni və əməli fəaliyyətlərini məntiqi, elmi əsaslarla təşkil etmək, cəmiyyətdə öz yerini tapmaq bacarığı ilə silahlandırmalıdır. Tədris prosesində şagirdlər cəmiyyətin həyatında fəal iştirak etməyə hazırlanmalıdırlar. Coğrafiyanın təlimi şagirdlərdə müxtəlif rəylər, baxışlar və konsepsiyaları təhlil etməyi öyrətməli, öz baxışına zidd olan rəylərə hörmətlə yanaşmağa qabil olan şəxsiyyət tərbiyə etməlidir. Bu cür vəzifələrin həll edilməsi coğrafiyanın tədrisi metodikasının da üzərinə düşür. Müasir dövrdə cəmiyyətin həyatında baş verən ciddi dəyişikliklər ümumtəhsil məktəblərinin də işini xeyli çətinləşdirir, eyni zamanda müəllimin sosial rolunun artmasına, onun peşəkar

fəaliyyətinə verilən tələblərin də yüksəlməsinə səbəb olmuşdur. Dövlət və cəmiyyət müəllimdən tədris prosesinin təşkilinə daha yaradıcı yanaşmasını, tədris etdiyi fənnin məzmununu, onun tədrisi metodikasını daha ətraflı bilməyi, işlədiyi sahədə tədqiqat işini aparmağı tələb edir. Müəllimin metodik hazırlığı onun peşəkar fəaliyyətində ən vacib şərtlərdən biridir. Bunun üçün "yaddaş məktəbindən" "təfəkkür və fəaliyyət məktəbinə" keçid daha ciddi şəkildə irəli sürülür. Tədris proqramları tərtib olunarkən şagird həmişə diqqət mərkəzində durmuş olur. Odur ki, proqram ilk növbədə şagirdlərin intellektual və yaradıcılıq qabiliyyətlərinin inkişafına, onların ümumi mədəniyyətlərinin və baza təhsillərinin formalaşdırılmasına doğru istiqamətləndirilməlidir. Coğrafiya fənninin tədrisi istər təbiət, istərsə də humanitar elm sahəsi kimi müasir dövrün geosiyasi, iqtisadi, sosial, geoekoloji problemlərinin həllində uğurla çıxış edir [1-3]. Bununla belə uzun müddətdir ki, coğrafiya elmi və ona müvafiq olaraq məktəb coğrafiyasının məzmunu iki müstəqil və bir-biri ilə az bağlı olan sistemə – təbii coğrafiya və iqtisadi coğrafiya bloklarına bölünmüşdür. Birinci blokun məzmunu başlıca olaraq təbiət qanunlarına, ikinci blokun məzmunu isə cəmiyyətin inkişaf qanunlarına tabe olurdu. Bütün bunların nəticəsində isə elmi coğrafiya onunla birlikdə məktəb coğrafiyası özünün inteqrasiyasını və kompleksliyini, obyekt və metodoloji vahidliyini, birliyini itirməyə başladı. Xarici ölkələrin təcrübəsi göstərir ki, coğrafiya elminin və müvafiq olaraq məktəb coğrafiyasının differensasiyası prosesi ilə yanaşı inteqrasiya tendensiyası saxlanılması mövcuddur. Tədris fənni kimi vahid coğrafiyanın saxlanılması "təbiət-ətraf aləm-cəmiyyət" qarşılıqlı əlaqəsinin daha intensiv baş verdiyi coğrafi mühitin dərk edilməsi ilə yanaşı, onun inkişafı və dəyişdirilməsi tendensiyasının proqnozlaşdırılması üçün aparıcı rol oynaya bilər. Odur ki, yeni fənn kurikulumu vahid coğrafi ideyasına əsaslanaraq üç məzmun xətti üzərində qurulmuş və daha çox fəaliyyətyönümlü istiqamət almışdır. Coğrafiyadan yeni fənn kurikulumu işlənib hazırlanarkən təhsilin baza məzmununda coğrafi inteqrasiyadan istifadə edilməsi bir tərəfdən elmin perspektiv istiqamətlərini – kompleks coğrafi, geoinformasiya, ictimai-humanitar, ekoloji-coğrafi və s. sahələrini əks etdirməyə, digər tərəfdən isə müasir pedaqoji fikrin yaradıcı-dərketmə qabiliyyətlərinin inkişafının əsas tendensiyalarını göstərməyə imkan verir. Belə yanaşma tədris fənni kimi coğrafiyanın inkişafında keyfiyyətcə yeni mərhələ olur ki, onun mərkəzində insan durur. Coğrafiyanın tədrisi metodikası kursunun tədrisinin əsas vəzifələri aşağıdakılardan ibarətdir:

- tematik və dərs planlarını tərtib etmək bacarıqlarını formalaşdırmaq;
- idarə olunması üzrə bilik və bacarıqları mənimsəmək, pedaqoji fəaliyyətə yaradıcı yanaşma bacarıqlarının və istəklərinin inkişaf etdirilməsi, özünü təhsilə istiqamətləmək;

- müəllimin təlim prosesində "öyrədən" rolunu təmin edən pedaqoji hazırlığını təmin etmək;
- şagirdin tədris prosesində "öyrənən" rolunda çıxış etməsi üçün imkanlarını təhlil etmək;
- məktəb coğrafiyasının təhsilverici, inkişafetdirici və tərbiyəedici vəzifələrini yerinə yetirmək;
- coğrafiya fənninin tədrisində müasir interaktiv metodların tətbiq edilməsi imkanlarını öyrətmək;
- şagirdlərin müstəqil yaradıcılığını, sərbəst fəaliyyətinin təşkil edilməsi üçün onları istiqamətləndirmək;
- təlim-tərbiyə prosesinin praktikliyini artirmaq məqsədi ilə müxtəlif vəsaitlərdən istifadə etmək bacarığını formalaşdırmaq;
- coğrafi biliklərin obyektiv qiymətləndirilməsi məqsədi ilə müxtəlif variantlarını praktiki olaraq tətbiq etmək və s. bacarıqlarını formalaşdırmaqdır.

Coğrafiyanın tədrisi metodikası ümumtəhsil məktəblərində coğrafiyanın təlimi prosesinin qanunauyğunluqları haqqında elmdir [2]. Bu elm şagirdlərin və müəllimlərin qarşılıqlı fəaliyyəti nəticəsində şagirdlərin coğrafi bilik və bacarıqlara yiyələnməsi prosesini öyrənir. Pedaqoji elmlərdən biri olmaqla coğrafiyanın tədrisi metodikasının əsas vəzifəsi müəllimin yaradıcı şəxs kimi formalaşdırılması, onun metodiki bilik və bacarıqlarla silahlandırılmasından ibarətdir. Coğrafiyanın təlimi metodikası ilə tanış olmaqla müəllim uzun illər ərzində bu elmin tədrisi sahəsində toplanmış pedaqoji təcrübəni öyrənir, bu təcrübənin müsbət cəhətlərindən yaradıcı şəkildə öz fəaliyyətində istifadə edir. Coğrafiyanın tədrisi metodikası fənnini öyrənənə qədər bakalavr pilləsinin tələbləri coğrafiya elminin nəzəri məsələləri ilə artıq tanış olurlar. Çünki tədris edilən fənni yaxşı bilmədən onu yaxşı da tədris etmək olmaz. Coğrafiyanın tədrisi metodikasının ən mühüm vəzifələrindən biri coğrafi təhsilin təkmilləşdirilməsindən, onun milli dəyərlərə çevrilməsindən, cəmiyyətdə coğrafi mədəniyyətin formalaşmasını təmin etməkdən ibarətdir. Coğrafiyanın öyrənilməsi bəşər mədəniyyətinin bir hissəsi olan coğrafi mədəniyyətin formalaşdırılmasına xidmət edir. Coğrafi mədəniyyət bizi əhatə edən coğrafi mühitə qayğıkeş münasibətin pedaqoji təsirlə yaranan nəticəsidir. Uzun və bütöv bir prosesin təsiri ilə ətraf mühitin elmi dərk edilməsi ilə inkişaf edir [2].

Coğrafi mədəniyyətin əsas əlamətləri aşağıdakılardır:

- ətraf mühitin elmi qavranılması;
- coğrafiyanın elmi dilinə yiyələnmək (anlayış, termin, nəzəriyyə, prinsiplər);
- ətraf coğrafi mühitin vəziyyəti və dəyişməsi haqqında biliklər;
- coğrafi analitik təfəkkürün inkişafı, səbəb-nəticə əlaqələrini müəyyən etmək bacarıqları;

- məkan təsəvvürlərinin inkişafı, coğrafi bilikləri xəritəyə "köçürmək" bacarıqları;
- ekoloji təhsil; ekoloji düşüncə, coğrafi mühitin qorunub saxlanılması və yaxşılaşdırılmasına çalışılması;
- coğrafi bilik və bacarıqlardan praktikada, gündəlik həyat fəaliyyətində istifadə edilməsi;
- yaşadığımız məhəllin real coğrafi problemlərini görmək və onların real həlli yollarını tapmaq qabiliyyəti;
- coğrafi mühitin inkişaf xüsusiyyətlərini qiymətləndirmək və proqnozlaşdırmaq, real qısamüddətli proqnozlar tərtib etmək qabiliyyətləri.

Beləliklə, "coğrafi mədəniyyət" anlayışı müasir məktəb coğrafiyasının məzmununun qurulmasında əsas rol oynayır. Bu hər bir şagirdin mənəvi aləminin formalaşdırmasını təmin etməyə, dünya sivilizasiyasının dəyərləri ilə tanış olmasına, şəxsiyyət kimi yetişməsinə yönəldilmişdir.

Coğrafiyanın tədrisi metodikasının əsas mənbələri:

- coğrafiya elminin nəzəri məsələləri. Coğrafiyanın təlim metodları bu elmin məzmunu əsasında müəyyən edilir;
- pedaqogika, pedaqoji psixologiya və məntiq elmlərinin nəzəri məsələləri;
- metodiki ədəbiyyatda, məktəb coğrafiyası tarixində, xarici ölkə təcrübəsində əks olunan pedaqoji təcrübənin öyrənilməsi, təhlili və ümumiləşdirilməsi.

Coğrafiyanın təlimi prosesinin əsas xüsusiyyətləri:

- fiziki və iqtisadi coğrafi biliklərin vahid kursda, inteqrasiyası əsasında ərazilərin öyrənilməsinə kompleks (ölkəşünaslıq) yanaşma;
- coğrafiyanın şagirdlərə kartoqrafik biliklər verən yeganə fənn olduğunu nəzərə alaraq xəritəyə və kartoqrafik metoda xüsusi diqqət yetirilməsi;
- təlimin diyarşünaslıq prinsipinin (vətənşünaslıq) geniş tətbiqi;
- coğrafiyada öyrənilən obyekt və hadisələrin əksəriyyətinin sinfə gətirilməsi mümkün olmadığı üçün çox müxtəlif təlim vasitələrinin istifadə edilməsi;
- şagirdlərin təsəvvürlərinin və təfəkkürlərinin inkişafına daha yaxşı təsir etdiyi üçün öyrənilən məsələlərin qlobal, regional və lokal (yerli) səviyyədə nəzərdən keçirilməsi;
- fənnin bütün məzmununun geoekoloji aspektinin gücləndirilməsi və şagirdlərin geoekoloji dərketməsinin inkişafı;
- tədrisin daha çox praktik istiqamətə yönəldilməsi, şagirdlərin coğrafi biliklərini öz gündəlik həyat fəaliyyətlərində və istehsalatda istifadə edə bilmələri;
- fənnin öyrənilməsində məhəldə aparılan işlərin, ekskursiya və müşahidələrin təşkilinə daha çox diqqət yetirilməsi;

- tədris materiallarının həyatla, ölkədə və dünyada baş verən hadisələrlə əlaqəsinə xüsusi diqqət verilməsi.

Bölmə üzrə nəticə və təkliflər:

- Məktəb coğrafiyası şagirdlərdə geniş dünyagörüşlərinin formalaşdırılmasında, onlarda həyat və fəaliyyətlərində vacib olan bacarıqlara yiyələnməsində çox mühüm rol oynayan tədris fənnidir.
- Ümumbəşəri mədəniyyətin bir hissəsi olan, "coğrafi mədəniyyətin formalaşdırmasına xidmət etməklə coğrafiya məktəbdə onlara elmin əvəzində çıxış edir [3].

Pedaqoji elmlər sisteminə daxil olmaqla coğrafiyanın tədrisi metodikası bir sıra elmlərlə sıx qarşılıqlı əlaqədə inkişaf edərək formalaşmışdır. Mövzu: "Şagirdlərin elmi metodlarla tanış edilməsinin pedaqoji əsasları". Mövzunun aktuallığı ondan irəli gəlir ki, məktəbin təhsil məqsədi dəyişmiş, şagird şəxsiyyətinin inkişafına yönəldilmişdir. Onlara hazır biliklərin öyrədilməsi bu günün tələblərinə cavab vermir. Şagirdlərə "öyrənməyi öyrətmək" üçün daha optimal və səmərəli yollar axtarışı ciddi metodik axtarış aparılmasını vacib edir. Bunun üçün də məktəbdə coğrafiyanın təlimi prosesində şagirdlərin elmi-tədqiqat metodları ilə tanış edilməsi bu məsələnin həllində kömək ola bilər. Tədqiqatın probleminin məğzi ondan ibarətdir ki, şagirdlərin elmi metodlarla tanış edilməsi haqqında pedaqoji, psixoloji ədəbiyyatda, metodiki işlərdə çoxlu qiymətli fikirlərin olmasına baxmayaraq, deyilənləri ümumiləşdirən, sistem halına salan vahid fundamental pedaqoji tədqiqat işi yoxdur. Tədqiqatın obyektini orta ümumtəhsil məktəblərində coğrafiyanın təlimi prosesi təşkil edir. Tədqiqatın predmetini elmi metodlar haqqında biliklərin şagirdlərin fənnə idrak maraqlarının inkişafına, onların elmi dünya görüşlərinə və praktik qabiliyyətlərinin genişlənməsinə təsirinin aşkar edilməsi təşkil edir. Əgər coğrafiyanın tədrisində fənnin məzmununa sistematik olaraq elmi metodlar haqqında informasiya daxil edilərsə, şagirdlər səviyyələrinə uyğun şəkildə elmi metodlarla tanış edilərsə, bu da: a) şagirdlərin fənnə marağının artırlmasına, fənnin şüurlu mənimsənilməsinə; b) şagirdlərin biliklərinin keyfiyyətinin yüksəldilməsinə; c) elmi dünyagörüşlərinin genişlənməsinə, praktik qalibiyyətlərinin və hazırlıqlarının yüksəldilməsinə səbəb olar. İşin məqsədini coğrafiyanın təlimi prosesində elmi-tədqiqat metodları ilə tanışlığın şagirdlərin bilik keyfiyyətinin yüksəldilməsi metodikasını işləmək və eksperimental olaraq yoxlamaq təşkil edir. Tədqiqatın vəzifələri tədqiqatın fərziyyəsindən və məqsədindən asılı olaraq formalaşdırılır və işin əsas məzmununu əks etdirir [3,4]. Mövzu üzrə aşağıdakı vəzifələrin həll edilməsi vacibdir:

- Pedaqoji, psixoloji və metodiki ədəbiyyatı öyrənən tədris prosesində şagirdlərin elmi metodlarla tanış edilməsinin rolu və vacibliyini nəzəri cəhətdən əsaslandırma və təlim-tərbiyə əhəmiyyətinin müəyyən edilməsi;

- Elmi metodlardan istifadə edilməsinin məzmununu, həcmi və ardıcıllığını təyinetmə;
- Şagirdlərin elmi metodlarla tanış edilməsi mərhələləri, forma və yolları, həmçinin əsas metodik şərtlərini aşkar edib əsaslandırmaq;
- Təlim prosesinin elmi metodlardan istifadə edilməsinin pedaqoji metodiki sistemini işləyib hazırlamaq və eksperimental yoxlamaq;
- Coğrafiyadan sinifdən xaric işlər zamanı elmi metodlarla tanış edilməsi yolları və məzmununun təyin edilməsi;
- Öyrədilən materialın məzmununun seçilməsi, müəllimlərin iş təcrübələrinin təhlili, eksperiment aparan müəllimlər üçün tövsiyə materialları hazırlamaq, tədqiqatın problemi, fərziyə və vəzifələrinin dəqiqləşdirilməsi, tədqiqatın gələcək istiqamətinin müəyyənləşdirilməsi;
- Əldə edilmiş nəticələr əsasında, yeni metodikanın praktikada geniş tətbiqini təşkil etmək, yoxlamaq;
- Yeni metodikanın şagirdlərin bilik səviyyəsinə və fərdi keyfiyyətlərinin inkişafına təsirini müəyyənləşdirmək.

Müasir dövrdə coğrafiya üzrə aparılan elmi-metodiki tədqiqatların əsas istiqamətləri aşağıdakılardır:

- tədqiqatın elmi-nəzəri cəhətdən yüksəldilməsi;
- tədqiqatın müxtəlif metodlarının tətbiq edilməsi;
- məktəb təcrübəsinin öyrənilməsi və ümumiləşdirilməsində, tədqiqatın təklif və nəticələrinin yoxlanılmasında elmi-tədqiqatlara istinad edilməsi;
- şagirdlərin öyrədilməsi prosesinə diqqətin artırılması, əvvəllər coğrafiyanın tədrisi metodikası üzrə aparılan işlərdə başlıca diqqət müəllimin fəaliyyətinə yönəldilirdisə, hazırda diqqət mərkəzində şagird durur;
- çox mühüm problemlər üzrə metodik tədqiqatların planlaşdırılması və keçirilməsində elmi kollektivlərin işində praktik müəllimlərin cəlb edilməsi;
- metodik tədqiqatlarda məktəblilərin fərdi yaş-psixoloji xüsusiyyətlərinin nəzərə alınması, dərslərdə və sinifdənkənar tədbirlərdə şagirdlərin fərdi və qrup formalarına diqqətin artırılması.

Coğrafiyanın tədrisi metodikası üzrə elmi tədqiqat işlərinin aparılmasına böyük ehtiyac var və bu müəllimlərin nəzəri və praktik hazırlıqlarının yüksəldilməsinə xidmət edir.

- Tədqiqat prosesi həm nəzəri, həm də empirik tədqiqat metodlarının qarşılıqlı tətbiqinin nəticəsi kimi ortaya çıxır.
- Coğrafi tədqiqatın məntiqi tədqiqat prosesinin ardıcıllığını və onun mahiyyətini təşkil edir.

Coğrafi təhsilin məqsədi onun həyata keçirilməsini təmin edən vəzifələrlə daha da dəqiqləşdirilir:

- Müasir coğrafi məkanın müxtəlifliyini onun müxtəlif səviyyələrində (yaşadığı məhəldən bütün Yer kürəsi miqyasında) şagirdlər tərəfindən mənimsənilməsi;
- Şagirdlər tərəfindən coğrafi təbəqədə istər ölkə, istərsə də dünya miqyasında baş verən təbiət, ekoloji, iqtisadi, sosial, geopolitik və s. proseslərin xarakterinin və dinamikasının dərk edilməsi;

VI sinifdə tədris edilən "Qitələrin və ən mühüm dövlətlərin coğrafiyası" kursu "Materiklərin və okeanların fiziki coğrafiyası" adlandırıldı. Başlıcası isə kursun elmi səviyyəsinin yüksəldilməsi məqsədi ilə dərs ilinin əvvəlində "Ümumi coğrafi qanunauyğunluqlar" bölməsinin tədris olunması idi ki, bu da materiklərin öyrənilməsi üçün nəzəri əsasların yaradılmasına xidmət edirdi. VI sinifdə tədris edilən "Qitələrin və ən mühüm dövlətlərin coğrafiyası" kursu "Materiklərin və okeanların fiziki coğrafiyası" adlandırıldı. Başlıcası isə kursun elmi səviyyəsinin yüksəldilməsi məqsədi ilə dərs ilinin əvvəlində "Ümumi coğrafi qanunauyğunluqlar" bölməsinin tədris olunması idi ki, bu da materiklərin öyrənilməsi üçün nəzəri əsas yaradılmasına xidmət edirdi.

- Şagirdlər tərəfindən təbiət və cəmiyyətin qarşılıqlı təsirinin xüsusiyyətlərinin, ətraf mühitin mühafizəsinin, təbiətdən səmərəli istifadə edilməsinin əhəmiyyətinin başa düşülməsi;
- Azərbaycan Respublikasının və öz rayonunun, həmçinin dünya ölkələrinin və iri regionlarının təbiəti, əhalisi və təsərrüfatı haqqında biliklər sistemini mənimsəməsi, təsərrüfatın ərazi təşkilinin qanunauyğunluqlaırnın başa düşülməsi;
- Təbii komponentlərin və təbii komplekslərin quruluşu və inkişaf qanunauyğunluqlarının, əhalinin yerləşməsinin təbii, sosial və istehsal amilləri ilə əlaqəsinin qanunauyğunluqların nəzərdən keçirilməsi.

Tətbiqi vəzifələrə aid ola bilər:

- Müxtəlif coğrafi informasiya mənbələri ilə şagirdlərin müstəqil işləmək bacarıqlarının inkişaf etdirilməsi;
- Şagirdlərin coğrafiya elminin əsas tədqiqat metodları ilə tanış edilməsi, onların idrak və praktik bacarıqlara yiyələnmələri;
- Şagirdlərin coğrafi biliklərini istehsalat və gündəlik həyat fəaliyyətlərinə tətbiq etmək bacarıqlarının inkişaf etdirilməsi, öz mərhələlərində təbiətin, təsərrüfatın və ekoloji vəziyyəti qiymətləndirməyi, baş verən dəyişiklikləri proqnozlaşdırmaq.

VI sinifdə "Fiziki coğafiyanın başlanğıc kursundan quruluşunda "Atmosfer" bölməsinin öyrənilməsinə "Hidrosfer" bölməsindən əvvəl başlanılır. Bunu "Hidrosfer"ə aid bir sıra anlayışların izahının "Atmosfer" bölməsi ilə əlaqəli olması ilə izah etmək olar. Sonrakı siniflərdə fiziki coğrafiya kurslarının məzmununda veriləcək biliklər sistemini nəzərə alaraq bu kursun məzmunu bir qədər sadələşdirilmişdir. VII sinifdə "Materiklər və

okeanların fiziki coğrafiyası" kursunda daha ciddi məzmun dəyişiklikləri aparılmışdır. Əvvəllər kurs "Materiklər və ölkələr coğrafiyası" adlandırılırdı. Bu da 90-cı illərin əvvəllərində icbari təhsilin IX sinifdə qurtarması ilə əlaqədar idi. Məktəbi IX sinifdə bitirəcək şagirdlərin "Dünyanın iqtisadi coğrafiyası" ilə tanış olmayacaqlarını nəzərə alaraq VII sinifdə bəzi mühüm dövlətlərlə tanışlıq nəzərdə tutulurdu. Sonradan icbari təhsilin XI sinfə keçirilməsi ilə əlaqədar kurs "Materiklər və okeanların fiziki coğrafiyası" adlandırıldı, ayrı-ayrı ölkələrə aid materiallar kursun məzmunundan çıxarıldı. Gələcəkdə müxtəlif peşəyönümlü məktəblər üçün coğrafiya fənni üzrə də xüsusi proqramlar tərtib oluna bilər. Əvvəllər belə bir təcrübə olmuşdur ki, müxtəlif peşələr üzrə xüsusi kurslar tədris olunurdu. Məsələn, "Tibbi coğrafiya", "Geologiyanın əsasları", "Rekreasiya coğrafiyası", "Qlobal coğrafiya" və s.

Uzun illər ərzində məktəb coğrafiyasının ən mühüm ənənəsi fiziki və iqtsadi coğrafiya kurslarının ayrılıqda öyrənilməsi olmuşdur. Bu ənənə indi də davam edir. Lakin coğrafiyadan fənn kurikulumunun tətbiqinə başlanması ilk növbədə bu qaydanı pozur və vahid coğrafiya kursunun öyrənilməsinə başlanılır. "Təbiətşünaslıq" kursu coğrafiyanın sistematik tədris edilməsi üçün baza rolunu oynayırdı. Yeni kurikulumun tətbiqi ilə əlaqədar onun yerini "Həyat bilgisi" kursu tutur. Bu kursun da məzmununda Yer planeti, canlı və cansız təbiət, təbiətin obyekt və hadisələri haqqında elementar məlumatlar verilir. "Fiziki coğrafiya" kursu şagirdlərə Yer kürəsi, onun təbəqələri, materiklərin və Azərbaycan Respublikasının təbiətinin xüsusiyyətləri haqqında geniş məlumat verir. VI sinifdə "Ümumi fiziki coğrafiya" kursunda verilmiş sadə fiziki coğrafi biliklər, anlayış və təsəvvürlər X sinifdəki "Yerşünaslıq" kursunda yenidən və daha dərinləşdirilmiş şəkildə davam etdirilir. Buna qədər isə VI sinfin materialları VII sinifdə "Materiklərin və okeanların fiziki coğrafiyası", VIII sinfin "Azərbaycan Respublikasının fiziki coğrafiyası" kursunun məzmununda verilən yeni bilik və anlayışlarla bir qədər də zənginləşdirilir. Beləliklə, VI-VIII və X siniflər üzrə qeyd olunan kursların məzmunundakı biliklərin ardıcıllığı bizə bütün bunlara fiziki coğrafiyanın vahid kursu kimi baxmağa imkan verir. "İqtisadi və sosial coğrafiya" kursunu da bütöv şəkildə qəbul etmək olar. VIII sinifdə "Azərbaycan Respublikasının iqtisadi və sosial coğrafiyası" kursunda ilkin iqtisadi coğrafi anlayışlar Azərbaycan Respublikası coğrafiyasının məzmununa müvafiq olaraq verilir. IX sinifdə isə "Dünyanın iqtisadi və sosial coğrafiyası" kursunun məzmununda biliklər daha da dərinləşdirilir. XI sinfin "Türk dünyasının coğrafiyası" kursu daha çox ölkəşünaslıq kursudur və burada fiziki və iqtisadi-sosial coğrafiya üzrə biliklər birlikdə öyrənilir. Coğrafiya fənn kurikulumunun ənənəvi coğrafiya proqramından fərqləndirən əsas cəhətlərdən biri onun məzmunudur. Ənənəvi coğrafiya fənn proqramında coğrafiya fənninin məzmunu siniflər üzrə

aşağıdakı kimi paylaşmışdır: VI sinifdə “Fiziki coğrafiya”, VII sinifdə “Materik və okeanların fiziki coğrafiyası”, VIII sinifdə sinifdə I yarım ildə 1 saat “Azərbaycan Respublikasının fiziki coğrafiyası”, II yarım ildə isə bununla yanaşı “Azərbaycan Respublikasının sosial-iqtisadi coğrafiyası”, IX sinifdə “Dünyanın iqtisadi və sosial coğrafiyası”, X sinifdə “Yerşünaslıq” XI sinifdə isə “Türk dünyası coğrafiyası”. Coğrafiya fənn kurikulumunda isə nəticələr elə işlənmişdir ki, bütün bu məsələlər VI sinifdən XI sinifə qədər sadədən mürəkkəbə, asandan çətinə doğru öyrəniləcək, şagird Azərbaycanı təkcə VIII sinifdə 2 saat deyil, bütün coğrafi məsələləri Azərbaycan baxımından öyrənərək təhlil edəcək, Azərbaycan coğrafiyasını VI sinifdən XI sinifə qədər mənimsəyərək vətənin təbiəti, iqtisadiyyatı, əhalisi haqqında daha mükəməl bilik və bacarıqlar qazanacaqdır. Coğrafiya fənni şagirdlərdə coğrafi təbəqənin əmələ gəlməsi və fəaliyyət mexanizmini, təbəqədə mövcud olan inkişaf qanunauyğunluqlarının dərk etdirilməsinə, Yer kürəsində təbii komplekslərin əmələ gəlməsini, təbiətdə baş verən coğrafi hadisələrin və təbii proseslərin başvermə səbəblərini izah etməyə imkan verir. Günəş sistemində Yer planetinin mövqeyi və bununla bağlı hadisələri müşahidə etməyə şərait yaradır. Məzmun xətti fənn üzrə ümumi təlim nəticələrinin reallaşdırılmasını təmin etmək üçün müəyyən olunur və onu sistemləşdirmək məqsədi daşıyır. Coğrafiya fənn kurikulumunda nəticələr məzmun xətləri üzrə qruplaşdırılmışdır. Yaradıcı fəaliyyət təcrübəsinin inkişaf etdirilməsində ən vacib vasitə problemli təlim texnologiyalarından istifadə edilməsidir. Şagirdlərin idrak fəaliyyətlərinin təşkili üsullarından geniş istifadə edilməlidir [4]. Təlim prosesi elə qurulmalıdır ki, şagirdlər müstəqil işləyə bilsinlər, özlərinin əldə etdikləri yeni biliklərdən, “kəşf”lərdən sevinc hissi duysunlar. Bu məqsədə nail olmaq üçün problem xarakterli yaradıcı tapşırıqlar verilməlidir. Bu tapşırıqlar şagirdlərdən öz səviyyələrinə uğun şəkildə yaradıcı fəaliyyət göstərməyi tələb edir, problemli situasiya yaranır. Belə olan halda bir sıra biliklər hazır şəkildə deyil, axtarışın nəticəsi kimi mənimsənilir. Məsələn, şagirdlərdən ərazidə su anbarı tikilməsi zamanı hansı dəyişikliklərin baş verə biləcəyi haqda suala ətraflı cavab verməK tələb olunur. Bu məsələnin həlli üçün aşağıdakı məntiqi söhbət təşkil olunur: 1) Su anbarı hansı məntəqədə tikilir? 2) Su anbarından hansı təsərrüfat sahələri istifadə edir? 3) Su anbarı tikilərsə, sahil zonada hansı dəyişikliklər ola bilər? 4) Nə üçün bu zaman yeraltı suların səviyyəsi qalxır? 5) Yeraltı suların səviyyəsinin qalxması hansı proseslərə səbəb olur? 6) Nə üçün sahillər yuyulur və dağılır?

Yaradıcı fəaliyyət təcrübəsinin inkişafı üçün digər şərtlərdən biri də məktəbdə güclü maddi bazanın olmasıdır. Bura yaxşı təchiz edilmiş coğrafiya kabineti, yaradıcı xarakterli didaktik vasitələr, əlavə coğrafi informasiya əldə etmək üçün vasitələr və s. daxildir. Xəritə coğrafiyanın təlimi prosesində ən mühüm vasitədir. Lakin şəkillər kartoqrafik təsvirə görmə obrazı verir, xəritəni

və təsviri tamamlayır. Son illər texniki vasitələrin inkişafı dərslərdə divar şəkillərinin, sxematik tabloların istifadə edilməsini lazımsız edir. Əksər müəllimlər onların əvəzinə ekran vasitələrindən, kompüterdən alınan təsvirlərin istifadəsini haqlı olaraq üstün hesab edirlər. Doğrudan da, ənənəvi şəkil və tablolara ehtiyac artıq o qədər də böyük deyil. Lakin bu vəsaitlər öz metodik imkanlarını hələ itirməmişlər, onlardan istifadə edilməsinin müəyyən üstünlükləri də vardır. Əlbəttə, coğrafiya dərslərində şəkillərlə aparılan işlər öz müxtəlifliyi ilə seçilir. Bu dərsin məzmunundan, şəkildəki təsvirdən, şagirdlərin dünyagörüşündən və s. asılıdır. Şagirdlərə şəklin adını oxumağı, burada nəyin təsvir olunduğunu, şəklin coğrafi məzmununu suallarla onlardan almaq olar. Sonraki işlərdə şagirdlər müstəqil olaraq şəkillərin təsvirini verə bilər. Bunun üçün o, xəritədən, dərsliyin mətnindən və s. istifadə edə bilər. Təbiət və təsərrüfat obyektlərini və hadisələrini sxematik cədvəllərlə verilməsi də coğrafi proses və qanunauyğunluqların təsvir edilməsi çətin olan tərəflərini öyrənməyə kömək edir. Coğrafi obyektlərin və onlardakı informasiyanın təsvir edilməsi üsullarına görə cədvəllər kartoqrafik, illüstrativ, sxematik, statistik və qarışıq ola bilər. Bu vəsaitlərdən istifadə olunması şagirdlərin biliklərinin həcminin artırılmasına, tədris materiallarının bilavasitə qavranılmasına, təsəvvürlərin formalaşdırılmasına, coğrafi qanunauyğunluqların daha dərindən qavranılmasına imkan verir. Şagirdlərin təbiətdə müşahidə edə bilmədikləri hadisə və proseslər onların köməyi ilə daha asan izah və nümayiş oluna bilər. Müəllimlər ekran vasitələri ilə işə bir qədər ciddi yanaşmalı, onlarla işin metodikasına fikir verməlidirlər. Dərsə hazırlaşarkən müəllim bir neçə gün əvvəldən audiovizual vasitələrin məzmunu ilə tanış olmalıdırlar ki, ondan dərsin hansı mərhələsində istifadə edəcəyini müəyyənləşdirə bilsin. Texniki vasitələrin nümayişi zamanı və ondan sonra şagirlərlə hansı məzmunda söhbət aparacağını, onlara verəcəyi sualları planlaşdırmalıdır. Bu da müəllimə imkan verir ki, nümayiş materialları əsasında müzakirə aparsın, şagirdlərin təhlil aparmalarına, ümumiləşdirmə və nəticələr çıxarmalarına şərait yaratsın. Audiovizual vasitələrin istifadə edilməsi zamanı aşağıdakı məsələlərin yerinə yetirilməsi vacibdir. Coğrafiyanın tədrisi metodikasının nəzəri problemləri, fəal təlimin həyata keçirilməsi, fənn kurikulumunun tətbiqinin aktual məsələləri sistemli şəkildə izah olunur (4). Coğrafiyanın təlimi şagirdləri təbiət və cəmiyyətin qarşılıqlı əlaqəsi haqqında biliklərlə silahlandırır, onlarda bir sıra həyati əhəmiyyətli bilik və bacarıqların formalaşdırılmasına şərait yaradır. Müasir mərhələdə coğrafiyanın tədrisi şagirdlərə bol-bol informasiya verməkdən daha çox həmin informasiyalardan baş açmaq, zehni və əməli fəaliyyətlərini məntiqi, elmi əsaslarla təşkil etmək, cəmiyyətdə öz yerini tapmaq bacarığı ilə silahlandırmalıdır. Tədris prosesində şagirdlər cəmiyyətin həyatında fəal iştirak etməyə hazırlanmalıdırlar. Coğrafiyanın təlimi şagirdlərdə müxtəlif rəylər, baxışlar və konsepsiyaları təhlil etməyi öyrətməli,

öz baxışına zidd olan rəylərə hörmətlə yanaşmağa qabil olan şəxsiyyət tərbiyə etməlidir. Bu cür vəzifələrin həll edilməsi coğrafiyanın tədrisi metodikasının da üzərinə düşür. Müasir dövrdə cəmiyyətin həyatında baş verən ciddi dəyişikliklər ümumtəhsil məktəblərinin də işini xeyli çətinləşdirir, eyni zamanda müəllimin sosial rolunun artmasına, onun peşəkar fəaliyyətinə verilən tələblərin də yüksəlməsinə səbəb olmuşdur [4].

***Ədəbiyyat***

1. *Açıq Cəmiyyət İnstitutu. “Dərsin planlaşdırılması və qiymətləndirilməsi” VI kitab. Bakı - 2000.*
2. *Orta ümumtəhsil məktəblərində coğrafiya proqramı. Bakı, Təhsil, 2002.*
3. *Seyfullayeva N.S. Coğrafiyanın tədrisi metodikası. Bakı - 2011.*
4. *Oqtay Alxasov. Cografiyanın tədrisi metodikası. / Elm və Təhsil, Bakı - 2013.*

**Ə.T.Əhmədov**
**Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası**
***ehmedovehmed067@gmail.com***

# GƏNC TAEKVONDOÇULARIN DÖZÜMLÜLÜK KEYFİYYƏTİNİN FİZİOLOJİ BAXIMDAN İNKİŞAF ETDİRİLMƏSİ VASİTƏ VƏ METODLARI

***Xülasə***

*Məqalədə taekvondo idman növü üzrə gənc idmançıların fiziki hazırlığında əsas yeri tutan dözümlülük keyfiyyətinin orqanizmin fizioloji baxımından inkişaf etdirilməsi problemi araşdırılır. Müəllif, gənc taekvondoçuların fiziki hazırlığının dözümlülüklə yanaşı digər keyfiyyətlərinə də diqqət yetirmiş, orqanizmin potensial imkanlarından istifadə etməklə təklif olunan üsul və metodlarla dözümlülük keyfiyyətinin təkmilləşdirilməsi məsələsinə çox istiqamətli şəkildə baxmışdır. Taekvondo idman növünün fəaliyyətinin həyata keçirilməsi üçün əsas proseslər haqqında bir sıra tədqiqatçı alimlərin fikir və əldə etdikləri nəticələr təhlil olunmuşdur.*

# СРЕДСТВА И МЕТОДЫ ФИЗИОЛОГИЧЕСКОГО РАЗВИТИЯ КАЧЕСТВ ВЫНОСЛИВОСТИ У ЮНЫХ ТХЭКВОНДОИСТОВ

***Резюме***

*В статье исследуется проблема развития качества выносливости, занимающего основное место в физической подготовке юных спортсменов в спорте тхэквондо, с точки зрения физиологии организма. Автор обратил внимание на другие качества физической подготовки юных тхэквондистов, наряду с выносливостью и рассмотрел вопрос повышения качества выносливости предложенными способами и методами за счет использования потенциальных возможностей организма. Проанализированы мнения и результаты, полученные ряд ученых-исследователей об основных процессах реализации занятий тхэквондо.*

# MEANS AND METHODS OF PHYSIOLOGICAL DEVELOPMENT QUALITIES OF ENDURANCE IN YOUNG TAEKWONDO PLAYERS

***Summary***

*The article examines the problem of developing the quality of endurance, which occupies a major place in the physical training of young athletes in the sport of taekwondo, from the point of view of the physiology of the body. The author drew attention to other qualities of physical training of young taekwondo athletes, along with endurance, and considered the issue of improving the quality of endurance by the*

*proposed methods and methods through the use of the body's potential. The opinions and results obtained by a number of scientists-researchers on the main processes of the implementation of taekwondo classes are analyzed.*

***Açar sözlər:*** *taekvondo idman növü, gənc taekvondoçuların fiziki hazırlıq işləri, fiziki hazırlığın dözümlülük keyfiyyəti, idmançıların orqanizminin anaerob və aerob imkanlarının təhlili*

***Ключевые слова:*** *спортивный вид тхэквондо, физическая подготовка юных тхэквондистов, выносливость, качество физической подготовки, анализ анаэробных и аэробных возможностей организма спортсменов*

***Key words:*** *sports type of taekwondo, physical training of young taekwondo athletes, endurance, quality of physical training, analysis of anaerobic and aerobic capabilities of the athletes' organism*

İdmanın döyüş növləri sırasına daxil olan taekvondo idman növü ilə məşğul olan gənc idmançıların fiziki hazırlığı, bilavasitə məhz fiziki keyfiyyətlərin daim inkişaf etdirilməsini qarşıya məqsəd kimi qoyur. Bu isə məsələyə mövcud olan nəzarət üsullarının, vasitə və metodların fərdi olaraq seçilərək tətbiq mövqeyinin müəyyənləşməsi kimi başa düşülür.

Gənc taekvondoçuların hazırlığı prosesində fiziki hazırlıq probleminin səmərəli həlli isə qarşıya daha vacib və mürəkkəb vəzifələr qoyur. Mənbələrin araşdırılması göstərir ki, bu sahədə intensiv surətdə axtarışlar aparılır. Gənc taekvondoçuların ümumi və xüsusi fiziki hazırlıq probleminin həlli üçün bir sıra səmərəli metodlar təklif edilir. Əksər elmi araşdırmalarda ayrı-ayrı və ya bir neçə fiziki keyfiyyətlər təhlil edilir, onların istiqamətli xüsusiyyətlərinin öyrənilməsinə cəhd göstərilir.

Nəzərdən keçirilmiş ədəbiyyat mənbələrindən aydın görünür ki, dözümlülük fiziki keyfiyyətlər arasında ən vacib, çətin inkişaf etdirilən və mürəkkəb xarakterə malik olan bir keyfiyyətdir. Görünür, bu səsəbdən də tədqiqatçıların çoxu məhz bu keyfiyyətin öyrənilməsinə daha ciddi yanaşırlar. Gənc taekvondoçuların fiziki cəhətdən təkmilləşdirilməsi, fiziki keyfiyyətlərin yüksək inkişaf səviyyəsi onların idman nailiyyətlərini qazanmaları üçün mühüm şərtdir.

Dözümlülük çox mühüm, əvəzedilməz fiziki keyfiyyətdir və çox vaxt bu keyfiyyətin inkişaf səviyyəsindən asılı olaraq idman nəticələri də müəyyənləşir. Bununla əlaqədar idmanın döyüş növü olan taekvondo idman növünün nəzəriyyə və metodikasında dözümlüyün inkişaf etdirilməsi birinci dərəcəli problem kimi qiymətləndirilir.

Taekvondo idman növü ilə məşğul olan gənc idmançıların hazırlanmasında qabaqcıl mütəxəssislər (Qisamuddinov, Qalkovski, Daxnovski, Mironov, Martyanov 2007;2008) bu idman növü ilə məşğul olan idmançıların xüsusi dözümlüyünə daha çox diqqət yetirmək lazım olması

nəticəsinə gəlmişlər. Məsələ bundadır ki, idmançıların hərtərəfli yüksək fiziki, texniki, taktiki və psixoloji hazırlığına baxmayaraq, bir çox idmançılar döyüşün axırıncı dəqiqələrində mübarizə tempini azaltdıqlarından, son nəticədə müvəffəqiyyətsizliyə uğrayırlar. Bu problemin həlli üçün mütəxəssislər xüsusi dözümlüyü inkişaf etdirməyi və döyüş müddətində qüvvənin düzgün bölüşdürülməsi qabiliyyətinin aşılanmasını təklif etmişlər [1, s.25].

Bu mürəkkəb məsələ uzun illər bir çox tədqiqatçıların diqqətini cəlb etmiş və hazırda da öz aktuallığını itirməmişdir [Orbeli 2011,2012; Qinesinki 2009, 2010; Strelsov 2006, 2007; Tonkix 1999; Evinq 2000; Kisilyov, Marşak 1998, 1999; Farfel 1999, 2000; Krestnovnikov, Kosovskaya 2013; Folbort 2014; Lextman 2015].

Orqanizmin işgörmə qabiliyyətinin inkişaf etdirilməsi onun funksional sistemlərinin yaxşılaşdırılması ilə sıx əlaqədardır. V.S.Farfel göstərir ki, "...dözümlüyün səviyyəsinin yüksəlməsi ilə yorğunluğun qarşısının alınması bir-biri ilə tərs mütənasibdir, yəni dözümlük səviyyəsi yüksəldikcə yorğunluğun əmələ gəlməsi müddəti azalır və işgörmə qabiliyyəti daha uzun müddət qorunub saxlanılır".

Beləliklə, dözümlük – işgörmə qabiliyyətinin qorunub saxlanma müddəti, orqanizmin yorğunluğa və xarici mühitin mənfi təsirinə qarşı müqavimət dərəcəsi ilə xarakterizə edilir. Dözümlüyün bu kimi özünəməxsusluğu ilə əlaqədar olaraq, gənc taekvondoçularda fiziki tərbiyənin təcrübəsi və metodikasında dözümlüyün bir neçə növü – ümumi dözümlük, qüvvə dözümlüyü, sürət dözümlüyü və s. nəzərdə tutulur [3, s.87].

Hərəkətin qüvvə və sürət dözümlüyünün inkişaf etdirilməsi periferik sistemlərin dəyişməsi ilə əlaqədar olduğundan, bura işlək əzələlərin quruluş və kimyasında baş verən dəyişikliklər, eləcə də mərkəzi sinir sistemi tərəfindən hərəkət aparatının funksiyalarının, vegetativ funksiyaların və tənzimləmə funksiyasının yaxşılaşdırılması aid ola bilər.

Orqanizmin dözümlüyünü tələb edən və icrası üçün uzun müddət tələb olunan taekvondo idman növündəki hərəkətlərin icrası zamanı hərəkətlərin koordinasiyasının təkmilləşdirilməsinin mühüm rolu vardır ki, bu da məşq zamanı mərkəzi sinir sistemindən işlək əzələlərə göndərilən böyük siqnallar selinin qəbulu xarakterinin dəyişməsi ilə əlaqədardır.

Əzələ işi zamanı dözümlüyün inkişaf etməsi üçün mərkəzi sinir sisteminin uyğunlaşma və qidalanma təsiri mühüm əhəmiyyət kəsb edir. Bu fikirləri təsdiq edən N.V.Zimkin qeyd edir ki, "...görünür elə bu səbəbdən də əzələ işinin daxili funksional orqanlara olan tələblərinə qarşı uyğunlaşmasını təmin edən şərti refleksin yaranması baş verir". Daha sonra dözümlüyün inkişaf xüsusiyyətini öyrənərkən B.N.Butenko qeyd edir ki, "...fiziki keyfiyyətlərin dözümlük əsası olan idman növlərində funksional bazanın

yaradılması öz növbəsində həm də maksimal oksigen tələbatı səviyyəsinə nəzarət etməyə imkan verir”.

Məlumdur ki, böyük və submaksimal ağırlıq dərəcəli iş yerinə yetirilərkən oksigenin maksimal sərfiyyatı (OMS) əldə edilir. Bu gün isə ümumi dözümlüyün aşılanması üçün aşağı ağırlıq dərəcəli (aerob) məşq təklif olunur. Bu da hərəkət fəaliyyətinin ümumi xassəsi ilə ziddiyyət təşkil edir. Təəssüf ki, müəllif sonradan heç bir mənbəyə istinad etmədən belə bir qərara gəlir ki, “...göründüyü kimi müasir məşq metodikası hərəkət fəaliyyətinin qanunauyğun olmayan səhv anlayışına istinad edir”.

Beləliklə, xüsusi dözümlüyü inkişaf etdirmənin əsas bazasını qüvvə və sürət dözümlüyü təşkil edir. Başqa sözlə desək, dözümlük çox tələb edilən idmanın taekvondo növü ilə məşğul olan gənc idmançılarda ümumi dözümlüyü inkişaf etdirmək üçün hər şeydən əvvəl sürət-qüvvə dözümlüyünü inkişaf etdirmək lazımdır. Dözümlüyün təkmilləşdirilməsi metodikasında məşq yükünün quruluş və xüsusiyyətlərini öyrənən M.Y.Nabatnikova müəyyən etmişdir ki, “...hər bir konkret idman növü üçün daha xarakterik olan özünəməxsus xassələrin inkişaf etdirilməsi məşq rejiminin tətbiqində bir ümumi xüsusiyyətin, yəni idmançının orqanizminə məşq yükünün göstərdiyi təsirin yarış yükünün göstərdiyi təsirə yaxın olması zamanı bir şərtlə səmərəli olur ki, uzun müddət sabitlik şəraitində orqanizmin işgörmə qabiliyyəti yüksək səviyyədə təmin edilsin” [5, s.62].

Taekvondo idman növünün məşq prosesində bu məsələnin həlli zamanı iki variant qeydə alınır:

1. Submaksimal ağırlıq dərəcəli məşq səviyyəsində aparılan işin mahiyyəti onunla izah olunur ki, ümumi məşq işində uzun müddətli fiziki yük payının yarış yükünə nisbətən xeyli artırılması hesabına məşqin səmərəsinin yaxşılaşdırılması mümkün olur;
2. Məşq prosesində icra intensivliyinə görə təzad xarakterli təmrinlərdən istifadə olunması məşq yükünün səmərəliliyini artırır.

Bir sıra mütəxəssislərin fikrincə, idmanın döyüş növləri və o cümlədən də taekvondo idman növü ilə məşğul olan gənc idmançılarda xüsusi dözümlüyün inkişaf səviyyəsi əsas etibarı ilə məşq yükünün həcmindən, onun intensivliyindən, məşğələlərdə istifadə edilən məşq metodikasından və s. asılıdır. Belə ki, Ozolin [1999]; Makarov [1989]; Matveyev [2000]; Dyaçkov [1999]; Zatserski [2001]; Nabatnikova [1988]; Leşenko [1998]; Şepilov [2002]; Novruzov [2004] və başqaları qeyd edirlər ki, “...idmançıların xüsusi dözümlüyünün yaxşı inkişafı ilə onların yerinə yetirdikləri məşq yükünün həcmi və intensivliyi arasında sıx asılılıq vardır”.

Dözümlülük keyfiyyətinin əsas istiqamətlərindən biri olan xüsusi dözümlüyün yüksək səviyyədə olmasının əsas amillərindən biri də təkcə fiziki yükün ümumi həcmi deyil, ən başlıcası onun əsas komponentlərinin bir-birinə

nisbətidir. Belə komponentlərdən təmrinin icra sürəti, ümumi məşq yükü həcmində xüsusi işin payı, müxtəlif məşq metodlarının növbələşməsi və s. məşq yükünün ən zəruri tərkib hissəsi kimi qeyd edilir. Məsələn, Şapoşnikova, Kaledina, Kityayeva, Mixaylov, Şlemina və bu kimi digər tədqiqatçıların işlərində məşq yükünün gərginliyinə və intensivliyinə görə tez-tez növbələşməsi tövsiyyə olunur. Tədqiqatçıların qeyd etdikləri kimi "...belə məşq metodu idmançıların orqanizminin fərdi xarakterinə görə müxtəlif olan məşq yükünə daha səmərəli uyğunlaşmasını tələb edir, tez-tez dəyişən yarış şəraitdə onların sürət-qüvvə imkanlarından səmərəli istifadə edilməsinə zəmin yaradır".

Bir çox tədqiqatçılar məşq zamanı sürət yükünün tez-tez dəyişməsini ümumi halda qeyd etməklə kifayətlənir və xüsusi dözümlüyün səmərəli inkişafı üçün konkret məşq işinin müxtəlif rejiminin növbələşmə nisbətini qeyd etmirlər. Bu problemin araşdırılması üzrə kifayət qədər elmi və fiziki əsaslara malik nəticələrin olmaması fiziki keyfiyyətlərin tərbiyə edilməsi metodikasına öz mənfi təsirini göstərmişdir. Xüsusi dözümlüyün optimal səviyyədə inkişaf etdirilməsinin mühüm əhəmiyyətə malik olmasının çoxdan məlum olmasına baxmayaraq, müasir tələblər baxımından xüsusi dözümlüyün inkişaf etdirilməsi problemi barədə yeni səmərəli təklif və nəticələrin işlənib hazırlanması zərurəti meydana çıxır.

Gənc taekvondoçuların hazırlığının müxtəlif dövr və mərhələlərində fiziki keyfiyyətlərin qarşılıqlı asılılığı istər pedaqoji, istərsə də tibbi-bioloji planda daim mütəxəssislərin diqqətini özünə cəlb etmişdir. Fiziki keyfiyyətlərin qarşılıqlı əlaqəsinin asılılığı problemləri ilə məşğul olan bir sıra tədqiqatçılar (Ozolin 1998; Nazarov 1989; Zamyatin 2001; Romanov, Zamyatin, Tarakanov 2005 və başqaları) qeyd edirlər ki, "...sürət keyfiyyətini inkişaf etdirməyə yönəldilmiş məşq rejimi müəyyən mərhələdə dözümlüyün inkişaf etdirilməsinə imkan yaradır". Lakin qeyd etmək lazımdır ki, dözümlüyü inkişaf etdirməyə yönəldilmiş məşq rejimləri sürətin inkişaf etdirilməsinə əhəmiyyətli dərəcədə təsir göstərir [Şedin 2006; Çaqoveds 2008 və başqaları].

Digər qrup alimlərin fikrincə "...yalnız bir fiziki keyfiyyətin inkişafına yönəldilmiş uzun müddətli, birtərətli məşq hazırlığı digər keyfiyyətlərə mənfi təsir göstərə bilər" [Letunov, Lixaçevskya, Tyorkin, Yevgeniyeva və başqaları]. Qüvvə keyfiyyətini xarakterizə edən göstəricilər arasında yüksək qarşılıqlı əlaqələrin olduğunu göstərən tədqiqatların nəticələri də dözümlük keyfiyyətinə təsir edir (Zamyatin və başqaları). Müəlliflər qeyd edirlər ki, "...bütün əzələ qruplarının bərabər səviyyədə inkişaf etdirilməsi vacibdir". Belə nəticəyə gəlməkdə B.M.Rıbalkovun tədqiqat nəticələri və məşqçilərlə aparılan anket sorğularından alınan cavabların araşdırılması əsas vermişdir.

Göstərilən tədqiqatçılar apardıqları təhlil nəticəsində aşkar etmişlər ki, sürət (50 metr məsafəyə qaçış) keyfiyyətinin kompleks göstəricisi idmançıların xüsusi sürət hazırlığı testi (əl və ayaq zərbələrinin maksimal sürətlə 10 dəfə

ardıcıllıqla icrası) ilə çox uyğundur. Bu fakt çox güman ki, idmançılara tətbiq edilən testlərdə sürət keyfiyyətinin inkişaf məxsusiliyinin inteqral əlaqədə olması ilə izah edilir. Bundan əlavə 50 metr məsafəyə qaçış testi ilə xüsusi dözümlük testi (əl və ayaq zərbələrinin yorulana qədər maksimal intensivliklə icrası) arasında həm gənc idmançıların, həm də təcrübəli idmançıların sürət keyfiyyəti ilə dözümlük keyfiyyəti təzahürünün növbələşməsi kimi izah etmək olar. Bolqar tədqiqatçıları İ.İvlev və R.Kosovun [2003] gəldikləri nəticələr də bunu təsdiqləyir.

Ədəbiyyat mənbələrində gənc taekvondoçuların xüsusi dözümlüyünün təkmilləşməsinə və onun digər fiziki keyfiyyətlərlə qarşılıqlı əlaqəsinə həsr edilmiş bir sıra tədqiqat işlərinə rast gəlmək olar. S.S.Lyaşenko [2002] böyük və maksimal məşq yükündən sonra xüsusi dözümlüyün dəyişilmə dinamikasını, həftəlik məşq cədvəli üzrə məşq yükünün optimal bölüşdürülməsi variantlarını öyrənmək və xüsusi dözümlüyü müəyyən etmək məqsədi ilə iki testdən istifadə etmişdir.

**Test 1:** Əl və ayaq zərbələrinin maksimal templə 15 dəfə ardıcıllıqla icrasından ibarətdir. Bu testin seçilməsini müəllif onunla əsaslandırır ki, həmin test idmançıların anaerob mexanizmlərini müəyyən etməyə imkan verir. Belə ki, testin icra müddəti cəmi 8-10 saniyə təşkil edir. Həmin testin yarış fəaliyyətinin 60-70%-i anaerob enerji fəaliyyəti hesabına ödənilməsi həm də idmançılar üçün xüsusi dözümlük göstəricisi ola bilər [N.İ.Volkov 2002].

**Test 2:** Əl və ayaq zərbələrinin aşağıdakı düstur üzrə üç dəqiqə ərzində icrasını nəzərdə tutur:

$$10Ts = 4Zd + 8Ts = Zdmaks$$

Burada: Ts – T(zaman); S(saniyə); Zd – Z(zərbə) d(dəfə), yəni 3 dəqiqəlik zaman müddətinin 10 saniyəlik kəsiyində əl yaxud ayaq zərbəsinin 4 dəfə icrası ilə 3 dəqiqəlik zaman müddətinin 8 saniyəlik kəsiyində əl yaxud ayaq zərbəsinin maksimal sayda icrasının cəmi kimi başa düşülməlidir. Belə testdən döyüşçülərin “mərhələ-nəzarət” müayinələrində istifadə olunur [2, s.14].

A.A.Şepilovun tədqiqatları xüsusi dözümlüyün mexanizmlərini və onun inkişaf etdirilməsinin vasitə və metodlarına yönəldilmişdir. Alınan nəticələrindən belə qərara gəlmək olar ki, fiziki yük komponentlərinin müəyyən növbələşdirilməsi nəticəsində xüsusi məşqlərlə döyüşçünün dözümlüyünün ayrı-ayrı cəhətlərinə təsir göstərmək mümkündür. Bu baxımdan, dözümlüyün inkişaf etdirilməsində ən yaxşı nəticə fiziki yükün aşağıda göstərilən növbələşməsi zamanı əldə edilmişdir:

“Dözümlüyün alaktat-anaerob komponentini təkmilləşdirərkən, maksimal tempdə əl yaxud ayaqla 15 zərbə işləmək, 2 dəqiqə fasilə, həmin işin

5-6 dəfə təkrarlanması təklif edilir və zərbələrin maksimal sayı əsas göstərici kimi qiymətləndirilir".

"Bir məşq müddətində həmin test 3 seriyadan artıq olmamaq şərti ilə icra edilir; hər seriyadan sonra 6-10 dəqiqə fasilə".

Dözümlüyün anaerob-qlükolitik komponentinin təkmilləşdirilməsi məşqində xüsusi hərəkətlərlə məşq görüşləri arasında aşağıdakı növbələşmə ilə icra edilməsi təklif olunur:

"Submaksimal intensivli fiziki iş 3 dəfə təkrar olunmaqla 2 dəqiqə ərzində icra edilməlidir. I və II iş dövrləri arasında 2 dəqiqə, II və III iş dövrləri arasında 1 dəqiqə fasilə verilməlidir".

Anaerob komponentli dözümlüyü təkmilləşdirdikdə yenə xüsusi hərəkətlərin məşq görüşləri ilə növbələşməsinin icrası təklif olunur. Burada işin intensivliyi son imkanın təxminən 70-80%-ni təklif edir. Nəzarət üsulu kimi nəbz vurğularının sayılması seçilir ki, bu da iş vaxtı 180 dəfə/dəqiqədən çox olmamalı, fasilənin sonunda isə 130 dəfə təşkil etməlidir. Cəmi 15 dəqiqə davam edən iş 2 dəqiqəlik fasilələrlə 8-9 dəfə təkrarlanır [4, s.103].

Bütün qeyd edilən təhlillər nəticəsində aşağıdakı təcrübi təkliflər irəli sürülür:

1. Tədris-məşq prosesində xüsusi əlavə ağırlıqdan (tənəffüs sistemi ilə əlaqədar) istifadə etmək (xüsusi respirator və maska);
2. Həftəlik məşğələlərdə 2 dəfə çoxsaylı təkrarlanan (4-6 dəfə), qısa müddətdə icra edilən (15-30 saniyə) maksimal intensivli yük (zərbələr) tətbiq etməklə, 1 dəqiqə fasilə vermək. Belə işin maska taxmaqla icrası xüsusi dözümlüyü təkmilləşdirməyin əsas vasitəsi ola bilər;
3. Eyni zamanda anaerob və aerob komponentli xüsusi dözümlüyü təkmilləşdirmək üçün məşğələyə 3 dəqiqəlik testi (real yaxud təxəyyüldə canlandırılan rəqibə qarşı 3 dəqiqə ərzində zərbə tətbiq etmək) daxil etmək təklif olunur. Bu vasitənin ümumi hazırlıq dövrünün ümumi fiziki hazırlıq mərhələsində tətbiqi daha səmərəli hesab olunur;
4. Yarışdan əvvəlki mərhələdə məşğələnin səmərəsini artırmaq məqsədi ilə həftədə bir dəfə 3 dəqiqəlik testi 2-3 dəqiqə fasilə ilə planlaşdırmaq təklif edilir;
5. Ümumi dözümlüyü inkişaf etdirmək məqsədi ilə hazırlıq dövründə maska taxaraq 15-20 dəqiqə qaçmaq;
6. Maskada məşq etmək 16 yaşından sonra gənc idmançılar arasında fiziki hazırlığı yüksək olan döyüşçülər üçün məsləhət görülür;
7. Yarışın başlamasına 7-8 gün qalmış fasilə üçün ayrılan vaxtı götürmək lazımdır. Belə ki, bu cür məşğələlərdən sonra orqanizmin işgörmə qabiliyyəti yalnız 3-4 gün ərzində bərpa olunur.

İdmanın taekvondo növü ilə məşğul olan təcrübəli və xüsusən də gənc idmançıların məsul yarışlara hazırlıq prosesində xüsusi dözümlüyü inkişaf etdirmək yollarına həsr olunmuş tədqiqatlar müəyyən maraq yaradır. Tədqiqatın məqsədinə nail olmaq üçün əsasən yarış dövründə idmançıların dözümlüyünün dinamikasına nəzarət edilmiş və bir sıra məsələlər yerinə yetirilmişdir. İdmançıların hazırlığında tətbiq edilən ənənəvi vasitə və metodların kəskin intensivləşmə bazası üzərində qurulmasını təcrübi tövsiyyə kimi qeyd olunur. Bu zaman əsas diqqət anaerob-qlükolitik istiqamətli məşq yükünün əhəmiyyətli dərəcədə artırılmasına (işin ümumi həcminin 40-45%-i) yönəlməlidir.

Dözümlüyün məşq etdirilməsinin ümumi məsələlərini təhlil edərkən A.A.Şepilov və V.P.Klimin qeyd edirlər ki, "...hazırlıq prosesinin optimallaşması işində təkcə idmançıların geniş biliklərə yiyələnməsi əsas amillərin qarşılıqlı təsiri deyil, eyni zamanda daha səmərəli vasitə və metodların düzgün seçilərək təcrübədə bacarıqla tətbiq edilməsini nəzərdə tutulur. Məşq yükü komponentlərinin növbələşməsi orqanizmin cavab reaksiyasının gücünə və xarakterinə təsir göstərir. Belə komponentlərə məşq yükünün intensivliyi, onun davamlılığı, istirahət fasilələrinin xarakteri, təkrarlanmaların sayı və s. aiddir" [2, s.119].

Dözümlüyün təkmilləşməsinin vasitə və metodlarının təsnifatını verən zaman bir sıra alimlər üç əlaməti əsas götürürlər:

1. Əsas əlamət kimi hərəkətin icra intensivliyinin götürüldüyü metodlar;
2. Məşq təmrinlərinin bir neçə yaxud dəfələrlə təkrar edildiyi metodlar;
3. Məşqin təşkili xüsusiyyətləri yaxud icra edilən təmrinlərin təsirini əks etdirən metodlar.

Ədəbiyyat mənbələrində dözümlüyün bütün komponentlərini inkişaf etdirməyin metod və vasitələrini nəzərdən keçirərkən, idmançıların aerob imkanlarını artıran vasitə və metodları diqqəti cəlb edir. Sabit halda məşq yükünün yerinə yetirildiyi zaman karbohidratlarla yanaşı həm də yağlar enerji mənbəyinə çevrilir. Aerob imkanları inkişaf etdirən məşq yükü belə göstəricilərlə xarakterizə olunur:

- hərəkətlərin intensivliyi (orta, aşağı, daha aşağı);
- davamlığı;
- yüksək həddə çatan ümumi məşq həcmi (bir saatdan artıq kross qaçışı, 20-30 dəqiqə müddətində fasiləsin olaraq əl-ayaq zərbələrinin işlənməsi və s.);
- fasilələr olduğu zaman onların davamiyyət müddəti;
- əvvəlcə yavaş və rəvan məşq işi, sonra isə dəyişən məşq metodu tətbiq edilir.

Qeyd etmək lazımdır ki, aerob mexanizmli dözümlüyü inkişaf etdirərkən idmançıların çox istifadə etdikləri təmrinlər kompleksini özündə birləşdirən mütəhərrik idman növlərindən (kross qaçışı, futbol, üzgüçülük,

basketbol və s.) istifadə etmək məqsədəuyğundur. Arzu olunmayan işin yerinə yetirilməsi isə adətən psixoloji gərginliyin artmasına səbəb olur.

Aerob mexanizmli dözümlük işində nəbzin sayı 150 dəfə/dəqiqə olur. Aerob imkanların inkişafında səmərəli hesab edilən məşq yükü özünün uzun müddətliyi və aşağı intensivliyi ilə xarakterizə olunur. Burada aerob dözümlüyün inkişafının ikinci mərhələsində əsas üç məsələ həll edilmişdir:

1. Oksigenin maksimal sərfiyyatının artırılması (OMS);
2. Uzun müddətə qazanılmış OMS-nin qorunub saxlanılması;
3. Tənəffüs prosesinin maksimal həddə qədər inkişaf etdirilməsi.

Aerob imkanların artırılması işinin ikinci mərhələsinin əvvəlində tənəffüs sisteminin təkmilləşdirilməsini təmin edən vasitə müntəzəm olaraq aparılan məşqdir. Ürək, qan-damar və tənəffüs fəaliyyətinin maksimal həddinə nail olmağa, əsasən oksigenin yüksək səviyyəsini saxlamağa imkan verən kross qaçışından və idmanın taekvondo növünün təmrinlərindən istifadə etmək daha münasibdir. Ayaq və qol əzələlərinin dözümlüyünün artırılması da vacib şərtdir.

Aerob imkanların təkmilləşdirilməsi üçün ən əlverişli şərait məşq işinin nəbz rejimi ilə anaerob mübadilənin yerinə yetirilməsi zamanı yaranır. Dəyişməz metoddan istifadə edərkən məşq işinin nəbz rejimində istifadə olunması tövsiyyə edilir. Yüngül çəki dərəcəsi üçün 160 dəfə/dəqiqə, orta çəki dərəcəsi üçün 155-160 dəfə/dəqiqə, ağır çəkilər üçün isə 150 dəfə/dəqiqə müşahidə olunur.

***Ədəbiyyat***

1. *Агеев В.С. Методические особенности повышения эффективности тренировочного процесса спортсменов при занятиях тхэквондо. М.: РГАФК, 2017, 89 с.*
2. *Гиль К. Таэквон-до. - Ростов-на-Дону: Феникс, 2018. - 221 с.*
3. *Годик М.А. Контроль тренировочных и соревновательных нагрузок. - М.: ФиС, 2020. - 170 с.*
4. *Голованов В.Ю. Методы повышения эффективности техники выполнения ударов ногами таэквондистов // Актуальные проблемы спортивных единоборств. Теория и методика подготовки спортсменов. - М.: РГАФК, 2015. Вып. 1. - с. 104-105.*
5. *Гуревич И.А. Круговая тренировка при развитии физических качеств: 3-е издание, переработанное и дополненное / И.А.Гуревич.- Минск, 2011.-255 с.*

**S.Q.Abduyev**
**Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası**
***siruz.abduyev2021@sport.edu.az***

# AZƏRBAYCANDA MİLLİ GÜLƏŞ NÖVLƏRİNİN FƏALİYYƏTİ ÜÇÜN YARADILMIŞ MÜHİT VƏ BU SAHƏNİN BUGÜNKÜ PROBLEMLƏRİ

***Xülasə***

*Azərbaycanda milli güləş növlərinin fəaliyyəti üçün yaradılmış mühit və bu sahənin bugünkü problemləri adlanan bu tədqiqat işində güləşimizin əksər elementlərini, fəndlərini, psixoloji hazırlığını və mübarizə metodlarını əks etdirən milli güləş idman növü kimi keçdiyi böyük və şərəfli inkişaf yolu ətraflı təhlil edilmişdir. Tarixən daha qədim olan "milli güləşimizin" Qobustan qayalarında, şifahi xalq ədəbiyyatında, klassik ədəbiyyatda, dastanlarda rast gəldiyimiz texniki-taktiki elementləri ilə yanaşı müasir güləşimizin forması da təhlil olunmuş və müəyyən nəticələrə gəlinmişdir. Sonda bu nəticələrdən irəli gələrək bu sahənin inkişafı üçün müəyyən təkliflər verilmişdir.*

# СРЕДА, СОЗДАННАЯ ДЛЯ ФУНКЦИОНИРОВАНИЯ НАЦИОНАЛЬНЫХ ВИДОВ БОРЬБЫ В АЗЕРБАЙДЖАНЕ И СЕГОДНЯШНИЕ ПРОБЛЕМЫ УКАЗАННОЙ СФЕРЫ

***Резюме***

*Технические и тактические элементы национальной борьбы в Азербайджане, среда созданная для функционирования этого вида спорта и актуальные проблемы этой области: в данной исследовательской работе проведён подробный анализ великого и почётного пути развития национальной борьбы как вида спорта, отражающий большинство элементов приёмов, психологической подготовки приемов борьбы, они были широко анализированы. Наряду с техническими элементами нашей исторически древней национальной борьбы, которые найдены в скалах Гобустана, в народной литературе, в классической литературе, в эпосах, а также была проанализирована форма нашей современной борьбы и сделаны определенные выводы. В итоге на основе этих результатов были даны определенные предложения по развитию этого направления.*

# NATIONAL WRESTLING TYPES IN AZERBAIJAN, THE ENVIRONMENT CREATED FOR THE ACTIVITY OF THIS SPORT AND TODAY'S PROBLEMS OF THIS FIELD

***Summary***

*Technical and tactical elements of national wrestling in Azerbaijan, the environment created for the activity of this sport and the current problems of this field, in this research work, a detailed analysis of the great and honorable development path of national wrestling as a sport, reflecting most of the elements, tricks, psychological preparation and fighting methods of our wrestling has been done. Along with the technical and tactical elements of our historically older "national wrestling" found in the Gobustan rocks, folk literature, classical literature, epics, the form of our modern wrestling was analyzed and certain conclusions were reached. In the end, based on these results, certain suggestions for the development of this field were given.*

***Açar sözlər:*** *güləş, qurşaqtutma, gurşağlaşmaq, kəmər güləşi, milli güləş, milli idman*

***Ключевые слова:*** *вольная борьба, борьба, грэпплинг, борьба кошти, национальная борьба и национальные виды спорта*

***Key words:*** *wrestling, gulesh wrestling, grappling, koshti wrestling, national wrestling and national sports*

**Aktuallıq.** Azərbaycan mədəniyyətində güləşə, yetkin olduğunu sübut etmək, özünü göstərmək, gənclərin və uşaqların həyatın çətinliklərini dərk etməsinə keçidin ilk mərhələsi və qavrayışda təlim vasitəsi kimi üstünlük verilmişdir. İdman güləşi bu gün yalnız sağlamlıq və yüksək nəticələrdən ibarət olmamaqla yanaşı, həm də yüksək mədəniyyəti, incəsənəti və möhkəm sağlamlığı özündə birləşdirən böyük bir yaradıcılıqdır. Bu baxımdan Azərbaycan xalqının milli güləş növlərinin araşdırılması xüsusi əhəmiyyət kəsb edir.

**Giriş.** Azərbaycan xalqı lap qədim zamanlardan böyüyən nəslin fiziki inkişafına, fiziki cəhətdən sağlam, möhkəm formalaşmasına diqqət yetirmiş, uşaqların tərbiyəsində idman, xüsusən də güləş önəmli yerlərdən birini tutmuşdur. Sağlamlıq, fiziki möhkəmlik, gümrahlıq, yaradıcılıq, uzunömürlülük və vətənin müdafiəsinə hazır olmaq kimi keyfiyyətlərin əsasında dayanan idman sahəsi bu gün də zəruri olmaqla yanaşı öz aktuallığını qoruyub saxlayır. Bir tərəfdən sağlam nəsil yetişdirmək, digər tərəfdən də vətənimizin düşməndən qorunması zərurəti bu məsələni daha da təkmilləşdirilməsini tələb edir. İdmanda insanın fiziki cəhətdən təkmilləşməsinin idarə olunmasının ümumi qanunauyğunluqlarına əsaslanan bir növü güləşdir.

**Mövzunun məqsədi.** İşin əsas məqsədi milli güləş idman növündə idmançıların iradi keyfiyyətlərinin, onların psixoloji hazırlığının və Azərbaycan xalqının milli güləşinin texniki-taktiki elementlərinin xüsusiyyətlərinin öyrənilməsidir.

**Mövzunun obyekti.** Ümumbəşər milli mədəniyyətinə qovuşmuş və ona dəyərli tövhələr vermiş milli mədəniyyətimizin tarixi qədim, keçdiyi yol olduqca çətin və şərəfli olmuşdur. İdman milli mədəniyyətimizin tərkib hissəsi kimi 27 sentyabr 2020-ci il tarixində 44 günlük vətən müharibəsində də milli mövcudluğumuzun daimi dayağı olmuş və gələcəkdə də olacaqdır. Bu baxımdan xalqımızın idmanının inkişaf yoluna nəzər salması xüsusi əhəmiyyət kəsb edir. Qədim Azərbaycanda ibtidai icma quruluşunun meydana gəlməsi, sinfi cəmiyyətin yaranması fiziki qüvvə və bacarıqların təkmilləşməsinə, maddi, mənəvi nailiyyətlərin artmasına, sağlamlığın möhkəmləndirilməsinə səbəb olmuşdur. Bütün bunlar Azərbaycanda idmanın meydana gəlməsinə təkan vermiş, müdafiə və hücum xarakterli müxtəlif növ fiziki hərəkətlərdə öz əksini tapmış və müxtəlif idman oyunlarının, o cümlədən güləşin öz inkişafı mərhələsinə qədəm qoymasına səbəb olmuşdur. Əlbəyaxa vuruş və təkbətək döyüşdə tarixən Azərbaycanın pəhlivan idmançıları, nəinki Qafqazda, hətta Şərq ölkələrində öz məharətlərini dəfələrlə göstərmişlər. Şifahi xalq ədəbiyyatının bütün janrlarında idmanın öz əksini tapdığını müşahidə edirik. Qeyd etməliyik ki, Kitabi-Dədə-Qorquda, "Oğuznamə"yə, "Qabusnamə"yə, dastan və nağıllarımıza (Koroğlu, Qaçaq Nəbi və s.), habelə tədqiqatçıların yazdıqları əsərlərə istinad etsək, Qobustan qayalarında həkk edilmiş təsvirləri təhlil etsək, aydın görürük ki, qədim Azərbaycanda idman hazırlığına xüsusi diqqət yetirilmiş, dastanlardakı xalq qəhrəmanlarının igid, cəsur, dözümlü, mübariz və qorxmaz olmaları onların müxtəlif növ idman oyunları ilə, fiziki hərəkətlərlə iradə və bədənlərini möhkəmləndirmələrinə səbəb olmuşdur. Bütün bu proseslərin ölkəmizdə ilk idman sisteminin yaranmasına müsbət təsiri olmuşdur.

12-ci əsrdə yaşamış dahi Azərbaycan şairi Nizami Gəncəvi hələ 800 il bundan əvvəl yazmış olduğu məşhur poemalarında Azərbaycan xalqının qəhrəman oğullarının şücaətini, xüsusən pəhləvanların məharətini təsvir etmişdir. Qədim Şərqin yazılı və şifahi xalq yaradıcılığı ilə bağlı olan mədəniyyət abidələrində fiziki hərəkətlər haqqında xeyli məlumatlar verilir [4].

Milli güləşimizin əksər elementlərini, fəndlər və mübarizə metodlarını əks etdirən, böyük inkişaf yolu keçən Sərbəst güləş idman növü dünyada amerikan güləşi kimi qəbul edilərək, mövcud güləşin Amerika Birləşmiş Ştatlarında yarandığını bildirir. Lakin xalqımızın yaddaşında olan "milli güləş" tarixən daha qədimdir. Bu milli güləşin elementlərinə Qobustan qayalarında, şifahi xalq ədəbiyyatında, klassik ədəbiyyatda, dastanlarda rast gəlmək olar. Güləşin qədimliyini sübut edən faktlardan biri də Azərbaycanda toy və bayram

şənliklərində insanların bu növdə özlərini sınamalarıdır ki, bu da Azərbaycanda güləş yarışları xüsusi yerlərdə - zorxanalarda keçirilməsidir [4].

"Milli güləş"in inkişaf etməsi və gənclərin sevimli məşğələsinə çevrilməsi bir tərəfdən milli irsimizi və ənənələrimizlə bağlıdırsa, digər tərəfdən sonradan meydana gəlmiş peşəkar güləş məktəbi ilə əlaqədardır. Azərbaycanda güləş öz təşəkkülünü ikinci Dünya müharibəsindən sonra tapmışdır.

**Qurşaq tutmaq və ya qurşaqtutma, gurşaqlaşmaq** Azərbaycan ənənəvi xalq güləşidir. Milli Güləşimiz sərbəst güləşdən çox az fərqlənir və onun əsas iki məşhur variantı var:

1. İlk zərbədə ayaqları ilə rəqibin ayaqlarına vuraraq və ayaqlarına fənd istifadə qadağandır;
2. İkincisi - ənənəvi qaydalarla qanuniləşdirilir. Bəzi bölgələrdə qələbə üçün rəqibin arxası yerə dəyməsi üçün atmaq lazımdır, digərlərində isə rəqibin dizdən yuxarı bədənin hər hansı bir hissəsi ilə yerə toxunması kifayətdir.

[1, səh. 141].

Bundan əlavə, bu mübarizənin bir qədər sadələşdirilmiş növləri var ki, əsasən uşaqlar və gənclər üçün nəzərdə tutulub. Belə ki, onlardan birində rəqiblər bir-birlərini kəmərlərindən tutmadan istifadə etmədən, sadəcə bir-birlərini yerindən itələməyə meyllidirlər atma və təpik yoxdur. Onlar da tez-tez "kimin dəstəsi qələbə" yarışında iştirak edirlər və bu da komanda güləşinin oyun çeşididir. Hər komanda yerdə çəkilmiş xəttin qarşısındakı dostu ilə üz-üzə gələn bir nümayəndə ilə çıxış edir və sonra rəqibin kəmərindən yapışaraq, cəhd edirlər onu yanına çəksin. Bu oyunda daha çox "düşmən"i özünə tərəf çəkən komanda qalib olur.

**Güləş** hal-hazırda milli güləş, Azərbaycan güləşi və s. adlardan da istifadə edirlər. Güləşin mənşəyində fars xalq güləşindən güləş Koşti təsiri həqiqətən güləş rituallarında, təlim prosesi, texnikasında və təşkilatında çox nəzərə çarpır.

Ənənəvi mükafatlar uğrunda güləş yarışları müxtəlif bayramların bir hissəsi idi. O cümlədən toylarda xüsusi olaraq güc və çeviklik göstəricisi kimi müxtəlif kəndlərdən olan məşhur pəhləvanlar dəvət olunurdular. Uşaqlıqdan oğlanlar xalq döyüş üsullarını öyrənirdilər. Evin sahibi mübarizədə qalib gələn həm bəyə, həm də gəlin evindən gələnlərə iri ipək yaylıq ataraq mükafatlandırırdı, bəzən isə qalibə qoç verilirdi. Adət ənənəyə görə davada bəy də iştirak etməli idi. Onun qalibiyyəti yaxşı bir əlamət sayılır, sərvət, firavanlıqdan xəbər verirdi. Güləşçilər döyüşə yalnız xüsusi dekolteli dizdən bir az aşağı, yumşaq kəmərlə, xalq üslubunda tikmə ilə bəzədilmiş şalvarda güləşirdilər. Tez-tez bədən yağla əvvəlcədən yağlanır və bəzən daha çox kənd yerlərində pəhləvanlar adi gündəlik geyimdə yarışırdılar.

Döyüşlərdən əvvəl duelə çıxmamış bədəni və psixikanı hazırlayan müəyyən rituallar edilirdi. Məlumdur ki, döyüşdən əvvəl keçmiş güləşçilər xüsusi çıxışlar edirlər belə ki, cəngi döyüşçü rəqsi və ya güləş klubu rəqsi və ayrıca xüsusi mahnılar (məsələn, "Urvay" deyilən) səsləndirilir. Güləş güləşçiləri hərə bir növ isinmə hərəkəti edir - rəqs addımlarından, yavaş tullanmalardan, yellənçəklərdən, meydan qızışmalarından ibarət ritualları əllər və qolların yalançı vəziyyətdə alternativ hərəkət etdirilməsi ilə həm istiləşmə, həm də sonra döyüş musiqi (xüsusi melodiyalar ifa olunur - güləş cəngisi) ilə müşayiət olunur (1 səh. 153-157).

Güləş sərbəst güləşə oxşayır və hər cür ələ keçirməyə imkan verir. Belə ki, gövdə, ayaqlar, kəmər və şalvarın istənilən yerindən tutaraq müxtəlif fəndlər tətbiq edilir, hər iki ayağın tutulması (qıçlardan tutmaq), bir ayağın tutulması ilə arxadan yıxma (qıçı tutmaqla daldan badalaq burmaq), "dəyirman" kimi atma, rəqibin başını və bir əlini tutaraq ayaq taxtasının köməyi ilə atma (baş və qolu tutmaqla badalaq vurmaq), gövdəni və qolunu tutduqdan sonra yıxılaraq atmaq rəqib (bədən və qolları tutmaqla badalaq vurmaq), bud vasitəsilə müxtəlif atışlar, alt kəsiklər və daha çox fəndlər tətbiq etməyə icazə verilir. Qələbə üçün düşməni çiyin bıçaqları ilə yerə sıxmaq lazımdır. Lakin Dağıstan və Gürcüstanın azərbaycanlı kəndlərində dizi ilə yerə toxunma kifayət edir ki, XX əsrin əvvələrində olduğu kimi qələbə qazansın və bu qayda indi də qorunub saxlanılır [2].

Maraqlıdır ki, insanlar buna inanırlar: Qələbə çox vaxt ağıllı güləşçiləri müşayiət edir, mütləq deyil ki, "Pəhlivanlar böyük gücə malik olsun. Son keyfiyyət hazırcavablıq, hiyləgərlik, düşməndən məharətlə qaçmaq bacarığı, onun ayağını məharətlə əvəz etmək üçün onun hər bir hərəkətindən, ən kiçik səhvindən istifadə etməklə çox vaxt qalib gəlir.

Keçmişdə Azərbaycanın rəhbərliyi altında "Zorxana" məktəbi təcrübəli güləşçi-müəllimlər, azərbaycanlı kişilər sənəti öyrənə bilirdilər. Onların Azərbaycanda vaxtı dəqiq məlum olmasa da, artıq XV-XVII əsrlərdə "Zorxana" Azərbaycanın bir çox şəhərlərində var idi: Təbriz, Ərbədin, Şirvan, Şuşa, Bakı, Gəncə və s. ən məşhurlarından biri Bakı "Zorxana" olmuşdur. Lakin, 1893-cü ildə Cənubi Azərbaycanda (İran bölgəsi) isə "Zorxana" bağlanıb. Baxmayaraq ki, "Zorxana" zaman keçdikcə onlar bizə xas olan yeniliklərə məruz qalıb, lakin hələ də mövcuddur.



“Zorxana” (“Güc evi”) yarımzirzəmidə əldə edilmiş bir otaq idi. Onun platformasının üstündə yanlarında dərin nişlər yerləşirdi, qonaqlar soyunur, tamaşaçılar otururdular. “Zorxan”ın fiquru, yəni başçılıq edəni miyandar idi. Məşq prosesi, həm də Zorxan müdiri olan miyandarın vəzifəsinə nağara çalan mürşüd də kömək edir.

“Zorxana”da məşqlərin idarə olunması aşağıdakı qaydalar və ardıcıllıqla həyata keçirilir:

1) Sino və ya Sino oyunu - əllər və ayaqların müxtəlif variantlarda, sürətli və yavaş sürətlə, növbə ilə sağ və sol tərəfdən təkanlardır.

2) Ayaqdöymə və ya Ayaqdöymə oyunu - müxtəlif növ çömbəlmələr.

3) Miloynatma və ya toppuz oyunu - xüsusi taxta və dəmir millər ilə çəkisi 1 ilə 40 kq arasında olan millərlə məşqlər.

4) Ekbagiri - sange zur adlanan xüsusi mərmi (“güc daşı”) sıxmaq.

5) Kabbade oyunu - dəmir kamanlı 15 ilə 45 kq arasında olan kabadə, kamanla məşqlər toplusu dəmir zəncirlə təqlid edilir. Kabbade fırlandı başı, bəzən bir diz üzərində dayanaraq, yay ilə fırlanır və onu da sinə səviyyəsində başının üstündən çəkir.

6) Çarxi - akrobatik hərəkətlər, eləcə də salto üçün müxtəlif variantlar.

7) Güləş. Güləşdə ən çox görülən məşq üsulu “Zorxana” ciddi nəzarət altında keçirilən məşq döyüşlər texnikanın bu və ya digər elementini miyandar düzgün izah etməlidir.

Herakllların başlarından yuxarı qalxaraq zamanla əvvəlcə yavaş-yavaş, sonra fırlanmağa başlayırlar daha tez-tez, müxtəlif şərti rəqəmlər formalaşdırmaq; sonra güclü adamlar, dəyənəklərini fırlatmağı dayandırmadan, onlar kiçik bir məkanda bir növ sistemli dəqiqliklə rəqs edirlər; dirijor öz işarələri ilə soxulur və gurultulu kamanla yorğun adamı ruhlandırır. Bundan

əlavə, “Zorxan”ın populyarlığı xalq oyunlarında da özünü göstərirdi. Məsələn, uşaqlar və gənclər arasında güləş gürzləri ilə oyun geniş yayılmışdı [1 səh. 153-157].

**Kəməri koşti güləşinin** qədim regional üslubudur və şimal-qərb (İranda və Azərbaycanda) türkdilli bölgələrin əhalisi arasında yayılmışdır.

Kamari, pəhləvanların kətan kəmər taxdıqları “kəmər” güləşidir. Döyüşdən əvvəl onların baş bandının düzgünlüyü iki hakim tərəfindən yoxlanılır. Döyüşə girərkən güləşçi xüsusi rəqs edir və sonra rəqibini çağırır. Hakimin işarəsi ilə rəqiblər bir-birinin bədəninə yapışır və kəmərdən tuturlar. Kamaridə bədənin aşağı hissəsində (beldən aşağı) texniki hərəkətlər qadağandır və döyüş vaxtı məhdud deyil. Arxa çiyninin bir hissəsi və ya hər iki çiyin ilə yerə toxunan güləşçi məğlub olur.

Döyüşlər özəl təqvim bayramlarında, toylarda, qışda, məhsul yığımından sonra axşamlar, eləcə də boş vaxtlarda baş verir. Güləşçi mükafat kimi adətən bir qoç alır. Bir neçə turdan sonra heç kim qalib gəlmirsə, onda hər iki güləşçi mükafat alır [1 səh. 211-212].

Azərbaycan Respublikası Milli İdman növləri Assosiasiyası Nizamnaməyə uyğun olaraq respublika milli idman növlərinin inkişafını həyata keçirən və idarə edən, xeyriyyəçi, könüllü, ictimai idman təşkilatıdır. Assosiasiya Azərbaycan SSR Nazirlər Sovetinin 6 iyun 1990-cı il 246 №li qərarına müvafiq olaraq və Assosiasiya iştirakçılarının təsis konfransının 25 aprel 1990-cı il qərarı ilə yaradılıb [3].

Assosiasiyanın tərkibinə milli güləş idman növü, milli qurşaq güləşi idman növü, zorxana və pəhlivan güləşi idman növü, nərd, milli mütəhərrik oyunlar, atüstü milli oyunlar, kəndirlə mübarizə idman növü, dünya xalqlarının ənənəvi güləş növləri, dünya xalqlarının ənənəvi intelektual oyunları, dünya xalqlarının ənənəvi oxatma növləri, Azərbaycanın və digər xalqların ənənəvi pəhlivanlıq növləri, mas-reslinq idman növü, alpaqut idman növü, kabbadi idman növü, qalaqapı qo idman növü və milli idman növləri üzrə yığma komandalar daxildir [4].

Assosiasiya respublikanın şəhər və rayonlarında yerli bölmələrin yaranması və fəaliyyəti, bu idman növlərinin maddi texniki bazasının möhkəmləndirilməsi və digər aktual məsələlərin həllində fəal iştirak edir.

SSRİ-nin Güləş Federasiyasının tərkibində ilk dəfə 1959-cu ildə bir qurum olaraq, Azərbaycan Güləş Federasiyası təsis olunmuşdur [3].

Böyüməkdə olan gənc nəslin fiziki hazırlığını təmin etmək, onların əməyə və ölkənin müdafiəsinə hazır olmaları naminə assosiasiya təhsil nazirliyi qarşısında Milli güləş idmanın ümumtəhsil məktəblərinin bədən tərbiyəsi proqramına saldırılmasına 1992-ci ildə və 2009-2010-cu tədris ilindən etibarən zorxana və pəhləvan güləş idman növünün Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında fənn kimi tədris olunmasına nail olub [4].

Assosiasiya fəaliyyətə başladığı dövrdən bu günə kimi idmançılarımız müxtəlif idman növləri üzrə dünya, Avropa birinciliklərində və çempionatlarında, dünya kuboklarında, İslam Həmrəylik oyunlarında, dünya köçəri oyunlarında uğurla çıxış edib, vətənə çoxsaylı medallar və kuboklar gətiriblər.

1990-cı ildə əsası qoyulan Azərbaycan milli idman növləri assosiasiyasına 5 milli növ – güləş, çövgən, nərd, mütəhərrik oyunlar və zorxana daxil olub. Assosiasiya şəhər və rayonlarda yeni bölmələrin yaranması və fəaliyyəti, bu idman növlərinin maddi-texniki bazasının möhkəmləndirilməsi və digər aktual məsələlərin həllində fəal iştirak edir [3].

AMİNA-da aparıcı növlər əsasən zorxana və pəhləvan güləşidir. 2007-ci ildən Beynəlxalq zorxana idman federasiyalarına üzv olmuşuq. BZİF-ə 52 dövlət daxildir. Bu qurum tərəfindən keçirilən bütün çempionatlarda Azərbaycan milli komandası iştirak edir [4].

2009-cu ildə zorxana və pəhləvan güləşi üzrə ilk dünya kuboku məhz paytaxtımız Bakıda keçirilib ki, bütün rəqiblərinə qalib gələrək 1-ci yer tutan BZİF tərəfindən "Cahan pəhləvanı" (dünya pəhləvanı) adına layiq görülüb və "Qızıl bazubənd"lə təltif edilmişdir. 2010-cu ildə ilin Ən yaxşı federasiyası Azərbaycan zorxana idman federasiyası seçilib. Müstəqil Azərbaycan Respublikası Dünyada suveren ölkə kimi tanındıqdan sonra, 1993-cü ildə Azərbaycan Güləş Federasiyası təsis olunaraq, elə həmin ildə İsveçrənin Lozanna şəhərində FİLA-nın baş qərargahında rəsmən Beynəlxalq Güləş Federasiyaları Assosiasiyasına qəbul olunmuşdur [2,4].

**Alınan nəticə.** Bütün bunları nəzərə alsaq, belə bir nəticəyə gəlmək olar ki, güləş həm fərdə, həm də cəmiyyətə ciddi təsir ciddi təsir göstərə bilən, həm də gündəlik həyatın mədəni quruluşuna istiqamət verən xüsusi bir sahə kimi çox əhəmiyyətli idman növüdür.

Öz mahiyyətində güləş mədəniyyəti şəxsiyyətə önəm verən, idmançının həyatının xüsusi saflaşması, maariflənməsi sahəsində, qarşılıqlı əlaqə kimi dəyərləri təbliğ edən, inkişaf və xoşbəxtlik hissləri bəxş edən və başqa insanlarla inteqrasiya imkanı yaradan mədəniyyətdir.

**Verilən təkliflər.** Güləşə olan marağın artırılması və öyrənilməsi baxımından aşağıdakıları təklif edirik:

1. Qlobal tendensiyanın artdığı bir dövrdə yeniyetmə və gənclərin sağlamlığını qorumaq, möhkəmləndirmək və onları pis vərdişlərdən uzaq tutmaq üçün həyətyanı yaşayış sahələrində güləş üçün "Zorxanaların", meydançalarının və infrastrukturun, güləş təlimlərinin təşkili üçün daha geniş imkanların yaradılması;

2. Kütləvi informasiya vasitələrində, sosial şəbəkə platformalarında uşaq və yeniyetmələrin asudə vaxtlarının səmərəli keçirilməsi üçün yaşayış binalarına yaxın, yaxud ətraf sahə və meydançalarda, həm fərdi, həm də qrup

və komanda şəklində yerinə yetirilə bilən milli güləş oyunlarının təbliğ edilməsi;

3. Valideyn himayəsindən məhrum və valideyn qayğısına möhtac uşaq və yeniyetmələrin şəxsi istək və arzularına uyğun olaraq müxtəlif milli güləş növləri üzrə klub və cəmiyyətlərdə güləş məşğul olmaları üçün lazımi şəraitin yaradılması;

4. Azərbaycan gənclərini əhatə edən sosial-iqtisadi, mədəni, idmana və bədən tərbiyəsinə aid Dövlət Proqramlarında milli güləş sahəsində qanunvericilik bazasının daha da möhkəmləndirilməsi.

***Ədəbiyyat***

1. *Мандзяк А.С., Артеменко О.Л. Энциклопедия традиционных видов борьбы народов мира. МИНСК, 2010 г., 563 лист.*
2. *Uluslararası türk halkları geleneksel oyunlar - Sporlar sempozyumu, Aralık-2017 Muş – Kahramanmaraş 595 səh.*
3. *https://mys.gov.az/idman/idman-federasiyalari/36/azrbaycan-milli-idman-novlri-assosiasiyasi*
4. *http://awf.az/g-l/az-rbaycan-g-l-tarixi*

**J.S.Sultanzadə**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**
***jale.sultanzade@gmail.com***

# XALQ RƏSSAMI RAFİQ MEHDİYEVİN YARADICILIQ NAİLİYYƏTLƏRİ

***Xülasə***

*Azərbaycan təsviri sənəti incəsənətin parlaq səhifələrindəndir. XX əsr milli təsviri sənəti xalq ənənələrinin müxtəlif çalarları, dünya mədəniyyətinin uğur və nailiyyətləri üzərində inkişaf tapmışdır. Təsviri sənətin yeni yaradıcılıq meyarları əsasında formalaşması özünəməxsus yaradıcılıq xüsusiyyətləri ilə iz qoymuş bir sıra istedadlı rəssamların yetişməsi ilə nəticələndi. Belə ki, xalq rəssamı Rafiq Mehdiyev bu istedadları şəxslərdən biridir. O, müasir Azərbaycan təsviri sənətinin formalaşmasında xüsusi fəaliyyət və xidmətləri olmuş sənətkarlardandır.*

*Məqalədə Rafiq Mehdiyevin həyat və yaradıcılığı, əsərlərinin özünəməxsus ifa tərzi, fərdi dəst-xətti və fəaliyyəti geniş təhlil edilmiş və bunlardan bəhs olunmuşdur. Orijinal və yüksək yaradıcılıq xüsusiyyətlərinə malik olan Rafiq Mehdiyev yaradıcılığı öz xarakterinə uyğun olaraq nümunəvidir.*

*Rafiq Mehdiyevin yaradıcılığı Azərbaycan təsviri sənətinin inkişafı ilə sıx bağlı olduğu üçün onun yaradıcılığının elmi tədqiqatına böyük ehtiyac duyulur. Belə ki, onun müasir Azərbaycan təsviri sənətinə gətirdiyi töhfənin müəyyən olunması gənc rəssamlar nəslinin formalaşması və inkişafında mühüm əhəmiyyət kəsb edir. Məsələyə bu istiqamətdən baxılması tədqiqatın böyük aktuallıq kəsb etdiyini bir daha sübut edir.*

# ТВОРЧЕСКИЕ ДОСТИЖЕНИЯ НАРОДНОГО АРТИСТА РАФИГА МЕХДИЕВА

***Резюме***

*Азербайджанское изобразительное искусство – одна из ярких страниц искусства. Национальное изобразительное искусство XX века развивалось на различных оттенках народных традиций, успехов и достижений мировой культуры. Становление изобразительного искусства на основе новых творческих критериев привело к появлению ряда талантливых художников, оставивших след своими уникальными творческими качествами. Таким образом, народный артист Рафик Мехтиев является одним из лиц, обладающих этими талантами. Он один из художников, имевших особую деятельность и заслуги в формировании современного азербайджанского изобразительного искусства.*

*В статье подробно анализируются и обсуждаются жизнь и творчество Рафика Мехтиева, уникальная манера исполнения его произведений, индивидуальный почерк и деятельность. Творчество Рафига Мехтиева, обладающее оригинальными и высокотворческими чертами, является образцовым по своему характеру.*

*Поскольку творчество Рафика Мехтиева тесно связано с развитием азербайджанского изобразительного искусства, существует большая потребность в научном исследовании его творчества. Таким образом, определение его вклада в современное искусство Азербайджана имеет большое значение в формировании и развитии поколения молодых художников. Рассмотрение вопроса с этой стороны еще раз доказывает, что исследование имеет большую актуальность.*

# CREATIVE ACHIEVEMENTS OF THE PEOPLE'S ARTIST RAFIQ MEHDIYEV

***Summary***

*Azerbaijani fine art is one of the bright pages of art. 20th century national fine art developed on various shades of folk traditions, successes and achievements of world culture. the formation of fine art based on new creative criteria resulted in the development of a number of talented artists who left a mark with their unique creative features. Thus, people's artist Rafig Mehdiyev is one of the individuals with these talents. he is one of the artists who had special activities and services in the formation of modern Azerbaijani fine art.*

*In the article, the life and creativity of Rafig Mehdiyev, the unique performance style of his works, individual handwriting and activities were extensively analyzed and discussed. Rafig Mehdiyev's creativity, which has original and highly creative features, is exemplary according to his character.*

*Since Rafik Mehdiyev's work is closely related to the development of Azerbaijani visual art, there is a great need for scientific research of his work. so that the determination of his contribution to modern Azerbaijani visual art is of great importance in the formation and development of the generation of young artists. Viewing the issue from this direction once again proves that the research is of great relevance.*

***Açar sözlər:*** *qrafika, rəsm, obraz, üslub, illüstrasiya, kitab*
***Ключевые слова:*** *графика, рисунок, образ, метод, иллюстрация, книга*
***Key words:*** *graphic, drawing, image, method, illustration, book*

Azərbaycan təsviri sənəti incəsənətin parlaq səhifələrindəndir. XX əsr milli təsviri sənəti xalq ənənələrinin müxtəlif çalarları, dünya mədəniyyətinin uğur və nailiyyətləri üzərində inkişaf tapmışdır. Təsviri sənətin yeni yaradıcılıq meyarları əsasında formalaşması özünəməxsus yaradıcılıq xüsusiyyətləri ilə iz qoymuş bir sıra istedadlı rəssamların yetişməsi ilə nəticələndi. Belə ki, xalq rəssamı Rafiq Mehdiyev bu istedadları şəxslərdən biridir. O, müasir Azərbaycan təsviri sənətinin formalaşmasında xüsusi fəaliyyət və xidmətləri olmuş sənətkarlardandır.

Azərbaycan xalq rəssamı, professor, Azərbaycan Rəssamlıq İttifaqının qrafika bölməsinin sədri, prezident təqaüdçüsü Rafiq Mehdiyev özünəməxsus yaradıcılığı ilə incəsənətdə seçilən şəxsiyyətlərdən biri olmuşdur.

Rafiq Mehdiyev 1933-cü ildə iyunun 10-da Naxçıvan MR Şahbuz rayonunda anadan olmuşdur. Orta təhsili Bakıda 31 saylı məktəbdə almış, 1948-1953-cü illərdə Ə.Əzimzadə adına rəssamlıq texnikumunu, 1953-1958-cü ildə Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitutunun qrafika fakültəsini bitirmişdir. Əmək fəaliyyətinə 1962-ci ildə Ə.Əzimzadə adına rəssamlıq texnikumunda müəllim kimi başlamışdır [2. səh. 8].

İstedadlı rəssamın yaradıcılığında əsas yeri dəzgah qrafikası sahəsində yaratdığı əsərlər tutur. O, kənd mövzusunda bir sıra orijinal ofort işləmiş, “Axşam” və “Səhər” tablolarında gördüyü, duyduğu mənzərələri ustalıqla təsvir, tərənnüm etmişdir. “Səhər” ofortunda təbiətin canlanması, zəhmət adamlarının tarlaya çıxmaları, uşaqların məktəbə tələsməsi və başqa lövhələr, “Axşam” əsərində isə əməkçilərin işdən qayıtması, qürub çağı təsvir olunur. Hər iki mənzərədə kənd evləri, ağaclar var. Amma onların təsvirləri bir-birindən fərqlənir, ayrı-ayrılıqda orijinal əsər kimi baxılır.

Sovetlər birliyi dövründə ideya-bədii vasitələrin operativliyi, onun siyasi kəsərliliyi ilə fərqlənən qrafika sənəti xüsusi əhəmiyyətə malik idi. Bu zaman kütləvi informasiya vasitəsi olan qəzet-jurnal və kitab tərtibatı da Azərbaycan sovet qrafikasının öncül janrlarından hesab edilirdi. Qrafik rəssamlar “Azərnəşr”in buraxdığı kitabların tərtibində fəal iştirak edirdilər. Belə sənətkarlar sırasında Mehdiyevin özünəməxsus yaradıcılıq yolunu müəyyənləşdirən əvəzsiz xidmətləri olmuşdur. O, Azərbaycan mətbuat və nəşriyyat işlərinin genişlənməsinə, kitab qrafikasının inkişafına təkan vermişdir.

Rafiq Mehdiyev yaradıcılıq yoluna kitab tərtibatçısı kimi başlamışdır. Lakin o, qrafikanın digər növlərinə də, o cümlədən dəzgah qrafikasına və siyasi plakata da maraq göstərirdi. Azərbaycanın xalq rəssamı Rafiq Mehdiyev kitab illüstrasiyası sahəsində də bir çox əsərlər yaratmışdır. Kitab rəssamının əsas vəzifəsi təsvir etdiyi qəhrəmanlara və hadisələrə ictimai münasibəti ifadə etməkdən, kitabın ideya məzmununa və bədii formasını müasir tələblərlə yanaşmaqdan ibarətdir. Ədəbi irsimizi cizgilərlə canlandıran rəssamın kitab illüstrasiyaları özünəməxsus xüsusiyyətləri ilə tamaşaçı düşüncəsini özünə şəkir. Bu əsərlər milli kitab qrafikası sənətimizin inkişafında xüsusi rol oynamışdır.

Ömrünü təsviri sənətin inkişafına və təbliğinə həsr etmiş Rafiq Mehdiyev rəssamlığın müxtəlif janrlarında mövzu baxımından çoxsaylı maraqlı lövhələr yaratmışdır. Onun kitab qrafikası sahəsində xidmətləri xüsusilə əlamətdar olmuşdur. Azərbaycan və dünya ədəbiyyatı klassiklərinin

əsərlərinə çəkdiyi illüstrasiyalar ölkəmizdə kitab mədəniyyətinin təşəkkül tapmasına öz təsirini göstərmişdir.

XX əsrin 60-cı illərində respublikamızda sərbəst yaradıcılıq meylləri güclənmişdi və bu cəhət sənət aləmində müəyyən istiqamətlərdə özünü göstərirdi. İstedadlı, daim yaradıcılıq axtarışları aparan rəssam milli zəminə qayıtmanı Azərbaycanın klassik, demokratik ruhlu bədii ədəbiyyat yaradıcılarından Mirzə Cəlilin əsərlərində gördü. Yazıçının “Poçt qutusu” hekayəsinə, “Danabaş kəndinin əhvalatları” povestinə çəkdiyi illüstrasiyaları ilə o, yaradıcılığında yeni bir istiqaməti - qrafikanı inkişaf etdirməyə başladı. Onun linoqravur, ofort, litoqrafiya, qarışıq texnika ilə yaratdığı əsərlər o dövrdə Azərbaycan təsviri sənətində “təzə söz”, yeni ədəbi hadisə kimi qiymətləndirilmişdir. Onlarda bədiilik, rəssam hissi, duyğusu yenə də ön planda qalmaqdadır. Görkəmli yazıçı-dramaturq Cəlil Məmmədquluzadənin “Saqqallı uşaq” hekayəsinin illüstrasiya edən rəsmlər də maraqlıdır. Bu illüstrasiyalarda rəssam milli koloriti saxlamağa çalışmış, ədəbi əsərlərin məzmunu, yazı üslubu ilə həmahəng səslənən gözəl sənət nümunələri yaratmışdır.

Rəssam peşəkarlığa kifayət qədər yiyələnmiş və onun sirlərini mənimsəmişdir. Gənc rəssamın uğurunu göstərən müşahidəçilik qabiliyyəti, naturaya sadiqliyi, əməksevərliyi kimi amilləri var idi. Görkəmli fırça ustası Mikayıl Abdullayev onun haqqında söyləmişdir: “Sənət aləminə yenicə gəlmiş Rafiq üçün ən yaxşı müəllim həyatın özü olmuşdur. Elə bu səbəbdən də o, yaradıcılığını həyatda gördükləri və yaşadıqları əsasında inkişaf etdirmişdir”. [1. səh. 84]

H.Seyidbəylinin və İ.Qasımovun “Uzaq sahillərdə” povestinə çəkdiyi illüstrasiyalarda rəssam qarşısına qoyduğu məqsədə yüksək sənətkarlıqla nail olmuşdur. Əfsanəvi qəhrəman Mehdi Hüseynzadənin obrazında onun hünəri, yenilməzliyi orijinal, obyektiv təsvir edilib. Rəssam milyonlarla insanın faşist işğalçılarına qarşı nifrətini, xalq hərəkatının qüdrətini, monolitliyini ustalıqla, məharətlə əks etdirmişdir.

Bu mövzuda kiçik detallar, epizodlar yox, daha geniş lövhələr, mənzərələr də qeydə alınmışdır. “Mixaylo”nun fədakarlığına olan ehtiram həmin kitaba illüstrasiyaların çəkilməsinə başlıca səbəb oldu. Povestdə hadisələr 1941-1945-ci illərdə Böyük Vətən müharibəsi zamanı Adriatik dənizinin sahillərində alman-faşist qəsbkarlarına qarşı vuruşmalardan bəhs edir. Hər iki müəllif bədii vasitələrin köməyi ilə həm cəsur kəşfiyyatçı Mixaylonun, həm də onunla birgə vuruşan partizanların qəhrəmanlıqlarını yüksək sənətkarlıqla qələmə almışlar.

Uşaq aləmi R.Mehdiyevin yaradıcılığında mütamadi inkişaf prosesi müşayiət olunur. O, uzun müddət “Göyərçin” jurnalının baş rəssamı vəzifəsində çalışmışdır. Sovet dövründə, eləcə də müstəqillik illərində

azyaşlıların əvəzsiz sevimli dərgisi rolu oynayan "Göyərçin"in baş redaktoru rəssamın böyük qardaşı, uşaqlar üçün gözəl şeir və nəsr əsərləri yazmış Tofiq Mahmud idi. Onların yaxın olmasının səbəbi bir ailədə böyüməsi idi. Məhz buna görə idi ki, bu iki yaradıcı adamın sənət birliyi "Göyərçin" jurnalındakı fəaliyyətləri ilə məhdudlaşmırdı. T.Mahmudun bir çox kitablarının tərtibatçı rəssamı R.Mehdiyev olmuşdur.

Kitab illüstrasiyası qrafikanın əsas və müstəqil sahələrindən biridir. Qrafikin vəzifəsi yalnız bədii mətni müşayiət edən rəsmlə bitmir, onun qarşısında kitab tərtibatı kimi mühüm məsələ dayanır. Rəssam işi elə qurmalıdır ki, mətn, rəsm və tərtibat arasında bütöv bir vəhdət yaransın. O həm də, yazıçının hiss etdiklərini, ruhi aləmini, əsər vasitəsilə aşılamaq istədiyi məsələlərin bu rəsmlər vasitəsilə oxucuya daha aydın məlum olmasına zəmin yaratmalıdır.

Cəlil Məmmədquluzadənin digər möhtəşəm və unudulmaz əsəri "Poçt qutusu"dur. Bu unikal əsərin də illüstrasiyaları və kitabın tərtibatı Rafiq Mehdiyevə məxsusdur. 1958-ci ildə çap üçün işlənib hazırlanmış kitabın üz qabığı Azərbaycan Dövlət İncəsənət Muzeyinin Qrafika fondunda saxlanılır. Həmin orijinal nüsxədə kağız üzərində tuş və sulu boya ilə işlənilən qrafika canlı, şux rənglərlə, kitabın adı isə xüsusi formatda təsvir edilmişdir [4. s.45].

Rafiq Mehdiyevin ümumilikdə uşaq kitablarına nəzər yetirdikdə bir daha əmin olursan ki, rəssamın işləri bədii əsərlərin ruhunu, dinamikasını, obrazların xarakterinini tamamlayır, yazıçının oxucuya, xüsusi ilə uşaqlara çatdırmaq istədiyi fikir və düşüncələrə onun rəsmləri həyat verir. Obrazların milliliyi isə çox unikaldır. Rəssam obrazların təsviri zamanı xırda yorucu detallara yer vermir, geyim və aksessuarları əsas götürürdü. Bu cəhət Rafiq Mehdiyev sənətini sevdirən amillərdəndir. Tanınmış qrafika ustası Rafiq Mehdiyev əvvəlki illərdə olduğu kimi yenə də müxtəlif, o cümlədən də kitab qrafikası sahəsində uğurla fəaliyyət göstərir. R.Mehdiyevin S.Vurğunun "Komsomol poeması", C.Məmmədquluzadənin "Hekayələr" və H.Seyidbəyli və İ.Qasımovun "Uzaq sahillərdə" kitabları da altmışıncı illər kitab qrafikasının uğurlu nümunələrindən sayılır.

Rəssamın yaradıcılığında milli obrazlar geniş yer alır. O, əsas diqqəti obrazlara yönəltmək istəmiş və demək olar ki, ön planda təsvir etmiş, arxa fon sabit qalmış, minimum detallarla tamamlanmışdır. Bu, oxucunun diqqətini hekayənin obrazlarına yönəltmək məqsədi daşıyırdı.

Rafiq Mehdiyev müxtəlif janrlarda yaratdığı əsərlərdə də motivin obrazlı tutum almasına səy görünməkdədir. Rəssamın linoqravüra texnikasında ərsəyə gətirdiyi "Bizim kəndin qadınları" (1964) silsiləsində kənd və onun adamları haqqında obrazlarla ifadə olunmuş bədii məlumat almaq mümkündür. "Tarladan qayıdanlar", "Kolxozçu qadın" və "Fasilə" lövhələrində istifadə

olunan cizgilərin təzadı əmək adamların yaşantılarını duymağa imkan vermişdir [3. s. 7].

Bədii obrazlarla fikrini ifadə etmək hər bir sənət əsərinə həm də əbədilik bəxş etdiyindən, əsl yaradıcılar üçün bu bir o qədər çətin olmadığı halda, əksəriyyət üçün bu əlçatmaz olur. Başqa sözlə desək, əgər obrazlılığı əldə etmək görünənlərə yaradıcı və fəlsəfi münasibət göstərməyin nəticəsidirsə, digər hallarda ərsəyə gətirilən təsvirlər yalnız gerçəkliyin müəllifin malik olduğu bədii vərdişlər vasitəsilə "soyuq" ifadəsindən ibarət olur və tamaşaçısını sona qədər duyğulandırmır.

Qrafikanın geniş yayılmış növlərindən biri olan plakat orta əsrlərdə meydana gəlmişdir. Dünya incəsənət xəzinəsinə daxil olan modern dövrünün mətbəə plakatları və afişaları kimi yeni yaradıcılıq sahəsi böyük sənətkarların diqqətini cəlb edir. Azərbaycan rəssamları, inqilabdan əvvəlki plakatı qrafikanın tamhüquqlu janrı səviyyəsinə qaldırmaqla, onun sonrakı inkişaf yollarını müəyyən etməyə başladılar.

Bu yerdə deyək ki, yuxarıda qeyd olunan tədbirlərdən sonra yeni plakatların yaradılmasına bu sahə ilə davamlı məşğul olan rəssamlarla yanaşı, təsviri və tətbiqi sənətin müxtəlif növləri ilə məşğul olan sənətkarlar da cəlb olunmuşdular. Bu mənada rəngkar S.Şərifzadə, H.Haqverdiyev, D.Kazımov və V.Ağababayevlərin, keramikaçı O.Şıxəliyev və R.Xələfovun, R.Mehdiyevin adlarını çəkmək olar.

Rəssamın bədii irsi içərisində çoxlu qrafik əsərləri də vardır. Onlar sulu boya ilə, qələmlə, pastellə və tuşla işlənmişdir. Bu qrafiki işlər içərisində adi qələmlə işlənmiş insan portretləri xüsusui yer tutur. Portretlərdə bir xətlə insan xarakterinin xüsusiyyətlərini tutması alqışa layiqdir. Rəsmin dəqiq və poroporsional qaydalara uyğun olması üçün rəsmin quruluşunun və anatomik qaydalarının dəqiq mənimsənildiyi hiss olunur. Məhz bunun sayəsində rəssam öz üzərində sərasər çalışdığı üçün bu pilləyə gəlib çatmışdır. Rəssam rəssamlığın əsasını rəsmə dərindən yiyələnməkdə görür, çünki həm kompozisiya, həm portret, həm də mənzərə və natürmort janrının əsasını, sütununu rəsm təşkil edir. Bir çoxu vaxtilə Respublika qəzetlərində çap olunmuşdur. Qrafik rəsmlər mövzu rəngarəngliyi, ifadə vasitələrinin əlvanlığı ilə diqqəti cəlb edir [5. s. 17].

Rafiq Mehdiyev 1980-cı ildə əməkdar rəssam, 1988-ci ildə dosent, 1992-ci ildə isə professor və xalq rəssamı fəxri adına layiq görülmüşdür. 2003-cü ildən isə prezident təqaüdçüsü olmuşdur. Mehdiyev Rafiq bir neçə dəfə Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmişdir. Rəssam Rafiq Mehdiyev 2009-cu ildə Bakı şəhərində vəfat etmişdir.

***Ədəbiyyat***

1. *Rasim Əfəndi. "Azərbaycan İncəsənəti" kitabi (Şərq-Qərb, Bakı-2007).*
2. *Vaqif Ağayev. "Kitab Qrafikasinda Rəsm" metodik vesait (Bakı - 2006).*
3. *"Расцвет Азербайджанского Советского Искусства"«Елм» Баку - 1986.*
4. *http://www.azeribalasi.com/azerbaycan-185/tesviri-seneti-ince-sanatlari-71417/*
5. *http://az.wikipedia.org/wiki/Rafiq_Mehdiyev*
6. *http://azerbaijans.com/content_227_az.html*

**S.B.Həsənli**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***hesenlisebine999@gmail.com***

# MÜASİR TƏHSİL SİSTEMİNİN İDARƏ EDİLMƏSİ VƏ İDARƏETMƏ NÖQTEYİ-NƏZƏRİNDƏN ONUN VƏZİYYƏTİNİN TƏHLİLİ

***Xülasə***

*Təhsil sistemlərinin sosial-iqtisadi inkişafındakı mövcud tendensiyaların və onlarda layihə idarəetməsinin tətbiqi təcrübəsinin təhlili əsasında təhsildə layihə idarəetməsinin həyata keçirilməsi üçün, kadrların hazırlanması üçün tövsiyələr hazırlanır. Müasir təhsil sistemlərinin inkişafı üçün çətin şərtlər təşkilati idarəetmənin əsaslı şəkildə yeni sistemlərinə keçidin aktuallığını əvvəlcədən müəyyən etmişdir. Uğurlu təhsil sistemlərində müəllimlər həm sistemin təkmilləşdirilməsində, həm də öz inkişaflarında mühüm rol oynayırlar. Başqa sözlə, bu ölkələrdə təhsil islahatları yuxarıdan aşağıya verilən əmrlərlə deyil, müəllimlərin sahibliyi, peşəkar məsuliyyəti və islahat rəhbərliyi ilə həyata keçirilir.*

# УПРАВЛЕНИЕ СОВРЕМЕННОЙ СИСТЕМОЙ ОБРАЗОВАНИЯ И АНАЛИЗ ЕЕ СОСТОЯНИЯ С ТОЧКИ ЗРЕНИЯ УПРАВЛЕНИЯ

***Резюме***

*На основе анализа современных тенденций социально-экономического развития образовательных систем и опыта применения в них проектного управления даются рекомендации по подготовке кадров для реализации проектного управления в образовании. Сложные условия развития современных образовательных систем предопределили актуальность перехода к принципиально новым системам организационного управления. В успешных системах образования учителя играют важную роль как в совершенствовании системы, так и в собственном развитии. Другими словами, образовательные реформы в этих странах осуществляются не по приказу сверху вниз, а на основе сопричастности учителей, профессиональной ответственности и лидерства в области реформ.*

# MANAGEMENT OF THE MODERN EDUCATION SYSTEM AND ANALYSIS OF ITS SITUATION FROM THE POINT OF VIEW OF ADMINISTRATION

***Summary***

*Based on the analysis of the current trends in the socio-economic development of educational systems and the experience of applying project management in them,*

*recommendations are made for the training of personnel for the implementation of project management in education. Difficult conditions for the development of modern educational systems pre-determined the urgency of the transition to fundamentally new systems of organizational management. In successful education systems, teachers play an important role in both system improvement and their own development. In other words, educational reforms in these countries are implemented not by top-down orders, but by teacher ownership, professional responsibility, and reform leadership.*

***Açar sözlər:*** *təhsil sistemi, inkişaf, təlim, innovativ fəaliyyət*
***Ключевые слова:*** *система образования, развитие, обучение, инновационная деятельность*
***Key words:*** *educational system, development, training, innovative activity*

Ölkəmizin perspektivləri bir çox cəhətdən müstəqil respublikamızın ictimai-tarixi inkişafının sürətli inkişafına, elmi-texniki nailiyyətlərin geniş tətbiqinə əsaslanan ahəngdar inkişaf etmiş intellektual potensiallı nəslin və ona uyğun təhsilin formalaşdırılmasından asılıdır. Bu fondlar təhsil sahəsində dövlət siyasətinin prioritet istiqamətlərindən biri olan vətənini və xalqını sevən, milli məfkurəmizə sadiq yaradıcı şəxsiyyətin formalaşdırılması kimi problemin həllini yüksəltmişdir. Mövcud ali təhsil sistemində islahatların aparılması ali təhsilin yeni konsepsiyası və ali təhsil müəssisələrinin fəaliyyətinin qiymətləndirilməsinin yeni sistemi, elmi və elmi-tədqiqat fəaliyyətinin aktivləşdirilməsi çərçivəsində ali təhsil müəssisələrinin rəqabətqabiliyyətliliyini şərtləndirən amillərdən biridir.

İnnovativ fəaliyyət. Ali təhsildə elmi-innovativ fəaliyyətin təşkili və inkişaf səviyyəsi bir çox cəhətdən elm və iqtisadiyyatın real sektorunun inteqrasiya dərəcəsini, əməkdaşlığın bu formasını müəyyən edir, ali təhsil mütəxəssislərinin səriştəsinə və son nəticədə elmin gücünə təsir göstərir.

Tələbələrin təlim-tərbiyəsində diqqət bilik istehlakından müstəqil sahibkarlıq düşüncə tərzinin formalaşmasına, gələcək məzun-mütəxəssin yaradıcı elmi potensialının inkişafına keçir. Bu onunla əlaqədardır ki, tələbə müstəqil elmi iş prosesində adi oxu prosesindən fərqli olaraq reallığın fərqli aspektləri ilə qarşılaşır ki, bu da onu elmi problemləri müəyyən etməyə, həll yollarını tapmağa və inkişaf istiqamətlərini müəyyən etməyə sövq edir. Tədqiqat fəaliyyətinin elmi fəaliyyətin digər formalarını aktivləşdirdiyini, elmi və innovativ sahələrdə fəaliyyət dairəsini genişləndirdiyini təsdiq etmək olar. Bütün bunlar elmin inkişafı üçün aşağıdakı şəraitin yaradılması zərurətini müəyyən edir. Ali təhsildə aparılan elmi-tədqiqat işlərinin səviyyəsinin inkişafı:

- tədqiqat kadrlarının hazırlanmasının keyfiyyətinin və həyata keçirilən elmi-texniki tədbirlərin səviyyəsinin yüksəldilməsi;

- ali təhsil müəssisələrinin tələbə və doktorantları hesabına gənc perspektivli kadrların gücləndirilməsi yolu ilə ali təhsil müəssisələrinin elmi və innovativ potensialının toplanması;
- elmi və innovativ fəaliyyətin nəticələrinin yenilənməsi və kommersiyalaşdırılması;
- beynəlxalq, milli və universitetlərarası tədqiqat proqramlarında və qrantlarda fəal iştirak və s.

2000-ci illərdə dünyanın bir çox ölkələri təhsil sistemlərinin keyfiyyətinin yüksəldilməsi üçün müxtəlif sahələrdə kompleks islahatlar həyata keçirmişlər. Görünür ki, bu islahatlar təhsilin idarə olunmasından tutmuş təhsil proqramlarının maliyyələşdirilməsinə və müəllim hazırlığı modellərinə qədər çox geniş sahəni əhatə edir. Bu islahatların əsas başlanğıc nöqtəsi qloballaşma ilə gündəmə gələn bilik iqtisadiyyatı və iqtisadi rəqabət qabiliyyətinin artırılmasıdır. Qloballaşmanın tələb etdiyi yeni iqtisadi şəraitdə və bilik iqtisadiyyatına keçiddə öyrənməyi öyrənmək, işçilərin bacarıqlarını daim yeniləmək kimi anlayışlar ön plana çıxıb [2]. Nəticədə təhsil sistemləri yüksək ünsiyyət bacarıqlarına malik, komanda işinə uyğun gələn, tənqidi və analitik düşünən fərdlərin yetişdirilməsinə daha çox önəm verib. Bu çərçivədə ömürboyu öyrənmə təhsil siyasəti ön plana çıxır [Green, 2002]. Avropa İttifaqı kimi bəzi transmilli təşkilatlar bu mövzuda müxtəlif araşdırmaları dəstəkləyir. Bu islahatlara nəzər saldıqda oxşar səylərin və çıxışların ön plana çıxdığı görünür. Levin (1998) bu vəziyyəti "siyasət epidemiyası" adlandırır. Bugünkü yüksək rəqabətli qlobal bilik iqtisadiyyatında bütün tələbələrin bəzi yeni bacarıqlar dəstinə ehtiyacı olduğuna dair geniş yayılmış inam var. Doğrudan da, XXI əsrdə yaxşı bir iş və ya yaşayış üçün yalnız əsas oxu, yazmaq və riyaziyyatın kifayət etdiyini düşünmək real deyil. Tarix boyu və yaxın vaxtlara qədər insanlar öz əlləri ilə çox şeylər etdilər və ciddi intellektual bacarıqlara ehtiyac duymadılar. İndi minimum əmək haqqından yuxarı əmək haqqı təklif edən hər hansı bir iş adətən bəzi intellektual və texniki problemləri həll etmək bacarığını tələb edir. İnformasiya durmadan artır, istifadə olunan texnologiyalar daim dəyişir, qlobal istiləşmə kimi ciddi sosial problemlərlə üzləşir. Belə bir dünyada işləmək və vətəndaş olmaq mürəkkəb düşünmə bacarıqları (yaxud təhlil etmək, sübutları qiymətləndirmək və problemləri həll etmək) və ünsiyyət bacarıqları tələb edir. Bu cür bacarıqlar keçmişdə olduğu kimi təkcə elitanın ehtiyac duyduğu bacarıqlar deyil, demək olar ki, bütün vətəndaşlara lazımdır [Vaqner, 2010], [3].

Dünyada təhsil islahatları tələblərinin ən mühüm komponentlərindən biri təhsilin maliyyələşdirilməsində dəyişiklik tələbləridir [Çelik, 2012]. Qərb və Şimal ölkələrində, xüsusilə Avstraliya, ABŞ, İngiltərə, Kanada, Yeni Zelandiya kimi ölkələrdə iqtisadi və sosial sahələrdə birləşmə, bazarlaşma dövlət idarəçiliyi siyasətlərində əhəmiyyətli dəyişikliklərə səbəb olmuşdur.

Ənənəvi olaraq dövlət xidməti kimi qəbul edilən təhsil bu tendensiyaların nəticəsi olaraq getdikcə daha çox fərdi sərvət kimi qəbul edilir. Bu anlayışa əsaslanan siyasətlər nəticəsində təhsildə özəl məktəblər artmış, dövlət məktəbləri müxtəlif yollarla özəlləşdirilmişdir. Təhsil islahatının tələblərinin digər mühüm komponenti mərkəzsizləşdirmə ilə bağlıdır. Effektiv təhsil sistemi üçün xüsusilə Dünya Bankı və OECD kimi beynəlxalq təşkilatlar tərəfindən vurğulanan elementlərdən biri təhsil idarəçiliyinin mərkəzsizləşdirilməsi və məktəb əsaslı idarəetmə yanaşmasıdır. Bu anlayışın məktəbləri daha effektiv hala gətirəcəyi və beləliklə də məktəblərin nailiyyətinin artacağı düşünülür [4].

Müvafiq olaraq, keyfiyyətli təhsil sistemləri bütün tələbələrə ədalətli şəkildə keyfiyyətli təhsil təklif edir və beləliklə, bütün tələbələrin şəxsiyyət və bacarıqlarını inkişaf etdirir. Təhsil sisteminin yaxşı işləməsi üçün onun geniş yayılmış keyfiyyətli təhsili olmalıdır. Buna görə də, təhsil məqsədləri üçün UNECSO/BƏT-in 1966-cı ildə Müəllimlərin vəziyyəti üzrə tövsiyəsində qeyd edildiyi kimi, "heç bir dövlət sadəcə kəmiyyətlə kifayətlənməməli, həm də keyfiyyəti yaxşılaşdırmağa çalışmalıdır" [UNESCO, 2008, s. 24]. Eyni sənəddə qeyd edildiyi kimi, təhsil davamlı prosesdir və təhsil xidmətinin bütün elementləri koordinasiya edilməlidir ki, bütün tələbələr keyfiyyətli təhsil alsınlar.

Finlandiya, Kanada, Çin və Sinqapur kimi beynəlxalq qiymətləndirmələrdə önə çıxan uğurlu təhsil sistemlərini müqayisəli şəkildə araşdıran Stewart (2012) aşağıdakı ümumi xüsusiyyətləri də müəyyən etmişdir:



Bəzi insanların yaxşı menecer kimi doğulduğunu və bu səbəblə də idarəetmənin öyrənmə yolu ilə əldə oluna bilməyəcəyini düşünənlər tez-tez bu ifadəni işlədirlər. "İdarəetmənin məktəbi yoxdur, idarəetmə kitablar vasitəsilə öyrənilmir", "Yaxşı müəllim hər zamanda yaxşı idarəçi olacaq" kimi köhnəlmiş fikirlərlə hərəkət etməklə təhsil müəssisələrində idarəçilərin hazırlanmasında irəliləyiş əldə etmək mümkünsüzdür. Peşə standartları təhsil müəssisəsinin idarə edilməsi üçün milli səviyyədə müəyyən olunmalıdır. Həmçinin təhsil idarəçiliyində yüksək keyfiyyətli rəhbərliklə təhsil nəticələri arasında müsbət əlaqənin olduğu danılmazdır. Bir sözlə keyfiyyətli idarəçilik təşkilat daxilində yüksək nəticə əldə etməkdə mühim faktorlardan biridir [5].

Bir çox qabaqcıl, inkişaf etmiş ölkələrdə təhsil sahəsinin inkişafının əsas səbəblərindən biri idarəetmədə müasir tələblərə cavab verə bilən yenilikçi heyətin yaradılmasıdır. İndiki zamanda effektiv və stabil idarəetmə üzvlərinin hazırlanması bir qədər mürəkkəbdir. Bunun üçündə dövlət bir çox tədbirlər görməlidir. Vaxtaşırı təlimlər həyata keçirilməli və bu təlimlər üçün ixtisaslı kadrlar cəlb olunmalıdır. Təlimlər üçün həm dövlət, həm də özəl sektorlar tərəfindən maliyyə vəsaiti ayrılmalı və xarici ölkələrdən peşəkar təlimçilər, menecerlər cəlb olunmalıdır. Bundan əlavə əmək bazarının ehtiyyacları nəzərə alınmalı, innovativ yeniliklərdən xəbərdar olunmalı və effektiv hazırlıq üçün metod və üsulların düzgün seçilməsinə, tətbiq olunmasına diqqət etmək lazımdır. Son zamanlarda aparılan araşdırmalar təhsil müəssisələrindəki keyfiyyətin əsasını menecerlərin müvəffəqiyyətində görürlər. Həmçinin onlar üçün təlimlərin keçirilməsini əsas bilirlər. Sözsüz ki, hər sahədə olduğu kimi, təhsil sahəsində də problemlər yaşanır. Menecerlərində öz sahələrindəki inkişaflarını izləyərək, fərdi olaraq təkmilləşərək və təlimlərə qatılaraq problemlərə həll yolu tapması mümkündür.

***Ədəbiyyat***

1. *Analysis of the Educational Administration of the Public Educational Centers of Andalusia (Spain): The Role of the Manager in the Face of New Social Challenges - 16 June, 2022.*
2. *Eğitimde etkililiğinin artırılabilmesi için sistem modelinin okul ve öğrenme ortamına uyarlanabilirliği - Süleyman Göksoy.*
3. *Eğitim sisteminin kalitesinin artırılması - Ankara 2014.*
4. *Eğitim kalitesini etkileyen faktörler ve kaliteli eğitim üretimine katkısı - Prof. Dr. Fahri Kayadibi.*
5. *https://scialert.net/fulltext/?doi=itj. 2014. 340.346*

**T.R.Məcnunova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***mecnunovrehman@gmail.com***

# STRATEJİ PLANLAŞDIRMADA ALİ TƏHSİL MÜƏSSİSƏSİ RƏHBƏRİNİN ROLU

***Xülasə***

*Strateji planlaşdırma ədəbiyyatda zaman-zaman strateji idarəetmə üçün istifadə oluna bilsə də, strateji planlaşdırmanı strateji idarəetmənin bir hissəsi kimi qəbul etmək lazımdır. Strateji planlaşdırmanı strateji idarəetmənin məqsədlərinə çatmaq funksiyalarından biri, bəlkə də ən vacibi hesab etmək olar. Əslində, strateji idarəetmə, strategiyaların müəyyən edilməsi, planlaşdırılması və həyata keçirilməsi kimi prosesləri əhatə edir. Bununla belə, strateji planlaşdırma rəhbərliyin gələcəkdə nail olmaq istədiyi məqsəd və strategiyalarla bağlı fəaliyyət kursunu göstərir. Odur ki, strateji planlaşdırmada rəhbərliyin daxili və xarici mühitini tədqiq etməklə vəziyyətin təhlili aparılır. Daha sonra missiya, vizyon, strateji məqsəd və vəzifələr müəyyən edilərək, əldə ediləcək əsas dəyərlər işığında strategiyalar irəli sürülür və sonda onların əldə edilib-edilməməsi qiymətləndirilir.*

# РОЛЬ РУКОВОДИТЕЛЯ ВУЗА В СТРАТЕГИЧЕСКОМ ПЛАНИРОВАНИИ

***Резюме***

*Хотя стратегическое планирование иногда может использоваться в литературе для стратегического управления, стратегическое планирование следует рассматривать как часть стратегического управления. Стратегическое планирование можно считать одной из функций стратегического управления, пожалуй, самой важной. По сути, стратегическое управление включает в себя такие процессы, как определение, планирование и реализация стратегий. Однако стратегическое планирование показывает направление действий, связанное с целями и стратегиями, которых руководство хочет достичь в будущем. Поэтому в стратегическом планировании анализ ситуации осуществляется путем изучения внутренней и внешней среды управления. Затем определяются миссия, видение, стратегические цели и задачи, выдвигаются стратегии с учетом основных ценностей, которые необходимо достичь, и, наконец, оценивается, достигнуты они или нет.*

# THE ROLE OF THE HEAD OF THE HIGHER EDUCATION INSTITUTION IN STRATEGIC PLANNING

***Summary***

*Although strategic planning can sometimes be used in the literature for strategic management, strategic planning should be considered as part of strategic*

*management. Strategic planning can be considered one of the functions of strategic management, perhaps the most important. In essence, strategic management includes processes such as defining, planning and implementing strategies. However, strategic planning shows the course of action related to the goals and strategies that management wants to achieve in the future. Therefore, in strategic planning, the analysis of the situation is carried out by studying the internal and external environment of the management. Then, the mission, vision, strategic goals and objectives are determined, strategies are put forward in the light of the main values to be achieved, and finally, whether they are achieved or not is evaluated.*

***Açar sözlər:*** *ali təhsil, rektor, müəllim, tələbə*
***Ключевые слова:*** *высшее образование, ректор, преподаватель, студент*
***Key words:*** *higher education, rector, teacher, student*

Ali təhsil müəssisəsi rəhbərinin fəaliyyətinin strateji planlaşdırılması baxımından təhlilin aparılması müəssisənin səmərəli fəaliyyətini təmin etmək üçün zəruridir. Bu aspektdə müəyyən təhlillərin aparılması bu və ya digər amillərlə bağlıdır.

Güclü və zəif tərəflərin müəyyən edilməsi: ali təhsil müəssisəsi rəhbərinin fəaliyyətinin strateji planlaşdırılmasının təhlili müəssisənin güclü və zəif tərəfləri haqqında dəyərli fikirlər verə bilər. Bu təhlil qurumun missiya və baxış bəyanatlarını, onun strateji məqsəd və vəzifələrini, bu məqsədlərə nail olmaq üçün həyata keçirilən təşəbbüsləri və tədbirləri nəzərdən keçirməklə aparıla bilər. Bununla yanaşı müəssisənin güclü tərəflərinin müəyyən edilməsi vacibdir, çünki o, təşkilatın mükəmməl olduğu və resurslara investisiya qoymağa davam etməli olduğu sahələri vurğulamağa kömək edə bilər. Məsələn, müəssisə müəyyən bir təhsil sahəsində güclü reputasiyaya və ya yüksək keyfiyyətli professor-müəllim heyətinə malik ola bilər. Bu güclü tərəflərin tanınması onlara əsaslanmağa və təşkilatın ümumi nüfuzunu və rəqabət qabiliyyətini artırmağa kömək etməsində bir əminlik yaradır.

Müəssisənin zəif tərəflərinin müəyyən edilməsi eyni dərəcədə vacibdir, çünki o, təkmilləşdirmələrə ehtiyac duyulan sahələri müəyyən etməyə kömək edə bilər. Bu, köhnəlmiş infrastruktur və ya texnologiya, qeyri-adekvat maliyyə vasitələri kimi sahələri əhatə edə bilər. Bu zəif cəhətlərin aradan qaldırılması təşkilatın ümumi fəaliyyətini yaxşılaşdırmağa və rəqabət qabiliyyətini artırmağa kömək edə bilər.

Bütövlükdə ali təhsil müəssisəsi rəhbərinin fəaliyyətinin strateji planlaşdırılmasının təhlili müəssisənin güclü və zəif tərəfləri haqqında dəyərli fikirlər verə bilər. Bu təhlil qurumun səmərəli fəaliyyət göstərməsini və uzunmüddətli məqsədlərinə nail ola bilməsini təmin etmək üçün qərarların qəbul edilməsi və resursların bölüşdürülməsi barədə məlumatı təmin edər.

Məqsəd və vəzifələrin qoyulması: ali təhsil müəssisəsi rəhbərinin fəaliyyətinin strateji planlaşdırılmasının təhlili müəssisə qarşısında aydın və konkret məqsəd və vəzifələrin qoyulmasına kömək edə bilər. Bu məqsəd və vəzifələr qurumun missiyası və baxışı ilə uyğunlaşdırılmalı və qurumun uzunmüddətli məqsədlərinə çatmasına kömək etmək üçün tərtib edilməlidir.

Ali təhsil müəssisəsinin rəhbəri müəssisənin cari strateji planını nəzərdən keçirməklə müəssisənin öz səylərini və resurslarını cəmləşdirməli olduğu sahələri müəyyən edə bilər. Bu, qurumun öz missiyasına və vizyonuna çatmasına kömək edəcək konkret məqsədlərə doğru işləməsini təmin etməsini istiqamətləndirər.

Resursların səmərəli bölüşdürülməsi: Ali təhsil müəssisəsi rəhbərinin fəaliyyətinin strateji planlaşdırılmasının təhlili də resursların səmərəli bölüşdürülməsinə kömək edə bilər. Bu, resurslardan kifayət qədər istifadə olunmayan sahələrin və əlavə resurslara ehtiyac duyulan sahələrin müəyyən edilməsində əminlik yaradar.

Tərəqqinin qiymətləndirilməsi: ali təhsil müəssisəsi rəhbərinin fəaliyyətinin strateji planlaşdırılmasının təhlilinin aparılması məqsəd və vəzifələrə nail olmaq istiqamətində irəliləyişləri qiymətləndirməyə kömək edə bilər. Bu təhlil tələbə qəbulu və saxlama dərəcələri, məzunluq dərəcələri, tədqiqatın maliyyələşdirilməsi kimi müəssisənin fəaliyyət göstəricilərinin nəzərdən keçirilməsində aydınlıq yaradar.

Faktiki fəaliyyət məlumatlarını qurumun strateji planında müəyyən edilmiş məqsəd və vəzifələrlə müqayisə edərək, qurumun rəhbəri həmin məqsədlərə nail olmaq istiqamətində irəliləyişi qiymətləndirə bilər. Bu, ali təhsil müəssisəsinin irəliləyiş əldə etdiyi sahələri və əlavə diqqət tələb edən sahələri müəyyən etməyə kömək edə bilər.

Əlavə diqqət tələb edən sahələrin müəyyən edilməsi təşkilata öz fəaliyyətini yaxşılaşdırmaq üçün düzəldici tədbirlər planlaşdırması əsas məsələdir. Məsələn, əgər müəssisə hədəf qəbul nisbətinə uyğun gəlmirsə, daha çox tələbə cəlb etmək üçün marketinq və işə götürmə səylərinə investisiya qoymalı ola bilər. Alternativ olaraq, əgər fakültə nəşrləri institutun hədəfindən aşağı olarsa, institutun tədqiqat və elmi fəaliyyətə daha çox dəstək verməsi tələb oluna bilər [2, s.7].

Məqsədlərə nail olmaq istiqamətində irəliləyişin müntəzəm olaraq qiymətləndirilməsi qurumun öz missiyasına və vizyonuna nail olmaq yolunda davam etməsinə kömək edə bilər. Bu, həmçinin təkmilləşdirmə və innovasiya imkanlarını müəyyən etməyə və resurslardan səmərəli istifadə olunmasını həyata keçirər.

Bütövlükdə, ali təhsil müəssisəsi rəhbərinin fəaliyyətinin strateji planlaşdırılmasının təhlilinin aparılması məqsəd və vəzifələrə nail olmaq yolunda irəliləyişləri qiymətləndirməyə, təhsil müəssisəsinin irəliləyiş əldə

etdiyi sahələri və əlavə diqqət tələb edən sahələri müəyyən etməyə kömək edə bilər. Bu, qurumun davamlı olaraq təkmilləşməsini və uzunmüddətli məqsədlərinə çatmaq üçün işləməsini təmin etməyə kömək edə bilər.

Ali təhsil müəssisəsi rəhbərinin fəaliyyətinin strateji planlaşdırılmasının təhlili müəssisənin səmərəli fəaliyyət göstərməsini, onun uzunmüddətli məqsəd və vəzifələrinə nail ola bilməsini təmin etmək üçün zəruridir.

Cəmiyyətin və iqtisadiyyatın ehtiyaclarına həssas, onun maraqlı tərəfləri ilə qarşılıqlı əlaqə, universitetlərin istehsal etdiyi biliyi məhsula, texnologiyaya və xidmətə çevirən elmi cəhətdən tədqiqat universitet modeli çərçivəsində qlobal miqyasda rəqabətqabiliyyətli ali təhsil sisteminə çatmaq üçün fəaliyyətlərini planlı şəkildə həyata keçirmələri vacibdir.

Dövlət idarəçiliyi və dövlət maliyyə idarəçiliyi islahatları çərçivəsində universitetlərdə həyata keçirilən strateji idarəetmə prosesi, Universitetlərin orta və uzunmüddətli perspektivdə diqqət yetirmək istədikləri prioritetlərin müəyyən edilməsi, büdcənin hazırlanması və icrası prosesində fiskal intizamın təmin edilməsi, resursların strateji prioritetlərə uyğun bölüşdürülməsi və onlardan səmərəli istifadə edilib-edilməməsinə nəzarət və bunun əsasında hesabatlılığın formalaşdırılması əsasdır [3, s.72].

Universitetlər digər dövlət idarələrindən fərqli bir sektor təşkil edir. Eyni xidməti təklif edən bir neçə universitet varsa, onları fərqləndirmək cəhdi qaçılmaz olacaq. Ancaq bu fərqlilik, üstünlük əldə etmək və ya özəl sektor müəssisələri kimi qazanc əldə etməyi hədəfləyən birbaşa rəqabət strategiyaları yerinə üstünlük əldə etmək üçün mübarizədə istifadə edilən dolayı yanaşmalar şəklindədir. Bu xüsusiyyət bir tərəfdən dövlət idarələri tərəfindən istifadə edilən ənənəvi planlaşdırma yanaşmalarının, digər tərəfdən isə özəl sektor müəssisələri tərəfindən hazırlanmış rəqabət strategiyası və müqayisəli yanaşmaların ali təhsil sektoruna xas şəkildə həll edilməsini tələb edir.

Universitetlər arasında diferensiallaşma meylinin həcminin və dərinliyinin artmasına səbəb olacaq əsas səbəbləri aşağıdakı kimi qruplaşdırmaq olar:

- Universitetlərin sayında artımın davam etdirilməsi;
- Ali təhsil sektorunda müxtəlifliyin artırılması;
- Universitetlərin beynəlmiləlləşmə meylinin artması;
- Universitetlərin maliyyə resurslarına ehtiyacın artması;
- Universitetlərin yerli, regional və milli rəqabət qabiliyyətinə və ya inkişafına nail olmaq vasitəsi kimi qiymətləndirilməsi;
- İstehsal olunan biliklərin kommersiyalaşdırıldığı üçüncü nəsil (sahibkar) universitetlərin yaranması.

Bu diferensiallaşma universitetlərin müəyyən sahələr üzrə ixtisaslaşmasını zəruri edir. Universitetlərin rəqabət mühitində yer alması və

elmi muxtariyyətə malik olması strateji planların universitetə xas yanaşma hazırlanmasını tələb edir.

Strateji planlaşdırmada aşağıdakıların nəzərə alınması məqsədəuyğun ola bilər:

- Strateji planlar və strateji idarəetmənin digər əsas komponentləri arasında daha güclü əlaqə yaratmaq;
- Resurslardan istifadədə səmərəliliyin artırılması məqsəd və vəzifələrin prioritetləşdirilməsi;
- Daha yaxşı performans qiymətləndirməsini həyata keçirməklə sübuta əsaslanan qərar qəbulunu təmin etmək;
- Daha keyfiyyətli hesabat üçün zəmin yaratmaqla dövlət idarəçiliyində şəffaflığın və hesabatlılığın yaradılmasına töhfə vermək;
- Məqsəd və hədəflərin əldə olunmasına təsir edə biləcək riskləri nəzərə almaqla və lazımi qiymətləndirmələr aparmaqla məqsəd və hədəflərin müəyyənləşdirilməsinə dəstək olmaq.

Strateji planlaşdırma, müxtəlif vəzifə və bacarıqlara malik bir çox insanı bir araya gətirən və universitetin hər yerində, xüsusən də rektorun fəaliyyətini tələb edən vaxt aparan bir prosesdir. Strateji planlaşdırma tədqiqatlarının müvəffəqiyyəti əsasən plandan əvvəl hazırlıqların adekvat səviyyəsindən asılıdır. Universitetin gələcək dizaynı olan strateji planın hazırlıq işində Strategiyanın İnkişafı Departamenti (SGDB) koordinasiya və harmoniyanı təmin edən katiblik rolunu yerinə yetirir [4, s.34].

Strateji planın hazırlanması işləri üç əsas mərhələdən ibarətdir:

- Planın mülkiyyəti;
- Planlaşdırma prosesinin təşkili;
- Hazırlıq proqramının yaradılması.

Strateji planlaşdırmanın müvəffəqiyyəti yalnız universitetin bütün işçiləri planı qəbul etdikdə mümkündür. Strateji planlaşdırma universitet daxilində konkret bölmənin və ya şəxsin məsuliyyəti kimi qəbul edilməməlidir. Planın hazırlanması və bu plana uyğun olaraq universiteti idarə etmək universitet rəhbərliyinin əsas vəzifəsidir. Ona görə də rektorun dəstəyi və rəhbərliyi strateji planlaşdırmanın əvəzsiz şərtidir. Rektor strateji plan yanaşmasını mənimsədiyini universitet kollektivi ilə bölüşməli və institusional mülkiyyəti təmin etməlidir.

Planlaşdırma prosesinin təşkili, strateji planlaşdırma iştirakçı planlama yanaşmasıdır. Bu, rektordan başlayaraq universitet daxilində bütün səviyyələrdə çalışanların iştirakını tələb edir. Bu mərhələdə strateji planlaşdırma prosesində iştirak edəcək əsas faktorlar və həyata keçiriləcək funksiyalar müəyyən edilir. Strateji planlaşdırma prosesinə cəlb edilməli olan şəxslər, bölmələr və komandalar aşağıda verilmişdir.

Rektor Strateji Plan Tərtibatı ilə strateji planlaşdırma işlərinin başlandığını elan edir. Təqdimatda strateji planın hazırlanması üçün universitetdəki bütün bölmələr əksini tapmalıdır.

- Tədrislər rektora məxsusdur və nəzarət olunur.
- İşi yüksək səviyyədə idarə etmək üçün Strategiya İnkişafı Şurası yaradılmışdır.
- İşlər SGDB-nin koordinasiyası ilə həyata keçiriləcək.

Strateji planlaşdırma komandasına məlumat verilir ki, üzvlərin xərcləmə bölmələri tərəfindən təyin edilməsi və bu üzvlərin təlimatda göstərilən keyfiyyətlərə malik olması lazımdır.

Strateji plan hazırlığı çərçivəsində rektor universitetin missiya və baxış ifadələrinin yaradılması, diferensiallaşma strategiyasının müəyyən edilməsi üçün perspektivlər verir. Rektor Strategiyanın İnkişafı Şurasına sədrlik edir. Bundan əlavə, o, strateji planlaşdırma qrupunun təbii rəhbəridir və lazım bildiyi zaman komandaya rəhbərlik edə bilər, lazım gəldikdə isə strateji planlaşdırma qrupunun işinə töhfə verir [1, s.24].

Bundan əlavə, hazırlamaq öhdəliyi olmasa da, strateji planı təsdiq etdikdən sonra, məqsədəuyğun hesab etdiyi halda, strateji plan üçün universitetlər və ya fakültələr kimi aşağı səviyyələr üçün fəaliyyət planı hazırlamağa qərar verə bilər. Bu çərçivədə hazırlanmış fəaliyyət planlarını təsdiq edir.

Strateji plan üçün altı aylıq monitorinq və illik qiymətləndirmə görüşləri keçirir.

Hər mərhələdə strateji plan araşdırmalarını dəstəkləyir və ən yüksək səviyyədə həll edilməli olan mübahisəli məsələlərə qərar verir.

Alternativ missiya, vizyon və əsas dəyərlərin konturlarını və layihələrini və hədəf kartlarını qiymətləndirir və yekunlaşdırır.

SGDB-nin vəzifəsi strateji planı hazırlamaq deyil, planın işini əlaqələndirməkdir. Strateji planlaşdırma işlərində, Strateji Plan Təqdimatının hazırlanması və rektorun təsdiqinə təqdim edilməsi, görüşlərin təşkili, universitetdaxili və xaricdə ünsiyyət, sənəd dövriyyəsi kimi dəstək xidmətləri SGDB tərəfindən həyata keçirilir. Bu prosesdə istənilən rəsmi yazışmalar SGDB vasitəsilə həyata keçirilir [2, s.34].

SGDB-lər lazım gəldikdə planın hazırlanması, icrası, monitorinqi və qiymətləndirilməsi proseslərindəki təcrübələrini Strategiyanın İnkişafı Şurasına, strateji planlaşdırma komandasına və xərcləmə bölmələrinə ötürməlidir. SGDB-lər xüsusilə strateji planın bütövlüyünün təmin edilməsində və bu prosesdə ümumi dilin yaradılmasında mühüm rol oynayır.

Rektor strateji plan üçün tədbirlər planı hazırlamaq qərarına gələrsə, prosesi koordinasiya edir.

Strateji planlaşdırma qrupu xərc bölmələrinin nümayəndələrindən və SGDB-nin koordinasiyası ilə, prorektorun sədrliyi ilə SGDB menecerindən ibarətdir. Qrup rəhbərinin iclaslarda iştirak edə bilmədiyi hallarda, SGDB meneceri sədrliyi əvəz edə bilər.

**Nəticə.** Nəticə etibarı ilə, aydın və konkret məqsəd və vəzifələrin müəyyən edilməsi də, qərarların qəbulu və resurs bölgüsünə rəhbərlik etməyə kömək edə bilər. Ali təhsil müəssisəsinin nəyə nail olmağa çalışdığını bilməklə, qurumun rəhbəri maliyyə, işçi heyəti və obyektlər kimi resursların necə bölüşdürüləcəyi barədə əsaslandırılmış qərarlar qəbul edə bilər. Bu, qurumun məqsədlərinə nail olmaq üçün resurslardan səmərəli istifadə olunmasını təmin etməyə kömək edə bilər.

Bütövlükdə, ali təhsil müəssisəsi rəhbərinin fəaliyyətinin strateji planlaşdırılmasının təhlili müəssisənin missiyası və baxışı ilə uzlaşan aydın və konkret məqsəd və vəzifələrin qoyulmasına kömək edə bilər. Bu, qərarların qəbulu ali təhsil müəssisəsinin müasir tələblər baxımından inkişafına müsbət təsir göstərə bilər.

***Ədəbiyyat***

1. *Poister T., Streib G. Elements of Strategic Planning and Management in Municipal Government // Status after Two Decades, Public Administration Review,- 2005, 1(65), - p. 45-56.*
2. *Pratchett T., Young G., Brooks C., Jeskıns L. ve Monagle H., "SWOT Analysis", Practical Tips for Developing Your Staff (Ed. Tracey Pratchett, Gil Young) //Facet Publishing, -London: 2018. – p. 211-213.*
3. *Williams M., Strategic Planning, Operating Room Leadership and Management (Ed. C. Fox, R.Urman, A.Kaye), Cambridge University Press, Cambridge, 2012, p.25-31.*
4. *Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyası, 24 oktyabr 2013.*
5. *Kərimov N.M., Həziyev V.B. Strateji planlaşdırmanın əsasları. Bakı, Kooperasiya nəşriyyatı, -2004, -s. 172.*

**G.İ.Hadiyeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***gulhanehadiyeva@gmail.com***

# ÖMÜRBOYU TƏHSİL MÜASİR LİDERLİYİN ƏSAS TƏLƏBİ KİMİ

***Xülasə***

*Ömürboyu təhsil liderlik inkişafında əhəmiyyətli rola malikdir. Liderlik sadəcə doğulmuş bir bacarıq deyil, həm də daim öyrənmə, inkişaf və yenilənmə tələb edən bir bacarıqdır. Bu səbəbdən, liderlərin ömürboyu öyrənməyə açıq olmaları və daim özlərini inkişaf etdirmələri lazımdır. Ömürboyu təhsil, liderlərin bacarıqlarını yeniləmələrinə, yeni bacarıqlar öyrənmələrinə və yenilikçi fikirlər axtarmaqlarına kömək edir. Bütün bunları nəzərə alaraq məqalədə ömürboyu təhsil və liderlik arasında əlaqə araşdırılmışdır. Ömürboyu təhsil vasitəsi ilə liderdə formalaşan bacarıqlar ortaya qoyulmuşdur.*

# НЕПРЕРЫВНОЕ ОБУЧЕНИЕ КАК КЛЮЧЕВОЕ ТРЕБОВАНИЕ СОВРЕМЕННОГО ОБУЧЕНИЯ

***Резюме***

*Пожизненное образование играет значительную роль в развитии лидерства. Лидерство - это не только врожденный навык, но и навык, требующий постоянного обучения, развития и инноваций. Поэтому важно, чтобы лидеры были открыты к пожизненному обучению и постоянно развивались. Пожизненное образование помогает лидерам обновлять свои навыки, изучать новые и искать инновационные идеи. Исходя из этих факторов, в статье исследуется связь между пожизненным образованием и лидерством. Через пожизненное образование выявляются навыки, которыми обладают лидеры.*

# LIFELONG LEARNING AS A KEY REQUIREMENT OF MODERN LEARNING

***Summary***

*Lifelong education plays a significant role in leadership development. Leadership is not only an innate skill, but also a skill that requires constant learning, development, and innovation. Therefore, it is important for leaders to be open to lifelong learning and to continually develop themselves. Lifelong education helps leaders to renew their skills, learn new ones, and seek innovative ideas. Based on these factors, the relationship between lifelong education and leadership is explored in the article. Through lifelong education, the skills that leaders possess are highlighted.*

***Açar sözlər:*** *ömürboyu təhsil, lider, bacarıq, inkişaf, təhsil, liderlik*

***Ключевые слова:*** *пожизненное образование, лидер, навык, развитие, образование, лидерство*
***Key words:*** *lifelong education, leader, skill, development, education, leadership*

Ömürboyu öyrənmə öyrənmənin ömürlük bir proses olduğu və fərdlərin həyatları boyu böyüməyə və inkişaf etməyə davam edə biləcəyi və davam etdirməli olduğu fikrini əhatə edən bir təfəkkürdür. Ömürboyu öyrənmə, həmçinin "LLL" (Lifelong Learning) olaraq da bilinir, ömürboyu, könüllü və şəxsi peşəkar səbəblərə görə bilik axtarışıdır. Beləliklə, o, təkcə sosial inklüzivliyi, aktiv vətəndaşlığı və şəxsi inkişafı deyil, həm də rəqabət qabiliyyətini və məşğulluğu artırır. Bu termin qəbul edir ki, öyrənmə uşaqlıq və ya siniflə məhdudlaşmır, həyat boyu və müxtəlif vəziyyətlərdə baş verir. Şəxsi inkişaf təbii maraqlara, maraqlar motivasiyalara istinad edərək bizi yeni biliklər öyrənməyə aparır.

Ömürboyu öyrənmə insanın həyatı boyu davamlı olaraq bilik və bacarıqlara can atmasıdır. Bu, həm peşəkar, həm də şəxsi olaraq davamlı öyrənməyi və böyüməyi əhatə edir. Bu, kurslarda iştirak etmək və seminarlarda iştirak etmək kimi formal təhsili, eləcə də oxumaq, şəbəkə qurmaq və yeni təcrübələr axtarmaq kimi qeyri-formal öyrənməni əhatə edə bilər. Ömürboyu öyrənmə vacibdir, çünki dünya daim dəyişir və təkmilləşir və ömürboyu öyrənməyə sadiq olan fərdlər bu dəyişiklikləri idarə etmək və karyeralarında aktual qalmaq üçün daha yaxşı təmin olunublar. Bundan əlavə, ömürboyu öyrənmə fərdlərə bilik və bacarıqlarını genişləndirməyə, qərar qəbul etmə qabiliyyətini təkmilləşdirməyə və şəxsi və peşəkar həyatlarında daha effektiv olmağa kömək edə bilər. Ümumilikdə, ömürboyu öyrənmə öyrənmənin ömürlük bir proses olduğu və fərdlərin həyatları boyu böyüməyə və inkişaf etməyə davam edə biləcəyi və davam etdirməli olduğu fikrini əhatə edən bir təfəkkürdür.

Ömürboyu təhsil konsepsiyasının ən önəmli spesifik xüsusiyyəti ondan ibarətdir ki, ənənəvi təhsildən fərqli olaraq təhsil sistemin tələblərinə yox, əmək bazarının tələblərinə uyğun təlimə yönəlməsidir. Bu konsepsiya ayrı-ayrı şəxslərin təhsildən əmək bazarına və əmək bazarından təhsilə gedən yolda hər hansı bir maneə ilə rastlaşmadan təhsil sisteminə cəlb olunmasını təmin edir, həm formal təhsil çərçivəsində, həm də bu çərçivələrdən kənar - informal yollarla əldə edilmiş öyrənməni ehtiva edir [1].

Ömürboyu təhsil, dəyişən iqtisadi, elmi və texnoloji sahələrində qalıcı dəyişikliklərin baş verdiyi cəmiyyətdə insanların qalıcı şəkildə uyğunlaşmasını təmin edir. Əvvəllər, insanlar təhsil aldıqları sahəyə uyğun bir iş tapır və həmin sahədə bütün iş həyatlarını keçirirdilər. İqtisadiyyatın daha sabit və proqnozlaşdırıla bilən olduğu zamanlarda, bu model uğurla işləyirdi. Lakin indi, sürətlə dəyişən iqtisadi, texnoloji və elmi sahələrə uyğun olaraq öyrənmə

və inkişaf etməyə davam etmək şərtdir. Dünya texnologiyaların sürətli inkişafı, artan qlobal əlaqələr və beynəlxalq rəqabət səviyyəsinin yüksəlməsi, iqtisadi dinamikanın dəyişməsinə səbəb olur. Bu dəyişimlərin təsiri altında, peşələr daim dəyişir və bəzi ixtisaslar artıq əhəmiyyətini itirir. Əvvəllər bir iş üçün lazım olan bacarıqlar artıq çox zaman yetərli olmaya bilir.

İşçilər çalışdıqları sahədə sürət ilə ayaqlaşmaq üçün daim yeni bilik və bacarıqlar əldə etməli olurlar. Bu proses təbii ki, təhsil sektorundan da yan keçmir. Artıq əmək bazarına cəlb olunmuş şəxslərin yenidən təhsilə qayıdaraq yeni yaranmış peşələrə yiyələnmələri vacib hala çevrilir. Ömürboyu təhsil bizdə əmək bazarında rəqabət aparmaq qabiliyyətini təmin edir. Hər hansı səbəbdən əmək bazarını tərk etməyə məcbur olmuş şəxslərə yenidən əmək bazarına qayıtmaq imkanı verir. Bu zaman da liderlər üzərinə böyük öhtəliklər düşür.

Təhsil müəssisələrində hesabatlılıq təhsilalanların yüksək keyfiyyətli təhsil almasını təmin etmək üçün müəssisə işçilərinin və idarəçilərin məsuliyyəti deməkdir. Buraya bərabər öyrənmə mühiti və resurslarının təmin edilməsi və təhsilalanların təhsil standartlarına cavab vermək üçün lazımi bacarıq, bilik və səriştələrə yiyələnməsinin təmin edilməsi daxildir. Bu, həmçinin müvafiq gözləntilərin müəyyən edilməsini və təhsil alanların öyrənməsinə kömək etmək üçün rəy və təlimatların təmin edilməsini əhatə edir. Nəhayət, hesabatlılıq təhsil alanların təhsil təcrübələrindən maksimum yararlanmasını təmin etmək üçün təhsil proqramlarının monitorinqini və qiymətləndirilməsini əhatə edir [1, s. 32].

Təhsil müəssisələrində hesabatlılıq təhsil müəssisələrinin və onların işçilərinin, təhsilalanların fəaliyyəti, onlara bərabər təhsilin təmin edilməsi və təhlükəsiz təlim mühitinin təşviqi kimi nəticələrə görə məsuliyyət daşıması prosesinə aiddir. Hesabatlılığa nəticələrin qiymətləndirilməsi, lazım gəldikdə düzəldici tədbirlərin həyata keçirilməsi və təhsilalanların uğurunu prioritetləşdirən ardıcıl qərarların qəbul edilməsi daxildir.

Yuxarda qeyd edildiyi kimi, təhsil müəssisələrində hesabatlılıq siyasəti bütün təhsilalanlar, təhsilverənlər və işçilər üçün təhlükəsiz və dəstəkləyici təlim mühiti yaratmağa kömək edə bilər. Bundan əlavə, yaxşı müəyyən edilmiş hesabatlılıq siyasəti təhsil müəssisəsi mühitində iştirak edən hər kəs üçün aydın gözləntilər təmin edə bilər.

Məsələn, hesabatlılıq siyasətinə təhsilalanın təhsil mühitinin davranış kodeksini pozduğu aşkar edildikdə atılacaq addımlar daxil ola bilər. Bu,

dayandırma, məsləhət və ya hətta qovulma kimi intizam tədbirlərini əhatə edə bilər. Siyasət həmçinin gələcədə baş verə biləcək pozuntuların qarşısını almaq üçün istifadə edilə bilən cəza növlərini də müəyyən edə bilər.

Eyni zamanda, hesabatlılıq siyasətləri təhsilalanların ehtiyaclarını da nəzərə almalıdır. Siyasət təhsilalanların insident barədə məlumat verdikdə və ya kömək istədikdə mənfi təsirlərlə üzləşməsinin qarşısını almaq üçün tədbiri əhatə edə bilər. Eynilə, hesabatlılıq siyasəti təhsilalanların ifadə azadlığı və şəxsi toxunulmazlıq kimi hüquqlarına hörmət edilməsini təmin etməlidir. [2, s. 44]

Süni intellekt təhsil müəssisələrində hesabatlılığı həm təkmilləşdirmək, həm də artırmaq potensialına malikdir. Süni intellektlə gücləndirilmiş sistemlər təhsilalanların performansı haqqında məlumatları toplamaq, təhsilverənlər və təhsilalanlar üçün mənalı rəy təmin etməklə, təhsilalanlar öyrənmə nəticələri üçün hesabatlılığı yaxşılaşdıra bilər. Bununla belə, süni intellektlə işləyən sistemlər də risklərlə gəlir. Süni intellekt alətləri qərəzli ola bilər və təhsilalanların özlərini izlənildiyini və mühakimə olunduğunu hiss etdikləri bir nəzarət mədəniyyəti yarada bilər. Bundan əlavə, süni intellekt təhsilalanların nəticələrini və məlumatlarını manipulyasiya etmək üçün sui-istifadə edilə bilər ki, bu da potensial olaraq təhsil sisteminə inamın aşınmasına səbəb olur.

Təhsil müəssisələrində süni intellektin istifadəsi sürətlə artır. Süni intellekt daha çox yayıldıqca, onun təhsilalanların öyrənmə nəticələrinə potensial təsirləri, habelə hesabatlılıq məsələləri ilə bağlı suallar doğurur. [3, s. 12]

Təhsildə Sİ texnologiyası təhsilalanların öyrənmə nəticələrini əhəmiyyətli dərəcədə yaxşılaşdırmaq potensialına malikdir. Süni intellekt təhsilalanlara fərdi təlimatlar verə, qiymətləndirmələr və rəyləri uyğunlaşdıra və geniş mövzular üzrə real vaxt təlimatı verə bilər. Bu, təhsilalanlara ənənəvi sinif şəraitində mümkün olduğundan daha çox öyrənmə və qavrama, həmçinin təhsilverənlərə sinifdə hər bir təhsilalan üçün fərdiləşdirilmiş kurikulumlar tərtib etmək və izləmək imkanı yarada bilər.

Eyni zamanda, Sİ-in təhsil müəssisələrində tətbiqi hesabatlılıq məsələlərini gündəmə gətirir. Məsələn, Sİ-in effektiv tədris və əks əlaqə təmin etməsinə kim cavabdehdir? Süni intellektlə gücləndirilmiş təhsil proqramlarının təsirini necə ölçə bilərik? Texnologiyanın təhlükəsiz olmasını təmin etmək üçün hansı qaydalar olmalıdır? Bu suallara cavablar təhsilalanların məxfiliyini qorumaq və Sİ-dən məsuliyyətli istifadəni təşviq etmək üçün vacibdir.

Nəhayət, Sİ təhsil müəssisələrində tədris və öyrənmədə inqilab etmək potensialına malikdir. Bununla belə, maraqlı tərəflərin Sİ texnologiyasının təhsil sisteminə daxil edilməsinin etik nəticələrini nəzərə almaları vacibdir. [4, s. 10]

Təhsil müəssisələrində hesabatlılıq təhsil məqsədlərinin yerinə yetirilməsini təmin etmək üçün müəssisənin rəhbərlərinin, təhsilverənlərin və təhsilalanların məsuliyyətinə aiddir. Buraya müvəffəqiyyətin sübutunu təqdim etmək, problemlər yarandıqda düzəldici tədbirlər görmək və müsbət və ya mənfi nəticələrə cavab vermək daxildir.

Təhsil müəssisələrində hesabatlılıq vasitəsi ilə aşağıdakılar həyata keçirilir:

- Akademik tərəqqini ölçən strukturlaşdırılmış fəaliyyətin qiymətləndirilməsi sistemləri;
- Təhsilverənlərin səmərəliliyinin və təlimin keyfiyyətinin qiymətləndirilməsi;
- Təhsilalanların davranışının aydın standartlarının işlənib hazırlanması və bu standartlara uyğun gəlməməsinin nəticələrinin təmin edilməsi;
- Davamiyyət, məzuniyyət və akademik nailiyyətin digər tədbirləri ilə bağlı siyasət və prosedurların müəyyən edilməsi;
- Təhsilverənlər, idarəçilər və təhsilalanlar arasında əks əlaqə dövrələrinin yaradılması;
- Kollektiv şəkildə qərarların qəbulu üçün strukturların və proseslərin yaradılması;
- Texnologiyanın və məlumatlara əsaslanan qiymətləndirmələrin təhsil sisteminə daxil edilməsi;
- Təhsilalanlar, valideynlər, pedaqoqlar və idarəçilər arasında şəffaflıq və açıq ünsiyyət mədəniyyətinin yaradılması (5, s. 22).

## Nəticə

Təhsil müəssisələrində hesabatlılıq mexanizminin mövcudluğu zəruridir, müəssisənin fəaliyyətində şəffaflığı təmin edir. Bu siyasətlərin etik və məsuliyyətli davranışı, akademik dürüstlüyü və müsbət iş mühitini təşviq edən təhsilalan, təhsilverən və rəhbərlik üçün əhəmiyyətli təsiri var.

Təhsil müəssisələrində aparılan hesabatlıq siyasətləri üçün əldə edilən nəticələr:

1. Təhsil müəssisələri öz dəyərlərini, həmçinin bütün maraqlı tərəflərin mararaqlarını nəzərə alaraq effektiv hesabat siyasətlərinin işlənib hazırlanmasına və həyata keçirilməsinə üstünlük verməlidirlər.
2. Siyasətlər təşkilat daxilində mövqeyindən və statusundan asılı olmayaraq bütün maraqlı tərəflərə ardıcıl və ədalətli şəkildə tətbiq edilməlidir.
3. Siyasətlər aydın və birmənalı olmalı, insidentlər barədə məlumat vermə prosedurlarını, maraqlı tərəflərin rollarını və məsuliyyətlərini, habelə qayda pozuntuların nəticələrini əks etdirməlidir.
4. Hesabat siyasətləri vacib olsa da, onların yaxşı işlənib hazırlanmasını və effektiv şəkildə həyata keçirilməsini təmin etməlidir.

***Ədəbiyyat***

1. *Mərdanov. M.C., "Fasiləsiz təhsil hamı üçündür". Azərbaycan müəllimi qəz. 1-7 mart 2021.*
2. *Mərdanov. M.C., Müstəqillik və təhsil islahatı. "Azərbaycan müəllimi", 30 iyul 2018.*
3. *"Azərbaycan Respublikası Təhsil Sahəsində İslahat Proqramı", "Azərbaycan müəllimi" qəzeti, 17 oktyabr, 2008-ci il.*
4. *M.Mərdanov, R.Ağamalıyev, A.Mehrabov, T.Qardaşov. "Təhsil sistemində monitorinq və qiymətləndirmə", Bakı - 2019.*
5. *T.Hacıyeva "Məktəbdaxili qiymətləndirmənin aparılması yolları", Kurikulum elmi-metodik jurnal, 2009, №2(6).*
6. *Yəhya Kərimov. "Müəllimin təlim fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi", Təhsil Problemləri İnstitutunun Elmi əsərləri, №2, 2008.*

**G.E.Hacıyeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***a.hajiyev1@hotmail.com***

# TELMAN ABDİNOVUN YARADICILIĞINDA MƏNZƏRƏ, NATÜRMORT VƏ PORTRET JANRLI ƏSƏRLƏRİN BƏDİİ XÜSUSİYYƏTLƏRİ

***Xülasə***

*Məqalədə Naxçıvanın Əməkdar rəssamı Telman Abdinovun yaradıcılığından bəhs edilmişdir. Sözgedən rəssamın natürmort, mənzərə və portret janrında olan bir neçə əsərləri təhlil edilmişdir. Telman Abdinov fərqli natürmortları ilə çoxəsrlik ənənəyə malik olan mənzərə janrlı əsərləri və realistik üslubda işlədiyi portret janrlı tabloları ilə seçilən rəssamdır. Rəssam tərəfindən təsvirə gətirilənlər hamının gördüyü kimi deyil, onun təxəyyülündə canlandırdığı formada ümumiləşdirilib.*

# ХУДОЖЕСТВЕННАЯ ХАРАКТЕРИСТИКА ПЕЙЗАЖНЫХ, НАТЮРМОТНЫХ И ПОРТРЕТНЫХ ЖАНРОВЫХ ПРОИЗВЕДЕНИЙ ТЕЛЬМАНА АБДИНОВА

***Резюме***

*В статье рассказывается о творчестве заслуженного артиста Нахчивана Тельмана Абдинова. Были произведены несколько работ указанного художника, в том числе натюрморты, пейзажи и портреты. Тельман Абдинов-художник выделяющийся своими пейзажными жанровыми картинами в реалистическом стиле, имеющими давнюю традицию с его разнообразными натюрмортами. Художник резюмировал изображённое не так, как его видели все, а в том виде которой он воссоздал в своём воображении.*

# ARTISTIC CHARACTERISTICS OF LANDSCAPE, STILL LIFE AND PORTRAIT GENRE WORKS CREATED BY TELMAN ABDINOV

***Summary***

*The article talks about creativity of Nakhcivan honored artist Telman Abdinov. Several works of this artist in the still life, landscape and image have been analyzed. Telman Abdinov is an artist distinguished by his different landscapes a unique attitude to the landscape genre which has centuries-old traditions and works of image genre, which he works in a realistic style. Brought to the image by the artist not as seen, it is summarized in the form that he recreates in his imagination.*

***Açar sözlər:*** *mənzərə, janr, obraz, Naxçıvan, təbiət*
***Ключевые слова:*** *пейзаж, жанр, образ, Нахичеван, природа*
***Key words:*** *landscape, genre, image, Nakhcivan, natura*

2002-ci ildə Azərbaycan Respublikasının prezidenti tərəfindən "Azərbaycan Respublikasının Əməkdar rəssamı" adına layiq görülən, öz sənətinin vurğunu olan ustad Telman Abdinov yaradıcılığa gənc yaşlarından başlamışdır. Rəssam 1972-ci ildə "Əzim Əzimzadə" adına rəssamlıq məktəbini bitirmişdir. Elə həmin illərdən bir çox görkəmli rəssamlarımızın və xarici ölkə ustadlarının qarşısında öz qabiliyyətini göstərmişdir. Telman Abdinov Bakı, Naxçıvan, Türkiyə, eləcə də Rusiyada bir çox sərgilərini nümayiş etdirmişdir. Elə buna görə də rəssamı tanıdan, onun özünəməxsus şəkildə böyük ustalıqla fırçaya aldığı əsərləri olmuşdur. Onun ilk rəsm əsəri "Səttar Bəhlulzadə" adına şəkil qalereyasında "Abşeron ritmləri" adı ilə tanınır.

Telman Abdinovun tablolarının əksəriyyətində real tutumluluğu, səmimiliyi hiss etməmək mümkün deyil. Onun ayrı-ayrı janrlarda yaratdığı əsərlərində bədii estetik cazibə qüvvəsi mövcuddur. Məhz bu səbəblərə görə də o, dövrün digər rəssamlarından seçilir.

Yaradıcılığı boyunca hər zaman öndə gedən ustad "Çərpələng", "Mən təzad elçisiyəm", "Qız və it", "Atlı", "Yolda", "Yelləncəkdə" və s. bu kimi əsərlərin müəllifidir. Bununla yanaşı, onun müxtəlif fəsillərə aid rəsm əsərləri özünə xas ustalıqla çəkilmişdir. Bu qəbilə aid olan əsərlərinə "Fəsillərin ətri", "Payız motivi", "Meşədə", Heyva ağacı", "Açıq səma", "Qış", "Batabat", "Yaz mənzərəsi", "Payız", "Qurub çağı" və s. misal göstərmək olar. Azərbaycanın əməkdar rəssamı Telman Abdinov bir çox janrlarda rəsm əsərləri ustadıdır. Rəssamın mənzərə janrında yaratdığı əsərlər də kifayət qədərdir. Sujet xətti olan doğma Naxçıvanın az qala rəmzinə çevrilmiş İlandağ əsrlər keçdikcə hər bir yeni dövr nümayəndələri üçün fərqli baxış nöqtəsinə çevrilmişdir.

Rəssamın natürmort janrlı əsərləri sayca çoxluq təşkil edir. Onun "Yasəmən", "Meyvəli natürmort", "Rəssamın stolu", "Natürmort", "Heyva budağı", "Narlar", "Çöl çiçəkləri", "Heyvalar", "Güllər" və s. bu kimi tabloları bu qəbildəndir. Bu əsərlərdə gözümüzdə adi hala çevrilmiş əşyalara rəssamın özünəməxsus baxış tərzi mövcuddur.

Bildiyimiz kimi yaz aylarında təbiətin oyanışı ilə floramız daha gözəl və al-əlvan rənglərə boyanır. Bu gözəllikləri rəssamlarımız öz əsərlərində müxtəlif formalarda göstərmişdir. Belə rəssamlardan biri də Telman Abdinovdur. Rəssam məhz yazın gəlişini, faunamızın rəngarənglini, yazın ətrini "Yasəmən" adlı natürmortunda izləyicilərə duyurmağa çalışmışdır. Əsərdə rəssam içi yasəmənlərlə və su ilə doldurulmuş şəffaf şüşə qabın təsvirini vermişdir. Rəssam sırf yasəmən dolu qabın üzərinə işıqlı tonlar salmaqla arxa fonu dərinliyə doğru uzaqlaşdırmış, natürmortun daha dolğun rəng çalarlarını önə çıxarmışdır. Kətan üzərində yağlı boya ilə işlənmiş bu əsər 55x69 ölçüsündədir. Tablo rəssam tərəfindən 1990-cı ildə çəkilmişdir.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar incəsənət xadimi Ziyadxan Əliyev Əməkdar rəssamın haqqında qeyd edir ki: "Telman Abdinovun yaratdığı portret janrında yaratdığı əsərlərin obrazlar qalereyası kifayət qədər rəngarəngdir. Onun bizimlə göz-gözə qoyduğu insanlar arasında tanınmış dövlət başçılarına, elm xadimlərinə, məşhur şairlərə və aktyorlara, xalçaçı və dulusçuya, qayğısız uşaqlara rast gəlmək mümkündür. Rəssamın müxtəlif illərdə ərsəyə gətirdiyi belə portretlərin arasında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin, qardaş Türkiyə Cümhuriyyətinin qurucusu Atatürkün, Azərbaycan Respublikasımın prezidenti İlham Əliyevin, akademik Zərifə Əliyevanın, görkəmli söz xiridarları Hüseyn Cavidin, Şəhriyarın və Xəlil Rza Ulutürkün, görkəmli aktyor Mikayıl Mirzənin, rəssam Bəhruz Kəngərlinin, eləcə də müxtəlif peşə adamların obrazları vardır." [5, s. 13]

Ustadın portret janrında fırçaya aldığı "Xəlil Rza Ulutürk" (1990), "Hüseynqulunun portreti" (2002), "Hüsnüxuda şairi" (2001), "Avtoportret" (2005), "Çayçı Vaqif" (2009), "Atatürk" (2010), "Çətirli qız", "Ağ köynəkli oğlan" və s. bu kimi əsərlərində hər kəsə xoş ovqat bəxş edilir.

Rəssamın "Xəlil Rza Ulutürk" adlı əsəri portret janrlı əsərlər silsiləsinə aiddir. Əsər rəssam tərəfindən 1999-cu ildə kağız üzərində kömürlə yaradılmışdır. Tablo adından da göründüyü kimi Xəlil Rza Ulutürkə həsr edilib. Əsər 45x60 ölçüsündədir. Bildiyimiz kimi Xəlil Rza Ulutürk məşhur, tanınmış şairlərindən biri idi. O, milliyətçi, xalqın oyanışı uğrunda mübarizə aparan və bundan heç vaxt yorulmayan bir şəxs olmuşdur. Bununla yanaşı o, Azərbaycanın milli qəhrəmanı, Qarabağ müharibəsi şəhidi Təbriz Xəlilbəylinin atası idi. Eyni zamanda "Qardaşlıq çələngi" adlı poetik əsərlərdən ibarət toplunun, "Ömürdən uzun gecələr" adlı kitabın müəllifi idi.

Rəssam Xəlil Rza Ulutürkün yalnız portretini çəkməklə kifayətlənməmişdir. O, Xəlil Rzanın üz cizgilərini qabarit verməklə, sanki xalqı oyanışa çağırmış, bu yoldan da əsla dönməyəcəyinin təəssüratını izləyicilərə çatdırmışdır. Tabloda onun iti baxışlarla təsviri elə bil şairin səsini duyurmaq üçün əzm göstərməsini, cahillikdən xilas üçün çağırışını izləyicilərə aşılayır.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar incəsənət xadimi Ziyadxan Əliyev Əməkdar rəssam Telman Abdinovun portret janrlı əsərlərinə misal olaraq qeyd edir ki: "Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin portreti əsərində bəyaz sülh göyərçinlərinin təsvirlərinin ölkə rəhbərinin fəaliyyətinin sülhsevər məramlı olduğuna işarə kimi qəbul olunur. Onun Heydər Əliyevə həsr etdiyi "Sönməz Günəş" də portretə pərvanələrin daxil edilməsi də obrazın nur-işıq qaynağı kimi təqdim olunmasından irəli gəlmişdir" [5, s. 15].

Əməkdar rəssam Telman Abdinovun rəngkarlıq əsərləri içərisində bir-birindən maraqlı mövzular əks etdirən tabloları mövcuddur. Rəssam real təsvir

vasitələri ilə yanaşı, həmçinin qeyri-real obrazlarda canlandırmışdır. Bu qəbilədən onun "İlğım" əsərini qeyd etmək olar. Həyat tərzinə əsasən hər bir insanın və təbiət mühitində belə bir coşqunu görmək olar. Bu hərəkət mexanizminin tez və qarışıq olması sanki bir ilğım rolunu özündə əks etdirir. Rəssam rənglər vasitəsi ilə əsərin kompozisiya quruluşunda təsvir olunan bütün predmetləri hərəkət mexanizmində təsvir etmişdir. Bu prinsiplə müəyyən etmək olur ki, hərəkətsiz bəşər və zaman mümkün deyil. Rəssam qarşısına qoyduğu məqsədi rənglərin hərəkət mexanizmi ilə vermiş və yaşamın daimi hərəkətdə olduğuna bir işarə etmişdir.

Ümumiyyətlə, İlğım anlamı tez bir zamanda baş verdiyini nəzərə alsaq və bu həyatda bəzi insanların və təbiətdə mövcud olan bitki aləmində tez və mənalı ömür sürdüyünün şahidi oluruq. Bu tez və yaşam tərzinin mənalı olması vacib olanların doğru və dürüst qiymətləndirilməsindən asılıdır. Yaşıl fon üzərində qırmızı və ağ rənglərin kontrastlığı və hərərkət mexanizminin düzgün seçilməsini tamaşaçıya çox hərarətlə çatdıra bilmişdir. Rənglərin bir-birinə olan təzadlı qarışımında sanki həyatın bir ani zaman kəsiyində hərəkət mexanizminə bir işarədir. İnsan həyatında qırmızı rəng sanki bir ilğım rolunu özündə əks etdirir. Qısa zaman kəsiyində görünür və ani anda yox olur. Bu həyatın fəlsəfi qanunlarından biridir.

Rəssam Telman Abdinovun "Zərifə Əliyevanın portreti", "Ata yolunu davam etdirən oğul", "Açıq səma", "Avtoportret", "Zamanın atəşfəşanlığı", "Sönməyən həyat", "Hüsnüxuda şairi", "Rəssamın stulu" və s. əsərləri yaradıcılığının şah əsərlərindir.

Usatadın "Rəssamın stulu" adlı əsəri xüsusi ilə diqqəti çəkir. Əsər natürmort janrında işlənib. Tabloda rənglər harmoniyası öz əksini tapır. Estetik zövqə malik olan bu əsərdə əsas obraz şahmat formalı döşəmə üzərində qoyulmuş masadır. Əsər 1999-cu ildə kətan üzərində yağlı boya ilə təsvir olunub. Tablo 60x70 ölçüsündədir. Bununla yanaşı rəssamın natürmort janrında işlədiyi digər əsəri "Tariximizin yadigarı" adlı tablosudur. Əsərdə adından da göründüyü kimi tarixi dövrümüzə aid olan qədimi qabların yanında xalça naxışlarının təsvirinin verilməsi əsərin adi ilə vəhdət təşkil edir. Rəssam yaratmış olduğu tablosunun arxa fonunda Naxçıvan dağlarının təsvirini verməklə əsərə başqa ab-hava qatmış və əsəri tamaşaçıların yaddaşında əbədiləşdirmişdir. Əsər 2009-cu ildə rəssam tərəfindən yağlı boya ilə kətan üzərinə köçürülmüşdür. Tablo 60x70 ölçüsündədir.

## Nəticə

Məqalədə Naxçıvan şəhərində yaşayıb yaratmış Əməkdar rəssam Telman Abdinovun yaradıcılığında portret, mənzərə və natürmort janrlı təsvirlərdən bəhs olunmuşdur. Naxçıvan torpağının bənzəri olmayan rəng koloritini ifadə etmək baxımından Telman Abdinov hər zaman seçilmişdir.

Rəssam natürmort, portret və mənzərə əsərlərində ana torpağı, doğma yurdu olan Naxçıvan dağlarını, onun yaşıl yamaclarını, ətraf aləmə verdiyi qeyri-adi, göz oxşayan gözəlliyi fırçasıyla əks etdirmişdir.

Rəssam portret janrlı əsərlərində fərdlərin həm xarici görkəmini, gözəlliyini, həm də onların daxili gözəlliyini böyük bir ustalıqla kətana köçürmüşdür.

Görkəmli rəssamın natürmort janrında işlədiyi əsərləri bədii estetik zövqə malikdir. Digər janrlarda işlədiyi əsərlərində olduğu kimi natürmort janrlı əsərlərində də tarixilik, estetik zövq, dərin məna öz əksini tapmışdır.

***Ədəbiyyat***


1. *İbrahimov. Ə., Naxçıvan rəssamları. "Ədəbiyyat və incəsənət" qəzeti. 05.11.1982*
2. *Telman Abdinov – rəssamlar birliyi. http: //Nrb.gov.az*
3. *Mirzəzadə. O., Naxçıvan rəssamlarının əsərləri, "Ədəbiyyat və incəsənət" qəzeti 5.11.1985*
4. *Axundlu. Y., Naxçıvanda ədəbi mühit. "Qobustan" toplusu. 1999 N.2*
5. *Əliyev Z. - Rəssam T.Abdinov. "Palitraya sığmayan rənglər" Bakı – 2001.*
6. *Naxçıvan Naxışları: NMR rəssamlarının əsərləri //az.rmn – Bakı 2005. s.23*
7. *Rənglərində səsi var: http: //Nuhcixan.az*

**A.C.Abbasova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***aysnabbasova382@gmail.com***

# MƏDƏNİYYƏTLƏRARASI SƏRİŞTƏ SOSİALLAŞMA AMİLİ KİMİ

***Xülasə***

*Müxtəlif xalqların mədəni xüsusiyyətlərinin, onların həyat tərzinin, həyat prioritetlərinin, dünyagörüşlərinin və s. öyrənilməsi mədəniyyətlərarası səriştənin formalaşmasına səbəb olur ki, bu da öz növbəsində şəxsiyyətdə mühüm keyfiyyətlərin, davranış normalarının yaranmasına, sosiallaşmanın təmin olunmasına gətirib çıxarır. Bu prosesin düzgün istiqamətdə qurulması böyüməkdə olan gənc nəslin özünütəkmilləşdirməsinə və cəmiyyət daxilində müəyyən mövqe tutmasına şərait yaradır. Bu səbəbdən mədəniyyətlərarası səriştə və bacarıqların inkişaf etdirilməsi hələ erkən dövrlədən istər təlim, istərsə də tərbiyə prosesində aşılanması məqsədəuyğundur.*

# МЕЖКУЛЬТУРНАЯ КОМПЕТЕНТНОСТЬ КАК ФАКТОР СОЦИАЛИЗАЦИИ

***Резюме***

*Изучение культурных особенностей различных народов, их образа жизни, жизненных приоритетов, мировоззрений и т.д. его изучение приводит к формированию межкультурной компетентности, что, в свою очередь, приводит к формированию в личности важных качеств, норм поведения, обеспечению социализации. Построение этого процесса в правильном направлении создает условия для самосовершенствования подрастающего молодого поколения и занимает определенное положение в обществе. По этой причине развитие межкультурных компетенций и навыков целесообразно прививать с самого раннего периода, как в процессе обучения, так и в процессе воспитания.*

# İNTERCULTURAL COMPETENCE AS A SOCİALİZATİON FACTOR

***Summary***

*It is necessary to determine the cultural characteristics of different peoples, their way of life, life priorities, worldviews, etc. its study leads to the formation of intercultural competence, which, in turn, leads to the emergence of important qualities in the personality, norms of behavior, ensuring socialization. The construction of this process in the right direction creates conditions for the growing generation of young people to self-improve and take a certain position within society. Therefore, it is advisable to develop intercultural competencies and skills from an early period, both in the process of training and education.*

***Açar sözlər:*** *sosiallaşma, mədəniyyətlərarası səriştə, mədəniyyətlərarası kommunikasiya, bacarıq, komponent*

***Ключевые слова:*** *социализация, межкультурная компетентность, межкультурная коммуникация, навыки, компонент*

***Key words:*** *socialization, intercultural competence, intercultural communication, skill, component*

Cəmiyyətimizdə müxtəlif mədəniyyətlər və onlarla əlaqəli formalaşan , inanclar, dəyərlər və normalar, ideyalar haqqında ortaq məlumat olduqca geniş insan kütlələrinin davranışlarına təsirsiz ötüşmür. Daha dəqiq dildə izah etsək, mədəniyyəti səciyyələndirən və ya mədəni səviyyədə həyata keçirilən sosial təcrübələr müxtəlif insanlara baş verən hadisə və hərəkətlərin mənasını anlamağa, nəyin zəruri, nəyin daha az zəruri, nəyin edilib-edilməməli olduğuna dair təlimatlar verir, bələdçilik edir. Ümumilikdə, mədəniyyət insanların fəaliyyət və davranışlarında, qarşılıqlı əlaqələrində proqnozlaşdırıla bilənliyi ifadə edir. Şəxsiyyətin sosiallaşmasının əsasında da məhz mədəniyyət məsələləri və mədəniyyətlərarası səriştə fenomeni dayanır. Hansı ki biz şəxsiyyəti bir ağac kimi fərz etsək, onun köklərini sosialaşma, gövdəsini isə mədəniyyətlərarası səriştə amili kimi qəbul edə bilərik. Bu fikir sosiallaşma və mədəniyyətlərarası səriştə məsələsinin bir-birilə necə dərin əlaqəyə malik olduğunu, sübut etməyə dair sadəcə kiçik bir nümunədir.

Mədəniyyətlərarası səriştə, insanlara müxtəlif mədəniyyətlər kontekstində səmərəli işləməyə, fəaliyyətini tənzimləməyə şərait yaradan müəyyən bilik, məlumat, vərdişlər və münasibətlər əsasında qazanılmış bacarıqlar kimi dərk olunur. Mədəniyyətlərarası səriştə müxtəlif etnik mənsubiyyəti, irqi, dini, cinsi və müxtəliflikləri ilə fərqlənən insanların cəmiyyət üçün əhəmiyyətli mədəni fəaliyyətlərdə birgə iştirakını təmin etməyə imkan verən, bacarıqlar toplusudur. Mədəniyyətlərin təsiri ilə insanların sosiallaşması məsələsini tədqiq edən alim və tədqiqatçılar mədəniyyətlərarası uyğunlaşma, mədəniyyətlərarası səriştə, mədəniyyətlərarası kommunikasiya, mədəniyyətlərarası həssaslıq kimi terminləri ayırd etməyə, bu istiqamətdə fərdin sosiallaşma, cəmiyyətə adaptasiya olma bacarığını öyrənməyə səy göstərmişlər. Sosiallaşma prosesində mədəniyyətlərarası səriştə və mədəniyyətlərarası kommunikasiyanın rolunu xüsusilə vurğulayan tədqiqatçılar bu terminləri bir-birindən ayıraraq onların mahiyyətində olan əsas fərqli cəhətləri qeyd etmişlər. Belə ki, mədəniyyətlərarası səriştə yuxarıda qeyd etdiyimiz kimi fərqliliklərin dinamikasında ayrı-ayrı şəxslərin şüurlu şəkildə səfərbər etdiyi vərdiş və bacarıqlardır. Mədəniyyətlərarası kommunikasiya isə müxtəlif mədəniyyətlərin qovuşması prosesində şəxslər tərəfindən həyata keçirilən ünsiyyət bacarıqlarıdır. Bu terminlər nə qədər bir-birilə fərqlənsə də onların məzmununda və ya tətbiqolunma şəraitində müəyyən qədər oxşarlıqlar mövcuddur.

Avropa Şurası tərəfindən qəbul edilən multikultural cəmiyyətdə yaşayan şəxslərin sahib olması gərəkli əsas mədəniyyətlərarası səriştələrə aşağıdakıları aid edə bilərik. Bunlara, fərqlilikləri qəbul etmək, başqalarına hörmət və ehtiram göstərmək və birgəyaşayış qaydalarına yiyələnmək (başqa mədəniyyətin üzvləri ilə yaşamaq bacarığı) və s. aiddir. Mədəniyyətlərarası səriştənin strukturunu təsvir edərkən alimlər müxtəlif nöqteyi-nəzərdən çıxış edirlər. Bu strukturlaşmanın aşağıdakı komponentlərini qeyd edə bilərik.

- Aksioloji yanaşma - dünyanın mozaik etno-mədəni mənzərəsinin əsas ümumbəşəri dəyərlərdən biri kimi qəbulunu ifadə etməklə; cəmiyyəti təşkil edən etnik qrupların və etnik mədəniyyətlərin bərabərliyinə və ekvivalentliyinə inam; başlıca olaraq öz millətinin mədəniyyətinə dərindən bələd olmağın vacibliyini anlamaq; yetişməkdə olan gənc nəsli ümumbəşəri və milli dəyərlərin harmonik vəhdəti ruhunda tərbiyə etmək istəyini özündə ehtiva edir. Aksioloji yanaşmaya dünyada baş verən hadisələri, bəşəriyyətin müxtəlif etnik-mədəni mənzərəsini anlamaq və müxtəliflikləri universal bir dəyər kimi qiymətləndirmək və qəbul etmək bacarığı aiddir.
- Nəzəri yanaşma müxtəlif elmi-nəzəri biliklərin dərk olunması və qəbul olunması bacarığından ibarətdir. Məsələn, buraya mədəniyyətlərarası təhsilin məqsədi, vəzifəsi, məzmunu, metodları, kateqoriyaları haqqında ən ümumi biliklərə yiyələnmək, həmçinin dünyəvi elmlər arasında yer tutan kulturologiya, tarix, etnik psixologiya, etnopedaqogika, pedaqogika və digər bölmələr üzrə dərin biliklərə və bacarıqlara yiyələnmək aiddir.
- Texnoloji yanaşmaya əsasən, təhlil etmək, uyğunlaşdırmaq, ümumiləşdirmək, müqayisə etmək kimi əsas bacarıqlara malik olmaq daxildir. Həmçinin, buraya bilik, şəxsi keyfiyyətlər, motivlər, bacarıqlar, təcrübələr, qabiliyyətlər, inanclar, bacarıqlar, dəyərlər və s. kimi komponentlər aiddir.
- Şəxsi yanaşmaya əsasən qeyd edə bilərik ki, buraya şəxsiyyətin daxili aləmi və davranış mədəniyyətinin üzvi birləşməsindən yaranan bacarıqlar daxildir. Məsələn humanizm, tolerantlıq, ideoloji yetkinlik, vətənpərvərlik, demokratiklik, ədalətlilik, milli özünəməxsusluq, yaradıcılıq, subyektivlik, empatiya kimi bacarıqları daxil edə bilərik.
- İnteqrativ yanaşmaya elmi-nəzəri biliklə praktik fəaliyyət arasında qarşılıqlı əlaqənin yaradılması və inkişaf etdirilməsi bacarıqlarını daxil etmək mümkündür.
- Təşkilati və kommunikativ yanaşmaya əsasən müxtəlif mədəniyyətlərin nümayəndə və üzvləri arasında müsbət qarşılıqlı münasibətlərin qurulması məqsədilə düzgün dialoq və kommunikasiya bacarıqlarını qeyd etmək mümkündür.
- Adaptiv yanaşma fərqli mədəniyyət və ya fərqli yaşayış şəraitinə tez və səmərəli uyğunlaşma bacarıqlarını özündə etiva edir. Adaptiv və təşkilati kommunikativ bacarıqlar bir-birilə sıx əlaqədardır.

Yuxarıda qeyd edilən yanaşmaların hər birində mədəniyyətlərarası səriştənin ən vacib komponentləri öz əksini tapmışdır. Komponentlərin hər biri-birilə sıx əlaqədar olub, şəxsiyyətin sosiallaşması üçün vacib olan ən mühüm keyfiyyətləri xarakterizə edir. Hansı ki, bu bacarıq və ya keyfiyyətlər olmazsa, sosiallaşma işi tam şəkildə yerinə yetirilmiş sayılmaz və uğursuzluqla nəticələnər.

Xüsusilə yetişən gənc nəsildə mədəniyyətlərarası səriştənin formalaşdırılması, ən prioritet məsələlərdəndir. Bu səbəbdən məktəbəqədər yaş dövründən etibarən uşaqlara məqsədyönlü pedaqoji təsirin göstərilməsi, mədəniyyətlərarası səriştənin ən vacib komponentlərinin formalaşdırılması prosesi realizə edilməlidir.

Uğurlu polikultural sosiallaşma müxtəlif xalqların mədəni xüsusiyyətlərinin, onların həyat tərzinin, həyat prioritetlərinin, dünyagörüşlərinin və s. öyrənilməsinə yeni yanaşmalar tələb edir. Uşaqların multikultural tərbiyəsində maarifləndirici işin bütün imkanlarından istifadə etmək, ilk növbədə diqqəti daha çox milli mədəniyyətə yönəltmək lazımdır. Təhsil və tərbiyə prosesində milli mədəniyyətə əsaslanma, müxtəlif mədəniyyətlərin dərki məsələsinə olduqca böyük yardım göstərir. Təhsil sisteminə subyektlərin inteqrasiyası, milli və ümumbəşəri dəyərlərin qarşılıqlı əlaqəsi əsasında məktəbəqədər yaşlı uşaqların mədəniyyətlərarası səriştəsinin formalaşması üçün zəruri şərtə çevrilir.

Sosiallaşmanı təmin etmək məqsədilə mədəniyyətlərarası səriştənin formalaşdırılması istiqamətində müxtəlif iş üsullarından istifadə olunur. Bu iş üsullarını aşağıdakı kateqoriyalara bölə bilərik.

- Sözlə tərbiyə - buraya məsləhət, nəsihət, söhbət, eyham, təklif kimi metodları daxil edə bilərik.
- Əməllə tərbiyə - buraya təlim, məşq, sınaq, tələb, təmrin və s. kimi metodları aid edə bilərik.
- Estetika ilə tərbiyə - buraya heyranlıq, müşahidə, immitasiya və s. kimi metodlar daxildir.
- İctimai rəylə tərbiyə - qınaq, məzəmmət, cəzalandırma, bəyənmə, tərif kimi metodları ictimai rəy vasitəsilə tərbiyə metodlarına aid etmək mümkündür.

Qeyd edilən metodların hər birinin yerində, məqsədəuyğun şəkildə istifadə edilməsi məktəbəqədər yaşlı uşaqlarda mədəniyyətlərarası səriştənin formalaşmasına şərait yaradır. Tədris prosesi çərçivəsində məktəbəqədər yaşlı uşaqların mədəniyyətlərarası səriştə və ya bacarıqlarının formalaşması və inkişafı problemi ilə bağlı sistemli, hərtərəfli, təcrübəyönümlü işin təşkili sadəcə uşaqların təlimdə uğur qazanmasına səbəb olmur, həmçinin mədəniyyətlərarası səriştənin inkişafının müsbət dinamikasına kömək edərək erkən dövrlərdən başlayaraq uşaqların ümumi tərbiyə səviyyəsinin, onların

ictimai fəallığının artırılmasına, bütün uşaqlar və böyüklər arasında əməkdaşlığın formalaşmasına, həmçinin müsbət atmosferin yaradılması üçün zəmin yaradır.

Qeyd etmək lazımdır ki, tədris prosesində mədəniyyətlərarası səriştənin formalaşdırılması prosesində aşağıda qeyd edilən xüsusiyyətlər diqqət mərkəzində saxlanılır:

- Mədəniyyətlərarası qarşılıqlı fəaliyyətə hazır olmaq;
- Hamının mədəni özünüidentifikasiyası vasitələrinin mövcudluğu;
- Mədəniyyətlərarası dialoqa uyğun şəkildə tədris prosesinin keyfiyyəti;
- Təhsil subyektləri və onların psixoloji durumu;
- Sosial-mədəni və sosial-təbii mühitlə, hər bir insanın fərdiliyini, fərdi xüsusiyyətlərini üzə çıxarmaq;
- Təhsil mühitində şəxsiyyətin sosiallaşması mexanizmlərinin nəzərə alınması;
- Təhsil mühitinin sosial institut kimi qəbul olunması və onun subyektlərinin şəxsi rifah, emosional iqlim, mikromədəniyyət xüsusiyyətlərinin nəzərə alınması;
- Mədəni müxtəlifliklər və onların oxşar və fərqli xüsusiyyətləri haqqında biliklərin formalaşmasına diqqət yetirmək;
- Subyektlərin mədəni xüsusiyyətlərini başa düşmək və hörmətlə yanaşmaq;
- Tolerantlıq, humanizm və demokratiklik kimi xüsusiyyətləri formalaşdırmaq ;
- Müxtəlif mədəniyyətlərin tanınması və onlara müsbət münasibət onun məkan-obyektiv və sosial reallıqda formalaşma potensialı;
- Ailə və məktəbəqədər müəssisə arasında uşaqlarda mədəniyyətlərarası səriştənin formalaşdırılması məqsədilə əlbir işin təşkili;
- Müxtəlifliklər nəzərə alınmaqla məktəbəqədər yaşlı uşaqlarda milli xüsusiyyətləri nkişaf etdirmək;
- Mədəniyyətlərarası səriştəni formalaşdıra biləcək metod vasitəslərdən istiafdə etməklə səmərəli nəticələr alınmasını proqnozlaşdırmaq.

Mədəniyyətlərarası səriştənin formalaşması şəxsin öz mədəniyyəti və digər mədəniyyətlər haqqında ətraflı məlumat əldə etməyi nəzərdə tutur. Bu məqsədlə də istər təlim, istərsə də təlimdənkənar vaxtlarda məktəbəqədər yaşlı uşaqlarda mədəniyyətlərarası səriştənin formalaşdırılması işinin həyata keçirilməsi, dövrün ən aktual problemlərindəndir. Tədris prosesində məktəbəqədər yaşlı uşaqlarda mədəniyyətlərarası səriştənin aşağıdakı xarakterik xüsusiyyətlərinin realizə olunması, olduqca böyük əhəmiyyət kəsb edir.

- Öz mədəniyyətini dərindən bilməklə yanaşı digər ölkələrin mədəniyyətləri ilə tanışlıq;

- Öz xalqının nümayəndələri ilə yanaşı, yad mədəniyyətlərin nümayəndələri ilə səriştəli ünsiyyət, kommunikasiya bacarıqları;
- Dünyada yaşayan bütün insanlara qarşı humanist və tolerant mövqedə yanaşmaq, başqalarının və özünün hüquq və vəzifələrini bilməklə bu istiqamətdə davranmaq;
- Sosial-psixoloji həssaslıq – öz xalqının nümayəndələri yanaşı, başqa dinə, irqə, etnik xüsusiyyətlərə malik insanlara qarşı həssaslıq, empatiya və ədalətlilik kimi xüsusiyyətlər;
- Cəmiyyət tərəfindən hamılıqla qəbul olunmuş və riayət edilməsi tələb olunan normalara uyğun şəkildə davarnış;
- Müxtəlif mədəniyyətlərin üzvlərinə qarşı münasibətdə ayrı-seçkilik təzahürlərinin olmaması.

Göstərilən xüsusiyyətlərin nəzərə alınması, müxtəlif etnik xüsusiyyətlərə malik insanlar arasında müsbət iqlimin formalaşmasına, sabitliyin təmin olunmasına, düzgün davranış mədəniyyətinin tərbiyəsinə və ən əsası yetişməkdə olan gənc nəsildə sosiallaşmanın yüksək şəkildə təmin olunmasına şərait yaradır.

***Ədəbiyyat***

1. *Aslanova R . "Qloballaşma və mədəni müxtəliflik" Bakı-Elm, 2004.*
2. *Əhədova S. "Müasir dünyada mədəniyyətlərarası münasibətlər" Bakı-Elm, 2004.*
3. *В.А.Янчук, О.А.Мельни. "Формирование межкультурной компетентностиучащихся" Минск, 2020.*

**M.M.Allahyarova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***allahyarovamelek@gmail.com***

# İŞĞALDAN AZAD OLMUŞ ƏRAZİLƏRİN EKOLOJİ VƏZİYYƏTİ

***Xülasə***

*1988-ci ildən başlayaraq Qarabağ və ətraf rayonlarda ermənilərin apardıqları işğalçı siyasət, bu ərazilərin flora və faunasının məhvinə gətirib çıxarıb. 30 il müddətinə işğalçı dövlətin nəzarətində qalan bu ərazilər amansızlıqla talan edilmişdir. Təbii sərvətlərimizin mənimsənilməsi, tarixi abidələrimizin məhv edilməsi ilə bərabər, həm də meşələri yandırmışlar. Eyni zamanda, "Qırmızı Kitab"a düşən olduqca qiymətli və nadir bitki və heyvan növlərini məhv etmişlər. 27 sentyabr 2020-ci ildə başlayıb, 44 gün davam edən Vətən müharibəsindən sonra, həm siyasi, həm də hərbi meydanda qələbə qazandıqdan sonra, qalib xalq kimi tarixi torpaqlarımızı geri almışıq. Öz dədə-baba torpaqlarımıza qayıtdıqdan sonra, viran olunmuş torpaqlarımızda bərpa işləri aparırıq. Bu ərazilərin ekoloji vəziyyətinə ermənilərin 30 il müddətinə talançılıq siyasəti apartmaqları ilə bərabər, həm də bu müddət ərzində hərbi toqquşmaların aparılması ciddi təsir etmişdir. İstər ermənilərin bu ərazilərdə törətdikləri ekoloji terrorun, istərsə də hərbi toqquşmaların nəticələrinin aradan qaldırılması istiqamətində işlər aparılır.*

# ЭКОЛОГИЧЕСКАЯ СИТУАЦИЯ ТЕРРИТОРИЙ, ОСВОБОЖДЕННЫХ ОТ ОККУПАЦИИ

***РЕЗЮМЕ***

*С 1988 года оккупационная политика армян в Карабахе и прилегающих районах привела к уничтожению флоры и фауны этих районов. Эти земли, находившиеся под контролем оккупационного государства в течение 30 лет, были безжалостно разграблены. Помимо конфискации наших природных ресурсов и уничтожения наших исторических артефактов, они также сжигали леса. Также были уничтожены очень ценные и редкие виды растений и животных, занесенные в "Qırmızı Kitab". После Отечественной войны, начавшейся 27 сентября 2020 года и продолжавшейся 44 дня, мы одержали победу как на политической, так и на военной арене и как народ-победитель вернули себе свои исторические земли. Вернувшись на земли наших предков, мы проводим восстановительные работы на наших опустошенных землях. На экологическую ситуацию в этих регионах серьезно повлияла 30-летняя грабительская политика армян и военные конфликты в этот период. Помимо экологического террора, учиненного армянами в этих регионах, пытаются ликвидировать последствия военных конфликтов.*

# ECOLOGICAL SITUATION OF THE TERRITORIES LIMITED BY OCCUPATION

***Summary***

*Since 1988, the occupation policy of the Armenians in Karabakh and the surrounding regions has led to the destruction of the flora and fauna of these regions. These lands, which remained under the control of the occupying state for 30 years, were ruthlessly plundered. In addition to confiscating our natural resources and destroying our historical monuments, they also burned forests. They also destroyed very valuable and rare plant and animal species listed in the "Qırmızı Kitab". After the Patriotic War, which started on September 27, 2020 and lasted for 44 days, we were victorious both in the political and military arena, and as a victorious nation, we regained our historical lands. After returning to our ancestral lands, we are doing restoration work on our devastated lands. The environmental situation of these regions was seriously affected by the Armenians' 30-year looting policy and military conflicts in this period. In addition to the ecological terror perpetrated by Armenians in these regions, the consequences of military conflicts are tried to be eliminated.*

***Açar sözlər:*** *Vətən müharibəsi, ekoloji terror, ekoloji tarazlıq, işğalçılıq siyasəti*

***Ключевые слова:*** *Отечественная война, экологический терроризм, экологический баланс, оккупационная политика*

***Keys words:*** *Patriotic war, ecological terror, ecological balance, policy of occupation*

Tarix boyu respublikamız strateji-coğrafı mövqeyinə görə xarici qüvvələrin marağına səbəb olmuş, talançı yürüşlərə məruz qalmışdır. XX əsrin əvvələrindən başlayaraq mənfur qonşularımız – ermənilər tərəfindən xalqımıza qarşı saysız cinayətlər törədilmişdir. Respublikamızın ərazi bütövlüyünə, suverenliyinə, siyasi müstəqilliyinə, yerli əhaliyə, ekologiyamıza, abidələrimizə qarşı misli görülməmiş qəddarlıqla cinayətlər işləmişlər.

1988-93-cü illər ərzində Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan Respublikasının 20 faiz ərazisi işğal olundu. İşğalçı Ermənistan tərəfindən başlanmış müharibə nəticəsində, Qarabağ və ətraf rayonlarında nəinki şəhər və kəndlərin dağıdılmasına, yerli silahsız əhaliyə qarşı misli görünməmiş qəddarlıqla cinayətlər törətmişlər. Eyni zamanda, ərazidə olan bitki və heyvanlar aləminin məhv edilməsi, ümumilikdə ekoloji tarazlığın pozulmasına səbəb olub. Talançı Ermənistan dövlətinin həyata keçirdiyi bu siyasət nəticəsində Azərbaycan Respublikasının ərazi bütövlüyünə, siyasi, iqtisadi vəziyyətinə ciddi zərər vurmaqla bərabər, həm də təbiətinə, müxtəlif ekosistemlərə, bütövlükdə regionun ekoloji vəziyyətinə ciddi ziyan vurub, ətraf mühitin deqradasiyası ilə nəticələnən fəsadlara gətirib çıxarıb. Ermənistanın işğalçılıq siyasəti nəticəsində, Qarabağ və ətraf rayonlarda 30 il müddətinə əsasən təbii sərvətlərimiz mənimsənilmiş, meşələr və müxtəlif bitki örtüyü olan

ərazilər yandırılmış, çaylar, kanallar müxtəlif mənşəli tullantılarla, kimyəvi maddələrlə və çirkab sularla çirkləndirilmişdir.

Ermənistanın işğaldan azad olmuş ərazilərimizdə törətdiyi ekoloji-terroru görmək üçün, bu ərazilərdə işğaldan əvvəl və indi meşələrə və bitki örtüyünə nəzər yetirmək kifayətdir. Respublikamızın ərazisində ermənilər tərəfindən işğal olunmamışdan əvvəl 260 min hektara yaxın meşə ərazisi olduğu halda, işğal dövrü ərzində meşə ərazisi sürətlə azalmışdır.

Erməni işğalçıları Ağdam, Füzuli, Cəbrayıl, Tərtər və Xocavənd rayonlarının ərazilərinə planlı fəaliyyətlə od vurub yandırmışlar. Bu planlı fəaliyyət nəticəsində bu ərazilərdə yerləşən meşə sahələri yanaraq məhv olmuşdur. Torpaq ekosisteminə çox ciddi ziyan vurmuşlar, torpağın münbit qatını və torpaqda yaşayan canlıları məhv etmişlər. Ətraf mühitə ən ciddi mənfi təsir göstərən meşə yanğınlarını isə füsunkar təbiətə malik olan Şuşa şəhərində törətmişlər. Şuşa meşələrinin yandırılması zamanı ağ fosforlu top mərmilərdən istifadə edilmişdir. Bu silahlardan istifadə insan sağlamlığı üçün də çox təhlükəlidir, dünyada istifadəsi qadağan olunmuşdur. Göründüyü kimi, öz işğalçılıq siyasətini yeritmək üçün Ermənistan dövləti insanlıq adına yaraşmayan yollara əl atmışdır.

Ermənistanın Vətən müharibəsi məğlubiyyətindən sonra, 2020-ci il noyabrın 10-da imzaladığı üçtərəfli bəyanatla Kəlbəcər, Laçın, Ağdam şəhərlərini siyasi yolla qaytarmalı idi. Bu ərazilərdən çıxmaq üçün onlara verilən vaxt ərzində, ermənilər tərəfindən meşələrin qəsdən yandırılması, ağacların kütləvi şəkildə qırılması kimi ekoloji cinayətlər törədilmişdir. Ermənistan dövlətinin həyata keçirdiyi ekoloji terror fəaliyyətinin qarşısının alınması üçün beynəlxalq təşkilatlara müraciət edilmişdir.

Müraciətlərdə qeyd edilmişdir ki, beynəlxalq təşkilatlar Ermənistanın Qarabağ ərazisində törətdikləri faktiki ekoloji cinayətlərin qarşısını almaq üçün heç bir ciddi tədbirlər görmür, əksinə buna göz yumur. Qarabağ ərazisində, Kəlbəcər rayonunda davam etdirilən ekoloji terror aktları, təbiətin vəhşicəsinə talan olunması və bunlara son qoyulması ilə bağlı Azərbaycan tərəfinin haqlı tələbi beynəlxalq təşkilatların diqqətinə çatdırılıb. Bütün bölgəyə təsir edən və qlobal miqyasda bərpaolunmaz ekoloji nəticələrə səbəb olacaq bu dəhşətli əməllərə təcili reaksiya və ədalətli qiymət verilməsini tələb edilib [3].

Yuxarıda qeyd etdiyimiz kimi Azərbaycan Respublikası işğalçı Ermənistan dövlətinin törətdiyi ekoloji cinayətlərlə bağlı 31 beynəlxalq təşkilata müraciət etdi, amma çox təəssüflər olsun ki, müəyyən səbəblərə görə bu vandallığa etiraz edən beynəlxalq güc olmadı. Ermənilərin işğal olunmuş torpaqlarımızda 30 il müddətində və işğal olunmuş torpaqlarımızı tərk edərkən həyata keçirdikləri vandallıqlar "Azercosmos" peyk şəkillərindən belə görünür.

2020-ci il sentyabrın 27-si başlayıb noyabrın 10-u qurtaran, 44 günlük Vətən müharibəsi möhtəşəm qələbəmizlə başa çatdı. Vətən müharibəsində

qələbə qazanmaqla sadecə torpaqlarımızı işğal altından azad etmədik, eyni zamanda təcavüzkar Ermənistanın ərazilərimizdə apardığı ekoloji terror aktlarına da son qoyduq. Bu illər ərzində mənfur düşmənin vətənimizə vurduğu maddi və mənəvi ziyanın həcmi olduqca böyükdür. Şəhid olan, qətlə yetirilən insanlarımızdan, məhv olunan dəyərli tarixi abidələrimizdən əlavə işğal altında olan təbiətimiz də ermənilərin təcavüzünə məruz qalmışdır.

Qarabağ və ətraf rayonlarda ekoloji tarazlığın pozulması rəsmi məlumatlarla da öz təsdiqini tapmışdır. Bunun da əsas səbəbi ermənilərin son 30 ilə yaxın müddətdə işğal edilən ərazilərdə ekoloji terror törətmələridir. Bu illər ərzində həm təbii sərvətlərimizi talamış, həm də bütün ekosistemlərə ziyan vurmuşlar. İkinci Qarabağ müharibəsindən sonra, regionda bütün sahələrdə olduğu kimi, ətraf mühitin bərpası istiqamətində də işlər gedir.

Əraziya vurulan ziyanin həcminin ölçülməsi ilə bərpa işləri başlanmışdır. Bu qiymətləndirmə aparılarkən, bir sıra faktlar erməni vandallığını bir daha sübut etmişdir. Yaşayış məskənləri, tarixi abidələr, qəbirstanlıqlar dağıdılmaqla bərabər, xüsusi qoruma statusuna malik olan minillik ağaclar da kəsilmişdir. İşğaldan azad olunmuş ərazilərimizin ekoloji vəziyyətinin ciddiliyini nəzərə alaraq, Azərbaycan Respublikası Xarici İşlər Nzairliyinin "Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni iqtisadi və digər fəaliyyət" adlı hesabatında ayrıca bir fəsil işğal olunmuş ərazilərdə həyata keçirilmiş qeyri-qanuni iqtisadi fəaliyyətin ekoloji nəticələrinə həsr olunmuşdur [3].

İşğaldan azad olunmuş ərazilərdə monitorinq keçirilən zaman, BMT-nin Davamlı İnkişaf Məqsədləri üçün qarşıya qoyulan tələblər burada kobudcasına pozulmuşdur. Buna görə də, BMT-nin Davamlı İnkişafa nail olmaq üçün qoyduğu məqsədlər 2030-cu ilə qədər Cənubi Qafqaz regionunda həyata keçirilə bilməz. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dəfələrlə öz çıxışında, ermənilərin törətdikləri ekoloji terroru vurğulamışdır, təkcə respublikamızın deyil, regionun ekoloji vəziyyətinin bu mənfi təsirlər vasitəsilə getdikcə məhv olduğunu qeyd etmişdir. Çox təəssüflər olsun ki, Vətən müharibəsi qələbəmizə qədər, dünya ölkələri buna biganə qalmışdır.

44 günlük Vətən müharibəsindən sonra öz torpaqlarını işğaldan azad edən, qalib Azərbaycan xalqı həmin ərazilərdə ekosistemləri bərpa etmək üçün mühüm addımlar atır. Müharibənin bitməsindən bu günə qədər bölgədə əhəmiyyətli bərpa işləri görülmüşdür. İlkin olaraq həmin ərazilərin minalardan təmizlənməsi prosesi aparılır. Minalardan təmizlənmiş torpaqlarda yenidənqurma işləri aparılır. Həmin ərazilərdə bir sıra ağacəkmə aksiyaları aparılır. Bu ərazilərdə minlərlə müxtəlif növ ağacların əkilməsi ilə bərabər, Füzuli, Zəngilan və Ağdam ərazilərində Şərqi çinar ağacı da əkilmişdir.

Hazırda da bu ərazilərimizdə yenidənqurma işləri aparılır, layihələr hazırlanır. Bölgədə şəhərsalma, abadlaşdırma, tikinti işləri ilə bərabər, içməli

və suvarma su ilə təhciz olunma, əkin sahələrinin salınması, heyvandarlıq, meşələrin yenidən bərpa olunması ilə eyni zamanda, parkların salınması layihələri də hazırlanır. Təbii ki, bütün bunlar qısa vaxtda həyata keçirilən proseslər deyil, hər biri üçün zaman və maddi vəsaitlər tələb olunur. Amma çətinliklərə baxmayaraq biz tarixi torpaqlarımızı geri aldığımız kimi bu torpaqlarda hərtərəfli inkişafı bərpa edəcəyik. Siyasi və müharibə meydanında qələbə qazanmağımız buna bir sübutdur.

***Ədəbiyyat***

1. *Z.Nəbibəyli. Ekologiya və fövqəladə hallar. Bakı - 2012, 380 səh.*
2. *Q.Ş.Məmmədov, M.Y.Xəlilov. Ekologiya, ətraf mühit və insan. Bakı, "Elm" nəşriyyatı, 2005, 880 səh.*
3. *https://modern.az/media/328427/isaldan-sonra-qaraba-ekoloji-terrordan-yasil-dunyaya/*
4. *https://story.karabakh.center/az/qarabagda-ekosid*
5. *https://www.yeniazerbaycan.com/MEDIA_e72834_az.html*

**Z.Ə.Həsənova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***zerihesenova714@gmail.com***

# "İQTİSADİYYATIN ƏSASLARI" FƏNNİNİN COĞRAFİYAYA TƏTBİQ EDİLMƏSİ VƏ ƏHƏMİYYƏTİ

***Xülasə***

*Ümumtəhsil məktəblərində coğrafiya bir çox elmlərlə inteqrasiya olunmuş şəkildə tədris olunur. Coğrafiyanın iqtisadiyyatla inteqrasiyası daha çox diqqəti cəlb edir. İqtisadiyyat bəşər tarixinin ilk dövrlərindən insan fəaliyyətinin əsas sahəsi olmuşdur. Şagirdlərə iqtisadi biliklərin öyrədilməsi müxtəlif illərdə müxtəlif formalarda olmuşdur. İqtisadiyyata aid biliklərin öyrənilməsi və möhkəmləndirilməsi müasir məktəb təcrübəsində sadə-kompleks prinsipinə uyğun olaraq həyata keçirilir.*

# ПРИМЕНЕНИЕ И ЗНАЧЕНИЕ ПРЕДМЕТА "ОСНОВЫ ЭКОНОМИКИ" ДЛЯ ГЕОГРАФИИ

***Резюме***

*В средних школах география преподается комплексно со многими науками. Интеграция географии с экономикой привлекает больше внимания. Экономика была основной сферой человеческой деятельности с самого начала человеческой истории. Преподавание экономических знаний студентам в разные годы осуществлялось в разных формах. Изучение и закрепление экономических знаний осуществляется по просто-сложному принципу в современной школьной практике.*

# APPLİCATİON AND İMPORTANCE OF THE SUBJECT "FUNDAMENTALS OF ECONOMY" TO GEOGRAPHY

***Summary***

*Geography is taught in general education schools in an integrated manner with many sciences.The integration of geography with economics attracts more attention. Economy has been the main field of human activity since the early days of human history. The teaching of economic knowledge to students has been in different forms in different years. The study and strengthening of knowledge related to economics is carried out in modern school practice in accordance with the principle of simple-complex.*

***Açar sözlər:*** *istehsal, istehlak, tələb, təklif, əmək haqqı, əmək bölgüsü, iqtisadiyyat*

***Ключевые слова:*** *производство, потребление, спрос, предложение, заработная плата, разделение труда, экономика*

***Key words:*** *production, consumption, demand, supply, wages, division of labor, economy*

## Giriş

İqtisadiyyat bəşər tarixinin yaranması ilə birgə meydana gələn, cəmiyyət həyatının təməlini təşkil edən insan fəaliyyətinin ən mühüm sahəsidir. İstehsalla məşğul olan, arzuladıqları nemətləri: əmtəə və xidmətləri əldə etmək üçün könüllü mübadiləyə girən insanların davranışları iqtisadiyyat adlanır. Məşhur ingilis iqtisadçısı olan Con Meynard Keyns iqtisadiyyat haqqındakı fikirlərini 1930-cu illərdəki "böyük depressiya" zamanı yazırdı: "İqtisadiyyat nəzəri doktorinadan daha çox bir üsul, bir metod deməkdir. O, insan beyninin düzgün nəticələr çıxarma üçün istifadə etdiyi bir cihaz, bir düşüncə tərzidir." Bütün iqtisadi bilik sahələrinin, iqtisadi nəzəriyyənin araşdırdığı, öyrəndiyi ən əsas obyekt iqtisadiyyatdır [İsmayılov, 2010: 328].

İqtisadiyyat və onu öyrənən iqtisadiyyat elmi yalnız iqtisadçı və ya idarəedənlər üçün deyil, ixtisasından asılı olmayaraq bütün vətəndaşlar və təhsil alanlar üçün vacib bir bilik sahəsidir. Buna görə də ümumtəhsil məktəblərində şagirdlərə iqtisadiyyata aid əsas anlayışların tədris edilməsi XXI əsrin əsas tələblərindən biridir. Ənənəvi təlim sistemində Coğrafiya fənninin tədrisi zamanı iqtisadi-coğrafi biliklərə çox az yer verilmişdir. Ənənəvi coğrafiya tədrisində iqtisadi-coğrafi biliklər müasir coğrafiya tədrisindən fərqli olaraq konkret siniflərdə tədris olunurdu. İqtisadi və fiziki-coğrafi biliklər bir-birindən təcrid olunmuş şəkildə tədris olunurdu. Azərbaycan Respublikasının iqtisadi və sosial coğrafiyası VIII sinifdə, Dünyanın iqtisadi coğrafiyası IX sinifdə tədris olunurdu. XI sinif "Türk dünyasının coğrafiya" tədris vəsaitində türk dünyası ölkələrinin həm fiziki, həm də iqtisadi coğrafiyası tədris olunurdu [Seyfullayeva, 2011: 394].

İqtisadiyyata aid biliklərin azlığı səbəbindən kurikuluma qədərki dövrdə IX-XI siniflər üçün Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş "İqtisadiyyatın əsasları" dərsliyi nəşr olunmuşdur. Teymur Vəliyev və Nüsrəddin Məmmədovun müəllifi olduqları dərslik "XƏZƏR" nəşriyyatında nəşr olunmuşdur. Dərsliyin sonuncu buraxılışı 2008-ci ildə 160 səhifə, 10 fiziki çap vərəqindən ibarət olan dərslikdir. Dərslik məktəblərə pulsuz paylanmamış, qiyməti 3 manat 20 qəpik təşkil etmişdir [Vəliyev, Məmmədov, 2008: 200].

"İqtisadiyyatın əsasları" dərsliyi 10 bölmə 57 mövzudan ibarət idi. "İqtisadiyyatın əsasları" fənninin əsas məqsədi sovet iqtisadi sistemindən xilas olduqdan sonra Azərbaycanın daha mütərəqqi sistem olan bazar iqtisadiyyatına keçidi, bazar iqtisadiyyatının təbiəti və onun inkişaf qanunauyğunluqları haqqında hər bir yeniyetmə, tələbə və ümumilikdə, hər bir vətəndaşın zəruri biliklərə malik olmasıdır. Tədris vəsaitində dünya iqtisadi sistemi, onun

mahiyyəti, əsas xüsusiyyətləri və digər problemlər haqqında yetərincə məlumat verilmişdir. "İqtisafiyyatın əsasları" fənni iqtisadi biliklərin əsaslarının öyrənilməsində mühüm rol oynamışdır.

"İqtisadiyyatın əsasları" dərsliyinin I bölməsində - "İqtisadiyyatın əsasları" fənninin ümumi giriş mövzuları" bölməsində fənnin məqsəd və vəzifələri, iqtisadi qanun və kateqoriyalar, iqtisadi tələbat, iqtisadiyyatın makroiqtisadiyyat və mikroiqtisadiyyat növləri haqqında məlumatlar verilmişdir [İqtisadiyyat, 2007: 202].

II bölmə olan "İqtisadi sistem" tədris vahidində iqtisadi sistem haqqında hər bir vətəndaşın bilməsi zəruri olan biliklər verilmişdir. İqtisadi sistemin mahiyyəti və onun növləri haqqında, iqtisadi sistemlərdə olan mülkiyyət və onun formalaşma tarixi, onun obyektləri və subyektləri haqqında vacib məlumatlar verilmişdir. Bundan əlavə bu bölmədə əmək prosesi, maddi nemətlərin istehsalı, istehsal vasitələri və qüvvələri, iqtisadi münasibətlər, aqrar münasibətlər, istehsal amilləri və elmi-texniki tərəqqi haqqında ilkin zəruri biliklər verilmişdir.

"Əmək" adlanan III bölmədə əmək və onun mahiyyəti, əməyin fəaliyyəti, onun hansı növlərinin olması, əmək bölgüsü, əməyin iqtisadi qanun olması, əmək bölgüsü haqqında bir çox ingilis iqtisadçılarının fikirləri, əmək ehtiyyatları və onların düzgün istifadə olunması formaları, işsizlik və işsizliyin hansı növlərinin olması, əmək məhsuldarlığı, əmək intensivliyi və əmək intizamı kimi iqtisadiyyatın əsas mövzularına toxunulmuş, bunlar haqqında şagirdlərdə ilkin və hər bir vətəndaşın bilməli olduğu zəruri biliklər verilmişdir [Şabanova, Seyfullayeva, Əlizadə, Aktoprak, 2018: 160].

"İstehsal və istehlak" adlı IV bölmədə istehsal, onun növləri və hansı səbəblərdən zəruri olması, ümumi milli məhsul (ÜMM), son və aralıq məhsul, ehtiyyat fondları, ümumi daxili məhsul (ÜDM), istehlak və onun istehsalla qarşılıqlı əlaqəsi, istehsal xərcləri və alternativ xərclər, istehsalın səmərəliliyi, Azərbaycanın iqtisadi (istehsal) potensialı, iqtisadi inkişaf səviyyəsi, onun strukturu məsələlərindən bəhs olunmuşdur.

V bölmədə - "Bazar iqtisadiyyatı və onun məzmunu" tədris vahidində natural və əmtəə istehsalı, fərdi və ictimai dəyər, ticarət və onun növləri, bazar iqtisadiyyatının mahiyyəti, onun üstünlükləri, birja, onun yaranma tarixi və növləri, marketinq, onun vəzifəsi və yaranmasını zəruri edən səbəblər, tələb və təklif, rəqabət formaları, mahiyyəti və metodları, Azərbaycanda bazar iqtisadiyyatına keçidin zəruriliyi, onun xüsusiyyətləri və keçidin çətinlikləri haqqında IX-XI sinif şagirdləri üçün geniş sayıla biləcək məlumatlar verilmişdir [Qəribov, Seyfullayeva, Hümbətova, Şabanova, İsmayılova, 2018: 144].

"Pul, maliyyə, kredit" adlanan VI bölmədə pul, onun mahiyyəti, yaranma tarixi, funksiyaları, maliyyə, büdcə və onun növləri, vergi sistemi,

vergilərin birbaşa (müstəqim) və dolayı növləri, vergi siyasəti, onun vəzifələri, kredit və bank işi, infilyasiya və onun baş vermə səbəbləri barədə şagirdlərin yaş səviyyəsinə uyğun olaraq ətraflı məlumat verilmişdir. "Sahibkarlıq fəaliyyəti" adlı tədris vahidində sahibkarlıq və onun mahiyyəti, növləri, kiçik sahibkarlığın üstünlükləri, biznes fəaliyyəti və onun etikası, inhisar (təkəlçilik) və antiinhisar (antitəkəlçilik), dövlət əmlakının özəlləşdirilməsi, Azərbaycanda azad sahibkarlıq və onun növləri haqqında önəmli ilkin məlumat verilmişdir.

"Sosial iqtisadiyyat" adlanan VIII bölmədə həyat səviyyəsi və onun xüsusiyyətləri, əmək haqqı, əmək haqqının real və nominal formaları, ona təsir edən amillər, işsizlik və onun aradan qaldırılması yolları, sosial müdafiə və sosial təminat, demoqrafiya və Azərbaycanda demoqrafik inkişafin xüsusiyyətləri haqqında geniş sayıla biləcək məlumatlar verilmişdir.

IX bölmədə - "İqtisadiyyatın idarə edilməsi" tədris vahidində iqtisadi idarəetmə, onun mahiyyəti və prinsipləri, iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi, idarəetmə orqanları, menecment, istehsalın idarə edilməsi, idarəetmə sisteminə nəzarət mövzularına toxunulmuş, bu mövzular haqqında şagirdlərə əhatəli məlumat verilmişdir.

"Dünya təsərrüfat sistemi" adlanan X bölmədə dünya təsərrüfat sisteminin mahiyyəti və onun əsas xüsusiyyətləri, beynəlxalq əmək bölgüsü və bu zaman Azərbaycanın qarşısında duran vəzifələr, Azərbaycan Respublikasının xarici iqtisadi münasibətləri və onların xüsusiyyətləri, birgə sahibkarlığın əhəmiyyəti, kapital ixracı, ekologiya mövzuları haqqında IX-XI sinif şagirdləri üçün geniş və gələcək həyatlarında da istifadə edə biləcəkləri məlumatlar verilmişdir [Əlizadə, Seyfullayeva, Aktoprak, Şabanova, 2020: 204].

Müasir dərsliklərin nəşr edilməsi ilə coğrafiya dərsliklərinin strukturu da köklü surətdə dəyişdi. Yeni dərsliklərdə iqtisadi və fiziki-coğrafi biliklər bir-biri ilə inteqrasiya olunmuş şəkildə verilmişdir. Eyni zamanda yeni dərsliklər tətbiq olunduqdan sonra artıq "İqtisadiyyatın əsasları" tədris vəsaitindən istifadə edilməməyə başlanıldı. İqtisadiyyata aid biliklər də yeni dərsliklərdə coğrafi biliklərlə birlikdə, inteqrasiya olunmuş şəkildə verilmişdir. Ənənəvi təlimdə dərslik strukturunun əsas hissəsini mətn komponentləri təşkil edirdi. Eyni zamanda, digər ənənəvi dərsliklər kimi "İqtisadiyyatın əsasları" tədris vəsaitində də illüstrativ materiallardan istifadə edilməmişdir. Həmçinin yuxarı sinif şagirdləri ixtisasla bağlı əsas fənnləri öyrənməyi üstün tutduğundan və bu sahədə ixtisaslı müəllim çatışmamağı səbəbindən bu fənnə maraq çox az idi. Bu səbəbdən "İqtisadiyyatın əsasları" fənninin coğrafiyaya tətbiq edilməsinin çox böyük əhəmiyyəti olmuşdur. Müasir dərsliklərdə iqtisadiyyata aid biliklər ayrıca bir dərslik, bölmə şəklində deyil, hətta heç ayrıca mövzu şəklində də tədris edilmir. Bu biliklər demək olar ki, bir çox mövzunun içərisində coğrafi biliklərlə inteqrasiya olunmuş formada verilmişdir. Eyni

zamanda iqtisadiyyata aid biliklər şagirdlərin psixoloji xüsusiyyətləri nəzərə alınaraq siniflər üzrə asandan-çətinə prinsipinə uyğun paylanmışdır. Yuxarı siniflərə qalxdıqca məlumatlar daha da mürəkkəbləşir. VI sinif Coğrafiya dərsliyində "Cəmiyyət" və "Təbiət və İnsan" tədris vahidlərində iqtisadiyyata aid ilkin biliklər şagirdlərin yaşına uyğunlaşdırılaraq verilmişdir. Bu dərslikdə verilmiş iqtisadiyyata aid terminlər "İqtisadiyyatın əsasları" dərsliyinin "Əmək" və "İstehsal və istehlak" tədris vahidlərinə uyğun gəlir. Bu terminlərə istehsal, istehlak, əmək bölgüsü, mənimsəmə iqtisadiyyatı və s. iqtisadi termin və anlayışlar daxildir. Bu terminlər şagirdlərdə iqtisadiyyata giriş üçün ilkin təsəvvürlər formalaşdırılmasına yaxından kömək edir [Babayeva, Hüseynli, Alxasov, Qəribov, 2018: 208].

VII sinif Coğrafiya dərsliyində "Dünya dövlətlərinin müxtəlifliyi" və "İqtisadiyyat və coğrafiya" tədris vahidlərində verilmiş iqtisadi termin və anlayışlar "İqtisadiyyatın əsasları" dərsliyinin "Əmək", "Pul, maliyyə, kredit", "Sahibkarlıq fəaliyyəti", "İqtisadiyyatın idarə edilməsi" və "Dünya təsərrüfatı sistemi" tədris vahidlərində verilmiş terminlərə uyğundur. Əsas fərq ondan ibarətdir ki, VII sinif Coğrafiya dərsliyində verilmiş termin və anlayışlar yuxarıdakı bölmələri tamamilə əhatə etmir, şagirdlərin daha asan qavraması, yadda saxlaması və ondan praktikada daha asan istifadə edə bilməsi məqsədilə VI sinif Coğrafiya dərsliyinə nisbətən daha çətinləşdirilmiş variantlarda şagirdlərə tədris olunur. Bu terminlərə idarəetmə, dünya təsərrüfatı, pul, ticarət, sərmayə, kapital resursları, investisiya və s. iqtisadi terminlər daxildir.

VIII sinif Coğrafiya dərsliyində "Dünya ölkələrinin təsnifatı" və "Əhali və təsərrüfatın ərazi təşkili" tədris vahidlərində verilmiş iqtisadi termin və anlayışlar "İqtisadiyyatın əsasları" dərsliyindəki "İstehsal və istehlak", "Bazar iqtisadiyyatı və onun məzmunu" və "Dünya təsərrüfatı sistemi" tədris vahidlərində verilmiş təsərrüfatın strukturu, ümumi milli məhsul (ÜMM), ümumi daxili məhsul (ÜDM), coğrafi əmək bölgüsü, əmtəə və s. iqtisadi termin və anlayışlara uyğun gəlir.

IX sinif Coğrafiya dərsliyində qədim və müasir sivilizasiyalar", "Dünya əhalisinin müxtəlifliyi" və "İqtisadi-sosial həyat və onun inkişaf yolları" tədris vahidlərində verilmiş marketinq, işsizlik səviyyəsi, tələb, təklif, mülkiyyət formaları, ticarət, bazar, əmək haqqı, bazar iqtisadiyyatı, rəqabət, sahibkarlıq, vergi və s. kimi iqtisadi termin və anlayışlar "İqtisadiyyatın əsasları" dərsliyindəki "Bazar iqtisadiyyatı və onun məzmunu", "Pul, maliyyə, kredit", "Sahibkarlıq fəaliyyəti" və "Sosial iqtisadiyyat" bölmələrində verilmiş iqtisadi termin və anlayışlara uyğundur [İmrani, Şabanova, Seyfullayeva, 2018: 208].

X sinif Coğrafiya dərsliyində "Siyasi münasibətlər" və "Elmi-texniki inqilab və iqtisadiyyat" tədris vahidlərində şagirdlərə tədris olunan elmi-texniki inqilab (ETİ), istehlak, iqtisadi mərkəz, elmi-texniki tərəqqi (ETT), beynəlxalq coğrafi əmək bölgüsü və s. iqtisadi termin və anlayışlar "İqtisadiyyatın

əsasları" tədris vəsaitinin "İstehsal və istehlak", "İqtisadi sistem" tədris vahidlərində verilmiş termin və anlayışlarla uyğunluq təşkil edir.

XI sinif Coğrafiya dərsliyində isə "Dünyanın demoqrafik mənzərəsi", "İqtisadi inkişafın istiqamətləri" və "Beynəlxalq inteqrasiya və qloballaşma" tədris vahidlərində "İqtisadiyyatın əsasları" tədris vahidindəki "İstehsal və istehlak", "Bazar iqtisadiyyatı və onun məzmunu" və "Pul, maliyyə, kredit" bölmələrində verilmiş iqtisadi biliklərə uyğun biliklər tədris olunur. XI sinif Coğrafiya dərsliyində verilmiş iqtisadi terminlərə lizinq, ixracat, alıcılıq qabiliyyəti, inflyasiya, valyuta bazarı, kredit və digər termin və anlayışlar daxildir. Dərsliklərin hər birinə yaxından nəzər saldıqda aydın bir şəkildə görmək olar ki, yuxarı siniflərə qalxdıqca dərsliklərdə verilən iqtisadiyyata aid terminlərin də miqdarı və çətinlik dərəcəsi xeyli artır. Bu artım şagirdlərin bilik və yaş səviyyəsinə mütənasib olaraq dəyişir ki, bu da öyrənmə prosesinin daha maraqlı, daha intensiv və məqsədəuyğun təşkil edilməsinə səbəb olur.

## Nəticə

İqtisadiyyatın əsasları fənni 2013-cü ildən etibarən ümumtəhsil məktəblərində Coğrafiya fənninin tərkibində tədris edilməyə başlanıldı. İqtisadiyyatın əsasları fənninin Coğrafiya fənninə tətbiq edilməsinin bir sıra üstünlükləri vardır. Belə ki, hər iki dərsliyin birləşdirilməsi nəticəsində şagirdlər əlavə dərs yükündən azad oldular [11]. Yuxarı siniflərdə iqtisadiyyata aid biliklərin tədris edilməsinə əlavə saat ayrılırdı ki, bu da, şagirdlərin daha çox məlumatla yüklənməsinə, nəticədə, onların ümumilikdə tədrisə maraqlarının azalmasına səbəb olurdu. Eyni zamanda şagirdlər birdən-birə yeni terminlərlə tanış olurdular ki, bu onlarda qorxu yaranmasına səbəb olurdu. İqtisadiyyatın əsasları fənninin Coğrafiya fənninə tətbiq edilməsi nəticəsində iqtisadiyyata aid biliklər aşağı siniflərdən başlayaraq şagirdlərə tədris edilməyə başlayır. Bunun əsas əhəmiyyəti ondan ibarətdir ki, şagirdlər iqtisadiyyata aid bilikləri coğrafiya fənninin tədrisi prosesində öyrənir və beləliklə də, öyrəndikləri materialları həyatla daha asan əlaqələndirə bilirlər. Coğrafiya dərsliklərində iqtisadiyyata aid biliklərin verilməsi nəticəsində məktəblilər iqtisadiyyatın önəmini daha yaxşı başa düşürlər.

***Ədəbiyyat***

1. *İsmayılov, Ç. (2010). "İqtisadi və sosial coğrafiyanın əsasları". Bakı, 328 s.*
2. *Seyfullayeva, N. (2011). "Coğrafiyanın tədrisi metodikası". "EMK" nəşriyyatı. Bakı, 394 s.*
3. *Vəliyev, T., Məmmədov, N. (2008). "İqtisadiyyatın əsasları". Xəzər. IX-XI siniflər üçün. 200 s.*
4. *"İqtisadiyyat". (2007). Bakı, 202 s.*

5. *Şabanova, Y., Seyfullayeva, N., Əlizadə, E., Aktoprak, İ. (2018). "Coğrafiya". Bakı, 160 s.*
6. *Qəribov, Y., Seyfullayeva, N., Hümbətova, Ş., Şabanova, Y., İsmayılova, T. (2018). "Coğrafiya" Bakı, VII sinif üçün. 144 s.*
7. *Eminov, Z., Səmədov, Q., Əliyeva, A. (2019). "Coğrafiya". Çaşıoğlu VIII sinif üçün. 192 s.*
8. *Əlizadə, E., Seyfullayeva, N., Aktoprak, İ., Şabanova, Y. (2020). "Coğrafiya". Bakı nəşr. IX sinif üçün. 204 s.*
9. *Babayeva, M., Hüseynli, Ş., Alxasov, O., Qəribov, Y.(2018). "Coğrafiya". Bakı, X sinif üçün. 208 s.*
10. *İmrani, Z., Şabanova, Y., Seyfullayeva, N. (2018). "Coğrafiya". Bakı. XI sinif üçün. 208 səh.*
11. *www.wikipedia.org*

**S.R.İbadova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***solmazi18118@sabah.edu.az***

# MÜLKİ MÜDAFİƏ VƏ FÖVQƏLADƏ HALLARDAN MÜDAFİƏ SAHƏSİNDƏ TƏLƏBƏLƏRİN HAZIRLANMASININ VAHİD SİSTEMİ

***Xülasə***

*Mülki müdafiə və fövqəladə halların mühafizəsi insanları və əmlakı fəlakətlərin və fövqəladə halların zərərli təsirlərindən qorumaq üçün tətbiq edilən sistemlər və tədbirlərdir. Buna nail olmaq üçün yaxşı təlim keçmiş və hazırlıqlı işçi qüvvəsinin olması lazımdır. Bu məqalənin məqsədi mülki müdafiə və fövqəladə halların mühafizəsi sahəsində tələbələrin vahid təlim sisteminin vacibliyini müzakirə etməkdir. Bu məqalə mülki müdafiə və fövqəladə hallardan müdafiə sahəsində tələbələr üçün vahid təlim sisteminin zəruriliyini araşdırır və belə bir sistemin tətbiqi üçün çərçivə təklif* edir.

# ЕДИНАЯ СИСТЕМА ПОДГОТОВКИ СТУДЕНТОВ В СФЕРЕ ГРАЖДАНСКОЙ ОБОРОНЫ И ЧС

***Резюме***

*Гражданская оборона и защита от чрезвычайных ситуаций – это системы и меры, созданные для защиты людей и имущества от вредного воздействия бедствий и чрезвычайных ситуаций. Для этого требуется хорошо обученная и подготовленная рабочая сила. Целью данной статьи является обсуждение важности единой системы подготовки студентов в области гражданской обороны и противоаварийной защиты. В этой статье исследуется потребность в единой системе подготовки студентов по гражданской обороне и реагированию на чрезвычайные ситуации и предлагается основа для внедрения такой системы.*

# UNIFORM SYSTEM OF TRAINING STUDENTS IN THE FIELD OF CIVIL DEFENSE AND EMERGENCY PROTECTION

***Summary***

*Civil defense and emergency protection are systems and measures put in place to protect people and property from the harmful effects of disasters and emergencies. Achieving this requires a well-trained and prepared workforce. The purpose of this article is to discuss the importance of a unified training system for students in the field of civil defense and emergency protection. This article explores the need for a unified training system for civil defense and emergency response students and proposes a framework for implementing such a system.*

***Açar sözlər:*** *mülki müdafiə, tələbə, fövqəladə, təlim*
***Ключевые слова:*** *гражданская оборона, курсант, ЧС, обучение*
***Key words:*** *civil defense, student, emergency, training*

Mülki Müdafiə və Fövqəladə Halların Mühafizəsi (MMFHM) mülki insanları təbii fəlakətlərin, terror hücumlarının və digər fövqəladə halların təsirlərindən qorumaq üçün hökumətlər və qeyri-hökumət təşkilatları tərəfindən həyata keçirilən bir sıra fəaliyyətlərə aiddir. Bu fəaliyyətlərə planlaşdırma, hazırlıq, fəlakətlər və fövqəladə hallara reaksiya daxildir. Təlim MMFHM-in vacib komponentidir, çünki o, fərdləri böhranlar zamanı effektiv cavab vermək üçün lazımi bacarıq və biliklərlə təchiz edir.

MMFHM sahəsində tələbələr üçün vahid təlim sisteminə ehtiyac bir neçə səbəbdən yaranır. Birincisi, fəlakətlər və fövqəladə hallar coğrafi mövqeyindən asılı olmayaraq insanlara təsir edən qlobal problemlərdir. Fövqəladə hallara və fəlakətlərə cavab vermək üçün tələb olunan bacarıq və biliklər də universaldır və vahid təlim sistemi fərdlərin eyni bacarıq və bilik dəsti ilə təchiz olunmasını təmin edir.

İkincisi, vahid təlim sistemi fəlakətlərə cavab tədbirləri zamanı ölkələr arasında qarşılıqlı fəaliyyət və əməkdaşlığı gücləndirəcək. Fəlakətlərə cavab tədbirləri çox vaxt müxtəlif təşkilatların, o cümlədən hökumətlərin, qeyri-hökumət təşkilatlarının və beynəlxalq qurumların əməkdaşlığını əhatə edir. Vahid təlim sistemi bütün bu təşkilatların MMFHM haqqında ümumi anlayışa malik olmasını təmin edəcək ki, bu da onların fəlakətlərə cavab tədbirləri zamanı səmərəli birgə işləmək qabiliyyətini artıracaq.

Üçüncüsü, vahid təlim sistemi MMFHM təlim proqramlarının qiymətləndirilməsi üçün standartlaşdırılmış çərçivə təmin edəcəkdir. Hazırda MMFHM təlim proqramlarının effektivliyini qiymətləndirmək üçün standart çərçivə mövcud deyil. Vahid təlim sistemi təlim proqramlarının qiymətləndirilə biləcəyi standart təmin edəcək və beləliklə, təşkilatlara təkmilləşdirməyə ehtiyacı olan sahələri müəyyən etməyə imkan verəcək.

Dördüncüsü, vahid təlim sistemi MMFHM sahəsində tələbələrin qabaqcıl təcrübələrə əsaslanan yüksək keyfiyyətli təlim almasını təmin edəcək. Hal-hazırda, MMFHM təliminin keyfiyyəti ölkələr arasında geniş şəkildə dəyişir və vahid təlim sistemi bütün tələbələrin ən yaxşı mövcud təcrübələrə əsaslanan təlim almasını təmin edəcək [2,s.85].

MMFHM sahəsində tələbələr üçün vahid təlim sisteminin həyata keçirilməsi bir neçə addımı əhatə edəcəkdir. Belə bir sistem üçün təklif olunan çərçivə aşağıdakı kimidir:

**MMFHM Təlim Kurikulumunun Standartlaşdırılması:** MMFHM sahəsində tələbələr üçün vahid təlim sisteminin tətbiqində ilk addım təlim kurikulumunun standartlaşdırılmasıdır. Standart kurikulum bütün tələbələrin

eyni bacarıq və biliklər toplusunda təlim almasını təmin edəcək. Kurikulum fəlakət riskinin azaldılması, fövqəladə hallara reaksiya və bərpa kimi mövzuları əhatə etməlidir.

**Təlimçilərin hazırlanması:** İkinci addım təlimçilərin hazırlanmasıdır. Vahid təlim sistemi MMFHM-də bilikli və bacarıqlı çoxlu sayda təlimçi tələb edəcəkdir. Təlimçilərin hazırlığı standart kurikuluma əsaslanmalı və həm nəzəri, həm də praktiki komponentləri əhatə etməlidir.

**Tədris mərkəzlərinin yaradılması:** Üçüncü addım təlim mərkəzlərinin yaradılmasıdır. Bu mərkəzlər yüksək keyfiyyətli təlim keçirmək üçün lazımi infrastruktur və resurslarla təchiz edilməlidir. Mərkəzlər tələbələrin asanlıqla əldə edə biləcəyi strateji yerlərdə yaradılmalıdır.

**Tədris mərkəzlərinin akkreditasiyası:** Dördüncü addım təlim mərkəzlərinin akkreditasiyasıdır. Akkreditasiya təlim mərkəzlərinin MMFHM təliminin verilməsi üçün tələb olunan standartlara cavab verməsini təmin edəcək. Akkreditasiya beynəlxalq səviyyədə tanınan müstəqil qurum tərəfindən aparılmalıdır.

**Monitorinq və qiymətləndirmə:** Son mərhələ təlim proqramlarının monitorinqi və qiymətləndirilməsidir. Monitorinq və qiymətləndirmə təlim proqramlarının öz məqsədlərinə cavab verməsini və yüksək keyfiyyətli olmasını təmin edərdi. Bu addım təlim proqramlarının effektivliyini qiymətləndirmək üçün istifadə olunacaq monitorinq və qiymətləndirmə çərçivəsinin yaradılmasını nəzərdə tutur [1,s.43].

MMFHM sahəsində tələbələr üçün vahid təlim sisteminin bir sıra üstünlükləri olacaq. Birincisi, bu, bütün tələbələrin ən yaxşı mövcud təcrübələrə əsaslanan təlim almasını təmin edəcəkdir. Bu, fəlakətlərə cavab tədbirlərinin effektivliyini artıracaq və icmaların fövqəladə hallara daha yaxşı hazır olmasını təmin edəcək.

İkincisi, vahid təlim sistemi fəlakətlərə cavab tədbirləri zamanı ölkələr arasında qarşılıqlı fəaliyyət və əməkdaşlığı gücləndirəcək. Bu, ölkələrə fəlakətlərə və fövqəladə hallara cavab vermək üçün səmərəli işləməyə imkan verəcək ki, bu da son nəticədə insanların həyatını xilas edəcək.

Üçüncüsü, vahid təlim sistemi MMFHM təlim proqramlarının qiymətləndirilməsi üçün standartlaşdırılmış çərçivə təmin edəcəkdir. Bu, təşkilatlara təkmilləşdirməyə ehtiyacı olan sahələri müəyyən etməyə və təlim proqramlarında lazımi dəyişikliklər etməyə imkan verəcək.

Dördüncüsü, vahid təlim sistemi MMFHM sahəsində tələbələrin qabaqcıl təcrübələrə əsaslanan yüksək keyfiyyətli təlim almasını təmin edəcək. Bu, onların fəlakətlərə və fövqəladə hallara effektiv cavab vermək üçün yaxşı təchiz olunmasını təmin edəcək və beləliklə, onların peşəkar inkişafını artıracaqdır [4].

MMFHM sahəsində tələbələr üçün vahid təlim sisteminin üstünlüklərinə baxmayaraq, onun həyata keçirilməsində bir sıra çətinliklər var. Bu çağırışlara aşağıdakılar daxildir:

**Dəyişikliyə müqavimət:** Dəyişikliyə qarşı müqavimət yeni proqramlar və ya sistemlər həyata keçirərkən ümumi problemdir. Bəzi təşkilatlar vahid təlim sisteminin tətbiqinə müqavimət göstərə bilər, çünki bu, mövcud proqram və sistemlərdə dəyişikliklər tələb edə bilər.

**Xərc:** Təlim mərkəzlərinin yaradılması və təlimçilərin hazırlanması baha başa gələ bilər. Bəzi təşkilatlar vahid təlim sisteminin tətbiqi xərclərini ödəyə bilmirlər.

**Dil və mədəni maneələr:** Vahid təlim sistemi ümumi dil və mədəni anlaşma tələb edir. Çoxlu dil və mədəniyyətin olduğu bölgələrdə bu problem ola bilər.

**Siyasi iradənin olmaması:** MMFHM sahəsində tələbələr üçün vahid təlim sisteminin həyata keçirilməsi siyasi iradə və dəstək tələb edir. Siyasi dəstək olmadan belə bir sistemi həyata keçirmək çətin ola bilər [5].

Yekun olaraq, MMFHM sahəsində tələbələr üçün vahid təlim sistemi fəlakətlərə cavab tədbirlərinin effektivliyini artırmaq və icmaların fövqəladə hallara daha yaxşı hazır olmasını təmin etmək üçün vacibdir. Belə bir sistemin tətbiqi təlim kurikulumunun standartlaşdırılmasını, təlimçilərin hazırlanmasını, təlim mərkəzlərinin yaradılmasını, təlim mərkəzlərinin akkreditasiyasını, təlim proqramlarının monitorinqini və qiymətləndirilməsini tələb edər. Onun həyata keçirilməsində çətinliklərə baxmayaraq, vahid təlim sisteminin faydaları əhəmiyyətlidir və belə bir sistemin qlobal miqyasda tətbiqi üçün səylər göstərilməlidir.

***Ədəbiyyat***

1. *İsmayılova, N. Azərbaycanda mülki müdafiə və fövqəladə halların mühafizəsi sahəsində tələbələrin vahid hazırlığı sisteminin formalaşdırılması. Fövqəladə İdarəetmə jurnalı, 14(1). (2016)*
2. *Əliyev, R. Azərbaycanda milli təhlükəsizliyin təmin edilməsində mülki müdafiə və fövqəladə hallardan mühafizənin rolu. Təhlükəsizlik Problemləri, 17(2), (2015).*
3. *Baxışov, R. Azərbaycanda mülki müdafiə və fövqəladə hallardan mühafizənin problemləri və perspektivləri. Fövqəladə İdarəetmə jurnalı, 15(1),(2017).*
4. *"Azərbaycan Respublikasının Mülki Müdafiə və Fövqəladə Halların İdarə Edilməsi üzrə Milli Strategiya (2014-2024-cü illər)". Azərbaycan Fövqəladə Hallar Nazirliyi, 2014.*
5. *"Azərbaycanda Mülki Müdafiənin İnkişafı üzrə Milli Proqram (2015-2020)". Azərbaycan Fövqəladə Hallar Nazirliyi, 2015.*

**S.İ.Məmmədxanova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***sabina.mammadxanova@gmail.com***

# MƏKTƏBƏQƏDƏR TƏHSİLDƏ STEAM YANAŞMASININ ÖNƏMİ

***Xülasə***

*Bu məqalənin əsas məqsədi STEAM (Elm, texnologiya, mühəndislik, Sənət və riyaziyyat) təhsilinin nə olduğunu və bu təhsilin şagirdlərin həm gündəlik, həm də akademik öyrənməsində necə təsir etdiyini göstərməkdir. Məqalədə problemlə bağlı müxtəlif ədəbiyyat təhlil edilmiş, yeni yanaşmalar haqqında fikirlər əsaslandırılmışdır. Aparılan araşdırmalar əsasında STEAM təhsil yanaşmasının ənənəvidən fərqli olaraq şagirdlərə daha əyləncəli bir öyrənmə mühiti təqdim etdiyi görülməkdədir. Əvvəllər STEM olaraq meydana çıxan bu yanaşmanın sonradan daha təkmilləşdirilərək sənəti əlavə olunması ilə STEAM halına salınması təhsilin keyfiyyətinin daha da yaxşılaşmasına səbəb olmuşdur. Eyni zamanda məqalədə STEAM təhsil yanaşmasının məktəbəqədər təhsildə əhəmiyyətindən geniş şəkildə bəhs olunmuşdur. Beləki aparılan araşdırmalar STEAM-ın təkcə yuxarı sinif şagirdlərində deyil, eyni zamanda öyrənmə ilə yenicə tanış olan az yaşlı şagirdlərin öyrənməsi üçün də vacib olduğu nəticəsinə gəlmişdir.*

# ЗНАЧЕНИЕ ПОДХОДА STEAM В ДОШКОЛЬНОМ ОБРАЗОВАНИИ

***Резюме***

*Основная цель этой статьи - понять, что такое образование STEAM (наука, технология, инженерия, искусство и математика) и как оно влияет на повседневное и академическое обучение студентов. В статье использованы литературные исследования. На основании исследования видно, что образовательный подход STEAM предлагает учащимся более увлекательную среду обучения, чем традиционная. Этот подход, появившийся ранее как STEM, позже был усовершенствован и превратился в STEAM с добавлением искусства, что привело к дальнейшему повышению качества образования. В то же время в статье широко обсуждалась важность образовательного подхода Steam в дошкольном образовании. Таким образом, проведенные исследования пришли к выводу, что STEAM важен не только для старшеклассников, но и для обучения младших школьников, начинающих обучение.*

# THE IMPORTANCE OF THE STEAM APPROACH IN PRE-SCHOOL EDUCATION

***Summary***

*The main purpose of this article is to understand what STEAM (Science, Technology, Engineering, Arts and Mathematics) education is and how it affects*

*students' daily and academic learning. Literature research was used in the article. Based on the research, it is seen that the STEAM education approach offers students a more fun learning environment than the traditional one. This approach, which appeared earlier as STEM, was later improved and turned into STEAM with the addition of art, which led to further improvement of the quality of education. At the same time, the importance of the Steam educational approach in preschool education was widely discussed in the article. Thus, the studies conducted have come to the conclusion that STEAM is important not only for high school students, but also for the learning of young students who are new to learning.*

***Açar sözlər:*** *STEM, STEAM, məktəbəqədər təhsil, texnologiya, əyləncəli öyrətmək*
***Ключевые слова:*** *STEM, STEAM, дошкольное образование, технологии, веселое обучение*
***Key words:*** *STEM, STEAM, preschool education, technology, fun teaching*

Daima inkişaf edən dünyada mövcud yeniliklərdən hər daim xəbərdar olmaq üçün müasir texnologiyalardan və informasiya-kommunikasiya vasitələrindən istifadə bacarıqlarının olması qaçılmazdır. Hər bir insanın, müəyyən məlumatları almaq və ya öz həyat şəraitini yaxşılaşdırmaq üçün bu texnologiya vasitələrindən istifadə etməsi zəruridir.

Həyat şəraitinin bu formada dəyişməsi bütün sahələrdə inkişafı və yeniliklərin gətirilməsini məcburi etmişdir. Belə ki, yaranan bu dəyişikliklər sözsüz ki, təhsil sahəsindən də yan keçmir. Hər bir şagirddə olan mövcud potensialı üzə çıxarmaq, onları həyata hazırlamaq, sadəcə hazır biliyi mənimsəməklə kifayətlənməyib eyni zamanda öyrəndiyi biliklərdən istifadə etməklə yeni məlumatlara yiyələnmək üçün çalışan, yaradıcı fərdlər yetişdirmək yalnız müasir təhsil sistemi sayəsində mümkündür. Məlum olduğu kimi bir cəmiyyətin inkişafı üçün ilk öncə bu cəmiyyətdə yaşayan insanların inkişafı vacibdir. Bu səbəbdən də hər bir fərd elm və texnologiya sahəsindəki yeniliklərlə ayaqlaşmalı və onlardan istifadə etməyi bacarmalıdır.

Qeyd olunduğu kimi yaranan dəyişikliklər hər bir sahədə olduğu kimi təhsil sahəsinə də öz təsirini göstərir və müasir təhsil sistemində də müəyyən dəyişikliklər baş verir. Təlim-tədris prosesində hər bir şagirdin daha əlverişli öyrənməsini təmin etmək məqsədilə yeni tədris metodları işlənib hazırlanır və tətbiq olunur. [5, s.304].

Bugünkü gündə yaranan bəzi problemləri aradan qaldırmaq üçün, təkcə bir sahədə biliyin olması yetərli olmur və eyni anda bir neçə elm sahəsinin inteqrasiyasına ehtiyac yaranır. Bu səbəblə yaranan proqramlardan ən çox tanınan və istifadə olunan STEAM təhsilidir. Bu termin ilk dəfə STEM formasında gündəmə gəlmişdir. Belə ki, STEM anlayışı Ramaley tərəfindən 2001-ci ildə, ABŞ-da elmə təqdim olunmuşdur və tez bir zamanda bütün dünyada populyarlıq qazanmışdır. STEM, Science, Technology, Engineering

və Mathematics sözlərinin baş hərflərini istifadə etməklə yaranan bir təhsil yanaşmasıdır [12, s.2]. STEM, yaranan problemi həll etmək məqsədilə elm, riyaziyyat, mühəndislik və texnologiya fənlərindən birgə istifadəni qarşıya məqsəd qoyur.

Aparılan çox saylı araşdırmalar nəticəsində STEM yanaşmasının tam olmadığı və onda hansısa bir hissəsinin çatışmadığı əsaslandırılmışdır. Belə ki, 4 fənnin inteqrasiyasından ibarət olan bu yanaşma yaradıcılıq cəhətdən tam əhatə olunmamışdır. Elə bu səbəbdən də STEM yanaşmasının STEAM kimi qəbul olunmasının zəruriliyi vurğulanmışdır. Burada əlavə olunan "A", STEM-də sənətin önemini özündə əks etdirir. STEAM termininə ilk dəfə Florida İncəsənət Təhsili Assosiasiyasının hesabatında rast gəlinmişdir [12, s.2]. Whnn və Haris sənət elementinin vacibliyinə görə digər 4 fəndən geri qalmadığını ifadə etmişdir. Leonardo da Vinçi, Əl-Cəzari, Albert Eynşteyn və Stiv Cobs kimi bir çox tanınmışların həyatına nəzər salındıqda aydın olur ki, bu insanlar yalnız hər hansı bir elm sahəsi ilə deyil eyni zamanda sənət ölçüsü ilə də məşğul olmuşlar (Steam və art education arasında əlaqə [5, s.309]. STEM təhsil yanaşmasına sənətin əlavə olunmasının ən əsas səbəblərindən biri də müxtəlif peşə sahiblərinə çoxlu iş imkanlarının təqdim olunmasıdır.

STEAM, kiçik yaşlarından etibarən uşaqlarda müxtəlif elm sahələrinə eyni zamanda incəsənətə maraq və sevgi yaratmaq məqsədi daşıyan bir təhsil yanaşmasıdır [8].

Yuxarıda da qeyd olunduğu kimi STEAM, elm, texnologiya, mühəndislik, incəsənət və riyaziyyat kimi fənlərin ingiliscə adlarının baş hərflərinin birləşməsindən əmələ gələn bir təhsil intizamıdır. Bu təhsil yanaşması qeyd olunan fənlərin birgə istifadəsini özündə ehtiva edir. Belə ki, əsas məqsəd, şagirdlərin öyrəndiyi fərqli biliklər arasında əlaqə yatmasını təmin etmək, tənqidi düşüncə və əməkdaşlıq bacarıqlarının inkişafını həyata keçirməkdən ibarətdir [6, s.2].

Sürətlə inkişaf etməkdə olan müasir dünyada, şagirdlərin uğurlu gələcəyini təmin etmək, onların tənqidi təfəkkür, yaradıcı düşüncə kimi bacarıqlarını inkişaf etdirərək hər tərəfli qeyd olunan fənlərlə onları tanış etməkdən ibarətdir. "Təhsil dəyişən dünyaya cavab vermək üçün təzyiq altındadır" deyə təhsil yazıçısı Jeevan Vasagar, Financial Times adlı məqaləsində iddia edir [8].

Bundan başqa, STEAM təhsil yanaşması şagirdlərin və ya tələbələrin dərsə olan marağını artıra və onları bu yöndə motivasiya edə bilər. "STEAM-ın ən mühüm faydası nədir?" sualının cavabı əslində çox sadədir. Şagirdləi ömür boyu öyrənməyə həvəsləndirmək [8].

Bəzən elə düşünülür ki, STEAM əsasən yuxarı siniflərdə tədris olunur və fayda verir. Amma bu tamamilə yanlış bir düşüncədir. Erkən yaş dövrü uşaqların öyrənməyə həvəsli olduğu bir dövrdür ki, bu zaman onlar daima nəsə

yeniliklər öyrənməyə can atırlar. Təsadüfi deyil ki, hal-hazırda ibtidai sinifdə təhsil alan bir şagird böyüklərdən daha çox öyrənmə potensialına malikdir. Biz daima dəyişən və inkişaf edən dünyada yaşadığımız üçün təbii olaraq, dövrün tələbləri də dəyişir. Əvvəlkindən fərqli olaraq indiki uşaqların yeni bilikləri əldə etməsi çox daha asan və əlçatandır. Lazım olan informasiya vasitələrinə öncəkindən fərqli olaraq daxil olmaq asan olmuşdur. Elə bu səbəbdən də uğur yeni şeylər öyrənib özünü inkişaf etdirməyənlərdən uzaqdır [11].

Ənənəvi təhsil yanaşması ilə STEAM-ı müqayisə etsək aradakı fərqin nə dərəcədə böyük olduğunu açıq aşkar görə bilərik. Belə ki, illər əvvəl bir çox məktəblərdə keçilən ənənəvi təhsil metodunda məqsəd şagirdlərə nəyisə öyrətmək idi. Yəni burada əsas rolu müəllim icra edirdi və şagirdlər isə sadəcə dinləyici kimi çıxış edirdi. Bu səbəbdən təsadüfi deyil ki, əksər valideynlərdən uşaqların məktəbə həvəssiz getməsi və ya ümumiyyətlə getmək istəməməsi ilə bağlı narazılıqlar eşidirik. Buna səbəb şagirdlərin məktəbdə heç nəyə maraq göstərməməsi, onlara heç nəyin həyəcanverici görünməməsi və hər gün monoton olan dərs metodundan sıxılmasıdır. Bundan fərqli olaraq STEAM yanaşması şagirdlərə tamamilə fərqli bir tədris mühiti təqdim edir ki, burada onlar əvvəlkindən fərqli olaraq daha fəal bir şəkildə fəaliyyət göstərə bilir. Bu yanaşmada müəllim hazır biliyi ötürən deyil, sadəcə öyrənmə yönümdə şagirdləri fəaliyyətə cəlb edən şəxs olaraq görülür. Bu təhsil yanaşması uşaqlara bir sıra bacarıqlar aşılayır ki, bunlardan bəzi önəmli olanlara aşağıdakıları misal göstərə bilərik: ünsiyyət qurmaq, əməkdaşlıq etmək, fərdi və qruplarda iş, tənqidi və yaradıcı düşüncə və s. Ənənəvidən fərqli olaraq bu yanaşma üsulunda şagirdlər hazır biliyi öyrənməklə kifayətlənmir, eyni zamanda sual verərək, araşdırma apararaq daha zəngin məlumatlara yiyələnə bilirlər. Bundan əlavə STEAM sadəcə hər hansı mövzunu öyrətməklə kifayətlənməyib eyni zamanda onun real həyatda necə və harda tətbiq olunmasını da özündə ehtiva edir. Yaranan bu yeni öyrənmə metodları müəllimlərin də rollarına öz təsirini göstərməkdədir. Bu rollar aşağıdakı kimidir:

- Şagirdyönümlü öyrənmə;
- Real həyat problemlərinə diqqət yetirmək;
- Bütün fənlərin inteqrasiyasını təmin etmək;
- Birgə öyrənmənin mənimsənilməsini həyata keçirmək;
- Çox sayda düzgün cavabın olmasına icazə vermək;
- Mühitin dəstəklənməsi;
- Təhlükəsiz öyrənmə mühiti;
- Şagirdləri komanda işinə cəlb etmək;
- Şagirdlərin peşəkar inkişafı üçün müxtəlif öyrədici təlimlərdə iştirak etmək və s.

**Məktəbəqədər təhsildə STEAM.**

Müasir dövrdə yaranan dəyişikliklər sayəsində uşaqların da maraqları əvvəlki ilə müqayisədə dəyişir. Belə ki, məktəb yaşı çatmayan uşaqlarda belə araşdırma bacarıqları vardır. Onlar ətrafda gördüyü hər şey ilə maraqlanır, yaxından təhlil etməyə çalışır. Bütün bunlar az yaşlı uşaqlarda da STEAM bacarıqlarının olduğunu göstərir. Bəzi araşdırmalara görə az yaşlı şagirdlər məktəblə bağlı müəyyən biliklərə yiyələnmədiyinə görə onların təhlil etmək proqnozlaşdırmaq, fikir irəli sürmək kimi meyllərin olmadığını vurğulayır və bu səbəbdən də onlarda STEAM bacarıqlarının olmadığını əsaslandırırlar. Lakin bu deyilənlər həqiqəti əks etdirmir. Məktəb yaşı çatmayan uşaqlar ətraflarında baş verən hər bir hadisə ilə yaxından maraqlanırlar. Hər birimiz az yaşlı uşaqların nə qədər çox sual verdiyini, onlara müəmmalı görünən hər bir nüansla ətraflı maraqlandığının şahidi olmuşuq.

Misal olaraq az yaşlı uşaqların müxtəlif oyunlar oynadığını, beyinlərində müəyyən senarilər canlandırdığını görmüşük. Başqa bir misal, plastilindən müxtəlif fiqurlar düzəltmək də onlarda olan yaradıcılıq qabiliyyətinin təzahürüdür. Elə bu səbəbdən də məktəb yaşının çatıb-çatmamasından asılı olmayaraq hər bir uşağı STEAM fəaliyyətləri tanış etmək lazımdır.

Bütün dünyada inkişaf etməkdə olan STEAM yanaşması Silvanın da qeyd etdiyi kimi, müasir dövrdə yaşayan hər bir fərd üçün yaradıcılıq, tənqidi düşünmə, sual vermə və s. kimi bacarıqlar təmin edir. Bütün bu bacarıqlar sayəsində hər bir fərdin mövcud potensialını üzə çıxarmaq mümkündür. Bu səbəbdən də Tuğrul (2002) uşaqların "nə edə biləcəkləri" mövzusu ilə yanaşı, "nə etmələri" mövzusunda da dəstəklənmələri lazım olduğunu vurğulamışdır.

Öyrənmə və beyin ilə aparılan bir çox araşdırmalar zamanı diqqət edilən ən önəmli məsələlərdən biri də neynorların arasında baş verən sinaptik əlaqələr və əlaqələr dəstinin ən sürətli şəkildə necə həyata keçirilməsidir. Elə buna görə də az yaşlı uşaqlara veriləcək bilik və bacarıqlar çox önəmlidir. Belə ki, bu yaş dövründə uşaqların beyni inkişafa daha çox meylli olur və onlar hər deyiləni tez bir zamanda qavramaq bacarığına malikdirlər. Çalışmaq lazımdır ki, uşaqlara bu yaş dövrlərində veriləcək təhsil müəyyən plana uyğun və şüurlu şəkildə həyata keçirilsin. Bununla da az yaşlı uşaqların qarşıladığı hər bir situasiyada onların sinaptik əlaqələrinin artacağı güman edilir. Düzgün qurulan öyrənmə mühiti ilə az yaşlı uşaqlar müxtəlif bacarıqların qazanıldığı STEM nəticəsində daha effektiv öyrənəcəklər. Bütün bu öyrəndiklərini isə praktikada həyata keçirəcəklər [9, s.27].

Erkən təhsilin vacibliyi bütün ölkələrdə özünü göstərir. Belə ki, bu təhsilin əhəmiyyətini anlayan siyasi hakimiyyət təhsilin daha kiçik yaşlardan etibarən başlanmasının vacibliyini vurğulamışdır. Buna misal olaraq, 2013-cü ildə ABŞ-da Obama administrasiyası 10 il müddətində "Hamı üçün

məktəbəqədər təhsil "proqramına büdcədən 75 milyard dollar köçürməyi planlaşdırmışdı. Bunun sayəsində köhnə məktəblərlə müqayisədə 4 illik təhsil müddəti ərzində təhsil səviyyəsində kifayət qədər artım müşahidə olunmuşdur. STEAM təhsilinin məktəbəqədər hissəsində öyrənmə bacarıqlarının 4-ü əsas hesab olunur: [6, s.2]

a) Bilmək/anlamaq, b) bacarıqlar, c) yaratmaq, d) emosiyalar.

Az yaşlı uşaqlar hər gün qarşılaşdıqları onlara tanış olmayan anlayışları öyrənmək üçün bu 4 bacarıqdan istifadə edirlər. Məktəbəqədər təhsil səviyyəsində qeyd olunan bu bacarıqlardan əlavə, bəzi aşağıdakı məsələlər də daxil olmaqdadır:

1) Uşaqları koqnitiv axtarışlara həvəsləndirmək;
2) Uşaqları qarşılıqlı fəaliyyətə yönəltmək (ünsiyyət, müzakirə, məlumat mübadiləsi, fikir irəli sürmək, planlaşdırma);
3) Uşaqlara öz maraqlarını kəşf etmələri üçün tapşırıqlar vermək.

Məktəbəqədər dövrdə STEAM təhsili "Early STEM" adlanır. Erkən STEAM təhsilinin başlanğıcı BTHP problemi olaraq görülür. Belə ki, "Bilgi Temelli Hayat Problemi" olaraq qeyd olunan sözü gedən problem, açıq məqsədli, məlumat yönümlü və dəqiq bir cavabı olmayan bu səbəbdən də bir deyil daha çox həlli olan problemdir. Erkən STEAM fəaliyyətinin addımları aşağıdakılar olaraq qeyd olunur: sual vermək, planlaşdırma, təsəvvür etmək, inkişaf etdirmə, ünsiyyət, test etmə və s. Bu dövrdə verilən suallara müəyyən cavab tapıldıqdan sonra azyaşlı uşaqlar verilən cavablara uyğun təsəvvürlərində canlandırdıqları düşüncələrlə xəyal qurmağa və onu planlaşdırmağa başlayarlar. Planlaşdırma mərhələsinin önəmi bundan ibarətdir ki, bu mərhələdə lazım olan bütün addımlar qeyd olunur, müəyyən məhsulun necə yaradılacağı öncədən təyin olunur. Qeyd olunan bütün addımlar növbəli şəkildə sınaqdan keçirilir və uyğun gələn addım dəyərləndirilir. Ən əsası isə burada uşaqların səhv etmək kimi bir narahatlıqları yoxdur. Öncədən onlara səhv etmənin problem olmadığını, əksinə onların inkişafı üçün vacib olduğunu xatırladırlar. Bu səbəbdən də azyaşlı uşaqlar hər addımı atmaqda cəsarətli olurlar. [13, s.27]

## Nəticə

Məqalədə STEAM təhsil yanaşmasının nə olduğu, nəyə görə vacib olduğu və təhsildə necə töhfə verdiyi qeyd olunmaqdadır. Bundan əlavə məqalədə STEAM təhsilinin tarixinə də toxunulmuş və ilk olaraq STEM kimi meydana gələn təhsil yanaşmasının sonradan birazda təkmilləşdirilərək sənətin əlavə olunması ilə STEAM halına salınması haqqında ətraflı məlumat verilmişdir. Eyni zamanda bu məqalə STEAM təhsilinin məktəbəqədər təhsildə əhəmiyyətini ətraflı şərh etmiş və az yaşlı uşaqların ətraflarında qarşılaşdıqları hər bir situasiyada STEAM-ın addımlarından istifadə etməsi barədə nümunələr

qeyd olunmuşdur. Aparılan nəticəsində məlum olmuşdur ki, STEAM təhsil yanaşması həqiqətən də ənənəvi təhsildən fərqli olaraq şagirdlərin daha səmərəli öyrənməsini təmin edir. Bundan əlavə STEAM təhsil metodunun təkcə bir istiqamətə deyil müxtəlif fənlərin inteqrasiyasına əsaslanması da onu daha önəmli edən faktorlardandır. Qeyd olunduğu kimi azyaşlı şagirdlər gördükləri hər bir şeylə maraqlandıqları üçün onların öyrədilməsi daha asan başa gəlir və öyrənməni STEAM yanaşması vasitəsi ilə edərək aşağı yaşdan etibarən onların müxtəlif fənlərə olan maraqlarını artırmaq olar. Son olaraq qeyd etmək olar ki, dəyişən dövrün gətirdiyi yeniliklər bir çox sahələrdə olduğu kimi təhsil sahəsində də inkişafı zəruri edir ki, bu imkişafın ən baris nümunəsi STEAM təhsil metodur.

***Ədəbiyyat***

1. *Ata-Aktürk, A. & Demircan, H. Ö. (2017). Okul öncesi dönemde STEM ve STEAM eğitimine yönelik çalışmaların incelenmesi. Ahi Evran Üniversitesi Kırşehir Eğitim Fakültesi Dergisi, 18(2), 757-776. https://dergipark.org.tr/tr/pub/kefad/issue/59416/853262*
2. *Ata-Aktürk, A., & Demircan, H. Ö. (2020). Supporting preschool children's STEM learning with parent-ınvolved early engineering education. Early Childhood Education Journal, 1-15. https://doi.org/10.1007/s10643-020-01100-1.*
3. *Blackley, S., & Howell, J. (2015). A STEM narrative: 15 years in the making. Australian Journal of Teacher Education, 40(40). https://doi.org/10.14221/ajte.2015v40n7.8*
4. *Buchter, J., Kucskar, M., Oh-Young, C., Weglarz-Ward, J., & Gelfer, J. (2017). Supporting STEM in early childhood education. Policy Issues İn Nevada Education, 1(1), 1–12. Https://Doi.Org/10.1016/0304-4165(86)90057-7*
5. *Erdoğan,S.(2020). Steam ve Sanat Eğitimi İlişkisi. Selçuk Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi,303-316. Steam ve Sanat Eğitimi | ERDOĞAN | Selçuk Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi (selcuk.edu.tr)*
6. *Erhan,G. (2019). Resimli Çocuk kitaplarında STEAM: "Yaratıcı ve eleştirel düşünme becerisi". Journal of STEAM Education, 2(1), 1-20. Journal of STEAM Education » Makale » RESİMLİ ÇOCUK KİTAPLARINDA STEAM: "YARATICI VE ELEŞTİREL DÜŞÜNME BECERİSİ" (dergipark.org.tr)*
7. *Güvən,Y. & Karasulu Kavuncupğlu, M. (2020). Okul Öncesi Dönem Çocukların Yaratıcılık Düzeyleri ile Problem Çözme Becerileri Arasındakı ilişkinin incelenmesi. Ahmet Keleşoğlu Eğitim Fakültesi Dergisi, 2 (1), 37-53. Ahmet Keleşoğlu Eğitim Fakültesi Dergisi» Makale» Okul Öncesi Dönem Çocukların Yaratıcılık Düzeyleri ile Problem Çözme Becerileri Arasındaki İlişkinin İncelenmesi (dergipark.org.tr)*
8. *J.Lathan. (Why STEAM is so Important to 21st Century Education https://onlinedegrees.sandiego.edu/steam-education-in-schools/*

9. *Polat, Ö. & Bardak, M. (2019). Erken Çocukluk Dönemde STEM Yaklaşımı. İnternational Journal of Social Science Research, 8 (2), 18-41. International Journal of Social Science Research» Makale» Erken Çocukluk Döneminde STEM Yaklaşımı (dergipark.org.tr)*
10. *STEAM Eğitiminde Sanatın Önemi. STEAM Eğitiminde Sanatın Önemi - ViewSonic Library*
11. *Ültay, N., Emeksiz, N. & Durmuş, R. (2020). STEAM Yaklaşımına İlişkin Örnek Bir Uygulama ve Uygulama Hakkında Öğrenci Görüşleri. Fen Bilimleri Öğretimi Dergisi, 8 (1), 1-17. Retrieved from https://dergipark.org.tr/tr/pub/fbod/issue/71986/1157973*
12. *Üret.A. (2019). Stem eğitiminin anaokuluna devam eden 5 yaş çocuklarinin yaraticilik düzeylerine etkisi. STEM eğitiminin anaokuluna devam eden 5 yaş çocuklarının yaratıcılık düzeylerine etkisi (yildiz.edu.tr)*

**Z.F.Namazova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***zarifanamazova19@gmail.com***

# KOLLEGİAL İDARƏETMƏ ORQANLARININ FƏALİYYƏTİ

***Xülasə***

*Təhsil müəssisələrində pedaqoji prosesin keyfiyyətinin yüksəldilməsi üçün kollegial orqanların fəaliyyəti vəhdət təşkil edir. Qəbul edilən qərarlar, söylənilən fikirlər, rəylər kollektiv adından söylənilməlidir. Kollegial idarəetmə orqanları olan pedoqoji şura, direktoryanı müşavirə, fənn metodbirləşmələri, sinif rəhbərlərinin metodbirləşmələri, həmkarlar komitəsi, valideyn komitəsi, metodik şura və s. orqanlar məktəbdaxili idarəetmədə əsas əhəmiyyətli fəaliyyətə malikdir. Məktəbdə kollegial orqanların fəaliyyətinin səmərəli olması üçün direktor məktəbin təcrübəli müəllimləri ilə məsləhətləşərək onların fikirlərini, rəylərini əsas götürərək, pedoqoji prosesin keyfiyyətinin yüksəldilməsinə çalışır.*

# ДЕЯТЕЛЬНОСТЬ КОЛЛЕГИАЛЬНЫХ ОРГАНОВ УПРАВЛЕНИ

***Резюме***

*Для повышения качества педагогического процесса в образовательных учреждениях деятельность коллегиальных органов образует единство. Принимаемые решения, высказанные мнения и мнения должны быть выражены от имени коллектива. Коллегиальными органами управления являются педагогический совет, директорский совет, предметно-методические объединения, классно-методические объединения, профсоюзный комитет, родительский комитет, методический совет и др. органы имеют основную важную деятельность в управлении школой. Чтобы коллегиальные органы были эффективными в школе, директор консультируется с опытными учителями школы и старается улучшить качество педагогического процесса на основе их мнений и мнений.*

# ACTİVİTY OF COLLEGİAL MANAGEMENT BODİES

***Summary***

*To improve the quality of the pedagogical process in educational institutions, the activity of collegial bodies forms a unity. Decisions made, opinions expressed, and opinions must be expressed on behalf of the collective. Collegial governing bodies are the pedagogical council, the director's council, subject method associations, class leaders' method associations, trade union committee, parent committee, methodological council etc. bodies have the main important activity in school administration. In order for the collegial bodies to be effective in the school, the*

*director consults with the school's experienced teachers and tries to improve the quality of the pedagogical process based on their opinions and opinions.*

***Açar sözlər:*** *pedaqoji şura, təhsil, kollegiallıq, idarəetmə*
***Ключевые слова:*** *педагогический совет, образование, коллегиальность, администрация*
***Key words:*** *pedagogical council, education, collegiality, management*

Təhsil sisteminin əsas istiqaməti hərtərəfli biliyə, bacarığa, praktik hazırlığa, yüksək mədəniyyətə, məsuliyyət hissinə, mütərəqqi dünyagörüşə malik dəyərlərə sahib olan şəxsiyyət formalaşdırmağa yönəlmişdir. Xalqımız və dövlətimiz dərin biliklərə yiyələnən, dinamik inkişafda olan, vətənini, millətini sevən, intellektual səviyyəli, demokratikliyinə görə dünyanın, ən qabaqcıl ölkələrinin vətəndaşları ilə rəqabət qabiliyyətli sağlam yurddaşlar yetişdirmək arzusundadır. Təşkilatı işin məzmunu müəllim və şagirdlərin, pedaqoji kollektivin, valideynlərin və geniş ictimaiyyətin bir-birinə qarşılıqlı münasibətlərinin xarakteri ilə müəyyənləşdirilir. Bunun üçün idarəetmədə iştirak edən şagird, müəllim və digərlərini yaradıcı fəaliyyətə istiqamətləndirmək üçün onların qarşılıqlı işinin təşkilinə nail olmaq gərəkdir. Onların nəzəri və praktiki biliyini artırmaq, fəaliyyətindəki yaradıcılığından istifadə etmək, müstəqil düşünməsi üçün şərait yaratmaq əsas şərtlərdən ibarətdir.

Bu gün təhsil məzmun cəhətdən tərbiyə və təlim komponentlərinin qırılmaz bağlılığından ibarət olmaqla, vahid proses kimi, ilk növbədə, fərdin cəmiyyət üçün vətənpərvər, tələbyönümlü, mədəni-intellektual səviyyəli vətəndaşa çevrilməsinə istiqamətlənmiş dövlət əhəmiyyətli şərəfli bir missiyanı yerinə yetirən dəyər kimi qəbul olunur.

Kollegiallıq məsələyə dərin və hərtərəfli düşünərək yanaşmağı təmin edir. Ümumtəhsil məktəblərinin idarəolunmasında pedaqoji şəraiti elmi cəhətdən qiymətləndirmək, təlim-tərbiyənin nəticələrini əvvəlcədən duymaq, işdə əsas məsələləri kollegial müzakirə edib qərar qəbul etmək, bütövlükdə düzgün yanaşma ilə işləri vaxtında icra etmək əsas məsələ kimi qarşıda durur. Müasir məktəbə ayrı-ayrı sahələrdən ibarət bütöv bir sosial pedaqoji sistem kimi baxılır, bu sistem məktəbin daxilində təşkil olunmuşdur və xarici mühitlə də müəyyən əlaqəyə malikdir. Məktəbi idarə edənlər və idarə olunanlar qarşılıqlı sistemdə bütövləşir. Məktəbin rəhbərlərini və pedaqoji kollektivi birləşdirən idarəedici yarımsistem aparıcı rol oynayır. Pedaqoji idarəetmə mahiyyət etibarı müəyyən fikri ifadə edir.

Məktəb direktoru təlim-tərbiyə işlərinə pedaqoji şura vasitəsilə rəhbərlik edir və pedaqoji şuranın sədridir. Məktəb direktoru məktəbin idarə olunması və rəhbərlik üçün şəxsi məsuliyyət daşıyır. Məktəb direktoru yüksək ixtisaslı mütəxəssislər içərisindən seçilirlər. Direktorlar məktəb işini, təhsil

sistemini və öz ixtisaslarını dərindən bilməlidirlər. Onlar müəllim kollektivinə, bütövlükdə məktəbə rəhbərliyi öz üzərinə götürür, məktəbdə bütün təlim tədris proqramlarının yerinə yetirilməsi, şagirdlərin təlimtərbiyə keyfiyyəti, müəllim kadrlarının yüksək ixtisaslı olması üçün məsuliyyət daşıyırlar. Dərslərdə, sinifdənxaric tədbirlərdə olmaq, onları təhlil etmək müavinlərinə, müəllimlərə, metodik kömək göstərmək direktorların vəzifələrinə daxildir. Məktəb direktoru pedaqoji şuranın sədri kimi onun işini planlaşdırır, müəllim kollektivi ilə birlikdə elmi pedaqoji bilikləri valideynlər arasında təbliğ edir. Məktəb direktoru müəllimlərə, işçilərə hörmətlə yanaşır, onların təşəbbüskar və yaradıcılıqla işləmələrinə şərait yaradır. Pedaqoji kollektivin təşkilatçısı olan məktəb direktorunun rolu o vaxt daha çox yüksəlir ki, müəllimlər onun əməyini yüksək pedaqoji mədəniyyət nümunəsi hesab edir, onu uşaqların bilavasitə tərbiyəçisi kimi görürlər XXI əsrdə məktəb direktorunun rolu cəmiyyətimizdə ən vacib rollardan biridir. Direktor gələcəyin yaradılmasında iştirak edir. Uşaq və yeniyetmələrin inkişafı, onların uğurlu şagird, özünəinamlı yaradıcı şəxsiyyət və fəal məlumatlı vətəndaş kimi formalaşmasında məsuliyyət onun üzərinə düşür. Direktorlar inanmalıdırlar ki, təhsil bu gün və gələcəkdə cəmiyyətin və insanların həyatını dəyişə bilər. Direktorlar məktəblərdə tədris prosesində aparıcı mövqelərdə durur. Onlar təhsil ideyasını inkişaf etdirmək üçün şagirdləri, müəllim və valideynləri öz arxasınca aparırlar. Direktorlar bütün şagirdlərin yaxşı təhsil nəticələri almasını təmin etmək üçün vətəndaşların geniş əhatə dairəsi ilə əməkdaşlıq edirlər. Onlar məharətlə müəllimlər arasında əməkdaşlıq mühiti yaradır və dəstəkləyirlər. Direktorlar yaradıcı və innovativ həllərin axtarışında həmkarları ilə əməkdaşlıq etməyi, bütün şagirdlərin keyfiyyətli nəticələr əldə etməsi üçün mürəkkəb, qeyri-müəyyən, problemli situasiyalarda işləməyi bacarmalıdırlar.

Məktəbdə təlim-tərbiyə və metodik işə tədris işləri üzrə direktor müavini rəhbərlik edir. Bu vəzifəyə yüksək ixtisaslı müəllimlərdən biri təyin edilir. O, tədris işinin keyfiyyəti, tədris planı və proqramının yerinə yetirilməsi üçün direktor qarşısında təlimtərbiyə işlərinin yüksək səviyyədə təşkilinə çalışır. Pedaqoji şura məktəb rəhbərinin hesabatını müzakirə edir, metodik və təşkilati məsələlərə dair fikirlər söyləyir.

Pedaqoji şura bir kollektivdə işləyən peşəkarlar şurasıdır. O bilavasitə təlim və təhsil-tərbiyə prosesinin təşkili ilə bağlı məsələləri həll etməli, onu təkmilləşdirmək yollarını müəyyənləşdirməlidir. Pedaqoji şuranın fəaliyyəti ümumtəhsil məktəbinin nizamnaməsi ilə müəyyən olunur. Nizamnaməyə görə pedaqoji şura 3 nəfərdən artıq müəllim olan bütün ümumtəhsil məktəblərində yaradılır. Pedaqoji şura daim fəaliyyət göstərən orqandır. Pedaqoji şuraya direktor (sədr), onun müavinləri, müəllimlər, tərbiyəçilər, kitabxanaçı, valideyn komitəsinin sədri, məktəb şurasının sədri daxildirlər.

Məktəbdaxili idarəetmənin demokratikləşdirilməsini, hər şeydən əvvəl, məktəb rəhbərləri ilə müəllim-tərbiyəçi, şagird və valideynlər arasında əsil demokratik münasibətlərin inkişaf prosesi kimi başa düşmək lazımdır. Bu yaxın məqsəddir. Demokratikləşdirmənin uzaq məqsədi konkret şəraitdə məktəblilərin təhsili, tərbiyəsi və inkişafı sahəsində maksimum nəticələr alınmasına imkan verən optimal pedaqoji prosesin təşkilidir. Demokratik idarəetmədə təkbaşçılıq və kollegiallığın vəhdəti məsələsi də diskussiya tələb edir. Bundan əlavə, bu səviyyəyə valideyn komitəsinin və ictimaiyyətin nümayəndələrini də aid etmək olar. İctimai özünüidarə orqanları məktəbin təlim-tərbiyə, elmitədqiqat, metodiki, maliyyə-təsərrüfat, kommersiya, iqtisadi, kadr fəaliyyətinə dair səmərəli təkliflər verir və bununla idarəçilikdə iştirak edir. Məktəb şurası təhsil sistemində ictimai özünüidarə orqanı olmaqla, məktəbin ümumi yığıncağı (konfransı) tərəfindən yaradılır. Məktəb şurası öz işini Təhsil Nazirliyinin məktəb şurası haqqında əsasnaməsinə uyğun qurur. Məktəb şurasında rəyasət heyəti və daimi fəaliyyət göstərən komissiyalar tərəfindən işçi qrupu təsdiq olunur. İldə bir dəfə şura, ayda bir dəfə rəyasət heyətinin iclası keçirilir. Komissiyaların planına uyğun olaraq, ayda bir dəfə komissiya iclası keçirilir.

Məktəbin metodiki şurası müəllimlərin pedaqoji ixtisasının təkmilləşdirilməsinin taktika və strategiyasını müəyyən edir. Metodiki şura metodbirləşmələrdə, komissiyalarda müzakirə olunan məsələləri müəyyənləşdirir, seminarların, praktikumların, lektoriyaların proqramlarını, məktəbdə metodiki işin ümumi proqramını işləyib hazırlayır və müzakirə edir.

Metodbirləşmələrin işinin məzmunu çoxcəhətlidir. Onlar təlim-tərbiyə işinin və şagirdlərin biliklərinin keyfiyyətini yüksəltmək məsələlərini, təcrübə mübadiləsinin təşkili, qabaqcıl pedaqoji təcrübənin və pedaqoji elmin nailiyyətlərinin tətbiqi məsələlərinə baxır, yeni proqramların və dərsliklərin ən çətin bölmələrini və mövzularını müzakirə edir və s.

Üç sektordan ibarət olan məktəb şurası daha effektlidir: 1) pedaqoji sektor; 2) valideyn sektoru; 3) şagird sektoru.

1. Pedaqoji sektor kadr məsələləri ilə məşğul olur (dərs yükünü bölür, sinif rəhbərlərini təyin edir, ayrı-ayrı sahələrə məsul şəxsləri təyin edir), müəllimlərin ixtisasını artırmaqla, onların attestasiyası ilə məşğul olur, ictimai nəzarəti həyata keçirir. Pedaqoji sektor pedaqoji şura tərəfindən seçilir.
2. Valideyn sektoru valideyn komitəsini yaradır. Sektor uşaqların qidalanmasına, məktəbin təmiri məsələlərinin həllinə kömək edir, valideynlərin pedaqoji biliklərə yiyələnməsini təşkil edir, valideynlərlə iş aparır, tərbiyəvi tədbirlərin keçirilməsinə kömək göstərir və s. Valideyn sektorunun şurası sinif valideyn komitələrinin nümayəndələrindən seçilir və ümumməktəb valideyn yığıncağında təsdiq olunur.
3. Şagird sektoru şagird komitəsini yaradır.

Uşaq və gənclərin əsas təhsilinin həyata keçirilməsində şagirdlərin elmlərin əsaslarına yiyələnərək, dərin və möhkəm bilik almalarında, onlarda vətənə məhəbbət hissinin aşılanmasında, yüksək milli əxlaqi keyfiyyətlərinin, mənəvi dəyərlərin formalaşmasında, məsuliyyət, intizam tərbiyə edilməsində, məktəblilərin hüquq və estetik, fiziki tərbiyəsində, sağlamlığının qorunmasında məktəbə və ailəyə kömək məqsədi ilə ümumtəhsil məktəblərində valideyn komitəsi yaradılır.

Məktəb valideyn komitəsi ümumməktəb valideyn yığıncağında (konfransında) bir tədris ili müddətinə seçilir. Onun üzvlərinin miqdarı hər sinif valideyn komitəsinin nümayəndələri nəzərə alınmaqla valideyn yığıncağının (konfransının) qərarı ilə müəyyən edilir, komitənin tərkibindən sədr və katib seçilir. Valideyn komitəsi tədris ili üçün iş planı tərtib edir. Sinif valideyn komitəsi iş planını sinif rəhbəri, ümumməktəb valideyn komitəsi və məktəb direktoru ilə razılaşdırır. Valideyn komitəsinin qərarları komitə üzvlərinin yarıdan az olmayaraq iştirak etdiyi iclasda adi səs çoxluğu ilə qəbul edilir. Ümumməktəb valideyn komitəsinin (yığıncağı) ildə iki dəfədən, sinif valideyn yığıncaqları isə ildə 4 dəfədən az olmayaraq çağrılır. Ümumməktəb valideyn komitəsi üzvlərinin rəhbərliyi altında məktəbdə işin ayrı-ayrı bölmələri üzrə müvvəqəti komissiyalar yaradıla bilər. Məktəbin direktoru valideyn komitəsinin qərarı ilə razılaşmadıqda mübahisəli məsələ rayon (şəhər) təhsil şöbələri (idarələri) tərəfindən həll edilir. Valideyn komitəsi öz iclaslarını protokollaşdırır, sənədlər məktəbdə saxlanılır.

Məktəbin kollegial idarəedilməsində müasir İKT-nin tətbiqi daha yüksək nəticələr əldə etməyə zəmin yaradır. Beləki, məktəbdaxili komputer şəbəkəsinin qurulması, elektron jurnal və s. imkanlardan səmərəli istifadə nəticəsində kollegial idarəetmənin operativliyi və nəticələri artmışdır. Hazırda respublikamızda bütün sahələrdə mütəxəssislərin informasiya və kommunikasiya texnologiyaları (İKT) ilə işləmək və onlardan düzgün istifadə etmək bacarığına çox böyük önəm verilir. Hamı razılaşar ki, İKT savadı olmayan şəxsin bu gün dövlət və ya özəl sektorlarda perspektivli iş tapması yalnız təsadüf nəticəsində mümkündür. İKT biliyinə mükəmməl yiyələnməyin ən yaxşı yolu isə elə orta məktəbdən başlayır. İbtidai siniflərdən başlayaraq təhsilin İKT əsasında qurulması, şagirdlərə ənənəvi dərslərlə yanaşı ilkin informatik biliklərin öyrədilməsi, məktəblilərin komputerlə, internetlə işləməyə psixoloji hazırlanması uşaqların savadlı və istedadlı kadr kimi yetişməsində çox mühüm rol oynaya bilər.

Bütün kollegial orqanlar idarəetmənin əsasını təşkil edir. Kollegiallıq təhsilin keyfiyyətinə müsbət təsir göstərir. Məktəbi idarə edənin məharəti öz ifadəsini adamlarla ünsiyyət yaratmaq, kollegiallığa üstünlük vermək bacarığında tapır.

***Ədəbiyyat***

1. *Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. Bakı - 2013, 124 səh.*
2. *Azərbaycan Respublikasında "Təhsil haqqında Qanun" Azərbaycan Respublikasının 2009-cu il 19 iyun tarixli qərarı. Bakı: Hüquq ədəbiyyatı 2009. 80 s.*
3. *Hüseynzadə R.L., Pedaqogika. Dərslik. Bakı: Mütərcim, 2021, 488 s.*
4. *Qasımova L.N., Nahmudova R.M. Pedaqogika. Dərslik. Bakı: Ekoprint, 2021, 612 s.*
5. *Abbbasov A.N., Məmmədzadə R., Məmmədli L. Pedaqogika: Müntəxabat. Dərs vəsaiti. Bakı: Mütərcim, 2021, 608 s.*
6. *Allahverdiyeva F.M., Tağıyeva S.S. Pedaqogika. Dərs vəsaiti. Bakı: Elm və təhsil, 218, 408 s.*
7. *Məmmədzadə R.M., Abdullazadə A.A. Menecmnet, marketinq və təhsilin iqtisadiyyatı. (Tədris vəsaiti). Bakı: Müəllim, 2015, 464 s.*

**A.Ə.Ziyadxanova**
**Azərbayca Dövlət Pedoqoji Universiteti**
***ajdan2016@mail.ru***

# ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN STRATEJİ PLANLAŞDIRILMA ƏSASINDA İDARƏEDİLMƏSİ

***Xülasə***

*Strateji planlaşdırma ali təhsil müəssisələrini idarə etmək üçün vacib bir vasitədir və idarəçilərə cari vəziyyətləri qiymətləndirməyə və müəssisəni inkişaf etdirmək üçün strategiyalar hazırlamağa imkan verir. Ali təhsil müəssisələri üçün strateji planlaşdırmanın əsas komponentlərinə baxışın formalaşdırılması, məqsədlərin müəyyən edilməsi, fəaliyyət planlarının yaradılması, fəaliyyətin monitorinqi və qiymətləndirilməsi, zəruri düzəlişlərin edilməsi daxildir.*

*Bu məqalə ali təhsil müəssisələrinin strateji planlaşdırma yanaşmalarından və bu yanaşmaların onların idarəetmə proseslərinə necə inteqrasiya oluna biləcəyindən bəhs edir. Ali təhsil müəssisələrinin strateji planlaşdırma prosesində qurumun missiyası, baxışı, dəyərləri və məqsədləri kimi əsas elementlər müəyyən edilir. Bu elementlər təşkilatın strateji planının əsasını təşkil edir.*

# УПРАВЛЕНИЕ ВЫСШИМ УЧЕБНЫМ ЗАВЕДЕНИЕМ НА ОСНОВЕ СТРАТЕГИЧЕСКОГО ПЛАНИРОВАНИЯ

***Резюме***

*Стратегическое планирование является важным инструментом управления высшим учебным заведением, поскольку оно позволяет администраторам оценивать текущую ситуацию и разрабатывать стратегии развития учреждения. Ключевые компоненты стратегического планирования для высших учебных заведений включают формулировку видения, постановку целей, создание плана действий, мониторинг и оценку эффективности, а также внесение необходимых корректировок.*

*В этой статье рассматриваются подходы к стратегическому планированию высших учебных заведений и то, как эти подходы могут быть интегрированы в их процессы управления. В процессе стратегического планирования высших учебных заведений определяются основные элементы, такие как миссия, видение, ценности и цели учреждения. Эти элементы составляют основу стратегического плана организации.*

# MANAGEMENT OF HİGHER EDUCATİON İNSTİTUTİONS BASED ON STRATEGY

***Summary***

*Strategic planning is important for managing higher education institutions, as it allows administrators to develop strategies to manage current situations and develop the institution. Forming an overview of the main components of the strategy*

*for the higher education institution, planning, setting up action plans, monitoring and calculating the activity, regulating maintenance.*

*This article discusses the strategic planning approaches of higher education institutions and how these approaches can be integrated into their management processes. In the process of strategic planning of higher education institutions, the main elements such as the mission, vision, values and goals of the institution are determined. These elements form the basis of the organization's strategic plan.*

***Açar sözlər:*** *təhsil, strateji planlaşdırma, universitet, idarəetmə*
***Ключевые слова:*** *образование, стратегическое планирование, вуз, управление*
***Key words:*** *education, strategic planning, university, management*

## Giriş

Strateji planlaşdırma prosesində təşkilatın güclü, zəif tərəfləri, imkanları və təhlükələri müəyyən edilir. Bu təhlillər təşkilatın strateji məqsədlərini müəyyən etmək üçün istifadə olunur. Strateji məqsədlər təşkilatın vizyonuna nail olmaq üçün zəruri olan əsas uğur amillərini əks etdirir.

Strateji planlaşdırma prosesi bütün qurumun iştirakını tələb edir və təkcə şura və idarəetmə qrupu tərəfindən deyil, həm də professor-müəllim heyəti, işçilər, tələbələr və digər maraqlı tərəflər tərəfindən həyata keçirilir. Buna görə də strateji planlaşdırma prosesi qurumun bütün maraqlı tərəflərinin fikir və rəyləri alınmaqla həyata keçirilir.

Strateji planlaşdırma məqsədlərin müəyyən edilməsini, onlara nail olmaq üçün tələb olunan resursların müəyyənləşdirilməsini və bu məqsədlərə nail olmaq üçün planın hazırlanmasını əhatə edən bir prosesdir. Bu, hər hansı bir təşkilat üçün vacib bir vasitədir, çünki o, gələcək üçün yol xəritəsini təqdim edir və təşkilatın istədiyi nəticələrə doğru işləməsini təmin etməyə kömək edir.

Strateji planlaşdırmanın əsas komponentlərinə aşağıdakılar daxildir:

- Məqsədlərin müəyyən edilməsi: Strateji planlaşdırmada ilk addım aydın, ölçülə bilən məqsədlər qoymaqdır. Bu məqsədlər real və əldə edilə bilən olmalı və təşkilatın missiyası və vizyonu ilə uyğunlaşdırılmalıdır.
- Resursların müəyyən edilməsi: Məqsədlər müəyyən edildikdən sonra onlara nail olmaq üçün lazım olan resursları müəyyən etmək vacibdir. Bura maliyyə resursları, insan resursları və texnologiya, infrastruktur və obyektlər kimi digər resurslar daxildir.
- Planın işlənib hazırlanması: Resurslar müəyyən edildikdən sonra məqsədlərə nail olmaq üçün plan hazırlanmalıdır. Bu plana hər bir məqsədə nail olmaq üçün addımlar, tamamlanma müddətləri və büdcə daxil edilməlidir. [1, s. 12]

Ali təhsil müəssisələrinin idarə olunması üçün strateji planlaşdırma müxtəlif məqsədlərin, ətraf mühit amillərinin və maraqlı tərəflərin nəzərə alınmasını tələb edir. Plan qurumun kontekstini, missiyasını və əsas dəyərlərini nəzərə alaraq, onun konkret məqsəd və vəzifələrinə uyğunlaşdırılmalıdır. Bundan əlavə, səmərəli icranı təmin etmək üçün büdcə və resursların idarə edilməsi strateji planla sıx uyğunlaşdırılmalıdır. Nəhayət, planın aktuallığını və dəyişən mühitə uyğun olmasını təmin etmək üçün onun monitorinqi aparılmalı və vaxtaşırı qiymətləndirilməlidir.

Ali təhsil müəssisələri bir ölkənin iqtisadi, sosial və mədəni inkişafının təməl daşlarıdır. Ona görə də bu qurumların strateji və effektiv şəkildə idarə olunması vacibdir. Strateji planlaşdırma məqsədlərin müəyyən edilməsini, ətraf mühitin təhlilini və arzu olunan nəticələrə nail olmaq üçün fəaliyyət planının yaradılmasını əhatə edən bir prosesdir. O, ali təhsil müəssisələri üçün mühüm vasitədir, çünki bu, onlara arzuladıqları məqsədlərə çatmaqda kömək edəcək strategiyalar hazırlamağa və həyata keçirməyə imkan verir.

Ali təhsil müəssisələri üçün effektiv strateji planlaşdırmada ilk addım qurumun missiyasını və məqsədlərini müəyyən etməkdir. Bu, qurumun əsas dəyərlərini və məqsədlərini müəyyən etməyi əhatə edir. Bunlar qurulduqdan sonra, qurum arzu olunan nəticələrə nail olmaq üçün zəruri addımları əks etdirən hərtərəfli strategiya hazırlaya bilər. Buraya potensial risklərin və imkanların müəyyən edilməsi, fəaliyyət planının hazırlanması və planın həyata keçirilməsi üçün tələb olunan resursların müəyyən edilməsi daxildir.

Növbəti addım qurumun fəaliyyət göstərdiyi mühiti qiymətləndirməkdir. Bu, təşkilatın məqsədlərinə çatmaq qabiliyyətinə təsir edə biləcək siyasi, iqtisadi, sosial və texnoloji amillər kimi xarici mühitin təhlilini əhatə edir. Bu, həmçinin təşkilatın maliyyə resursları, insan resursları və təşkilati struktur kimi daxili mühitin qiymətləndirilməsini əhatə edir. Bu təhlil quruma potensial təhlükələri və onları həll etmək üçün strategiyaların işlənib hazırlanmasında istifadə oluna biləcək imkanları müəyyən etməyə kömək edəcək [3, s. 32].

Ətraf mühit qiymətləndirildikdən sonra qurum məqsədlərinə çatmağa kömək edəcək strategiyalar hazırlaya bilər. Buraya büdcənin hazırlanması, potensial maliyyə mənbələrinin müəyyən edilməsi və marketinq planının yaradılması daxildir. Qurumun rəqabətli mövqeyini nəzərə almaq və onun rəqabət üstünlüyünü qorumaq və ya təkmilləşdirmək üçün strategiyalar hazırlamaq da vacibdir.

Strateji planlaşdırma prosesinə institutun bütün səviyyələrindən olan maraqlı tərəflər, o cümlədən professor-müəllim heyəti, işçilər, tələbələr, məzunlar və qəyyumlar cəlb edilməlidir. Bu, planın qurumun əsas maraqlı tərəflərinin kollektiv töhfəsini əks etdirməsini və qurumun unikal ehtiyac və məqsədlərinə uyğunlaşdırılmasını təmin edir.

Strateji plan mütəmadi olaraq nəzərdən keçirilməli və aktuallığını qorumaq üçün yenilənməlidir. O, həmçinin qərarları məlumatlandırmaq və qurumun fəaliyyətinə rəhbərlik etmək üçün istifadə edilməlidir.

Strateji planlaşdırma ali təhsil müəssisələrinə öz resurslarını daha yaxşı idarə etməyə, imkanları müəyyən etməyə və onların fəaliyyətlərinin missiya və məqsədlərinə uyğun olmasını təmin etməyə kömək edə bilər. O, həmçinin qurumun öz strateji məqsədlərinə çatmasını və ətraf mühitdəki dəyişikliklərə cavab verməsini təmin etməyə kömək edir [2, s. 29].

Bütün inkişaf etmiş ölkələrdə ali təhsil sistemi dövlətin sosial-iqtisadi strukturunun ən mühüm alt sistemlərindən biri hesab olunur və yüksək ixtisaslı əmək ehtiyatlarını təkrar istehsal edən və bununla da ölkənin dünya bazarında rəqabət qabiliyyətini qoruyub saxlayan strateji sənaye hesab edilir. Davamlı sosial-iqtisadi inkişafın ən mühüm strateji amilə çevrildiyi üçün sənaye cəmiyyətindən informasiya cəmiyyətinə keçiddə ali təhsil xüsusi rol oynayır.

21-ci əsrin əvvəllərində sosial-iqtisadi dəyişikliklər və Azərbaycanın dünyaya inteqrasiya proseslərinə açıq olması ölkəmizin ali təhsil sisteminin fəaliyyəti üçün yeni xarici və daxili mühit formalaşdırdı. Müasir mərhələdə ali təhsilin makromühitinin xüsusiyyətləri arasında aşağıdakı amilləri ayırd etmək olar:

- Sənayenin inkişaf tendensiyası ilə iqtisadi vəziyyətin sabitləşməsi; işçi nəsillərin dəyişməsi, bunun nəticəsində xüsusilə yüksək ixtisaslı kadrlara tələbatın artması;
- Cəmiyyətin inkişafının sənaye formasından postindustrial və ya informasiya cəmiyyətinə keçidi ilə xarakterizə olunan, rabitə əlaqələrinin və məlumatların işlənməsi proseslərinin intensivləşməsi ilə xarakterizə olunan informasiyalaşdırma mərhələsinin başlanğıcı, ali təhsilin keyfiyyətinə dair tələblər;
- Azərbaycanda davam edən ali təhsil islahatı, əsas məqsədi Azərbaycanda ali təhsil sisteminin inkişafı və onun açıq ümumavropa təhsil məkanına inteqrasiyası, keyfiyyətin idarə edilməsinin beynəlxalq prinsiplərinin həyata keçirilməsi zərurətinə səbəb olur. Ali təhsildə elmi dərəcələrin sertifikatlaşdırılması və verilməsi sistemi;
- Dövlət universitetlərinin təcrübəsindən, ən yaxşı ənənələrindən istifadə edən, eyni zamanda öz muxtariyyəti və müstəqilliyinə görə yüksək mobilliyə malik çoxlu sayda qeyri-dövlət universitetlərinin meydana çıxması, bu, bazarda rəqabətin yaranması ilə nəticələnir. Təhsil xidmətlərinin göstərilməsi [4, s. 10].

Beləliklə, ölkənin sosial-iqtisadi sisteminin inkişaf xüsusiyyətləri ali məktəblərin fəaliyyətinə yeni kəmiyyət və keyfiyyət tələbləri qoyur. Müasir mərhələdə dövlət universitetlərinin əsas problemi, bəzən hesab edildiyi kimi, təkcə dövlət büdcəsindən maliyyələşmənin kifayət qədər olmaması deyil, daha

dərin sistem xarakteri daşıyır və universitetlərdə tətbiq olunan metodlar və idarəetmə strukturları arasındakı uyğunsuzluqdan ibarətdir.

Ölkədəki vəziyyətin bu xüsusiyyətləri, keçid iqtisadiyyatının qeyri-sabitliyi, universitetlərin maliyyə və maddi vəziyyəti onları xarici sosial-iqtisadi mühitlə sıx bağlı, qeyri-sabit bazar prosesləri ilə açıq sistemlərə çevirmişdir. Müasir idarəetmə nəzəriyyəsində xarici mühitin qeyri-sabitliyi ilə xarakterizə olunan bazar münasibətlərində açıq sistemlərin idarə edilməsinə məlum bir yanaşma, o cümlədən tranzit iqtisadiyyatda - strateji bir yanaşma var, onun metodları məqsədlərinin müəyyən edilməsi ilə əlaqələndirilir. [5, s. 16]

## Nəticə

Strateji planlaşdırma təşkilatın arzuladığı gələcək vəziyyətinə nail olmaq üçün plan hazırlamaq prosesidir. Bu, məqsədlərin müəyyən edilməsini, onlara nail olmaq üçün tələb olunan resursların müəyyən edilməsini və bu məqsədlərə nail olmaq üçün planın işlənib hazırlanmasını əhatə edir. Strateji planlaşdırma hər hansı bir təşkilat, xüsusən də ali təhsil müəssisələri üçün vacibdir, çünki o, gələcək üçün yol xəritəsini təqdim edir və təşkilatın istədiyi nəticələrə doğru işləməsini təmin edir.

Nəticədə ali təhsil müəssisələri üçün strateji planlaşdırma yanaşmalarının əhəmiyyəti və həyata keçirilməsi vurğulanır. Bu yanaşmanın uğurla həyata keçirilməsi ali təhsil müəssisələrinin həm tələbələrinə, həm də cəmiyyətə daha yaxşı xidmət göstərməsinə şərait yaradacaq.

***Ədəbiyyat***

1. *İqtisadi Nəzəriyyə. Dərslik. Vəliyev T.S., Qafarov Ş.S. Bakı - 2012.*
2. *Proqnozlaşdırma, strateji planlaşdırma, milli proqramlaşdırma. Dərslik. B.H. Kuzık, V.İ. Kuşlin, B. Yakoveç. "İqtisad Unversiteti" nəşriyyatı, Bakı - 2010.*
3. *Doç.Dr.Gürhan Uysal. "Stratejik Yönetim" (Ders notları), Ondokuz Mayıs.*
4. *Prof.Dr.Erol Eren. "Stratejik Yönetim ve İşletme Politikası", Beta Yayınları, İstanbul, 2013.*
5. *Cabbarov R.H., Təhsil müəssisələrinin idarəetmə məsələləri, Bakı - 2011.*

**F.İ.Allahverdiyeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**allahverdiyevafiruze066@gmail.com**

# ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ TƏLİM NƏTİCƏLƏRİNİN KEYFİYYƏTİNİN MONİTORİNQİNƏ MÜASİR YANAŞMALAR

***Xülasə***

*Məqalədə universitetdaxili və müstəqil təhsil keyfiyyətinin monitorinqinin nəzəri əsasları, keyfiyyət reytinqinin müasir yerli və dünya təcrübəsi, təhsil keyfiyyətinin monitorinqi və universitetlərin reytinqi təsvir edilmişdir. Təhsilin keyfiyyətinin monitorinqi üçün dövlət və qeyri-dövlət qurumları arasında qarşılıqlı əlaqənin qurulmasını mümkün edən bir neçə mexanizmlər nəzərdən keçirilmişdir. Həmçinin universitetlər arasında qarşılıqlı əlaqələrin qurulmasının əhəmiyyəti qeyd edilmişdir.*

# СОВРЕМЕННЫЕ ПОДХОДЫ К МОНИТОРИНГУ КАЧЕСТВА РЕЗУЛЬТАТОВ ОБРАЗОВАНИЯ В ВУЗАХ

***Резюме***

*В статье описаны теоретические основы внутривузовского и независимого мониторинга качества образования, современный отечественный и мировой опыт оценки качества, мониторинга качества образования и рейтинг вузов. Рассмотрено несколько механизмов, позволяющих наладить отношение государственных и негосударственных учреждений по мониторингу качества образования. Также была отмечена важность налаживания взаимоотношений между университетами*

# MODERN APPROACHES TO MONITORING THE QUALITY OF LEARNING OUTCOMES IN HIGHER EDUCATION INSTITUTIONS

***Summary***

*The article explains the theoretical basis of intra-university and independent education quality monitoring, the modern experience of local and world quality ratings, monitoring of education quality and ranking of universities. Various mechanisms have been considered that make it possible to establish interaction between state and non-state institutions to monitor the quality of education. The importance of establishing mutual relations between universities was also mentioned.*

***Açar sözlər:*** *təhsilin keyfiyyətinin monitorinqi, daxili monitorinq, monitorinq meyarı, universitet reytinqi*

***Ключевые слова:*** *мониторинг качества образования, внутренний мониторинг, критерий мониторинга, рейтинг вуза*
***Key words:*** *education quality monitoring, inner monitoring, criterion of monitoring, university ranking*

Təhsilin keyfiyyətinin qiymətləndirilməsi və monitorinqi üzrə dünya təcrübəsi institusional, milli, beynəlxalq və qlobal səviyyədə təhsil xidmətləri bazarının təbii inkişafı nəticəsində yaranmışdır. Təhsilin idarə edilməsi nöqteyi-nəzərindən monitorinq fəaliyyəti təlim proseslərinin və nəticələrinin davamlı nəzarəti üçün nəzərdə tutulmuşdur. Bu fəaliyyət həm də universitetlərin keyfiyyətinin yüksəldilməsi, inkişaf tendensiyalarının qiymətləndirilməsi və proqnozlaşdırılması sahəsində ali təhsil müəssisəsinin rəhbərliyi və onun struktur bölmələri tərəfindən səmərəli idarəetmə qərarlarının hazırlanmasına köməklik edir.

Təəssüf ki, hazırda ali təhsil müəssisələrinin keyfiyyətli fəaliyyətinin monitorinqinin vacibliyinə lazımi qiymət verilmir. Eyni zamanda, keyfiyyətin idarə edilməsi prinsiplərindən biri olan "proses yanaşmanın" ardıcıl həyata keçirilməsi təhsil fəaliyyətinin keyfiyyətində nəzarətin mühüm rolunu müəyyənləşdirir.

Ali təhsil müəssisələrinin təhsil xidmətlərinin göstərilməsi subyekti kimi hesab edərək, təhsilin keyfiyyətinin aşağıdakı aspektlərini nəzərə almaq lazımdır [2,s.54]:

- Ali təhsil müəssisələrinin tələbələrinin və məzunlarının bilik, bacarıq, vərdiş və peşə səriştələrinin dövlət təhsil standartlarının tələblərinə uyğunluğu;
- Ali təhsil müəssisələrinin keyfiyyətinin idarə edilməsi çərçivəsində tələbələrin və məzunların peşəkar fəaliyyətlərində səriştələrin təmin edilməsi sistemi.

Birinci aspekt universitetlərin keyfiyyətinin idarə edilməsi sistemi çərçivəsində tədris prosesinin nəticələrinin monitorinqini nəzərdə tutur. İkinci aspektdə isə təlim nəticələrinin keyfiyyətinin ali təhsil müəssisələrinin proseslərinin və resurslarının effektivliyi ilə müəyyən edildiyi əks olunmuşdur. Əgər əvvəllər yerli peşə təhsilində birinci aspektin əhəmiyyəti üstünlük təşkil edirdisə, indi təhsil sahəsində beynəlxalq inteqrasiya proseslərinin qurulması ilə ikinci aspektin rolu sürətlə artmışdır.

Ümumiyyətlə, ali təhsilin keyfiyyətinin monitorinqi dedikdə, bu keyfiyyətin ölçülməsi, qiymətləndirilməsi, təhlili və proqnozlaşdırılması üçün nəzərdə tutulmuş xüsusi sistemin kompleks fəaliyyəti başa düşülür. Hesab edilir ki, belə bir sistem idarəetmənin bütün əsas səviyyələrini əhatə etməlidir.

Qeyd edək ki, daxili monitorinqin məqsəd və vəzifələri aşağıdakı ardıcıllıqla müəyyən edilir:

• Müasir şəraitdə universitetlərin kompetensiyaya əsaslanan yanaşma əsasında gələcək mütəxəssislərin hazırlığının keyfiyyətinin yüksəldilməsi ideyasının realizasiyası;

• Fərdin, innovativ inkişaf edən cəmiyyətin, işəgötürənlərin və beynəlxalq standartların tələblərinə əsaslanan təhsil prosesinin keyfiyyətinin idarə edilməsi.

Xaricdə ali təhsilin keyfiyyətinin təmin edilməsi və qiymətləndirilməsi üsullarının təhlili müxtəlif ölkələrdə fərqli yanaşma və ənənələrdən xəbər verir. Lakin, bununla belə hər bir ölkədə aşağıdakılara xüsusi diqqət verilir [3,s. 87]:

- Təhsil mühiti;
- Tədris prosesi;
- Təlim nəticələri.

Tarixən ali təhsil müəssisələrinin dövlət və cəmiyyət qarşısında məsuliyyətinin dəyərləndirilməsinin "fransız modeli" və tədrisin keyfiyyətinin qiymətləndirilməsinin "ingilis modeli" formalaşmışdır.

Gələcək mütəxəssislərin effektiv peşəkar hazırlıq probleminin həllində bu amillərin rolu böyükdür: məzunların peşəkar kompetensiyalarının effektiv formalaşdırılması; bilik, bacarıq, vərdiş və yaradıcılıq fəaliyyəti; məzunlarda layihə və performans mədəniyyətinin inkişaf etdirilməsi; mütəxəssislərin fasiləsiz innovasiv fəaliyyət hazırlığının təşkili; təhsilin kreativ xarakteri; innovasiv təlim metodları və formalarının tətbiqi və s.[1, s. 56].

Təcrübə, ölkənin beynəlxalq təhsil xidmətləri bazarına daxil olması fonunda, təhsilin keyfiyyətinin monitorinqi üçün dövlət və qeyri-dövlət institutları arasında qarşılıqlı əlaqə sistemlərinin əhəmiyyətli dərəcədə dəyişdirilməsini tələb edir. Bu qarşılıqlı əlaqənin bir neçə mümkün mexanizmlərini nəzərdən keçirdək:

1. Əlavələr mexanizmi. Akkreditasiya modellərinə effektiv əlavələr edərək keyfiyyətin qiymətləndirilməsi məsələləri ilə maraqlanan strukturlarda bu modeli tətbiq etmək olar. Bu cür əlavələrdən ölkədəki universitetlərin qiymətləndirmə üçün xarici ekspertlərə müraciət etdikdə də istifadə edilə bilər. Bu dövlət akkreditasiyasına təsir etməsə də universitetin nüfuzuna təsir edir.

2. Əvəzetmə mexanizmi. Bu mexanizmdə bəzi universitetlər dövlət akkreditasiya göstəriciləri ilə öz qaydalarına uyğun olaraq və təlim keçmiş ekspertlərlə fərqli şəkildə işləyəcəklərini qeyd edir. Əvəzetmə mexanizmi sayəsində akkreditasiya qurumları ilə rəqabət apararaq hansı qurumun daha yaxşı öz vəzifəsini yerinə yetirdiyini göstərmək üçün mübarizə aparırlar.

3. Qəbuletmə mexanizmi rəqabət xarakterli mexanizmindən tərəflərin qarşılıqlı əməkdaşlığı ilə fərqlənir. Əgər rəqabət xarakterli mexanizmdə tərəflər bir-birinə qarşı işləyirdisə, qəbuletmə mexanizmində tərəflər bərabər inteqrasiya edərək birlikdə qabağa irəliləyirlər.

Qəbuletmə mexanizmi bu gün həm proqram, həm də institusional səviyyədə təhsilin keyfiyyətinin qiymətləndirilməsi prosesində xaricdə üstünlük təşkil edir. Burada əsas məqsəd istifadə olunan metodların və qiymətləndirmə nəticələrinin təhsil xidmətləri bazarında bütün maraqlı tərəflər tərəfindən tanınmasına nail olmaqdır. Müasir zamanda tərəflərdən biri təhsilin keyfiyyəti ilə bağlı öz anlayışlarını formalaşdırmağa çalışır. Beləki, işəgötürənlər ilk növbədə məzunların peşəkar səriştələri və onların təhsillərinin sübutu kimi hansı universitetləri bitirdikləri ilə maraqlanırlar. Eyni zamanda, ölkəmizdə bir çox işəgötürənlər, xaricilərdən fərqli olaraq, universitetlərlə qarşılıqlı əlaqələrini məhdudlaşdırırlar. Lakin universitetlər arasında qarşılıqlı əlaqələr qurularaq aşağıdakı halların reallaşdırılması mümkün ola bilər:

- Mütəxəssislərin hazırlanması üçün məqsədli sifariş;
- Məzunların seçimində birbaşa iştirak;
- Tələbələrin təlim prosesində iştirak;
- Ali təhsil müəssisələrinin maddi-texniki bazasının təminatına dəstək;
- Professor-müəllim heyətinin peşəkar səriştələrinin təkmilləşdirilməsi və aparıcı işçilərin, təşkilat rəhbərlərinin müəssisələrin tədbirlərində iştirakı.

Dövlətin ali təhsil müəssisələrinə yanaşması çoxşaxəlidir. Burada tələbələrdə sosial əhəmiyyətli keyfiyyətlərin formalaşması, təhsilin çevikliyi və əlçatanlığı, makroiqtisadi amilləri önəmli sayılır. Universitetlərdə təlimin nəticələrinin keyfiyyətinin monitorinqinə aşağıdakı tələblər qoyulur:

- Təhsilin bütün pillələrində sistemliliyin qorunması;
- Təlimin keçirilməsinin müxtəlif formaları;
- Obyektivlik;
- Differensiasiya - təhsilalanların individul şəxsi keyfiyyətlərinin nəzərə alınması.

Dövlət - ictimai qurumlarının rolu təhsil müəssisələri ilə daimi qarşılıqlı əlaqədə olan bütün tərəflərin maraq və gözləntilərini təmin etməkdir. Təhsilin keyfiyyətinin qiymətləndirilməsinin əsas effekti ondan ibarətdir ki, maraqlı tərəflərin təhsil müəssisəsi ilə qarşılıqlı əlaqə rejimində işləmələri üçün şərait yaradılır. Bu zaman ali təhsil müəssisələrinin inkişafındakı qanunauyğunluqlar müəyyən edilir, onunla bağlı fikirlər bildirilir və inkişaf dinamikasının statistikası hazırlanır. Belə mexanizm xaricdə müəssisənin maliyyə-təsərrüfat fəaliyyətini yoxlayan müstəqil mütəxəssislər tərəfindən həyata keçirilir. Bütün dünyada təhsil auditi çoxstandartlı yanaşmaya əsaslansa da ölkəmizdə bu sistem qurulması üçün təqdirəlayiq addımlar atılmaqda davam edir.

Apardığımız təhlil nəticəsində müəyyən olundu ki, peşəkar yanaşmalar əsasında müəyyən olunan "təhsilin keyfiyyəti" anlayışı dəqiq müəyyən edilməmiş, bu anlayışının dəqiq tərifi verilməmişdir. Bu isə həmin sahəyə müxtəlif yanaşmaların olmasında irəli gəlir. "Təhsil keyfiyyəti" anlayışının

mənasının nəzərdən keçirilməsinin ayrı-ayrı universitet səviyyəsi ilə məhdudlaşdırılması isə vəziyyəti dəyişmir.

"Təhsil keyfiyyəti" anlayışının ümumi strukturu aşağıdakılar aid edilir:

- Təhsilin əsaslarının keyfiyyəti (məqsəd və normalar, vəzifələr, qanunvericilik və normativ bazanın istiqamətləndirilməsi və s.);
- İnsan resurslarının keyfiyyəti (müəllim kadrlarının potensialı; abituriyentlərin və tələbələrin potensialı; idarəetmə işləri ilə məşğul olan kadrların keyfiyyəti);
- İdarəetmə sisteminin keyfiyyəti (təşkilati strukturların keyfiyyəti, idarəetmə texnologiyaları və resursları, keyfiyyətin idarəedilməsi sistemləri, keyfiyyətin qiymətləndirilməsi sistemləri, monitorinq tədqiqatlarının mədəniyyəti və s.);
- Təhsil fəaliyyətinin keyfiyyəti (iştirakçıların mövqeləri və motivasiyası, tədris və tərbiyə fəaliyyətinin təşkili, təhsil texnologiyaları, səmərəlilik və s.);
- Təhsilin təminatının keyfiyyəti (təhsil proqramları, təhsilin məzmunu, resurs təminatı və s.).

Universitetlərdə təhsilin keyfiyyətinin artırılması üçün yuxarıda göstərilən bütün yanaşmalar nəzərə alınaraq tələbə hazırlığının səmərəliliyinə təsir edən proseslərin monitorinqi keçirilməsi məqsədəuyğundur. Bu proseslər "tədris, metodik və təşkilati fəaliyyət, əlavə təhsil və məzunların bölgüsü" ilə bağlıdır.

Müasir təhsilimizdə ali təhsil müəssisələrində pedaqoji fəaliyyətin keyfiyyətinin monitorinqinin ənənəvi yanaşmadan sistemli yanaşmaya keçidi bir sıra çətinliklərlə rastlaşır. Bu, tələbənin monitorinq fəaliyyətinin subyekti rolunda çıxış etmədiyindən və ali təhsil müəssisələrinin fəaliyyətinin qiymətləndirilməsi proseslərindən kənarlaşdırılmasından irəli gəlir. Lakin bu sahədə bir çox irəliləyişlər əldə edilmiş, bir sıra tədbirlər görülərək bu kimi problemlərin aradan qaldırılması yolunda addımlar atılmış və bu sahədə vacib nailiyyətlər əldə edilmişdir.

### *Ədəbiyyat*

1. *Məmmədzadə R. Təhsildə keyfiyyət aparıcı istiqamətlərdən biri kimi, Bakı "Müəllim", 2010, 170 s.*
2. *Həsənova S. Beynəlxalq təcrübədə məktəb fəaliyyətinin dəyərləndirilməsi, Azərbaycan müəllimi, 2011, 10-11 s.*
3. *Baxşəliyeva A.N. Təhsildə monitorinq və qiymətləndirmə, Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, Cild 85, № 4, 2018, 225-229 s.*

4. *Государственная аккредитация СГГА – шаг к совершенствованию деятельности академии / Карпик А.П, Ащеулов, Горбенко С.М., Синякин А.К. // Вестник СГГА. – 2012. – Вып. 2 (18). – С. 125-132.*
5. *Жарников В.Б., Мусихин И.А. Об участии СГГА в международном образовательном проекте «Tempus» // Вестник СГГА. – 2010. – Вып. 1 (12). – С. 190-193.*
6. *Мусихин И.А. Международный студенческий форум «ГЕОМИР-2010» в СГГА // Вестник СГГА. – 2010. – Вып. 2 (13). – С. 155-160.*

**Ş.R.Məmmədova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***sebnem.Memmedova.TTS2123M@adpu.edu.az***

# TƏHSİLDƏ KEYFİYYƏTƏ TƏSİR EDƏN AMİLLƏR

***Xülasə***

*Müasir dövrdə cəmiyyətin həyatında təhsil sahəsi vacib rol oynadığı üçün onun keyfiyyətinin təmin olunması dövlətin prioritet vəzifələrindən biridir. Keyfiyyət anlayışı nəyin daha yaxşı olduğunu təsvir etmək üçün tez-tez istifadə edilən söz kimi qarşımıza çıxır. Təhsil sahəsində keyfiyyət dedikdə, beynəlxalq səviyyədə keyfiyyət göstəricilərinin təhsil sistemində əks olunması nəzərdə tutulur. Təhsildə keyfiyyətə nail olmaq üçün zəruri şərtlər yerinə yetirilməli, ona təsir edən faktorlar müəyyənləşdirilməlidir. Bu məqalədə təhsildə keyfiyyət anlayışı, əsas keyfiyyət faktorları araşdırılır.*

# ФАКТОРЫ, ВЛИЯЮЩИЕ НА КАЧЕСТВО ОБРАЗОВАНИЯ

***Резюме***

*Поскольку сфера образования играет важную роль в жизни общества в современное время, обеспечение его качества является одной из приоритетных задач государства. Понятие качества встречается как слово, часто используемое для описания того, что лучше. Когда мы говорим о качестве в сфере образования, имеется в виду, что показатели качества на международном уровне отражаются в системе образования. Для достижения качества образования необходимо выполнить необходимые условия и определить факторы, влияющие на него. В данной статье рассматривается понятие качества в образовании, основные факторы качества.*

# FACTORS AFFECTING QUALITY IN EDUCATION

***Summary***

*Since the field of education plays an important role in the life of society in modern times, ensuring its quality is one of the priority tasks of the state. The concept of quality comes across as a word often used to describe what is better. When we say quality in the field of education, it is meant that quality indicators at the international level are reflected in the education system. In order to achieve quality in education, the necessary conditions must be met and the factors affecting it must be determined. This article examines the concept of quality and the main quality factors in education.*

***Açar sözlər:*** *keyfiyyət anlayışı, təhsildə keyfiyyət, keyfiyyət faktorları*

***Ключевые слова:*** *понятие качества, качество образования, факторы качества.*
***Key words:*** *concept of quality, quality in education, quality factors*

## Giriş

Təhsil tarix boyu insanların həyatında son dərəcə əhəmiyyətli olmuşdur və günümüzün qlobal çağırışları bu əhəmiyyəti daha da artırır, təhsili dövlətin və cəmiyyətin bir nömrəli prioritetinə çevirir. Bu "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda da öz əksini tapmışdır. Strategiyada təhsilin keyfiyyəti əsas strateji prioritet elan olunub və ümumi təhsil müəssisələrində keyfiyyət göstəricilərinin yaxşılaşdırılması aktual məsələlərdən biri kimi qeyd edilmişdir.

Təhsilin keyfiyyətinin yüksəldilməsi üçün görülən tədbirlər, aparılan işlər sayəsində müəyyən irəliləyişlər və müvəffəqiyyətlər əldə edilir. Cəmiyyətdə inkişaf baş verdikcə təhsilə olan tələblər də artır. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda bu məsələ aşağıdakı kimi qeyd edilmişdir: "Təhsilin keyfiyyət səviyyəsi ölkədə qəbul olunan dövlət təhsil və peşə standartları əsasında beynəlxalq və ümumavropa təhsil sisteminin prinsiplərinə uyğunlaşdırılaraq təhsil pillələri üzrə müvafiq keyfiyyət göstəriciləri sisteminə (təhsil proqramları, abituriyentlərin hazırlıq səviyyəsi, maddi-texniki baza, infrastruktur, informasiya resursları, təhsilverənlərin peşəkarlığı və elmi-pedaqoji səviyyəsi, mütərəqqi tədris texnologiyaları və s.) uyğun olaraq müəyyən edilir və təhsilin keyfiyyət səviyyəsi hər bir tarixi mərhələdə ictimai-siyasi, sosial-iqtisadi, elmi və mədəni inkişafla bağlı tələblərdən irəli gəlir [4]."

### Təhsildə keyfiyyət anlayışı

"Təhsilin keyfiyyəti" anlayışının optimal şəkildə formalaşdırılması "keyfiyyət" anlayışının mahiyyəti ilə birbaşa bağlıdır. İnsanlar həmişə daha yaxşı xidmət tələb etmiş və tələbatlarının, ehtiyaclarının qarşılanması üçün fərqli xidmət və məhsula ehtiyac duymuşlar. Bu baxımdan keyfiyyətin təmin olunması tələbatların ödənilməsi və daha yaxşı xidmətin göstərilməsi kimi də başa düşülür. Keyfiyyət anlayışı aşağıda verilmiş müxtəlif formalarda ifadə oluna bilər:

- Müştərinin qane olmasıdır: məhsul və xidmətin yaxşı olması mövzusundakı məmnunluq dərəcəsidir.
- Məhsul, yaxud xidmətin potensial ehtiyacları ödəmək qabiliyyətinə əsaslanan xüsusiyyətlərinin cəmidir.
- Səmərəlilikdir: işlərini yerinə yetirmək üçün lazımi təhsil almış və ehtiyac duyduqları ləvazimatlarla təmin edilən işçilərdən alınır.

Təhsilin keyfiyyəti cəmiyyəti düşündürən məsələlərdən biri olmuşdur. Təhsildə keyfiyyətlə bağlı bir çox təriflər mövcuddur və bu da anlayışın mürəkkəbliyini göstərir. Effektivlik, səmərəlilik və keyfiyyət terminləri tez-tez sinonim kimi istifadə edilir. Təhsilin keyfiyyəti anlayışı Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsində "keyfiyyət- hər hansı bir obyektin (məhsulun və ya xidmətin) konkret müəyyən olunan və nəzərdə tutulan ehtiyaclara, standartlara cavab vermə qabiliyyətini özündə ehtiva edən xüsusiyyət və əlamətlərin cəmidir" şəklində ifadə edilmişdir [1]. Təhsilin keyfiyyəti əldə olunan nəticələrin əvvəlcədən müəyyən edilmiş standartlara uyğunluq dərəcəsi ilə təyin olunur. Belə ki, hər hansı bir sahədə keyfiyyət müəyyənləşdirilmiş meyarlara uyğunluğu ifadə edir, yəni obyektin halı standartlara nə qədər yaxındırsa, onun keyfiyyəti bir o qədər yüksək hesab edilir.

Təhsilin keyfiyyəti məzunların bilik və bacarıqlarının əmək bazarının tələblərinə uyğun olması, onların real vəziyyətə və inkişaf proqnozlarına əsaslanaraq düzgün qərarlar qəbul etməsi qabiliyyəti deməkdir.

Təhsilin keyfiyyətinə pedaqoji, sosial və iqtisadi kateqoriya kimi yanaşıldığını "təhsil" və "keyfiyyət" anlayışları bildirir. Metodoloji baxımdan təhsilin keyfiyyəti termini yalnız təhsil sisteminin deyil, həmçinin cəmiyyətin inkişafı üçün əhəmiyyət kəsb edən təhsil prosesinin xarakterik bir elementi kimi qəbul edilməlidir.

**Təhsilin keyfiyyətinə təsir edən amillər**

Keyfiyyət termini tez-tez təhsillə bağlı müzakirələrdə istifadə olunur. Lakin bu anlayış təhsillə bağlı müəyyən edilməsi və izahı çətin bir termin kimi qəbul edilir. Təhsil sisteminin qarşısında duran əsas məqsədlərdən biri təhsilin keyfiyyət səviyyəsinin yüksəldilməsidir. Belə hesab edilir ki, keyfiyyət göstəriciləri olmadan daim dəyişən cəmiyyətin artan tələb və ehtiyaclarını ödəmək mümkün deyil. Bu, təhsil sektoruna da aiddir. Keyfiyyət müəyyən edilərkən onun göstəriciləri nəzərə alınmalıdır.

Az'rbaycan Respublikasının "Təhsil haqqında" Qanununda qeyd edilmiş təhsilin keyfiyyət göstəriciləri aşağıda verilmişdir [4]:

- Təhsil proqramları;
- Maddi-texniki baza;
- İnfrastruktur;
- Abituriyentlərin hazırlıq səviyyəsi;
- İnformasiya resursları;
- Təhsilverənlərin səriştəliyi və elmi-pedaqoji səviyyəsi;
- Mütərəqqi tədris texnologiyaları.

Keyfiyyətli təhsilin əldə edilməsinə bir sıra amillər təsir edir. Təhsilin keyfiyyətinə təsir edən amillər sırasında müəllimlərin peşəkarlığı, məktəbin

maddi-texniki təchizatı, direktorların fəaliyyəti, psixoloji mühit, məktəb dərslikləri, məktəblərin sayı, planlaşdırma, qiymətləndirmə, proqram və tədris metodikası var.

**Məktəblərin sayı və maddi-texniki təchizatı.** Təhsilin keyfiyyətinə təsir edən vacib amillərdən biri kifayət qədər məktəblərin olmaması və ya bir məktəbə gələn uşaqların sayının çox olmasıdır. Əhalinin sayı artdıqca məktəblərin bu saya uyğun olmaması təhsilin keyfiyyətinə mənfi təsir edən bir hala çevrilmişdir. Belə ki, məktəblərin sayı az olduğu üçün bir sinifə düşən şagirdlərin sayı çox olur və bu da tədris müddəti üçün nəzərdə tutulan vaxtda bir mövzunun öyrədilməsi işini çətinləşdirir. Tədris prosesi zamanı fərdi yanaşmanın olması vacibdir [2]. Lakin sinifdə şagirdlərin sayının çox olmasını nəzərə alsaq, bunu tam şəkildə həyata keçirmək mümkün deyildir. Belə olduğu halda təhsilin keyfiyyəti aşağı düşür.

**Müəllimlərin peşəkarlığı.** Keyfiyyətə təsir edən digər bir amil müəllimlərin səriştəliliyidir. Təhsildə keyfiyyəti təmin etməkdə və şagirdlərin nailiyyətlər əldə etməsinə kömək etməkdə əsas rol oynayan müəllimlər peşəkar olmalıdırlar. Hər sahədə olduğu kimi, təhsil sahəsində də xidmət keyfiyyətinin yüksəldilməsi peşəkar keyfiyyətin yüksəldilməsini tələb edir. Müəllimlər öz fənnlərini yaxşı bildikdə və tədris etdikdə səmərəlilik və keyfiyyət daha yüksək olar. Əgər ölkə təhsilin keyfiyyətini yüksəltmək istəyirsə, bunu ilk növbədə peşəkar kadrlar hazırlamaqla edə bilər. Müəllimlər təhsil həllərinin innovativ təminatçılarıdır. Müəllimlər məktəbin müəyyənləşdirdiyi məqsədlərinə çatması üçün komanda şəklində işləməli, bir-biri ilə güclü əməkdaşlıq qurmalı və bir-birindən öyrənməlidirlər.

Müəllim-şagird münasibətlərinin düzgün qurulması təhsilin keyfiyyətinə müsbət təsir göstərir. Bu münasibətlərin düzgün qurulması və keyfiyyət əldə etmək üçün müəllimlər bir sıra qabiliyyətlərə malik olmalıdır. Müəllimlər daim yeniliklərə açıq olmalı, öyrənməli, təhsilalanların ehtiyaclarını öyrənməli, onlara dəstək olmalı, sinifdə sağlam mühit yaratmağı bacarmalı, təşkilatçılıq, kommunikativ və öyrətmə bacarıqlarına malik olmalıdır.

**Qiymətləndirmələr.** Tədris prosesinə və təhsilin keyfiyyətinə təsir edən amillərdən biri də qiymətləndirmələrin aparılmasıdır. Qiymətləndirmələr vasitəsilə nəyi öyrənib mənimsədiyini, hansı bacarıqlara yiyələndiyini, təlim-tədris prosesini təkmilləşdirməyə şərait yaradır. Şagirdlərin obyektiv qiymətləndirilməsi təhsilin keyfiyyəti ilə birbaşa əlaqəlidir [3]. Qiymətləndirmə keyfiyyətin cari vəziyyətinin müəyyən edilməsi, onun yaxşılaşdırılması və idarə olunması, pedaqoji prosesin tənzimlənməsi, mövcud çatışmazlıqlar barədə məlumatlar əldə edilməsi və onun maraqlı tərəflərə çatdırılmasında mühüm rol oynayır.

**Fəal təlim metodlarından istifadə.** Təhsilin keyfiyyətinə təsir edən, səmərəliliyi artıran başlıca amillərdən biri də müəllimlər tərəfindən fəal təlim metodlarından istifadədir. Bu metodlardan istifadə edən müəllimlər daim öz üzərində çalışmalı, inkişafa meylli olmalıdır [2].

Fəal təlim metodları bir sıra xüsusiyyətlərinə görə ənənəvi təlim metodlarından fərqlənir. Bu təlim metodlarının istifadə edildiyi, tətbiq olunduğu siniflərdə müəllimlər - fasilitator, yəni bələdçi rolunda, şagirdlər isə axtaran, tətdiqaqlar aparan rolunda çıxış edirlər. Bu təlim metodlarının əsas xüsusiyyətləri aşağıdakılardır:

- Dərs zamanı təhsilalanların qarşısında həll etmələri üçün problemli vəziyyətin yaradılması;
- Dərslərin təşkili zamanı şagirdlərin fəal iştirakı üçün şəraitin yaradılması;
- Şagirdlərin yeni biliklərin sərbəst olaraq qazanması və tətbiq etməsinin təmin edilməsi.

**Köhnə təhsil ənənələrinin saxlanılması.** Təhsil sistemimizdə Sovet təhsil sisteminin ənənələrindən istifadə halları hələ də nəzərə çarpmaqdadır. Əvvəlki təhsil sistemi nəzəriyyələrə əsaslandığında, yalnız şagirdlərin əldə etdiyi biliklərə fokuslanılır, əldə edilmiş bu biliklərin həyati bacarıqlara çevrilməsinə və ya çevrilməməsi isə diqqətdən kənarda qalırdı. Hazırki dövrdə də bir sıra məktəblər bu iş prinsipi ilə işləyir. Bu da təhsilin keyfiyyətinə mənfi təsir edən amillərdən biridir.

Köhnə sistemdə müəllimlər tərəfindən biliklərin, yəni düstur və qaydaların şagirdlər tərəfindən əzbərlənməsi gözlənilirdi. Əzbərçilik şagirdlərin mühakimə etmək qabiliyyətini azaldır. Bəzən əzbərləmək və yadda saxlamaq bir-birilə qarışdırılır. Şagirdlərin çox vaxt hər hansı bir mövzunu əzbərlədiyi, lakin onu qavramadığı, başa düşmədiyi müşahidə edilir. Bu müasir təhsil sisteminin, həmçinin şagirdlərin tələbatlarına tam şəkildə cavab vermir. Müasir dövrdə şagirdlər bilikləri əldə etməklə yanaşı, araşdırmalar edir, öyrəndiklərini tətbiq etməyə çalışırlar. Bu da onlarda bacarıqların, dəyərin, vərdiş və keyfiyyətin formalaşmasına gətirib çıxarır.

## Nəticə

Təhsildə keyfiyyət əldə edilən təcrübə, performans, nəzəri və praktiki biliklər kimi müəyyən edilə bilər. Müasir dövrdə təhsildə keyfiyyətin əldə edilməsi, qorunması və idarə edilməsi ümumtəhsil məktəblərinin qarşılaşdığı əsas problemlərdən biridir. Keyfiyyətin əldə edilməsi və onun qorunub saxlanılması daimi inkişaf tələb edir. Bu baxımdan ölkəmizdə təhsilin keyfiyyətinin yüksəldiməsi məqsədilə bir sıra addımlar atılır. Keyfiyyətli təhsilə nail olmaq üçün ona təsir edən faktorları müəyyən etmək lazımdır:

- Məktəblərin infrastrukturunun müasir tələblərə uyğun olması;

- Müəllimlərin ixtisaslı mütəxəssis kimi yetişdirilməsi;
- Tədris zamanı fəal təlim metodlarından istifadə edilməsi və s. təhsildə keyfiyyəti əldə etmək üçün zəruridir.

***Ədəbiyyat***

1. *Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi, 2018* https://e-qanun.az/framework/39622
2. *Həşimova A. (2022). Təhsilin keyfiyyətinə təsir edən amillər. Azərbaycan məktəbi. № 2(699), səh. 21-28*
3. *Sadiqova S. (2021). Təhsildə əsas keyfiyyət faktorları. Azərbaycan məktəbi. № 2 (695), səh. 73-80*
4. *"Təhsil haqqında" qanun, 2012.* https://e-qanun.az/framework/18343

**R.M.Əliyeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***muxtar1952@mail.ru***

# HEYDƏR ƏLİYEV TƏHSİLİMİZİN KEŞİYİNDƏ

***Xülasə***

*Ulu Öndər Heydər Əliyevin Azərbaycan tarixində və dövlətçiliyinin inkişafında misilsiz xidmətləri olmuşdur. Ümummilli Liderin çoxşaxəli fəaliyyətində təhsil xüsusi yer tutmuşdur. Ulu Öndərin təhsil siyasəti dərin milli mənafelər üzərindən qurularaq ölkəmizin davamlı və dayanıqlı inkişafına xidmət etmişdir. Heydər Əliyev istər Sovet İttifaqı dövründə, istərsə də müstəqilliyin bərpasından sonrakı dönəmdə ölkəmizə rəhbərlik etdiyi zamanlarda həyata keçirdiyi təhsil siyasəti mühüm fundamental və tarixi əhəmiyyətli məqsədləri hədəfləmişdir. Bu strategiyanın kökündə Azərbaycan iqtisadiyyatının, sənayesinin, savadlı əhalinin inkişafına yönəlmiş strateji addımlar, xalqın tarixi, mədəniyyəti, ədəbiyyatı, dili, folkloru, bir sözlə milli yaddaşımızın mühafizəsi və ölkənin gələcəyinə xidmət tuturdu.*

# ГЕЙДАР АЛИЕВ НА СТРАЖЕ НАШЕГО ОБРАЗОВАНИЯ

***Резюме***

*Великий Лидер Гейдар Алиев имел беспримерные заслуги в истории и в развитии государственности Азербайджана. Образование занимает особое место в многогранной деятельности общенационального лидера. Образовательная политика Великого Вождя строилась на глубоких национальных интересах и служила устойчивому и стабильному развитию нашей страны. Образовательная политика, проводимая Гейдаром Алиевым как в период Советского Союза, так и в более поздний период восстановления независимости, когда он руководил нашей страной, была направлена на достижение важных фундаментальных и исторически важных целей. В основе этой стратегии лежали стратегические шаги, направленные на развитие экономики, промышленности, образованного населения Азербайджана, истории, культуры, литературы, языка, фольклора народа, одним словом, на защиту нашей национальной памяти и будущего страна.*

# HEYDAR ALIYEV IN GUARD OF OUR EDUCATION

***Summary***

*The great leader Heydar Aliyev had unparalleled merits in the history and development of the statehood of Azerbaijan. Education occupies a special place in the multifaceted activities of the national leader. The educational policy of the Great Leader was based on deep national interests and served the sustainable and stable development of our country. The educational policy pursued by Heydar Aliyev both during the period of the Soviet Union and in the later period of the restoration of independence, when he led our country, was aimed at achieving important*

*fundamental and historically important goals. This strategy was based on strategic steps aimed at developing the economy, industry, the educated population of Azerbaijan, history, culture, literature, language, folklore of the people, in a word, protecting our national memory and the future of the country.*

***Açar sözlər:*** *Ulu Öndər, dövlətçilik, iqtisadiyyat, təhsil, islahatlar, xaricdə təhsil*

***Ключевые слова:*** *Великий лидер, государственность, экономия, образование, реформы, учеба за границей*

***Key words:*** *Great Leader, statehood, economy, education, reforms, studying in abroad*

Təhsil tarix boyu mövcud olduğu bütün dövrlərdə və dövlətlərdə hər zaman ən tələb edilən sahə olmuşdur. Hələ qədim zamanlardan, antik dövrlərdən etibarən təhsilə nə qədər önəm verildiyini dövrümüzə kimi gəlib çıxmış sənədlərdən, arxeoloji qazıntılar vasitəsilə tapılan artefaktlardan görmək mümkündür. Qədim yunan, çin və başqa bir sıra dövlətlərin müdrikləri, alimləri təhsilə, elmə böyük maraq göstərmiş, onu özlərinin həyat tərzinə çevirmiş və gələcək nəsillərin də nicat yolunu yalnız və yalnız təhsildə görmüşlər. Təhsil təşəkkülün, inkişafın, intibahın özəyidir, məhz özüdür. Azərbaycan da öz təhsil sistemini qurarkən dünyaya inteqrasiyanı əsas faktorlardan biri kimi qəbul etmişdir. Bu strategiyaya milli təhlükəsizliyin mühüm amili kimi yanaşılırdı. İnkişafa gedən yolda isə mütləq digər dünya dövlətləri, onların elm və təhsil, sosial-iqtisadi, mədəni sahələrdə beynəlxalq prinsip və normalara əsaslanmış əlaqələr qurmaq, əməkdaşlıq etmək lazımdır. Növbəti dəfə müstəqillik əldə etdikdən sonra Azərbaycan Respublikası qarşısında həll edilməsi vacib olan bir çox sosial, iqtisadi, siyasi və s. məsələlər dayanırdı. Lakin bütün bunlardan öncə təhsillə bağlı problemləri həll etmək lazım idi. Bunun üçün təxirəsalınmaz tədbirlər görülməyə başlandı. Bu xüsusda Ulu Öndərin respublikaya rəhbərlik etdiyi hər iki (1969-1982, 1993-1998) müddətdə Azərbaycan təhsilinə, təhsil xadimlərinə böyük diqqət və qayğı göstərmişdir. Heydər Əliyevin təhsil ilə bağlı bütün çıxışlarını dinlədikdə onun təhsilə nə qədər önəm verdiyini aydın görə bilərik. Belə ki, "Təhsil cəmiyyətin xüsusi, intellektual cəhətini əks etdirən bir sahədir. Belə halda təhsil sisteminə çox diqqətlə yanaşmaq lazımdır və bu sistemə münasibət çox həssas olmalıdır" deyə vurğulayırdı.

Respublikaya rəhbərliyinin ilk illərindən başlayaraq, təhsillə bağlı məsələləri daim nəzərində saxlamış və bu sahədə ciddi islahatlar həyata keçirmişdir. Bu qayğının nəticəsi olaraq Azərbaycanda çoxsaylı məktəb binaları tikilərək istifadəyə verilmişdir. Həmçinin, ölkədə bir çox yeni ali təhsil müəssisələri açılmışdır. Bununla belə, mövcud olan məktəblərin binaları ya əsaslı təmir olunmuş, ya da tamamilə yenidən tikilmişdir. Ulu öndəri əbəs yerə

"Gənclərin dostu" adlandırmayıblar. 1969-1982-ci illərdə Heydər Əliyevin birbaşa rəhbərliyi ilə hər il yüzlərlə azərbaycanlı gənc o vaxtkı SSRİ-nin müxtəlif ali təhsil müəssisələrində təhsil almaq imkanına sahib olmuşdular. Həmin gənclər Azərbaycan üçün çox vacib olan ixtisaslar üzrə təhsil alırdılar və respublikamıza bacarıqlı mütəxəssislər kimi qayıdırdılar.

Böyük dövlət xadimi, hər şeydən əvvəl, bəşəriyyətin yaxın keçmişinə - yenicə ayrıldığımız XX yüzilliyə son dərəcə sərrast və konkret qiymət verirdi. Özü də bu qiymətləndirmə zamanı ayrı-ayrı siyasi hadisələr, proseslər deyil, müasir dünyamızda insanlığı irəli aparan başlıca amil, daha doğrusu, sürətli elmi-texniki tərəqqi ön plana çəkilir, sonra isə başqa amillər sadalanır. Müasir dünya siyasətinin nəbzini daim öz əlində saxlayan və bəşəriyyətin inkişaf meyllərini dərindən izləyən dahi siyasətçi inteqrasiya və qloballaşmanın getdikcə daha güclü reallığa çevriləcəyini nəzərə alaraq doğma xalqının gələcək taleyindən narahat idi. Bu baxımdan Ulu Öndər çıxış yolunu ilk növbədə Azərbaycanda mövcud olan qüdrətli insan potensialında görür. İnsan amilinə, tarixdə xalqın roluna və zəka potensialına-intellektual potensialına xüsusi qiymət verən, onu önə çəkən dahi siyasətçi bu mühüm problemə tarixi planda yanaşır və xalqının yaradıcı dühasına yüksək qiymət verirdi.

1969-cu ildə Azərbaycan SSRİ-də Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci katibi seçildi və bununla da ali idarəçilik sükanı arxasına keçdi. O, dahiyanə uzaqgörənliklə, dərindən ölçülüb-biçərək ölkənin uzunmüddətli, dinamik və hərtərəfli inkişafını təmin edən kompleks inkişaf proqramları hazırlatdı və dərhal onların icrasına başladı. Xalq ilk addımlarından etibarən Heydər Əliyevə inandı, onu sevdi və arxasınca getdi. Zəngin iqtisadi potensialdan istifadə edərək Azərbaycanı tərəqqi yoluna çıxarmaq siyasəti yeritməyə başladı. Bütün ömrünü doğma xalqına həsr etdi. Böyük siyasətçi iqtisadiyyat və mədəniyyətin müxtəlif sahələrində öz Vətəninin, xalqının inkişafı üçün zəruri olan ən vacib məsələlər barədə əvvəlcə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosu, Mərkəzi Komitənin plenumları, Kommunist partiyasının qurultayları səviyyəsində bir sıra çox mühüm, əlverişli qərarlar qəbul edilməsinə nail olmuşdur. Sonra bu amal uğrunda bütün xalqımızı həmin qərarların icrasına səfərbər edir. Azərbaycanın tərəqqisi uğrunda dayanmadan gecə-gündüz mübarizə aparırdı. Azərbaycanı öz-özünü təmin edə bilən, müstəqil yaşamağa qadir olan və elmi-texniki cəhətdən yüksək tərəqqi etmiş bir ölkəyə çevirmək onun planlarının başında gəlirdi.

1970-1985-ci illər Sovet Azərbaycanının tarixinə ən parlaq quruculuq dövrü kimi daxil oldu. Yeni mütərəqqi sənaye sahələri yaradıldı. Sənayenin inkişaf səviyyəsinə görə bütün respublikanın proporsional inkişafı üçün mühüm tədbirlər görüldü. Elmi-texniki tərəqqinin nailiyyətlərinin, mütərəqqi texnologiyaların istehsalata tətbiqi sahəsində Azərbaycan SSRİ-də qabaqcıl

mövqelərə çıxdı. İstehsal olunan məhsulların keyfiyyət göstəriciləri əvvəlki dövrlərlə müqayisə olunmaz dərəcədə yüksəldi. Bu qısa bir dövr ərzində respublika ərazisində yüzlərlə zavod, fabrik, istehsalat sahələri yaradıldı. 213 iri sənaye müəssisəsi işə salındı. Bir çox mühüm istehsal sahələrinə görə Azərbaycan Sovet İttifaqında aparıcı yerlərdən birini tutmağa başladı. Azərbaycanda istehsal olunan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac olunurdu.

Bundan başqa, 1979-cu ildə birinci kurs tələbələrinin respublika partiya və sovet fəalları ilə görüşündəki nitqində də Heydər Əliyev təhsilin, elmin, savadlı azərbaycanlı gənclərinin olmasını həyati əhəmiyyətli vəzifə hesab edirdi. O deyirdi: “Son on ildə respublikanın ali məktəbləri yeni pilləyə qalxmış, həm kəmiyyət, həm də keyfiyyətcə daha yaxşı inkişaf etmişlər.”

Məlum olduğu kimi, Moskvada Azərbaycan üçün 50 yer ayrılırdı və bu 50 yerin cəmi 20 nəfəri azərbaycanlılar ola bilirdi. Geri qalan 30 yeri isə Azərbaycanda yaşayan digər xalqların nümayəndələri olan gənclər tuturdular. Heydər Əliyevi narahat edən 2 əsas sual var idi. Nəyə görə təqdim olunan 50 yeri azərbaycanlılar tutmamalıdırlar? və niyə görə cəmi 50 yer? Aydın məsələdir ki, istənilən bir xalqı inkişaf etdirmək üçün ilk növbədə onun təhsilini inkişaf etdirmək, savadlı gənclər yetişdirmək lazımdır. 1970-ci ildə Azərbaycandan SSRİ-nin başqa yerlərində oxumağa 50 nəfər göndərilirdisə, 1976-cı ildən sonra bu rəqəm 800-900 nəfər və daha çox olmağa başladı. Təhsil alan tələbələr yüksək ixtisasa yiyələndikdən sonra istər Azərbaycanın, istərsə də SSRİ-nin müxtəlif yerlərində işləyirdilər.

1970-1985-ci illər ərzində Azərbaycanın əldə etdiyi ən mühüm tarixi nailiyyətlərdən biri də xalqın uzaq gələcəyini nəzərdə tutan güclü kadr potensialının, o cümlədən, nadir ixtisaslar üzrə mütəxəssislər ordusunun yaradılması idi. Belə ki, həmin illərdə iqtisadiyyatın sürətli və çoxşaxəli inkişafına uyğun olaraq respublikanın ali və orta ixtisas təhsili şəbəkəsi genişləndirildi. SSRİ-nin 170 qabaqcıl ali məktəblərinə 3500 azərbaycanlı gənc göndərildi. Hər il təhsil almaq üçün Azərbaycandan kənara 800 tələbə yola salınırdı. Hərbi təhsilin inkişafına xüsusi diqqət yetirilirdi. SSRİ-nin kosmik uçuşlara hazırlıq mərkəzində azərbaycanlı gənclərin olmamasından narahatlıq keçirən Azərbaycan rəhbəri gənclərin ali təyyarəçilik məktəblərinə göndərilməsini şəxsi nəzarətinə götürmüşdür.

Azərbaycanın gələcəyi naminə olduqca uzaqgörən və çox cəsarətli addımlar atmağa başladı. Vətənin bütün guşələrində Azərbaycanın haqqı tapdalanmış böyük şəxsiyyətlərinin heykəllərini ucaltdırdı, represiya qurbanı olmuş böyük Cavidi ölümündən illər keçdikdən sonra Vətənə qaytardı, Kerçdə, Krımda həlak olmuş minlərlə azərbaycanlının şərəfinə Sapun Qora yaxınlığında abidə ucaltdırdı. Məhz bu dövrdə Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə, ilk dəfə olaraq, Azərbaycanın görkəmli sənət

adamlarının böyük bir hissəsinə - şairlərimizə, yazıçılarımıza, bəstəkarlarımıza ilk dəfə “Sosialist Əməyi Qəhrəmanı” fəxri adının verilməsi də təkzibolunmaz tarixi faktdır.

Azərbaycan müstəqil olandan sonra ölkəmizin dövlət müstəqilliyini tanıyan ilk olaraq Türkiyə olmuşdur. Azərbaycanla Türkiyənin tarixi qardaşlığının çağdaş örnəklərinin yaradılmasında, ölkəmizdə yeni tipli təhsil sisteminin formalaşmasında müstəsna xidmətləri vardır. Azərbaycan müstəqil olandan sonra Türkiyədən 15 nəfərdən ibarət ixtisaslı mütəxəssislər Azərbaycana göndərildi və müasir təhsilin standartlarına cavab verən indiki təhsil proqramlarını yaratdılar. Bütün bunlar Azərbaycan təhsilinin inkişafına təkan verən işlərin bir qismidir.

Vaxtında və böyük peşəkarlıqla görülən bütün bu tədbirlər nəticəsində xaricə təhsil almağa göndərilən tələbələr Azərbaycan ikinci dəfə müstəqillik əldə etdikdən sonra dövlətin bütün sferalarında öz bilikərini tətbiq etdilər. İllər əvvəl onlar üzərinə qoyulan vəzifələrin öhdəsindən gələ bildilər. Sübut etdilər ki, təhsilli, savadlı gənclər çox qısa müddət ərzində çox böyük işlərə qadirdirlər. O gənclərin sayəsində bu gün Azərbaycanımız günü-gündən çiçəklənir və inkişaf edir. Onları örnək alan gənc nəsil biliklərini təkmilləşdirmək, yeni sərhədlər kəşf etmək və öz xalqına, dövlətinə yararlı olmaq üçün hal-hazırda dünyanın bir çox ali təhsil müəssisələrində yüksək ixtisaslara yiyələnirlər.

***Ədəbiyyat***

1. *Heydər Əliyev “Təhsil millətin gələcəyidir.” Bakı - 2002.*
2. *A.A.Səmədov “Ümummilli Liderimiz Heydər Əliyevin Azərbaycanda təhsilə və təhsil xadimlərinə qayğısı” Gəncə - 2010.*
3. *H.Həmidov “Ulu Öndər Heydər Əliyevin elm və təhsil siyasəti” Bakı - 2008.*
4. *Y.Mahmudov “Heydər Əliyev ideyalarının zəfər yürüşü” Bakı - 2011.*
5. *https://azertag.az/xeber/Azerbaycan_tehsilinin_inkisafi_ulu_onder_Heyder_Aliyevin_adi_ve_fealiyyeti_ile_baglidir-857019*

**T.F.Hüseynzadə**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***tellerhuseynzade@gmail.com***

# PEDAQOJİ TƏCRÜBƏDƏ İŞTİRAK EDƏN TƏLƏBƏLƏRİN QARŞILAŞDIQLARI PROBLEMLƏR

***Xülasə***

*Bu tədqiqatın məqsədi müəllimlik ixtisasından məzun olacaq tələbələrin pedaqoji təcrübə zamanı qarşılaşdığı problemləri müəyyən etməkdir. Tədqiqat qrupunu ADPU-nun Riyaziyyat fakültəsinin 3 ixtisası üzrə (Riyaziyyat müəllimliyi, İnformatika müəllimliyi, Riyaziyyat və İnformatika müəllimliyi) üzrə təhsil alan IV və V kurs tələbələri təşkil edir. Məlumatların toplanılmasında sorğu alətindən istifadə edilmişdir. Tədqiqatın nəticəsində pedaqoji təcrübədə iştirak edən tələbələr təcrübə məktəblərində xüsusi otaqların ayrılmaması, müəllimlərin onları uşaq kimi qəbul etməsi, sinif otaqlarında olan kompüter avadanlıqlarının işləməməsi, fakültə tərəfindən təyin olunan metodistlərin təcrübə məktəbində keçirilən sınaq dərslərdə iştirak etməməsi, təcrübə məktəblərinin uzaq ərazilərdə yerləşməsi kimi problemlərlə qarşılaşdığı müəyyən edilmişdir.*

# ПРОБЛЕМЫ СТУДЕНТОВ, ПРОХОДЯЩИХ ПЕДАГОГИЧЕСКУЮ ОПЫТ

***Резюме***

*Целью данного исследования является определение проблем, с которыми сталкиваются студенты, окончившие педагогическую профессию, во время педагогического стажа. Исследовательскую группу составляют студенты 4 и 5 курсов, обучающихся по 3 специальностям (преподавание математики, преподавание информатики, преподавание математики и информатики) математического факультета АДПУ. Для сбора данных использовался инструмент опроса. В результате исследования было установлено, что студенты, участвующие в педагогическом стаже, сталкивались с такими проблемами, как отсутствие специальных помещений в экспериментальных школах, отношение учителей к ним как к детям, неработающее компьютерное оборудование в классах, методисты назначенные преподаватели не участвуют в пробных уроках, проводимых в экспериментальной школе, и о расположении экспериментальной школы в отдаленных районах.*

# PROBLEMS FACED BY STUDENTS PARTICIPATING IN PEDAGOGICAL EXPERIENCE

***Summary***

*The purpose of this study is to identify the problems faced by students who have graduated from the teaching profession during their teaching experience. The research group consists of 4th and 5th year students studying in 3 specialties*

*(teaching mathematics, teaching computer science, teaching mathematics and computer science) of the ADPU Faculty of Mathematics. A survey tool was used to collect data. As a result of the study, it was found that students participating in the teaching experience faced such problems as the lack of special facilities in the experimental schools, the attitude of teachers towards them as children, non-working computer equipment in the classrooms, methodologists Assigned teachers do not participate in trial lessons, conducted in the pilot school, and the location of the pilot school in remote areas.*

***Açar sözlər:*** *pedaqoji kadr hazırlığı, pedaqoji təcrübə, qarşılaşılan problemlər*

***Ключевые слова:*** *подготовка педагогических кадров, педагогический опыт, возникающие проблемы*

***Key words:*** *teaching staff training, pedagogical experience, emerging problems*

## Giriş

Pedaqoji təcrübə şübhəsiz ki, tələbələrin xidmətdən əvvəlki mühüm təcrübələrindən biridir və sonuncu kurs tələbələrinin müəllim olmaq yolunda ilkin fəaliyyətidir. Tələbələrin təhsil müddətində nəzəri cəhətdən əldə etdikləri biliyi təcrübə müəlliminin rəhbərliyi və nəzarəti altında planlı şəkildə uyğun müəssisədə tətbiq etməsi təcrübə qazanmasında və öz peşəsini mənimsəməsində çox vacibdir [1].

İstehsalat (pedaqoji) təcrübəsi müəllim namizədləri üçün çox faydalı hesab olunur. Gələcəyin müəllimləri universitetdə təhsillərini davam etdirərkən müəllimlik peşəsinin iş şəraitini görür, müəllimlik peşəsinə hazırlaşır, ən əsası isə təhsil fakültəsində aldıqları nəzəri bilikləri məktəbdə tətbiq etməklə öz sahələrində təcrübələrini artırırlar. Beləliklə, gənc kadrlar təcrübələrini işə başladıqları müəssisə və təşkilatlarda tətbiq etmək üçün ilkin hazırlıq işləri görürlər. Eraslanın araşdırmalarına görə, pedaqoji təcrübə real məktəb və sinif mühiti ilə daha yaxından tanış olmaq, şagirdlərlə təkbətək ünsiyyət qurmaq, şagirdlərin düşüncə səviyyələrini müəyyən etmək, onların bir-biri ilə və müəllimləri ilə sinifdaxili ünsiyyətini başa düşmək üçün faydalıdır [1].

Pedaqoji təcrübə ilk həftədə müəllimlərin dərslərinin tələbələr tərəfindən dinlənilməsi, təyin olunduqları siniflər üzrə sınaq dərslərin plan və proqramının yazılması, sınaq dərslərin təşkil edilməsi, sınaq dərslərin pedaqoq, metodist və fənn müəllimləri tərəfindən dinlənilməsi, rəylərin verilməsi və təcrübə fəaliyyətləri barədə hesabtın verilməsi kimi fəaliyyətlərdən ibarətdir [2].

Azərbaycan Dövlət Pedaqoji Universitetində pedaqoji təcrübə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 19 sentyabr tarixli 221 nömrəli qərarı ilə təsdiq edilmiş “Ali (orta ixtisas) təhsil müəssisələri

tələbələrinin ixtisas üzrə təcrübəsinin keçirilməsi haqqında" Əsasnaməyə uyğun olaraq təşkil olunur. Azərbaycan Dövlət Pedaqoji Universitetində 27.12.2018-ci il tarixli 3/184 nömrəli əmrlə təcrübə komissiyası yaradılmışdır. Bundan başqa təcrübə prosesi üzvlərinin vəzifəsini, tələbələrin təcrübə öhdəliklərini, onların qiymətləndirilməsi meyarları və qaydaları əks olunan "Yaddaş" kitabçası, tələbələrin məktəblərdə təcrübə zamanı icra etdikləri fəaliyyətləri özündə əks etdirən pedaqoji təcrübə gündəliyi tərtib edilmişdir [7].

221 nömrəli əsasnaməyə uyğun olaraq tərtib edilən "Tələbələrin Pedaqoji Təcrübəsinə Dair Yaddaş" kitabçasında qeyd edildiyi kimi pedaqoji təcrübədə iştirak edən tələbələrlə pedaqoq, şagirdlərlə psixoloji iş fəaliyyətini təhlil etmək üçün psixoloq və təcrübə məktəbindən ixtisas üzrə metodist rəhbərlik edir. Pedaqoji təcrübə 14 həftə müddətində həyata keçirlir. İlk həftə ərzində tələbələr siniflər üzrə təyinatı, sınaq dərslərin planlaşdırılması, məktəb sənədləri ilə tanışlıq, sinif rəhbərinin iş planı, tədris işləri üzrə müavinin iş planı, təlim-tərbiyə işləri üzrə müavinin iş planı ilə tanışlıq və s. kimi fəaliyyətləri icra edirlər. Növbəti 13 həftə ərzində isə tələbələr müəyyən etdikləri şagirdlərin psixoloji xarakteristikası, sınaq dərslərin keçirilməsi kimi fəaliyyətləri icra edirlər. Bu fəaliyyət növləri digər fakültə və ixtisaslar üzrə dəyişə bilir.

Pedaqoji təcrübədə iştirak edən tələbələrin keçirdiyi sınaq dərslərin və digər fəaliyyətlərin qiymətləndirilməsi pedaqoq, psixoloq və metodistin iştirakı ilə həyata keçirilir. Əks halda tələbənin fəaliyyəti qiymətləndirilmir. Pedaqoji təcrübə zamanı ixtisas üzrə müəyyən edilən fəaliyyətlər üzrə tələbələr 100 ballıq şkala ilə qiymətləndirilir. Belə ki, tələbə pedaqoji təcrübə davamiyyətinə görə maksimum 10, sınaq dərslərə (məşğələlərə) görə maksimum 50, pedaqoji işlər üzrə maksimum 15, psixoloji işlər üzrə maksimum 15, hesabata görə isə maksimum 10 bal ilə qiymətləndirilir.

Pedaqoji təcrübə sahəsində qarşıya çıxan problemləri araşdıran tədqiqatlarda əldə edilən ümumi problemlər metodist və pedaqoq tərəfindən yaradılan problemlər, sinif mühiti və material çatışmazlığı, nəqliyyat və vaxt çatışmazlığı, təcrübə məktəbi rəhbərliyinin biganəliyi kimi müxtəlif problemlər müəyyən edilmişdir [1]. Xarici tədqiqatlarda pedaqoji təcrübə zamanı tələbələrin qarşılaşdığı problemləri müəyyən edən araşdırmalara rast gəlinsə də ölkəmizdə bu istiqamətdə hər hansı tədqiqat aparılmamışdır. Riyaziyyat fakültəsində təhsil alan tələbələrin pedaqoji təcrübəyə aid fikirlərini əhatə edən və qarşılaşdıqları problemləri dərindən araşdıran bir araşdırma yoxdur. Bu səbəbdən aparılan bu tədqiqat müəyyən əhəmiyyətə malikdir.

**Metod**

Aparılan keyfiyyət araşdırması üzrə məlumatların toplama aləti olaraq sorğu metodundan istifadə edilmişdir. Sorğu 2022-2023-cü tədris ilində Azərbaycan Dövlət Pedaqoji Universitetinin Riyaziyyat fakültəsi, pedaqoji

təcrübədə iştirak edən sonuncu kurs tələbələri arasında keçirilmişdir. “Google Forms” platforması ilə yaradılan sorğuda tələbələrə qapalı suallarla yanaşı açıq suallar da verilmişdir. Sorğuda 100 nəfər tələbə iştirak etmişdir. Tədqiqatda iştirak edən nümunə kütlənin əsas kütləni tam təmsil etməməsi tədqiqatın nəticəsinin etibarlılığına təsir edir. Sorğuda iştirak edən tələbələrin 14%-i oğlanlar, 86% isə qızlardır.

**Toplanılan məlumatlar**

Aparılan sorğudan alınan nəticələr 2 başlıq altında qruplaşdırılmışdır: Fakültə ilə bağlı problemlər; təcrübə məktəbi ilə əlaqəli problemlər.

**Fakültə ilə bağlı problemlər:**

Pedaqoji təcrübədə iştirak edən tələbələrin 25%-i fakültə tərəfindən təyin olunan pedaqoqun tələbələrin təcrübə məktəbində keçirdiyi sınaq dərslərdə iştirak etmədiyini bildirib. Tələbələrin 20%-i isə sınaq dərslərdə iştirak edən pedaqoqların sınaq dərslər haqqında tələbələrə rəy vermədiyini qeyd ediblər.

Sorğuda iştirak edən tələbələrin 45%-i təcrübə məktəbinin məkan olaraq əlverişli yerdə yerləşmədiyini, uzaq məsafədə yerləşən məktəblərə səfər müddətinin çox olduğunu qeyd edirlər.

**S.İ.34:** “Yaşadığım əraziyə tam yaxın pedoqoji təcrübə olan məktəb var, ancaq mən evimdən 16 stansiya uzaqlıqda yerləşən məktəbə hər gün 2 saat gedib 2 saat qayıtmağa vaxt sərf edirəm”.

**S.İ.45:** “Məsafə çox uzaqdır. Mən Xırdalanda yaşayıram, amma hər gün Həzi Aslanova getmək məcburiyyətindəyəm”.

**Təcrübə məktəbi ilə bağlı problemlər:**

Sorğuda iştirak edən tələbələrin 30%-i təcrübə məktəblərində sinif otaqlarının tədris üçün uyğun olmadığını, xüsusilə kompüter, proyektor və digər texniki qurğular olsa da işləmədiyini bildirib.

**S.İ.19:** “Sinif otaqlarında avadanlıqlar işləmir”.

**S.İ.29:** “Proyektorun olmaması, internetin zəif olması, kompüter çatışmazlığı və kompüterlərin çox zəif olması dərslərdə problem yaradır”.

**S.İ.86:** “Dərs zamanı bəzən texniki avadanlıqlar işləmir”.

Sorğu zamanı tələbələrə məktəbdə başqa hansı problemlərlə üzləşdiyi barədə açıq sual soruşulmuşdur. Tələbələrin 20%-i məktəblərdə təcrübəçilər üçün xüsusi otaqların verilmədiyini qeyd edirlər. Bu isə onların boş dərs saatlarında məktəbin yeməkxanasında və ya koridorlarda qalmasına səbəb olur, yazı və qeydiyyat işləri ilə məğul olmaqlarına mane olduğunu bildirirlər.

**S.İ.49:** “Məktəbdə təcrübəçilər üçün otaq ayrılmadığından, boş dərslər olduqda, yazı yazmalı olduqda, müəllimlər otağından istifadə etməli oluruq. Məktəbdə inanılmaz çox təcrübəçi olduqda, müəllimlər otağı dolu olur və müəllimlər narazıdırlar. Buna görə də müəllimlərin bizə münasibəti mənfidir”.

**S.İ.50:** "Təcrübəçi müəllimlər üçün ayrıca otaq yoxdur".
**S.İ.61:** "Bizə əlavə otaq verilməyib, müəllimlər üçün olan sanitar qovşaqdan istifadə etməyə bizə icazə vermirlər".
**S.İ.65:** "Təcrübəçilərə aid otaq yoxdur".

İştirakçıların 22%-i təcrübəçi tələbələrə məktəb rəhbərliyi tərəfindən geyim məhdudiyyətinin qoyulduğunu bildirib. Qız tələbələr xüsusilə soyuq hava şəraitində ətək geyinməyin onlar üçün rahat olmadığını bildirirlər.
**S.İ.41:** "Geyimə qarışırlar, şalvar geyinməyə icazə yoxdur, bu da bizə çətinlik yaradır."
**S.İ.59:** "Məktəbdə klassik şalvar geyiminə belə icazə yoxdur və bu bizə soyuq havalarda çox pis təsir etdi. Yubka ilə soyuq olur, xəstəlikdən qurtula bilmirik".

Tələbələrin 15%-i isə təcrübə məktəbində fənn müəllimlərinin onlara şagird kimi davrandığını, sınaq dərslərə müdaxilə etdiklərini bildiriblər.
**S.İ.3:** "Bəzi müəllimlər bizə şagird kimi davranır".
**S.İ.42:** "Bəzi fənn müəllimləri dərsə müdaxilə edir".

Tələbələrin 18%-i sınaq dərs günləri olmasa da müəllimlər onları öz dərslərini əvəz etməsini tələb edir, KSQ suallarının yazılması və cavabların yoxlanılması kimi işləri tələb edirlər. Sorğu cavablarına əsasən bu kimi halların xüsusilə ibtidai siniflərdə baş verdiyini qeyd edə bilərik.
**S.İ.32:** "İbtidai siniflərdə müəllim olmur, bizi göndərirlər, summativləri, monitorinqləri bizə yoxladırlar. Summativi bizə hazırlatdırırlar."
**S.İ.35:** "İbtidai sinif müəllimlərini biz əvəz edirik".

## Nəticə

Sorğudan alınan nəticələrə əsasən təcrübə zamanı mövcud olan ən böyük problem təcrübə məktəblərinin tələbələrin yaşayış yerindən uzaq məsafədə yerləşməsidir. Bu tələbələrin həm səfər üçün daha çox vaxt sərf etməsinə, həm də yol xərcinin çox olmasına səbəb olur. Bu problemin həlli olaraq ali təhsil müəssisələri pedaqoji təcrübənin planlama mərhələsində tələbələri təcrübə məktəblərinə təyin edərkən onların yaşayış yerlərini nəzərə almalıdır.

Sorğu iştirakçılarının qeyd etdiyi digər bir məsələ isə pedaqoqların sınaq dərslərdə iştirak etməməsidir. Lakin pedaqoji təcrübə üzrə sənədlər və tədqiqatlara diqqət etsək, pedaqoq rəhbərlik etdiyi tələbələri yeni tədris metodları ilə tanış etməli, tələbələrin sınaq dərslərini izləməklə onların inkişaf etdirməli olduğu məqamları müəyyən etməli və öz rəyini bildirməlidir.

Tələbələrin qarşılaşdığı digər problem isə, təcrübə məktəblərində İKT vasitələrinin çatışmazlığı və mövcud olanların işləməməsidir. Bu isə təkcə tələbələrin sınaq dərslərini təşkil etməsində deyil, eyni zamanda məktəbdə digər fənnlərin tədrisində də problemlərin yaranmasına səbəb olur. Məktəb

rəhbərliyi və texniki işçilər bu kimi problemləri həll etməli, ali təhsil müəssisələri isə əməkdaşlıq etdikləri məktəblərin texniki bazası, şəraiti ilə əvvəlcədən tanış olmalıdır.

Mövcud olan digər bir problem isə təcrübəçi tələbələrə xüsusi otaqların verilməməsidir. Tələbələrin də qeyd etdiyi kimi, tənəffüz zamanı və ya boş dərslərdə müəllimlər otağında sıxlıq yaranır, tələbələr öz yazı işlərini yaza bilmir, müəllimlər isə sıxlıq olduğu üçün şikayətlər edirlər. Bunu nəzərə alaraq məktəb rəhbərliyi və metodist tələbə və müəllim heyətinin rahatlığını təmin etmək üçün təcrübəçi tələbələrə xüsusi otaqlar ayırmalıdır.

Tələbələrin qarşılaşdığı digər bir problem isə müəllimlərin onlara şagird kimi yanaşmasıdır. Məktəb rəhbərliyi və metodist tərəfindən müəllim kollektivinə ümumi vəziyyət izah edilməli, təcrübəçilərin şagird deyil, artıq onların həmkarları olduğunu vurğulamalıdırlar. Bu məsələ isə məktəb rəhbərliyi və metodistin nəzarəti, müəllim kollektivinə ümumi vəziyyəti izah etməklə həll edilməlidir.

Tədqiqat nəticələrinə diqqət etdikdə pedaqoji təcrübə zamanı tələbələrin bir çox problemlərlə qarşılaşdığını görürük. Mövcud problemlərin həll edilməsi məqsədilə pedaqoji təcrübənin daha keyfiyyətli olması üçün necə təşkil və nəzarət edilməli olduğu barədə araşdırmalar aparılmalıdır. Pedaqoji təcrübə ilə bağlı aparılan bu tədqiqat problemlərin aşkar edilməsində kiçik bir nümunədir və bu tədqiqatın nəticələri və tövsiyələrinin gələcək tədqiqatlarda nəzərə alınacağına ümid edirik.

***Ədəbiyyat***

1. *Furkan Aydın, Özcan Erkan Akgün (2014). Eğitim Fakültesi BÖTE Son Sınıf Öğrencilerinin Okul Deneyimi Ve Öğretmenlik Uygulaması Derslerinde Karşılaştıkları Sorunlar. Sakarya Üniversitesi Eğitim Fakültesi Dergisi, 2014; (28): 1-14.*
2. *Meliha YILMAZ (2006). Resim-İş Eğitimi Öğretmen Adaylarının Okul Deneyimi I Uygulamalarında Karşılaştıkları Sorunlar.*
3. *Mustafa Kale (2011). Öğretmen Adaylarının Öğretmenlik Uygulaması Dersinde Karşılaştıkları Sorunlar.*
4. *Təhsil Qanunu (2009).*
5. *Turan Paker (2008). Öğretmenlik Uygulamasında Öğretmen Adaylarının Uygulama Öğretmeni ve Uygulama Öğretim Elemanının Yönlendirmesiyle İlgili Karşılaştıkları Sorunlar.*
6. *Yrd. Doç. Dr. Zarife Seçer, Yrd. Doç. Dr. Nadir Çeliköz, Arş. Gör. Gökhan Kayılı (2010). Okul Öncesi Öğretmenliği Okul Uygulamalarında Yaşanan Sorunlar Ve Çözüm Önerileri.*
7. *https://adpu.edu.az/index.php/az/*

**R.Ü.Həsənzadə**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*hesenzaderasim88@gmail.com*

# AZƏRBAYCANDA TƏHSİL MÜƏSSİSƏLƏRİNİN AKKREDİTASİYA QAYDALARININ ESG SƏNƏDİNİN XARİCİ KEYFİYYƏT TƏMİNATINA DAİR STANDARTLARI VƏ TƏLİMATLARI ÖZÜNDƏ ƏKS ETDİRMƏSİ VƏZİYYƏTİNİN TƏHLİLİ

***Xülasə***

*Elm və texnologiyanın inkişafı cəmiyyətdə bütün sahələri dəyişikliyə sövq edir. Təhsilin dəyişilməz rolunu nəzərə alaraq, ölkəmizdə təhsil müəssisələrinin akkreditasiyasının həyata keçirilməsinə məsul qurum olan Təhsildə Keyfiyyət Təminatı Agentliyi beynəlxalq standartlara uyğun keyfiyyət təminatı proseslərini təşkil etməlidir. Avropa Ali Təhsil Məkanında keyfiyyət təminatı üçün ortaq anlayışı yaratmaq məqsədilə hazırlanmış "Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və təlimatlar" sənədi təhsil müəssisələri və keyfiyyət təminatı agentlikləri üçün əsas istiqamətverici sənəddir. TKTA beynəlxalq təşkilatların tamhüquqlu üzvü olmaq, təhsil müəssisələri isə öz aralarında mobilliyi asanlaşdırmaq, keyfiyyət təminatı sisteminlərini təkmilləşdirmək üçün bu sənədin tələblərini əsas götürməlidir. Məqalədə Azərbaycanda təhsil müəssisələrinin akkreditasiya qaydalarının sözügedən sənədin tələblərinə uyğunluğu araşdırılmış, çatışmazlıqlar müəyyən edilmişdir.*

# АНАЛИЗ СИТУАЦИИ, КОГДА ПРАВИЛА АККРЕДИТАЦИИ ОБРАЗОВАТЕЛЬНЫХ УЧРЕЖДЕНИЙ В АЗЕРБАЙДЖАНЕ ВКЛЮЧАЮТ СТАНДАРТЫ И МЕТОДИЧЕСКИЕ УКАЗАНИЯ ПО ВНЕШНЕМУ ОБЕСПЕЧЕНИЮ КАЧЕСТВА ДОКУМЕНТА ESG

***Резюме***

*Развитие науки и техники приводит к изменениям во всех сферах жизни общества. Принимая во внимание незаменимую роль образования, Агентство по обеспечению качества в образовании, отвечающее за осуществление аккредитации образовательных учреждений в нашей стране, должно организовать процессы обеспечения качества в соответствии с международными стандартами. Документ «Стандарты и рекомендации по обеспечению качества в Европейском пространстве высшего образования», разработанный с целью создания общего понимания обеспечения качества в Европейском пространстве высшего образования, является основным руководящим документом для образовательных учреждений и агентств по обеспечению качества. ТКТА должен основываться на требованиях этого документа, чтобы стать полноправным членом международных организаций, а*

*образовательные учреждения должны способствовать мобильности между собой и совершенствовать системы обеспечения качества. В статье исследовано соответствие правил аккредитации учебных заведений в Азербайджане требованиям упомянутого документа и выявлены недостатки.*

# ANALYSIS OF THE SITUATION OF ACCREDITATION RULES OF EDUCATIONAL INSTITUTIONS IN AZERBAIJAN REFLECTING ESG DOCUMENT EXTERNAL QUALITY ASSURANCE STANDARDS AND INSTRUCTIONS

***Summary***

*The development of science and technology leads to changes in all areas of society. Taking into account the irreplaceable role of education, the Agency for Quality Assurance in Education, which is responsible for the implementation of accreditation of educational institutions in our country, should organize quality assurance processes in accordance with international standards. The "Standards and Guidelines for Quality Assurance in the European Higher Education Area" document, developed in order to create a common understanding of quality assurance in the European Higher Education Area, is the main guiding document for educational institutions and quality assurance agencies. TKTA should be based on the requirements of this document in order to become a full-fledged member of international organizations, and educational institutions should facilitate mobility among themselves and improve quality assurance systems. In the article, the compliance of the accreditation rules of educational institutions in Azerbaijan with the requirements of the mentioned document was investigated, and the shortcomings were identified.*

***Açar sözlər:*** *akkreditasiya, daxili keyfiyyət təminatı, xarici keyfiyyət təminatı, ESG*

***Ключевые слова:*** *аккредитация, внутреннее обеспечение качества, внешнее обеспечение качества, ESG*

***Key words:*** *accreditation, internal quality assurance, external quality assurance, ESG*

## Giriş

Avropa ölkələri arasında ali təhsildə verilən kvalifikasiyaların müqayisəliliyini təmin etmək üçün aparılan görüşlərin nəticəsində İngiltərə, Fransa, İtaliya, Almaniya təhsil nazirləri 1998-ci ildə Sorbonna Bəyannaməsi ilə Avropa Ali Təhsil Məkanının yaradılması ideyasını təklif etdilər. 1999-cu ildə 29 Avropa ölkəsinin təhsil nazirləri tərəfindən imzalanmış Boloniya Bəyannaməsi ilə "Boloniya Prosesi" rəsmi olaraq başlamışdır [1, s.10].

Boloniya Prosesinin hədəfləri arasında hüquqi tanınma və bürokratik maneələri aradan qaldıraraq mobilliyi təşviq etmək, keyfiyyət təminatı

sahəsində Avropa əməkdaşlığını inkişaf etdirmək, aydın və müqayisə edilə bilən dərəcə/səviyyə sisteminin tətbiq edilməsi, kredit sisteminin (ECTS) yaradılması kimi məqsədlər yer alırdı.

Ölkəmizdə bu sahədə aparılan işlərə nəzər yetirsək, görərik ki, "Boloniya Prosesinə qoşulduqdan sonra təhsil müəssisələri üçün keyfiyyət təminatı və akkreditasiya prosesləri xüsusi önəm qazanmışdır. Beləliklə, təhsil sisteminin müasir tələblərə uyğun davamlı inkişafını təmin etmək zərurətindən 2019-cu ildə yaradılan Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (TKTA) fəaliyyəti nəticəsində Azərbaycanda ali təhsil müəssisələrində keyfiyyətin təmin olunması ilə bağlı proseslər yeni mərhələyə qədəm qoymuşdur. Agentliyin fəaliyyətinin məqsədi ölkəmizdə effektiv keyfiyyət təminatı sisteminin fəaliyyətini təşkil etməkdən, keyfiyyət nəticələri və əhatəliliyinə görə dünya ölkələri sırasında qabaqcıl mövqe tutan təhsil sisteminin formalaşdırılmasından ibarətdir. Təhsil müəssisələrinin akkreditasiyasını həyata keçirmək, bu prosesin həyata keçirilməsi üçün tövsiyələr hazırlamaq və təlimlər təşkil etmək, təhsil müəssisələrində daxili keyfiyyət təminatı sistemlərinin qurulması və inkişaf etdirilməsi ilə bağlı məsləhət və metodiki dəstək xidmətləri təşkil etmək, təhsil sisteminin və bu sahədə dövlət standartlarının davamlı inkişafını, təhsil müəssisələrinin nüfuzunun və mütəxəssis hazırlığının keyfiyyətinin artırılmasını təşviq etmək, müvafiq sahədə qabaqcıl beynəlxalq təcrübəni öyrənmək və tətbiq etmək kimi agentliyin fəaliyyət istiqamətlərinə daxildir [4].

Agentlik Azərbaycanda və beynəlxalq səviyyədə qəbul edilmiş standartlara əsaslanan ali, orta ixtisas və əlavə təhsilin keyfiyyətinin müstəqil qiymətləndirilməsi sahəsində peşəkar qurumdur [5]. TKTA həm yerli, həm də beynalxalq əməkdaşlıqlara xüsusi önəm verir və Azərbaycan ərazisində yerləşən təhsil müəssisələri, eləcə də digər hökumət və qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq edir. Hələ 2017-ci ildən Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Avropa Ali Təhsil Məkanında Keyfiyyətin Təminatı üzrə Assosiasiyaya (ENQA) müşahidəçi üzv statusu əldə etmişdir. Avropanın aparıcı akkreditasiya qurumlarını birləşdirən ENQA-da təmsil olunmaq ölkəmizə Avropa Ali Təhsil Məkanında təhsilin keyfiyyətinin yüksəldilməsi istiqamətində müzakirələrdə yaxından iştiraka imkan yaradır. Bunun nəticəsində TKTA-ya Avropa Ali Təhsil Məkanına daha da yaxınlaşmaq və Keyfiyyətin Təminatı üzrə Avropa Standartları və Təlimatlarına (ESG) cavab verən keyfiyyət təminatı və akkreditasiya sistemini qurmağa şərait yaradır.

Boloniya prosesini diqqətlə izləyən və ona xüsusi töhfə verən ENQA, ESU, EURASHE kimi təşkilatlar tərəfindən 2005-ci ildə müxtəlif ölkələrdə ATM-lər arasında tədris prosesində keyfiyyət təminatına dair vahid anlayışın hazırlanması, eyni zamanda ali təhsildə daxili və xarici keyfiyyət təminatı üzrə standartlar toplusu yaratmaq məqsədilə Avropa ali təhsil məkanında keyfiyyət

təminatı üzrə standartlar və təlimatlar (bundan sonra ESG) sənədi hazırlanaraq müxtəlif ölkələrin təhsil nazirlikləri tərəfindən qəbul olunmuşdur. İnkişaf edən və sürətlə dəyişən dünyada ali təhsil də inkişafdan qalmadığından, 2015-ci ildə ESG sənədi daha da təkmilləşdirilmişdir. Tədqiqatımızda təhlil aparılarkən əsas və son təkmilləşdirimiş sənəd olan 2015-ci ildə qəbul edilən ESG müdəaları nəzərə alınmışdır.

Sənədin qəbul olunması nəticəsində Boloniya prosesində keyfiyyət təminatı, kvalifikasiyaların tanınması kimi sahələrdə mühüm irəliləyişlər özünü göstərmişdir. ESG tədris prosesinin təşkili və ATM-lərdə keyfiyyətin səmərəli şəkildə davam etdirilməsi və təkmilləşdiriməsi üçün əsas istiqamətlər üzrə təlimat verməklə yanaşı, Avropada təhsil xidmətləri göstərən bütün ATM-lərə şamil olunur. Əlavə olaraq, ESG sənədinin xarici keyfiyyət təminatına məsul olan agentliklər və ATM-lər tərəfindən daxili və xarici keyfiyyət təminatı sistemlərinin qurulması üçün əsas istinad olunacaq sənəd kimi istifadə edilməsi tövsiyə edilir.

Onu da qeyd etmək yerinə düşər ki, ESG keyfiyyət standartlarını müəyyən etmir, yalnız ali təhsildə tədris prosesi və keyfiyyətin uğurlu şəkildə təmin olunması üçün əsas olan sahələr üzrə istiqamət verir [2, s.4].

ESG sənədində yerli və beynəlxalq səviyyədə təhsil üzrə keyfiyyət təminatı sistemləri üçün vahid çərçivə formalaşdırmaq, ali təhsildə keyfiyyətin yüksəldilməsi və davamlılığına şərait yaratmaq; ATM-lər arasında diplomların tanınması və mobillik məsələlərində kömək etmək, ATM-lərin və agentliklərin keyfiyyət təminatı üzrə fəaliyyətlərinin təkmilləşdirilməsi məqsədilə onların bu sahədə zəruri məlumatları əldə etməsinə imkan yaratmaq kimi bir neçə məqsəd və prinsipləri olduğu qeyd olunmuşdur.

Qeyd olunan bu prinsiplər müxtəlif ölkələrdə ATM-lərə və agentliklərə hər birinin ESG-dən müxtəlif formalarda istifadə etmək üçün istiqamət verir. Beləliklə, təhsil məkanında ali təhsil sistemlərinin, sosial mədəni və təhsil ənənələrinin fərqli meylləri özünü tam şəkildə büruzə verir.

ESG sənədində Keyfiyyət təminatı üçün standartlar üç hissədən ibarətdir:

1. Daxili keyfiyyət təminatı;
2. Xarici keyfiyyət təminatı;
3. Keyfiyyət təminatı agentlikləri.

Vurğulamaq lazımdır ki, göstərilən 3 standart bir-biri ilə yaxından əlaqəlidir və birlikdə keyfiyyət təminatı çərçivəsini formalaşdırır. ATM-lərin daxili keyfiyyət təminatı sahəsində apardığı işlərin xarici keyfiyyət təminatı standartlarına uyğun olması xarici keyfiyyət təminatı standartlarının (ikinci hissə) daxili keyfiyyət təminatı standartlarını (birinci hissə) tanımasına şərait yaradır. Beləliklə, 3-cü hissədə (Keyfiyyət təminatı agentlikləri) qeyd olunan standartlar 2-ci hissədə (Xarici keyfiyyət təminatı) əks olunmuş standartlarla

yaxından bağlıdır. Nəticədə, yuxarıda qeyd olunan üç komponent ATM-lərdə və agentliklərdə bir-birini tamamlayır. Bir sözlə, bu üç hissə bütövlükdə bir tam olaraq qavranılır.

**Akkreditasiya qaydalarının və ESG sənədinin standartları və təlimatlarının müqayisəli təhlili**

Ölkəmizdə akkreditasiya prosesinin beynəlxalq təcrübəyə uyğunlaşdırılması məqsədilə bu sahədə əsas normativ-hüquqi sənəd sayılan "Təhsil müəssisələrinin akkreditasiyası qaydaları"nda Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və təlimatların tələblərinə uyğun müvafiq dəyişikliklər edilərək 2020-ci ildə yeni redaksiyada təsdiq edilmişdir. Bununla yanaşı, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin Kollegiyasının 30 sentyabr 2022-ci il tarixli KQ-05 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə qiymətləndirmə Meyarları" və "Ali təhsil müəssisəsinin proqram akkreditasiyası üzrə qiymətləndirmə Meyarları" da beynəlxalq standartlara uyğun formada hazırlanmış və beləliklə, 2022-2023 tədris ilində ölkəmizdə ali təhsil müəssisələrinin akkreditasiya prosesi başlamışdır.

ESG-də qeyd olunan xarici keyfiyyət təminatı hissəsinə aid qeyd olunan 7 standartının 2020-ci ildə yeni redaksiyada təsdiq edilən "Təhsil müəssisələrinin akkreditasiyası Qaydaları"na uyğunluğuna nəzər salsaq görərik ki, ESG-nin 1-ci standartı olan **"Daxili keyfiyyət təminatının nəzərə alınması"**nın tələbi xarici keyfiyyət təminatının təhsil müəssisəsinin daxili keyfiyyət təminatı sisteminin effektivliyini qiymətləndirməsidir.

Ölkəmizdə bu standartın tətbiqi üçün hüquqi baza mövcuddur. Belə ki, akkreditasiya qaydalarında qeyd olunduğu kimi, təhsil müəssisəsinin qiymətləndirmə prosesindən, yəni akkreditasiyadan keçməsi hər 5 ildən bir həyata keçirilir. Növbəti qiymətləndirmə prosesi təhsil müəssisəsinin akkreditasiyadan uğurla keçməsi barədə təsdiqedici sənədin etibarlılığının bitdiyi sonuncu ildə təşkil edilir. Əgər təhsil müəssisəsi qiymətləndirmə prosesindən uğurla keçərsə, onun fəaliyyətinin 5 il müddətinə uzadılmasına hüquqi təminat yaranır. Qaydalarda göstərildiyi kimi, universitetləri akkreditasiya prosesindən keçirmək Təhsildə Keyfiyyət Təminatı Agentliyinin öhdəliyindədir, belə ki, o müstəqil ekspertlərin seçimini həyata keçirir, ekspert qrupunun əməl edəcəyi əsasnaməni, universitetlərin daxili özünütəhlil hesabatının nümunəvi forması kimi zəruri sənədləri hazırlayıb təsdiq edir [3].

ESG-də 2-ci olaraq qeyd olunan **"Məqsədlərə uyğun metodologiyaların layihələndirilməsi"** standartıdır. Bu standartda xarici keyfiyyət təminatı sistemi ölkələrin normativ-hüquqi aktlarına uyğun şəkildə formalaşdırılaraq, konkret hədəflərinin olmasından, yekun nəticələrin elan olunmasından bəhs edilir.

Bu standartın tələbləri barədə demək olar ki, ölkəmizdə xarici keyfiyyət təminatı sistemi müvafiq qanunvericilik aktlarına uyğun olaraq qurulmuşdur. Akkreditasiya qaydaları Azərbaycan Respublikası "Təhsil haqqında" Qanunun müddəalarına uyğun formada hazırlanmışdır. Əlavə olaraq, qeyd etmək olar ki, akkreditasiya qaydalarında ali təhsil müəssisələrinin və TKTA-nın üzərinə düşən öhdəliklər əvvəlcədən aydın şəkildə müəyyən edilmişdir. ESG-də həmin standartın təlimatlarında qeyd olunan "keyfiyyətin yüksəldilməsi məqsədi ilə ATM-lərin ehtiyaclarının nəzərə alınması" TKTA-nın Nizamnaməsində agentliyin məqsəd və fəaliyyətlərindən biri kimi "təhsil müəssisələrində daxili keyfiyyət mexanizmlərinin qurulması və təkmilləşdirilməsi ilə bağlı dəstək tipli xidmətlər göstərmək" qeyd olunmuşdur. Eyni zamanda akkreditasiya şurasının prosesin yekun nəticəsi ilə bağlı müvafiq müzakirələr təşkil etmək və yekun qərarı elan etmək öhdəliyi olduğunu nəzərə alaraq, qeyd edə bilərik ki, Azərbaycan Respublikasının normativ hüquqi aktlarında ESG-nin bu standartına müəyyən mənada əməl olunur.

ESG-də xarici keyfiyyət təminatın 3-cü standartı olaraq **"Proseslərin həyata keçirilməsi"**ndə xarici keyfiyyət təminatının daxili keyfiyyət təminatının səmərəliliyini qiymətləndirəcək meyarlar əvvəlcədən açıq şəkildə paylaşılmalı, təhsil müəssisəsinə qiymətləndirmə aparacaq müstəqil ekspertlər tərəfindən səfərlər təşkil olunmalı və sonda yekun hesabatın tərtib olunması qeyd olunmalıdır. Ölkəmizdə təhsil müəssisələrinin akkreditasiyası üzrə məsul qurum olan TKTA tərəfindən müəyyən olunan müstəqil ekspertlər qrupundan ibarət akkreditasiya komissiyasının yoxlamasından və universitetlərə yerində səfərdən əvvəl ali təhsil müəssisələrinin daxili özünüqiymətləndirmə hesabatı hazırlanması üçün universitet əməkdaşlarından ibarət komissiyanın yaradılması və özünüqiymətləndirmə hesabatının hazırlanması öhdəliyi qoyulmuşdur, eləcə də universitetin digər öhdəliyi qiymətləndirmə aparan ekspert qrupu ilə bərabər akkreditasiya prosesində yaxından iştirak və proses zamanı komissiya tərəfindən tələb olunan əlavə məlumatları və zəruri sənədləri təqdim etməkdən ibarətdir. Özünütəhlil hesabatı ilə tanış olduqdan sonra komissiya akkreditasiya prosesində iştirak edəcək ekspertlər üçün hazırlanan təlimat kitabçasına uyğun olaraq, ATM-lərə səfərləri və universitet əməkdaşları, tələbələr, ümumilikdə bütün maraqlı tərəflərlə müsahibə əsaslı görüş etməli və onların yazılı protokollarını tərtib etməlidir. Qiymətləndirmə prosesi yekunlaşdıqdan sonra Komissiya tərəfindən Yekun Hesabat hazırlanır və sözügedən sənədlər (həm Özünütəhlil hesabatı, həm də qiyməlendirməyə dair Yekun hesabat) ictimaiyyətə açıq şəkildə agentlik tərəfindən paylaşılır [3].

ESG-də 4-cü olaraq qeyd olunan **"Müstəqil ekspertlər"** standartının tələbləri TKTA-nın əsas öhdəliklərindən biridir. Bu standartda qeyd olunur ki, akkreditasiya prosesində iştirak edəcək ekspert qrupuna əmək bazarının nümayəndələri ilə yanaşı professor-müəllim heyəti və inzibati heyət, həmçinin

tələbələr daxildir. TKTA akkreditasiya prosesində iştirak edəcək qrupun əsasnaməsini və qiymətləndirmə prosesinin yekununu özündə əks etdirən Hesabatın nümunəvi formasını hazırlamalı və təsdiq etməlidir.

Təhsil müəssisələrinin akkreditasiya qaydalarında qeyd olunduğu kimi, ekspertlər aşağıdakı tələblərə cavab verməlidir:

- Ali təhsilli olmalı;
- ATM-lərin fəaliyyətinin qiymətləndirilməsi ilə bağlı təlimlərdə iştirak etməli;
- Yerli və beynəlxalq akkreditasiya qaydaları və meyarları barədə məlumatı olmalı;
- Qiymətləndirmə aparılacaq təhsil müəssisəsi ilə müqavilə öhdəliyi olmamalı;
- Və son olaraq, təhsil sahəsində iş təcrübəsi olmalıdır.

Ekspertlərin vəzifəsi komissiyasının fəaliyyətində aktiv şəkildə iştirak və müəssisənin fəaliyyətinin və proqramlarının qiymətləndirməsini aparmaq və Yekun hesabatın hazırlanmasında dəstək göstərməkdən ibarətdir.

ESG-də 5-ci olaraq qeyd olunan "**Nəticələrə görə meyarlar**" adlı daxili keyfiyyət təminatı standartının məzmununda XKT fəaliyyətlərinin meyarları açıq və əlçatan olmasından söhbət gedir.

TKTA tərəfindən bu standartın icrasının hüquqi bazasının mövcudluğu vəziyyəti barədə demək olar ki, bu məsələ təhsil müəssisələrinin akkreditasiya qaydalarında öz əksini tapmışdır. Belə ki, Təhsil müəssisələrinin akkreditasiyası üçün təhsil müəssisəsinin fəaliyyətinin və proqramlarının dövlət təhsil standartlarına uyğunluğunu qiymətləndirən meyarlar Elm və Təhsil Nazirliyi tərəfindən hər bir təhsil pilləsi üzrə müəyyənləşdirilir və ictimaiyyətə açıq şəkildə təqdim edilir, beləliklə, universitetlərin akkreditasiya meyarları ilə ətraflı şəkildə tanış olması, strateji planlaşdırma, keyfiyyət təminatı, təlim və tədris, infrastruktur, beynəlmiləlləşmə proseslərini əvvəlcədən müəyyən edilən meyarlara uyğun şəkildə aparması üçün imkan yaranır.

ESG-də qeyd olunan növbəti, yəni 6-cı standart "**Hesabat**" adlanır. Adından da göründüyü kimi bu standartın təlimatlarında ekpertlər tərəfindən qiymətləndirən ali təhsil müəssisələrinin qiymətləndirmə sonrası yekun qərarı ictimaiyyətə açıq formada təqdim olunmasından bəhs olunur.

Ölkəmizdə bu standartın tələblərinin hüququ bazası mövcuddur və akkreditasiya qaydalarında əks olunur. Belə ki, akkreditasiya qaydalarında göstərildiyi kimi akkreditasiya komissiyanın üzvləri, müstəqil ekspertlər Yekun hesabatın hazırlanmasında iştirak edir, Yekun hesabatı isə birbaşa qiymətləndirmə aparan Akkreditasiya Komissiyasının sədri hazırlayır və digər üzvləri müxtəlif istiqamətlərdə ona dəstək göstərir. Komissiya tərəfindən Yekun hesabatın məzmununda ali təhsil müsəssisələri üçün iradlar və

təklif/tövsiyələrə yer verilməli, dili aydın və anlaşılan olmalı və yalnız tənqidi fikirlərdən ibarət olmayaraq, təhsil müəssisəsinin tədris, idarəetmə, beynəlmiləlləşmə kimi istiqamətlərdə uğurlu fəaliyyətlərini də eyni zamanda özündə əks etməlidir.

Sözügedən hesabat Elm və Təhsil Nazirinin başçılıq etdiyi Akkreditasiya Şurasının (akkreditasiyanın nəticəsi ilə bağlı qərar qəbul etmək səlahiyyətində olan orqan) müzakirəsinə çıxarılır və təhsil müəssisəsinin akkreditasiyadan keçib-keçməməsi ilə bağlı yekun qərar verilir. Akkreditasiya Şurasının qərarı, Yekun Hesabat TKTA və təhsil müəssisəsinin rəsmi səhifəsində dərc edilir. Yekun Hesabat Akkreditasiya Şurasına təqdim olunmamışdan qabaq müəssisəyə hesabatda faktlarla bağlı yanlışlıqların müəyyən edilməsi imkanı verilir və hesabat təkmilləşdirilir.

ESG-nin xarici keyfiyyət təminatı hissəsinin sonuncu, 7-ci standartı olan "**Şikayətlər və müraciətlər**" adlı standartında xarici keyfiyyət təminatı fəaliyyətlərinin obyektiv şəkildə aparılması və akkreditasiya edən qurumda cəmiyyətə hesabatlılığının formalaşması və eyni zamanda qiymətləndirmə prosesi ilə bağlı hər hansı narazılıq olarsa, təhsil müəssisələrinin müraciət/şikayət etmək hüququnun olması göstərilmişdir.

Təhsildə Keyfiyyətin Təminatı Agentliyinin öhdəliklərindən biri də qiymətləndirmə aparan ekspert qrupunun qərarlarına dair şikayətləri/müraciətləri qəbul edən Apellyasiya Komissiyasının əsasnaməsini təsdiq etməkdir. Əgər təhsil müəssisəsi və agentlik arasında qiymətləndirmə barədə son qərarda razılaşma olmazsa, təhsil müəssisəsinin müraciəti əsasında tərəflər də iştirak etməklə sözügedən komissiyada işə yenidən baxılır. Komissiyanın qərarı ilə Hesabatda müvafiq dəyişikliklər edilə bilər və bu barədə tərəflərə məlumat verilir. Əlavə olaraq, təhsil müəssisəsinin TKTA-nın akkreditasiya ilə bağlı fəaliyyətindən, eləcə də akkreditasiya ilə bağlı qərardan inzibati və məhkəmə qaydasında şikayət etmək hüququ vardır [3].

## Nəticə

Ölkəmizdə daxili keyfiyyət təminatı sisteminin effektivliyini və səmərəliliyini qiymətləndirən xarici keyfiyyət təminatına məsul qurum olan Təhsildə Keyfiyyət Təminatı Agentliyinin öz fəaliyyətində beynəlxalq standartları əsas götürməsi agentliyi ENQA-nın tamhüquqlu üzvü olmağa imkan yaradacaq və ölkəmizdə yerləşən ali təhsil müəssisələrini Avropa Ali Təhsil Məkanına bir addım daha da yaxınlaşdıracaqdır.

Məqalədə Təhsildə Keyfiyyət Təminatı Agentliyinin fəaliyyətində əsas götürdüyü normativ-hüquqi aktların, dəqiqliklə desək, 2020-ci ildə yeni redaksiyada təsdiq edilən "Təhsil müəssisələrinin akkreditasiya qaydalarının "Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və təlimatlar"ın tələblərinə uyğunluğunu təhlil etdik. Təhlilin nəticəsində ESG-nin

xarici keyfiyyət təminatına aid standartlarının tələblərinin ölkəmizdə TKTA-nın əsas götürdüyü normativ-hüquqi aktlarda tam şəkildə öz əksini tapdığını müəyyən etdik.

***Ədəbiyyat***

1. *Mahmudov Müdafiə Cəmil oğlu. " Boloniya prosesi və Azərbaycan", "ADPU" mətbəəsi, Bakı - 2008, 104 səh.*
2. *Standards and Guidelines for Quality Assurance in the European Higher Education Area (ESG). (2015). Brussels, Belgium.*
3. *493 - "Təhsil müəssisələrinin akkreditasiyası Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 28 sentyabr tarixli 167 nömrəli Qərarında dəyişiklik edilməsi barədə (e-qanun.az)*
4. *907 - Azərbaycan Respublikası Təhsil Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi və "Azərbaycan Respublikasında bir sıra dövlət orqanlarının strukturunun optimallaşdırılması və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 17 yanvar tarixli 479 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə (e-qanun.az)*
5. *Təhsildə Keyfiyyət Təminatı Agentliyi - TKTA | TKTA. Paylaşıldı: 03.01.2021*

**S.N.Mahmudova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***sebunemahmudova@gmail.com***

# AZƏRBAYCANIN PİRLS BEYNƏLXALQ QİYMƏTLƏNDİRMƏSİNDƏ İŞTİRAKININ İLLƏR ÜZRƏ MÜQAYİSƏLİ TƏHLİLİ

***Xülasə***

*Ümumtəhsil sahəsində müxtəlif beynəlxalq qiymətləndirmə tədqiqatları vardır. Azərbaycan bunlardan beşində - PIRLS (Progress in International Reading Literacy Study), PISA - (Programme for International Student Assessment), TİMSS (The Trends in International Mathematics and Science Study), ICILS (The International Computer and Information Literacy Study), TALIS (Teaching and Learning International Survey) iştirak edir.*

*Bizim tədqiqatın mövzusu PIRLS oxu bacarığının inkişafı üzrə beynəlxalq tədqiqat olduğundan məqalədə yalnız bu tədqiqatdan bəhs etmişik. Məqalədə PIRLS tədqiqatının illər üzrə müqayisəli təhlili öz əksini tapmışdır. PİRLS tədqiqatı 2001-ci ildən başlayaraq hər 5 ildən bir oxu bacarıqlarının ölçülməsi məqsədilə IV sinif şagirdləri arasında keçirilir. Azərbaycan 2011, 2016 və 2021-ci illərdə bu tədqiqatda iştirak etmişdir. Oxu bacarığı uşaqların inkişaf etdirə biləcəkləri ən mühüm qabiliyyətdir və məktəbdə, daha sonra isə həyatda uğur qazanmaq üçün həlledici əhəmiyyətə malikdir.*

# СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ УЧАСТИЯ АЗЕРБАЙДЖАНА В МЕЖДУНАРОДНОЙ ОЦЕНКЕ PEARLS ЗА ГОДЫ

***Резюме***

*Существуют различные международные оценочные исследования в области общего образования. Азербайджан входит в пять из них - PIRLS (Прогресс в международном исследовании грамотности чтения), PISA - (Программа международной оценки учащихся), TIMSS (Тенденции в международном изучении математики и естественных наук), участвует ICILS (Международное исследование компьютерной и информационной грамотности), TALIS (Международное исследование обучения ругательству). Поскольку предметом нашего исследования является международное исследование развития навыков чтения PIRLS, мы упомянули в статье только это исследование. В статье отражен сравнительный анализ исследований PIRLS по годам. Исследование PIRLS проводится каждые 5 лет, начиная с 2001 года, для измерения навыков чтения среди учащихся 4-х классов. Азербайджан участвовал в этом исследовании в 2011, 2016 и 2021 годах. Чтение является*

*самым важным навыком для детей, который они могут развить в школе и в дальнейшей жизни.*

# COMPARATIVE ANALYSIS OF AZERBAIJAN'S PARTICIPATION IN THE PEARLS INTERNATIONAL ASSESSMENT OVER THE YEARS

***Summary***

*There are various international evaluation studies in the field of general education.Azerbaijan is in five of them - PIRLS (Progress in International Reading Literacy Study), PISA - (Programme for International Student Assessment), TIMSS (The Trends in International Mathematics and Science Study), ICILS (The International Computer and Information Literacy Study), TALIS (Teaching swearLearning International Survey) participates.Since the subject of our study is an international study on the development of PIRLS reading skills, we have only mentioned this study in the article. The article reflects the comparative analysis of the PIRLS research over the years. PIRLS study is conducted every 5 years starting from 2001 to measure reading skills among students of 4th grade. Azerbaijan participated in this study in 2011, 2016 and 2021. Reading is the most important skill for children that they can develop success in school and later in life.*

***Açar sözlər:*** *qiymətləndirmə, inkişaf, qabiliyyət, kurikulum, oxu nailiyyətləri*

***Ключевые слова:*** *оценка, развитие, способность, учебная программа, достижения в чтении*

***Key words:*** *assessment, development, ability, curriculum, reading achievement*

Dünyada təhsil, təlim və tərbiyə hər zaman mühüm əhəmiyyət kəsb edən anlayışlardır. Keyfiyyətli təhsil cəmiyyətin inkişafına təkan verən aparıcı qüvvədir. Sürətlə dəyişən dünyada uğur əldə etmək üçün cəmiyyət üzvləri öz bilik və bacarıqlarını davamlı olaraq inkişaf etdirməlidirlər. İnkişafa nəzarət həmin sahə üzrə məlumatların toplanmasını, emalını və təhlilini tələb edir. Son illərdə müasir səriştə və bacarıqlara malik təhsilalanların, dövrün mövcud çağırışlarına adekvat cavab verən mütəxəssislərin hazırlanması təhsil sistemləri qarşısında mühüm çağırış kimi çıxış edir [10].

Oxu bacarığı şagirdlərin inkişaf etdirə biləcəkləri ən mühüm qabiliyyətdir. PIRLS - Progress in International Reading Literacy Study - dördüncü sinifdə oxu materiallarının qavranılmasının beynəlxalq qiymətləndirilməsidir və 2001-ci ildən başlayaraq hər beş ildən bir həyata keçirilir. PIRLS 2021 iyirmi illik bir dövrdə oxu nailiyyətlərinin tendensiyalarının müəyyən olunmasını təmin edən beşinci qiymətləndirmə tədqiqatıdır. Kompleks struktura əsaslanan PIRLS uşaqların dörd il ibtidai

təhsil səviyyəsinin sonunda nə dərəcədə yaxşı oxuduqları haqqında beynəlxalq müqayisəli məlumatlar təqdim edir [3, s.230-251].

Kurikulum üzrə oxu bacarıqlarını (oxu bacarığı dedikdə, şagirdlərin mətni üzündən oxuması, hərfləri tanıması nəzərdə tutulmur, oxu bacarığı şagirdlərin oxuduqları mətnləri qavrama bacarığıdır) qiymətləndirən beynəlxalq qiymətləndirmə proqramı iştirakçı ölkələrin oxu tədrisinin təkmilləşdirilməsi üzrə faktlara əsaslanan qərarlar qəbul etməsinə imkan yaradır. Ölkələr öz milli təhsil sistemlərini inkişaf etdirmək məqsədilə:

♦ oxu tədrisində zəif cəhətlərin meydana çıxarılması və kurikulum üzrə islahatların stimullaşdırılması;

♦ PIRLS nəticələrinin tədqiq və təhlili əsasında təhsil sisteminin inkişaf etdirilməsi;

♦ ölkə səviyyəsində nailiyyət trendlərinin izlənilməsi;

♦ oxu bacarığının formalaşdırılması və oxunun tədrisini araşdıran tədqiqatlar əsasında zəngin məlumat bazasının formalaşdırılması;

♦ yeni və ya təkmilləşdirilmiş təhsil siyasətlərinin effektivliyinin müəyyən edilməsi;

♦ digər siniflərdə bənzər qiymətləndirmə tədqiqatlarının təşkil olunması üçün nailiyyət testləri və sorğu məlumatlarından istifadə edirlər.

Tərtib olunan məktəb, müəllim, şagird və valideyn sorğuları PİRLS çərçivəsində şagirdlərin oxu qabiliyyətinə təsir göstərən amillər və təhsil sistemlərinin şagirdlərə yaratdığı imkanlar haqqında lazımi informasiyaların alınmasına kömək edir.

Oxu istiqamətində ümumi təhsilin gücləndirilməsi üçün müəyyən dövrlər üzrə dəyərləndirmələrin aparılması, inkişaf trendinin müəyyənləşdirilməsi və ölçülməsi baxımından PİRLS beynəlxalq qiymətləndirmə tədqiqatının rolu böyükdür. Təlim-tədris prosesinin təkmilləşdirilməsi məqsədilə veriləcək qərarlar üçün PİRLS kimi tədqiqatlardan əldə olunan məlumatlar əsasında hazırlanmış tövsiyələr zəruridir [1].

Tədqiqat zamanı milli kurikulum siyasətləri və oxu üzrə proqramlar, şagird öyrənməsini asanlaşdıran üsul və strategiyalar, şagirdlərin evdə və məktəbdə əhatə olunduqları mühit, məktəb vəsaitləri və sinifdaxili tədris araşdırılır. Tədqiqat dövrləri arasında aparılan müqayisəli təhlil isə təhsil sistemini qısa və uzun müddətdə yüksək bacarıqlara malik insan kapitalını formalaşdırmaq üçün yetərli əsaslarla təmin edir.

Beynəlxalq qiymətləndirmə proqramının populyarlıq qazanması tədqiqatda istifadə olunan qiymətləndirmə vasitələrinin təhsilalanların həm bilik, həm də bacarıqlarının üzə çıxarılmasında və gələcək nailiyyətlər üçün ölkələrin bu vasitələrdən bəhrələnməsində müstəsna əhəmiyyət kəsb etməsindədir. Lakin beynəlxalq qiymətləndirmə vasitələrinin özünəməxsusluğu

hər zaman bu proqrama qoşulan ölkələrin şagirdləri üçün cəlbedici və oxunaqlı olmur, başqa sözlə desək, şagirdlərin belə qiymətləndirmə vasitələri ilə tanış olmaması nəticələrə təsir göstərir. Həmin təsirləri aradan qaldırmaq məqsədilə Elm və Təhsil Nazirliyində PIRLS beynəlxalq tədqiqatlarında istifadə edilən vasitələrdən ibarət kitabça hazırlanır. Azərbaycan məktəblilərinin, o cümlədən beynəlxalq qiymətləndirmədə iştirak edəcək şagirdlərin belə qiymətləndirmə vasitələri ilə tanış olmasının həm nailiyyətlərimizə, həm də şagirdlərimizin dünyagörüşünə müsbət təsiri olur.

Əksər testlər əksər iştirakçı ölkələr üçün tədrisin keyfiyyətinin qiymətləndirilməsi baxımından müasir dövrün standartlarına cavab verən suallardır. Bununla yanaşı, araşdırmalarda bir çox ölkələrin təhsil proqramlarının çərçivəsindən kənara çıxan, lakin mütəxəssislərin fikrincə, çağdaş zamanda həyat üçün önəmli sayılan suallara da rast gəlinir [3, s.230-251].

Layihədə 50 ölkədən aparıcı ekspertlər, eləcə də dünyanın hər yerindən çoxsaylı tədqiqat mərkəzləri və ekspertlər iştirak ediblər. 2021-ci ilin aprel-iyun aylarında Elm və Təhsil Nazirliyi və Təhsil İnstitutu Azərbaycanda əsas tədqiqat mərhələsini həyata keçirib. Milli qiymətləndirmədə müxtəlif regionlardakı 200 məktəbdən 7000-ə yaxın şagird təmsil olunub. Qiymətləndirmə tədqiqatı üçün seçilmiş 254 sinifdən 201-i Azərbaycan bölməsi, 53 isə rus bölməsi üçün idi. Əvvəlki illərin PIRLS nəticələrinin müqayisəsi müəyyən artım göstərir. 2011-ci ildə tələbələr 462 bal toplasa da, 2016-cı ildə bu göstərici 472-yə yüksəlib. Qeyd edək ki, PİRLS-də ölkələrin orta balı 500-dür.

PİRLS tədqiqatının ölkələr üzrə nəticələrinin təhlili göstərir ki, qız şagirdlərin nəticələri oğlan şagirdlərin nəticələrindən daha yaxşı olur. Azərbaycandan da yarışmaya qatılmış şagirdlərdən qızlar oğlanlardan 13 bal daha yüksək nəticə göstərmişlər.

Ümumiyyətlə, tədqiqatlar təhsilin keyfiyyətinin qiymətləndirilməsinə müsbət imkan yaradır. Onların yeri və rolu mühüm əhəmiyyət kəsb edir. Keçirilən qiymətləndirmənin nəticəsində şagirdlərin bilik, bacarıq və vərdişləri daha da inkişaf edir.

PIRLS 2016 proqramına ümumilikdə 60 iştirakçı ölkə (ştat, zona və s.) üzrə 340.000-dən çox şagird, 330000 valideyn, 16000 müəllim, 12000 məktəb cəlb olunub.

Azərbaycan üzrə isə təsadüfi seçim əsasında 170 ümumtəhsil məktəbi, 6000-dən çox 4-cü sinif şagirdi, 340 müəllim və 6000-dən çox valideyn iştirak etmişdi.

Azərbaycanlı şagirdlərin 2016-cı ildə iştirak etdiyi PİRLS imtahanının dörd səviyyə üzrə (aşağı, orta, yuxarı və yüksək) qiymətləndirmə meyarları ilə ibtidai təhsil səviyyəsində “Azərbaycan dili” fənninin məzmun standartlarının

müqayisəli təhlilini aparmaq, azərbaycanlı şagirdlərin nümayiş etdirdiyi nəticələri təhlil etmək, oxu savadlılığı baxımından formalaşmış və inkişaf etdirilməyə ehtiyac duyulan bacarıqlarına diqqəti yönəltmək idi.

2021-ci il üçün 52 bölgə üzrə 200 məktəbdə keçirilməsi nəzərdə tutulan qiymətləndirmə tədqiqatı 49 bölgə üzrə 115 məktəbdə təşkil olunub. Sanitar-gigiyenik tələblərin yerinə yetirilməsi üçün şagird sayı çox olan iştirakçı siniflər yarımqruplara bölünüb.

2016 və 2021-ci illərdə PİRLS trend mətnlərin çətinlik faizinin müqayisəli təhlilinə nəzər yetirək (Cədvəl 1).

***Cədvəl 1.*** **PİRLS trend mətnlərin çətinlik faizi ilə göstərilməsi**

| **Mətn səviyyəsi** | **2016-cı ildə PİRLS trend mətnlərin çətinlik faizi** | **2021-ci ildə PİRLS mətnlərin çətinlik faizi** |
|---|---|---|
| Çətin | 55% | 50% |
| Orta | 68% | 65% |
| Asan | 80% | 80% |

Bu cədvəldə müqayisəli şəkildə hər iki ildə imtahana düşən mətnlərin çətinlik faizləri göstərilmişdir.

Bununla belə, ümumi performansa bir neçə amil təsir göstərir. Bunlar sinif amilləri, məktəb faktorları, fərdi, ailə və sosial amillərdir.

Sinif faktoru aşağıdakı kimi etiketlənir:

- Ümumilikdə, tələbələrin 84%-i həftəlik bədii, 56%-i isə həftəlik qeyri-bədii ədəbiyyat oxuyur.
- Resurslarla nə etdiyiniz daha önəmlidir.
- Təsnifat sistemləri çox vaxt beynəlxalq standartlara uyğun gəlmir.

Məktəb faktoru aşağıdakı kimi əks olunur:

- Uşaqlıq dövründə məktəbə davamiyyət ən yüksək orta oxu balları ilə əlaqələndirilir.
- Direktorlar vaxtlarının çoxunu inzibati vəzifələrə, dəstəyə, valideynlər və cəmiyyətlə münasibətlərə həsr edirlər.
- Son iki ildə əksər müəllimlər CPD-də 15 saat və ya daha az müddət ərzində iştirak ediblər.

PİRLS tədqiqatında oxu savadının qiymətləndirilməsi 4 səviyyə üzrə aparılır (Cədvəl 2).

***Cədvəl 2.*** **PİRLS tədqiqatında oxu savadının 4 səviyyə üzrə qiymətləndirilməsi**

| səviyyə / bal | Aşağı səviyyə | Orta səviyyə | Yüksək səviyyə | Ən yüksək səviyyə |
|---|---|---|---|---|
| | 400 | 475 | 550 | 625 |

PIRLS tədqiqatının nəticələri təhsildə beynəlxalq keyfiyyət indikatorları kimi qəbul olunur. Beynəlxalq qiymətləndirmənin nəticələri əsasında aparılan təhlillər göstərir ki, hər bir ölkənin iqtisadi artımı ilə həmin ölkədə təhsilin keyfiyyəti arasında sıx bağlılıq mövcuddur [7].

PİRLS səviyyələrinin IV sinif Azərbaycan dili dərsliyində mövzularla bağlı tapşırıqların statistik nəticələri verilmişdir (Cədvəl 3).

Belə ki, PIRLS qiymətləndirmə tədqiqatında mətnlərin və sualların hazırlanmasında istifadə olunan modul ölkəmizdəki ümumtəhsil məktəblərində sinif müəllimlərinin metodiki tövsiyələrinə inteqrasiya edilib.

Təhsil prosesində ən mühüm elementlərdən biri də şagirdin təhsil proqramında qarşıya qoyulmuş məqsədlərə nail olub-olmamasını ölçən və onun inkişafını qiymətləndirən qiymətləndirmə proqramıdır. Dərsliklər və tədris fəaliyyətləri Azərbaycan kurikulumunda göstərilən nailiyyətlərə uyğun hazırlanır və inkişaf etdirilir.

Bu baxımdan Azərbaycan proqramında əldə olunan nailiyyətlər müəllimlik üçün müəlliflər, müəllimlər, qiymətləndirmə və qiymətləndirməyə istiqamət verir.

Ana dilinin tədrisi ümumtəhsil sistemində ən mühüm məsələ hesab olunur, çünki dilin öyrənilməsinin əsaslarının formalaşması və təşkili ilə yanaşı, oxuyub-anlama, dilin ünsiyyət vasitəsi kimi formalaşması və inkişafıdır. Bunlar yazı bacarıqlarının, bu mövzunun öyrənilməsinin əsas təsirləridir. Dil ünsiyyət vasitəsidir. Azərbaycan dilində bacarıqları formalaşmamış şagirdlər digər fənlər üzrə lazımi bilik, bacarıq və akademik vərdişlərə yiyələnə bilməzlər.

***Cədvəl 3.*** **PİRLS səviyyələrinin IV sinif Azərbaycan dili dərsliyində olan mövzularla bağlı tapşırıqların statistik nəticələrinin verilməsi**




Beynəlxalq qiymətləndirmə tədqiqatları təhsil sisteminin ümumi vəziyyəti haqqında məlumat verir, dünya standartları ilə müqayisədə çatışmazlıqları aşkar etməyə imkan yaradır. Nəticədə, bu tədqiqatlardan əldə olunan elmi-statistik göstəricilər əsasında təhsil sistemləri müvafiq qərar qəbul edir.

***Ədəbiyyat***

1 *https://timssandpirls.bc.edu/pirls2016/international-results/wp-content/uploads/structure/PIRLS/0.-about-pirls-2016/P16-About-PIRLS-2016.pdf.*
2 *http://timssandpirls.bc.edu/pirls2016/international-results/pirls/studentachievement/pirls-achievement-results.*
3 *Kuhn, M.R, Schüannenflugel P.J. ve Meisinger E.B. (2010), Aligning theory and assessment of reading fluency automaticity, prosody, and definitions of fluency. Reading Research Quaterly, 45(2), 230-251. 5. Martin M.O, Mullis İ.V.S və başqaları. (2017), İnternational Results in Reading, http://timssandpirls.bc.edu/ pirls2016/international-results/wp-content/uploads/structure/CompletePDF/P16-PIRLS-International-Results-inReading.pdf.*
4 *Martin, Michael O., and Ina VS Mullis. TIMSS and PIRLS 2011: Relationships among Reading, Mathematics, and Science Achievement at the Fourth Grade-Implications for Early Learning. International Association for the Evaluation of Educational Achievement. Herengracht 487, Amsterdam, 1017 BT, The Netherlands, 2013.*
5 *Gustafsson, Jan-Eric, Kajsa Yang Hansen, and Monica Rosén. "Effects of home background on student achievement in reading, mathematics, and science at the fourth grade. "Timss and Pirls 4" (2011): 181-287.*
6 *TİMSS&PİRLS, İnternational Study Center, Lynch School of Education, Boston College, US.*
7 *Ümumi təhsilin məzmun standartları (I-XI siniflər), Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, Mütərcim, Bakı, 2012.*
8 *Mullis, Ina VS, et al. PIRLS 2011 international results in reading. International Association for the Evaluation of Educational Achievement. Herengracht 487, Amsterdam, 1017 BT, The Netherlands, 2012.*
9 *Sengul S. ANAGUN, Sosyal Bilimler Dergisi 2006/2*
10 *https://www.arti.edu.az/az/page/17-qiymatlandirma*

**S.A.Məmmədsalahova**
**Bakı Dövlət Universiteti**
**samasama222324@gmail.com**

# "YETİM İBRAHİM NAĞILI"NIN DÜNYA MİFOLOGİYASI KONTEKSTİNDƏ TƏDRİSİ: "DİV" OBRAZI

***Xülasə***

*Dünyagörüşünün formalarından biri olmaqla mifoloji dünyagörüşü ilkin hesab olunur. Mifoloji materialların daha düzgün qavranılması üçün mifik dünyagörüşü haqqında şagirdlərin məlumatının olması onların digər dünyagörüş formalarına aid materialları qavraması baxımından böyük əhəmiyyət daşıyır.*

*Orta məktəbdə bir sıra mifik ünsürlərə malik folklor nümunələri tədris olunur. Sehrli nağıllar da mifoloji elementlərlə zəngindir. Müasir orta məktəb dərsliklərində isə məişət nağılları daha çox tədris olunur. Buna baxmayaraq "Yetim İbrahim nağılı"nda da bir sıra mifoloji elementlər vardır. Bunlardan ən əsası "div" obrazıdır. Dünya mifologiyasında özünəməxsus yer tutan div xtonik, şər qüvvələri təmsil edir. Bəzi hallarda isə xeyirxah div obrazına da rast gəlmək mümkündür.*

# УЧЕНИЕ "ЙЕТИМ ИБРАХИМ НАГИЛИ" В КОНТЕКСТЕ МИРОВОЙ МИФОЛОГИИ: ОБРАЗ "ДИВ"

***Резюме***

*Являясь одной из форм мировоззрения, мифологическое мировоззрение считается первичным. Для более правильного понимания мифологических материалов большое значение имеет наличие у учащихся сведений о мифологическом мировоззрении с точки зрения их понимания материалов, относящихся к другим формам мировоззрения.*

*Образцы фольклора с рядом мифологических элементов преподаются в средней школе. Волшебные сказки также богаты мифологическими элементами. В современных школьных учебниках чаще преподаются бытовые истории. Тем не менее, в сказке "Йетим Ибрахим нагили" есть ряд мифологических элементов. Наиболее важным из них является образ «великана». Великан, занимающий особое место в мировой мифологии, олицетворяет хтонические, злые силы. В некоторых случаях также можно встретить изображение доброжелательного великана.*

# TEACHING OF "YETIM IBRAHIM NAGHILI" IN THE CONTEXT OF WORLD MYTHOLOGY: THE CHARACTER OF "DIV"

***Summary***

*Being one of the forms of worldview, the mythological worldview is considered primary. For a more correct understanding of mythological materials, it is of great importance for students to have information about the mythical worldview in terms of their understanding of materials related to other forms of worldview.*

*Folklore examples with a number of mythical elements are taught in secondary school. Magical tales are also rich in mythological elements. In modern high school textbooks, household stories are taught more often. Nevertheless, there are a number of mythological elements in the tale of "Yetim İbrahim nagili" ("The Orphan Ibrahim"). The most important of them is the image of "giant". The giant, which occupies a special place in world mythology, represents chthonic, evil forces. In some cases, it is also possible to find the image of a benevolent giant.*

***Açar sözlər:*** *Mifologiya, mif, tədris, nağıl, folklor*
***Ключевые слова:*** *Мифология, миф, учение, сказка, фольклор*
***Key words:*** *Mythology, myth, teaching, fairy tale, folklore*

Mif ibtidai insanların ilkin dünyagörüş formasıdır. Arif Acaloğlu yazır: "Mifologiya yalnız qədim dövrlərə aid əfsanə və rəvayətlərdən ibarət klassik və ya arxaik dəyərlər sistemi də deyildir. O hər mədəniyyətin həm təməlini, həm də müasir məzmununu müəyyənləşdirən təfəkkür hadisəsidir" [3, s.37].

Mifologiyanın, mifoloji təfəkkür tərzini öyrənməyin əhəmiyyəti vacibdir. "Bəşər tarixində şüurun ilkin inkişaf mərhələsi hesab olunan mifik təfəkkürün məhsulu sayılan mifoloji işarələr sisteminin dərindən öyrənilməsi ondan sonra gələn təfəkkür mərhələlərinin (dini, bədii, fəlsəfi düşüncənin) materiallarının asan başa düşülməsi baxımından xüsusi əhəmiyyət kəsb edir" [2, s. 8]. Nağıllar da mifik dünyagörüşünün təzahür formalarından biri olmaqla şifahi xalq ədəbiyyatının qədim və geniş yayılmış janr növlərindən biridir. "Əşya və təbiət hadisələrinin canlandırılması, insanlara məxsus xasiyyət və keyfiyyətlərin, əşya və heyvanlar üzərinə köçürülməsi, cəmiyyətdə, təbiətdə çox adi görünən hadisələrin fantastik şəklə salınması, fövqəladə hadisələrlə qaynayıb-qarışdırılması, gələcəyə nikbin münasibət, inam, xoş əhvali-ruhiyyə, geniş epik lövhələrin, macəra və mürəkkəb hadisələrin bolluğu və s. nağıllara xas olan xüsusiyyətlərdir" [6, s. 203].

Nağılların tədrisinə orta məktəb dərsliklərində çox yer verilməsə də, bir sıra nağıllar dərslikdə öz yerini tapır. Bu nağıllardan biri də "Yetim İbrahim nağılı"dır. Müasir Ədəbiyyat dərsliklərinin V sinfində keçirilməsi nəzərdə

tutulan “Yetim İbrahim nağılı”nın dünya mifologiyası kontekstində tədrisi tədqiqatımızın obyektini təşkil edir.

V sinif şagirdinin istər məktəbəqədər dövrdə, istərsə də təhsil aldığı ibtidai məktəb dövründə nağıllarla tanış olduğunu bilirik. Xüsusi diqqətlə seçilmiş nağılların tədris olunması şagirdlərin dünyagörüşünün formalaşmasında, tərbiyə olunmasında mühüm əhəmiyyət kəsb edə bilər. Bu barədə Ə.Qarabağlı yazır: “Böyük pedaqoqlar nağıllara həmişə mühüm tərbiyə və təlim vasitəsi kimi baxırlar. Nağıllarda dilin sadə və cazibəli olması, hadisələrin əcaib surətdə bir-birinə bağlanması, uşaqların görmədikləri, onlara tanış olmayan bir aləmdən bəhs olunması, müxtəlif heyvan və quşların insan kimi danışması və hərəkət etməsi, xeyrin şərə, işığın qaranlığa, haqqın, ədalətin zülmə, cinayətə qalib gəlməsi – bunların hamısı nağıla əsrarəngiz bir xüsusiyyət verir” [7, s. 157]. Bu əsrarəngizlik nağılların tədrisini də maraqlı edir. Mifik dünyagörüşünün təməlində duran Xaos Kosmos mübarizəsi nağıllarda əbədi Xeyir və Şər qarşıdurması kimi öz əksini tapır. Kosmosun nizamını bərpa edən demiurqlar (mədəni qəhrəmanlar) Xaosu təmsil edən qüvvələrə qalib gəlir, Kosmosun nizamı bərpa olunur, yəni Xeyir Şər üzərində qələbə çalır. Bu qələbəyə kömək edən Simurq (Zümrüd quşu), at və s. Xaosun-Şərin təmsilçiləri olan div, əjdaha və s. ilə mübarizədə demiurqa yardım edir. Şagirdlər xeyrin şər, ədalətin zülm, işığın qaranlıq üzərində qələbə çalacağına olan inamı belə nağıllar vasitəsilə daha da güclənir. Təhsil haqqında qanunda təhsilin əsas məqsədi kimi öz əksini tapan “müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək” fikrini həyata keçirmək üçün şagirdlərin dünyagörüşünü, yaradıcı təfəkkürünü formalaşdırmaq lazımdır [13]. Nağıllar yaradıcı təfəkkürün inkişaf etməsində əhəmiyyətli yer tutarkən, eyni zamanda ilkin-mifik dünyagörüşünün bir forması olmaqla da şagirdlərin dünyaya baxış bucağını müstəqil şəkildə istiqamətləndirmək, dünyagörüşünün sonrakı mərhələlərini azad düşüncə tərzi ilə təhlil etmək qabiliyyətlərinin formalaşması üçün zəmin yaratmaq iqtidarındadır.

V sinif ədəbiyyat dərsliyində nağıllarla bağlı şagirdlərə aşağıdakı məlumat verilir: “Şifahi xalq ədəbiyyatına aid olan nağıllarda xalqın arzusu, istəyi ifadə olunur. Nağılların çoxunda azad, firavan yaşamağı arzulayan xalq şər qüvvələrə, pisliklərə nifrət edir, özünə arxa, dayaq saydığı sevimli qəhrəmanını yaradır. Bu qəhrəman şər qüvvələrə, pisliklərə qarşı çıxır, mübarizə aparır. Müdrik qocalardan məsləhət, xalqdan güc, qüdrət alan bu qəhrəman zalımlara qalib gəlir, zülmə son qoyur” [8, s. 31]. Burada daha çox nağılların bədii xüsusiyyətləri əks olunub. Mifoloji dünyagörüşündən, ümumiyyətlə bəhs edilməyib. Lakin yuxarıda qeyd etdiyimiz səbəblərdən nağılları orta məktəbdə də mifoloji dünyagörüş kontekstində təhlil etmək faydalıdır. Ə.Qarabağlı nağılların tədrisi ilə bağlı yazır: “Şagirdlər bilməlidirlər ki, ibtidai insanlar təbiətin sirr və qanunlarını bilmir və təbiəti özlərinə tabe

etməyi bacarmırdılar. Buna görə də onlar dünyanın möcüzə, sehrlə dolu olduğuna, yer üzündə bir çox Allahların (tanrıların – S.M.) varlığına və hər şeyin bu Allahların iradəsindən asılı olduğuna inanırdılar” [7, s. 155].

Müasir orta məktəb dərsliklərində öz əskini tapan nağıllar daha çox məişət nağıllarıdır. “Yetim İbrahim və Sövdəgər” nağılı V sinif orta məktəb dərsliyində “Yetim İbrahim nağılı” adı ilə yer alır. Paşa Əfəndiyev, Ramil Əliyev və başqa folklorşünaslar bu nağılı məişət nağılları qrupuna daxil etmişdir. R.Əliyev “Azərbaycan şifahi xalq ədəbiyyatı” kitabında yazır: “Məişət nağıllarında hadisələr real həyatla bağlı olur. Belə nağıllarda heç bir sehrli qüvvə iştirak etmir” [11, s. 183]. Yuxarıda adını çəkdiyimiz nağılda sehrli qüvvələr, mifik elementlər də iştirak edir (ağ div, sehrli gül – səməngül). Belə deyə bilərik ki, məişət nağıllarında sehrli qüvvələr çox az miqdarda iştirak edir. Sadəcə bu nağılın hansı kateqoriyaya aid olduğunu dəqiqləşdirmək üçün sehrli qüvvələrin nağılın süjetində tutduğu əhəmiyyətin miqyasını müəyyənləşdirmək lazımdır. Belə ki, ağ divlə mübarizə, səməngül çiçəyi, dünyagörmüş qoca arxetipi, qırx qapı və s. məqamlar bizə bu nağılı mifoloji kontekstdə qiymətləndirmək üçün açar rolunu oynayır.

Nağılda oxuyuruq ki, İbrahimin atası balaca olanda vəfat edir. İbrahim on beş yaşına çatanda atasının tütək və cələsini götürüb ova getməyə başlayır. Bir gün gözəl bir quş tutub evə aparır. Bu quş rəngbərəng yumurtalar yumurtlayır, İbrahim yumurtaları tacirə satır. Tacir isə İbrahimdən yumurtaları alıb daha baha qiymətə padşaha satır. İbrahim bunu öyrənəndən sonra özü yumurtaları padşaha aparır, bunun müqabilində padşah da ona çoxlu bəxşiş verir. Tacirin əlavə gəlir yeri kəsildiyindən İbrahimə kin bəsləməyə başlayır. Sonra İbrahim hiyləgər vəzir (tacir) və axmaq şahın tələblərini yerinə yetirməyə çalışır. Bu zaman ağ divlə döyüşür. Divdən Xurşud adlı qızı xilas edir. Sonra öyrənir ki, axtardığı səməngül Xurşudun burnundan axan qandan yetişir. Nağılın sonunda isə nağıllara xas olan xaos-kosmos, xeyir-şər qarşıdurmasında kosmosun nizamı bərpa olunur, xeyri təmsil edən qüvvələr şər qüvvələrə qalib gəlir.

“Yetim İbrahim nağılı”nı mifoloji kontekstdə təhlil etsək, əsasən, div obrazını təhlil etmək faydalıdır. “Təcrübə göstərir ki, şagirdlər bədii əsərin ayrı-ayrı kompenentlərini bütöv şəkildə qavramaqda çətinlik çəkirlər. Süjetin, kompozisiyanın müxtəlif elementlərinin, obrazların, əsərdə qaldırılan problemlərin təhlili və bunun üçün optimal metodik variant seçilməsi müəllim qarşısında duran ciddi vəzifədir” [12, s. 255]. Dünya mifologiyasının tərkib hissəsi olan Azərbaycan sehrli nağıllarında da səciyyəvi mifoloji obrazlardan biri divdir. “Azərbaycan nağıllarında div daha çox şər qüvvələrin təmsilçisi kimi əks olunmuşdur. Divlər həyat mənbəyi olan sehrli vasitələri və gözəl qızları oğurlamaqla insanları əbədi səadətdən məhrum etməyə çalışırlar” [10, s. 26]. Bu nağılda da div Xurşudu oğurlayıb saçlarında asmışdı, lakin İbrahim

onu xilas etməyə müvəffəq olur. Ümumiyyətlə, divlərin qəhrəmanlar tərəfindən məğlubiyyəti nağıllarımızın səciyyəvi cəhətini təşkil edir. "Bütün nağıllarımızda bu qorxunc, nəhəng divlər qəhrəmanlar tərəfindən məğlub edilir, ədalət nağılın sonunda qələbə çalır" [6, s. 209]. Divlər bədii-fəlsəfi əsərlərdə "nəfs" kimi səciyyələndirilir. "Klassik ədəbiyyatda insanın əxlaqında, mənəviyyatında naqisliklərlə müşayiət olunan alçaq nəfsin metaforalarından biri "div" sözüdür ki, bunun hələ "Avesta"da işləndiyini görmək olar:

Axırıncı qatlarımın tərifləri yetmədi yaxşı ruhlara,
Axşamlar div vətəninə Aşa odumuzun elmini aparırlar [1, s. 100].

Mifoloji dünyagörüşünə aid bir çox ifadələrin sonrakı dünyagörüşlərində metafizik mənada izahına rast gəlinir ki, "div" də bu anlayışlardan biridir. Lakin bir sıra nağıllarımızda xeyirxah div obrazına rast gəlmək olur. Məqsədimiz "Yetim İbrahim nağılı" kontekstində "div" obrazının tədrisi olduğundan nağıldakı div obrazını səciyyələndirməyi uyğun görürük.

"Tədqiqatlarda işıqla, günəşlə, odla da əlaqələndirilən div obrazının simvolikasının açılması üçün günəşin tutulmasını əski təsəvvürlərdə guya divlər tərəfindən həbs olunması şəklində izah edən inanışa da əsaslanılmış, nağıllarda divin gəlişi ilə göyün guruldaması, ildırım çaxması, yerin titrəməsi, qara buludun enib içərisindən qoca bir div-qarının çıxması və s. Bu əsatiri surətlə günəşə düşmən olan təbiət hadisələri arasında bağlılığın ifadəsi olaraq yozulmuşdur" [5, s. 105]. "Yetim İbrahim nağılı" dərslikdə ixtisarla verilib. Lakin həmin nağılın tam versiyasında biz div obrazını daha ətraflı səciyyələndirə və onun təbiət hadisələri ilə əlaqəsini görə bilirik:

Xurşidlə İbrahim ağ divdən qaçanda Xurşid İbrahimdən geriyə baxıb nə gördüyünü soruşur. İbrahim deyir: "Uzaqda qara duman görünür. Xurşid dedi: - Ay aman, atı qamçıla, o qara duman devdi, gəlir" [4, s. 98]. İkinci dəfə yenə Xurşid soruşanda İbrahim cavab verir: "– Çox qaranlıq, çovğun, çiskin görünür, külək əsir, qarmaqarışıq səslər eşidilir" [4, s. 98]. Bu cavabdan sonra da Xurşid həmin çovğunun div olduğunu deyir. İbrahim növbəti dəfə geriyə baxanda deyir: "- Qara duman lap yaxına gəlib, bizi bürümək istəyir, qara yağış yağır, külək əsir". Xurşid dedi: "- İbrahim, qara duman devdi, yağışnan külək də onun şallağından qalxan tozdu. Ölüm vaxtıdı, bərk sür!" [4, s. 100] Göründüyü kimi divin təbiət hadisələri ilə əlaqəsi bu nağılda daha aydın olur.

Metodik vəsaitdə bu nağılın daha çox məişət səviyyəsində, gənc bir oğlanın haqsızlıqla mübarizəsi şəklində məzmununun qavranılmasının nəzərdə tutulduğunu görürük. Təhlilində isə xeyir və şərin qarşıdurması şəklində əks olunur. "Yetim İbrahimin şəri təmsil edən qüvvələrlə (padşah, vəzir, div) müqayisəsinə xüsusi diqqət yetirilməlidir. Bunun üçün müqayisə cədvəlindən, yaxud Venn diaqramından istifadə etmək məqsədəuyğundur. Müzakirə zamanı İbrahimə yol göstərən qocanın, divin əlindən xilas edilmiş qızın xeyiri – xalqı təmsil etdiyi aydınlaşdırılmalıdır" [9, s.68].

Ümumiyyətlə, nağılın tədrisində metodik vəsaitin tələbi əsas götürülsə də, şagirdlərə mifoloji dünyagörüşü, mif, xaos və kosmosu təmsil edən obrazlar, bu nağıl kontekstində, əsasən, "div" obrazı haqqında məlumatın verilməsi məqsədəuyğundur.

***Ədəbiyyat***


1. *Abdullayeva M. Klassik poeziya: ezoterik xəzinə. Bakı: "Bakı Universiteti" nəşriyyatı, 2009, 368 s.*
2. *Allahverdi R. Təqvim mifləri və Novruz. Bakı: Nurlan, 2013, 180 s.*
3. *Azərbaycan ədəbiyyatı tarixi. Altı cilddə. I cild (şifahi xalq ədəbiyyatı), Bakı: Elm, 2004, 760 s.*
4. *Azərbaycan nağılları. Beş cilddə. IV cild. Bakı: Şərq-Qərb, 2005, 336 s.*
5. *Bəydili C. "Türk Mifoloji sözlüyü". Bakı: Elm, 2003, 418 s.*
6. *Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Ali məktəb üçün dərslik. Bakı: Elm və təhsil, 2013, 600 s.*
7. *Əliyar Qarabağlı. Azərbaycan ədəbiyyatının tədrisi metodikası. Ali məktəblər üçün dərslik. Bakı: Maarif, 1968, 349 s.*
8. *Əliyev S., Həsənov B., Səfərova Ə., Quliyev Ə. Ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün Ədəbiyyat fənni üzrə dərslik. Bakı: "Bakı" nəşriyyatı, 2020, 208 s.*
9. *Əliyev S., Həsənov B., Səfərova Ə., Quliyev Ə. Ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün Ədəbiyyat fənni üzrə metodik vəsait. Bakı: "Bakı" nəşriyyatı, 2020, 208 s.*
10. *Əliyev O. Azərbaycan nağıllarının poetikası. Bakı: Səda, 2001, 192 s.*
11. *Əliyev. R. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Elm və təhsil, 2019, 304 s.*
12. *Həsənli B. Ədəbiyyatın tədrisi metodikası. Pedaqoji ali məktəblər üçün dərs vəsaiti. Bakı: "Müəllim", 2016, 452 s.*
13. *https://e-qanun.az/framework/18343*

**S.İ.Qocayeva**
**Xəzər Universiteti**
***sahileqva123@gmail.com***

# MƏKTƏB-VALİDEYN ƏMƏKDAŞLIĞINA MANE OLAN FAKTORLAR

***Xülasə***

*Tədqiqat dövlət ümumtəhsil müəssisələrində məktəb-ailə əməkdaşlığının hansı səviyyədə olduğunun, valideynlərin məktəb prosesində və övladının təlim-tədris prosesi ərzində rolunun müəyyənləşdirilməsi məqsədi ilə aparılmışdır. Tədqiqat 2022-2023-cü tədris ilində Bakı şəhərində bir dövlət ümumtəhsil müəssisəsində işləyən 80 müəllimin və övlad(lar)ı həmin müəssisədə təhsil alan 250 valideynin iştirakı ilə həyata keçirilmişdir. Tədqiqatda kəmiyyət metodundan istifadə edilmişdir. Tədqiqatda məlumat toplamaq məqsədilə "Müəllim üçün məktəb-ailə əməkdaşlığı sorğusu" və "Valideynlər üçün məktəb-ailə əməkdaşlığı sorğusu"-dan istifadə edilmişdir.*

*Tədqiqat nəticəsində valideynlərin təhsil səviyyəsinin aşağı olması, maddi imkanlarının zəif olması, valideynlərin məktəb prosesi haqqında məlumatsız olmaları, məktəbə zaman ayıra bilməmələri məktəb-ailə əməkdaşlığına mane olan faktorlar olaraq aşkarlanmışdır. Əldə edilən nəticələrə uyğun tövsiyələr təqdim edilmişdir.*

# ФАКТОРЫ, ПРЕПЯТСТВУЮЩИЕ СОТРУДНИЧЕСТВУ ШКОЛЫ И РОДИТЕЛЕЙ

***Резюме***

*Исследование проводилось с целью определения уровня школьно-семейного сотрудничества в государственных общеобразовательных учреждениях, роли родителей в школьном процессе и образовательном процессе их ребенка. Исследование проводилось в 2022-2023 учебном году с участием 80 учителей, работающих в государственном общеобразовательном учреждении города Баку, и 250 родителей, чьи дети (дети) учатся в этом учреждении. В исследовании использовался количественный метод. Для сбора данных в исследовании использовались «Опросник сотрудничества школы и семьи для учителей» и «Опросник сотрудничества школы и семьи для родителей».*

*В результате исследования было установлено, что факторами, препятствующими сотрудничеству школы и семьи, являются низкий уровень образования родителей, скудные финансовые возможности, неосведомленность родителей о школьном процессе, неумение уделять время школе. По полученным результатам представлены рекомендации.*

# FACTORS HİNDERİNG SCHOOL-PARENT COOPERATİON

***Summary***

*The research was conducted with the aim of determining the level of school-family cooperation in state general education institutions, the role of parents in the school process and the role of their child in the educational process. The research was carried out in the academic year 2022-2023 with the participation of 80 teachers working in a state general education institution in Baku and 250 parents whose child(ren) are studying in that institution. Quantitative method was used in the research. In order to collect information, "School-family cooperation questionnaire for teachers" and "School-family cooperation questionnaire for parents" were used in the research.*

***Açar sözlər:*** *məktəb, ailə, valideyn, şagird, əməkdaşlıq*
***Ключевые слова:*** *школа, семья, родитель, ученик, сотрудничество.*
***Key words:*** *school, family, parent, pupil, cooperation*

## Giriş

Məktəb şagirdin gələcək həyatını istiqamətləndirən bir qurumdur. Zaman keçdikcə dövrün cəmiyyətdən tələb etdiyi tələblər də dəyişir. Məktəb də şagirdləri həmin tələblərə uyğun yetişdirməyi məqsəd seçmişdir. Uşağın yeniyetməlik yaşına qədər dövrünü təhlil etdikdə görünür ki, bu dövrdə məktəb şagirdin həyatının dönüş nöqtəsi, ən vacib hissəsidir. Məktəb şagirdə yol göstərən, həyata hazırlayan, cəmiyyət üçün şagirdi formalaşdıran müəssisədir. Şagird burada həyatda istifadə etməli olduğu bilik və bacarıqları öyrənir.

Valideyn, ailə isə şagirdin təhsilinin ilk başladığı yerdir. Məktəbə qədər şagird müəyyən bilik və bacarıqları valideynlərindən öyrənir. Valideyn-müəllim əməkdaşlığı da bu bilik və bacarıqların düzgün və daha effektiv formalaşması üçün vacibdir.

Müəllim-valideyn əməkdaşlığı nəticəsində şagirdə daha sağlam psixoloji təhsil mühiti yaranır, hər hansı əskikləri varsa, tamamlanır və dəstəklənərək sağlam psixoloji mühitlə təmin edilir. İndiki dövr üçün qarşılaşdığı problemi səmərəli üsulla həll edə bilən, əldə etdiyi bilik və bacarıqları düzgün və zamanında tətbiq edə bilən şəxsiyyətlər yetişdirmək üçün müəllimlə valideyn arasında güclü əməkdaşlıq olmalıdır. Əməkdaşlığın düzgün qurulması müəllimə şagirdi daha yaxından tanımağa, düzgün yanaşmasına şərait yaradır. Əməkdaşlıq nəticəsində müəllim istər şagirdi, istərsə də ailəsini daha yaxından tanıyaraq uşağın necə psixoloji mühitdən gəldiyini, hansı mədəniyyətdən olduğunu və ailəsinin xarakterini bilmiş olur, şagirdi ilə daha rahat ünsiyyət quraraq təlim-tədris prosesinə cəlb edə bilir.

Şagirdlərə düzgün istiqamətləndirilmiş təhsil verilməsinin təməlində müəllim-valideyn əməkdaşlığı dayanır. Bu əməkdaşlığı qurmaq üçün müəllim, valideyn və şagird üçbucağı arasında düzgün ünsiyyət qurulmalıdır. Ailənin şagird həyatında rolu çox böyükdür. Uşaq doğulduğu gündən, gözlərini açdığı andan ilk ailəsi ilə tanış olur. İlk təhsili o zamandan başlayır. Həm fiziki olaraq, həm psixoloji olaraq, istərsə də əqli olaraq təhsillə bağlı ilk qədəmlər ailədə atılır. Buna görə də şagirdin məktəbdən öncə ilk 6 yaşında yaşadığı mühit çox önəmlidir. Bu mühitin təsiri nəticəsində şagirddə ya mənfi, ya da müsbət davranışlar formalaşacaqdır [Gül, 2007].

Müəllimlər şagirdlərlə ünsiyyət qurarkən, təlim-tədris prosesində problemlərlə qarşılaşır. Hər bir şagird müxtəlif ailə mühitində böyüdüyünü nəzərə aldıqda, hər birində fərqli psixologiya və tərbiyə olduğu aşkarlanır. Bu səbəbdən müəllim təlim-tədris zamanı problemləri aradan qaldırmaq üçün ilk öncə şagirdlərin ailələrini yaxından tanımalıdır. Bunun üçün də müəllim-valideyn əməkdaşlığı lazımdır. Müəllim əməkdaşlıq edərək hər bir ailənin daxili qaydalarını, mədəniyyətini, tərbiyə metodunu, şagirddən gözləntilərinin nə olduğunu bilməlidir ki, sonradan münaqişələr yaranmasın. Ailəsini tanıdıqdan sonra müəllim düzgün yanaşma ilə şagirdi sinif mühitinə, təlim-tədris prosesinə daha rahat öyrəşməsinə kömək ola bilər [Kurtuldu, 2010].

Epştayn [1995] effektiv və uğurlu əməkdaşlıq üçün 6 əsas istiqamət qeyd etmişdir:

1) Valideynlik - övladlarını düzgün psixolojidə böyütmək üçün yaş dövrlərinə uyğun dəstəyin verilməsinə, evdə lazımlı mühitin yaradılmasına, valideynlərə kömək etmək;
2) Evdə öyrənmə - valideynləri təhsil proqramı ilə məlumatlandırmaqla övladlarının dərslərinə kömək etmələrinə dəstək olmaq;
3) Kommunikasiya - "Məktəbdən evə" və "evdən məktəbə" effektiv ünsiyyət qurmaqla şagirdin inkişafı barədə ailələrlə ünsiyyət qurma;
4) Könüllülük - Məktəb daxili fəaliyyətlərdə valideynlərin könüllü iştirak etməsinə zəmin yaratmaq;
5) Qərar vermə - Sinif daxili və məktəblə əlaqəli qərarların qəbul edilməsi zamanı valideynlərin də fikirlərinin alınması;
6) İcma ilə əməkdaşlıq-öyrənmə prosesini daha da inkişaf etdirmək üçün məktəb proqramlarının inkişaf etdirilməsi və müəyyənləşdirmə zamanı icmanın imkanlarından istifadə edilərək prosesə cəlb edilməsi.

Epştaynın [1995] qeyd etdiyi 6 istiqamət düzgün şəkildə tətbiq edildikdə məktəb-ailə-şagird üçbucağı effektiv şəkildə qurula və nəticədə əməkdaşlıqda, şagirdin akademik nailiyyətlərində yüksəliş müşahidə edilə bilər. Tan və Goldberg [2009] tərəfindən aparılan tədqiqat nəticəsində aşkarlanmışdır ki, məktəb-ailə əməkdaşlıq səviyyəsi yüksəldikcə şagirdlərin

akademik nailiyyətləri də yüksəlir. Günümüzdə valideynlərin övladlarına dərslərində dəstək ola bilməmələri, ünsiyyət qura bilməmələri, düzgün psixoloji yanaşmanı tətbiq edə bilməmələri müəllimlə valideyn arasında ünsiyyət qopuqluğunun mövcudluğunu, əməkdaşlığın olmadığını göstərir. [Gül, 2007]

Müəllim-valideyn əməkdaşlığının şagirdin akademik göstəricilərinə təsirini nəzərə alaraq cari zamanda əməkdaşlığa nə qədər önəm verildiyini, əməkdaşlığın hansı səviyyədə olduğunu müəyyənləşdirmək, xarici ədəbiyyatları analiz etdikdə müəllim-valideyn əməkdaşlığı haqqında kifayət qədər tədqiqatların mövcud olduğu halda yerli ədəbiyyatda bu mövzu üzrə hər hansı tədqiqata rastlanmaması bu tədqiqatı həyata keçirmək üçün zəmin yaratdı. Tədqiqatda məktəb-valideyn-şagird üçbucağının effektiv qurulmasına mane olan faktorların aşkarlanması və bunların aradan qaldırılması üçün tədbirlər görülməsi qarşıya məqsəd qoyulmuşdur. Tədqiqatda aşağıda qeyd edilmiş sualların cavabları axtarılmışdır:

1) Valideynlərə görə müəllim-valideyn əməkdaşlığı necədir?

2) Müəllimlər və valideynlər əməkdaşlığa mane olan faktorlar haqqında nə düşünürlər?

**Metodologiya**

Məktəb-valideyn əməkdaşlığı və valideynin məktəb həyatında rolunu müəyyənləşdirməyə çalışan bu tədqiqatda kəmiyyət metodundan istifadə edilmişdir.

**İştirakçılar**

Tədqiqatın iştirakçıları Bakı şəhərində yerləşən bir dövlət məktəbində işləyən 80 müəllim və övlad(lar)ı həmin məktəbdə oxuyan 250 valideyni əhatə edir. Tədqiqatda məlumat toplamaq üçün sorğudan istifadə edilmişdir. Sorğu tamamilə könüllülük prinsipinə əsaslanmışdır. 80 müəllim sorğuda iştirak etmişdir. Sorğuda iştirak edən valideyn sayı isə 250 olmuşdur.

**Data toplama vasitəsi**

Məktəb-valideyn əməkdaşlığı və valideynin məktəb həyatında rolunu müəyyənləşdirmək üçün Mehmet Ceylan [2010] tərəfindən tərtib edilən "Müəllim üçün məktəb-ailə əməkdaşlığı sorğusu" və "Valideynlər üçün məktəb-ailə əməkdaşlığı sorğusu" dan istifadə edilmişdir.

Sorğuların ilk bölümü şəxsi məlumatlar, digər bölümlər isə aşağıdakı başlıqlara uyğun olaraq tərtib edilmişdir:

1. Bölmə: Demoqrafik məlumatlar.
2. Bölmə: Məktəb-ailə əməkdaşlığına mane olan amillər üzrə müəllim-valideyn fikirləri.

**Məlumatın toplanması**

Tədqiqatda iştirak edən müəllim və valideynlər təsadüfi seçmə (random sample) üsulu ilə müəyyən edilmişdir. Sorğu vərəqləri paylanarkən könüllülük

prinsipinə əməl edilmişdir. Məlumatların anonim olaraq qeyd edilməli olduğu barədə iştirakçılar məlumatlandırılmışdır. Əldə edilən məlumatlardan sadəcə tədqiqat işində istifadə ediləcəyi və gizliliyin qorunacağı haqqında məlumat həm yazılı olaraq sorğu vərəqlərində qeyd edilmiş, həm də vərəqlər paylanarkən şifahi şəkildə bildirilmişdir.

## Nəticə

Müəllim müəllim-valideyn əməkdaşlığı səviyyəsinə dair düşüncələri Cədvəl 1-də təqdim edilmişdir:

*Cədvəl 1. Müəllimlərin məktəb-ailə əməkdaşlığı səviyyəsinə dair fikirləri (f=80)*

| | *İştirak səviyyəsi* | *Tezlik (f)* | *Faiz (%)* |
|---|---|---|---|
| Əməkdaşlıq səviyyəsi | Qənaətbəxşdir<br>Qismən qənaətbəxşdir<br>Qənaətbəxş deyil<br>Ümumi | 25<br>50<br>5<br>80 | 31.3<br>62.5<br>6.3<br>100 |

Cədvəl 1. təhlil edildikdə görünür ki, müəllimlərin 31,3%-i məktəb-ailə əməkdaşlığı səviyyəsini qənaətbəxş, 62,5%-i qismən qənaətbəxş, 5%-i isə qənaətbəxş olmadığını hesab edir. Nəticələrə əsasən demək olar ki, müəllimlərin nöqteyi-nəzərindən müəllim-valideyn əməkdaşlığı qismən qənaətbəxşdir. Gül [2007] qeyd edir ki, müəllim, valideyn və şagird üçbucağı koordinasiyalı şəkildə əməkdaşlıq edərsə, şagirdin akademik nailiyyətinin yüksəldiyi müşahidə edilmişdir. Bu səbəbdən müəllim-valideyn-şagird üçbucağı effektiv şəkildə qurulmalıdır. Effektiv və koordinasiyalı əməkdaşlıq etmək və düzgün müəllim-valideyn-şagird üçbucağını yaratmaq üçün əməkdaşlığa mane olan amillər aşkarlanarsa, həll yolları irəli sürülərək problemlər aradan qaldırıla biləcəyi güman edilir.

Valideynlərin müəllim-valideyn əməkdaşlığı ilə bağlı düşüncələri Cədvəl 2-də təqdim olunmuşdur:

*Cədvəl 2. Valideynlərin məktəb-ailə əməkdaşlığı səviyyəsinə dair fikirləri (f=250)*

| | *İştirak səviyyəsi* | *Tezlik (f)* | *Faiz (%)* |
|---|---|---|---|
| Əməkdaşlıq səviyyəsi | Qənaətbəxşdir<br>Qismən qənaətbəxşdir<br>Qənaətbəxş deyil<br>Ümumi | *186*<br>*54*<br>*9*<br>*250* | *74,4*<br>*21,6*<br>*3,6*<br>*100,0* |

Cədvəl 2-ni təhlil etdikdə görünür ki, valideynlərin 74,4%-i məktəb-ailə əməkdaşlıq səviyyəsini qənaətbəxş, 21,6%-i qismən qənaətbəxş, 3,6%-i isə qənaətbəxş olmadığını hesab edir. Valideynlərin qeyd etdikləri fikirlərinə əsasən nəticədə müəllim-valideyn əməkdaşlığının qənaətbəxş olduğu müşahidə edilir. Nəticədə müəllim-valideyn əməkdaşlığını müəllimlərin qismən qənaətbəxş, valideynlərin qənaətbəxş hesab etmələri bir təzad yaradır.

Cədvəl 3-də müəllimlərin müəllim-valideyn əməkdaşlığına mane olan amillərlə bağlı düşüncələri qeyd edilmişdir:

*Cədvəl 3. Məktəb-ailə əməkdaşlığına mane olan amillər haqqında* ***müəllimlərin*** *fikirləri (f=80)*

| *İfadələr* | *İştirak səviyyəsi* | *Sayı* | *Faiz* |
|---|---|---|---|
| 1.Valideynlərin iqtisadi problemləri məktəb-ailə əməkdaşlığına töhfə vermələrini çətinləşdirir. | Tamamilə razıyam | *15* | *18.8* |
| | Razıyam | *58* | *72.5* |
| | Fikrim yoxdur | *6* | *7.5* |
| | Razı deyiləm | *1* | *1.3* |
| | Qətiyyən razı deyiləm | *0* | *0* |
| | Ümumi | *80* | *100* |
| 2.Valideyn iclaslarının sayı kifayət qədər deyil. | Tamamilə razıyam | *5* | *6.3* |
| | Razıyam | *32* | *40.0* |
| | Fikrim yoxdur | *3* | *3.8* |
| | Razı deyiləm | *37* | *46.3* |
| | Qətiyyən razı deyiləm | *3* | *3.8* |
| | Ümumi | *80* | *100* |
| 3.Valideynlərin iş saatlarının uyğun olmaması məktəb-ailə işbirliyinə töhfə vermələrini çətinləşdirir. | Tamamilə razıyam | 13 | 16.3 |
| | Razıyam | 52 | 65.0 |
| | Fikrim yoxdur | 0 | 0.0 |
| | Razı deyiləm | 15 | 18.8 |
| | Qətiyyən razı deyiləm | 0 | 0.0 |
| | Ümumi | 80 | 100 |
| 4.Müəllimlər valideynlərə qarşı sərt, rəsmi və neqativ münasibət göstərirlər. | Tamamilə razıyam | 2 | 2.5 |
| | Razıyam | 7 | 8.8 |
| | Fikrim yoxdur | 1 | 1.3 |
| | Razı deyiləm | 43 | 53.8 |
| | Qətiyyən razı deyiləm | 27 | 33.8 |
| | Ümumi | 80 | 100.0 |
| 5.Valideynlər məktəbə gələndə onlardan pul istəniləcəyindən | Tamamilə razıyam | 2 | 2.5 |
| | Razıyam | 7 | 8.8 |
| | Fikrim yoxdur | 13 | 16.3 |
| | Razı deyiləm | 32 | 40.0 |

| | | | |
|---|---|---|---|
| narahatdırlar. | Qətiyyən razı deyiləm<br>Ümumi | 26<br>80 | 32.5<br>100.0 |
| 6.Valideynlər məktəbin mövcud olduğu əraziyə gəlmək üçün nəqliyyat problemi yaşayırlar. | Tamamilə razıyam<br>Razıyam<br>Fikrim yoxdur<br>Razı deyiləm<br>Qətiyyən razı deyiləm<br>Ümumi | 3<br>29<br>18<br>24<br>6<br>80 | 3.8<br>36.3<br>22.5<br>30.0<br>7.5<br>100.0 |

| | | | |
|---|---|---|---|
| 7. Bəzi valideynlərin utancaq olması və özlərini ifadə edə bilməmələri müəllimlə ünsiyyət qurmağa mənfi təsir edir. | Tamamilə razıyam<br>Razıyam<br>Fikrim yoxdur<br>Razı deyiləm<br>Qətiyyən razı deyiləm<br>Ümumi | 5<br>25<br>15<br>22<br>13<br>80 | 6.3<br>31.3<br>18.8<br>27.5<br>16.3<br>100.0 |
| *8.*Valideynlər məktəb prosesi haqqında lazımı qədər məlumata sahib deyillər. | Tamamilə razıyam<br>Razıyam<br>Fikrim yoxdur<br>Razı deyiləm<br>Qətiyyən razı deyiləm<br>Ümumi | 6<br>49<br>16<br>9<br>0<br>80 | 7.5<br>61.3<br>20.0<br>11.3<br>0.0<br>100.0 |
| *9.*Şagirdlər məktəb ilə bağlı tələb və xəbərləri valideynlərinə çatdırmırlar. | Tamamilə razıyam<br>Razıyam<br>Fikrim yoxdur<br>Razı deyiləm<br>Qətiyyən razı deyiləm<br>Ümumi | 4<br>46<br>15<br>15<br>0<br>80 | 5.0<br>57.5<br>18.8<br>18.8<br>0.0<br>100.0 |
| *10.*Müəllim və valideyn görüşləri mütəmadi olaraq planlanmır. | Tamamilə razıyam<br>Razıyam<br>Fikrim yoxdur<br>Razı deyiləm<br>Qətiyyən razı deyiləm<br>Ümumi | 4<br>21<br>14<br>37<br>4<br>80 | 5.0<br>26.3<br>17.5<br>46.3<br>5.0<br>100.0 |
| *11.* Valideynlər məktəbi təmin edə biləcəkləri kömək mövzusunda kifayət qədər məlumat sahibi deyillər. | Tamamilə razıyam<br>Razıyam<br>Fikrim yoxdur<br>Razı deyiləm<br>Qətiyyən razı deyiləm<br>Ümumi | 5<br>53<br>10<br>6<br>6<br>80 | 6.3<br>66.3<br>12.5<br>7.5<br>7.5<br>100.0 |

Cədvəl 3-dən göründüyü kimi, müəllimlər valideynlərin iqtisadi problemlərinin olması (91,3%=18,8+72,5), valideyn iclaslarının sayının az olması (46,3%=40,0+6,3), valideynlərin iş vaxtlarının uyğun olmaması (81,3%=65+16,3), valideynlərin məktəb prosesi haqqında məlumata sahib olmamaları (68,8%=61,3+7,5), şagirdlərin məktəb ilə bağlı məlumatları valideynlərə çatdırmaması (62,5%=57,5+5,0), valideynlərin məktəbə edə biləcəkləri köməklər haqqında məlumat sahibi olmamaları (72,6%=66,3+6,3) məktəb-ailə əməkdaşlığına mane olduğunu bildirmişlər. Nəticələr təhlil edilərkən "razıyam" və "tamamilə razıyam" seçimini seçənlərin nəticələri toplanaraq toplam faizlər qeyd edilmişdir.

Əlavə olaraq, müəllimlər valideynlərə qarşı sərt, mənfi münasibət göstərmədiklərini (87,6%=53,8+33,8), məktəbə gəldikdə valideynlərin onlardan pul istəniləcəyi ilə bağlı heç bir narahatlıqlarının olmadığını (72,5%=40,0+32,5) bildirmişlər.

Bundan əlavə, 40,1% müəllim valideynlərin məktəbin mövcud olduğu əraziyə gəlmələri üçün nəqliyyat problemi yaşamasının məktəb-ailə əməkdaşlığına mane olduğunu qeyd etsə də, 37,5% müəllim valideynlərin nəqliyyat problemi yaşamadığını bildirmişdir. 37,6% müəllim valideynlərin utancaq olmasının və özlərini ifadə etməkdə çətinlik çəkmələrinin məktəb-ailə əməkdaşlığına mane olduğunu qeyd etmiş, 43,8% müəllim isə bunun mane olmadığını bildirmişdir. 31,3% müəllim müəllim-valideyn görüşlərinin mütəmadi planlanmamasının əməkdaşlığa mane olduğunu qeyd etdiyi halda 51,3% müəllim belə bir maneənin olmadığını qeyd etmişdir.

Cədvəl 4-də valideynlərin məktəb-ailə əməkdaşlığına mane olan amillərlə bağlı düşüncələri qeyd edilmişdir:

*Cədvəl 4. Məktəb-ailə əməkdaşlığına mane olan amillər haqqında **valideynlərin** fikirləri (f=250)*

| *İfadələr* | *İştirak səviyyəsi* | *Say (f)* | *Faiz f* |
|---|---|---|---|
| *1.* İqtisadi sıxıntılarım məktəb-ailə əməkdaşlığına kifayət qədər töhfə verməyimi əngəlləyir. | Tamamilə razıyam<br>Razıyam<br>Fikrim yoxdur<br>Razı deyiləm<br>Qətiyyən razı deyiləm<br>Ümumi | 0<br>60<br>60<br>78<br>52<br>250 | 0,0<br>24,0<br>24,0<br>31,2<br>20,8<br>100,0 |
| *2.* Məktəbə gedəndə pul istəniləcəyi barəsində narahat oluram. | Tamamilə razıyam<br>Razıyam<br>Fikrim yoxdur<br>Razı deyiləm<br>Qətiyyən razı | 10<br>14<br>17<br>115<br>94 | 4,0<br>5,6<br>6,8<br>46,0<br>37,6 |

| | | | |
|---|---|---|---|
| | deyiləm<br>Ümumi | 250 | 100,0 |
| *3.*Valideyn iclaslarının sayının az olduğunu düşünürəm. | Tamamilə razıyam<br>Razıyam<br>Fikrim yoxdur<br>Razı deyiləm<br>Qətiyyən razı deyiləm<br>Ümumi | 13<br>45<br>8<br>108<br>76<br>250 | 5,2<br>18,0<br>3,2<br>43,2<br>30,4<br>100,0 |
| *4.*Müəllimlər valideynlərə qarşı sərt, rəsmi və mənfi davranış nümayiş etdirirlər. | Tamamilə razıyam<br>Razıyam<br>Fikrim yoxdur<br>Razı deyiləm<br>Qətiyyən razı deyiləm<br>Ümumi | 0<br>6<br>11<br>63<br>170<br>250 | 0,0<br>2,4<br>4,4<br>25,2<br>68,0<br>100,0 |
| *5.* Müəllimlər valideynlərə kifayət qədər vaxt ayırmırlar. | Tamamilə razıyam<br>Razıyam<br>Fikrim yoxdur<br>Razı deyiləm<br>Qətiyyən razı deyiləm<br>Ümumi | 0<br>3<br>0<br>103<br>144<br>250 | 0,0<br>1,2<br>0,0<br>41,2<br>57,6<br>100,0 |
| *6.* Məktəbin mövcud olduğu əraziyə gəlmək üçün nəqliyyat problemi yaşayırlar. | Tamamilə razıyam<br>Razıyam<br>Fikrim yoxdur<br>Razı deyiləm<br>Qətiyyən razı deyiləm<br>Ümumi | 22<br>33<br>37<br>80<br>78<br>250 | 8,8<br>13,2<br>14,8<br>32,0<br>31,2<br>100,0 |

| | | | |
|---|---|---|---|
| *7.* Məktəbin işləmə mexanizmi haqqında kifayət qədər məlumata sahib deyiləm. | Tamamilə razıyam<br>Razıyam<br>Fikrim yoxdur<br>Razı deyiləm<br>Qətiyyən razı deyiləm<br>Ümumi | 0<br>27<br>144<br>75<br>4<br>250 | 0,0<br>10,8<br>57,6<br>30,0<br>1,6<br>100,0 |
| *8.* Müəllim və valideyn görüşləri mütəmadi olaraq planlanmır. | Tamamilə razıyam<br>Razıyam<br>Fikrim yoxdur | 0<br>22<br>25 | 0,0<br>8,8<br>10,0 |

| | | | |
|---|---|---|---|
| | Razı deyiləm<br>Qətiyyən razı deyiləm<br>Ümumi | 140<br>63<br>250 | 56,0<br>25,2<br>100,0 |
| *9.* Uşağım məktəb ilə əlaqəli tələb və xəbərləri mənə çatdırmır. | Tamamilə razıyam<br>Razıyam<br>Fikrim yoxdur<br>Razı deyiləm<br>Qətiyyən razı deyiləm<br>Ümumi | 9<br>42<br>0<br>110<br>89<br>250 | 3,6<br>16,8<br>0,0<br>44,0<br>35,6<br>100,0 |
| *10.* Bizim (valideynlərin) istək və təkliflərimiz məktəb rəhbərliyi tərəfindən diqqətə alınmır. | Tamamilə razıyam<br>Razıyam<br>Fikrim yoxdur<br>Razı deyiləm<br>Qətiyyən razı deyiləm<br>Ümumi | 0<br>57<br>68<br>72<br>53<br>250 | 0,0<br>22,8<br>27,2<br>28,8<br>21,2<br>100,0 |
| *11.* Evdə başqa uşaqlarım var və mən evdə olmadığım vaxtlarda onlara baxa biləcək kimsə olmur. | Tamamilə razıyam<br>Razıyam<br>Fikrim yoxdur<br>Razı deyiləm<br>Qətiyyən razı deyiləm<br>Ümumi | 20<br>69<br>30<br>99<br>32<br>250 | 8,0<br>27,6<br>12,0<br>39,6<br>12,8<br>100,0 |
| *12.* İş saatlarım uyğun olmadığı üçün məktəb-ailə əməkdaşlığına kifayət qədər vaxt ayıra bilmirəm. | Tamamilə razıyam<br>Razıyam<br>Fikrim yoxdur<br>Razı deyiləm<br>Qətiyyən razı deyiləm<br>Ümumi | 9<br>36<br>67<br>63<br>75<br>250 | 3,6<br>14,4<br>26,8<br>25,2<br>30,0<br>100,0 |
| *13.* Məktəbə edə biləcəyim köməklər haqqında kifayət qədər məlumata sahib deyiləm. | Tamamilə razıyam<br>Razıyam<br>Fikrim yoxdur<br>Razı deyiləm<br>Qətiyyən razı deyiləm<br>Ümumi | 13<br>97<br>69<br>50<br>21<br>250 | 5,2<br>38,8<br>27,6<br>20,0<br>8,4<br>100,0 |

Cədvəl 4-ü təhlil etdikdə görünür ki, valideynlər məktəbə gedəndə pul istəniləcəyi barədə narahat olmadıqlarını (83,6%=46+37,6), valideyn iclaslarının sayının az olduğunu düşünmədiklərini (73,6%=43,2+30,4), müəllimlərin valideynlərə qarşı sərt davranış nümayiş etdirmədiklərini (93,2%=25,2+68,0), müəllimlərin valideynlərə kifayət qədər vaxt ayırdıqlarını (98,8%=41,2+57,6), müəllim-valideyn görüşlərinin mütəmadi planlandığını (81,2%=56+25,2), uşağın məktəb ilə bağlı məlumatları valideynə çatdırdığını (79,6%=44+35,6) qeyd etmiş və bu nüansların məktəb-ailə əməkdaşlığına mane olmadığını bildirmişlər. Nəticələr təhlil edildikdə "razı deyiləm" və "tamamilə razı deyiləm" seçimlərini qeyd edənlərin faizləri toplanaraq toplamı qeyd edilmişdir. Nəticələrə əsasən qeyd oluna bilər ki, müəllimlərin valideynlərlə münasibətləri, valideynlərə zaman ayırmaları, şagirdin məlumatı valideynə çatdırılması ilə bağlı hər hansı problem yaşanmamışdır. Qeyd edilən nüanslar müəllim-valideyn əməkdaşlığına maneə yaratmır.

Bundan əlavə 24% valideyn iqtisadi sıxıntılarının məktəbə töhfə vermələrini əngəllədiyini qeyd etdiyi halda 52% valideyn bunun mane olmadığını qeyd etmişdir. 22% valideyn məktəbin mövcud olduğu əraziyə gəlməkdə nəqliyyat problemi yaşadığını və bunun məktəb-ailə əməkdaşlığına mane olduğunu qeyd etmiş, amma 63,2% valideyn belə bir problem yaşanmadığını qeyd etmişlər. 22,8% valideyn istək və təkliflərinin rəhbərlik tərəfindən nəzərə alınmadığını bildirmiş, amma 27,2% valideyn bu haqda fikrinin olmadığını, 49,3% valideyn rəhbərlik tərəfindən nəzərə alındığını qeyd etmişlər. 35,6% valideyn evdə başqa uşaqlarının olduğunu və onlara baxacaq kimsə olmadığına görə məktəb-ailə əməkdaşlığına mane olduğunu qeyd etmiş, 52,4% valideyn isə əksinə belə bir problem olmadığını qeyd etmişdir. 18% valideyn iş saatlarına görə məktəb-ailə əməkdaşlığına vaxt ayıra bilmədiyini, 55,2% valideyn isə əksini bildirmişdir. 44% valideyn məktəbə edə biləcəkləri köməklər haqqında məlumata sahib olmadıqlarını və bunun məktəb-ailə əməkdaşlığına mane olduğunu qeyd etdiyi halda, 28,4% valideyn məlumatlı olduqlarını bildirmişlər. 57,6% valideyn məktəbin işləmə mexanizmi haqqında fikirlərinin olmadığını qeyd etmişlər.

## Nəticə

Aparılan tədqiqat nəticəsində aşkarlanmışdır ki, əməkdaşlığa mane olan amillərdən 1-i valideynlərin maddi imkanlarının aşağı səviyyədə olmasıdır. Çatalkaya [2020] tərəfindən aparılan araşdırma nəticəsində əldə edilən məlumatlar paralellik təşkil edir. Digər bir araşdırma Kahramanoğlu [2004] tərəfindən aparılmışdır ki, nəticədə maddi imkanları fərqlənən valideynlərin gözləntiləri də fərqli olur. Yüksək imkana malik valideynlərin övladlarından gözləntiləri yüksək olduğu üçün məktəblə daha sıx əlaqədə olacaqlar.

Araşdırma nəticəsində aşkarlanan digər bir mane olan amil valideynlərin iş saatlarının məktəbə gəlməyə və əlaqə saxlamağa mane olmasıdır. Peker [2020] tərəfindən aparılan tədqiqatda da eyni nəticə əldə edilmişdir. Ehtimal olunur ki, valideynlərin iş saatları çox olduğu üçün məktəbə gəlməkdə problem yaşayır. Bu nüansla rastlaşdıqda müəllim işləyən valideynlər üçün görüşləri həftə sonu təşkil edə və ya onlayn şəkildə görüş keçirməklə valideynləri müəllim-valideyn-şagird üçbucağına daxil olmağa cəlb edə bilər.

Əməkdaşlığa mane olan, tədqiqat nəticəsində aşkarlanan digər nüans valideynlərin təhsil səviyyəsinin aşağı olmasıdır. Çatalkaya [2020] araşdırma nəticəsində aşkarlamışdır ki, təhsil səviyyəsi yüksəldikcə valideynlərin əməkdaşlıq səviyyəsi də yüksəlir. Englund və digərləri [2004] tərəfindən aparılan araşdırmada da Çatalkaya [2020] ilə eyni nəticə əldə edilmişdir. Aparılan tədqiqatda əldə edilən nəticə digər tədqiqatlarla oxşarlıq təşkil edir. [Abbak, 2008, Canpolat, 2001; Kotaman, 2008;]. Amma bunun əksinə Balli və Wedmanın [1998] araşdırmasında isə valideynlərin təhsil səviyyəsi ilə əməkdaşlıq arasında əlaqə tapılmamışdır. Valideynlərin təhsil səviyyələrinin aşağı olması övlad(lar)ına dəstək olmaqda çətinlik yaşamasına səbəb ola bilər.

Mane olan amillərdən digəri valideynlərin məktəb prosesi haqqında məlumatsız olduğu aşkarlanmışdır. Arslan və Nuralda [2004] araşdırma aparmış və eyni nəticəni əldə etmişdir. Valideynlər məlumatsız olduğu üçün əməkdaşlıq etməyə nə etməli olduqlarını bilmirlər.

## Təkliflər

Məktəb-ailə əməkdaşlığını inkişaf etdirmək üçün valideynlərin məlumatsızlığını aradan qaldırmaq üçün seminarlar təşkil edilərək valideynləri maarifləndirmək, valideynlərə müəllim-valideyn-şagird üçbucağının nə olduğu, şagirdin akademik nailiyyətinə və gələcək həyatına necə təsir etdiyini, məktəbin valideynlərdən gözləntilərinin nə olduğunu aşılamaq olar. İş saatları uyğun olmayan valideynlər üçün iclasları iş saatlarından kənarda keçirmək və ya gələ bilməyən valideynləri məlumatdırmaqla, ev ziyarətlərini təşkil etməklə inkişaf edəcəyi güman edilir. Ev ziyarəti təşkil edilərkən pedaqoji məqsəd daşımalıdır və öncədən valideynlərlə söhbət edərək məlumatlandırılarsa, daha effektiv olacağı gözlənilir.

***Ədəbiyyat***

1. *Arslan, Ü. ve Nural, E. (2004). Okul öncesi eğitiminde okul- aile işbirliğinin önemi. Milli Eğitim Dergisi, 162, 99-108.*
2. *Epstein, J. L. (1995). School/family/community partnerships. Phi delta kappan, 76(9), 701.*
3. *Englund, M. M., Luckner, A. E., Whaley, G. J., & Egeland, B. (2004). Children's achievement in early elementary school: Longitudinal effects of*

*parental involvement, expectations, and quality of assistance. Journal of educational psychology, 96(4), 723.*

4. *Canpolat, T. (2001). Öğretmen Aile İşbirliği İle Aileleri Eğitim İhtiyaçlarının Belirlenmesi, Yayımlamamış Yüksek Lisans Tezi, Marmara Üniversitesi Fen Bilimleri Enstitüsü, İstanbul.*
5. *Çatalkaya, E. (2021). İlköğretim velilerine göre okul aile işbirliği. Yüksek lisans tezi, Aydın Adnan Menderes Üniversitesi Sosyal Bilimler Enstitüsü.*
6. *Gül, E. (2007). Eğitimde çocuk başarısı için okul aile işbirliği. Yüksek lisans tezi, Sosyal Bilimler Enstitüsü*
7. *Kahramanoğlu, E. (2004). Velilerin okul ve çocukları hakkındaki bilgileri ve bu bilgileri edinme yolları (Sakarya ili ilköğretim okulları örneği) (Yüksek lisans tezi, Sakarya Üniversitesi).*
8. *Kaşıkçı, M. (1996). İlköğretimde velilerle işbirliği kurmada öğretmenlerin kendi yeterlikleriyle ilgili görüşleri. Yayımlanmamış yüksek lisans tezi). Ankara Üniversitesi Sosyal Bilimler Enstitüsü, Ankara.*
9. *Kotoman, H. (2008). Türk Ana Babaların Çocuklarının Eğitim Öğretimlerine Katılım Düzeyleri. Eğitim Fakültesi Dergisi, 1, 135-149.*
10. *Kurtuldu, B.S. (2010). Okulöncesi eğitiminde okul aile ilişkilerinde yaşanan sorunların öğretmen ve veli görüşlerine dayalı olarak değerlendirilmesi (Yüksek lisans tezi, Selçuk Üniversitesi Sosyal Bilimler Enstitüsü).*
11. *Tan, E. T., & Goldberg, W. A. (2009). Parental school involvement in relation to children's grades and adaptation to school. Journal of applied developmental psychology, 30(4), 442-453*

**S.A.Osmanova**
**Xəzər Universiteti**
**osmanovasaide2@gmail.com**

# ÜMUMİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ ŞAGİRDLƏRİN AİLƏLƏRİNİN SOSİAL-İQTİSADİ VƏZİYYƏTLƏRİ AKADEMİK NƏTİCƏLƏRİ VƏ İXTİSAS SEÇİMLƏRİ

***Xülasə***

*Bu tədqiqat ümumi təhsil müəsissələrində şagirdlərin ailələrinin sosial-iqtisadi vəziyyətləri, akademik nəticələri və ixtisas seçimləri arasındakı əlaqəni və təsirlərini müəyyən etmək üçün həyata keçirilmişdir. Araşdırmanın əsas məqsədi təhsil müəssisələrində sosial-iqtisadi vəziyyəti aşağı olan mövcud şagirdlərin akademik uğurda və həmçinin ixtisas seçimi etdikləri zaman, sosial-iqtisadi vəziyyətlərinin təsirini müəyyən etmək üçün aparılmışdır. Əldə olunan məlumatlara əsasən müəyyən edilmişdir ki, sosial-iqtisadi vəziyyətlərinin aşağı olması onların akademik göstəricilərinə təsir edir və ixtisas seçimi etdikləri zaman çətinliklərlə qarşılaşdıqları da aşkar edilmişdir. Həmçinin araşdırmada keyfiyyət metodunun bir növü olan sənəd incələnməsindən istifadə edilmişdir. Məlumatların toplanması zamanı 2009-cu ildən bu günə qədər yazılan bir neçə məqalə və tezislər araşdırılmışdır. Əldə edilən nəticələrə əsasən şagirdlərin ailələrinin sosial-iqtisadi vəziyyətlərinin onların akademik nəticəsində və ixtisas seçimində təsirinin və rolunun böyük olduğu müəyyən edilmişdir.*

# ОБРАЗОВАТЕЛЬНЫЕ РЕЗУЛЬТАТЫ И ВЫБОР СПЕЦИАЛИЗАЦИИ СЕМЬЯМИ ОБУЧАЮЩИХСЯ ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ УЧРЕЖДЕНИЙ

***Резюме***

*Это исследование было проведено, чтобы определить взаимосвязь и влияние социально-экономического статуса семьи, успеваемости и основного выбора учащихся в общеобразовательных учреждениях. Основной целью исследования было определить влияние социально-экономического положения нынешних студентов с низким социально-экономическим статусом в учебных заведениях на успеваемость, а также при выборе специальности. На основе полученных данных определено, что их низкий социально-экономический статус влияет на их успеваемость, а также установлено, что они сталкиваются с трудностями при выборе специальности. В исследовании также использовался анализ документов, тип качественного метода. В ходе сбора данных были изучены несколько статей и тезисов, написанных с 2009 года по настоящее время. На основании полученных результатов определено, что социально-*

*экономическое положение семей студентов имеет большое влияние и роль на их академический результат и выбор специальности.*

# ACADEMIC RESULTS AND SPECIALIZATION CHOICES OF FAMILIES OF STUDENTS IN GENERAL EDUCATION INSTITUTIONS

***Summary***

*This study was conducted to determine the relationship and effects of family socioeconomic status, academic outcomes, and major choices of students in general education institutions. The main purpose of the research was to determine the effect of the socio-economic status of current students with low socio-economic status in educational institutions on academic success and also when choosing a major. Based on the obtained data, it was determined that their low socio-economic status affects their academic performance, and it was also found that they face difficulties when choosing a major. Also, document analysis, which is a type of qualitative method, was used in the research. During data collection, several articles and theses written from 2009 to the present day were examined. Based on the obtained results, it was determined that the socio-economic status of students' families has a great influence and role on their academic result and choice of specialty.*

***Açar sözlər:*** *sosial-iqtisadi vəziyyət, akademik nəticə, ixtisas seçimi*

***Ключевые слова:*** *социально-экономический статус, академический результат, выбор специальности*

***Key words:*** *socio-economic status, academic result, specialty choice*

## Giriş

Təhsildə imkan bərabərliyinin əhatə dairəsi ən aktual mövzulardan biri olaraq müəyyən edilmiş və zaman keçdikcə daha da genişlənmişdir. Təhsildə imkan bərabərliyi mövzusu 20-ci əsrin daha çox müzakirə olunan mövzularından olub, mühüm pedaqoji məsələyə çevrilmişdir. Əvvəlki dövrlərə nəzər yetirdikdə aydın olunur ki, təhsildə imkan bərabərliyi anlayışı daha sadə və aydın məna daşıyıb, hər bir şagirdin rəsmi məktəbdə oxuya bilməsi anlayışı kimi nəzərdə tutulmuşdur. Lakin zaman keçdikcə bu anlayış formasında dəyişikliklər baş verib yeni yanaşmalar mövcud oldu. Cəmiyyətdə mövcud olan hər bir fərd müxtəlif sosial-iqtisadi və mədəni vəziyyətdədir, bu səbəblərdən irəli gələrək təhsil proseslərində eyni səviyyədə iştirak edə bilmə imkanları olmur. Belə bir vəziyyət fərdin təhsildə akademik uğuruna da təsir göstərir. Həmçinin akademik uğura təsir göstəməklə yanaşı şagirdlərin ixtisas seçimi etdikləri zaman təsirini biruzə verir.

**Təhsildə bərabərsizlik**

Bərabərsizlik məsələsi günümüzdə sosial elmlərin ən mühim məsələlərindən birinə çevrilən və sosial iqtisadi quruluşuna görə getdikcə daha da genişlənmişdir. Bu bərabərsizliklər əsasən insanların aldıqları təhsil, sosial vəziyyətləri, insanların peşələri və yaşayış yerləri kimi bir çox təbəqədə açıq şəkildə aşkar olunur [Marshall, 2003: 210].

Təhsildə imkan bərabərliyi anlayışı cəmiyyətdə mövcud olan hər bir fərdin mənsub olduğu sosial təbəqədən və ailəsinin sosial-iqtisadi vəziyyətindən asılı olmayaraq, bilik bacarıqlarını artırıb və inkişaf etdirə biləcəyi təhsilin bərabər imkanlarla verilməsidir [Page və dig. 1980: 123]. Təhsil sistemi qurularkən elə bir şəkildə həyata keçirilməlidir ki, şagirdlərin sosial-iqtisadi vəziyyətlərindən irəli gələn əlverişsiz vəziyyətlər onların təhsil uğuruna çox az təsir göstərsin. Əgər bu məqsədə nail olunursa, təhsildə bərabərlik anlayışı formalaşıb tətbiq edilə biləcək [Glass, 1954: 24].

Təhsildə bərabərlik kontekstindəki meyarlardan ən əsas olanlardan biri sosial-iqtisadi vəziyyətlə akademik uğur arasındakı əlaqədir. Bir çox araşdırmalarda fərdlərdən asılı olmayaraq sosial-iqtisadi vəziyyətlə akademik uğurun onların təhsil göstəriciləri ilə əlaqəli olduğu qeydə alınmışdır [Broer və dig. 2019, 2020, 2019]. Şagirdlərin sosial-iqtisadi vəziyyətlətindən irəli gələn fərqliliklər onların eyni təhsil prosesində fərqli nəticələr əldə etmələrinə səbəb olur. Məktəblərdə nailiyyət fəqlərinə səbəb olan amillərdən biri şagirdlərin sosial-iqtisadi vəziyyətlərinin kompensasiya edilməməsidir [Akyüz və dig, 2014; 2010, 2019].

Demokratik cəmiyyətdə cəmiyyətin bütün təbəqələrindən olan insanların heç bir ayrı-seçkiliyə yol verilmədən bərabər təhsilə çıxışı nəzərdə tutulsa da, bu, tam mümkün deyil. Ailələrdə adam başına düşən gəlirin aşağı olması sosial təbəqələşmə sinif fərqləri təhsil imkanlarının bölgələrə bərabər çıxışına mane olan amillərdir [Celkan, 2016: 40].

Ümumilikdə bütün tələbələr eyni istəyə, bacarıqlara və bərabər çalışqanlığa malik deyillər. Bütün tələbələrə bərabər imkanlar təqdim edilsə də daha çox çalışqan daha çox istəkli və daha çox bacarıqlı olanlar daha müvəffəqiyyətli olacaqlar. Əlbətdə bu o demək deyil ki, tələbələrə təklif olunan imkanlar qeyri-bərabərdir. Bu o deməkdir ki, təhsildə bərabər imkanlar verilsə də heç də həmişə bərabər nəticələr alacağına zəmanət verilmir [Jencks et al., 1973: 37].

**Ailənin sosial-iqtisadi vəziyyətinin məktəb uğurlarına təsiri**

Mövcud olan məktəblər arasında müvəffəqiyyət fərqləri müxtəlif səviyyələrdə olsa da, ümumilikdə bütün ölkələrin qarşılaşdığı ən mühim problemden biridir [OECD, 2004]. Məktəblər arasında yaranan müvəffəqiyyət fərqlərinin yaranmasında bir sıra amillərin təsiri var və ən əsas amillərdən biri də şagirdlərin sosial-iqtisadi vəziyyətlərinin təsiridir. Problemin əsası bundan

ibarətdir ki, şagirdlərin sosial-iqtisadi vəziyyətləri onların uğurunda müəyyənedici amillərdən birinə çevrilir və buna görə də məktəblər arasında nailiyyətlərdə ciddi fərqlər yaranır. Məktəblər arasında müvəffəqiyyət fərqləri çox olduqda bu zaman akademik nailiyyətlər arasında da fərq yaradıb, məktəblərdə bu formada formalaşıb və şagirdlərin akademik müvəffəqiyyətləri təhsil aldıqları məktəbdən daha çox asılı olur [Ainscow və dig., 2016 , 2013, 2014]. Və bu səbəblərə əsasən şagirdin akademik nailiyyətləri təhsil aldığı məktəblə sıx bağlıdır [OECD, 2005, 2019]. Belə bir halda yüksək müvəffəqiyyət göstərən məktəblər daha çox sosial-iqtisadi vəziyyəti yaxşı olan şagirdlər üstünlüklü mövqe qazanırlar [Suna və dig, 1992]. Beləliklə, aydın olunur ki, məktəblər arasındakı nailiyyət fərqləri təhsildə bərabərliyi doğrulamadığının göstəricisidir [OECD, 2008, 2019].

**Ailənin sosial-iqtisadi vəziyyətinin ixtisas seçiminə və akademik nəticəyə təsiri**

Akademik uğur, şagirdlərin həyatına təsir edən əsas amildir. Uşaqlara düzgün hərtərəfli inkişaf verildiyi zaman onun idrak və psixososial inkişafı çox sağlam şəkildə baş verir və uğur əldə etmiş olur. Yüksək nailiyyətlərə malik olan fərdlər akademik nailiyyətləri aşağı olanlara nisbətən daha az antisosial davranış nümayiş etdirirlər. Buna görədə də, akademik uğursuzluq nəticəsində bu davranışları nümayiş etdirən fərdlərin akademik müvəffəqiyyətlərinə təsir edən amilləri ortaya çıxarmaq vacibdir [Donald, 1986; Erdoğdu, 2006].

Uşaqların ixtisas seçiminə təsir edən və böyük rol daşıyan amillərdən ən əsası ailənin sosial-iqtisadi vəziyyətidir [Grissmer, 2003; Ogunlade, 1973]. Təhsil səviyyəsi aşağı olan ailələrdə valideynlərin uşaqları ilə münasibətləri və həmcinin məktəb işlərində dəstəklərinin kifayət qədər olmamasının səbəbi öz peşələri haqqında biliyin və ya məlumatın məhdud olduğundandır [Irwin&Elley, 2013: 112]. Uşaqların vercəyi təhsil imkanlarının növünə və müddətinə təsir edən əsas amil valideynlərin iqtisadi vəziyyətidir [Elmacıoğlu, 2001]. Buna görə də uşaqların karyera inkişafında ailənin sosial-iqtisadi vəziyyəti mühim rol oynayır [Sukovieff, 1991]. Tələbələrin seçdikləri bal növünü və sosial vəziyyətlərini araştıran bir tədqiqatda aydın olmuşdur ki, ailədən gəlir səviyyəsi şagirdlərin universitetə qəbul imtahanında seçdikləri peşənin bal növünə təsir edən amildir [Khorshid&Sarıkaya, 2009].

Aparılan tədqiqatlarda şagirdlərin ali təhsilin verilməsi və aldıqları təhsil müddətində uğur qazanmasında ailənin sosial-iqtisadi vəziyyətinin vacibliyi əsas mühüm amil kimi qəbul edilir. Aydındır ki, təhsil həm özünü inkişaf etdirməkdə, həm də uşaqlarının inkişafında həyati əhəmiyyət kəsb edir.

**Ümumi təhsil müəssisələrində şagirdlərin ixtisas seçimi**

Orta məktəb illərində mövcud olan şagirdlərin gələcəkdə seçəcəkləri peşələrlə bağlı qərarlar verməli olduqları vaxt yeniyetməlik dövrünə təsadüf etdiyi kimi, bununla yanaşı həmçinin yeniyetməlik dövrünün gətirdiyi

problemlərlə də mübarizə aparırlar [Gülbahçe, 2009]. Yeniyetməlik dövründə fərdin sosial bacarıqlarının inkişaf etdirdiyi, müstəqilləşdiyi yeni əlaqələr qurduğu və həmçinin həyatı boyu davam edəcək davranışlar qazandığı bir dövrü əhatə edir [Conk, Başbakkal və Bolışık, 2018]. Yeniyetməlik dövründə fərdin peşə seçimi etməsinin əsasını fərdin özünü tanıması və peşəkar biliklərinin kifayət qədər çox olması təşkil edir. Fərdlər peşə seçimi etdikləri zaman seçdikləri peşə haqqında lazımi olan məlumatları toplayıb və daha sonra bu məlumatları qiymətləndirib ən sonda isə qərar qəbul edirlər [Çakar və Kulaksızoğlu, 1997; Doğan, 2010].

İxtisas seçimi son dərəcə mürəkkəb bir prosesi əhatə edir. İxtisas seçimi zamanı fərdlər maraqlar, qabiliyyətlər, dəyərlər və ehtiyaclar kimi psixoloji amillər, həmçinin sosial-iqtisadi səviyyə, cinsiyyət kimi sosial amillər təsirli olur. Ümumilikdə insanlar çoxlu potensiala malikdirlər və birdən çox peşə üçün uyğun olurlar. İnsanın müxtəlif qabiliyyətlərindən hansına peşəkar fəaliyyət vasitəsilə yönəlməsinin məqsədəuyğun olacağına ətraf mühitin, xüsusən də ailəsinin və sosial mövqeyinin gücləndirici və ya maneə törətdiyi münasibətlə müəyyən edilir [Kuzgun, 2000].

**Ümumi təhsil müəsissələrində şagirdlərin akademik nəticələri**

Şagirdlərin fərdi uğuru bir çox əlaqələrlə müəyyən olunur və bu əlaqələr ailələrin sosial statusu, öyrənmə mühitindən alınan rəylərin keyfiyyəti və tezliyi, öz-özünə idarə olunan təlim və motivasiya standartları və eləcə də öyrənmə - tədris strategiyaları arasındakı əlaqələrdir [Toth&Rudas, 2012]. Akademik nailiyyət ümumilikdə keçmiş və indiki mövcud olan ailənin və həmçinin icma və məktəb təcrübələrinin birləşməsinin funksiyasıdır və bu proses həm də ailə, icma və məktəb tarixinin bütövlüyünü tələb edir [Rivkin və dig, 2005].

Şagirdlər akademik uğurları və öyrənmələri ilə bir çox faktorlardan təsirlənə bilirlər. İlk öncə motivasiya şagirdlərin məktəb uğurlarına [Wentzel & Wigfield, 1998] və həmçinin öyrənmə və təcrübənin bütün mərhələlərinə təsir edən mühim dəyişəndir [Shunk, 2009]. Ümumilikdə öyrənmə mövzuları şagirdlərin öyrənməyə həvəsli və fəal olmasını təmin edəcək şəkildə təqdim edilməlidir [Seven&Engin, 2008].

Effektiv bir öyrənmə üçün öyrənən şəxs, yəni şagirdlər öyrənmə məsuliyyətini öz üzərlərinə götürməli və öyrənmədə fəal iştirak etməlidirlər. Bundan əlavə olaraq, öyrənməni daha uğurlu tətbiq etmək, həyata keçirmək və öyrənmə üçün ən uyğun strategiya istifadə edilməlidir. Akademik uğurun proqnozlaşdırıcısı kimi qeydə alınan [McInerney və dig, 2012] öyrənmə strategiyalarından istifadə etməklə fərd, həm formal təhsildə daha uğurlu ola biləcək, həm də formal təhsildən sonra yaşadığımız informasiya əsrində özünü təkmilləşdirə biləcək [Erdem, 2005]. Ümumilikdə akademik uğur üçün öyrənməyə ayrılan vaxtın da xüsusi əhəmiyyəti var. Akademik öyrənməyə

ayrılan vaxtın üç elementi olan ayrılmış vaxt, iştirak nisbəti və müvəffəqiyyət dərəcəsi tələbə uğuru ilə əlaqələndirilir [Fisher və dig, 1979, 1990].

**Metodologiya**

Tədqiqatın məqsədinə uyğun olaraq keyfiyyət metodlarından biri olan sənəd təhlilindən istifadə edilmişdir. Ümumilikdə tədqiqat metodunun keyfiyyət növü tədqiqatın araşdırdığı problemi araşdıran, şərh edən və həmçinin problemin təbii mühitindəki formasını anlamağa çalışan bir üsuldur [Quba&Lincoln, 1994; Klenke, 2016]. Bu çalışmada ümumi təhsil müəssisələrində şagirdlərin ailələrinin sosial-iqtisadi vəziyyətləri, akademik nəticələri və ixtisas seçimləri üzrə ədəbiyyat araşdırması metodundan istifadə edilmişdir. Məlumatların toplanmasında "Google Scholar" dan istifadə etməklə jurnallarda dərc olunmuş məqalələrdən istifadə edilmişdir

**Tapıntılar:**

Ümumi təhsil müəssisələrində şagirdlərin ailələrinin sosial-iqtisadi vəziyyətləri, akademik nəticələri və ixtisas seçimləri mövzusu və əhatə dairəsi ilə bağlı indiyə qədər edilən təriflər və ifadələr üzrə ədəbiyyat araşdırması aparılmışdır.

Tatlıcan [1990], araşdırmasında ailənin gəliri artdıqca sinifdə uğursuzluqların azalığını qeyd etmişdir. Məktəb uğursuzluğu araşdırmalarında bir çox səbəbdən irəli gələn bir problem olduğu müəyyən edilmişdir. Araşdırmalara əsasən ailənin məktəb uğurundakı rolunun danılmaz olduğu təsdiq olunmuşdur.

Salih [2017] həyata keçirdiyi tədqiqatda ailələrin sosial və iqtisadi vəziyyətlərinin fərdlərin təhsil prosesində istifadə edə biləcəyi maliyyə resurslarına, buna uyğun olaraq veriləcək əlavə materiallara, valideynlərin məktəb həyatına marağı və dəstəyinə təsir göstərdiyini vurğulamışdır. Yəni bu amillər həm şagirdlərin akademik uğurlarına, həm də universitetdən sonra əldə ediləcək qazanclar baxımından önəmli olduğunu qeydə almışdır.

Khan və digərləri [2015] araşdırmasında ailənin həm formal, həm də qeyri-rəsmi təhsil üzərində oynadığı rolun çox mühüm olduğunu və valideynin sosial-iqtisadi vəziyyəti, valideynin təhsilini və şagirdin akademik uğurunun müəyyən edilməsində ən yaxşı proqnozlaşdırıcısı olduğu bildirilir. Sosial-iqtisadi vəziyyət həyati əhəmiyyət kəsb edir. Hər bir valideynin sosial-iqtisadi vəziyyəti övladlarının akademik uğurun təsir etdiyini göstərir [Khan et al. 2015: 76-79]. Valideynlərin peşəkar səviyyəsi nə qədər aşağı olarsa, onların öz övladlarına verdiyi təhsil imkanları da bir o qədər aşağı olar. Valideynlərin peşəkar mövqeyi ilə verilən təhsilin miqdarı arasında birbaşa əlaqənin olduğu müəyyən edilir.

Atmaca [2019] araşdırmasında bənzər olaraq qeyd etmişdir ki, valideynlərin təhsil səviyyəsi və yüksək diploma malik olması həm ailə mədəni kapitalının formalaşmasına, həm də övladlarının akademik həyatına birbaşa

təsir edən mühüm amillərdir. Eyni akademik təcrübələri olan və əhəmiyyətli akademik nailiyyətlər əldə etmiş valideynlərin, yəni övladları üçün daha asan yol çəkmək, yolda olan maneələri görüb yolu onlardan təmizləmək bacarığı mühüm əhəmiyyət kəsb edən təyinedici amillərdən hesab edilməli olduğunu vurğulamışdır.

Super [1983] peşə seçimi yanaşmasına əsasən xüsusilə bu dövrün peşə seçimi baxımından kritik əhəmiyyətə malik olduğunu bildirir. Bu dövrdə yeniyetmədən öz peşələrinin xüsusiyyətlərini kəşf edərək, öz maraq və qabiliyyətlərini nəzərə alaraq dövrün sonunda peşə seçimi edə bilməsi gözlənilir.

Bir çox tədqiqatçıların peşə seçimi üzrə araşdırmalarında uşaqların peşə seçimindəki təsirləri və seçimlərini araşdırmışlar. Kıyak [2006] tədqiqatına əsasən ümumi təhsil müəssisələrindəki şagirdlərin ixtisas seçimi etdiklərində götürdükləri əsas meyar üzrə araşdırmasında müəyyən etmişdir ki, peşə seçiminə təsir edən faktorlar ümumiyyətlə, gələcəkdə seçdikləri peşə üzrə iş tapmaq, maraq, ixtisas üzrə istedad, dəyərlər, ailəninin istəkləri kimi sıralanmışdır. Başqa bir tədqiqatçı Baharın [2002] araşdırmasına əsasən, şagirdlərin sosial-iqtisadi vəziyyətləri onların ixtisas seçimləri ilə əlaqəli olduğu müəyyən edilmişdir.

**Nəticə, müzakirə və tövsiyə**

Araşdırma Ümumi təhsil müəssisələrində şagirdlərin ailələrinin sosial-iqtisadi vəziyyətləri, akademik nəticələri və ixtisas seçimləri mövzusu üzrə 3 hissədə analiz edilmişdir. İlk hissədə mövzu haqqında giriş məlumatlar, əhəmiyyəti və funksiyasından bəhs edilmişdir. Bu hissədə nəticə etibarilə ümumi təhsil müəssisələrində şagirdlərin sosial-iqtisadi vəziyyətlərinin rolunun böyük olduğu aşkar olunmuşdur. Ailələrin iqtisadi və sosial xüsusiyyətləri övladlarının maliyyə resurslarına təsiri böyükdür. Görünür ki, ailənin sosial-iqtisadi xüsusiyyətləri uşaqların təhsil və tərbiyəsinə həlledici təsir göstərir. Sosial-iqtisadi cəhətdən güclü olan ailələrin övladları daha yüksək prestijli universitet seçimi edə bilərkən, sosial-iqtisadi cəhətdən az təminatlı olan ailələrdən olan şagirdlər universitet seçimi edərkən ailə vəziyyətlərini nəzərə alaraq seçim etdiyi aşkar edilmişdir. İxtisas seçimi etdikləri zaman öz istək və potensiallarına görə deyil, daha çox ailə vəziyyətlərinə görə seçim etdikləri qeydə alınmışdır.

Sosial-iqtisadi vəziyyətdən yaranan bərabərsizlikləri azaltmaq üçün sosial-iqtisadi vəziyyəti pis olan universitet tələbələrinə dövlət tərəfindən maliyyə dəstəyi təmin edilməlidir. Tələbələrin ali təhsil müddətində yaşayış problemi yaşamaması təmin edilməlidir. Sosial-iqtisadi vəziyyəti aşağı olan ailələrin uşaqlarına təqaüdlər və kurslar verilməli, təhsil resursu dəstəyi təmin edilməlidir. Təhsildə mövcud bərabərsizlikləri aradan qaldırmaq üçün siyasətlər hazırlanmalıdır. Tələbələrin sosial-iqtisadi vəziyyətindən irəli gələn

çatışmazlıqlar bu siyasətlər vasitəsilə minimuma endirilməlidir. Bunun üçün iqtisadi cəhətdən imkansız qruplar üçün pulsuz incəsənət və idman fəaliyyəti kursları açılmalı, ailələr bu məsələ ilə bağlı məlumatlandırılmalı, övladlarını bu yerlərə göndərməyə təşviq edilməlidir. Bununla yanaşı, müəllimlər aşağı nəticə göstərən şagirdlərə hədəflər qoymağa kömək etməli və hansı sosial-iqtisadi mühitdən asılı olmayaraq, bu şagirdlər üçün "erkən düzəldici müdaxilə" və "nöqsanların aradan qaldırılması üçün iş" aparılmalıdır. Məktəbəqədər təhsilə diqqət yetirilməli və ya daha az üstünlüyü olan mühitlərdən mövcud şagirdlərə hədəf təyin edilməsində kömək etmək üçün əlverişsiz ərazilərdəki məktəblərə əlavə resurslar və materiallar təqdim edilməlidir.

***Ədəbiyyat***


1. *Akyüz, G. (2014). The effects of student and school factors on mathematics achievement in TIMSS 2011. Eğitim ve Bilim, 39(172), 150-162.*
2. *Broer, M., Bai, Y., & Fonseca, F. (2019). Socioeconomic inequality and educational outcomes: Evidence from twenty years of TIMSS. IEA. Springer open Access publication.*
3. *Celkan, H. (2016). Eğitim ve Toplum. M. Ç. Özdemir içinde, Eğitim Sosyolojisi (s. 40). Ankara: Pegem.*
4. *Conk, Z., Başbakkal, Z. ve Bolışık, B. (Eds). (2018). Pediatri Hemşireliği. Ankara: Akademisyen Kitab evi.*
5. *Celkan, H. (2016). Eğitim ve Toplum. M. Ç. Özdemir içinde, Eğitim Sosyolojisi (s. 40). Ankara: Pegem.*
6. *Çakar, M. ve Kulaksızoğlu, A. (1997). Lise son sınıf öğrencilerinin mesleki olgunluk düzeyleri ile denetim odağı düzeylerinin karşılaştırılması. Marmara Üniversitesi Atatürk Eğitim Fakültesi Eğitim Bilimleri Dergisi, 9, 113-131.*
7. *Erdem, A.R. (2005). Öğrenmede Etkili Yollar: Öğrenme Stratejileri ve Öğretimi. İlköğretim Online, 4(1), 1-6.*
8. *Fisher, C., Marliave, R. & Filby, N.N. (1979). Improving Teaching by Increasing" Academic Lear- ning Time.".Educational Leadership, 37(1), 52-54.*
9. *Gülbahçe, A. (2009). Farklı liselerde öğrenim gören öğrencilerin mesleki olgunluk düzeylerinin incelenmesi. Erzincan Eğitim Fakültesi Dergisi, 11(1), 131-144.*
10. *Glass, D. V. (Ed.) (1954) Social Mobility in Britain. London: Routledge and Kegan Paul, 24.*
11. *Kuzgun, Y. (2000). Meslek Danışmanlığı Kuramlar, Uy- gulamalar, Nobel Yayın Dağıtım, Ankara.*
12. *McInerney, D. M., Cheng, R. W. Y., Mok, M. M. C., & Lam, A. K. H. (2012). Academic self- concept and learning strategies direction of e ect on student academic achievement. Journal of Advanced Academics, 23(3), 249-269.*
13. *OECD (2008). Reviews of tertiary education Netherlands.*
14. *OECD (2004). Learningfor Tomorrow 's World: First Resultsfrom PISA. Paris.*

15. *Page, G. T., Thomas, J.B. and Marshall, A.R. (1980). International dictionary of education. Cambridge, MA: The MIT Press.*
16. *Rivkin, S. G., Hanushek, E. A. & Kain, J. F. (2005). Teachers, schools, and academic achievement. Econometrica, 73(2), 417-458.*
17. *Shunk, D.H. (2009). Öğrenme: Giriş, Sorunlar ve Tarihsel Bakış Açıları. İçinde Şahin, M. (Ed.), Öğrenme Teorileri. (1-26). Ankara: Nobel Yayıncılık.*
18. *Seven, M.A. & Engin, A.O. (2008). Öğrenmeyi Etkileyen Faktörler. Atatürk Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, 12(2), 189-212.*
19. *Suna, H. E., Gür, B. S., Gelbal, S., & Özer, M. (2020b). Fen lisesi öğrencilerinin sosyoekonomik arkaplanı ve yükseköğretime geçişteki tercihleri. Yükseköğretim Dergisi, 10(3), 356-370.*
20. *Toth, P. & Rudas, I.J. (2012). The examination of the learning variables of students at secondary vocational schools. International Journal of Innovative Interdisciplinary Research, 3, 68-81.*
21. *Yavuz, M., Gülmez, D., & ÖZKARAL, T. C. (2016). Fen lisesi öğrencilerinin akademik başarıları ile ilgili deneyimlerinin değerlendirilmesi. Kastamonu Eğitim Dergisi, 24(4), 1655-1672.*
22. *Wentzel, K. R. & Wigfield, A. (1998). Academic and social motivational in uences on students' academic performance. Educational Psychology Review,10(2), 155- 175.*

**S.E.Abdullayeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***seriyye2910@gmail.com***

# İBTİDAİ SİNİF MÜƏLLİMLƏRİNİN FƏALİYYƏTİNİN ƏSAS XÜSUSİYYƏTLƏRİ

***Xülasə***

*İbtidai sinif müəllimlərinin fəaliyyətinin əsas xüsusiyyətləri, müəllim peşəsi və müəllim şəxsiyyəti, peşə səriştəliliyinin meyarları, spesifik xüsusiyyətləri, həmçinin ibtidai sinif müəllimlərinin iş öhdəlikləri və onların yerinə yetirilməsi mühüm əhəmiyyət kəsb edir.*

*Tədqiqatımızın mövzusu "İbtidai sinif müəllimlərinin iş öhdəlikləri və onların yerinə yetirilməsinə təsir edən amillər" olduğundan məqaləmiz də buna həsr olunmuşdur. Məqalədə müəllimlik peşəsindən geniş şəkildə bəhs olunmuş və ibtidai sinif müəllimlərinin fəaliyyətinin əsas xüsusiyyətləri təhlil olunmuşdur.*

*Pedaqoji fəaliyyətdə peşəkarlıq və səriştəlilik müəllimi əsl yaradıcı, novator və peşəkar müəllim kimi xarakterizə edən keyfiyyətlərdir. Məqalədə müəllim peşəkarlığının və səriştəliliyinin mövcud problemləri, onları doğuran səbəblər təhlil edilmiş, ibtidai sinif müəllimliyinin mahiyyəti, məzmunu, spesifik xüsusiyyətləri, bu keyfiyyətlərin formalaşması yolları və müəllim hazırlığında onların tələbələrdə aşılanması kimi məsələlər geniş şəkildə şərh edilmişdir.*

# ОСНОВНЫЕ ЧЕРТЫ ДЕЯТЕЛЬНОСТИ УЧИТЕЛЯ НАЧАЛЬНЫХ КЛАССОВ

***Резюме***

*Большое значение имеют основные характеристики деятельности учителя начальных классов, профессия учителя и личность учителя, критерии профессиональной компетентности, специфические характеристики, а также трудовые обязанности учителя начальных классов и их выполнение.*

*Поскольку тема нашего исследования «Трудовые обязанности учителей начальных классов и факторы, влияющие на их выполнение», наша статья посвящена именно этому. В статье подробно рассмотрена профессия учителя и проанализированы основные особенности деятельности учителей начальных классов.*

*Профессионализм и компетентность в педагогической деятельности – качества, характеризующие педагога как подлинного творца, новатора и педагога-профессионала. В статье проанализированы актуальные проблемы профессионализма и компетентности педагогов, причины их обусловливающие, широко раскрыты сущность, содержание, специфические особенности обучения начальных классов, пути формирования этих качеств и их привитие учащимся при подготовке педагогов. интерпретируется.*

# THE MAİN FEATURES OF THE ACTİVİTY OF PRİMARY SCHOOL TEACHERS

***Summary***

*The main characteristics of primary school teachers' activity, teacher's profession and teacher's personality, criteria of professional competence, specific characteristics, as well as primary school teachers' work responsibilities and their fulfillment are of great importance.*

*Since the topic of our research is "Work responsibilities of primary school teachers and the factors affecting their fulfillment", our article is also dedicated to this. in the article, the teaching profession was discussed in detail and the main characteristics of the activities of primary school teachers were analyzed.*

*Professionalism and competence in pedagogical activity are the qualities that characterize a teacher as a true creator, innovator and professional teacher. in the article, the current problems of teacher professionalism and competence, the reasons that cause them are analyzed, the essence, content, specific characteristics of primary school teaching, the ways of formation of these qualities and issues such as their instillation in students in teacher traininghas been widely interpreted.*

***Açar sözlər:*** *müəllim, peşəkarlıq, fəaliyyət, öhdəlik, ibtidai*

***Ключевые слова:*** *учитель, профессионализм, активность, целеустремленность, элементарный*

***Key words:*** *teacher, professionalism, activity, commitment, elementary*

İbtidai sinif müəllimlərinin fəaliyyətinin səriştəliliyi, peşəkarlığı, əsas xüsusiyyətləri mühüm amillərdəndir. Peşəkarlıqla səriştəliliyin müəllimdə cəmləşməsi onun pedaqoji ustalığının və müəllim novatorluğunun əsas əlamətləri sayılır.

İbtidai sinif müəlliminin peşəkar olması, səriştəliliyi müəllim peşəsini daha nüfuzlu, müəllim əməyini daha maraqlı, daha məzmunlu və daha səmərəli edir. Müəllim peşəsinin, müəllim nüfuzunun böyük əhəmiyyəti vardır. Müəllimin peşəkarlığı, peşəsində səriştəli olması təhsilalanların daha yaxşı oxumalarına, təhsil prosesində daha dərin və hərtərəfli bilik, bacarıq və vərdişlər qazanmalarına, mənəvi-əxlaqi dəyərlərə daha mükəmməl yiyələnmələrinə, rəqabətqabiliyyətli mütəxəssislər kimi formalaşmalarına, hər bir vətəndaşın cəmiyyətin layiqli üzvü kimi tərbiyə olunmalarına, milli və ümumbəşəri dəyərləri mənimsəmələrinə əlverişli zəmin yaradır.

İbtidai sinif müəllimlərinin kiçikyaşlı məktəblilərin tərbiyəsi işinə hazırlanması prosesi çox məsuliyyətlidir. Sinif rəhbəri məktəbdən, sinif sistemindən, onun hüquq və vəzifələrindən, müəllim əməyini şərtləndirən maddi, mənəvi və normativ hallardan kənar qala bilməz. Əsas problem kimi təhsilin keyfiyyətini dəyişmək öndə dayanırsa, sistemin bütün komponentlərini

dəyişmək lazımdır. Müasir dövrdə təhsilin inkişaf etdiyi zamanda bilikli, bacarıqlı və qabiliyyətli kadrlara ehtiyac duyulur [5].

Müəllimin və əsas da ibtidai sinif müəlliminin pedaqoji fəaliyyətində mühüm amillərdən biri onun pedaqoji prosesi lahiyələndirmə və həyata keçirmə bacarığına malik olmasıdır. Bunu bacarmaq üçün qarşıya ilk növbədə pedaqoji məqsəd qoyulmalı və bu məqsədin mənası dərk olunmalıdır. İbtidai sinif müəllimi anlamalıdır ki, o dərsin mərhələlərini düzgün yerinə yetirməlidir [8].

Müəllimin hazırlığında və peşəkar fəaliyyətində diqqət yetirilən əsas məsələlərdən biri də təhsil sistemində önəmli yerlərdən birini tutan bu problemin olmasıdır. Pedaqoji fəaliyyətin səmərəliliyini, eyni zamanda, şəxsiyyətyönümlülüyünü və nəticəyönümlülüyünü təmin edən əsas amillərdən biri də bu keyfiyyətlərin nəzərə alınmasıdır. Müəllim peşəsini daha nüfuzlu, müəllim əməyini daha məzmunlu və daha səmərəli edən əsas amil müəllimin peşəkar olması və səriştəliliyidir.

Bunlarla yanaşı, peşəkar fəaliyyət üçün zəruri olan yüksək həssaslıq, humanizm, peşə mədəniyyəti, pedaqoji fəaliyyətin inkişafının düzgün istiqamətləndirilməsi və s. kimi xüsusiyyətlər də müəllim peşəkarlığını xarakterizə edən cəhətlərindəndir. Müəllim peşəkarlığını xarakterizə edən əsas cəhətlər peşəkar fəaliyyət üçün zəruri olan həssaslıq, humanizm, bununla belə peşə mədəniyyəti, pedaqoji fəaliyyətin inkişafının düzgün istiqamətləndirilməsi və bu kimi bir çox incəlikləri misal çəkmək olar [2].

Müəllimlərin peşə və ixtisas hazırlığının təkmilləşdirilməsi, onların özlərinin yeniliyə maraq göstərməsi, daim öz peşə və ixtisas bilik, bacarıq və vərdişlərini artırması, özünütəhsil, özünütərbiyə və pedaqoji yaradıcılıqla məşğul olması onun peşəkar və səriştəli pedaqoq kimi formalaşmasının əsasında durur. Müəllim ali məktəbdə aldığı biliklərlə, yiyələndiyi metodika ilə kifayətlənməyərək və daim öz üzərində işləməklə peşəkar müəllim kimi formalaşa bilər [1].

İbtidai sinif müəlliminin iş fəaliyyətinin əsas xüsusiyyətlərinin inkişafı, peşəkarlıq və səriştəlilik səviyyəsinin artması onun pedaqoji fəaliyyəti ilə birbaşa bağlı olan bir prosesdir. Bu hər şeydən əvvəl pedaqoji fəaliyyətin özünün daim yeniliklərə tələbatının olması ilə bağlıdır. Cəmiyyətin inkişaf sürəti, ibtidai sinif şagirdlərinin daha çox yeniliklərə meyl etməsi, məktəbdə aparılan təlim və tərbiyə işlərinin cəmiyyətin artan tələbləri ilə uzlaşdırılmasını tələb edir [9].

Məktəb, dərs, müəllim şagirdləri özünə cəlb etməlidir. Şagirdlər hər gün bir yeniliklərlə qarşılaşacaqlarını, yeni biliklər əldə edəcəklərini səbrsizliklə gözləməli, məktəbə getməyə, müəllimlərlə ünsiyyətdə olmağa maraqlı olmalıdırlar. Bunu yaradan isə müəllimlərdir. O müəllimlər ki, onlar pedaqoji prosesin bütün incəliklərinə bələddirlər, şagirdlərlə işləməkdən nəinki

yorulmurlar, həm də bu işdən zövq alırlar, məktəblə, dərslə, öyrətməklə yaşayırlar. Yüksək peşəkarlığa və səriştəliliyə malik olan belə müəllimlərin işi də, dərsləri də maraqlıdır, məzmunludur. Bütün bunlar müəllimdən daim öz üzərində işləməyi, peşəkarlığını təkmilləşdirməyi tələb etməklə yanaşı, yaradıcılıq imkanlarını genişləndirməyi, yeniliklər axtarmağı da tələb edir.

İbtidai sinif müəllim peşəsi və müəllim şəxsiyyəti, onların peşə səriştəliliyinin meyarları, spesifik xüsusiyyətləri fəaliyyətin səmərəli şəkildə həyata keçirilməsinə gətirib çıxarır. Peşəkarlıq və səriştəlilik müəllim üçün vacib olan ən mühüm keyfiyyətlər sırasında ilk yerlərdən birini tutur [3]. Müəllimin peşəkarlığı və səriştəliliyi müəllimin pedaqoji prosesdə öz fəaliyyətini peşəkarcasına yerinə yetirə bilməsi və bu prosesə səriştəli yanaşmasıdır. Başqa sözlə, yiyələndiyi peşənin bütün incəliklərini dərindən bilməsi, müəllimlik fəaliyyətini ustalıqla yerinə yetirməsi, həll edəcəyi problemi elmi şəkildə, optimal metodlarla reallaşdıra bilməsidir.

Peşəkarlıqla səriştəlilik bir-biri ilə elə sıx əlaqəlidir ki, bunların birinə malik olub, digərinə yiyələnməmək mümkün deyildir. Lakin buradakı keçid və ardıcıllığı da nəzərə almaq vacibdir.

Peşəkarlıq – müəllimin lazımi biliyə, bacarıqlara, şagirdlərlə yaradıcı şəkildə işləyə bilmək texnologiyalarına sahib olması, pedaqoji prosesin incəliklərinə dərindən yiyələnməsidir. Səriştəlilik – müəllimin pedaqoji prosesi məharətlə, daha əlverişli metodlarla reallaşdıra bilməsidir. Əldə olunmuş bilik və bacarıqları praktiki fəaliyyətdə effektiv və səmərəli tətbiq etmək qabiliyyətidir. O, şəxsin qazandığı bilik və bacarıqların konkret fəaliyyətin nəticəsinə çevrilməsini təmin edir. İbtidai sinif müəllimləri peşə qabiliyyətləri və bacarıqlarına sahib olmalı, şagirdlərlə fəaliyyət zamanı peşəkar və səriştəli olmalıdır [5].

Peşəkar və səriştəli müəllimlər daim yeniliklər axtarması, yeniliyə meylliyi, pedaqoji prosesə yaradıcı yanaşmaları, mövcud pedaqogikanın müəyyənləşdirdiyi müasir yanaşma tərzlərindən məharətlə istifadə etmələri ilə seçilən müəllimlərdir ki, onların tədris etdikləri dərslər və apardıqları tədbirlər də özünün orijinallığı ilə seçilir. Təcrübə göstərir ki, müəllim peşəkarlığı yüksək olduqda o, bu peşəkarlığı daha da dərinləşdirməyə, yeniləşdirməyə və daim axtarışda olmağa meylli olur.

Müəllimin peşəkarlıq fəaliyyəti cəmiyyətin məqsədləri və tələbatları ilə sıx əlaqəli prosesdir. Buna görə də pedaqoji fəaliyyətin məzmunu, forma və metodları cəmiyyətin bu sahədəki tələbatlarını əsas götürməklə reallaşdırılmalıdır. Müəllimin peşəkar fəaliyyəti mürəkkəb, çoxcəhətli, problemlərlə zəngin, onların həlli isə zehni gərginlik, qüvvə, bacarıq, axtarış və daim yeniləşmə tələb edən fəaliyyətdir. Peşəkarlıq pedaqoji fəaliyyətdəki problemlərin və vəzifələrin yaradıcı, həm də yüksək səviyyədə yerinə yetirilməsidir [6].

Müəllim daim özünüinkişafın qayğısına qalmalıdır. Bilik və bacarıqlarını təhsilin məqsədinə, onun qarşısında duran müasir vəzifələrə çatdırmağı bacarmalı, yeni biliklərə, müasir təlim və tərbiyə metodlarına yiyələnməklə özünü təkmilləşdirməlidir.

Hər bir peşənin özünəməxsus elə xüsusiyyətləri vardır ki, bunları nəzərə almadan, onların mahiyyətinə varmadan həmin peşə sahəsində yüksək müvəffəqiyyət qazanmaq mümkün deyildir. Müəllim peşəsi də bunlardan biridir. Bu peşənin ixtisasdan asılı olmayaraq və bütün ixtisaslara uyğun gələn elə xüsusiyyətləri vardır ki, onları heç bir başqa peşə, ixtisasla müqayisə etmək mümkün deyildir. Bu, yalnız müəllimlik peşəsi ilə bağlı olan spesifik xüsusiyyətlərdir ki, bilavasitə bu peşə üçün xasdır [4].

Müəllimin pedaqoji fəaliyyətində yaradıcılıq meyllərinin olması bilavasitə onun pedaqoji bacarıqları ilə əlaqədardır. Müəllimin pedaqoji bacarıqları yüksək səviyyədə olduqda, mövcud qayda-qanunlar bu bacarıqlar qarşısında sadə, asan göründükdə müəllimin yaradıcı düşüncəsi özünü göstərir. Bu baxımdan müəllimin pedaqoji bacarıqlarının səviyyəsi yüksək olduqca və ya yüksəldikcə onun yaradıcı imkanları da artır, çoxalır.

İbtidai siniflərdən başlayaraq şagirdlərə biliklər verməklə yanaşı onlarda müəyyən keyfiyyət və dəyərlərin formalaşmasına, təlimin tərbiyəedici xarakterinə xüsusi diqqət göstərmək lazımdır. Dərsin tərbiyəvi əhəmiyyətini təmin edən mənəvi zənginliyə, əxlaqi saflığa, fiziki kamilliyə malik olan insanlar yetişdirmək hər bir müəllimin qarşısına aktual bir məsələ kimi qoyulur. Bu keyfiyyətləri şagirdlərdə formalaşdırmağın ən səmərəli yolu müəllimin şəxsi nümunəsidir.

İbtidai sinif müəllimi öz peşəsinə nə qədər peşəkar yanaşsa, onun işindən şagirdlərlə işləməsindən zövq almasına, yüksək ruhla fəaliyyət göstərməsinə və məhsuldar işləməsinə zəmin yaradır, yeni-yeni uğur qazanmağa həvəsləndirir. İşini, sənətini sevən müəllimlər dərsdən, işdən, eyni zamanda şagirdlərdən heç vaxt şikayət etmirlər. Tam əksinə, müəllimlər şagirdlərlə ünsiyyətdə daha emosional əhval-ruhiyyədə olurlar. Ən maraqlısı isə odur ki, bu cür müəllimlərin dərslərində şagirdlər böyük həvəslə iştirak edir, ən əsası isə gərginlikdən uzaq olur, öyrənməyə, yeni biliklər əldə etməyə can atırlar. Müəllim peşəsi sosial hadisə və incəsənət kimi olduqca mürəkkəb struktura malikdir.

### *Ədəbiyyat*

1. *Həsənov M., Cəfərova N., Bəhmənova C. İbtidai sinif müəllimləri üçün kurikulumun məzmunu və həyata keçirilməsi yolları. Bakı: Elm və təhsil, 2014, 72 s.*
2. *Rüstəmov F.A. Pedaqogika tarixi (dərslik), Nurlan, 2006, 748 s.*
3. *N. Kazımov "Məktəb pedaqogikası" Bakı - 2009.*

4. *Musayev İ.V. Müəllimin və sinif rəhbərinin peşə fəaliyyətinin xüsusiyyətləri. Pedaqoji universitet və institut tələbələri üçün dərs vəsaiti. Bakı: ADPU, 1996, 132 s.*
5. *Müəllimin pedaqoji qabiliyyətləri, https://aztehsil.com/news/6795-müəllimin-pedaqoji-qabiliyyətləri.html)*
6. *Kərimov Y.Ş. Sinif müəllimi hazırlığının məzmununun təkmilləşdirilməsi istiqamətləri. / "Ümumtəhsil məktəblərinin aktual problemləri" mövzusunda elmi-praktik konfransın tezisləri, Bakı - 1996, s.26.*
7. *Kazımov N.M., Tətbiqi pedaqogika-İbtidai təhsilin pedaqogikası və metodikası ixtisası üzrə dərslik, Bakı: 2010, 328 s.*
8. *İlyasov M. "Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri" monoqrafiya*
9. *İsmixanov M.A. Pedaqogikanın əsasları. Bakı: Nafta-Pressa, 2003, 235 s.*
10. *Abbasov A.N.,Əlizadə H.Ə. Pedaqogika. Bakı: Renessans, 2000, 202s.*

**N.N.Əmiraslanova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***aysuamiraslanova474@gmail.com***

# YAZI VƏ DİL QAYDASI MƏZMUN XƏTTİ ÜZRƏ İŞLƏRİN İNTEQRATİV TƏŞKİLİ YAZI BACARIQLARININ TƏKMİLLƏŞDİRİLMƏSİ VASİTƏSİ KİMİ

***Xülasə***

*Məzmun xətləri ümumi təlim nəticələrinin reallaşdırılması üçün müəyyən olunan fənn kurikulumunun zəruri hissəsi olub, şagirdlərin əldə edəcəyi bilik və bacarıqları daha aydın təsvir etmək və onu sistemləşdirmək məqsədi daşıyır. Məqalədə yazı və dil qaydaları məzmun xətti üzrə işlərin inteqrativ təşkilinin yazı bacarıqlarının təkmilləşdirilməsinə təsiri aydınlaşdırılmışdır.*

*Azərbaycan dili kurikulumu hazırlanarkən şagirdlərin məntiqi, tənqidi, yaradıcı təfəkkürlərinin inkişaf etdirilməsi məqsədi ilə onların bir-birləri ilə ünsiyyəti, əməkdaşlığı, oxu bacarıqları, müxtəlif tipli yazı nümunələri, gələcək peşə fəaliyyətində yararlı olan mühüm bacarıqlarının formalaşdırılması əsas mətləb olmuşdur.*

*Yazılmış məqalədən belə nəticəyə gəlmək olar ki, fəal interaktiv dərslərdə inteqrasiya yalnız fənlərarası və fəndaxili deyil, məzmun standartlarının öz daxilində də mövcuddur.*

# ИНТЕГРАТИВНАЯ ОРГАНИЗАЦИЯ РАБОТЫ ПО ПИСЬМЕННЫМ И ЯЗЫКОВЫМ НАПРАВЛЕНИЯМ СОДЕРЖАНИЯ КАК СРЕДСТВО СОВЕРШЕНСТВОВАНИЯ ПИСЬМЕННЫХ НАВЫКОВ

***Резюме***

*Линии содержания являются необходимой частью предметной программы, определенной для реализации общих результатов обучения, и направлены на более четкое описание и систематизацию знаний и навыков, которые приобретут учащиеся. В статье выясняется влияние интегративной организации работ на содержательную линию письма и языковые правила на совершенствование навыков письма.*

*Для развития логического, критического и творческого мышления студентов основной целью было развитие у них навыков общения, сотрудничества, чтения, различных типов образцов письма, важных навыков, полезных в их будущей профессиональной деятельности.*

*Из написанной статьи можно сделать вывод, что интеграция в активных интерактивных уроках носит не только междисциплинарный и внутрипредметный характер, но и существует в рамках самих содержательных стандартов.*

# INTEGRATIVE ORGANIZATION OF WORK ACROSS WRITING AND LANGUAGE CONTENT LINES AS A TOOL FOR IMPROVING WRITING SKILLS

***Summary***

*Content lines are a necessary part of the subject curriculum defined for the realization of general learning outcomes, and aim to more clearly describe and systematize the knowledge and skills that students will acquire. In the article, the effect of the integrative organization of works on the content line of writing and language rules on the improvement of writing skills is clarified.*

*In order to develop the logical, critical and creative thinking of the students, the main goal was to develop their communication, cooperation, reading skills, different types of writing samples, important skills useful in their future professional activities.*

*It can be concluded from the written article that integration in active interactive lessons is not only interdisciplinary and intra-disciplinary, but also exists within the content standards themselves.*

***Açar sözlər:*** *yazı, dil qaydası, məzmun xətti, inteqrativlik, dərs, Azərbaycan dili*

***Ключевые слова:*** *письмо, языковой порядок, содержательная линия, интегративный, урок, азербайджанский язык*

***Key words:*** *writing, language order, content line, integrative, lesson, Azerbaijani language*

Azərbaycan dövlətinin bütün sahələr üzrə apardığı müdrik siyasətinin ən ümdəsi təhsil sahəsində, eləcə də milli və fənn kurikulumlarının yaradılması ilə bağlı aparılan islahatlar ilə bağlıdır. Müasir kurikulumların hazırlanmasında şagirdlərin idrak fəallığının inkişafı üçün yeni məzmun xətləri qəbul olundu. Şübhəsiz, bu yanaşmalar tədrisin keyfiyyətinin artırılması ilə yanaşı, dünya təhsil sisteminə inteqrasiyanı da gücləndirdi.

Məzmun xətləri ümumi təlim nəticələrinin reallaşdırılması üçün müəyyən olunan fənn kurikulumunun zəruri hissəsi olub, şagirdlərin əldə edəcəyi bilik və bacarıqları daha aydın təsvir etmək və onu sistemləşdirmək məqsədi daşıyır. Dil tədrisi ilə bağlı kompetensiyaları “başa düşmə” (dərk etmə) və “başa salma” şəklində qruplaşdırmaq mümkündür. Birinci qrupa oxumaq və dinləmək, ikinci qrupa isə danışmaq və yazmaq kimi bacarıqları daxildir. Azərbaycan dili ilə bağlı məzmun xətləri sadalanan bacarıqları, həmçinin dil qaydalarını əhatə edir [4, s.8].

Azərbaycan dili kurikulumu hazırlanarkən şagirdlərin məntiqi, tənqidi, yaradıcı təfəkkürlərinin inkişaf etdirilməsi məqsədi ilə onların bir-birləri ilə ünsiyyəti, əməkdaşlığı, oxu bacarıqları, müxtəlif tipli yazı nümunələri, gələcək peşə fəaliyyətində yararlı olan mühüm bacarıqlarının formalaşdırılması əsas

mətləb olmuşdur. Elə bu səbəbdən də Azərbaycan dili üzrə təlimin məqsəd və vəzifələrinə uyğun olaraq məzmun xətləri dörddür və aşağıdakılardır:

1. Dinləyib-anlama, danışma
2. Oxu
3. Yazı
4. Dil qaydaları

Məqalədə üçüncü və dördüncü məzmun xətləri olan *yazı və dil qaydalarının* inteqrativ təşkilindən bəhs edəcəyik. Öncə hər iki məzmun xətti haqqında qısa məlumat verək:

Yazı – şagirdlərin duyğu və düşüncələrinin dil normalarına uyğun qaydada nəqli, təsviri, mühakimə xarakterli rabitəli mətnlər formasında ifadəsini təmin edir. Yazı qoyulmuş hər hansı problem, yaxud mövzu ilə bağlı fikir və mülahizələrin müvafiq formada hazırlanmasını təmin edir. Ədəbi dilin normalarını gözləməklə şagirdlərin tədqiqatçılıq və təşkilatçılıq bacarıqlarını nümayiş etdirməyə imkan yaradır.

Dil qaydaları – bu məzmun xətti dilin fonetik, leksik və qrammatik quruluşu ilə bağlı ən zəruri biliklərin yığcam, sadə, aydın qayda və şərhlər formasında şagirdlərə çatdırılmasını, orfoqrafik qaydalara riayət etdiyini, durğu işarələrindən yerli-yerində düzgün istifadə olunmasını təmin edir. Şagirdlərin həm oxu, həm də yazı qabiliyyətlərinin inkişafı üçün zəmin yaradır.

Yazı özünüifadə bacarığıdır. Danışma kimi, onun da əsas məqsədi hiss və düşüncələri, məlumatları başqalarına çatdırmaqdır. Lakin danışma ilə müqayisədə yazıda ədəbi dilin normalarına daha çox diqqət yetirilir.

Orta məktəbdə yazı bacarığının inkişafı bir neçə mərhələdən ibarətdir: 1) hüsnxət normalarına riayət etmək, 2) orfoqrafik normalara uyğun yazmaq, 3) alınmış məlumatı öz sözləri ilə ifadə etmək, 4) hiss və düşüncələrini yazıda ifadə etmək. Bunun üçün üzündən köçürmə, imla, ifadə, inşa və ya esse kimi formalardan istifadə edilir.

Yazı bacarığında ən çətin mərhələ 4-cü mərhələdir. Əslinə qalsa, fikirləri ədəbi dilin normalarına uyğun yazılı ifadə etmək, bu bacarıq üzrə son məqsəddir. Buna görə də onun rüşeymlərini lap aşağı səviyyələrdə yaratmaq lazımdır. Bunun geniş yayılmış növü essedir. Lakin təəssüf ki, bizdə esse üçün çox zaman mücərrəd mövzular seçilir. İstənilən fəaliyyət növündə olduğu kimi, inşa yazısı da motivasiyadan başlamalıdır. İnşa yazmağa hazırlaşan şagirddə yatmış fikirləri oyatmaq, verilmiş mövzu ilə bağlı onun beynini və duyğularını qıcıqlandırmaq lazımdır. Şagirdi elə bir vəziyyətə gətirmək lazımdır ki, onda öz fikirlərini ifadə etmək zərurəti yaransın.

Yazı fəaliyyəti çox zaman digər məzmun standartları ilə inteqrasiya olu nur. Məsələn, ifadə - dinləmə ilə yazının inteqrasiyasıdır. Esse də oxu ilə inteqrasiya olunsa, daha yaxşı nəticələr əldə etmək olar. Bu zaman oxunmuş mətn yazı fəaliyyəti üçün motivasiya rolunu oynaya bilər. Əsərin qəhrəmanına

məktub yazmaq, mətnin müəyyən hissəsini oxuduqdan sonra davamı ilə bağlı öz variantını yazmaq və s. yazıda özünüifadə bacarığını inkişaf etdirən maraqlı üsullardır [6].

Azərbaycan dilinin tədrisində əhəmiyyətini qorumaqda olan və orta məktəblərdə geniş istifadə olunan bir sıra yazı növləri vardır:

- İmla
- İfadə
- İnşa
- Rəy-inşa
- Esse
- Əməli yazılar

Şagirdlər yazının növlərini səhvsiz, dil normalarına uyğun, durğu işarələrini yerli yerində və s. yazmaq üçün dil qaydalarını bilməlidirlər. Ənənəvi təlim üçün daha çox xarakterik olan dil qaydaları məzmun xətti müasir mərhələdə fərqli məqsəd daşısa da, öz önəmini itirməmiş, özül, bünövrə rolunu oynamağa davam edir. Bildiyimiz kimi V-XI sinif Azərbaycan dili dərsliklərinin strukturu mətnlər üzrə dil qaydalarının mənimsənilməsi şəklindədir. Bu üsul Avropanın inkişaf etmiş bir çox ölkələrində illərdir istifadə olunurdu. Kurikulumun əsas fərqləndirici və təqdirəlayiq cəhətlərindən biri də mətnlər üzrə işlərdir. Elmi, bədii və s. mətnlər şagirdlərin diqqətini daha çox cəlb edir, olar həm yeni məlumatlar əldə edir, həm oxu texnikasına yiyələnir, həm də lazımi dil qaydalarının öyrənilməsinə çalışırlar. Bələdçi müəllim mətnlərin oxusunu təşkil edərkən yönləndirici suallar verməli, hər bir mövzunun məqsədindən irəli gələn nəticəyə çatmağın yollarını ustaqlıqla təşkil etməlidir.

Dil qaydaları məzmun xətti şagirdlərdə həm oxu, həm də yazı işinin təşkili üçün zəmin yaradır. Ümumiyyətlə məzmun standartları hazırlanarkən şagirdlərin hərtərəfli inkişafı nəzərə alınmışdır. Azərbaycan dili fənn kurikulumu orta məktəblərdə bilik, bacarıq, vərdişlərin sistemli, inteqrativ təşkili üçün yararlıdır. Hər bir sinfin öz metodik vəsaitinin olması da müəllimlərimizə istiqamət verir, onlara yaradıcı yanaşmada köməklik göstərir. Bütün bu sadaladıqlarımız təlimin keyfiyyətini yüksətməklə yanaşı, şagird şəxiyyətinin düzgün təlim, tərbiyə olunmasına yardım edir.

İnsanlar yazı vasitəsi ilə həyat boyu ictimai, iqtisadi və mədəni sahələrdə əldə etdikləri nailiyyətləri ümumiləşdirir, elmi, bədii yaradıcılıq işləri aparır, özünün tarixini yaradır, onu gələcək nəsillər üçün sistemləşdirir, qoruyub saxlayırlar. Dilin özünəməxsusluğunu, zənginliyini mühafizə edirlər. Yazı Azərbaycan dili təlimində ən zəruri bacarıqları əhatə edir, oxu üzrə fəaliyyətlərin həyata keçirilməsinə imkan yaradır. Buna görə də yazı dövlət dili kimi Azərbaycan dili təlimində məzmun xətlərindən biri kimi qəbul olunur. Yazı məzmun xətti kimi Azərbaycan dili təlimində ilkin yazı texnikasının,

orfoqrafik, durğu işarəsi qaydalarının, dil vahidlərindən, onun üslubi imkanlarından, nitqin müxtəlif formalarından istifadə bacarıqlarının mənimsənilməsini təmin edir [1, s.10]

Azərbaycan dili fənn kurikulumunda yazı məzmun xətti üzrə ümumi təlim nəticələrinə diqqət yetirərkən görürük ki, yazı məzmun xətti üzrə reallaşacaq standartlar birbaşa dil qaydaları məzmun xətti ilə inteqrativ şəkildədir. Məsələn, *yazılı nitqində orfoqrafiya, qrammatika və durğu işarəsi qaydalarını tətbiq edir*; *dil vahidlərindən istifadə etməklə müxtəlif əməli yazı bacarıqlarını nümayiş etdirir və s.*

Hər dərs özündə bir neçə məzmun xətti üzrə fəaliyyəti birləşdirir. Mətnlərin həcmindən, informasiya yükündən, siniflərdən və s. asılı olaraq dərslərə 2-4 saat vaxt ayrılır. Sadaladığımız informasiyalar müəllim üçün metodik vəsaitdə daha əyani olaraq verilir. Yəni, hər bir müəllim dərsə başlamazdan qabaq reallaşdıracağı məzmun xəttini, həmçinin təlim strategiyasını, inteqrasiya imkanlarını nəzərdən keçirmiş olur.

Siniflər üzrə yazı standartları müxtəlif yazı formaları üzrə (inşa, ifadə, esse, hekayə) bacarıqları inkişaf etdirməyi tələb edir. Pedaqoji ədəbiyyatda esse ilə inşa arasında kəskin sərhəd qoyulmur. Lakin nəzərə almaq lazımdır ki, müasir təhsildə daha çox esse yazı formasına müraciət olunur. Çox zaman geniş və mücərrəd mövzuda olan ənənəvi inşadan fərqli olaraq esse konkret situasiya ilə bağlı olur.

İmla da şifahi nitqlə yazılı nitqi əlaqələndirən inteqrativ yazı növüdür. İmla yazılardan iki məqsədlə istifadə olunur: *öyrətmək və yoxlamaq*. İmlalar orfoqrafik çalışmaların ən məhsuldar növüdür. Orfoqrafiya və orfoepiya qaydalarının öyrənilməsini təmin edən imlalar Azərbaycan dili fənninin Yazı məzmun xətti üzrə bilik və bacarıqların mənimsənilməsində önəmli tapşırıqdır. İmla üzrə işin düzgün təşkili şagirdlərin savadını artırır, onların müvafiq bilik və bacarıqlara yiyələnmələrini sürətləndirir. Bunun üçün də Azərbaycan dili dərslərində mütəmadi olaraq imlalardan istifadə olunmalıdır. Yalnız bu halda şagirdlər öyrəndikləri orfoqrafik qaydaları dəfələrlə işlətməklə yadda saxlayır, vərdişə çevirirlər. [5, s.36]

Azərbaycan dili kurikulumunda dil qaydaları ilə bağlı standartlar 5-7-ci siniflərdə fonetika, morfologiya, 8-11-ci siniflər üzrə standartlar, əsasən, sintaksis, üslubiyyat, nitq mədəniyyəti məsələlərini əhatə edir. Ona görə də müəllimlər aşağı siniflərdən başlayaraq şagirdlərdə yazı texnikasını inkişaf etdirməlidir.

Ümumi orta təhsil səviyyəsində şagird təlim zamanı rabitəli yazı vərdişlərinə yiyələnməli, müxtəlif əməli yazı nümunələrini yazmağı bacarmalı, mətn hissələrini, abzasları fərqləndirmə biliklərinə sahib olmalı, verilmiş hər hansı bir mövzunu müxtəlif yazı formalarında (ifadə, inşa, esse, hekayə və s.)

ifadə etməyi, sitatlardan nümunə gətirərək fikrini dəqiqləşdirməyi bilməlidir. Yazının növ və tipləri aşağıdakılardır:

- Yazının növləri: inşa, ifadə, esse, hekayə, rəy, məqalə;
- Yazının tipləri: təsviri xarakterli yazılar, nəqli xarakterli yazılar, mühakimə xarakterli yazılar.

Şagirdlər yazının növlərini dəqiq və düzgün ifadə etmək üçün dil qaydalarından maksimal dərəcədə xəbərdar olmalıdırlar. Dil qaydalarını düzgün bilməyən şagirdin nitqi də, yazısı da düzgün ola bilməz. Bu səbəbdən dil qaydaları oxu bacarıqlarının formalaşmasında, yazı texnikasının formalaşmasında mühüm vasitə kimi çıxış edir. Dil qaydaları yazı bacarıqlarının formalaşması prosesinin linqvistik əsasını təşkil edir, yəni dil qaydalarını yaxşı mənimsəyən hər bir şagirdin yazı qabiliyyəti də yüksək səviyyədə olur.

Yazı bacarıqlarının təkmilləşdirilməsindən danışılarkən mətnlərin strukturundan bəhs etməmək yanlış olardı. Mətnin əsas əlamətləri aşağıdakılardır:

- ✓ Mətndə cümlələr məna və qrammatik cəhətdən bağlı olur;
- ✓ Mətnin başlığı var və yaxud ona başlıq vermək mümkündür;
- ✓ Mətn 3 hissədən ibarətdir: giriş, əsas, nəticə;
- ✓ Mətndə bütün cümlələr eyni mövzuya aiddir;
- ✓ Məzmununa görə mətnin xarakteri olur: nəqli, təsviri, mühakimə və qarışıq (nəqli-təsviri, təsviri-mühakimə və s.).

Mətnin hissələrinin məntiqi ardıcıllıqla və əlaqəli şəkildə düzülməsi *kompozisiya* adlanır. Üslub və janrından asılı olmayaraq kompozisiyanın üç ənənəvi hissəsi var:

- giriş (başlanğıc, təqdimat),
- əsas hissə (mətnin özəyi),
- nəticə (qənaət, hökm).

Azərbaycan dili təlimində şagirdləri mətnlərin növləri və strukturları ilə yaxından tanış etməliyik ki, mətn qurarkən qaranlıq heç bir nüans qalmasın.

Yazılmış məqalədən belə nəticəyə gəlmək olar ki, fəal interaktiv dərslərdə inteqrasiya yalnız fənlərarası və fəndaxili deyil, məzmun standartlarının öz daxilində də mövcuddur.

***Ədəbiyyat***

1. *Azərbaycan Respublikasının Ümumtəhsil məktəbləri üçün Azərbaycan Dili (Dövlət dili kimi) fənni üzrə Təhsil Proqramı (Kurikulumu) (I-XI siniflər), Bakı – 2013.*
2. *Bayramov Akif, Məhərrəmov Ziyəddin, Mustafa İsgəndərzadə. Azərbaycan dili və nitq mədəniyyəti (ali məktəb tələbələri üçün dərs vəsaiti). Bakı, "ULU", 2015.*

3. *Nabat Cəfərova "İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası" (I hissə), Bakı – 2016.*
4. *Tam orta təhsil səviyyəsinin təmayül sinifləri üçün Azərbaycan dili fənni üzrə kurikulum Azərbaycan Respublikası Təhsil Nazirliyinin 28 aprel 2022-ci il tarixli F-238 nömrəli əmri ilə təsdiq edilmişdir.*
5. *Könül Aydın Nəhmətova "Yazı işinin təşkili metodikası" Bakı – 2020.*
6. *http://www.anl.az/down/meqale/az_muellimi/2010/oktyabr/135102.htm*

**M.E.Davidova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***mariyadavidova00@gmail.com***

# ZORAKILIĞA MƏRUZ QALMIŞ QADINLARIN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

***Xülasə***

*Qadınlara yönəlmiş zorakılıq kişilər və qadınlar arasında tarixən yaranmış qeyri-bərabər münasibətlərin təzahürüdür. Araşdırmalara görə qadınlar əks cinsin nümayəndələrinin fiziki zorakılığından daha çox psixoloji zorakılığa məruz qalırlar. Psixoloji zorakılıq nəticəsində qadınlarda intihar düşüncələri, qorxu, depressiya, yuxusuzluq problemi yaranır. Psixoloqlar qeyd edirlər ki, qadınlara qarşı zorakılıq həmişə olub və bu gün də davam edir.*

# ПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ ЖЕНЩИН, ПОДВЕРГШИХСЯ НАСИЛИЮ

***Резюме***

*Насилие в отношении женщин является проявлением исторически сложившихся неравных отношений между мужчинами и женщинами. Согласно исследованиям, женщины чаще подвергаются психологическому насилию, чем физическому насилию со стороны представителей противоположного пола. В результате психологического насилия у женщин чаще возникают суицидальные мысли. Появляется проблема страха, депрессии, бессонницы. Психологи отмечают, что насилие в отношении женщин существовало всегда и продолжается сегодня.*

# PSYCHOLOGİCAL CHARACTERİSTİCS OF ABUSED WOMEN

***Summary***

*Violence against women is a manifestation of historically unequal relations between men and women. According to research, women are subjected to more psychological violence than physical violence by members of the opposite sex. As a result of psychological violence, women have more suicidal thoughts. The problem of fear, depression, insomnia appears. Psychologists note that violence against women has always existed and continues today.*

***Açar sözlər:*** *zorakılıq, məişət zorakılığı, gender, cins, fiziki, psixoloji*

***Ключевые слова:*** *насилие, насилие в семье, гендер, пол, физический, психологический*

***Key words:*** *violence, domestic violence, gender, breed, physical, psychological*

Zorakılıq anlayışı bir çox sahədə bir şəxsə və ya qrupa qarşı yönəlmiş məcburiyyət və onu ifadə etmək üçün istifadə edilən bir anlayışdır. Zorakılıq başqa insanlar tərəfindən şəxsə yönəldilmiş təcavüz aktları şəklində baş verə bilər. Bu hərəkətlərin fərdi zorakılıqdan dövlət zorakılığına qədər geniş diapazonda baş verməsi, hətta şəxsin özü tərəfindən özünə qarşı yönəlməsi də mümkündür. Bu səbəbdən onun sərhədlərini müəyyən etmək çox çətindir.

Qadınlara qarşı zorakılıq və xüsusilə də qadınlara qarşı məişət zorakılığı dünyanın bir çox yerlərində tez-tez baş verən və hələ də gözlənilən, hüquq sistemləri tərəfindən çox vaxt nəzərə alınmayan insan hüquqları pozuntularından biridir. Qadınlar uşaq-böyük, işləyən-işsiz kimi ayrı-seçkilik olmadan bir çox sahədə müxtəlif zorakılıq formaları ilə üzləşirlər. Onların ən çox rastlaşdıqları zorakılıq növü məişət zorakılığıdır. Digər tərəfdən, bu zorakılıq növü çox yaxın vaxtlara qədər tamamilə görünməz bir zorakılıq forması olaraq qalmışdır.

"Ailədə və cəmiyyətdə qadınlara qarşı zorakılıq hallarının artması əmlakından, sosial vəziyyətdən və mədəni səviyyədən asılı olmayaraq, bütün qadınlara münasibətdə, bu və ya digər dərəcədə müşahidə edilməkdədir. Baş verən zorakılıq hərəkətlərinin ifadə forması, məzmunu, üsulları və vasitələri geniş və rəngarəng olması ilə səciyyələnir" [3, s.62].

Qadınlara qarşı zorakılıq fiziki, psixoloji, cinsi və iqtisadi zorakılıq olmaqla 4 əsas növə bölünür:

1. Fiziki zorakılıq qadını nəyəsə məcbur etmək və ya onu bir işdən çəkindirmək məqsədi ilə həyata keçirilən qadının iradəsinə zidd olan fiziki hərəkətləridir. Bu, zorakılığın ən çox görünən formasıdır.
2. Psixoloji (şifahi) zorakılıq qadını aşağılamaq, onun şəxsiyyətinə və ideyalarına məhəl qoymamaq, qışqırmaq, ona ləqəb qoymaq, onun davranışını daim tənqid etmək, davranışlarına və etdiklərinə daim nəzarət etmək, digər qadınlarla müqayisə etmək, həyat imkanlarını əngəlləmək kimi davranışları ehtiva edir.
3. Cinsi zorakılıq seksuallığın qadınlara qarşı təhdid və nəzarət vasitəsi kimi istifadə edilməsidir. Cinsi əlaqəyə məcbur etmək, fahişəliyə məcbur etmək, aborta məcbur etmək və ya icazə verməmək, şifahi və ya yazılı şəkildə, açıq-saçıq cinsi və təhqiredici davranışlar, məcburi evlilik kimi hərəkətlər cinsi zorakılığa daxildir.
4. İqtisadi zorakılıq isə mövcud maliyyə resurslarından, imkanlardan və ya puldan qadınlar üçün təhdid və ya sanksiya vasitəsi kimi istifadə edilməsidir. Pul verməmək, qadının əmlakını və digər gəlirlərini əlindən almaq, ailə büdcəsi haqqında məlumat verməmək, işləməyə icazə verməmək, istəmədiyi işdə məcburi əməyə cəlb etmək kimi hərəkətlər məhz iqtisadi zorakılığa aiddir.

"Aparılan bir çox araşdırmalar nəticəsində məlum olmuşdur ki, dünyada hər 3 qadından biri nə vaxtsa zorakılığa məruz qalmışdır, demək olar

ki, dünyada hər 3 dəqiqədən bir ən azı bir qadın öldürülür. Habelə hər 5 qadından 1-i ömrü boyu seksual zorakılığın və ona cəhdin qurbanı olur. Hər il dünyada 3-4 milyon qadın öz həyat yoldaşları tərəfindən döyülür. Məişət zorakılığının 95%-nin qurbanı qadınlar olur və hadisələrin 80%-i kişilər tərəfindən törədilir" [1, s.4].

Statistikaya görə kişilər qadınları fiziki zorakılıqdan daha çox psixoloji (şifahi) zorakılığa məruz qoyur. Şiddətə məruz qalan qadınlar özlərində həm fiziki, həm də psixoloji zorakılıqla baş verə bilən post-travmatik stress sindromunun əlamətlərini hiss edə bilərlər. Psixoloji zorakılığa məruz qalmış qadınların aşağıdakı ortaq xüsusiyyətləri olur:

- Özlərinə inanmırlar;
- İnamsızdırlar;
- Özlərini günahlandırırlar;
- Həmişə kədərli əhval-ruhiyyədə olurlar;
- Ailə və dostlarından olanları gizlədirlər;
- Özlərindən utanırlar;
- Könülsüzdürlər;
- Əsəbi və yorğun olmağa meyllidirlər.

Qadınlara qarşı zorakılığa geniş prizmadan baxıldıqda, o, doğuşdan, hətta doğuşdan əvvəl də başlaya bilər. Doğulacaq qız uşağının ailədə və yaxın mühitdə xoş qarşılanmaması, qızların məktəbə göndərilməməsi, ailə daxilində və ya çöldə fiziki və hətta cinsi zorakılığa məruz qalması, zorla evləndirilməsi, oğul dünyaya gətirmədiyi üçün alçaldılması, nikahda zorlama, onların iş həyatına girməsinə mane olma, aşağı maaşla işə götürülmə, iş həyatına kişilərə nisbətən daha aşağı vəzifələrdə başlama kimi bir çox zorakılıqla üzləşən qadınlar kişilərin təzyiqi altında sıxışır.

"Qadınların əksəriyyəti ailədə ərləri tərəfindən onlara qarşı yönəlmiş ilk şiddət və zorakılığı, adətən, bağışlayır və düşünürlər ki, bu sonuncu haldır və əri bir daha belə hala yol verməyəcəkdir. Lakin ailədə uşaqların sayı artdıqca, vəziyyət daha da mürəkkəbləşir. Zorakılıq faktına liberal münasibət bəsləyən qadınların əksəriyyəti öz taleləri ilə barışaraq buna adət edirlər. Belə qadınlar üçün aşağı özünüqiymətləndirmə və yaranmış vəziyyətdən çıxılmazlıqla barışmaq xarakterikdir" [4, s.410].

Ailədaxili zorakılığa məruz qalan qadınların niyə bu şərtlər altında yaşamağa davam etdiklərinin səbəbini ancaq sosial faktlarla izah etmək olar. Bir çox qadın uşağına görə, aşağı özgüvən, iqtisadi öhdəliklər, gəlir çatışmazlığ, dini inanc, sosial təzyiq, emosional bağlılıq və ya cinayətkarın təhdidləri kimi müxtəlif səbəblərə görə cinayətkarları ilə yaşamağa davam edir. Sosial dəstək və sığınacaq yerlərinin olmaması da bu faktorlardan biridir. Bir çox qadın isə daha şiddətli zorakılığa məruz qalma qorxusu ilə münasibətlərini davam etdirməli olur.

Dövrümüzdə qadınların yoldaşları tərəfindən döyülməsi artıq adi bir hala çevrilmişdir. Statistikaya görə hər 6 qadından biri əri tərəfindən zorakılığa məruz qalır. Amma burada diqqəti çəkən başqa bir məqam isə döyülən Azərbaycan qadınının bunu normal qarşılaması və hər kəsdən gizlətməsidir. Bunu etməklə öz abırını qoruduğunu düşünən xanımlarımız öz övladlarının gələcəyini təhlükəyə atdıqlarının fərqinə belə varmırlar.

Hər cür zorakılığa baxmayaraq, bir çox qadın sosial status qayğıları, ailə təzyiqi, xüsusilə iqtisadi narahatlıqlar, sosial mühit təzyiqi, özünə inamsızlıq kimi müxtəlif amillərin təsiri ilə evliliklərini davam etdirir və bir gün münasibətin yaxşı olacağına ümid edərək susur. Bütün bunlar isə sonradan zorakılığın nəticələri kimi özünü büruzə verir. Məişət zorakılığına məruz qalmış qadınlarda çarəsizlik, güclü qorxu, panik atak, narahatlıq, ümidsizlik, utanc, intihar düşüncələri, travma sonrası stress, depressiya, alkoqol, maddə asılılığı, yemək və ya yuxu problemi kimi bir sıra psixoloji problemlər yaranır. Məhz psixoloji zorakılıq digər zorakılıq növlərindən fərqli olaraq insana böyük travma verir və uzunmüddətli təsirə malikdir.

Məişət zorakılığının qarşısını almaq və qadınların həyat təhlükəsizliyini təmin etmək üçün dövlət müəyyən tədbirlər görməlidir. Qadınları iş həyatına cəlb etmək həm dövlətin, həm də işəgötürənlərin vəzifələrindən olmalıdır. Araşdırmalar göstərir ki, qadınlar aktiv işlədikləri zaman daha az zorakılığa məruz qalırlar. Bundan əlavə, ailə büdcəsinə iqtisadi cəhətdən töhfə verən qadınların çalışması kişinin işsiz olduğu dövrlərdə faydalı olacaq və qadını daha məhsuldar edəcək, psixologiyasına müsbət təsir edəcək.

Bu məsələnin həlli yollarının işlənib hazırlanmasında tək dövlətin yox, həm də cəmiyyətin töhfəsi olacaqdır. Çünki qadına qarşı zorakılıq məsələsinə fərdi yanaşmaq və qiymətləndirmək böyük səhv olardı. Bu məsələ fərd üzərində qurulmuş kimi görünsə də, minlərlə araşdırmanın nəticələrinə nəzər saldıqda cəmiyyəti, milləti, hətta bütün millətləri narahat edən və onlara mənfi təsir göstərən çox mühüm bir məsələdir. Belə mühüm məsələnin birtərəfli həlli mümkün deyildir.

***Ədəbiyyat***

1. *Zorakılığa "Yox" deyək - ailəmizi qoruyaq! Bakı - 2017, 46 s.*
2. *"Gender İnkişafda" Qurumu, Qadınlar və zorakılıq. Bakı - 1998, 42 s.*
3. *S.Həsənzadə, Ailə və ailədaxili zorakılıq: hüquqi təhlil. Bakı - 2015, "Avropa" nəşriyyatı, 206 s.*
4. *N.Z.Çələbiyev, Ü.A.Əfəndiyeva, Ailə və gender psixologiyası. Bakı - 2021, ADPU, 520 s.*
5. *Домашнее насилие: социально-правовой аспект. Москва - 2013, 194 с.*
6. *Avrupa insan hakları sözleşmesi sisteminde kadına karşı aile içi şiddet olgusu ve bununla mücadele araçları, 37 s.*

**N.T.Rzayeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***nara.1912@mail.ru***

# PANİK ATAK VƏ DEPRESSİYA

***Xülasə***

*Məqalədə panik-atak və onun özünü göstərməsindən, panik-atak zamanı xəstə nələr etməli və onun qarşısının necə alınmasından və onun digər psixoloji problemlərlə, məsələn depressiya ilə əlaqəsindən bəhs edilir. Müəllif qeyd edir ki, insanların 7%-i bu xəstəlikdən əziyyət çəkir. Hər yaşda bu problem özünü göstərə bilir. Lakin yaş və cins kateqoriyası nəzərə alındıqda qadınlarda və yeniyetmələrdə daha çox rast gəlinir. Uzun müddət təsir altında yaşayanlarda, acınacaqlı həyat tərzi olanlarda, problemlərini heç kimlə paylaşmayanlarda və içinə salan insanlarda daha çox görünə bilir. Həmçinin məqalədə panik-atakdan depressiyaya düşmə müxtəlif psixoloji sıxıntı yaşadığı zaman nələr etməli olduğu haqqında, eyni zamanda da onun müalicəsi haqqında da bəhs edilir.*

# ПАНИЧЕСКАЯ АТАКА И ДЕПРЕССИЯ

***Резюме***

*В статье рассказывается о панической атаке и ее проявлениях, о том, что следует делать больному во время панической атаки и как ее предотвратить, а также о ее связи с другими психологическими проблемами, например, с депрессией. Автор отмечает, что этим заболеванием страдают 7% людей. Эта проблема может появиться в любом возрасте. Но при учете возрастных и гендерных категорий чаще встречается у женщин и подростков. Чаще это наблюдается у людей, которые длительное время живут под влиянием, ведут нищенский образ жизни, ни с кем не делятся своими проблемами, а также у людей-интровертов. В статье также рассказывается о том, что делать при возникновении различных психологических расстройств, от панических атак до депрессии, а заодно и о ее лечении.*

# PANİC ATTACK AND DEPRESSİON

***Summary***

*The article talks about panic attack and its manifestation, what the patient should do during panic attack and how to prevent it, and its connection with other psychological problems, for example, depression. The author notes that 7% of people suffer from this disease. This problem can appear at any age. But when age and gender categories are taken into account, it is more common in women and adolescents. It can be seen more in people who live under the influence for a long time, who have a miserable lifestyle, who do not share their problems with anyone, and people who are introverts. The article also talks about what to do when*

*experiencing various psychological distress, from panic attacks to depression, and at the same time about its treatment.*

***Açar sözlər:*** *panika, atak, panik atak, panika halı, psixoloji problem, həyəcan, qorxu, təşviş, depressiya*
***Ключевые слова:*** *паника, панические атаки, паническое состояние, психологические проблемы, возбуждение, страх, депрессия, беспокойство*
***Key words:*** *panic, panic attacks, panic state, psychological problems, excitation, fear, anxiety, depression*

Panik atak – həyəcan, qorxu (ölüm qorxusu kimi), sıxıntı hislərini içində axtaran, qıcolmalar şəklində ortaya çıxan bir narahatlıqdır. Psixoloji problemlərlə, ya da bəzi xəstəliklərlə birlikdə insanda özünü göstərə bilir. Xəstə ani bir atakda tamamilə qorxu içində olur. Öləcəyini, ürəyində bir problem olduğunu, infarkt keçirəcəyini düşünür. Atak 10 dəqiqə içində ən şiddətli halını alır. Xəstə panik içində həkim müayinəsinə gəlir. Panik atak zamanı insan müxtəlif hisslər keçirir. Bu halla üzləşən xəstələrin təsvirləri müxtəlif olur. Get-gedə balacalaşaraq yığılırmış kimi, özünü terror hücumuna məruz qalmış və ya nəhəng yaratıqlar arxasında qaçırmış kimi hiss edənlər, divarların yaxınlaşdığını, hər yerin bulanıqlaşdığını deyənlər olur. Bəzi xəstələr həmin anda içərisində olduqları məkanı yanğın baş verən binaya, qəribə bir tunelə və ya surət qatarına bənzədirlər. Bayılacağını, çox pis şeylər baş verəcəyini və hətta öləcəyini düşünənlər də olur. Yarım saat içində atak keçməyə başlayır. Xəstə özünü çox yorğun və üzgün hiss edir. Heç bir şey etmək istəmir, dözümü qalmamışdır, tək qalmaq istəmir. Yanında birinin olmasını istəyir. Panik atak zamanı baş verən fiziki simptomlar ürək və ya döş qəfəsi orqanları xəstəlikləri ilə əlaqəli olmur. Bu simptomlar əsasən, beyindən başlayıb bədənə yayılan sinir implusları nəticəsində yaranır. Bu impulslar adrenalin daxil olmaqla, bir çox hormonların ifrazı ilə nəticələnir. Bu orqanizm üçün *"hücum et və ya qaç"* siqnalı olaraq adlanır. Bu cür reaksiya insanlar təhlükədə olduqlarında normal sayılmaqdadır. Panika halı zamanı da bədən eyni şəkildə cavab verir. Bu zaman insan çox nəfəs almağa meyilli olur (hiperventilyasiya). Əgər panika halında çox nəfəs alıb versəniz, karbon qazının miqdarı qanda artmış olacaq və qanın turşuluğu dəyişəcəkdir. Bu daha çox simptomlara və "ürək çırpıntısı", baş gicəllənmə, uyuşma və iynələnmə şikayətlərinin pisləşməsinə səbəb ola bilər. Bu vəziyyət insanı daha da qorxudur və beləcə daha çox nəfəs ala bilər. Həddən çox tənəffüs qısa müddətdə huşun itməsi ilə nəticələnə bilir. Lakin şüurun itməsi nadir görülən bir haldır.

Panik atak tez-tez depressiya ilə birlikdə mövcud olan bir narahatlıq pozuqluğudur. Müxtəlif araşdırmalarda panik atak hallarında əsas depressiya nisbətinin 32-53% arasında olduğu müəyyən edilmişdir. Panik atak pozğunluğunun eyni zamanda və ya bir-birini izləyən distimiya və təkrarlanan

qısa müddətli depressiya ilə birlikdə olduğu da bildirilmişdir. Buna səbəb panik atak xəstələrinin sıx-sıx ataka məruz qaldıqdan sonra artıq bu vəziyyətin düzəlməyəcəyinə inanmaları, bununla mübarizə aparmağın mümkünsüz olduğunu düşünmələridir. Bu fikirlər xəstəni depressiyaya sala bilir. Depressiyanın da hər psixoloji problem kimi müəyyən simptomları mövcuddur. Depressiya zamanı həyəcan, halsızlıq, gərəksizlik hissi, yuxunun pozulması, əhval-ruhiyyənin enməsini müşahidə edirik. Daha çox 25-30 yaşlarda başlasa da, istənilən yaşda rast gəlmək mümkündür. Hər ruh düşkünlüyü depressiya deyildir. Bunun üçün əlamətlərin hər gün və 2 həftədən çox davam etməsi vacibdir. Bu xəstəlik medikamentoz və psixoterapevtik müalicə tələb edir. Müalicə olunmazsa, depressiyalar günlər, aylar və hətta illərlə davam edə bilər. Panik atakda olduğu kimi depressiyada da cins kateqoriyası mövcuddur. Qadınlarda depressiyanın kişilərə görə 2 qat daha çox olması kişilərin xarakterik xüsusiyyətləri, alkoqol qəbulu, müəyyən hallarda emosiyalarını şiddətlə ifadə edə bilməsi, qadınların bu sadalananları edə bilməməsi, eyni stressə daha bəlirgən reaksiya verməsi ilə əlaqələndirilir. Digər önəmli açıqlamaların birində isə hormonal səbəblər və ümumi cəmiyyətdə qadının rolu göstərilir. Həmçinin qadınlarda hamiləlik, doğuş, menstruasiya kimi tsikllər onların həm biolojik, həm də psixoloji depressiyaya meylli olduğunu göstərir.

Qadın və kişilərdə depressiya sıxlığı ilə əlaqədar olaraq aşağıdakı kimi bir sıralama qeyd edə bilərik. (Ən azdan ən çoxa doğru):

- Evli kişi
- Evli qadın
- Subay və ya dul qadın
- Subay, dul və ya boşanmış kişi
- Ayrı yaşayan və boşanmış kişi

Panika pozğunluğu tez-tez depressiya ilə birlikdə mövcud olan bir narahatlıq pozuqluğudur. Müxtəlif araşdırmalarda panik atak hallarında əsas depressiya nisbətinin 32-53% arasında olduğu bildirilmişdir. Panika pozğunluğunun eyni zamanda və ya bir-birini izləyən distimiya və təkrarlanan qısa müddətli depressiya ilə birlikdə olduğu da bildirilmişdir. Bəzi hallarda xəstələr atakların sıxlığı səbəbindən cəmiyyətdən kənarlaşır, yardım qəbul etmir, depressiv həyat tərzi sürürlər. DSM-IV meyarlarında vurğulanmasa da, bu iki pozğunluq arasındakı zaman əlaqəsi vacibdir. Əgər panika hücumları böyük depressiyanın bir epizodu ilə məhdudlaşırsa, əsas pozğunluğun əsası depressiyadır, əgər panika hücumları davamlıdırsa və onlardan yalnız biri depressiv epizodla müşayiət olunursa, o zaman panik pozğunluğun əsası pozğunluqdur. Bu fərq müalicə və proqnoz baxımından zəruridir. Retrospektiv tədqiqatlarda panik pozğunluğu olan xəstələrin 80%-i diaqnozdan sonra bir il ərzində həyat stressorlarını bildirdi və xəstələrin əksəriyyəti bu hadisələrin

panik pozğunluğunun başlanğıcı ilə əlaqəli olduğuna inanır. Faravelli, panik ataklar başlamazdan əvvəl iki aylıq dövrdə xəstələrin böyük bir hissəsində ölüm və ya ciddi xəstəlik kimi mühüm həyat hadisəsi tapdı.

Bundan əlavə, panik pozğunluğu əlamətlərinin şiddəti - Bu, kişilərarası münaqişələr, sağlamlıq problemləri və ya işdəki problemlər kimi mənfi həyat hadisələri ilə əlaqələndirilir. Xroniki stressorların olması panik pozğunluğunu pisləşdirir və son itki və ya ayrılma panik pozğunluğunda komorbid depressiya riskini artırır (Lteif və Mavissakalian 1995, 1996). ECA tədqiqatında komorbid depressiya nisbəti agorafobiya ilə panik pozğunluqda 32,8% və agorafobiya olmadan panik pozğunluqda 4,7% idi; NSC araşdırmasında, agorafobiya ilə panik pozğunluğunda 54,5% və agorafobiya olmayan panik pozğunluğunda 16% idi.

Psixoloqlar qeyd edir ki, son dövrlərdə panik atakla yanaşı, somatik depressiya, ölüm fobiyası daha çox yayılıb: "Panik atak əvvəllər qadınlar arasında daha çox rast gəlinirdisə, bu gün kişilər arasında da geniş yayılıb. Bu istiqamətdə diaqnozu psixiatr və nevroloq qoysa da, farmakoloji müalicə ilə yanaşı, psixoloji müalicə də şərtdir. Bu müalicə kompakt şəkildə aparılmazsa, pasiyentlər müsbət nəticə əldə edə bilməyəcəklər. Müalicə olunmazsa, intihara apara bilər…" Bu elə bir diaqnozdur ki, onun müalicəsinə diqqət edilməlidir. Müalicə edilmədiyi halda insanı intihara qədər sürükləyə bilər. Çünki bu insanlarda kəskin qorxular olur. Onlar elə düşünürlər ki, bu qorxulardan qurtulmağın yeganə yolu ölümdür və intihar edirlər. Müalicə zamanı təyin edilən dərmanların aludəçilik yaratması məsələsi isə birmənalı deyil. Bunu daha yaxşı nevroloq, psixiatr bilər. Hər hansı antidepressant asılılıq yaratmır. Lakin bütün hallarda müalicələr fərdidir və pasiyentin vəziyyətinə görə təyin edilir. Hər dərmanın təyinat miqdarı fərqlidir və həmin miqdardan artıq qəbul etmək olmaz. Bu da müalicənin pasiyentə hər hansı mənfi təsir etməsinin qarşısını alır".

***Ədəbiyyat***

1. *N.V.İsmayılov "Psixiatriya", Bakı, 2013.*
2. *N.V.İsmayılov, F.N.İsmayılov, "Tibbi psixologiya və psixoterapiya", 2002.*
3. *G.Ç.Gəraybəyli, Z.F.Musabəyov, N.N.Eldarova, G.N.Musabəyova "Psixiatriya" (dərs vəsaiti), 2019.*
4. *H.İ.Kaplan, B.J.Sadock "Clinical Psychiatry"*
5. *Н.М.Жариков, Ю.Г.Тюльпин, "Психиатрия", 2009.*
6. *Н.Н.Иванец, Ю.Г.Тюльпин, М.А.Кинулькина, "Психиатрия и медицинская психология", 2014.*
7. *А.А.Султанов "Психиотрия", Баку, 2003.*

**G.E.Bağışova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***baghgulnar4@gmail.com***

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN MƏNƏVİ TƏRBİYƏSİNDƏ NAĞILLARIN ROLU

***Xülasə***

*Nağıllar uşağın özünüdərkinə, insanlar arasında sosial səriştələrə yiyələnməsinə əsas baza strukturunu təşkil edir. Nağıllar pis və yaxşı davranış əlamətlərini qarşı-qarşıya qoyduğu üçün uşaq başqasının davranışından nəticə çıxarır, yaxşı və pisi bir-birindən ayırır. Nağıllar uşağın sosial-emosional münasibətlər sisteminə uğurla daxil olmağa, düzgün davranış nümunəsini səciyyələndirməyə, uşağın ünsiyyət fəaliyyətini tənzimləməyə kömək edir. Nağılların oxunmasında valideynlərin iştirakı uşaqla valideyn arasında mənəvi münasibət, bağlılıq yaradır.*

# РОЛЬ СКАЗОК В ДУХОВНОМ ВОСПИТАНИИ ДОШКОЛЬНИКОВ

***Резюме***

*Сказки формируют базовую структуру для самосознания ребенка и приобретения навыков общения с людьми. Так как в сказках противопоставляются признаки плохого и хорошего поведения, ребенок делает выводы из поведения других людей и различает хорошее и плохое. Сказки помогают успешно войти в систему социально-эмоциональных отношений ребенка, характеризуют правильную модель поведения, регулируют коммуникативную деятельность ребенка. Участие родителей в чтении сказок создает духовную связь и связь между ребенком и родителем.*

# THE ROLE OF FAIRY TALES IN THE SPIRITUAL EDUCATION OF PRE-SCHOOL CHILDREN

***Summary***

*Fairy tales form the basic structure for the child's self-awareness and the acquisition of social skills among people. Since fairy tales contrast the signs of bad and good behavior, the child draws conclusions from other people's behavior and distinguishes between good and bad. Tales help to successfully enter the child's system of social-emotional relationships, characterize the correct behavior pattern, and regulate the child's communication activity. The participation of parents in reading fairy tales creates a spiritual relationship and bond between the child and the parent.*

***Açar sözlər:*** *tərbiyə, davranış, ailə*
***Ключевые слова:*** *воспитание, поведение, семья*
***Key words:*** *upbringing, behaviour, family*

Nağıllar. Uşaqların hərtərəfli tərbiyəsi üçün vacib amillərdən biridir. Nağıllar hər zaman yaxşı olanların qalib gəldiyi, səbirli olanların mütləq məqsədlərinə çatdıqları, edilən yaxşılıqların qarşılıqsız qalmayacağı, zəkanın çox zaman üstün olduğu, sevginin bir çox şeydən daha qiymətli olduğu, yoldaşlığın çox əhəmiyyətli olduğu, əl-ələ verənin və birlik içində olmanın hər zaman daha çox uğurlar gətirdiyi, heç bir zaman ümidsizliyə qapılmamağın lazım olduğu və əlimizdən gələni etdiyimiz təqdirdə müvəffəqiyyətin bizi tapacağını bildirir.

Nağıl qəhrəmanları həmişə uşaqların xəyal dünyaları və mənəvi aləmlərinə müsbət təsir göstərir, onların inkişafına, dünyanı, varlığı, təbiəti qavramalarına yardımçı olur. İctimai həqiqətlər nağıl qəhrəmanlarının davranışları timsalında daha dərindən mənimsənilir. Humanizm, insan və təbiətsevərlik məhz bu nağıllardan gənc nəsillərə ötürülən əxlaqi-tərbiyəvi kod kimi müəyyənləşir. Güc və ədalət, yalan və doğru, haram və halal, gözəllik və eybəcərlik və s. kimi etik-estetik keyfiyyətlər nağıllarıla uşaqların mənəvi dünyasına daxil olur. Uşaqlar nağıl qəhrəmanlarının davranışlarının təsiri altında qəhrəmanlığı, vətənpərvərliyi, xeyir və şəri qavrayır, öz xarakterində mənəvi zənginlikləri toplayır və inkişaf etdirir.

Uşaqlar bəzən özünü nağıldakı qəhrəmanın yerində hiss edir, bəzən isə özü yeni bir nağıl fikirləşir, O, müxtəlif hadisələr zamanı öz davranışını da fikirləşməyə başlayır.

Nağıllar böyüklər və balacalar arasında münasibətin formalaşmasına, bir-birini daha yaxşı başa düşməsinə, davranışın düzgün istiqamətdə yönləndirilməsi baxımından mühüm tərbiyə vasitəsidir.

Məsuliyyət sahibi olmaq, yalan danışmamaq və hadisələrdən doğru nəticə çıxarmaq kimi xüsusiyyətlərin təkmilləşməsinə kömək edən hekayələr, uşaqların yaşlarına uyğun seçildiyi halda şəxsiyyətin inkişafına səbəb olur.

Nağıllarla uşaqlar ətraf aləmi dərk edir. Çünki hər bir nağıl insanların münasibətindən bəhs edir. Nağıllar təxəyyül və fantaziyanı inkişaf etdirir. Nağılı birlikdə oxumaq övladınızla dostluq münasibətinə, uşağın hadisələrə diqqətlə yanaşmasına yardımcı olur. Nağıl mənəvi-əxlaqi dəyərlərin əyləncəli tədrisidir.

Nağılların effektivliyini artıran üsullardan biri də uşaqlara nağıl danışılan zaman mütləq şəkildə çıxış yolu göstərilməlidir. Nağıl danışdıqdan sonra uşağın əqlinə təsir edərək ondan nağılın məzmunu, gedişatı, nəticəsi haqqında məlumat əldə etmək lazımdır. Bu zaman uşaq nağıldakı obrazın davranışı ilə əqli fəaliyyətin məhsulunu qarşı-qarşıya qoyur, müqayisə edir. Lakin nağıllar sadəcə oxumaq ilə kifayətlənməməli, onların gündəlik həyat

tərzində bu ideyalar qorunub saxlanmalıdır. Bunun üçün valideynlər daima uşaqlarını nəzarətdə saxlamalıdır.

Nağıl seçimi baxımından tərbiyəçi fərdi yanaşma prinsipinə əməl etməlidir. Çünki nağıllar vasitəsilə davranış tərbiyə etmək, uşağın fərdi davranış qaydasına uyğun olmalıdır. Tərbiyəçi ilk öncə uşağın davranış formasını diqqətlə izləməlidir. Məhz uşağın müsbət və mənfi davranış formasını analiz edib ona uyğun xalq nağılı təyin etməlidir. Xalq nağılının təyini tərbiyəçidən xalq nağıllarına bələdçilik, diqqətli mütaliə, düzgün nəticə çıxarmaq kimi qabiliyyətlər tələb edir.

Nağıl zamanı effektiv təsir üsullarından biri də yaradılan və mütaliə edilən hekayəni şəkillərlə uşağa göstərməkdir. Nağılların ifadəsi ilə şəkillərin vəhdəti uşağın əyani-obrazlı təfəkkürünə təsir edir.

Uşaqların nağıllar vasitəsilə təsiretmə üsullarından biri də nağılların oyun zamanı istifadəsidir. Oyun prosesində nağıllardan istifadə etdikdə hekayənin uşağa necə təsir etdiyini, hansı hissləri keçirdiyini öyrənə bilərik. Eyni zamanda oyuncaqlar vasitəsilə nağılın effektivliyini artırmaq mümkündür.

Nağıllar uşaqların münasibətlər və dəyərlər sisteminə mütləq şəkildə təsir edir. Bu təsirin müsbət yaxud mənfi olması nağılların məzmunundan asılıdır.

“Ağıllı qoca” nağılında ata-anaya hörmət, həmişə müdrik insanların fikirlərinə mənəvi ehtiyac və s. aşılanır. Burada həm uşaqlara ailə dəyərləri öyrədilir və ailə üzvlərinə məhəbbət təlqin olunur, həm də qarşılıqlı hörmət, yaşlılara ehtiram öyrədilir.

Nağıl danışılarkən bir tərəfdən izah edən adam ilə uşaq arasında ünsiyyət qurularkən, digər tərəfdən də uşağın bütün zehni fəaliyyətləri hərəkətə keçir. Oxuduğu və ya dinlədiyi nağıllardakı simvollar haqqında xəyallar quran uşaq hadisələrin inkişafına görə yaxşını və pisi, doğrunu və yanlışı ayırd etməyi öyrənir.

Ailə ilə aparılacaq iş istiqamətində bir sıra problemlər ortaya çıxır. Bəzi valideynlər nağılların uşağın tərbiyəsi üzərindəki əhəmiyyətli rolunu kifayət qədər qiymətləndirmir. Bəzi valideynlər isə vaxt problemini irəli sürürlər. Bundan başqa, cizgi filmlərinin və serialların həyatımıza girməsiylə birlikdə uşaqların maraq və üstünlüyü bu cür fəaliyyətlərə yönəlir. Lakin bunu da unutmaq olmaz ki, ailə insan şəxsiyyətinin formalaşdığı ilkin sosial amildir. Ana və ata nağıl oxumaq məsələsində həmrəy olmalı, nağıl zamanı hər ikisinin iştirakı vacibdir. Ana-atanın uşağa nağılları oxumaqla verdiyi diqqət uşağı ana-ataya yaxınlaşdırır. Səmimi ünsiyyətin başlanğıcını qoyur. Uşağın marağına səbəb olur. Valideynlər bu məsələdə müntəzəmlilik prinsipinə əməl etmək tələb edir. Valideynlərin bu məsələdə birgə iştirakı vacibdir. Buna görə də valideynlər bu emosional bağı itirməmək üçün uşaqları ilə maraqlanmalı,

nağılın uşaq üzərindəki təsirini bilməli, onun şəxsiyyətin inkişafı üçün təsirli vasitə olduğunu bilməlidir.

Bəzən valideynlər uşaqlara nağıl danışarkən, uşağı sosial həyata hazırlamaq və onun əsasında davranışı xüsusiyyətlərini davamlılığını təmin etmək üçün nağıla əlavələr də edilir. Nağıla əlavələri düzgün şəkildə etmək lazımdır. Uşağın davranışında yanlışlıqlara yol verilirsə, onda üçüncü şəxsin adından onu düzgün davranışa istiqamətləndirən əlavələr etmək olar.

Günün sonunda uşağa nağılın oxunması uşaqları ata-ananın özünə qarşı qayğıkeş münasibətindən xəbər verir. Ağıllı qoca nağılında ata-anaya hörmət, həmişə müdrik insanların fikirlərinə mənəvi ehtiyac və s. aşılanır.

Uşaqlarla kitab oxumaq və nağıl danışmaq zehni və təxəyyülü inkişaf etdirir, nitq və emosiyaların əlaqələrini gücləndirir. Nağılların müəyyən xüsusiyyətləri vardır ki,

- Həyatı əlçatan bir dildə izah edir.
- Asan və çətin, mübarizə yönümlü məsələlərin daşıyıcısı olmaqla, çətin vəziyyətlərdən çıxış yolu göstərir.
- Nağılları dinləyən uşaqlar həyat vəziyyətlərini həll etmə mexanizmlərini şüuraltıda toplayırlar.
- Nağıl kiçik insanın yaradıcılığını, fantaziyasını, təxəyyülünü və empatiyasını inkişaf etdirir.
- Uşağın səsləri, sözləri və dili tanımasına və erkən savad bacarıqlarını inkişaf etdirməsinə kömək edir.
- Uşağın təxəyyülünü canlandırır və marağı stimullaşdırır.
- Uşağın diqqətini cəmləmə qabiliyyətini, sosial və ünsiyyət bacarıqlarını inkişaf etdirməyə kömək edir.
- Uşağa “reallıq” və ya uydurma arasındakı fərqi öyrənməyə kömək edir.

***Ədəbiyyat***

1. *Abbasov A. Milli əxlaq və ailə etikası. Bakı - 2016.*
2. *Abbasov A.N. Ailə pedaqogikası. Bakı, Mütərcim, 2019.*
3. *Bünyatova A.R. Məktəbəqədər yaşlı uşaqların yaradıcılıq potensialının sosial-psixoloji aspektləri. Bakı - 2020.*
4. *Əliyeva S. Xalq pedaqogikasında tərbiyə məsələləri. Bakı - 2016.*
5. *Əliyeva S. Etnopedaqogika. Bakı - 2016.*
6. *Əliyev N. Ailədə əxlaq və davranış qaydaları, Bakı - 2020.*
7. *Vəliyeva Z.İ. Məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsi. Bakı, ADPU, 2012.*
8. *Rüstəmzadə İ. Azərbaycan nağıllarının süjet göstəricisi. Bakı - 2013.*

**D.H.Ramazanlı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***dinara3642@gmail.com***

# TƏLİM PROSESİNDƏ ŞAGİRD-MÜƏLLİM-VALİDEYN ƏMƏKDAŞLIĞININ YARANMASINDA ÜNSİYYƏTİN İMKANLARI

***Xülasə***

*Məqalədə təhsil sahəsində ibtidai siniflərdə şagirdlərin şəxsiyyətin formalaşması, təlim prosesində şagird-müəllim-valideyn əməkdaşlığının yaranmasında ünsiyyətin imkanları, ona təsir edən amillər, rolu və əhəmiyyətindən bəhs olunmuşdur.*

*Bununla yanaşı, şagirdlərin formalaşmasında mühüm amillərin rolu əsas göstərilmişdir. Belə ki, ümumtəhsil məktəblərində ibtidai sinif şagirdlərinin ünsiyyət mədəniyyətinin inkişafı, formalaşmasının imkan, şərait və yolları, təlim prosesi zamanı şagird-müəllim-valideyn əməkdaşlığının yaranmasında ünsiyyətin imkanları öz əksini tapmışdır. Ünsiyyət, onun mahiyyəti, məqsədi və başlıca istiqamətləri, nitqin ünsiyyətin əsas rolu kimi mühüm cəhətləri vardır.*

*Şagird şəxsiyyətinin formalaşmasında ünsiyyət tələbatı və onun təmini yolları, müasir dövrdə pedaqoji ünsiyyətin formalaşmasında sinifdənxaric və məktəbdənkənar tədbirlərin imkan və istifadə olunan metodlar, bunun kimi mühüm amillər məqalənin əsasını təşkil edir.*

# ВОЗМОЖНОСТИ СОЮЗА В НАЛАЖИВАНИИ СОТРУДНИЧЕСТВА СТУДЕНТОВ, УЧИТЕЛЕЙ, РОДИТЕЛЕЙ В ОБРАЗОВАТЕЛЬНОМ ПРОЦЕССЕ

***Резюме***

*В статье в сфере образования рассмотрены возможности общения, влияющие на него факторы, его роль и значение в формировании личности учащихся начальных классов, формирование сотрудничества ученик-учитель-родитель в учебном процессе. процесс.*

*Кроме того, была выделена роль важных факторов в формировании студентов. Таким образом, возможности, условия и пути развития и формирования культуры общения младших школьников в общеобразовательных школах, возможности общения отражаются в формировании студенческо-педагогического сотрудничества в процессе обучения. Общение, его сущность, цель и основные направления, речь имеет такие важные аспекты, как главная роль общения.*

*В основу статьи положены необходимость общения в формировании личности учащегося и способы ее обеспечения, возможность проведения*

*внеклассных и внешкольных мероприятий и методы, используемые при формировании педагогического общения в современное время.*

# OPPORTUNİTİES OF THE UNİON İN ESTABLİSHİNG STUDENT-TEACHER-PARENT COOPERATİON İN THE EDUCATİONAL PROCESS

***Summary***

*In the article, the formation of personality of students in primary classes in the field of education, the possibilities of communication in the formation of student-teacher-parent cooperation in the learning process, the factors affecting it, its role and importance were discussed.*

*In addition, the role of important factors in the formation of students is highlighted.so that the possibilities, conditions and ways of development and formation of the communication culture of primary school students in general education schools, the possibilities of communication are reflected in the formation of student-teacher-parent cooperation during the training process. Communication, its essence, purpose and main directions, speech has important aspects such as the main role of communication.*

*The basis of the article is the need for communication in the formation of the student's personality and the ways of its provision, the possibilities and methods of extracurricular and its activities in the formation of pedagogical communication in the modern era, and such important factors.*

***Açar sözlər:*** *şagird, şəxsiyyət, nitq inkişafı, təlim, qabiliyyət, ünsiyyət, formalaşma, tərbiyə, proses*

***Ключевые слова:*** *ученик, личность, речевое развитие, обучение, способность, общение, формирование, обучение, процесс.*

***Key words:*** *student, personality, speech development, training, ability, communication, formation, upbringing, proces*

Müasir dövrümüzdə müəllimin ənənəvi fəaliyyətində dəyişikliklər baş verib. İndi onun mövqeyi bələdçi (fasilitator), aparıcı (istiqamət verən) bir mövqedir. Əslində bu, müəllim liderliyinin yeni tipidir. Bu liderlik müəllimlə şagirdin təhsilin məqsədinə nail olmağa yönəldilmiş birgə fəaliyyətinə əsaslanır. Müəllim sistemli, ardıcıl və məqsədyönlü şəkildə əməkdaşlıq edir: problemli vəziyyəti təşkil edir, tədqiqat məqsədlərinin qoyulmasında şagirdlərə istiqamət verir, bunların həllində metodik kömək göstərir, biliklərin əldə edilməsi və mənimsənilməsi yollarını öyrədir.

Şagird isə müəllimin istiqamətinə əsasən fəaliyyət göstərir. O, fəaliyyətə məcbur olunmur, sadəcə təhrik edilir. Onun mövqeyi kəşf edən, tədqiqatçı xarakteri daşıyır. Ona görə də müəllimin istiqaməti üzrə kiçik tədqiqatlara qoşulur, araşdırmalar aparır, konkret nəticələrə gəlir. Şagird gəldiyi nəticələrini qiymətləndirməklə bir daha ona əmin olur.

İstər müəllimin, istərsə də şagirdin fəaliyyəti subyektlərin fəaliyyəti kimi əməkdaşlıq xarakteri daşıyır. Bu münasibətlər müasir təhsili, məktəbi xarakterizə edən, onun humanist keyfiyyətini üzə çıxaran əsas əlamətdir.

Müəllim-şagird münasibətlərinin əsasında humanist prinsipin tələbləri dayanır. Onlar təlim prosesinin psixopedaqoji əsası kimi xüsusi əhəmiyyət daşıyır. Düzgün qurulmuş müəllim-şagird münasibətləri şagirdlərin təlim marağının artmasında mühüm vasitədir.

Müəllim-şagird münasibətlərinin düzgün qurulması, ilk növbədə, müəllimlərdə bir sıra qabiliyyətlərin olmasını zəruri tələb kimi qarşıya qoyur. Bu məsələ ilə bağlı müasir pedaqogikada da xeyli araşdırmalar aparılmış və nəticələrə gəlinmişdir.

Kiçik məktəb yaşlı uşaqların nitqi sadəcə ünsiyyət vasitəsi deyil, həmçinin, dərketmə vasitəsi olub, kommunikativ, tənzimləmə və planlaşdırma funksiyalarını da yerinə yetirir.

Psixoloqlar şəxsiyyətin formalaşmasında fəaliyyətin rolunu xüsusi olaraq qeyd etmişlər. Məlumdur ki, insan dünyaya bir fərd kimi gəlir və ictimai münasibətlər sistemində şəxsiyyət kimi formalaşır. Burada tərbiyə prosesi həlledici rol oynayır. Ona görə də uşağın bir şəxsiyyət kimi formalaşmasında mənbələri, şəraiti bilmədən tərbiyənin psixoloji mexanizmini açmaq mümkün deyildir.

Müasir psixologiyada belə bir cəhət əsas götürülür ki, şəxsiyyət öz fəallığını ətraf aləmlə qarşılıqlı təsir prosesində fəaliyyətdə özünü göstərir. Şəxsiyyətin formalaşmasının mənbəyini onun tələbatı təşkil edir.

Təlim tərbiyənin müvəffəqiyyətli həlli, yeniyetmə şəxsiyyətin formalaşması, onların yeni iqtisadi, siyasi, sosial münasibətlər sisteminə daxil olması müəllimin peşə ustalığından, mənəvi mövqeyindən, fərdi psixoloji xüsusiyyətlərindən asılıdır.

Yeniyetmə şəxsiyyətinin formalaşmasında müəllimin peşə səviyyəsi ilə eyni dərəcədə onun şəxsi keyfiyyətləri müstəsna rol oynayır.

Müəllim-şagird qarşılıqlı münasibətləri bir-birinə elə yönəlməlidir ki, onların qarşılıqlı anlaşmasını şərtləndirsin. Bu isə öz növbəsində davranışın qarşılıqlı korreksiyasına gətirir. Təlim şəxsiyyətlərarası münasibətlər vasitəsilə başlayır və bitir. Müəllim-şagird qarşılıqlı münasibətləri təlim və tərbiyə məsələlərinin həllində əsas rol oynayır.

Təlim prosesində elə qarşılıqlı münasibətlərin yaradılması nəzərdə tutulur ki, burada hər iki tərəf qarşıya qoyulmuş məqsədə çata bilsin. Əməkdaşlığın əsasında bu prosesin iştirakçıları arasında pozitiv münasibətlərin saxlanması durur.

Müəllim və şagird arasında münasibətlərin necə qurulacağı ünsiyyət və qarşılıqlı təsir vasitələrinin xarakterinə birbaşa təsir edir.

Müəllim-şagird arasında qarşılıqlı fəaliyyətin yaranması təbii öyrənmə prosesinin formalaşması ilə nəticələnir. Bu, ənənəvi təlim prosesinə məxsus amirlik abu-havasının əməkdaşlıqla əvəz olunmasına gətirib çıxarır. Bu zaman müəllim və şagird arasında işgüzar bir əlaqə formalaşır. Belə şəraitdə hər kəs təbii olaraq qarşısına qoyduğu məqsəd üçün çalışır.

Müəllim-şagird arasında qarşılıqlı fəaliyyətin yaranması həm də ənənəvi olaraq məktəblə valideyn arasında əlaqələrin yeni məzmunda qurulmasına rəvac verir. Valideynlər məktəbdə təlim prosesi və övladlarının gündəlik təlim fəaliyyəti ilə daha yaxından maraqlanmağa, onların təhsil prosesinə nüfuz etməyə imkan tapırlar. Müəllimlərin valideynlərlə əlaqələrinin yeni xətləri yaranır. Valideynlər uşaqlarının təlim fəaliyyətinin iştirakçısına çevrilir, onların problemləri ilə daha yaxından tanış ola bilirlər.

Müəllim-şagird münasibətləri təlim prosesinin barometridir. Onun vasitəsilə müəllim və şagird fəaliyyəti barədə, eləcə də öyrənmə işinin xarakteri haqqında tam məlumat almaq mümkündür. Şagirdlərinin təlim marağına səbəb olan müəllimlər kommunikativ imkanlarından istifadə edirlər. Belə ki, şagird kollektivini təlim prosesinə hazırlamaq, onu ümumi fəaliyyətin məntiqinə tabe etmək üçün ən yaxşı vasitə kommunikativ (ünsiyyət) bacarıqlardır.

Müəllim-şagird münasibətləri zamanı müəllimin fəaliyyətində aparıcı keyfiyyətlərdən biri də tədqiqatçılıqdır. Müəllim reallaşdıracağı standartlara əsaslanaraq məqsədlərini müəyyənləşdirir. Onları həyata keçirmək üçün fəaliyyətini layihələndirir. Konkret plan qurur.

Gündəlik fəaliyyətə gəldikdə isə müəllim hər dərs üçün orijinal bir sistem hazırlayır. Onun reallaşdırılması imkanlarını müəyyənləşdirir. Bu mənada tədqiqatçılıq müəllimin zəruri bacarıqlarından biri kimi dəyərləndirilir və onun formalaşdırılması istiqamətində iş aparılması məqsədəuyğun hesab edilir.

İstər kommunikativ, istərsə də tədqiqatçılıq bacarıqlarının yaranması üçün müəllimin elmi-idraki bacarıqlara yiyələnməsi qaçılmaz bir zərurətdir. Müəllimin akademik və pedaqoji-psixoloji hazırlığı onun kommunikativ və tədqiqatçılıq bacarıqlarının yaranmasının təminatçısıdır. Ona görə də müəllim şəxsiyyətində formalaşmış olan bu bacarıqların, eləcə də bunlarla yanaşı, digərlərinin formalaşması onların şagirdlərlə fəal təlim şəraitini daha səmərəli təşkil və idarə etməyə imkan verir.

Şagirdlər tərəfindən təcrübənin mənimsənilməsi şəxsi münasibətlər xaricində mümkün deyil. Məhz münasibətlər çərçivəsində şagird müəllimin qiymətləndirilməsini başa düşür. Həm də şagird özü də müəllimini qiymətləndirir. Müəllimə münasibət şagirdin uğurunu şərtləndirir. Pedaqoqa qarşı pozitiv münasibət təlimə marağı, şagirdlərin biliklərə yiyələnmə istəyini artırır. Bu zaman müəllim nəyin korreksiyaya ehtiyacı olduğunu,

mənimsənildiyini və özünün nəyə əsaslanacağını müəyyənləşdirə bilir. Bu mənimsəmə prosesləri öz-özünə baş vermir. Formalaşan şagird şəxsiyyəti müəllimin dəstəyi nəticəsində digər insanların nəzər nöqtəsini, davranış və əməllərini nəzərə almağın vacibliyini öyrənir. Şagirdin bütün şəxsi keyfiyyətlərinin nəzərə alınması əsasdır. Bu, təlimin tempini və keyfiyyətini dəyişməyə imkan verən şərtdir.

Məktəblərdə valideynlər övladlarının təhsili ilə yaxından tanış olmaq imkanı qazanır və bu prosesdə fəal iştirakçıya çevrilir. Şagirdlər isə müstəqil şəkildə araşdırmalar, mülahizələr edir, fərdi və yaşıdları ilə birgə komandada işləmək bacarığı qazanır, əylənir və öyrənir. Həmçinin, şagirdlər layihələrin həyata keçirilməsi prosesində yaxından iştirak edir və birgə qərar qəbuletmə bacarıqlarına yiyələnirlər. Müəllimlər isə öyrətməklə kifayətlənməyərək şagirdlərə və valideynlərə lazımi pedaqoji, texniki və mənəvi dəstək göstərir, bələdçilik edir.

Məktəblərimizdə bu problemlərin başlıca səbəbi kimi müəllim-şagird, müəllim-valideyn münasibətlərinin aşağı səviyyədə olmasından, müəllimlərin pedaqoji savadsızlığından irəli gəldiyini deyib: "Buna görə müəllimlər öz üzərində çalışmalı Sovet dövründən qalma ənənələrdən uzaqlaşmalıdırlar. Amma bəzən valideynlər də şagirdin müəllimə olan hörmətinin azalmasında əsas iştirakçı rolunu oynayırlar. Təbii ki, müəllimlik peşələr arasında çox böyük iddiaya malik olanıdır. Çünki burada öyrətmək iddiası var. Kimə, nəyi, necə öyrətməkdən, başqasının övladını öz övladı kimi yetişdirməkdən söhbət gedir. Ancaq çox təəssüf ki, bu gün müəllim şəxsiyyətinə kifayət qədər hörmətlə yanaşan şagirdə, valideynə çox az-az rast gəlinir".

Müəllim intellekti, bilik və təcrübəsi, mehriban davranışı, ünsiyyəti ilə şagirdin diqqətini cəlb etməyə çalışır. Müxtəlif metodlardan istifadə edərək oxumaq arzusu olmayan şagirdin diqqətini dərsə yönəltməyə səy göstərir. Ancaq nəticə alınmadıqda şagirdə öyüd verməkdən belə çəkinir. Yəni, müəllim-şagird münasibətində valideynin nə olursa olsun, öz övladının tərəfini saxlaması uşağın təlim-tərbiyəsinə mənfi təsir göstərir. Əvvəllər müəllimlə şagird arasında hər hansı bir problem yarananda valideynlər müəllimin tərəfini tutur, onu dəstəkləyirdilər. İndi isə valideynlərin fikirləri dəyişib. Onların əksər hissəsi hesab edir ki, səbəb nə olursa olsun, şagirdə müəllim tərəfindən hər hansı bir irad bildirilməməlidir. Hətta şagird dərsə hazır olmadığı təqdirdə, müəllim ona irad tuta bilməz. Sözsüz ki, valideynlərin bu yalnış fikri isə ilk növbədə şagirdin təlim-tərbiyəsinə öz mənfi təsirini göstərir.

Bizim valideyn iclasları köhnə sovet sistemindəki iclaslar kimidir. Valideyn iclasa gəlir, müəllim cədvəli götürüb hamının içində deyir sənin uşağın oxumur, tərbiyəsizdir. Sinif rəhbəri valideynlər arasında fərq qoyur və digər valideynlər içində onu pərt edir. Əslində sinif rəhbəri hər bir uşağa fərdi yanaşmalıdır və valideyni məktəbə dəvət edərkən dəvətnamə göndərməlidir.

Həmin iclasa hansısa bir mütəxəssis, psixoloq dəvət olunmalıdır ki, valideynlərlə maarifləndirici söhbətlər apararaq onları istiqamətləndirsin. Bununla yanaşı, müəllimlərin də valideynlə düzgün ünsiyyət qurmaları uşağın formalaşmasında əsas amillərdən biridir. Təbii ki, tərəflər arasında münasibətlərin düzgün qurulması uşağın şəxsiyyət kimi formalaşmasına da müsbət təsir göstərəcək.

***Ədəbiyyat***

1. *Abdinova N.C. "Pedaqogika fənni üzrə mühazirə mətnləri". Dərs vəsaiti. "Vətən" nəşriyyatı. Bakı - 2019.*
2. *Babayev A. (2012). Azərbaycan dili və nitq mədəniyyəti. Bakı.*
3. *Əliyev R.İ. (2004). Məktəbə psixoloji xidmətin aktual məsələləri. Bakı, 642 s.*
4. *Həmzəyev M.Ə. (2003). Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı, s.212-257.*
5. *Həsənov A., Ə. Ağayev. Pedaqogika.(dərslik). Bakı - 2007. "Nasir" nəşriyyatı*
6. *Kazımov N. Məktəb pedaqogikası. Dərslik. Bakı 2011. "Şıraq" nəşriyyatı. 440 səh.*
7. *Quliyeva A., Soltanov M. (2009). Məktəblinin orfoqrafiya-orfoepiya-qrammatika lüğəti. Bakı.*

**T.S.Allahyarova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***shems91@inbox.ru***

# İBTİDAİ SİNİFLƏRDƏ İNKLÜZİV TƏHSİLİN TƏTBİQİ PROBLEMLƏRİ

***Xülasə***

*İnklüziv təhsilin mahiyyəti, məqsədi və vəzifələri, təcrübəsindən istifadə, ibtidai siniflərdə inklüziv təhsilin tətbiqi problemləri və inklüziv sinif üçün dərsin planlaşdırılmasının əhəmiyyəti mühümdür.*

*Tədqiqat işində inklüziv təhsilin təşkilində müasir texnologiyaların tətbiqinin əhəmiyyəti rolu, mövqeyi, gələcək nəsillər üçün mahiyyəti üzrə təsnifi tədqiq olunmuşdur. Həmçinin mövzunun təhlili aparılaraq vacib nəticələr əldə olunmuşdur.*

# ПРОБЛЕМЫ РЕАЛИЗАЦИИ ИНКЛЮЗИВНОГО ОБРАЗОВАНИЯ В НАЧАЛЬНЫХ КЛАССАХ

***Резюме***

*Важны сущность, цель и задачи инклюзивного образования, использование опыта, проблемы реализации инклюзивного образования в начальных классах и значение планирования урока для инклюзивного класса.*

*В исследовательской работе изучены значение, роль и классификация применения современных технологий в организации инклюзивного образования для будущих поколений. Также была проанализирована тема и получены важные результаты.*

# PROBLEMS OF IMPLEMENTATION OF INCLUSIVE EDUCATION IN PRIMARY CLASSES

***Summary***

*The essence, purpose and tasks of inclusive education, use of experience, problems of implementation of inclusive education in primary classes and the importance of lesson planning for an inclusive class are important.*

*In the research work, the importance role, position and classification of the application of modern technologies in the organization of inclusive education for future generations were studied. Also, by analyzing the topic, important results were obtained.*

***Açar sözlər:*** *təhsil, inklüziv təhsil, dərsin planlaşdırılması, tərbiyəvi fəaliyyət, texnologiyalar, sağlamlıq, inklüziv təhsil, sağlamlıq imkanları məhdud uşaqlar*

***Ключевые слова:*** *образование, инклюзивное образование, планирование урока, образовательная деятельность, технологии, инклюзивное образование, дети с ограниченными возможностям*

***Key words:*** *education, inclusive education, lesson planning, educational activity, technologies, inclusive education, health opportunities, disabled children*

İnklüziv təhsil ümumi təhsilin inkişafı prosesidir. Təhsilin bütün uşaqların müxtəlif ehtiyaclarının ödənilməsi baxımından hamı üçün əlçatan olmasını nəzərdə tutur. Bu xüsusi qayğıya ehtiyacı olan uşaqların da təhsil almasını təmin edir.

İnklüziv təhsil anlayışı insan hüquqları prinsipinə əsaslanır. İnsan Hüquqları Konvensiyasına görə, dövlətlər elə bir təhsil sistemi qurmalıdır ki, təhsilalma hüququ hər bir uşağa şamil edilsin. Azərbaycan Respublikası İnsan Hüquqları Konvensiyasını 1992-ci ildə imzalayıb və respublikamızda yaşayan hər bir uşağın təhsil alma hüququnu qorumağı öz üzərinə götürmüşdür.

Müasir dövrdə inklüziv təhsil dedikdə uşaqların məktəbəqədər müəssisələrdə, orta təhsil məktəblərində dərs alması prosesi nəzərdə tutulur ki, bunun da xüsusi tələbləri var. Təlim metodikasına müvafiq inklüziv təhsil uşaqlara qarşı hər hansı formada ayrı-seçkilik edilməsinin qarşısını alır, müxtəlif nevroloji və ya psixi xəstəlikləri olanlara belə mükəmməl şəkildə təhsil almaq, uğur qazanmaq imkanı verir. Onun əsas vəzifəsi məhdud imkanlara malik insanların peşə hazırlığı üçün sərhəd tanımayan mühit yaratmaqdır.

Xüsusi pedaqoji rəhbərliyin vacibliyi prinsipi sağlamlıq imkanları məhdud olan şagirdlərin öyrənmə potensialını nəzərə alaraq təlim-təhsil prosesinin planlaşdırılması, sadədən mürəkkəbə metodu əsasında dərsin mənimsənilməsi, illüstrasiyalar, şəkillər, sxemlər, rəmzlər əsasında prosesin təşkili işinin təminatıdır [2, s.127]

Belə ki, sağlamlıq imkanları məhdud olan uşaqlar üçün mahiyyətcə eyni, lakin sadələşdirilmiş tapşırıqlar verilməsi, bu tapşırıqların fərdi şəkildə yerinə yetirilməsi təlim prosesinə müsbət təsir edir. Bu prosesdə həssas qrupdan olan uşaqlar üçün xüsusi ixtisaslaşmış müəllimlərin seçilməsi vacib məsələlərdəndir.

Sağlamlıq imkanları məhdud uşaqlarla bağlı əsas problem qanunvericilik bazasının yetərsizliyidir. İnklüziv təhsillə bağlı bir sıra müddəaların müvafiq qanunlarda öz əksini tapmasına baxmayaraq, onların həyata keçirilməsi tam reallaşdırılmayıb. Bunun əsas səbəbləri kimi valideynlərlə müəllimlərin sıx əməkdaşlıq etməməsini, sağlamlıq imkanları məhdud uşaqların tədris prosesinə cəlb olunması üçün inklüziv təhsildə təlimin təşkili prinsiplərinə düzgün əməl olunmamasını göstərmək olar.

Xüsusi qayğıya ehtiyacı olan uşaqların daha keyfiyyətli təhsilə yiyələnməsi, cəmiyyətə daha tez adaptasiyası üçün digər yaşıdları ilə bir yerdə olması daha məqsədəuyğundur.

Xüsusi qayğıya ehtiyacı olan uşaqların tipik yaşıdları ilə təhsilə birgə hazırlanması üzrə məsuliyyət mahiyyət etibarı ilə daha çox psixoloq və tərbiyəçilərin üzərinə düşür. Ümumiyyətlə, korreksiyaedici xidmət dedikdə, öncə onların təhsilə daha tez uyğunlaşması, uşaqlarla effektiv ünsiyyət qura bilməsi nəzərdə tutulur. Məsələn, uşaq bağçalarında, yaxud məktəbəqədər hazırlıq müəssisələrində tərbiyəçilərin əsas rolu uşaqlarda kollektivçilik, əmək vərdişləri, davranış, etik və əxlaqi keyfiyyətlərin inkişaf etdirilməsi, dünya haqqında ilkin təsəvvürlərin yaradılması funksiyalarını həyata keçirməkdən ibarətdir.

İnklüziv təhsilin prinsipləri:

1. İnsanın dəyəri onun qabiliyyət və nailiyyətlərindən asılı deyildir;
2. Hər bir kəs hiss etmək və düşünmək qabiliyyətinə malikdir;
3. Hər kəs ünsiyyət hüququna malikdir və o dinlənilməlidir;
4. Bütün insanlar bir-birinə lazımdır;
5. Həqiqi təhsil yalnız real münasibətlərin kontekstində mövcud ola bilər;
6. Bütün insanlara öz həmyaşıdlarının dəstək və dostluğu lazımdır;
7. Bütün şagirdlərin inkişafı onların bilik və bacarıqlarından asılıdır;
8. İnsanların müxtəlifliyi həyatın bütün sahələrini inkişaf etdirir.

İnklüziv təhsil məktəbəqədər, orta, peşə və ali təhsil mərhələlərini ehtiva edir. Bununla o, SİM insanların davamlı təhsilinin və inkişafının təmin olunmasına xidmət edir.

Mühit insana müsbət və ya mənfi təsir göstərə bilər. İnsanlar üçün yaradılan əlverişli mənzil-məişət şəraiti, mədəni-maarif, təhsil və sağlamlıq müəssisələri, əmək və istirahət şəraiti, insan münasibətləri şəxsiyyətin inkişafına güclü təsir göstərən sosial mühit amillərinə daxildir. Cəmiyyətdə gedən proseslər ailə, məktəb, əmək kollektivlərinə də öz təsirini göstərir.

Mühit insana kortəbii təsir göstərdiyi halda, tərbiyə məqsədyönlü və planlı aparılır. İnsanın mühitə münasibəti tərbiyə ilə bağlıdır, onunla tənzim olunur. Tərbiyə mühitin müsbət cəhətlərinə istinad edir, onun mənfi təsirlərini neytrallaşdıra bilir. Tərbiyə insanın təbii imkanlarının üzə çıxarılması və inkişafına kömək göstərir. O, uşaqların həyat və fəaliyyətini təşkil etməklə onların maraq və qabiliyyətlərinin inkişafına əlverişli şərait yaradır. Bir sözlə, tərbiyə şəxsiyyəti layihələşdirir.

İnsan mühitin və tərbiyənin passiv obyekti kimi yox, fəal subyekti kimi çıxış edir, mühitə və tərbiyə prosesinə, özünün şəxsiyyət kimi formalaşmasına fəal təsir göstərir. Tərbiyə uşaq və yeniyetmələri ancaq obyekt kimi qəbul edərsə, çox şeydən məhrum olar, öz məqsədinə çata bilməz. İnsanın şəxsi fəallığı müxtəlif formalarda təzahür edir: zehni, əmək, fiziki, yaradıcı, ictimai-siyasi. Öyrənmə fəaliyyəti insanın bilik və bacarıqlara yiyələnməsinə, ideyamənəvi tərbiyəsinə və psixi inkişafına kömək göstərir. Əmək fəaliyyəti

gənc nəslin əmək və peşə hazırlığında, əxlaqi və fiziki tərbiyəsində, xarakter və iradənin formalaşmasında böyük rol oynayır.

İctimai fəaliyyət prosesində yeniyetmə və gənclər sosial təcrübə qazanır, ünsiyyət mədəniyyətinə, kollektivçilik keyfiyyətlərinə yiyələnirlər. Nəzərdən keçirilən amillər - irsiyyət, mühit, tərbiyə və insanın şəxsi fəallığı bir-biri ilə sıx bağlı olub, bir-birini şərtləndirir.

Əlilliyi olan uşaqlar ayrılıqda təhsil almalıdırlar ki, tədris zamanı çətinliklər meydana gəlməsin. Lakin tədqiqatlar göstərdi ki, bu cür uşaqların digər uşaqlarla birgə, eyni sinifdə həyata keçirilən dərs prosesində iştirakı bu prosesin bütün iştirakçılarına təhsil və sosial baxımdan fayda verir. İnklüziv təhsil bir seçim deyil, BMT-nin "Uşaq hüquqları haqqında" və "Əlillərin hüquqları haqqında" Konvensiyaları ilə müəyyən edilmiş və hal-hazırda Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə təsbit olunmuş uşaq hüququdur.

Müasir dövrdə ibtidai siniflərdə inklüziv təhsilin təşkili xüsusiyyətləri mühüm əhəmiyyət daşıyır. Sağlamlıq imkanları məhdud şəxsləri effektiv tədris-təlim prosesinə cəlb etmək üçün ictimai səviyyədə maarifləndirici, məlumatlandırıcı işlərin görülməsi, ictimai şüurun formalaşdırılması, əlilliyi olanlara münasibətdə birmənalı şəkildə müsbət yöndə ictimai fikir dəyişikliyi, həmçinin əlverişli və təhlükəsiz mühit yaradılması prioritet hədəflərdəndir. Bunun üçün, ilk növbədə cəmiyyətin ziyalı təbəqəsi əlilliyi olan şəxslərin assimilyasiyası naneytral və ya passiv mövqe nümayiş etdirməməlidir.

Sağlamlıq imkanları məhdud şəxslərin problemi ətrafdakılar tərəfindən cəmiyyətin öhdəliyi kimi qəbul edilməli, insanlar onlara qarşı passiv tolerantlıq göstərməməlidir. Bu qeyd etdiyimiz prinsiplərə riayət olunmalıdır. Çünki sağlamlıq imkanları məhdud şəxslərin təhsilə cəlb olunması və cəmiyyətə uyğunlaşması asan bir proses deyil. Müəllimlərin valideynlərlə birgə səyi və əməkdaşlığı sayəsində yaradılan təlim-tədris mühiti sağlamlıq imkanları məhdud şəxsləri kifayət qədər dəstəklə əhatə edə, bu istiqamətdə yeni tədris strategiyalarının təcrübədən keçirilməsi təhsilin səmərəliliyini artıra, öyrənmə prosesini daha da təkmilləşdirə, bununla da təhsilalanların təlim nəticələri yaxşılaşar.

İnklüziv təhsilin mahiyyəti, məqsədi və vəzifələri, Azərbaycanda inklüziv təhsilin təşkilində dünya təcrübəsindən istifadə son zamanlar diqqət mərkəzindədir. Həmçinin ibtidai siniflərdə inklüziv təhsilin tətbiqi problemləri inklüziv sinif üçün dərsin planlaşdırılması, inklüziv təhsilin təşkilində müasir texnologiyaların tətbiqinin əhəmiyyəti və vacibliyi özünü göstərir.

Təhsilin təşkilində, tədris müəssisələrində müəllimlərin bunun üçün mühüm addımlar atması vacibdir. Belə ki, ibtidai siniflərdə inklüziv təhsilin tətbiqi problemlərinin aradan qaldırılması üçün qrup məşğələlərinin işinin nizamlı təşkilinin səmərəliliyini vurğulamaq və addımlar atmaq, sağlamlıq

imkanları məhdud şəxslərlə əməkdaşlıq və kommunikativ bacarıqların daha effektiv şəkildə təşkilinə şərait yaratmaq məqsədəuyğundur.

***Ədəbiyyat***

1. *"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. (2009).*
2. *Ağayev, Ş., Məmmədova, E., Əliyeva, X. (2012). "İnklüziv təhsil günün tələbidir". "Azərbaycan məktəbi" jurnalı, №4.*
3. *BMT-nin "Əlillərin hüquqları haqqında" Konvensiyasının icrasına dair Azərbaycan Respublikasının ilk hesabatı. Yanvar, 2011-ci il.*
4. *Hüseynzadə, R.L. (2013). Pedaqogika. Dərslik. Bakı, Mütərcim, 708 s.*
5. *İnklüziv siniflərdə təlimin təşkili. (2018). Bakı. Oxu materialı. http://www.tipii.edu.az.*
6. *Kathy, C. (2014). Inclusive Education in the Early Years: Right from the Start.*
7. *Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında Azərbaycan Respublikasının Qanunu. (2001)*

**Ə.Ə.Şəfizadə**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***azizashafizada@gmail.com***

# SİNTAKSİS TƏDRİSİNDƏ ÜSLUBİYYAT KOMPONENTLƏRİ

***Xülasə***

*Məqalədə sintaktik vahidlərin üslubi imkanlarından danışılır və üslubi sintaksisin nitqdəki rolu əsaslandırılır. Qeyd olunur ki, sintaktik üslub fonetik, leksik və morfoloji üslublardan kənarda formalaşan bir üslub deyildir. Fonetikada səslərin, leksikada sözlərin, morfologiyada ayrı-ayrı nitq hissələrinin üslubi imkanları mövcuddursa, sintaksisdə də sintaktik vahidlərin (sadə və mürəkkəb cümlənin, məqsəd və intonasiyaya görə cümlə üzvlərinin, feili sifət, feili bağlama və məsdər tərkiblərinin, cümlə üzvlərinin məntiq və qrammatika əsasında sıralanmasının və s.) öz üslubi imkanları vardır. Burada sintaktik üslubi imkanlar dil qanunauyğunluqlarına, dil faktlarına istinadən dəqiqləşdirilir və ayrı-ayrı funksional üslubların üslubi sintaksisdəki rolundan danışılır.*

# КОМПОНЕНТЫ СТИЛЯ В ОБУЧАЕМОМ СИНТАКСИСЕ

***Резюме***

*В статье говорится о стилистических возможностях синтаксических единиц и обосновывается роль стилистического синтаксиса в речи. Отмечается, что синтаксический стиль не является стилем, сформированным вне фонетического, лексического и морфологического стилей. Если в фонетике есть стилистические возможности звуков, в лексике слов, в морфологии отдельных частей речи, то в синтаксисе есть синтаксические единицы (простое и сложное предложение, члены предложения по назначению и интонации, отглагольное прилагательное, глагольный союз и инфинитивное сочинение), порядок членов предложения на основе логики и грамматики и др.) имеют свои стилистические возможности. Здесь уточняются синтаксические стилистические возможности со ссылкой на языковые закономерности, языковые факты, обсуждается роль отдельных функциональных стилей в стилистическом синтаксис*

# STYLE COMPONENTS IN TEACHING SYNTAX

***Summary***

*The article deals with the stylistic possibilities of syntactic units and substantiates the role of stylistic syntax in speech. It is noted that the syntactic style is not a style formed outside the phonetic, lexical and morphological styles. If in phonetics there are stylistic possibilities of sounds, in the vocabulary of words, in the morphology of individual parts of speech, then in syntax there are syntactic units*

*(simple and complex sentences, sentence members by purpose and intonation, verbal adjective, verbal union and infinitive composition), the order of sentence members based on logic and grammar, etc.) have their own stylistic possibilities. Here syntactic stylistic possibilities are clarified with reference to linguistic patterns, linguistic facts, the role of individual functional styles in stylistic syntax is discussed.*

***Açar sözlər:*** *sintaksis, üslubi sintaksis, funksional üslublar*
***Ключевые слова:*** *синтаксис, стилистический синтаксис, функциональные стили*
***Key words:*** *syntax, stylistic syntax, functional styles*

Fonetika, leksikologiya və qrammatikanın nəticələrinə əsaslanan üslubiyyat dilin ifadəlilik vasitələrindən, nitq inkişafı üzrə aparılan işlərin istiqamətlərindən bəhs edən müstəqil elm sahəsidir. “Üslubiyyat məsələlərinin məzmununa səslərin, sözlərin, ifadələrin, cümlələrin, qrammatik qaydaların məna və təsir qüvvəsi cəhətindən seçilməsi, üslubi imkanların praktik mənimsədilməsi, nitqin dəqiqliyi, yığcamlığı, ahəngdarlığı, bədiiliyi üzrə aparılan işlər və müxtəlif üslubları özünə daşıyan inşa nümunələrinin öyrədilməsi yolları daxildir [2, 286].

Əgər fonetik üslubiyyata səs, ahəng, məna ilə səslənmə arasındakı ahəngdarlıq, leksik üslubiyyata söz, onun semantik quruluşu, əmələgəlmə səbəbləri, məna növləri, ümumişlək sözlər, terminlər, evfemizm, vulqarizm və dialektizmlər daxildirsə, qrammatik üslubiyyata nitq hissələrinin, feilin zaman, şəkil və formalarının, cümlənin intonasiya və məqsədə görə növlərinin, sintaktik əlaqələrin, cümlənin tabelilik və tabesizlik formalarının, cümlə üzvlərinin sıralanması kimi məsələlərin üslubi imkanları aiddir ki, bunlar da üslubi sintaksisi formalaşdırır.

Üslubi sintaksis sintaktik vahidlərin üslub resurslarını öyrənən dilçilik sahəsidir. Sintaktik və üslubi problemlərin sıx əlaqədə olduğu bu sferada üslubi aspektə daha çox diqqət yetirilir, sintaktik forma, sintaktik struktur nitqin üslubi xüsusiyyətlərinin görünməsinə xidmət edir. Sintaktik elementlər lüğət kimi mətnin üslubunun formalaşmasında mühüm rol oynayır.

Sintaksis nəqli təşkil edir, hərəkət və formaları açır, intonasiya qəlibinin xarakterini qabaqcadan müəyyən edir, bir sözlə mətnin perspektivini formalaşdırır. Söz sıralanması, sintaktik vahidlərin sadə və mürəkkəbliyi, məqsəd və intonasiyaya görə cümlə növləri, xəbərin mübtəda ilə, tamamlığın xəbərlə, təyinin təyin olunan sözlə yerini dəyişməsi, bütövlükdə cümlə üzvlərinin məntiqi-qrammatik cəhətdən düzülüş ardıcıllığı, hətta durğu işarələrinin qoyulması kimi məsələlərin xarakterik cəhətləri mətnin üslubuna nəzərə çarpacaq dərəcədə təsir göstərir. “Elə bir sintaktik vahid, quruluş yoxdur ki, nitqin üslubca zənginləşməsində bu və ya digər dərəcədə iştirak etməsin [1,207]. Bunlardan bəzilərinə toxunmaqla sintaksisin üslubi komponentlərini

dəqiqləşdirməyə və ümumilikdə həmin proseslərin üslubiyyatdakı yerini müəyyənləşdirməyə çalışaq.

Üslubi sintaksis baxımından sadə cümlənin məqsəd və intonasiyaya görə növlərinin imkanlarını araşdırdıqda müşahidə edirik ki, sual, nida və əmr cümlələri nitqə rəngarənglik gətirir, onun emosionallığını, ekspressivliyini, intonasiya ilə bağlı tələffüz ahəngdarlığını artırır, nitqi bu və digər formada zənginləşdirir. Məsələn, sual cümlələri mətnə intizar, nigarançılıq, təəccüb, etiraz, narazılıq, məmnunluq, danlamaq kimi məziyyətlər daşıyır: *"Bu yaz gecəsində ölməyə nə var?!", "Kim bu dərdi xəbər aldı?", "Dünya, məndən kimlər keçdi?", "Hardan qayıtmışam, hardaydım, ana? Mən niyə getmişdim, niyə qayıtdım?", "Yazan qızın adı nəydi, ilahi?"* (R.Rövşən).

Sual cümlələrindən fərqli olaraq əmr və nida cümlələrində bir təkid, istək, təbrik, güzəşt, məsləhət, xahiş, hədə, təəccüb, həsrət, çağırış, yalvarış və s. kimi mənalar ifadə olunur və həmin mənaya uyğun intonasiyada tələffüz olunur. Məsələn, "*Mən sənsiz ölmədim, məni bağışla!", "Bütün məni ağlayanlar kiridi, sən də kiri, qəbrim damır, ağlama!", "Bu qırışın üzümü sevməyə də mənə güc ver, ilahi!", "Səmədin ürəyinin başında tumurcuqlanan o meyvənin adı sevgiydi!", "Bilməmişəm, mənim balam, bağışla, çiynimdəki bu qabara bağışla!"* (R.Rövşən).

Poetik nümunələrdə feili sifət, feili bağlama, məsdər tərkibləri də həmcins üzvlərə məxsus sadalayıcı intonasiyaya sahiblənməklə fikrin daha qabarıq, daha emosional və təsiredici çatdırılmasına imkan yaradır ki, bunlar da nitq üslubu üçün böyük əhəmiyyət kəsb edir. Məsələn:

Ey çılğın küləklər, nəşəniz daşarkən,
Bağların şehindən mey sorub coşarkən,
Nalqıran dağları atlayıb aşarkən,
Məni də alınız, uçayım dağlara
Könlümdə nə varsa, açayım dağlara. (M.Müşfiq)

Bu şeir parçasında feili bağlama tərkibləri fikrin oxucuya ardıcıl, dolğun, nizamlı və poetik cərgə ilə çatdırılmasına kömək edir. Biz bu halla həmcins üzvlərdə və sinonimik cərgələnmədə də rastlaşırıq.

Həmcins üzvlər də frazanın üslubunda zəngin ifadə imkanlarına malikdir. Elmi və işgüzar üslubda bunlar obyektlərin, işarələrin, hadisələrin neytral sadalanması üçün istifadə olunur. Bədii ədəbiyyatda, jurnalistikada çox vaxt canlı ifadə vasitəsi kimi xidmət edir. Həmcins üzvlərin qruplaşdırılması, birləşməsi nitqə rəvanlıq, pafos və emosional nüanslar gətirir. Məsələn, *Hər an ona təzim etməyə, yalvarmağa, bağışlanmasını istəməyə hazır idi.*

Burada tamamlıqların həmcins düzümü nitqə xüsusi rəngarənglik qatır, sadalama intonasiyası nitq rəvanlığını artırır.

Cümlə üzvlərinin sıralanmasının müəyyən əsaslara söykənən qanunauyğunluq olmasına rəğmən, bəzi hallarda bu sıralanmada baş verən "qanun pozuntuları", yəni cümlə üzvlərinin yerdəyişməsi müəyyən üslubi çalarlar yaradır. Məsələn, *"Həsəd çəkib insanına, heyvanına, quşuna, Hərlənirəm bu dünyanın başına"* (R.Rövşən) ifadəsi qrammatik qanunauyğunluğa görə belə ifadə olunmalı idi, *"İnsanına, heyvanına, quşuna həsəd çəkib, Bu dünyanın başına fırlanardım."* Amma şair poetik üsluba müvafiq olaraq xəbərin yerini əvvələ salmaqla ifadəni daha oxunaqlı, daha ahəngdar etmişdir. Bu hal təyinin təyin olunan sözlə yer dəyişməsində baş verə bilər: *"Ürək böyük, arzular çox, yollar uzun, səbrimiz az"* (S.Vurğun).

Ümumilikdə, leksik və qrammatik mənaya zidd olan üslubi məna problemi müasir dilçiliyin ən mühüm, ancaq tam işlənməmiş məsələlərindən biridir. Üslubi məna bir tərəfdən yalnız nitq kateqoriyasına aid edilməklə onun artımını izah edirsə, digər tərəfdən də dildə mövcud olan üslubu ifadə vasitələrinin təbəqəsinə diqqət yetirməyi tələb edir. Onu da qeyd edək ki, sintaktik üslubiyyat leksik üslubiyyata nisbətən az inkişaf etmişdir.

Diqqət etdikdə ilk baxışda belə təsəvvür yaranır ki, bu forma və üslubda yazan müəlliflər dilin müəyyən qrammatik qanunauyğunluqlarını pozmuş, sintaktik "xətaya" yol vermişlər. Bu vəziyyətlər onu deməyə əsas verir ki, sintaktik vahidlərin üslubi məna problemləri dil və nitq münasibətləri ilə sıx əlaqəlidir. Sintaktik vahidlərin üslubi statusu yalnız qrammatik normadan kənara çıxma hadisələri ilə məhdudlaşmır, danışıq nitqinin sintaktik təsiri altında yazılı nitqin belə üslubi normaları dəyişir. Bu dəyişmələr, hətta, *"bədii ədəbiyyat dili", "bədii-poetik dil", "qəzet dili", "siyasi informasiya dili", "jurnalist nitqi"* və s. kimi ümumiləşdirici frazaların yaranmasına səbəb olur.

Sadə və mürəkkəb cümlələrin üslub komponentlərini, leksik semantikanın yenilənməsinin sintaktik mexanizmini, yazı və danışıq strukturları arasında sintaktik vahidlərin üslubi fərqini, sintaksisə aid olan digər üslubi kateqoriyaların (publisistika, informativlik, epos, folklor və s.) üst-üstə düşməyən cəhətlərini araşdırmaq, sintaktik strukturların üslubi işarələnməsinin şərtiliyini sübut etmək Azərbaycan dili təliminin birbaşa vəzifəsi olmasa da, müəllim məqam gəldikcə belə situasiyaların şərhini verməyə də hazır olmalıdır.

Biz bilirik ki, sintaktik üslubiyyatın nəzəri prinsipləri qrammatik və üslubi mənanın fərqləndirilməsinə əsaslanır. Üslubi komponent sintaktik vahidlərin mənasının, yəni semantikasının tərkib hissəsi olmaqla çoxsəviyyəli formalaşmadır və sintaktik sistemin daxilində səciyyələnir.

Sintaktik konstruksiyaların üslubi mənalarının müəyyən olunmuş iyeraxiyası (üslubi işarə, ifadə vasitələri-kitab, danışıq-publisistik, poetik, epik-povest, folklor və s.) müasir ədəbi dilin ekspressiv və funksional üslublarının qarşılıqlı təsirinə əsaslanır. Məna dəyişkənliyi nitq fəaliyyətinin

elementlərindən biri kimi dilin funksional növlərində məqsədyönlü şəkildə istifadə olunur. Bütövlükdə funksional üslublar sintaksisin mətn formalı komponentləridir və sintaktik nitqin formalaşmasında böyük əhəmiyyət daşıyır.

***Ədəbiyyat***

1. *Abdullayev N. Nitq mədəniyyətinin əsasları. Dərs vəsaiti. Bakı, "Elm və təhsil", 2017, 320 s.*
2. *Balıyev H., Balıyev A. Azərbaycan dilinin tədrisi metodikası. Bakı, "Qismət" 2019, 380 s.*
3. *Xəlilov B. Müasir Azərbaycan dili (sintaksis). Dərslik. Bakı, "Adiloğlu", 2017, 428 s.*
4. *Mustafayeva Q. Azərbaycan dilinin üslubiyyatı. Dərs vəsaiti. Bakı, "Elm", 2010, 392 s.*
5. *Ramiz Rövşən. Nəfəs (kitablar kitabı). Bakı, "Qanun". 2006, 760 s.*
6. *Ümumi təhsilin fənn standartları (I-XI siniflər). Bakı, "Mütərcim", 2012, 402 s.*

**A.M.Bağırova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***arzubaghirova98@mail.ru***

# ŞƏXSİYYƏTİN SOSİALLAŞMASINDA TƏRBİYƏNİN ROLU

**_Xülasə_**

*Məqalədə şəxsiyyətin sosiallaşmasında tərbiyənin rolu araşdırılmışdır. Sosiallaşma insana, sosial həyatın mürəkkəbləşməsi şəraitində cəmiyyətin üzvü olmağa imkan verir. Sosiallaşma - insan fərdinin sosial prinsiplərə uyğunlaşması və onların dəyişməsi prosesidir. Şəxsiyyətin sosiallaşmasında tərbiyənin mühüm rolu vardır. Düzgün edilən tərbiyə insanın inkişafına, sosiallaşmasına, şəxsiyyət kimi formalaşmasına, böyük müsbət təsir göstərir. Tərbiyə məsələləri günümüzdə yüksək qiymətləndirilir və yetişməkdə olan gənc nəslin tərbiyəsinə xüsusi diqqət yetirilir.*

# РОЛЬ ВОСПИТАНИЯ В СОЦИАЛИЗАЦИИ ЛИЧНОСТИ

**_Резюме_**

*В статье исследуется роль образования в социализации личности. Социализация позволяет человеку стать членом общества в условиях сложности социальной жизни. Социализация - это процесс приспособления человеческой личности к общественным принципам и их изменениям. Важную роль в социализации личности играет воспитание. Правильное воспитание оказывает большое положительное влияние на развитие, социализацию и становление человека как личности. Вопросы воспитания сегодня высоко ценятся и особое внимание уделяется воспитанию подрастающего поколения.*

# THE ROLE OF THE UPBRİNGİNG OF CHARACTERİSTİCS OF SOCİALİZATİON

**_Summary_**

*This article talks about the education of characteristics of socialization. Socialization allows every person to become a part of the society. Socialization is a process of human adaptation to the society and its changes. Very important role of socialization is the upbringing. The correct upbringing allows positive and optimal impact on the development, socialization and for one to become a person. The right upbringing is very valuable in today's society and a lot of focus is placed upon the upbringing of young adults.*

***Açar sözlər:*** *ailə, cəmiyyət, inkişaf, sosiallaşma, tərbiyə*
***Ключевые слова:*** *воспитание, общество, развитие, семья, социализация*
***Key words:*** *development, family,socialization, society, upbringing*

Sosiallaşma - insanın cəmiyyətə adaptasiya prosesidir. Yəni, o, artıq cəmiyyətin fəal bir üzvünə çevrilir. Başqa sözlə desək, sosiallaşma insanın fəal vətəndaş, bir şəxsiyyət kimi formalaşma prosesidir. Sosiallaşma doğumdan ölümə qədər olan, bir şəxsin yaşadıqları cəmiyyətin normaları, adət-ənənələri, dəyərləri və rolu ilə öyrədilən prosesdir. Bu proses, yeni üzvləri cəmiyyətə daxil etmək üçün xidmət edir. Sosiallaşma prosesi iki mərhələdən keçir. Birinci sosiallaşma insanın doğuşdan yeniyetməlik dövrünə qədər baş verir. İkinci sosiallaşma yeniyetməlik dövründən, insan həyatının sonuna qədər davam edir. Yetkin ictimailəşmə, insanlar özlərini yeni şəraitdə tapdıqda, xüsusilə normaları və ya adətləri, özlərindən fərqli olan insanlarla qarşılıqlı münasibət qurduqları zaman, baş verə bilər. Sosiallaşma zamanı insan bir qrupun, cəmiyyətin üzvü olmağı öyrənir. Bu proses insanları yalnız sosial qruplara alışdırır, həm də bu qrupların özlərini davam etdirmələri ilə nəticələnir. Şəxsiyyətin sosiallaşmasına təsir göstərən amillər: irsiyyət amili, ailə, sosial mühit və tərbiyədir [1, s.48]. İnsan dünyaya bioloji varlıq olaraq gəlir. Dünyaya gəldikdən sonra insan inkişaf edərək, sosiallaşaraq bir formalaşmış şəxsiyyətə çevrilir. Bu proses zamanı, tərbiyənin rolu əvəzsizdir. Düzgün formada tərbiyə olunan insan, sosiallaşma zamanı çətinliklərlə üzləşmir. Tərbiyə prosesi ailədən başlayır. İlk olaraq, valideynlərin tərbiyə prosesində nələri bildiyini aydınlaşdırmaq lazımdır.

Müasir dövrümüzdə, dünya əhalisinin təhsil və mədəni səviyyəsinin kökündən dəyişib surətlə yüksəlməsi, valideynlərin tərbiyə prosesindəki yanaşmalarına da təsirsiz keçmir. Müasir dövrümüzdə əhalinin hərtərəfli inkişafı, ailə tərbiyəsində müəyyən dəyişikliklərə gətirib çıxardıb. Valideynlər tərbiyə prosesinə aid maarifləndirici debatlara qoşulur, ailədaxili problemlərinə aid kitab və kitabçalara maraq göstərməyə başlayıblar. Bütün bunlara baxmayaraq, hələ də bir çox ailələrdə, əksəriyyət gənc ailələr olmaqla, uşaqların təlim-tərbiyəsində bir sıra ciddi nöqsanlara rast gəlmək mümkündür. Bu nöqsanlar, təbii ki, təsadüfi xarakter daşımır və müxtəlif səbəblərdən meydana gəlir.

Son zamanlar, ailədaxili münasibətlərdə valideynlərin uşaqların tərbiyəsi prosesində, psixoloji vəziyyəti və pedaqoji mədəniyyəti haqqında məlumatların əldə edilməsi məqsədilə, mütəxəssislər tərəfindən müxtəlif tədqiqat və araşdırmalar aparılmışdır. Araşdırmalar göstərmişdir ki, valideynlərin bir çoxunun ailə tərbiyəsi prosesi haqqında bilikləri, çox yüngül və sadə, bəzi hallarda isə tam səthi xarakter daşımaqda davam edir. Bu cür valideynlər həm ailədaxili münasibətlərdə, həm də uşaqların tərbiyəsi prosesində rast gəlmək mümkün olan, ən sadə məsələləri belə yoluna qoya bilmirlər. Belə valideynlərin ailə pedaqoqikası haqqında biliklərə yiyələnmək çox önəmlidir, çünki gələcək nəslin formalaşmasının təməli məhz ailədə qoyulur. Bəzi hallarda, ailədaxili münasibətlərin uşaqların tərbiyə prosesindəki

mühüm rolunun nəzərə alınmaması, valideynlər tərəfindən həmin prosesdə yol verilən nöqsanlar, gənc nəslin sağlam şəkildə formalaşmasına ciddi təsir göstərir. Digər tərəfdən isə, bəzi ailələrdə uşağa verilən mənəvi tələblərlə, valideynlərin öz davranış qaydaları tamamilə uyğunsuz olur. Unutmaq lazım deyil ki, uşaqlar valideynlərini nümunə kimi görürlər və əgər valideynlər uşağını tərbiyəli şəkildə görmək arzusundadılarsa, o zaman birinci olaraq özlərini tərbiyə etməyi bacarmalıdırlar. Ailədə evin məişət qayğılarında ər və arvadın eyni şəkildə, eyni dərəcədə iştirak etməməsi, bəzən bu səbəbə görə yaranan söz-söhbət və mübahisələr, uşaqlarda kişilik və qadınlıq haqqında düzgün təsəvvürlərin yaranmasına və formalaşmasına çox böyük mənfi təsir bağışlayır. Bəzi ailələrdə ana övladına başqa cür, ata isə tamamilə fərqli münasibət bəsləyir. Belə vəziyyətin daha da dərinləşməsi, mürəkkəb ailələrdə rast gəlmək mümkündür. Ana və ata tərəfindən, hər hansı bir səhv hərəkətinə görə, cəza alan uşaq, nənə və ya babaya sığınırlar. Bu zaman uşaqlarda, şüuraltında heç nə olmaz, onsuz da nənəm, babam tərəfimi saxlayacaqlar kimi fikirlər formalaşır. Ailədə tərbiyə prosesində birliyin olmaması, tərbiyə sisteminin vəhdətdə olmaması, uşaqların inkişafı və formalaşması prosesində, bir sıra çətinliklər yaradır. Ailələrdə tərbiyə prosesinin vəzifələri və imkanları haqqında yanlış fikir və təsəvvürlər də, həmin prosesin düzgün yerinə yetirilməməsinin başlıca səbəblərindəndir. Tərbiyə vasitəsilə şəxsiyyət inkişaf edir, sosiallaşır, həyata, cəmiyyətə, maksimum ictimai-fayda verəcəyi sahəyə hazırlanır [1, s.58].

Sistemli tərbiyə vasitəsilə formalaşan bir fərd, həyatda müstəqil şəkildə öz ayaqları üstündə duraraq, özünü təmin etməyi bacarır. Ümumiyyətlə tərbiyə prosesi, ictimai münasibətlər təcrübəsi əsasında böyüyən insanların fəaliyyətinin, düzgün istiqamətləri müəyyənləşdirməyə yardım edir. Nəticədə, tərbiyə olunan insanlarda ətraf mühitə, əməyə, bilik və savada, təlimə və digər fəaliyyət növlərinə, çoxcəhətli münasibət yaranmağa başlayır. Bu da öz növbəsində, obyektiv sosial-ictimai münasibətlərin şəxsi münasibətlərə çevrilməsinə şərait yaradır, insanların sosial-ictimai münasibətləri şüurlu şəkildə dərk etməsinə, yardım göstərir.

Pedaqoqika münasibətlərin formalaşması prosesinə öz mövqeyini, müxtəlif qarşılıqlı fəaliyyət göstərən zaman, insanlar arasında yaranan əlaqələrin təzahürü kimi nəzərdən keçirir [2, s.32]. Bir fərdin şəxsiyət kimi formalaşmasında, önəmli yeri mənəvi münasibətlər tutmaqda davam edir, hansı ki həmin münasibətlər bir şəxsiyyətin həyatındakı fəaliyyətinin müxtəlif sahələrinə nüfuz edir, onun şəxsi simasına, cəmiyyətlə əlaqəsinə, şəxsin özünü tam şəkildə dərk edərək qiymətləndirməsinə təsir göstərir. Tərbiyə prosesi, bir insanın özünü tərbiyə etmək kimi prosesini də meydana çıxarır. Özünü tərbiyə dedikdə, bir şəxsin özündə olan mənfi və müsbət cəhətləri aydın şəkildə dərk edərək, müəyyən dəyişikliklərin aparmasıdır. Özünütərbiyə prosesi, şəxsiyyətin

sağlam şəkildə formalaşmasına böyük təsir göstərir. Tərbiyə edilən şəxsin özü zamanla tərbiyə funksiyasının daşıyıcısı olur. Ailədə verilən tərbiyənin əsas nəticəsi isə, hər cəhətdən inkişaf etmiş, cəmiyyətin tələbləri ilə uyğunlaşa bilən və onun qayda qanunlarına riayət edərək adaptasiya olmağı bacaran bir şəxsiyyətin formalaşmasıdır. Bu prosesdə tərbiyəçinin, yəni valideynlərin fəallığının üstünlük təşkil etməsi ona görədir ki, məhz valideynlər, övladlarını tərbiyə etdiyi zaman həmin prosesin məzmunu mahiyyətini, üsullarını, formalarını və s. müəyyən edir. Uşaqları tərbiyə edən zaman, onun növlərinə də diqqət yetirmək lazımdır. Bəs tərbiyənin hansı növləri mövcuddur? Bu haqqda ətraflı danışaq.

Pedaqoqların fikrinə görə, tərbiyənin növləri bunlardır: təhsil və dünyagörüş formalaşdırılması tərbiyəsi, əxlaq tərbiyəsi, sənət və ya əmək tərbiyəsi, hüquq tərbiyə, ekoloji tərbiyə, estetik tərbiyəsi, siyasi tərbiyə, fiziki tərbiyə. (2, s.49) Təhsil və dünyagörüş formalaşdırılması tərbiyəsi dedikdə: gənc nəslin təbiət, ətraf sosial mühit, cəmiyyət və insan təfəkkürünə aid inkişaf qanunları barəsində, elmi məlumatlara yiyələnmə başa düşülür. Tərbiyənin bu növü icra edildiyi zaman, tərbiyə alan gənc nəsildə, müxtəlif tədris fənlərinin köməyi ilə vacib və önəm kəsb edən biliklərə yiyələnərək, müəyyən bacarıq və vərdişlər formalaşmağa başlayır. Öyrədilən həmin məlumat və biliklər əsasında, insanda dünyagörüş yaranır, həyata baxış formalaşır və artıq insan bir şəxsiyyət kimi cəmiyyətə adaptasiya olmağa başlayır. Tərbiyə olunan uşaq, bir şəxsiyyət kimi formalaşdıqda, dünyanın, təbiətin, cəmiyyətin qanunlarına qarşı münasibəti dəyişməyə başlayır. Bunun səbəbi odur ki, bir fərd artıq müəyyən elmi biliklərə sahibdi, o artıq pisi yaxşıdan ayırmağı bacarır, təbiətin və cəmiyyətin qanunlarını dərk edir və özünə nəyin lazım olduğunu asanlıqla seçə bilir. Bu proses həmçinin təbiətin, ictimai-iqtisadi quruluşun pedaqoji təlim və tərbiyənin qarşısında qoyduğu əsas məqsəd və vəzifədən irəli gəlir. Lakin, bu günə kimi mövcud olmuş cəmiyyət dövrlərində, insan tərbiyələndirən zaman, onun məqsəd və vəzifələri müxtəlif xarakter daşımışdır. Əsas səbəb, həmin dövrlərdə cəmiyyətin, həm təhsil baxımından, həm də elmi-texniki vəziyyət baxımından fərqli olmasıdır. XXI əsr yüksək texnologiya əsri olduğu üçün, uşaqların müəyyən dövrə kimi təhsil almaları, məcburi xarakter daşıyır. Buna əsas səbəb, insanların yaşadığı cəmiyyətin vacib iqtisadi inkişaf səviyyəsinə cavab verə bilmələridir. Təhsil zamanı əldə olunan elmi savad və biliklər, təbiətin və cəmiyyətin qanunları haqqında məlumatlar, həmçinin bir fərdin iqtisadi və siyasi baxımından bilikli olması, onu uğurlu gələcəyə sövq edir və onu intellektual baxımından hərtərəfli inkişaf etdirərək, cəmiyyətdə baş verən hadisələrə obyektiv qiymət verməyi öyrədir. Bu da öz növbəsində, bir gəncə onun yaradıcılıq qabiliyyətlərini inkişaf etməyə, vaxtını səmərəli istifadə etməyə, öz əmək və zəhmətini qiymətləndirərək, həyatını düzgün qaydada qurmağa imkan yaradır. İnsanların yaşadığı hər bir dövrdə, təbiət və cəmiyyət

haqqında müəyyən elmi məlumatlara yiyələnməsı, zəruri olmuşdur. Çünki, məhz təhsil və elm tərbiyəsi alan insanlar, cəmiyyətdə öz yerini tapa bilir və özünü kəşf etməyi bacarır. İnsan təhsil alaraq, elmi məlumatlara yiyələnir, amma həmin məlumatlardan düzgün formada istfadə edərək, optimal həyat qurmağa, əmək tərbiyəsi köməklik göstərir. Əmək və ya sənət tərbiyəsi, uşaq və şagirdlərin, gənc nəslin, ümumiyyətlə cəmiyyətdə yaşayan bütün insanların əmək fəaliyyətinə nəzəri və təcrübi nöqteyi baxımından hazırlanmasını əhatə edir. Əmək tərbiyəsi prosesi zamanı, insanlar əməyin elmi əsasları, onun elmi təşkili haqqında sistemli informasiyalar əldə edir, həyat üçün önəm kəsb edən əmək, bacarıq və vərdişlərə yiyələnir, həmçinin insanlarda əməyə sevgi, dəyər və qiymətləndirmə hissləri formalaşmağa başlayır. Əmək tərbiyəsi prosesini, uşaqlarda lap erkən yaşlardan başlayaraq aparmaq lazımdır. Məsələn: valideynlər kiçik yaşlı uşaqları, istər ev işlərinə, istərsə də digər fəaliyyətlərinə cəlb edərək, əməyi sevməyi öyrətməlidirlər. Müəyyən tapşırıqlar verərək, valideynlər işin sonunda uşaqları mükafatlandırmağı da unutmamalıdırlar. Həmin işləri görməyə, valideynlər müəyyən bir vaxt da qoymalıdırlar ki, uşaqlar həm də zamandan da səmərəli şəkildə istifadə etməyi öyrənsinlər. Məktəbdə təhsil alan şagirdlər isə, əmək tərbiyəsini həm xüsusi dərslər, həm müxtəlif xarakterli dərnəklər, həm də ayrı-ayrı fənlərin tədrisi vasitəsilə əldə edə bilirlər. Bu vasitə ilə uşaqlara, onların həyatda yaşaması və gələcəyi üçün əmək fəaliyyətinin nə qədər vacib, önəmli olduğu öyrədilir və dərk etdirilir. Əmək tərbiyəsi təkcə evdə və məktəbdə aparılmır. Bu proses həmçinin, məktəbdənkanar tərbiyə müəssisələrində, mədəniyyət müəssisələri və başqa tərbiyə müəssisələrində müxtəlif formalı çalışmalar və məşğələlər vasitəsilə də həyata keçirilir. Dünyaca məşhur alimlər və pedaqoqlar, öz pedaqoji və ədəbi əsərlərində əmək tərbiyəsinin insan həyatında nə qədər vacib rol oynadığı barəsində, müxtəlif fikirlər səsləndiriblər.

Azərbaycan ədəbiyyatında isə, bu mövzu haqqında geniş, dərin fikir və məsləhətlərə XII əsrdə yaşamış, dahi yazıçı Nizami Gəncəvinin əsərlərində rast gəlmək olar [3, s.71]. Dahi yazıçının fikrinə görə, cəhənnəmdə əmək fəaliyyəti ilə məşğul olub yaşamaq, cənnətdə əmək fəaliyyətsiz yaşamaqdan üstündür. Əmək tərbiyəsi, təhsil alan gənc nəsli əməyə məxsus müxtəlif forma və prinsipləri ilə tanış edərək, onlarda müəyyən məlumat bazasını formalaşdırmağa çalışır. Ailədə valideynlər tərəfindən, məktəbdə müəllimlər və sosial pedaqoq tərəfindən icra olunan əmək tərbiyəsi, uşaqlarda gələcəkdə peşə seçimi zamanı, düzgün və obyektiv yanaşmaq üçün, geniş imkanlar yaradır. Bundan əlavə əmək tərbiyəsinin verdiyi bilik və elmi məlumatlar gənc nəsilə sahib olduğu peşəni istədikləri vaxt dəyişməyə də imkan yaradır. Məktəblərdə əmək tərbiyəsi haqqında, ayrıca fənn tədris olunmasa belə, onun barəsində digər müxtəlif fənnlərdə, tədris zamanı müəllimlər tərəfindən mütəmadi olaraq şagirdlərə məlumatlar verilir. Əmək tərbiyəsi peşə təhsili ilə

birbaşa əlaqədədir. Peşə təhsili dedikdə, insanların xüsusi gimnaziyalarda, litseylərdə, texnikum və s. orta-ixtisas müəssisələrində istehsal, yaradıcılıq və xalq təsərrüffatının müxtəlif sahələrində çalışa biləcək şəxslər kimi, formalaşdırılması başa düşülür. Ali təhsil alan şəxslər isə yüksək ixtisaslı, ali hazırlıqlı, geniş dünyagörüşə malik, hər cəhətdən inkişaf etmiş və müəyyən ixtisas üzrə formalaşmış insanlardır. Vaxtında düzgün formada əmək tərbiyəsi alan şəxslər, gələcək həyatlarında, maddi baxımdan daha az problemlərlə üzləşirlər. Burada söhbət, təkcə bütün uşaqların böyüyəndə ali təhsil almaqlarından getmir. Bəzən valideynlər övladlarını məcbur sevmədiyi peşələrə sahib olmağa sövq edirlər. Əgər ailədə ana və ya ata həkimdirsə, çox vaxt onlar övladlarını da o sahədə görmək arzusunda olurlar. Təbii ki, bu düzgün yanaşma deyil. Uşaqlara əmək tərbiyəsi verilən zaman, onların individual xakaterik xüsusiyyətləri, istəkləri nəzərə almaq, çox vacibdir. Çünki, insanın xoşbəxt yaşaması üçün, ən çox önəm kəsb edən şərt, sevdiyi işlə məşğul olmasıdır. Valideynlər çox vaxt, əgər övladı təhsil tədrisi zamanı hansısa fənni, digər şagirdlərdən daha az mənimsəyirsə, təşvişə düşərək uşaqlarını danlamağa başlayırlar. Valideynlər bilməlidir ki, əgər övladı riyaziyyatı dərindən mənimsəyə bilmirsə, mütləq olaraq, digər bir fənni daha yaxşı dərk etməyi bacarır. Ona görə də, uşağın zəif nöqtəsinə psixoloji basqı edərək yox, güclü tərəflərini meydana çıxardaraq, inkişaf etdirmək lazımdır. Çünki, yaşadığımız cəmiyyət həm savadlı müəllimə, həm savadlı həkimə, həm mühəndisə, həm rəssama, həm də peşəkar dərziyə hər zaman, ehtiyac duyacaqdır. Ona görə, əmək tərbiyəsi prosesi zamanı, həm valideynlər, həm müəllimlər maksimum diqqətli olmağa çalışmalıdırlar. Digər tərbiyə növü olan əxlaq tərbiyəsi, özündə gənc nəslə cəmiyyətə məxsus olan müəyyən davranış normaları, qaydaları, onların mahiyyəti və məzmunu barəsində informasiya vermək, müvafiq davranışı adətləri formalaşdırmaq kimi prosesləri cəmləşdirir. Ailədə və məktəbdə əxlaq tərbiyəsini alan uşaqlar, həyat və cəmiyyət üçün vacib olan əxlaqi norma və qaydaları mənimsəyir, müəyyən əxlaqi keyfəyyətlərə yiyələnir, sosial-ictimai qaydalarla tanış olaraq inkişaf edir. Bu proses zamanı, bir fərd şəxsiyyət kimi formalaşmaqdan əlavə, cəmiyyətə, həyata qarşı münasibəti də formalaşmağa başlayır. Əxlaq tərbiyəsi prosesi, insana ömür boyu davam edən və insana müxtəlif cəhətlərdən təsir göstərə bilən, bir tərbiyə növüdür. Əxlaq tərbiyəsi ilk olaraq ailədə, daha sonra məktəbdə, məktəbdə təhsil tədrisi başa çatdıqdan sonra, ali təhsil müəssələrində, digər mədəniyyət müəssisələrində icra olunur. Həm ailədə, həm də digər müəssisələrdə icra olunan tərbiyə tədbirləri, yaşadığımız dövrün ən aktual xarakterli tərbiyə problemlərinə həsr olunur. Bu zaman, müəyyən savada biliyə sahib olan insanlar, digərləri ilə öz təcrübələrini bölüşür və dövrün cəmiyyətdəki qaydaları ilə tanış edir. O biri tərəfdən nəzər salsaq, görmək olar ki, hər bir dövrün öz qaydaları və tələbləri vardır. Yəni XV əsrdə yaşamış

insanların bilikləri, düşüncələri, tələbləri müasir cəmiyyətdə yaşayan insanlardan, xeyli fərqlənir. Bu səbəbdən, dövrün dəyişməsi, cəmiyyətdə baş verən hadisələrin də dəyişməsinə təsir göstərir. Lakin, cəmiyyət hər gün daha çox inkişaf edir, qanunları daha optimal xarakter daşımağa başlayır və insanlar yeni qaydaları daha tez mənimsəməyi bacarırlar. Hansı qaydalar dəyişsə belə, cəmiyyət yaranan gündən ona məxsus olan bəzi normalar, dəyişməz olaraq qalır. Bu qaydalara daima inkişaf, ədalət, təbiətə və cəmiyyətə sevgi və hörmət daxildir.

Daima inkişaf edən, ədalətli sevgi dolu və hörmət bəslənən cəmiyyətdəki insanlar, hər zaman xoşbəxt yaşamağı bacarırlar. Fiziki tərbiyə anlayışı, insanda ilk olaraq Vətəni sevməyi və onu müdafiəyə hər zaman hazırlıqlı olmağı əks etdirir. Bu prosesi uşaqlara daha dərindən mənimsədilməsi məqsədilə, məktəbdə xüsusi fənn də tədris olunur. Bu tərbiyə növü vasitəsilə, insanlarda yüksək iradi keyfiyyətlər inkişaf edərək formalaşmağa başlayır. Fiziki tərbiyə həm də, insanın əqli inkişafına da mühüm təsir göstərir. Çünki, bir insanın fiziki baxımından inkişafdan geri qalan zəif cəhətləri və nöqsanları varsa, əqli tərəfdən də inkişafda hər hansı çatışmazlıqları mövcud ola bilir. Azərbaycan milli mətbuatın banisi - Həsən bəy Zərdabi hesab edirdi ki, bir fərdin cəmiyyətə yararlı şəxsiyyət kimi formalaşmasında, fiziki tərbiyənin rolu əvəzsizdir [4, s.68] Dahinin fikrinə görə, fiziki tərbiyə əqli və əxlaq tərbiyəsinin müvəffəqiyyətlə həyata keçirilməsinə böyük təsir göstərir. Dünyaca məşhur pedaqoq Anton Makarenko, fiziki tərbiyəyə yüksək qiymət vermiş, onu insanın bir sıra vacib xarakterik keyfiyyətlərin, dünyagörüşün və ümumi inkişafında, mühüm rol olduğunu qeyd etmişdir [1, s.188] Fiziki tərbiyənin əsas şüarı – “Sağlam bədəndə sağlam ruh olar” ifadəsidir. Məhz hər bir insan uşaqlıqdan başlayaraq düzgün qidalanmalı, təmiz hava almalı, fiziki fəaliyyətlə məşğul olmalıdır ki, həm fiziki, həm də əqli cəhətdən sağlam yetişsin. İnsana həyatda verilən ən dəyərli nemət - onun sağlamlığıdır ki, onu da hər bir şəxs qoruyub saxlamağı bacarmalıdır.

Hər bir şəxsin fiziki tərbiyəsində, təbiətin qanunları vacib yer tutur. Sağlamlığı qorumaq dedikdə - təbiətin bizə verdiyi nemətlərindən, yəni: havadan, sudan və günəş şüalarından, düzgün formada istifadə etməyimiz nəzərdə tutulur. Çünki, bu təbii nemətlər, uşaqların inkişafında sağlamlığında mühüm rol oynayır, dözümlülüyü artırır, estetik zövqü inkişaf etdirir. Bu səbəbdən, gündə ən azı bir saat təmiz havada gəzmək, yay aylarında çay və dəniz sahillərində olmaq, günəş vannası qəbul etmək, insan organizmi üçün olduqca faydalıdır. Günəş şüaları insan organizmini, onun üçün vacib olan vitamin D ilə zənginləşdirir. D vitaminin defisiti, bir çox xəstəliklərə yol aça bilər. Atalar sözündə deyildiyi kimi - “Günəş girməyən evə tez-tez həkim girər”. Ona görə də, insan təbiətin verdiyi hər bir nemətdən düzgün şəkildə

istfadə etməyi bacarmalıdır. Bu baxımdan, məktəblərdə sinif otaqlara günəş şüaları düşməli, otaqların havası təmiz olmalıdır. Fiziki tərbiyə özündə həmçinin, gigiyenik amilləri də cəmləşdirir. Hər bir insanın gündəlik rejimi olmalıdır. Bura daxildir - yuxu rejimi, qida, istirahət, idman və insanın şəxsi təmizliyi. Hər bir amilin rolu önəmli olduğuna görə, bir insanın sağlam olması üçün hər birinə riayət etməsi şərtdir. Digər tərbiyə növlərinin vacibliyindən geridə qalmayan tərbiyə növü - estetik tərbiyədir. Bu tərbiyə növü, insanları dünyanın gözəllik aləminə daha da yaxın edir, estetik zövqlər yaradır, gözəlliyi görmə, qavrama, dərk edərək dəyərləndirmə və qiymətləndirmə bacarığı formalaşdırır. Həmçinin bu tərbiyə növü insanın yaradıcılıq qabiliyyətlərinin də inkişafında rol oynayır. Estetik tərbiyə insanlarda gözəl hisslər yaradaraq, ətraf mühiti gözəl görməyə sövq edir. Tərbiyənin digər növləri, necə bir-birilə qarşılıqlı əlaqədədirsə, estetik tərbiyə də, həm əxlaq, həm əqli, həm fiziki və s. tərbiyə növləri ilə qarşılıqlı əlaqədədir. İnsanın həyatda uğurlu olması üçün ilk olaraq, o özünü, daha sonra həyatı, ətraf sosial mühiti sevməyi bacarmalıdır. Həyatı gözəl görməyə, onu sevməyə bizə estetik tərbiyə öyrədir. Tərbiyənin tərkib hissəsini təşkil edən digər növü - hüquq tərbiyəsidir. Bu tərbiyə vasitəsilə insanlar, hüquq normaları haqqında biliklər əldə edirlər, onların mahiyyətini öyrənirlər, hüquq normaları pozulduğu zaman yarana biləcək vəziyyət haqqında, məlumatlı olurlar [4, s.42].

Hüquq tərbiyəsi, insanları yaşadıqları cəmiyyətdə vətəndaş hüquqları barəsində zəruri biliklərə yiyələnməyə yardım göstərir, mövcud hüquq normalarına münasibət formalaşdırır. Hər bir uşağa, ailədə kiçik yaşlarından onun hüquq və vəzifələri barəsində məlumat verilməlidir ki, uşağın böyüyəndə bu mövzuda hazır müəyyən məlumat bazası olsun. İstər ailədə, istər məktəbdə, istərsə də digər tərbiyə müəssisələrində hüquq tərbiyəsi kompleks şəklində aparılmalıdır. Hüquq tərbiyəsinin məzmunu dedikdə - həyat üçün önəm kəsb edən hüquqi bilikləri aşılamaq, yüksək səviyyədə vətəndaşlıq hissi formalaşdırmaq, dövlətin və cəmiyyətin mövcud ictimai və sosial qaydalarına hörmət etməyi tərbiyə etmək, dövlətin təyin etdiyi qayda-qanunların pozulmasına qarşı barışmazlıq, hüquq qaydaların mühafizəsində fəal iştrak etmək və s. başa düşülür. Hüquq tərbiyəsi sistemli təlim-tərbiyə müəssisələrində daha məqsədyönlü formada həyata keçirilir. Araşdırmalar göstərir ki, çox vaxt hüqüq pozuntularının səbəbi, məhz insanların qanunlar haqqında məlumatların olmamasıdır. Bu səbəbdən uşaqlara kiçik yaşlardan bu barədə məlumat sistemli və ardıcıl formada dərk etdirilməlidir.

### *Ədəbiyyat*

1. *Ağayev Ə.Ə. Azərbaycan ictimai-pedaqoji fikrində şəxsiyyətin formalaşması problemi. Bakı: Avrora, 2005. 288 səh.*

2. *Abbasov A.N., Əlizadə H.Ə. Pedaqogika, Bakı, Maarif, 2001, 213 səh.*
3. *Bayramov Ə., Əlizadə Ə. Sosial psixologiyanın aktual məsələləri, Nəzəriyyə, Metodika, Axtarışlar, Bakı, Elm, 2001, 101 səh.*
4. *Əliyev B., Əliyeva K., Cabbarov R. Pedaqoji psixologiya, Bakı - 2011, 106 səh.*

**G.A.Cəfərova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***gulnar.2.ceferova@gmail.com***

# BƏDİİ ƏSƏRLƏRİN OXUNMASININ ƏHƏMİYYƏTİ VƏ XÜSUSİYYƏTLƏRİ

***Xülasə***

*Bədii mətnlərin oxusu ibtidai siniflərdə Ana dili tədrisinin əhəmiyyətli məsələlərindən hesab olunur. Kiçikyaşlı məktəblilərin təlim-tərbiyəsində müstəsna rol oynayan oxu məşğələləri vasitəsilə şagirdlər hələ aşağı siniflərdə dünya, təbiət, cəmiyyət və s. ilə əlaqədar ilkin təsəvvürlər əldə edirlər. Oxu prosesində mühüm məsələ ətraf aləm haqqında düzgün və obrazlı fikirlər əsasında yeni biliklər aşılamaqdan ibarətdir.*

*İbtidai siniflərdə Azərbaycan dili fənninin tədrisi zamanı nitq inkişafı, xüsusilə də oxu vərdişlərinin formalaşdırılması məqsədilə aparılan işlər əhəmiyyətli rola malikdir. Oxu vasitəsilə şagirdlərə xeyirxahlıq, mərdlik, fədakarlıq, düzlük, doğruçuluq, ədalətlilik, təvazökarlıq kimi sosial-mənəvi keyfiyyətlər aşılanır, habelə vətənpərvərlik, ailəyə məhəbbət və sədaqət hissləri tərbiyə olunur. Bədii mətnlər şagirdlərin nitqini inkişaf etdirir, lüğət ehtiyatını zənginləşdirir, dəqiqləşdirir və fəallaşdırır, fikirlərini şifahi və yazılı formada ifadə etmək bacarığı formalaşdırır.*

## ЗНАЧЕНИЕ И ОСОБЕННОСТИ ЧТЕНИЯ ЛИТЕРАТУРНЫХ ПРОИЗВЕДЕНИЙ

***Резюме***

*Чтение художественных текстов считается одним из важных вопросов обучения родному языку в начальных классах. Через упражнения по чтению, играющие исключительную роль в воспитании младших школьников, учащиеся познают мир, природу, общество и т. д. в младших классах. они получают первоначальные представления о Важным вопросом в процессе чтения является привитие новых знаний, основанных на правильных и образных представлениях об окружающем мире.*

*При преподавании предмета азербайджанского языка в начальных классах важную роль играет работа, проводимая с целью развития речи, особенно формирования навыка чтения. Через чтение учащимся прививаются такие социальные и нравственные качества, как доброта, отвага, жертвенность, честность, правдивость, справедливость и смирение, а также патриотизм, любовь и верность семье. Художественные тексты развивают речь учащихся, обогащают, уточняют и активизируют их словарный запас, развивают умение выражать свои мысли устно и письменно.*

# THE İMPORTANCE AND FEATURES OF READİNG LİTERARY WORKS

***Summary***

*Reading literary texts is considered one of the important issues of mother tongue teaching in primary classes. Through reading exercises, which play an exceptional role in the education of young schoolchildren, students learn about the world, nature, society, etc. in the lower grades. they get initial ideas about An important issue in the reading process is to instill new knowledge based on correct and imaginative ideas about the surrounding world.*

*During the teaching of the subject of the Azerbaijani language in primary classes, the work carried out for the purpose of speech development, especially the formation of reading habits, has an important role. Through reading, students are instilled with social and moral qualities such as kindness, bravery, sacrifice, honesty, truthfulness, justice, and humility, as well as patriotism, love and loyalty to the family. Literary texts develop students' speech, enrich, refine and activate their vocabulary, and develop the ability to express their thoughts orally and in writing.*

***Açar sözlər:*** *oxu təlimi, bədii mətnlər, şifahi nitq, Azərbaycan dili, nitq mədəniyyəti*

***Ключевые слова:*** *обучение чтению, художественные тексты, устная речь, азербайджанский язык, культура речи*

***Key words:*** *reading training, literary texts, oral speech, Azerbaijani language, speech culture*

Bədii mətnlər janr etibarı ilə müxtəlif olur. Hər bir bədii janrın özünəməxsus quruluşu, üslub və üsulları olduğu kimi, onların şagirdlərə təsiri də müxtəlif olur. Müxtəlif növ ədəbi mətnlərin oxusunu düzgün təşkil etmək üçün onların xüsusiyyətlərini bilmək, müəyyən üsul və metodlardan istifadə etmək son dərəcə əhəmiyyətlidir. Bədii əsərlər üç növdə olur: epik, lirik və dramatik növ. I sinifdən etibarən Azərbaycan dili dərsliklərində hər üç növdə bədii əsərlər verilir. Hər növə aid mətn üzrə iş aparılarkən bu müxtəliflik nəzərə alınmalıdır. Ümumiyyətlə, şagirdlərin nitqini vacib ifadə və sözlərlə zənginləşdirmək bədii əsərlərin xüsusiyyətlərindən hesab olunur. Qeyd etmək lazımdır ki, bədii mətnlərin oxusu yuxarı siniflərdə tədris edilən "Ədəbiyyat" fənnini yaxşı mənimsəməyə zəmin yaradır. Bu baxımdan ibtidai siniflərdə şagirdlər bədii mətni təhlil etməli, obrazın xarakterini analiz etməli, hadisələrin aid olduğu zaman və məkan şəraitini müəyyənləşdirməli və müəyyən poetik anlayışları (qafiyə, ahəng, şeir, hekayə, nağıl, təmsil və s.) mənimsəməlidirlər.

İbtidai siniflərdə oxu təlimi prosesində aşağıdakı bədii janrlardan istifadə edilir:

1. Bədii mətnlər (hekayə, təmsil, nağıl, şeir);
2. Elmi (məlumatlandırıcı) mətnlər (müxtəlif sahələr haqqında məlumat verən mətnlər).

Dünyadakı insanların əksəriyyəti üçün ədəbiyyatla ilk ciddi tanışlıq məktəbdən başlayır. Kitab səhifələrində öz əksini tapmış qəhrəmanlarla empatiya qura bilmək, mətndə baş verən hadisələri hiss etmək şagirdin nöqteyi-nəzərindən zəruri bacarıqdır. Bu zaman sanki ədəbiyyat bir gəmiyə çevrilir. Gəminin sərnişinləri oxucular, onların bələdçisi isə bədii mətnlər olur. Ədəbiyyat insana zamanda geriyə addım atmağa və dünyanı əvvəldən başlayaraq öyrənməyə imkan verir.

Azərbaycan dilinin ibtidai siniflərdə tədrisində bədii mətnlərin təsiri danılmazdır. Bədii mətnlər hər bir müəllif üçün ifadə forması kimi çıxış edir, onlar cəmiyyəti əks etdirir və yaşadığımız dünyanı daha yaxşı anlamağa imkan verir.

Bədii mətnlərin oxusu məsələsi ümumi təhsil müəssisələrinin ibtidai siniflərində ana dili təliminin aktual problemlərindən biridir. Uzun müddət dərslik, proqram və müəllim üçün metodik vəsaitlərdə qrammatik və orfoqrafiya təlimi diqqət mərkəzində olduğu halda, oxu təlimi, nitqin inkişafı, ədəbi tələffüzün düzgün formalaşdırılması, habelə şagirdlərə intonasiyanın mənimsədilməsi məsələlərinə kifayət qədər yer verilməmişdir. Məktəb təcrübəsində belə bir fikir mövcud olmuşdur ki, əgər şagirdin yazılı niqti problemi həll olunarsa, onun şifahi nitqi də zaman keçdikcə formalaşar. Lakin müasir tədqiqatlar sübuta yetirmişdir ki, bu fərziyyə yanlışdır və yazılı və şifahi nitq özünün xüsusiyyətlərinə və özünəməxsus inkişaf yoluna malikdir.

Bədii əsərin ideyası və obrazlı məzmununun oxucuya təsirini əks etdirən, intonasiya cəhətdən düzgün olan oxu ifadəli oxu adlanır. Təbiidir ki, nağıl, hekayə, şeir, təmsil, tapmaca, bayatı və s. ümumtəhsil məktəblərində bədii oxu materialları sayılır. Bu materialların xüsusiyyətləri ondan ibarətdir ki, onlar söz sənəti, o cümlədən yazıçının varlığa münasibətinin ifadəsidir. Yazıçı varlığa və onu maraqlandıran hadisələrə münasibətini obrazlı şakildə ifadə edir. Bu baxımdan bədii mətnlər oxucuda xüsusi emosional vəziyyət – estetik hisslər (həyəcan, kədər, sevinc, obrazlara rəğbət, onların hərəkətlərindən təsirlənmək və s.) yaradır.

İfadəli nitq və oxunun əsasını danışan və oxuyanın fikir, hiss, niyyəti təşkil edir. İntonasiya və onun tərkib hissələri olan fasilə, ritm, temp, melodiya, nitqin intensivliyi və emosional çalarları səslənən, tələffüz edilən nitqin ifadə vasitələridir. Bədii mətnlərin tədrisi zamanı ətraf aləm və insanlarla əlaqədar şagirdlərin təsəvvürlərini genişləndirmək, insanların hiss və həyəcanlarını, onların daxili aləmini, arzu və meyllərini anlamağı, əsəri düzgün dərk etməyi öyrətmək oxu təliminin mühüm məqsədlərindən hesab olunur. Əlavə olaraq, şagirdlər oxu mədəniyyətinə yiyələnməyin bir sıra çətin mərhələlərinin öhdəsindən gəlməyi bacarmalı, öz fikir və düşüncələrini söyləmək üçün dilin qanunauyğunluqlarını öyrənməli, oxuduqları mətnlərdə öyrəndikləri məlumatlardan istifadə etməyi bilməli, mətnləri quruluş cəhətdən

mənimsəməli, nitqin üslubi ifadəliliyini başa düşməlidir. İfadəli oxumaq və danışmaq bacarığı ibtidai sinifdən başlayaraq formalaşdırılır. Oxu və nitqin ifadəliliyinin başlanğıc anı canlı nitq və ya danışıq dilidir. Şagirdlərin şifahi nitqi səs cəhətdən inkişaf etdirilməklə onların oxularının ifadəliliyi də təkmilləşdirilir.

Bədii mətnlər janr etibarı ilə müxtəlif olur. Hər bir bədii janrın özünəməxsus quruluşu, üslub və priyomları olduğu kimi, onların şagirdlərə təsiri də müxtəlif olur. Müxtəlif növ ədəbi mətnlərin oxusunu düzgün təşkil etmək üçün onların xüsusiyyətlərini bilmək, müəyyən priyom və metodlardan istifadə etmək son dərəcə əhəmiyyətlidir. Bədii əsərlər üç növdə olur: epik, lirik və dramatik növ. I sinifdən etibarən Azərbaycan dili dərsliklərində hər üç növdə bədii əsərlər verilir. Hər növə aid mətn üzrə iş aparılarkən bu müxtəliflik nəzərə alınmalıdır. Bədii mətnlər şagirdlərin təfəkkürünə, hisslərinə və iradəsinə təsir edir. Bu baxımdan mühüm tərbiyəvi əhəmiyyətə malikdir. Şagirdlər bədii mətnlərdəki müsbət obrazları sevir, onlarla birlikdə kədərlənib, onlarla birlikdə sevinir, həqiqi həyatda o qəhrəmanı təqlid edir, özü üçün onu ideal seçir.

Məlumdur ki, çağdaş zamanda uşaqların təxəyyülünə və estetik zövqünə təsir edən, milli-mənəvi dəyərləri ehtiva edən, əsərləri ərsəyə gətirmək müəllifdən xüsusi bacarıq tələb edir. Bu məsələləri nəzərə alaraq kiçik yaşlı şagirdlərin duyğu, fikir, xəyal və zövqünə xitab edən hekayələr, nağıllar, şeirlər və s. kimi müxtəlif janrda olan əsərlərin yaradılması vacib faktorlardır. Şagirdin psixo-sosioloji və nitq inkişafını dəstəkləyən əsərlər yaratmaq üçün uşağın dünyasına bələd olmaq, öyrənmək və onu müxtəlif baxış bucaqlarından müşahidə etmək olduqca mühüm məsələlərdəndir.

Uşaqlıq dövründə uşağın qarşısına çıxan bir sıra hadisələr və gördüyü insanlar onun həm o dövrünə, həm də sonrakı həyatına özünün mənfi və müsbət təsirini göstərir. Bu baxımdan yazıçılar öz əsərlərində hər hansı obrazı təsvir edərkən onların psixoloji xüsusiyyət və davranışlarını uşaqlıq dövründə qazandıqları təcrübə ilə əks etdirməyə çalışırlar. Kiçikyaşlı məktəblilərin xüsusiyyətlərini düşündükdə böyüklər üçün yazılmış ədəbi mətnlərin şagirdlərin daxili aləminə nüfuz edə bilməyəcəyi aydınlaşır. Məlumdur ki, ibtidai sinif şagirdləri böyüklər üçün yazılmış əsərləri yaş xüsusiyyətləri ilə əlaqədar olaraq anlamaqda çətinlik çəkir, onların tərbiyəvi təsir gücündən faydalana bilmirlər. Çünki uşaqların kiçik yaş dövrünə məxsus duyğu və hissləri mövcuddur. Onların xəyal, düşüncə və duyğularına təsir edən yazılı və şifahi əsərlərin rolu danılmazdır.

Ümumiyyətlə, bədii əsərlər düşünmək, əylənmək və səmərəli vaxt keçirmək baxımından ibtidai sinif dərsliklərində əhəmiyyətli rol oynayır. Bu mətnlər şagirdlərin həyatı kəşf etməsində və həyatın mürəkkəb, çətin yollarını öyrənməsində mühüm funksiyanı yerinə yetirir, həmçinin şagirdi müxtəlif

ictimai fəaliyyətə təşviq edir, xüsusilə də, ana dilinin inkişafında vacib rol oynayır. Bu baxımdan, yalnız uşaqlar üçün yazılan bədii mətnlər deyil, həmçinin, ədəbi dəyəri yüksək olan, şagirdin həvəslə oxuduğu, onun dünyasını zənginləşdirən, diqqətini çəkən bütün ədəbi örnəklər qiymətləndirilir və təhlil edilərək ibtidai sinif dərsliklərinə daxil edilir. Keçmiş dövrlərdə yazılmış və yayımlanmış hekayələr, oxşama və əzizləmələr belə xüsusiyyətləri qismən daşıyır. Hələ o vaxtdan uşaqların tərbiyə edilməsi və cəmiyyətin dəyərlərinə uyğun hala gətirilməsi vacib olan şəxsiyyət kimi nəzərə alınmış, yazılı və şifahi ədəbiyyatın, habelə uşaq ədəbiyyatının başlıca məsələsi bu istiqamətdə getmişdir. Lakin uşaq ədəbiyyatı heç vaxt ümumi ədəbiyyatdan təcrid olunmamalıdır. Əgər ümumi ədəbiyyat geniş xalq kütləsi üçün yaranıbsa, onun inkişafına, şəxsiyyət kimi formalaşmasına xidmət edirsə, uşaq ədəbiyyatının da öz oxucusu və bu oxucuya təsiri vardır. Ümumiyyətlə, ümumi ədəbiyyata məxsus xüsusiyyətlər uşaq ədəbiyyatının da spesifikasını təşkil edir.

Bədii mətnin mənimsədilməsinə şagirdin yaş xüsusiyyətləri ilə yanaşı, fərdi imkanları da təsir göstərir. Bu sahədə aparılan tədqiqatlar göstərir ki, şagird qavramasının üç tipi özünü göstərir: 1-ci tip üçün əyani və obrazlı elementlərin qavranılması səciyyəvidir. Bu şagirdlər bədii mətn üzərində işə diqqət yetirir, müəllifin istifadə etdiyi təsvir və ifadə vasitələrinə maraq göstərirlər. 2-ci tipə görə söz və məntiqi elementlərin qavranılması səciyyəvidir. Bu şagirdlər plan tərtib edərək yekunlaşdırıcı işlər zamanı fəallıq göstərir, bədii sözə həssas yanaşmırlar. Bu tipdə şagirdlər adətən bədii mətni tələm-tələsik və başdansovdu oxuyur, hadisələrin necə bitəcəyinə maraq, bədii təsvirlərə, tarixi məlumatlara isə diqqət göstərmir. Üçüncü tip nisbətən qarışıq tip hesab olunur. Müəllim müxtəlif siniflərdə şagirdlərin bu qavrama xüsusiyyətlərini bildikdə, fərdi tapşırıqları müəyyənləşdirərək şagirdlərin maraq və bacarıqlarını inkişaf etdirməyə şərait yaradır.

Bədii mətnin mənimsədilməsi zamanı şagird təsvir olunan hadisələri, qəhrəmanları qavramaqla yazıçının həyat haqqında mühakimələri ilə tanış olur. Mətndə öz əksini tapmış estetik-mənəvi məsələlərin, insanın həyatı, taleyi ilə bağlı hissələrin dərk olunması, duyğu və hiss süzgəcindən keçirilməsi prosesində oxucu özünü də dərk edir, habelə hal-hazırki və gələcək fəaliyyəti üçün zəruri olan təcrübə qazanır. Buradan belə bir nəticə çıxır ki, bədii mətnlər şagirdin hiss və duyğularının, mənəvi aləminin, müstəqil düşüncəsinin və fəal həyat mövqeyinin formalaşmasına əhəmiyyətli təsiri vardır.

Bu sahədə aparılan tədqiqatlar göstərir ki, ibtidai sinif şagirdlərində müxtəlif fakt və hadisələri əlaqələndirmək, bənzər vəziyyətlərdə ümumi cəhətləri və əlamətləri müəyyənləşdirmək qabiliyyəti inkişaf edir. Oxucuları təkcə müxtəlif faktlar deyil, həmçinin bu faktların əlaqəsi, birinin digərindən asılı olması da maraqlandırır. Amma həmin assosiativ əlaqələr bədii mətnlərə münasibətdə əksər hallarda bəsit səviyyə daşıyır.

Məlumdur ki, həyat, təbiət, cəmiyyət və s. hadisələri haqqında məlumatların dərinləşdirilməsi, ədəbi biliklərin zənginləşdirilməsi, idraki tələbatların ödənilməsi bədii ədəbiyyatın mütaliəsində başlıca motiv kimi çıxış edir. Kiçikyaşlı məktəbliləri bədii mətn oxuyucusu kimi səciyyələndirən əhəmiyyətli cəhətlərdən biri də mütaliə marağıdır. Onu da qeyd etməliyəm ki, maraqlar tələbatların əsasında meydana çıxır, habelə idrak prosesində təhrikedici rol oynayır. Mütaliəyə marağın oyanması məktəblilərin mənəvi maraqlarını təşkil edib onu bu və ya digər məsələdə, janrda kitabları, müəyyən yazıçıların əsərlərini oxumağa sövq edən amil hesab olunur. Mütaliə marağı şagirdin oxucu kimi onda kitaba, qiraətə nə cür münasibət yarandığını göstərir.

Bədii mətnlərin mənimsədilməsi təlim prosesində diqqət mərkəzində saxlanıldıqda şagirdlər əsərin gətirdiyi duyğu və hissləri, emosional təəssüratı qoruyub saxlayır, əlavə olaraq bədii təsvirin şərtliliyini, ifadə və təsvir vasitələrinin rolunu dərk edirlər. Şagirdlərin mətnin estetik və bədii dəyərini dolğun şəkildə dərk etməsi mümkün olur.

***Ədəbiyyat***

1. *N.Cəfərova. “İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası”. Bakı - 2016.*
2. *V.Qurbanov. “Oxu təlimi və nitq inkişafı”. Bakı - 2022.*
3. *A.Eminov. “Bədii nitq”. “İbtidai məktəb və məktəbəqədər tərbiyə jurnalı”. 1974, No:1.*
4. *http://www.tipii.edu.az/noduploads/document/oxu-talimi-muallimlar-ucun-vasait.pdf*
5. *https://aem.az/index.php?newsid=379*
6. *Y.Ş.Kərimov. “İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası”. Bakı - 2013.*

**L.X.Əsgərzadə**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***esgerzade05@gmail.com***

# LAYİHƏLƏR METODUNUN TƏSNİFATI

***Xülasə***

*Yeni Təhsil Konsepsiyasına görə, şagird hərtərəfli inkişaf etmiş, tənqidi düşünməyi bacaran, vətənpərvər, yenilikçi olmalıdır. Bu keyfiyyətləri gənc nəsildə inkişaf etdirmək müasir müəllimlərin əsas məqsədidir. Son illərdə müasir texnologiyaların tətbiqi məsələsi getdikcə aktuallaşır. Müəllimlər şagirdləri təhsil və idrak fəaliyyətinə cəlb etmək üçün yeni metodlardan istifadə edir, onları müstəqil informasiya axtarışı, yaradıcı düşünmə, qrup işi, böyük həcmli informasiya ilə işləmək kimi bacarıqlarını inkişaf etdirməyə həvəsləndirir. Müəllimin vəzifəsi hər bir şagirdin praktiki vərdişlərə yiyələnməsi üçün lazımi şəraiti yaratmaqdan, hər kəsə öz imkanlarını və yaradıcılığını üzə çıxarmağa kömək edəcək tədris metodlarını seçməkdən ibarətdir. Layihə metodu bu məsələlərin həlli üçün ən yaxşı yoldur.*

# КЛАССИФИКАЦИЯ МЕТОДА ПРОЕКТОВ

***Резюме***

*Согласно Новой Концепции Образования, ученик должен быть всесторонне развитым, способным критически мыслить, патриотичным, новаторским. Развитие этих качеств у подрастающего поколения является основной задачей современных педагогов. В последние годы решается вопрос применения современные технологии становятся все более актуальными Учителям необходимо вовлекать учащихся в учебно-познавательную деятельность, использовать новые методы, побуждать их к развитию таких навыков, как самостоятельный поиск информации, творческое мышление, групповая работа, работа с большими объемами информации. выбирать методы обучения. Метод проектов является наилучшим способом решения этих вопросов.*

# CLASSIFICATION OF PROJECTS METHOD

***Summary***

*According to the New Concept of Education, a student should be comprehensively developed, able to think critically, patriotic, and innovative. Developing these qualities in the young generation is the main goal of modern teachers. In recent years, the issue of applying modern technologies has become more and more relevant. Teachers need to involve students in educational and cognitive activities. uses new methods, encourages them to develop skills such as independent information search, creative thinking, group work, working with large volumes of*

*information is to choose teaching methods. The project method is the best way to solve these issues.*

***Açar sözlər:*** *layihə metodu, təhsil, şagird, tələbə, müəllim*
***Ключевые слова:*** *метод проектов, обучение, ученик, ученик, учитель*
***Key words:*** *project method, education, pupil, student, teacher*

Unutmaq olmaz ki, tələbələrə dərs vermək bizim əsas vəzifəmizdir və müəllim olaraq biz tələbələrin öyrənə bilməsi üçün ən yaxşı metodu tətbiq etməliyik. Müasir təlimdə istifadə olunan interaktiv üsullardan biri layihələr metodu geniş tətbiq edilir. Bu metoddan təkcə tarixin tədrisində deyil, başqa fənnlərin tədrisində də geniş istifadə edilir. Məqalədə biz layihələr metodu nədir?, onun prinsipləri, mərhələləri, layihə metodunun növləri, onların üstünlükləri haqqında danışacağıq.

Layihə latın dilində "projektus" sözündən götürülüb, mənası "irəli atılan" deməkdir. Layihə tədris metodunu XX əsrin 20-ci illərində məhşur amerika pedaqoqları C.Dyui və onun şagirdi W.Klipatrik tərəfindən tətbiq edilmiş, işlənmiş, təkmilləşdirilmişdir. Layihələr metodu elə bir təlim metodudur ki, burada tələbələr həll etmək istədikləri problemləri seçir, problemin həllini təkbaşına tapmalı olur, layihələri müstəqil müəyyənləşdirir və bunun nəticəsində bilik və bacarıqlar əldə edir [1.s14]. Bu öyrənmə ən fəal yanaşmalardan biridir, bəs bu halda müəllim haqqında nə demək olar? Layihə tədris metodunda müəllim avtoritar rolunu deyil, "bələdçi", "fasiltator" rolunu öz üzərinə götürür və sinifi öz surəti ilə istiqamətləndirir. Layihənin gedişində müəllim və tələbələr arasında daimi qarşılıqlı əlaqə olmalıdır. Müəllimin əsas rolu məsləhətləşmələr aparmaq, layihənin tələbələr tərəfindən həyata keçirilməsinin keyfiyyətinə nəzarət etməkdir. Müəllim dialoq, yaradıcı qarşılıqlı əlaqə və əməkdaşlıq vasitəsilə şagirdlərin layihə fəaliyyətini təşkil edir. Layihə fəaliyyətinin subyekti tələbədir. Layihələr metodu ümumiyyətlə tələbə mərkəzlidir, onları yaradıcıllığa təşviq edir. E.S.Polat qeyd edir: "Layihə əsaslı metod tələbələrin idrak bacarıqlarının, öz biliklərini müstəqil tərtib etmək və informasiya məkanında naviqasiya bacarıqlarının inkişafına əsaslanan inkişafetdirici tədris üsuludur" [2,s.3].

Layihə Metodunun əsasını təşkil edən prinsiplər aşağıdakılardır:

1. Məqsədlilik - Layihənin müəyyən məqsədi olmalıdır, çünki şagirdlər müəyyən və aydın məqsədləri olan işi daha həvəslə yerinə yetirirlər.

2. Azadlıq - Şagirdlər layihəni seçməkdə sərbəstdirlər. Layihəni öz iradələrinə uyğun seçirlər və müəllimin məsləhəti ilə icra edirlər. Tələbələr öz

fikirlərini tam və sərbəst ifadə edə bilmələri üçün hər hansı məhdudiyyətlərdən, məcburiyyətlərdən və s. azad olmalıdırlar.

3. Reallıq - Layihə real olmalıdır. Yalnız bu halda şagirdlər onu təbii və real şəraitdə tamamlaya biləcəklər.

4. Faydalılıq - Bilik yalnız gündəlik həyatda faydalı olduqda dəyərlidir. Həyata keçirilməli olan layihə həm şagirdlərə, həm də cəmiyyətə faydalı olmalıdır.

5. Fəaliyyət prinsipi - Fəaliyyət layihə metodunun başqa bir prinsipidir. Layihənin özü məqsədyönlü fəaliyyətdir. Şagirdlər bu fəaliyyətlərdən sonra bir şey öyrənməlidirlər (yaratmaqla öyrənirlər).

6. Təcrübə prinsipi - Təcrübə böyük müəllimdir. Burada tələbələr təcrübə vasitəsilə yeni faktlar və ya məlumatlar öyrənməlidirlər.

7. Sosial təcrübə prinsipi - Uşaqlar sosial varlıqdır və onları aktiv ictimai həyata hazırlanmalıdır. Layihə şagirdlərdə sosial keyfiyyətlərin inkişafına diqqət yetirməlidir.

Məlikov R., T.Nəcəfli "T.Tarixin interaktiv təlimi" dərsliyində layihələndirmə metodunun mərhələri barədə qeyd edirlər: "Müəllim və şagirdlər layihə üzərində işin nə vaxt başlayacağını, onun nə qədər vaxt aparacağını, hansı ehtiyatlardan istifadə və onları haradan tapmağın mümkün olacağını, şagirdlərin təklikdə və ya qrupda işləyəcəyini və s. qərarlaşdırmalıdırlar. Layihənin necə tamamlanacağının bu mərhələdə müzakirəsi olduqca vacibdir. Layihə üzərində işin həyata keçirilməsi zamanı müəllim suallara cavab verə və məsləhətlər edə bilər, lakin işin yerinə yetirilməsinə şagird özü cavab verməlidir. Tədqiqatın yekunu hesabat, məruzə, təsviri silsilə şəklində ola bilər. Yaxşı olar ki, iş təkcə şagird tədqiqatının nəticəsi ilə deyil, həm də layihə üzərində işin ayrı-ayrı mərhələlərini, həmçinin işin mövzusuna onların öz münasibətləri ilə əhatə olunsun. Qiymət yalnız akademik meyarlar əsasında verilməməlidir, bu zaman müxtəlif vərdiş və bacarıqlar də nəzərə alınmalıdır" [3,s.27].

Layihə üzrə işin bir neçə mərhələləri var:

1. Layihə seçimi - Layihə metodu prosesində ilk addım layihə işinin seçilməsidir. Tələbələrə bəzi problemlər verilir ki, onlar arasından maksimum faydalı olanı və konkret praktiki ehtiyacı ödəyən mövzu və ya layihəni seçsinlər. Bu prosesdə müəllimlər bələdçi rolunu oynayır və şagirdləri öz qabiliyyətləri əsasında ağıllı seçim etməyə həvəsləndirirlər.

2. Planlaşdırma - layihənin tədris metodunda növbəti addımdır. Bu mərhələdə tələbələr layihə işini planlaşdırmalı və müəllim onlara rəhbərlik etməli və prosesdə onlara kömək etməlidir. Bu mərhələdə tələbələr öz fikirlərini bildirirlər və müzakirələr aparırlar.

3. Layihənin icrası - Planlaşdırma mərhələsindən sonra tələbələr əvvəlki addımda yaradılan plana uyğun olaraq layihə işlərini yerinə yetirirlər. Tələbələr

heç bir süniliyə yol vermədən layihənin təbii şəkildə icrası ilə məşğul olurlar. Öz aralarında vəzifə bölgüsü yaradırlar: məlumat toplamaq, müvafiq yerləri ziyarət etmək, tarix oxumaq və s. Hər bir tələbə layihənin tamamlanmasında öz tövhəsini verir. Müəllim yenə bələdçi kimi gəlir və lazımi məlumatları verir, onlara düzgün yolda qalmağa kömək edir.

4. Layihənin qiymətləndirilməsi - Bütün iş müəllim tərəfindən nəzərdən keçirilir və tələbələr işlərinə görə qiymətləndirilir. Onlar layihəni planlaşdırdıqları kimi həyata keçirirlər, bundan sonra prosesdə buraxdıqları səhvlər qeyd olunur.

5. Qeyd - Burada layihə ilə bağlı bütün fəaliyyətlər qeyd edilməlidir. tələbələrin planlaşdırdıqları, müzakirələri, vəzifələri, öz işlərini tənqid etmələri və əlbəttə ki, bu layihə ilə bağlı bəzi əhəmiyyətli nöqtələrə istinadlar.

Müxtəlif layihə təsnifatları var. E.S.Polat qeyd edir ki, layihənin təşkili birbaşa onun növündən asılıdır və layihənin növlərini ayırmaq üçün 6 əsas meyar təklif etmişdir:

1. Layihədə üstünlük təşkil edən fəaliyyətlər: tədqiqat, axtarış, yaradıcıllıq, rol oyunu;
2. Mövzusuna görə: monoloji layihə, fənlərarası layihə;
3. Ərazi əlaqəli: daxili və ya regional, beynəlxalq;
4. Layihə iştirakçılarının sayına görə: fərdi, cütlərlə, qrupla;
5. Layihənin müddətinə görə: qısa, orta, uzun müddətli;
6. Nəticələrə görə: hesabat, albom, kolleksiya, kataloq, plan, sxem, plan-xəritə, video, sərgi və s.

Bu tipoloji xüsusiyyətləri nəzərə olaraq, E.S.Polat layihənin aşağıdakı növlərini qeyd edir:

1. Elmi tətqiqat işini təmsil edən tətqiqat layihələri;
2. Tələbələrin yaradıcılıq qabiliyyətlərini inkişaf etdirməyə yönəlmiş yaradıcı layihələr;
3. Nəticələrin müəyyən edilməsi üçün zəruri olan məlumatların toplanması, təhlili və ümumiləşdirilməsinə yönəlmiş informasiya layihələri;
4. Telekommunikasiya layihələri;
5. Tətbiqi layihələr - iştirakçıların sosial maraqlarına yönəlmiş fəaliyyətinin dəqiq müəyyən edilmiş nəticəsi ilə xarakterizə edilir, aydın struktura malikdir [2,s.3].

M.M.Əmirov “Tam orta məktəbdə tarixin fəal/interaktiv təlimi metodikası” dərsliyində layihə metodunun növlərini qeyd etmişdir:

1. İnformasiya layihəsi - konkret obyektin informasiyalarının yığımı ilə təhlilinə və ya hadisə və məlumatların toplanması və emalının seçilməsini nəzərdə tutulmasına, konkret faktların təhlili və sintezinə, alınmış nəticələrin müzakirəsinə yönəldilir.

2. Təcrübə yönümlü layihələr - Təcrübəyönümlü layihələrin tətbiqində diqqət vəzifəni həyata keçirənin sosial maraqlarına və ya xarici sifarişçiyə yönəldilir.

3. Oyun layihəsi - İştirakçılar oyunu inkişaf etdirir, diqqətlə onun məzmununu, strukturunu, proseslərini və addımlarını, nəticələrini təsvir edir.

4. Tətqiqat layihələri - Tarixi-pedaqoji problemlərin elmi tətqiqatı ilə bağlıdır [4,s.527-530].

Ənənəvi metodlardan fərqli olaraq layihələr metodunun üstünlükləri çoxdur. Layihələr metodu şagirdlərdə ünsiyyət, əməkdaşlıq, sosiallıq, təşəbbüskarlıq, çeviklik bacarıqlarını, tənqidi, yaradıcı təfəkkürü təkmilləşdirir. Təlim zamanı şagirdlər fəaliyyətin daha səmərəli qurulması üçün yeni fikirlər irəli sürürlər. Ortaq mənafe və maraqlar çərçivəsində qarşılıqlı müsbət əməkdaşlıq qura bilirlər. Layihə üzərində iş zamanı şagirdlərdə informasiya, media və texnoloji savadlılıq da formalaşır. Bunlara informasiyadan düzgün istifadə, mediadan səmərəli istifadə, tənqidi qiymətləndirmə, texnologiyadan səmərəli istifadə bacarığı aiddir.

Bundan başqa Z.A.Veysova da "Fəal/İnteraktiv təlim: müəllimlər üçün dərs vəsaiti" dərsliyində layihə metodunun üstünlüklərini qeyd etmişdir:

- Layihələr şagirdlərin elmi-tədqiqat vərdişlərinin, biliklərə müstəqil yiyələnmə bacarıqlarının formalaşmasında mühüm rol oynayır;
- Ayrı-ayrı faktlar və hadisələrin məktəb təliminin predmetləri və xarici aləmlə əlaqəsini görməkdə şagirdlərə kömək edir;
- Şagirdlərə müstəqil şəkildə öz fəaliyyət proqramlarını qurmağa, habelə öz vaxtını və işini qrafik üzrə planlaşdırmağa kömək edir;
- Şagirdlərə müəllimin rəhbərliyi altında təlim prosesini idarə etməyə imkan verir;
- Şagirdlərin bir-birləri ilə, eləcə də məktəbdən kənarda müxtəlif adamlarla qarşılıqlı əlaqəsi üçün imkan yaradır;
- Şagirdlərə hadisələrin hər hansı bir aspektini daha dərindən anlamağa imkan verir, əlavə ədəbiyyatdan istifadə etməyi öyrədir;
- Onlara sosioloji tədqiqat və yaradıcı vərdişləri aşılayır, şagirdlərin öz tədqiqatlarının nəticələrini və öz rəylərini açıq şəkildə təqdim və müdafiə etmək vərdişlərinə yiyələnməsinə kömək edir ki, bu da müstəqil düşünən şəxsiyyət üçün çox mühüm keyfiyyətdir [5, s. 96].

**Məqalənin aktuallığı.** Müasir tədrisin interaktiv üsullarından biri də layihələr metodudur. Bu metodun öyrənmə prosesinin ayrılmaz bir hissəsi olduğunu və məqalədə də məhz bu kimi vacib məsələyə toxunulduğunu nəzərə alaraq onu aktual hesab etmək olar.

**Məqalənin elmi yeniliyi:** Elmi yenilik ondan ibarətdir ki, məqalədə layihə növlərini ayırmaq üçün xarici və ölkə alimlərinin təklif etdiyi əsas

meyarların təsnifatı verilmiş, layihələrin hazırlanmasına verilən tələblər və yerinə yetirilməsi işlərin mərhələləri göstərilmişdir.

**Məqalənin praktik əhəmiyyəti:** Tələbələrin idrak fəaliyyətini gücləndirmək üçün təlim zamanı layihələr metodundan istifadə etməklə uğurlu nəticə əldə etmək olar ki, bu metoddan ali məktəb müəllimləri pedaqoji fəaliyyətlərində istifadə edə bilərlər.

**Nəticə:** Təlim prosesində layihələr metodu ilə iş şagirdlərdə tədqiqatçılıq, yardıcı düşünmə bacarıqları formalaşdırır, şagirdlər fikirlərini sərbəst ifadə etmək vərdişinə yiyələnirlər. Bu bacarıqlara və vərdişlərə yiyələnən şagirdlər yardıcı təfəkkürə sahib şəxsiyyət kimi formalaşır.

***Ədəbiyyat***

1. *A.M.Nəzərov., "Müasir təlim texnologiyaları" Bakı - 2012, 103.*
2. *Project-based method in the organization of educational activities (https://iopscience.iop.org/article/10.1088/1742-6596/1691/1/012191/pdf)*
3. *R.Məlikov., T.Nəcəfli, "Tarixin interaktiv təlimi: müəllimlər üçün metodik vəsait" Bakı - 2002, s.128.*
4. *Əmirov.M.M, "Tam Orta Məktəbdə Tarixin Fəal/İnteraktiv Təlimi Metodikası" Bakı - 2014, s.707.*
5. *Z.A.Veysova, "Fəal/İnteraktiv təlim: müəllimlər üçün dərs vəsaiti" Bakı - 2007.*

**Z.İ.Əliyeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***zeyneb_aliyeva_1998@inbox.ru***

# PROFİLLİ TƏLİM VƏ ELEKTİV KURSLAR

***Xülasə***

*Profil təhsilinin təşkilində ən mühüm məsələ strukturun və profil sahələrinin müəyyən edilməsidir. İxtisaslaşdırılmış hazırlığı təşkil edərkən ümumi təhsil, metodiki, maddi-texniki və kadr təminatı üzrə dövlət standartlarının tələblərinə cavab verən vahid dövlət imtahanının keçirilməsi nəzərə alınmalıdır.*

# ПРОФЕССИОНАЛЬНОЕ ОБУЧЕНИЕ И ЭЛЕКТИВНЫЕ КУРСЫ

***Резюме***

*Важнейшим вопросом в организации профильного обучения является определение структуры и профильных направлений. При организации профильной подготовки следует учитывать проведение единого государственного экзамена, отвечающего требованиям государственных стандартов общеобразовательного образования, методическое, материально-техническое и кадровое обеспечение.*

# PROFESSIONAL TRAINING AND ELECTIVE COURSES

***Summary***

*The most important issue in the organization of profile training is the definition of the structure and profile directions. In the organization of profile training, the holding of a single state exam, meeting the requirements of the state standards of general education, methodological, material-technical and personnel provision should be taken into account.*

***Açar sözlər:*** *şagird, müəllim, məktəb, şəxsiyyət, kompetensiya*
***Ключевые слова:*** *ученик, учитель, школа, личность, компетентность*
***Key words:*** *student, teacher, school, personality, competence*

Təhsilin modernləşdirilməsi konsepsiyası təhsil sistemi qarşısında ümumtəhsil məktəblərinin yuxarı siniflərində (X-XI siniflərdə), bazar iqtisadiyyatının real tələblərini nəzərə almaqla təlimin fərdiləşməsinə və sosiallaşmasına yönəlmiş profilli təlim sistemini yaratmaq tələbi qoymuşdur. Başqa sözlə, ümumi təhsilin yekunlaşdırıcı pilləsi olan tam orta təhsilin əsas

məqsədi şagirdlərin funksional savadlılığını və sosial adaptasiyasını təmin etməklə, onların ictimai və vətəndaş özünütəyininə şərait yaratmaqdır.

Bu funksiyalar öyrənənin özünün vətəndaş özünütəyininə şərait yaratmaqdır. Bu funksiyalar vətəndaş hüquq və vəzifələrini, potensial imkanlarını, seçdiyi həyat yolunu və məqsədlərini həyata keçirmək üçün kamil, sosial mobil şəxsiyyətin formalaşdırılmasına xidmət edir. Bu məqsədlərin effektiv təmin olunması ümumi təhsilin sonuncu tam orta təhsil pilləsində profilli təlimə keçidi zəruriləşdirir. Profillər üzrə təlimə keçid aşağıdakı səbəblərdən irəli gəlir:

- şagirdlərin peşə-ixtisas seçiminə maraqlarının müxtəlif olması (hazırda yuxarı sinif şagirdlərinin 90-95%-i seçdiyi gələcək peşə-ixtisasa uyğun gələn yalnız 4 fənni dərindən öyrənmək istəyir);
- şagirdlərin “təhsil aldığım məktəbin şəraiti mənə seçdiyim ixtisasa yaxşı hazırlaşmağa imkan vermir” düşüncə tərzi;
- təhsilə çəkilən maliyyə xərclərinin iqtisadi effektliliyini yüksəltmək və məzunların daha uğurla sosiallaşmasına kömək etmək üçün yuxarı sinif şagirdlərinin peşə-ixtisas seçiminə şüurlu yanaşmanın vacibliyi;
- ümumtəhsil məkləbi ilə ali məktəblər arasında varisliyin təmin edilməsi, ali məktəblərə qəbul imtahanlarına hazırlaşma (repetitorluq və ödənişli hazırlıq kursları) sahəsində mövcud nöqsanların aradan qaldırılması.

Profilli təlimə keçidin əsas məqsədlərini aşağıdakı kimi ümumiləşdirmək olar:

- ayrı-ayrı fənlərin dərindən öyrənilməsini təmin etmək;
- diferensial və fərdi təlim almaq üçün şagirdlərin bacarıq, meyl və maraqlarına, onların öz tələbatına uyğun təhsil sahələrinə şərait yaratmaq;
- şagirdlərin sosiallaşması imkanlarını genişləndirmək, seçdiyi peşələrə daha yaxşı hazırlaşdırmaq;
- ümumi təhsillə peşə ixtisas təhsili arasında varisliyi təmin etmək.

Ümumi təhsilin tam orta təhsil pilləsində profilli təlim bir çox inkişaf etmiş ölkələrdə xeyli vaxtdır ki, həyata keçirilir. Avropa ölkələrində yuxarı siniflərdə şagirdlərə 2-3 variantda profil seçmək təklif olunur. Məsələn, İngiltərədə orta təhsildən sonra ali təhsili davam etdirməyə imkan verən “akademik” və tətbiqi xarakterli peşələrə yiyələnmək üçün lazım olan fənlər tədris edilən, “professional” adlandırılan profillər; Almaniyada “dil-ədəbiyyat-incəsənət”, “riyaziyyat - dəqiq elmlər - texnologiya” adlandırılan profillər; Fransada “təbiət elmləri”, “filologiya” və “sosial-iqtisadi elmlər” adlandırılan profillər təklif olunur. ABŞ-da orta təhsilin son 2-3 ilində şagirdlərə üç variantda: “akademik”, “ümumi” və “professional” adlandırılan profillərdən birini seçmək təklif olunur.

Müstəqillik qazandıqdan sonra çoxvariantlı təlim proqramlarını reallaşdıran, həmçinin, şagirdləri seçdiyi ixtisas və peşələrə yaxşı hazırlaşdıra

bilən yeni tipli ümumtəhsil müəssisələri (lisey, gimnaziya, kollec) yaradılmağa başladı. Belə tədris müəssisələrinin bütün bölgələrdə və tələb olunan yerlərdə yaradılması hələlik tamamilə həll edilmədiyindən, orta məktəblərin yuxarı siniflərində profilli təlimin təşkili günün vacib tələbi kimi qarşıda durur və bu məsələlər yaxın zamanlarda həll edilməlidir.

Profilli təlim sisteminin aşağıdakı xüsusiyyətləri onun geniş tətbiqinə imkan verir:

- profilli təlimə keçid ümumi təhsilin son pilləsində (tam orta təhsil pilləsi) həyata keçirilir;
- məktəbdə iki və daha çox profil üzrə təlim təşkil edilir;
- məktəbdə eyni zamanda "ümumi təhsil profili" təliminin həyata keçirilməsi imkanı saxlanılır;
- məktəbdə invariant tədris fənlərinin miqdarı və həcmi azalır, şagirdlərin istəyi ilə seçilmiş elektiv kursların təşkili hesabına təlimin çoxvariantlılığı genişlənir.

Profilli təlimin təşkilində ən mühüm məsələ strukturun və profil istiqamətlərinin müəyyənləşdirilməsidir. Profilli təlimin təşkilində vahid dövlət imtahanının keçirilməsi, ümumi təhsilin dövlət standartlarının tələblərinin ödənilməsi, metodiki, maddi-texniki və kadr təminatı nəzərə alınmalıdır.

Son vaxtlar profil variantlarının sayının 10-a qədər artırmağın mümkünlüyü söylənilir. Bu fikrə görə məktəblərdə aşağıdakı 10 profildən istifadə oluna bilər: fizika-riyaziyyat, təbiət elmləri, informasiya-texnoloji, humanitar, filoloji, sosial-iqtisadi, müdafiə-texniki, bədii, aqrotexnoloji, sənaye-texnoloji.

Bu fikrə görə məktəblərdə aşağıdakı 10 profildən istifadə oluna bilər: fizika-riyaziyyat, təbiət elmləri, informasiya-texnoloji, humanitar, filoloji, sosial-iqtisadi, müdafiə-texniki, bədii, aqrotexnoloji, sənayetexnoloji. Profilli təlimin məzmunu və onun tədris planı dörd fənn bloku ilə müəyyənləşdirilə bilər:

I blok. Buraya daxil olan baza ümumtəhsil fənlərinin tədrisi profillər üçün məcburi və invariantdır. Bloka aşağıdakı ümumtəhsil fənlərinin daxil olması təklif edilir: riyaziyyat, tarix, ana dili, xarici dil, fiziki tərbiyə, həmçinin, təbiət elmləri profili seçənlər üçün interaktiv fənn - təbiət elmləri.

II blok. Profilə uyğun dəyişdirilmiş səviyyəli (hazırda qəbul olunan fənn proqramlarında fənnin dərindən öyrənilməsinə uyğun gələn B səviyyə) ümumtəhsil fənləri. Bu fənlərin öyrənilməsi həmin profili seçmiş şagirdlər üçün zəruridir. I və II bloklardakı tədris fənlərinin məzmunu dövlət təhsil standartları (DTS) ilə müəyyənləşdirilir. Məzunların hazırlıq səviyyəsinin DTS tələblərinə nə dərəcədə uyğun olması isə vahid dövlət imtahanları (VDİ) ilə yoxlanılır.

III blok. Tədris planının məktəb komponenti hesabına reallaşdırılan və şagirdlərin istəyi ilə seçilən elektiv kurslar (EK). Hər bir şagird iki il ərzində (X, XI siniflər) icbari olaraq 5-6 elektiv kurs öyrənməlidir. I, II, III blokların tədris vaxtlarının həcmləri (%-lə) müvafıq olaraq aşağıdakı kimi olmalıdır 50:30:20.

IV blok. Təlim praktikası, layihələr, tədqiqat fəaliyyəti.

Profilli təlimin məqsədləri və vəzifələrinə uyğun olaraq elektiv kurslar müxtəlif funksiyalar daşıya bilər:

- müasir dövrün əsas problemlərinin öyrənilməsi;
- gələcək peşə fəaliyyətinin özəllikləri ilə tanışlıq, "peşə sınağı";
- idraki və təşkilati fəaliyyət vərdişlərinin təkmilləşdirilməsi yolları ilə tanışlıq;
- baza fənləri üzrə alınan təhsilin tamlaşdırılması və dərinləşdirilməsi;
- profil fənləri üzrə aparılan təlimdəki çatışmazlıqların kompensasiyası.

Elektiv kursların seçilməsinin əsas motivləri bunlar ola bilər:

- profıl fənlər üzrə VDİ-yə hazırlaşmanın təmin edilməsi;
- həyati problemləri, praktik məsələləri həll etmək üçün biliklərə və vərdişlərə yiyələnmək və fəaliyyət üsullarının mənimsənilməsi;
- əmək fəaliyyətində uğurlar əldə etmək və sürətli məhsuldar inkişafın təmin edilməsi;
- maraqların ödənilməsi və peşəyönümünün vaxtında müəyyənləşdirilməsi;
- baza fənlərinin mənimsənilmə səmərəliliyinin artırılması;
- dünyanın bütöv mənzərəsi barədə təsəvvürlərin əldə edilməsi və genişləndirilməsi.

Elektiv kursların seçilməsi zamanı, birinci növbədə, aşağıdakı problemlər meydana çıxır:

- maliyyə və təşkilati məsələlərin həll edilə bilməsi üçün elektiv kursların faktik olaraq seçilməsində şagirdlərdən başqa, valideynlərin və müəllimlərin iştirakının təmin edilməsi;
- elektiv kursların reallaşdırılması və tələbata uyğun seçilməsi üçün qabaqcadan müxtəlif həcmli və məzmunlu tədris-metodik materialların hazırlanması və nəşr edilməsi.

Kurs materiallarının öyrədilməsi prosesində şagirdlərin idrak fəallığını stimullaşdıran axtarış və tədqiqat metodları aparıcı yer tutmalı, müxtəlif təlim-informasiya mənbələri ilə müstəqil işin təşkilinə xüsusi yer verilməlidir.

Təlim prosesində müəllimin əsas funksiyası ümumi təhsilvermənin məqsədlərinə nail olmağa yönəlmiş birgə əməkdaşlığa əsaslanan fəaliyyətə çevrilməlidir.

Tədris məşğələlərinin təşkili formaları seçilərkən kursun spesifik məqsədləri nəzərə alınmalı, elektiv kursun tədrisində 1-3 şagirddən ibarət

qrupla işləmək də prinsipcə olmadığından təlimin həm fərdi-qrup, həm də kollektivlə iş formaları qabaqcadan düşünülməlidir.

Beləliklə, EK-nın məzmunu və metodları aşağıdakı tələblərə cavab verməlidir:

- seçilən mövzular şəxsin və cəmiyyətin tələblərinə uyğun olmalıdır;
- baza kurslarının (fənlərinin) öyrənilməsinə, seçilmiş profilin və fərdi meyllərin dərinləşməsinə kömək etməlidir;
- müəllim və şagirdlərin təhsil tələbatlarına cavab verməli, həmçinin şagirdin gələcək peşə fəaliyyətinə adekvat təlimin təşkili onun metodlarına uyğun olmalıdır;
- şagirdləri profilə uyğun nəzəri cəhətdən əsaslandırılmış praktik fəaliyyətə təhrik etməlidir;
- şagirdlərdə ümumi təlim qabiliyyətləri və vərdişlərinin formalaşmasını və inkişafını təmin etməlidir. Məktəbdə fərdi təhsili qurmaq və uğurlu peşə karyerası qazanmaq üçün müvafıq bilik, bacarıq və təcrübəyə malik olmaq, fəaliyyət növlərinə yiyələnmək elektiv kursların öyrənilməsindən gözlənilən əsas nəticələrdəndir.

Şagirdlərin nailiyyətləri səviyyəsinə nəzarət etmək üçün aşağıdakı üsullardan istifadə oluna bilər: kurs məşğələlərində fəaliyyətin müşahidəsi; şagird və onun valideyni ilə söhbətin aparılması; başqa fənn müəllimlərinin şagird barəsində ekspert rəyinin öyrənilməsi; şagirdlərin yaradıcı və tədqiqatçılıq işinin, diaqnostik tapşırıqlarının yerinə yetirilməsi, nəticələrinin analiz edilməsi; anket sorğusu; testləşdirmə. Nəzarətetmənin forma və məzmunu baza fənləri üzrə keçirilən buraxılış imtahanları, eləcə də proqrama uyğun əvvəlcədən hazırlanmış testlər vasitəsi ilə həyata keçirilməlidir. Belə yoxlama-nəzarət üsullarından şagird nailiyyətlərinin həm aralıq, həm də yekun qiymətləndirilməsi zamanı istifadə oluna bilər.

Nailiyyətlərin aralıq qiymətləndirilməsi fəaliyyətin müsbət motivasiyası, həmçinin şagirdlərin və müəllimin fəaliyyəyinin korreksiyası üçün çox əhəmiyyətlidir.

Kursların tematik planında praktik işlər və laboratoriya işləri, ekskursiyalar, hazırlanacaq layihələr ayrıca göstərilməli, tədris proqramının sonunda isə əlavə təlim materialları - müəllim və şagirdlər üçün ədəbiyyat, elektron nəşrlər (kompakt disklər, kompüter proqramları), internet materialları verilməlidir.

Elektiv kursların əsas məzmunu həm ayrıca dərslikdə, həm də video kassetlərdə, interaktiv kompüter proqramında, internet materiallarında verilə bilər. Dərsliyin məzmunu şagirdləri müstəqil olaraq problem məsələlər qoyub onları həll etməyə yönəltməlidir. Şagirdlərin müstəqil işinin təşkili üçün verilən tapşırıqların iş dəftərində təqdim olunması daha məqsədəuyğun hesab edilməlidir. İş dəftərinin əsas funksiyası şagirdi onun ətrafında baş verən həyat

hadisələrində fəal iştirak etməyə sövq etməkdir. İş dəftərindəki tapşırıqlar kursun tədris materiallarının dərindən öyrənilməsinə, onların dərk edilməsinə və praktik fəaliyyətdə tətbiqinə kömək etməlidir.

Hazırda ölkəmizdə formalaşmış ümumi təhsil sistemi profilli təlimin bir çox problemlərini həll etməyə imkan vermir. Təhsilini davam etdirənlər üçün, onun ümumi və peşəyə hazırlıq səviyyəsini müəyyənləşdirən təhsilin dəqiq məzmunu hələlik işlənilməmişdir. Bu sahədə yeni tipli tədris müəssisələrində (lisey, gimnaziya, kollec) və pilot məktəblərində toplanan təcrübə öyrənilməli, müxtəlif profillər üçün dəqiq məzmun hazırlanmalıdır.

Profil təlimi verən yeni tipli orta ümumtəhsil məktəbinin xüsusi inkişaf proqramı olmalıdır. Bu proqramın əsas özəyini təhsilin məzmunu təşkil etməlidir.

***Ədəbiyyat***

1. *Ağayev Ə.Ə. Təlim prosesi: ənənə və müasirlik. Bakı - «Adiloğlu», 2006, 138 s.*
2. *Mehrabov A.O, Bəylərov E.B. Testologiya və müasir təhsil. Bakı - Adiloğlu, 2003, 208 s.*
3. *Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı. Bakı - Çaşıoğlu, 1999, 65 s.*

**M.İ.Mikayıllı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***mikayilmikayilli01@gmail.com***

# ALİ PEDAQOJİ MƏKTƏBLƏRDƏ AZƏRBAYCAN TARİXİNİN TƏDRİSİNDƏ YENİ TƏLİM TEXNOLOGİYALARINDAN İSTİFADƏNİN DİDAKTİK, PSİXOLOJİ VƏ FƏLSƏFİ ƏSASLARI

***Xülasə***

*Məqalədə yeni təlim texnologiyalarının mahiyyəti təhlil edilib. Ali pedaqoji məktəblərdə Azərbaycan tarixinin tədrisi əsasında yeni təlim texnologiyalarından istifadənin səmərəliyi işıqlandırılmışdır. Yeni təlim texnologiyalarının didaktik, psixoloji və fəlsəfi əsasları tədqiq edilmişdir. Mövcud materiala uyğun düzgün texnologiyalardan istifadə kimi elmi məsələlər əsaslandırılmışdır. Anlama, bilmə, mənimsəmə kimi proseslər araşdırılmışdır.*

# ДИДАКТИЧЕСКИЕ, ПСИХОЛОГО-ФИЛОСОФСКИЕ ОСНОВЫ ИСПОЛЬЗОВАНИЯ НОВЫХ ОБРАЗОВАТЕЛЬНЫХ ТЕХНОЛОГИЙ В ПРЕПОДАВАНИИ ИСТОРИИ АЗЕРБАЙДЖАНА В ПЕДАГОГИЧЕСКИХ ВУЗАХ

***Резюме***

*В статье проанализирована сущность новых технологий обучения. Подчеркнута эффективность использования новых технологий обучения на основе преподавания истории Азербайджана в педагогических вузах. Изучены дидактические, психологические и философские основы новых технологий обучения. Обоснованы такие научные вопросы, как использование правильных технологий для имеющегося материала. Были исследованы такие процессы, как понимание, познание и усвоение.*

# DIDACTIC, PSYCHOLOGICAL AND PHILOSOPHICAL BASIS OF USING NEW EDUCATIONAL TECHNOLOGIES IN TEACHING THE HISTORY OF AZERBAIJAN IN HIGHER PEDAGOGICAL SCHOOLS

***Summary***

*The essence of new learning technologies was analyzed in the article. The effectiveness of using new learning technologies based on the teaching of Azerbaijani history in higher pedagogical schools has been highlighted. Didactic, psychological and philosophical foundations of new learning technologies were studied. Scientific*

*issues such as using the right technologies for the available material are justified. Processes such as understanding, knowledge, and assimilation have been investigated.*

***Açar sözlər:*** *yeni təlim texnologiyaları, metodika, didaktika, psixologia, fəlsəfə, ali təhsil, tədris prosesi, təfəkkür, idrak*
***Ключевые слова:*** *новые технологии обучения, методика, дидактика, психология, философия, высшее образование, учебный процесс, мышление, познание*
***Key words:*** *new learning technologies, methodology, didactics, psychology, philosophy, higher education, teaching process, thinking, cognition*

Ali məktəb müəlliminin qarşısında duran vacib vəzifələrdən biri ali məktəbdə təlim sessiyalarının təşkilində yeni yanaşmaların tətbiq edilməsindədir. Kərimov, Z.H və Əhmədova, N.Ə ali məktəblər üçün hazırladıqları proqramın izahat vərəqində yazırlar: "Fəal təlim mühitini yaratmaq, onu demokratik şəraitdə idarə etmək, fasilitasiya qaydalarına əməl etməklə müəllim-tələbə əməkdaşlığı əsasında təhsilalanları isitqamətləndirmək, onların müstəqil olaraq öyrənmə prosesinə qoşulmasını təmin etmək lazımdır. [4, s.5].

Təhsil islahatı proqramında təhsilləndirici, tərbiyələndirici və inkişafetdirici təlim metodlarının geniş tətbiqinə diqqət verilməsi tövsiyə edilir. Metodlar içərisində fəal təlim metodları önəmli rola malikdir.

**I**. Fəal təlim zamanı öyrənənlər təlim prosesinin tamhüquqlu iştirakçıları olurlar və elmin yeniliklərini, yeni bilikləri fəal axtarış və kəşflər zamanı mənimsəyirlər.

**II**. İnteraktiv təlim qarşılıqlı fəal təlimdir. İnteraktiv dərslərdə debat, diskussiya, əqli hücum və ya qruplarla iş, rollu oyun və s. təlim metodlarından istifadə edilir. İnteraktiv təlimin əsas hədəfi tələbələr üçün idrak fəallığını inkişaf etdirə bilən əlverişli öyrənmə və öyrətmə mühiti yaratmaq, onların tədris prosesində özlərini məhsuldar hiss etmələrini təmin etməkdir. Ən vacib məsələ isə fəal interaktiv təlim zamanı tələbələrin yaradıcı fəaliyyəti, idrak fəaliyyətidir.

**III**. Fəal təlimdə yaradıcılıq böyük əhəmiyyət kəsb edir. Yaradıcılıq hər hansı bir yeniliyin yaradılmasına yönəldilmiş prosesdir. Müasir kurikulumların tələbələrini əsas götürsək Azərbaycan tarixi dərslərində təlim prosesində tələbələrdə idrak fəallığının formalaşdırılması üçün aşağıdakı əlamətlər səciyyəvidir.

a) müəllimlərin və tələbələrin birgə fəaliyyəti;

b) təlimə müəllim tərəfindən rəhbərlik edilməsi;

c) tələbələrin təhsil-tərbiyəsini, inkişafını və formalaşmasını plana uyğun surətdə təşkil və idarə etmək;

d) təlimdə tamlığı təmin etmək;

e) təlimin tələbələrin yaş və inkişafını qanunauyğunlarına müvafiqliyinin təmin edilməsi;

f) tələbələrin təlimə yaradıcı mövqeyini stimullaşdırmaq.

Beləliklə, Azərbaycan tarixi üzrə təlim prosesi – müəllimin rəhbərliyi altında tələbələrin fənnin məzmununu dərk etməsi prosesidir.

Araşdırmalar göstərir ki, Azərbaycan tarixi üzrə təlim prosesinin planlaşdırılması elmi-məntiqi ardıcıllığa əsaslandıqda təlimdə keyfiyyət dəyişikliyi baş verir. Burada əsasən öyrədici mühitin yaradılması və ondan istifadə edilməsi tələbələrin idrak fəallığının formalaşdırılmasının təşkili və ona nəzarət, fəal dərsin 7 mərhələsinin ardıcıllıqla planlaşdırılması və təlim fəaliyyətinin yaradıcı təşkili və ona nəzarət edilməsi məsələləri əsas götürülür. Ali məktəblərdə də bu 7 mərhələ əsasında seminar və mühazirə dərsləri keçirilə bilər.

İnteraktiv təlimin əsas məqsədi müəllim tərəfindən tələbənin özünün biliklərini kəşf edəcəyi, əldəedəcəyi və quracağı şərtləri yaratmaqdır.

1. Tənqidi təfəkkür – daxil olan məlumatı qiymətləndirmək qabiliyyətidir. Yəni öyrənənə verilən məlumatı onu təhlil edərək müsbət və mənfi cəhətlərini göstərməklə qiymətləndirmək qabiliyyətidir.

2. Didaktik təfəkkür – hadisələrdə ziddiyyətlərin vəhdətini və mübarizəsini, yeniliklərin necə yarandığını görmək və onların inkişaf istiqamətlərini aşkar etmək nəzərdə tutulur.

3. Məntiqi təfəkkür - müqayisə, ümumiləşdirmə, təsnifat və sistemləşdirmə bacarığıdır. Ümumiləşdirmə - cisim və hadisələri ümumi və mühüm xüsusiyyətlərinə görə fikrən birləşdirməkdir. Təsnifat - əşyaları mühüm xüsusiyyətlərinə görə fikrən siniflərə ayırmaqdır. Sistemləşdirmə - obyektləri müəyyən qayda üzrə düzmək, onlar arasında ardıcıllığı müəyyən etmək, yəni sistemə salmaq deməkdir. Ümumiyyətlə, biliklərin qavranılması, köhnə biliklərlə yeni biliklər arasında sıx bağlılıq başa düşülməlidir.

Ali məktəb tələbələrində tarix dərslərində tələbələrin idrak fəallığının inkişaf etdirilməsi tələbələri yaradıcı öyrənməyə, özünün, gələcəyinin yaradıcısı olmağa təşviq edir. Tələbələrin idrak fəallığının formalaşdırılması, fəallaşdırılması tədris prosesində tələbələrin yaradıcılıq dərəcəsinin yüksəldilməsində son dərəcə vacibdir. Tələbələrdə idrak fəallığının tənqidi, yaradıcı, məntiqi düşüncə proseslərinə sövq etməklə təhrik etmək olar. B.Lahey, L.Lefton, R.Malott, R.Plotnik və digər psixoloji nəzəriyyəçilər tənqidi düşünməyə fikirlərimizi, hisslərimizi və davranışlarımızı aydınlaşdırmaq və inkişaf etdirmək üçün düşünmək və qiymətləndirmək kimi baxırlar [1, s.97-100].

Ali məktəb tələbələrinin Azərbaycan tarixinin təliminə münasibəti necədir? Tələbələrin təlim fəaliyyətinin psixoloji xarakteristikasının səviyyəsi necədir? kimi məsələləri aydınlaşdırmağa çalışaq.

Müasir dövrdə, ümumtəhsil məktəblərində şagirdlər demək olar ki, bütün fənlərə eyni münasibət bəsləyirlər, lakin ali məktəb tələbələri tədris olunan bütün fənlərə eyni münasibət bəsləmirlər. Tədris olunan fənlərə seçici yanaşırlar. Bununla da təlimə münasibət köklü surətdə dəyişir. Bilik və bacarığa tələbat ali məktəb tələbəsinin ən səciyyəvi cəhətidir. Ali məktəb tələbələrinin idraki maraqları geniş, dəyişməz və praktik xarakter daşıyır. Tələbələrin maraqlarının genişliyi onların fəlsəfi və etik problemlərə maraqlarını artırır. Tələbələrdə qavrayışın xüsusiyyətləri genişliyi ilə fərqlənir. Onlarda seçicilik, mənalılıq, müşahidə, ixtiyari diqqət, cisim və hadisələri sistemləşdirmə bacarığı formalaşır. Diqqətini bir neçə iş arasında bölüşdürmə, hər bir müstəqil işi yerinə yetirərək diqqətli olmaq hissi formalaşır. Tələbələrdə ixtiyari hafizə çoxaldıqca, qeyri-ixtiyari hafizənin çəkisi azalır. Müstəqil işlərin yerinə yetirilməsində anlaşmanın, dərketmənin, analizin, sintezin həcmi çoxalır və genişlənir. Tələbələr plan, sxem tərtib etmək, konspekt hazırlamaq, seminara hazırlaşmaq, mühazirədən əsas fikirləri çıxarmaq və s. hafizələrinin hesabına sahib olurlar.

Ə.Ə.Əlizadə və H.Ə.Əlizadə təhsildəki yeni pedaqoji-psixoloji təfəkkürün təfərrüatlarını şərh edərək yazırlar: “Yeni pedaqoji təfəkkür klassik pedaqogikanın deyil, “Köhnə” pedaqoji təfəkkürün – durğunluq illəri pedaqogikasının və ya ənənəvi didaktikanın alternativ kimi bərqərar olmuşdur. Klassik pedaqogika yeni pedaqoji təfəkkürün əsas qaynaqlarından birini təşkil edir” [5, s.179].

İxtiyari öyrənmə məqsədəuyğun, planlı, mütəşəkkil olur. Tələbələr əsas bilik və bacarıqlarını həmin ixtiyari öyrənmədə əldə edirlər. Hazırki dövrdə ali məktəblərdə yeni təlim texnologiyalarından istifadə olunur. Ali məktəblərdə təcrübəli tarix müəllimləri seminar məşğələlərində motivasiyanın yaradılmasından istifadə etməklə məşğələdə öyrəniləcək mövzunun aktuallığını, onun zəruri və səciyyəvi cəhətlərini müxtəlif vasitələrlə tələbələrə çatdırırlar. Sözlərdən, sxemlərdən, şəkillərdən və digər simvollardan istifadə edirlər. Motivasiyanın yaradılması onları məqsədə çatmağa təhrik edir. Biliyə maraq, özünün intellektual və mədəni səviyyəsini yüksəltmək istəyi, bacarıqlara yiyələnmək, müstəqil iş kimi verilmiş tapşırıqları yerinə yetirməyə həvəs və s. daxili motivlərdəndir. Psixoloji ədəbiyyatlarda bu qəbildən olan motivlərə təlim situasiyaları deyilir. Bunlar məqsədəuyğun cəlbedici situasiyalar adlanır. Cəlbedici situasiyalar tələbələrin müstəqil işlərində psixoloji motiv, psixoloji əsas rolunu oynayır [2, s.178-182].

Təlim sistemində idarəetmənin fəlsəfi-metodoloji problemlərinin mühüm aspektləri idrak nəzəriyyəsi ilə obyektiv əlaqə zəminində

müəyyənləşir. Pedaqoji ədəbiyyatda təlim prosesi ilə elmi idrak prosesinin müqayisəsində üç nöqteyi-nəzəri fərqləndirmək olar:

1. Bəziləri tərəfindən təlim prosesinin özünəməxsus xüsusiyyətləri lazımınca qiymətləndirilmədən elmi idrak prosesi ilə eyniləşdirilir.
2. Bəziləri tərəfindən təlim və idrak proseslərinin oxşarlığına laqeydlik hiss olunur, onların bir-birindən fərqləri, təlim prosesinin spesifik xüsusiyyatləri qeyd olunur.
3. Bəziləri tərəfindən təlim prosesi özünəməxsus xüsusiyyətlərə malik elmi idrak prosesi kimi qəbul edilir və hər iki prosesin bütün tərəflərinin vəhdətinin əsaslandırılmasına cəhd olunur.

Akademik M.M.Mehdizadə idrak nəzəriyyəsi ilə təlim nəzəriyyəsi arasında olan münasibətlərin şərhi üçün irəli sürülən müddəalar arasında müəyyən fərqlərə, hətta fikir ayrılıqlarına yol verildiyini qeyd edirdi. O, yazırdı ki, bəziləri idrak nəzəriyyəsi ilə təlim nəzəriyyəsini tamamilə eyniləşdirir, bunların arasında olan fərqləri unudurlar, təlim prosesinin təşkilini idrak prosesinin gedişi kimi qələmə verməklə şagirdlərin yaş xüsusiyyətlərini və imkanlarını nəzərə almağı yaddan çıxarır və beləliklə də, əslində didaktikanın özünü inkar etmək dərəcəsinə gəlirlər. [3, s.229-239].

İnsan cəmiyyətləri keçmişdə və indiki dövrdə öyrənmə proseslərinə diqqət yetirmiş və təhsillə maraqlanmışdır. Hər bir filosof və ya təhsil alimi idealizm, realizm, praqmatizm, ontologiya, naturalizm, davranışçılıq və analitik fəlsəfə kimi müəyyən edilə bilən fəlsəfi cərəyanlara müraciət etmiş və üzərində işləmişdir. Sokrat deyir ki, mən heç kimə heç nə öyrədə bilmərəm, yalnız onları düşünməyə vadar edə bilərəm.

Təhsil texnologiyasından istifadənin məqsədi pedaqogikanı təkmilləşdirmək və tələbələrin öyrənməsinə şərait yaratmaqdır. İsmayıl İpək "Öyrənmə və Tədris Mühitləri üçün Təhsil Texnologiyaları Fəlsəfəsində Yeni Yanaşmalar və Trendlər" adlı məqaləsində A.Yanuşevskinin fikrini əsas gətirir. "Təhsil texnologiyası müvafiq texnoloji prosesləri və resursları yaratmaq, istifadə etmək və idarə etmək yolu ilə öyrənmənin asanlaşdırılması və performansın artırılmasının öyrənilməsi və etik təcrübəsidir". Təhsil texnologiyası öyrənmə fəaliyyətlərinə səbəb olmaq və ya nəzarət etmək əvəzinə öyrənməni asanlaşdırdığını iddia edir. Fasilitasiya öyrənmə mühitinin dizaynını, resursların təşkilini və öyrənmə vasitələrinin təmin edilməsini əhatə edir. Tədris mühitləri üz-üzə, virtual mühitlərdə, eləcə də mikro aləmlərdə, genişlənmiş reallıqlarda, distant təhsil və təlim dizaynlarında ola bilər. Tədris dizaynı tələbələrin təlimi necə keçəcəyinə və yeni texnologiyalarla öyrənmənin ən effektiv metodunun hansı olacağına yönəldilməlidir. Tarixdə bir çox pedaqoq və elm adamları öyrənmə və tədris prosedurlarına, tədris dizaynı və texnologiyasında nəzəriyyələrin inkişafına diqqət yetirmişlər. Bu zaman fəlsəfə bilikləri, həqiqət məlumatları, dizayn materialları və həmçinin dizayn təcrübəsi

perspektivləri göstərilmişdir. Dizayn mühitlərində istifadə olunacaq sistem yanaşmaları, əsaslı və yaxud idrak dizayn təcrübələri var. Bütün perspektivlər virtual və real vaxt simulyasiyalarını inkişaf etdirmək üçün texnologiyalara inteqrasiya olunacaq. Bu fəaliyyətlər fəlsəfi perspektivdə öyrənmə mühitləri, rəqəmsal dizaynlar, oyunlaşdırma, virtual reallıq tətbiqləri, inteqrasiya olunmuş elektron təhsil, mobil təlim dizaynı, interfeys dizaynı, motivasiya, vizual dizaynlar, multimedia kimi gələcək tədris dizaynlarının növlərini əhatə edir. [6, s.4-5].

**Nəticə.** Yeni təlim texnologiyalarının didaktik, psixoloji və fəlsəfi əsasları haqqında ümumiləşdirmə aparılmışdır. Təlimdə yeni texnologiyalardan istifadənin vacibliyi aşkara çıxarılmışdır. Məqalədə çox saylı tədqiqatçıların fikir və müddəalarından istifadə edilərək günümüzün bir hissəsinə çevrilən yeni texnogiyalardan təlimdə istifadənin nə qədər səmərəli olacağı üzə çıxarılmışdır.

**Problemin aktuallığı.** Ali pedaqoji məktəblərdə yeni təlim texnologiyalarının Azərbaycan tarixi kursunda tətbiqi çox önəmlidir. Yeni təlim texnologiyaları tələbələrə bilik verməklə yanaşı onlarda bacarıqlarıda formalaşdırır. Azərbaycan tarixi dərslərində yeni təlim texnologiyalarının düzgün seçilməsi, düzgün istifadəsi, düzgün formada tətbiq olunmasını bilmək üçün məhz bu texnologiyaların didaktik, psixoloji və fəlsəfi əsaslarını bilmək lazımdır.

**Problemin elmi yeniliyi.** Məqalədə Azərbyacan tarixinin müasir tədrisində yeni təlim texnologiyalarından istifadənin nə dərəcədə vacib olduğu araşdırılmışdır. Təhsildə yeni təlim texnologiyalarının tətbiqinin vacibliyi tədqiq edilmişdir.

**Problemin praktik əhəmiyyəti.** Məqalə dərslərini yeni təlim texnologiyaları vasitəsi ilə quran müəllim və tələbələr üçün faydalı ola bilər.

***Ədəbiyyat***

1. *Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Təhsil İnstitutu elmi əsərlər cild 88, № 1, 2021, 165 s.*
2. *Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Təhsil İnstitutu elmi əsərlər cild 86, № 2, 2019, 228 s.*
3. *Feyziyev, C.Ə., İbrahimov, F.N., Bədiyev, F.N "Didaktika" Bakı - 2011, 623 s.*
4. *Kərimov, Z.H., Əhmədova, N.Ə Pedaqoji Universitet və institutlarda bakalavr hazırlığı üçün - Azərbaycan tarixi proqramı, Bakı - 2023, 121 s.*
5. *Əlizadə Ə., Əlizadə H. Pedaqoji psixologiya. Bakı - 2010, 321 s.*
6. *İpak.İ "New Approaches and Trends in the Philosophy of Educational Technologies for Learning and Teaching Environments". European Journal of Contemporary Education, 2017, 6(3)*

**Ş.R.Məmmədova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***shhlmamedova@gmail.com***

# V-VIII SİNİFLƏRDƏ AZƏRBAYCAN TARİXİNİN TƏDRİSİNDƏ TOLERANTLIĞIN FORMALAŞMASININ İMKAN VƏ YOLLARI

***Xülasə***

*Məqalədə tolerantlıq anlayışı, cəmiyyətin həyatında rolu nəzərdən keçirilir. Tolerantlıq problemləri ilə məşğul olan alimlərin, o cümlədən təhsil sahəsində olanların müxtəlif fikirləri açıqlanır. Orta təhsil müəssisələrində tarixin tədrisi prosesində məktəblilərdə tolerant şüurun formalaşdırılması imkanları təqdim olunur. Məktəb tarixi kursunun ayrı-ayrı fraqmentləri müəyyən tarixi dövrlərdə cəmiyyətin müxtəlif təbəqələrinin tolerant davranışının təzahürünün məzmunlu aspektlərini göstərir.*

# ВОЗМОЖНОСТИ И ПУТИ ФОРМИРОВАНИЯ ТОЛЕРАНТНОСТИ В ПРЕПОДОВОАНИИ АЗЕРБАЙДЖАНА В V-VIII КЛАССАХ

***Резюме***

*В статье рассмотрены понятие, сущность и роль толерантности в жизни общества. Рассмотрены различные взгляды ученых, занимающихся проблемами толерантности, в том числе в сфере образования. Представлены пути и возможности для формирования толерантного сознания школьников в процессе преподования истории в средних общеобразовательных учреждениях. На отдельных фрагментах школьного курса истории показаны содержательные аспекты проявления толерантного поведения различных слоев общества в определенные исторические периоды.*

# OPPORTUNITIES AND WAYS OF FORMING TOLERANCE IN TEACHING THE HISTORY OF AZERBAIJAN IN 5-8 CLASSES

***Summury***

*The article deals with the concept, essence and role of tolerance in the life of society. Various views of scientists dealing with the problems of tolerance, including those in the field of education, are considered. Ways and opportunities for the formation of a tolerant consciousness of schoolchildren in the process of teaching history in secondary educational institutions are presented. Separate fragments of the history school course show the substantive aspects of the manifestation of tolerant behavior of various strata of society in certain historical periods.*

***Açar sözlər:*** *tarix dərsləri, məktəb, tolerantlıq, tolerant şəxsiyyət*
***Ключевые слова:*** *уроки истории, школа, толерантность, толерантная личность*
***Key words:*** *history lessons, school, tolerance, tolerant personality*

"Tolerantlıq" anlayışı son zamanlar geniş yayılmışdır. Hər il 16 noyabr tarixində Beynalxalq tolerantlıq günü qeyd edilir. O, demokratiyanın, humanist dünyagörüşün, əxlaqın, mədəniyyətin ən mühüm prinsiplərindən birini, müxtəlif növ münaqişələrin qarşısının alınması və aradan qaldırılması prinsipini səciyyələndirir: sosial, şəxsiyyətlərarası, etno-milli, konfessiyalararası və s. [2, 12]. Bu anlayış ölkəmizdə 25-30 il əvvəl geniş yayıla bilərdimi? Bu mümkün deyil, çünki tolerantlığın izahı və həyata keçirilməsi yolunda güclü maneələr dayanırdı. "Tolerantlıq" anlayışı ilə bağlı bəzi mülahizələrə nəzər salaq. Xüsusi cəhət kimi o, insan fəaliyyətinin və cəmiyyətin inkişafının müxtəlif aspektlərinin təhlilində "vardır", müxtəlif dillərdə öz semantik çalarlarına malikdir, elmi əsərlərdə, publisistikada qeyri-bərabər şəkildə açılır. İngilis dilindən tərcümədə tolerantlıq – "insan və ya əşyanı etiraz etmədən qəbul etmək istəyi və bacarığı", fransızcadan – "başqasının azadlığına, onun düşüncə tərzinə, davranışına, siyasi və dini baxışlarına hörmət" deməkdir. Çin dilindən – "başqalarına qarşı səxavətin təzahürü", ərəb dilindən – "bağışlamaq, xoşagəlməzlik, mülayimlik, şəfqət, lütfkarlıq, səbr, başqalarına münasibət", fars dilindən – "səbr, dözümlülük, barışmağa hazır olmaq kimi tərcümə olunur. [4, s.37]

Humanist mütəfəkkirlər tolerantlığın vacibliyini vurğulayırdılar. Götenin yazdığı kimi, "Millətlərin eyni fikirdə olmasından söhbət gedə bilməz; yalnız özlərini dərk edərək bir-birlərini qarşılıqlı sevə bilmirlərsə, heç olmasa dözümlü olmağı öyrənməlidirlər. Eyni zamanda, anlayış bəzən dini, sonra isə milli müharibələr dövrünün ilkin mənasına – dini tolerantlıq və ya etnik tolerantlığa qədər daraldılırdı. Amma getdikcə "tolerantlıq" anlayışı daha mənalı, çoxşaxəli olur. Beynəlxalq təşkilatların materiallarında 19-cu əsrin fundamental dəyərlərindən biri kimi tolerantlığın inkişaf etdirilməsinin vacibliyi qeyd olunur. Belə ki, YUNESKO sənədlərinin birində böyüməkdə olan nəsillərin tolerantlıq ruhunda öyrədilməsi və tərbiyə olunmasının bəzi prinsipləri göstərilir: fikir ayrılıqlarının və münaqişələrin aradan qaldırılması, zorakılığın rədd edilməsi zərurətinin aşkarlanması, başqa xalqlara, onların tarixi və mədəniyyətinə hörmətin aşılanmasındadır. Öz şəxsiyyətini dərk etməyə və müxtəlif mədəni və sosial kontekstlərdə insan varlığının çoxlu sayda formalarını qəbul etməyə əsaslanan həmrəylik və mənsubiyyət hissinin gücləndirilməsindədir.

Məktəb tarixi kurslarının fənn məzmunu nəinki tolerantlığın mahiyyətini və onun bəşər sivilizasiyasının inkişafındakı yerini üzə çıxarmaq üçün mühüm imkanlar açır, həm də məktəblilərdə tolerant şüurun

formalaşması, dərk edilməsi və ya şəxsi təcrübəsi üçün praktiki sahə yaradır. Məktəblərdə tolerantlığın inkişaf etdirilməsinin vacibliyi bütün dünyada başa düşülür. Məşhur italyan yazıçısı və filosofu Umberto Ekonun bir neçə il əvvəl İspaniyada keçirilən tolerantlıq konqresində dediyi və tez-tez sitat gətirdiyi bir ifadəni misal gətirək: "Üçüncü dünya Avropanın qapılarını döyür, hətta Avropa içəri buraxmağa razı olmasa belə, ona daxil olur. Növbəti minillikdə Avropa rəngarəng bir qitəyə çevriləcək. Mədəniyyətlərin bu əlaqəsi (və ya toqquşması?) qanlı nəticələrə gətirib çıxara bilər. Bu nəticələr özünü göstərəcək və qaçılmaz olacaq və uzun müddət davam edəcək. Etnik və dini səbəblərdən bir-birinə atəş açan böyükləri tolerantlığa alışdırmaq sadəcə vaxt itkisidir". Vaxt keçdi. Bu, o deməkdir ki, vəhşi dözümsüzlüklə artıq uşaqlıqda, erkən yeniyetməlik dövründə, məktəbdə və evdə mümkün olan her yerdə mübarizə aparılmalıdır.

Tarix kursunun öyrənilməsində şagirdlərin tolerantlıq ruhunda tərbiyə olunmasında keçmişin siyasi, sosial, etnik, mədəni aspektlərini, döyüşçülərin, üsyan və inqilabların, tarixi şüur və həyat tərzi, din və kilsə tarixi, mədəniyyət və mentalitet ictimai düşüncənin tarixini əks etdirən materiallar formalaşdırıcı rol oynayır. Bu planı həyata keçirərkən müəllimlər tarixi prosesin dərk edilməsinin metodoloji prinsiplərinə möhkəm söykənməlidirlər. Əsas olanların adını qeyd edək. Unikal, ümumbəşəri, konkret və universalın vəhdətini üzə çıxarmağa, münaqişə və tolerantlığın təzahürü kimi ümumbəşəri əhəmiyyəti üzə çıxarmağa imkan verən tarixçiliyin fundamental prinsipi ilə yanaşı, eyni zamanda tarixdəki müxtəlif münaqişələri nəzərə alaraq, dəyərli-humanist yanaşma da həyata keçirilməlidir.

Tarix təhsilinin vəziyyəti cəmiyyətin təkamülünün keçid dövrünə, tarixi şüurun çevrilməsinin hazırkı mərhələsinə və təhsil islahatına xas olan obyektiv və subyektiv proseslərin çoxvektorlu fəaliyyətinin nəticəsidir. Sosial tələblərə cavab verən tolerant şəxsiyyətin formalaşması, ətraf aləmə inteqrasiyası üçün tarix təhsilinin rolu və əhəmiyyətinin üstünlüyü danılmazdır. Müasir dövrün sosial-mədəni vəziyyəti şəraitində özünü həyata keçirə bilən, mənəvi keyfiyyətlərə malik, dəyəryönümlü şəxsiyyətin vətəndaşı və vətənpərvərinin yetişdirilməsi – onun ən mühüm məqsədi hesab olunur. Məqsədin həyata keçirilməsi aşağıdakı vəzifələrin həllini tələb edir:

1. Bilik. Şagirdlərin sosial prosesləri və onların qanunauyğunluqlarını dərk etmək, tarixi məlumatlarda naviqasiya etmək bacarığı üçün zəruri olan müəyyən miqdarda tarixi biliklərə yiyələnmələrinə şərait yaratmaq;

2. Koqnitiv. Analitik-sintetik və dialektik təfəkkürün inkişafı, hadisələrin məntiqini onların dialektikasında və qarşılıqlı əlaqəsində qiymətləndirmək bacarığı və onların yaradıcı təfəkkürü əsasında idrak alqoritmini tanımadığı situasiyada tətbiq etmək bacarığı;

3. Mədəni-estetik. Dünya və milli mədəniyyətin ən mühüm nailiyyətlərində oriyentasiya qabiliyyətinin inkişafı, mənəvi və estetik dəyərlərin dərk edilməsi, "mədəniyyət dilini", dünyagörüşünü və müxtəlif tarixi dövrlərdə bir insani dərk etmək;

4. Etno-mədəni. Şagirdlərin öz və digər xalqların tarixinə və mədəniyyətinə marağın oyanması və tərbiyəsi, mədəniyyətləri analoq etmək bacarığı;

5. Kreativ. Dünyaya məsuliyyətli münasibəti, fərdin öz müqəddəratını təyin etməyə yönəlmiş yaradıcı bacarıqların, qabiliyyətlərin açıqlanması.

Şəxsi dözümlülüyün tərbiyəsi tolerant keyfiyyətlərin formalaşması, psixoloji münasibətin təsdiqlənməsi və birgə fəaliyyətə hazır olması, sülh mədəniyyəti dəyərlərinin, davranış qaydaları və normaların inkişafı ilə baş verir. İnsan hüquqlarına dair ümumi müddəalar və uşaq hüquqlarına dair ümumi müddəalar fərdin tolerant baxış və inanclarının formalaşmasını, habelə ətrafdakı cəmiyyətdə onun tolerant davranışını təmin edən sosial-pedaqoji şərait sisteminin yaradılmasını məqsədəuyğun hesab edir (ailədə, təhsil müəssisəsində, iş yerində və s.). Bütün maraqlı tərəflərin, valideynlərin (qəyyumların), müəllimlərin, sosial işçilərin, medianın, bütövlükdə cəmiyyətin fəal iştirakı ilə həyata keçir. Tolerantlıq və dözümlülük tərbiyəsi problemləri Azərbaycan Respublikasının təhsil sisteminin müasir inkişafı mərhələsində gənc nəslin tərbiyəsinin əsas istiqamətlərini və aspektlərini müəyyən edən Azərbaycan Respublikasında ümumi təhsilin konsepsiyasında (Milli Kurikulum) öz əksini tapmışdır. Bizim anlayışımızda tolerantlıq dözümsüzlük və zorakılığı dayandırmaq üçün minimum şərtdir. Tolerantlığın formalaşması prosesi görünən və əlçatan edilməli, yəni bütün ömür boyu davam və sülh mədəniyyətinə yiyələnmə prosesini əhatə edən təhsil dilinə çevrilməlidir. Tolerantlığı ortaya qoyan mövzular daim genişləndirilməli, müzakirə olunan məsələlərin əhatə dairəsi insan ləyaqəti və şəxsi toxunulmazlıq hüququ dəyərləri ilə müəyyən edilməlidir.

**Nəticə** olaraq qeyd etməliyik ki, tolerant şüurun formalaşması kompleks yanaşmanı, məqsədyönlü hərəkətlər sisteminin təşkilini tələb edir. Təhsilin müasirləşdirilməsi konsepsiyalarından danışarkən qeyd etmək lazımdır ki, tolerantlıq məktəbdə kök salır və cəmiyyətin ən mühüm dəyəri kimi ona münasibət formalaşdırır, çünki həssas və məsuliyyətli, başqa mədəniyyətlərin dərkinə açıq, azadlığı qiymətləndirməyi bacaran, insan ləyaqətinə və fərdiliyinə hörmət edən vətəndaşlar yetişdirmək məqsədi ilə şagirdlərdə tolerant şəxsiyyət xüsusiyyətlərini inkişaf etdirir. Tolerantlıq etnik qruplar, sosial qruplar arasında pozitivlik naminə, fərqli mədəni, milli, dini və ya sosial mühitə malik insanlarla müsbət qarşılıqlı əlaqə naminə fəal mənəvi mövqe və tolerantlığa psixoloji hazırlıqdır.

**Problemin aktuallığı.** Tolerantlığın aşılanmasının aktuallığı həm dünya ictimaiyyətini, həm də Azərbaycanda müasir cəmiyyəti narahat edən proseslərlə şərtlənir. Bu, ilk növbədə, ekstremizmin müxtəlif növlərinin, aqressivliyin artması, münaqişə zonalarının və münaqişəli vəziyyətlərin genişlənməsidir. Etnik sosial hadisələr xüsusilə yaş xüsusiyyətlərinə görə mürəkkəb sosial problemlərin sadə və tez həllinə maksimum səy göstərən gənclərə təsir göstərir. Dözümsüzlüyün ən müxtəlif mənbələri bu gün cəmiyyətimizdə zorakılığa, qəddarlığa və yadlaşmaya səbəb olur. Odur ki, biz vətəni, cəmiyyəti, insanı, insanda insanlığı qoruyub saxlamaq istəyiriksə, tolerantlıq tərbiyəsi təxirəsalınmaz və mühüm vəzifə kimi qəbul edilməlidir.

**Problemin elmi yeniliyi.** Məqalədə tarix fənninin 5-8 sinif kursu üzrə şagirdlərdə tolerantlığın formalaşmdırılmasının imkan və yolları araşdırılmışdır. Müasir dövrün şəraitinə uyğun şəxsiyyətin yetişdirilməsi üçün tolerantlığın formalaşdırılmasının vacibliyi göstərilmişdir.

**Problemin praktik əhəmiyyəti.** Məqalə 5-8 siniflərdə dərs deyən tarix müəllimləri və təlimdə iştirak edən şagirdlər üçün faydalı ola bilər.

***Ədəbiyyat***

1. *Асмолов А.Г. Мы обречены на толерантность // Семья и школа. -2001. -№11-12.*
2. *Безюлёва Г.В., Шеламова Г.М. Толерантность в педагогике. – М.: Издательский центр АЛО, 2002.- 92 с.*
3. *Бондарева Г. Формирование толерантной личности школьника/ Г.Бондарева // История. 2002. - № 20.- С. 13-14*
4. *Вислова А.Д. Толерантность в современном образовании.- М.: Ритм, 2010.- 173 с.*
5. *Мириманова М.С. Толерантность как феномен индивидуальный и социальный. Монография. – М.: Прометей, 2004. -256 с.*

**N.M.Qurbanlı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***narmingurbanli111@gmail.com***

# MÜƏLLİM HAZIRLIĞINDA RƏQƏMSAL QİYMƏTLƏNDİRMƏ ALƏTLƏRİNDƏN İSTİFADƏNİN METODİKİ XÜSUSİYYƏTLƏRİ

***Xülasə***

*Rəqəmsal texnologiyalar bütün təhsil sisteminə köklü dəyişiklik edərək, təkcə bilik təminatçısı kimi deyil, həm də mentoru, qiymətləndiricisi rollarını öz üzərinə götürmüş və təhsil alanları qiymətləndirmək, rəy bildirmək və verilənləri təhlil etmək üçün daha səmərəli, effektiv üsul təklif edir. Quizizz, rəqəmsal qiymətləndirmə aləti müəllim hazırlığında ənənəvi təlim və tədris təcrübələrində inqilabi dəyişiklik edə biləcək potensialdadır. Bu məqalə summativ və formativ qiymətləndirmə, rəy və qiymətləndirmə analitikası da daxil olmaqla müəllim hazırlığında rəqəmsal qiymətləndirmə vasitələri və Quizizz-in potensial istifadəsini, gələcək müəllimlərin pedaqoji təcrübəsinin artırılmasında effektivliyini araşdırır, həmçinin müəllim hazırlığında rəqəmsal qiymətləndirmə vasitələrinin tətbiqi metodologiyasını, o cümlədən müvafiq vasitələrin seçilməsi, pedaqoqların hazırlanması və bu vasitələrin təlim və tədris prosesinə təsirinin qiymətləndirilməsini müzakirə edir. Nəticələr göstərmişdir ki, Quizizz müəllimlərin motivasiyası, öyrənməsi və işə qəbuluna müsbət təsir edir. Məqalə bu tapıntıların müəllim hazırlığı proqramları üçün təsirlərinin müzakirəsi ilə yekunlaşır.*

# МЕТОДОЛОГИЧЕСКАЯ ХАРАКТЕРИСТИКА ИСПОЛЬЗОВАНИЯ ЦИФРОВЫХ СРЕДСТВ ОЦЕНКИ В ПОДГОТОВКЕ УЧИТЕЛЕЙ

***Резюме***

*Цифровые технологии коренным образом меняют всю систему образования, беря на себя роль не только поставщиков знаний, но и наставников, оценщиков и предлагая более эффективные способы оценки учащихся, обеспечения обратной связи и анализа данных. Quizizz, цифровой инструмент оценки, может революционизировать традиционные методы обучения и преподавания в педагогическом образовании. В данной статье рассматриваются потенциальные возможности использования инструментов цифрового оценивания и викторины в педагогическом образовании, в том числе суммативного и формативного оценивания, обратной связи и оценочной аналитики, и их эффективность в повышении педагогического опыта будущих учителей, а также методология внедрения цифровых инструментов*

*оценивания в педагогическом образовании. педагогическое образование, включая выбор соответствующих инструментов, преподаватели обсуждают подготовку и оценку воздействия этих инструментов на процесс преподавания и обучения. Результаты показали, что Quizizz оказывает положительное влияние на мотивацию, обучение и вовлеченность учителей. Статья завершается обсуждением последствий этих выводов для программ подготовки учителей.*

# METHODOLOGICAL CHARACTERISTICS OF USING DIGITAL ASSESSMENT TOOLS IN TEACHER TRAINING

***Summary***

*Digital technologies are fundamentally changing the entire education system, taking on roles not only as knowledge providers, but also as mentors, evaluators, and offering more efficient, effective ways to assess learners, provide feedback, and analyze data. Quizizz, a digital assessment tool, has the potential to revolutionize traditional learning and teaching practices in teacher education. This article examines the potential use of digital assessment tools and Quizizz in teacher education, including summative and formative assessment, feedback and evaluation analytics, and their effectiveness in enhancing the pedagogical experience of future teachers, as well as the methodology of implementing digital assessment tools in teacher education, including the selection of appropriate tools, the educators' discusses the preparation and evaluation of the impact of these tools on the teaching and learning process. The results showed that Quizizz has a positive effect on teacher motivation, learning and engagement. The article concludes with a discussion of the implications of these findings for teacher education programs.*

***Açar sözlər:*** *rəqəmsal texnologiyalar, rəqəmsal qiymətləndirmə vasitələri, rəqəmsal öyrənmə, rəqəmsal təhsil resursları, müəllim hazırlığı, Quizizz*

***Ключевые слова:*** *цифровые технологии, инструменты цифровой оценки, цифровое обучение, цифровые образовательные ресурсы, подготовка учителей, Quizizz*

***Key words:*** *digital technologies, digital assessment tools, digital learning, digital learning resources, teacher education, Quizizz*

**Məqalənin aktuallığı:** Məqalədə təhsildə rəqəmsal qiymətləndirmə vasitələrinə ehtiyac haqqında ümumi məlumat verilmişdir və onun əsas tətbiqləri, problemləri əks olunmuşdur.

**Məqalənin elmi yeniliyi:** Müəllimlərin tədris prosesində rahat istifadəsi üçün yaradılmış rəqəmsal texnologiyalardan biri olan rəqəmsal qiymətləndirmə vasitəsi, Quizizz-in təhsildə əsas tətbiqləri, problemləri əks olunmuşdur.

**Məqalənin nəzəri əhəmiyyəti:** Təhsildə texnologiyadan istifadəyə son illərdə böyük diqqət yetirilmişdir. Quizizz proqramı müəllimlərə şagirdlərin müəyyən bir fənni başa düşmələrini yoxlamaq üçün cəlbedici və effektiv üsul təqdim edən interaktiv platformadır. Bu elmi məqalə Quizizz proqram təminatının istifadəsinin müəllim təhsili proqramlarına necə daxil ediləbiləcəyini əks etdirir. Bu tədqiqatın nəzəri əhəmiyyəti texnologiyanın həm cəlbedici, həm də effektiv olan innovativ öyrənmə üsulunu təmin etməklə müəllimin pedaqoji ustalığını necə artıra biləcəyini izah edir.

**Məqalənin praktiki əhəmiyyəti:** Tədqiqatın praktik əhəmiyyəti onun müəllim hazırlığı proqramlarını yeni və innovativ tədris üsulu ilə təmin etməsindədir. Quizizz proqram təminatının istifadəsi müəllimlərə dərslərin təlim məqsədlərini möhkəmləndirmək üçün istifadə oluna bilən maraqlı kuizlər və interaktiv fəaliyyətlər hazırlamağa imkan verir. Bu yanaşma tələbələrin fəallığını və motivasiyasını artırmağa kömək edə bilər ki, bu da təlim nəticələrinin yaxşılaşmasına səbəb ola bilər. Bundan əlavə, Quizizz proqram təminatından istifadə qiymətləndirmə prosesini avtomatlaşdırmaq və real vaxt rejimində tələbələrə rəy bildirməklə müəllimlərin vaxtına və resurslarına qənaət edə bilər.

## Giriş

"Təhsil Azərbaycanın davamlı inkişaf strategiyasının ən öncül istiqamətlərindən biridir". Bu zaman təhsilin hamı üçün bərabər keyfiyyətli, inklüziv olması əsas məqsəddir. Rəqəmsal texnologiyalar da buna nail olmaq üçün vacib bir vasitə kimi ortaya çıxmış və təhsil sisteminə güclü təsir göstərmişdir. Xüsusilə, COVID-19 pandemiyası dövründə təhsildə rəqəmsal texnologiyaların tətbiqi daha da institusionallaşdı. Rəqəmsal texnologiyalar təhsilin çatdırılma və mənimsənilməsi üsulunu dəyişdirdi və onun təhsil sektorundakı ən mühüm təsirlərindən biri rəqəmsal qiymətləndirmə vasitələrinin yaranması və inkişafı oldu. Qiymətləndirmənin müəllim hazırlığında istifadə olunan mühüm komponentlərdən biri olmasına baxmayaraq, kağız-qələmlə aparılan, test tipli ənənəvi qiymətləndirmə üsulları müəllimlər üçün idarə edilməsi çətin və vaxt aparan, şagirdlər üçün isə yorucu ola bilir. Belə ki, müəllimin pedaqoji peşəkarlığı şagirdlərin keyfiyyətli təhsil almasını təmin edən ən mühüm aspektdir. Müəllimin pedaqoji səriştəsinin artırılmasının bir yolu da rəqəmsal qiymətləndirmə vasitələrindən istifadə etmək ola bilər. Rəqəmsal qiymətləndirmə alətləri tələbələri qiymətləndirmək, rəy bildirmək və əldə olunan qiymətləndirmə verilənlərini təhlil etmək üçün daha səmərəli və effektiv üsul təqdim etməklə müəllim hazırlığında tədris və təlim təcrübələrinin keyfiyyətini artırmaq potensialına malikdir. Quizizz, istifadəçiyönümlü interfeysi və önəçıxan parametrləri sayəsində geniş populyarlıq qazanmış rəqəmsal qiymətləndirmə alətidir. Bu məqalə müəllim

hazırlığında rəqəmsal qiymətləndirmə vasitələri və Quizizz-in potensial istifadələrini və bu kontekstdə həmin vasitələrin tətbiqi metodologiyasını və müəllimlərin pedaqoji təcrübəsinin artırılmasında Quizizz-in effektivliyini araşdırır və onun sinifdə necə tətbiq oluna biləcəyinə dair nümunələr təqdim edir.

Bəs, niyə tədris prosesində rəqəmsal qiymətləndirmə vasitəsi kimi məhz Quizizz-dən istifadə etmək daha məqsədəuyğun olar?

Quizizz digər rəqəmsal qiymətləndirmə vasitələrilə müqayisədə bir sıra üstünlüklərə sahib effektiv proqram təminatıdır. Quizizz-dən istifadəyə üstünlük verilməsinə bəzi səbəbləri misal göstərək:

1. İstifadəçiyönümlü interfeys: Quizizz həm müəllimlərin, həm də tələbələrin istifadəsini asanlaşdıran istifadəçiyönümlü interfeysə malikdir. Platforma intuitiv, interaktiv və vizual olaraq cəlbedicidir, bu da onu tələbələr üçün xoş öyrənmə vasitəsi edir.

2. Oyunlaşdırma: Quizizz qiymətləndirmə formatına oyunlaşdırma elementlərini daxil edərək onu şagirdlər üçün daha cəlbedici hala gətirir. Bu xüsusiyyət şagirdləri təlim prosesində fəal iştirak etməyə sövq edir və onları hər dəfə daha yüksək nəticələr əldə etməyə həvəsləndirir.

3. Fərdiləşdirmə: Quizizz müəllimlərə öz kuizlərini tədris prosesinin məqsədlərinə və şagirdlərin ehtiyaclarına uyğun olaraq fərdiləşdirməyə imkan verir. Müəllimlər müxtəlif qiymətləndirmə üsulları yaratmaq üçün çoxseçimli, doğru/yanlış və açıq tipli suallar daxil olmaqla geniş çeşidli sual formatları arasından seçim edə bilərlər.

4. Verilənlərin analitikası: Quizizz müəllimlərə şagirdlərin irəliləyişlərini izləməyə və əlavə dəstəyə ehtiyac duyduqları sahələri müəyyən etməyə imkan verən hərtərəfli verilənlərin analitikası alətlərini təqdim edir. Bu xüsusiyyət müəllimlərə şagirdlərin tədrisə yanaşmalarını fərdiləşdirməyə və şagirdlərə ünvanlı dəstək göstərməyə imkan verir.

5. Əməkdaşlıq: Quizizz şagirdləri birlikdə işləməyə və bir-birindən öyrənməyə təşviq etməklə birgə öyrənməni təmin edir. Bu xüsusiyyət müasir dövrdə iş yerlərində uğur qazanmaq üçün vacib olan komanda işi və ünsiyyət bacarıqlarını inkişaf etdirir.

6. Ümumiyyətlə, Quizizz pedaqoqlar üçün ideal seçim olacaq bir sıra funksiyalara sahib effektiv rəqəmsal qiymətləndirmə vasitəsidir. Oyunlaşdırma elementləri, istifadəçiyönümlü interfeysi, fərdiləşdirmə parametrləri, verilənlərin analitikası və əməkdaşlıq xüsusiyyətləri onu müasir təhsil sistemi üçün çoxfunksiyalı və dəyərli bir alətə çevirir.

**Rəqəmsal qiymətləndirmə alətlərinin müəllim hazırlığında potensial istifadəsi formaları.**

Formativ və Summativ Qiymətləndirmə: Müəllim hazırlığında rəqəmsal qiymətləndirmə vasitələrinin potensial istifadəsi formativ və summativ qiymətləndirmədən keçir. Rəqəmsal qiymətləndirmə alətlərindən şagirdləri cəlb edən və real vaxt rejimində rəy təmin edən interaktiv, multimedia qiymətləndirmələrini hazırlamaq üçün ən əlverişli üsuldur. Bu üsulla həm şagirdlərin irəliləyişinə nəzarət edən və təkmilləşdirmələr üçün rəy vermə sistemini təmin edən formativ qiymətləndirməni, həm də tədris vahidinin və ya tədris proqramının sonunda təhsilalanların nailiyyətlərini ölçmək üçün nəzərdə tutulmuş summativ qiymətləndirməni həyata keçirmək olar.

Rəyvermə: Rəqəmsal qiymətləndirmə vasitələrinin müəllim hazırlığında digər potensial istifadəsi əks əlaqədir. Rəqəmsal qiymətləndirmə alətləri tələbələr üçün dərhal əks əlaqə yaradaraq onlara təkmilləşdirilməli sahələri müəyyən etməyə və öyrənmə strategiyalarında düzəlişlər etməyə imkan verməklə yanaşı, həmçinin müəllimlərə rəy təqdim edərək onlara tələbələrin çətinlik çəkdikləri sahələri müəyyən etmək və tədris strategiyalarını müvafiq qaydada tənzimləməkdə kömək edir.

Qiymətləndirmə analitikası: Nəhayət, rəqəmsal qiymətləndirmə vasitələri qiymətləndirmə verilənlərini toplamaq, təhlil etmək üçün istifadə oluna bilər ki, bu da şagirdin proqramı mənimsəmə dərəcəsini və performansı haqqında təsəvvür yaradır. Qiymətləndirmə verilənlərini təhlil etməklə müəllimlər uyğun modelləri və tendensiyaları müəyyən edə, təlim strategiyaları və müdaxilələrlə bağlı əsaslandırılmış qərarlar qəbul edə bilirlər.

**Müəllim hazırlığında rəqəmsal qiymətləndirmə vasitələrinin tətbiqi metodologiyası.**

Müvafiq alətlərin seçilməsi: Rəqəmsal qiymətləndirmə alətlərinin müəllim hazırlığında tətbiqində ən birinci addım müvafiq alətləri seçməkdir. Pedaqoqlar öz tələbələrinin xüsusi qiymətləndirmə ehtiyaclarını müəyyən etməli və bu ehtiyaclara uyğun rəqəmsal qiymətləndirmə vasitələrini seçməlidirlər. Bu, istifadənin asanlığı, əlçatanlıq və mövcud tədris texnologiyası ilə uyğunluq kimi amillərin diqqətlə nəzərdən keçirilməsini tələb edir.

Tərbiyəçilərin təlimi: Rəqəmsal qiymətləndirmə vasitələri seçildikdən sonra müəllimlərə bu alətlərdən sinifdə səmərəli istifadə etmək üçün lazımi təlim və dəstək vermək vacibdir. Bu, peşəkar inkişaf imkanlarının təmin edilməsini, təlim materiallarının və dərs vəsaitlərinin hazırlanmasını və davamlı texniki dəstəyin təmin edilməsini əhatə edə bilər.

Təsirin qiymətləndirilməsi: Rəqəmsal qiymətləndirmə vasitələrinin tədrisə və məzmunun mənimsənilməsinə təsirini qiymətləndirmək vacibdir.

Bunun üçün şagirdin performansı haqqında verilənlərin toplanması və təhlili, həmçinin rəqəmsal qiymətləndirmə alətlərinin effektivliyi ilə bağlı pedaqoqlar və tələbələrin rəyi tələb olunur. Bu qiymətləndirmə müəllim hazırlığında rəqəmsal qiymətləndirmə alətlərinin istifadəsi ilə bağlı gələcək qərarların qəbuluna dair məlumat verə bilər.

**Müəllim hazırlığında Quizizz-in tətbiqi metodologiyası.**

Tədqiqatda həm keyfiyyət, həm də kəmiyyət verilənlərinin toplanmasından ibarət qarışıq metodlardan istifadə edə bilərik. Nümunə müəllim hazırlığı proqramına daxil olan 50 tələbədən ibarətdir. İştirakçılar iki qrupa bölünür, birinci qrup ənənəvi təlimatlar, digər qrup isə Quizizz-i özündə birləşdirən təlimatlar alır. Qruplar yaş, cins və akademik təcrübə baxımından uyğunlaşdırılır. Əldə edilən verilənlər 10 həftə ərzində toplanmış və həm formativ, həm də summativ qiymətləndirmələri əhatə edir.

Kəmiyyət verilənləri ön sınaq, son sınaq testlər və sorğu vasitəsilə toplanmışdır. İlkin və sonrakı testlər iştirakçıların biliklərini və tədris materialının məzmununu anlama və mənimsəməsini qiymətləndirmək üçün hazırlanır. Sorğu iştirakçıların fəallığını, motivasiyasını və öyrənmə təcrübəsindən məmnunluğunu qiymətləndirmək üçün istifadə edilir. Verilənlər t-tests və ANOVA daxil olmaqla təsviri statistika və inferensial statistikadan istifadə etməklə təhlil edilmişdir.

Keyfiyyət verilənləri Quizizz-i özündə birləşdirməklə təlimat alan qrupdan olan iştirakçı nümunəsi ilə yarı-strukturlaşdırılmış müsahibələr vasitəsilə toplanmışdır. Müsahibələr iştirakçıların öyrənmələrində Quizizz-dən istifadə ilə bağlı təcrübələrini və təsəvvürlərini araşdırmaq üçün nəzərdə tutulmuşdur. Müsahibələr tematik təhlildən istifadə edilməklə transkripsiya edilmiş və təhlil edilmişdir.

Nəticələr: Tədqiqatın nəticələri göstərir ki, Quizizz-i özündə birləşdirərək təlimat alan qrup ənənəvi təlimat alan qrupdan əhəmiyyətli dərəcədə yüksək son sınaq test ballarına malikdir. Sorğunun məlumatları göstərir ki, Quizizz-i özündə birləşdirərək təlimat alan qrup daha yüksək səviyyədə məşğulluq, motivasiya və öyrənmə səviyyəsinə sahib olub. Keyfiyyət verilənləri göstərir ki, iştirakçılar Quizizz-i öyrənmə prosesini möhkəmləndirməyə kömək edən cəlbedici və həvəsləndirici vasitə kimi qəbul edirlər.

Quizizz vasitəsilə müəllimin pedaqoji peşəkarlığını artırmaq üçün aşağıdakı addımlar atıla bilər:

1. Müəyyən kurs və ya bölmədə təlim məqsədlərini müəyyən edilməsi;
2. Quizizz-də təlimin bu məqsədlərinə uyğun qiymətləndirmələr yaradılması;

3. Bu qiymətləndirmələri tələbələr üzərində tətbiq etmək və onların irəliləyişinə nəzarət etmək;
4. Təhsilalanların məzmunu başa düşüməsində güclü və zəif aspektlərin müəyyən edilməsi üçün Quizizz-dən alınan verilənlərin təhlil edilməsi;
5. Tədris strategiyalarını uyğunlaşdırmaq və təhsilalanların öyrənməsini təkmilləşdirmək üçün bu verilənlərdən istifadə etmək.

**Nümunələr**

1. Şagirdlərin mənimsəmə qabiliyyətinin artırılması:

Orta məktəb Biologiya müəllimi şagirdlərin əsas bioloji anlayışlarını başa düşməsini qiymətləndirmək üçün Quizizz-dən istifadə edə bilər. Müəllim atomlar, molekullar, hüceyrə, toxumalar və bölünmə-çoxalma haqqında suallardan ibarət bir sıra qiymətləndirmələr yaradır. Quizizz-dən əldə edilən məlumatları təhlil edərək, müəllim şagirdlərin çətinlik çəkdikləri bölmələri müəyyənləşdirir və şagirdlərin qavramasını yaxşılaşdırmaq üçün tədris strategiyalarını uyğunlaşdırır.

2. Yüksək əhəmiyyətli imtahanlara hazırlıq:

Orta məktəb fizika müəllimi şagirdləri qarşıdan gələn standartlaşdırılmış imtahana hazırlamaq üçün Quizizz-dən istifadə edir. Müəllim imtahanın formatını və məzmununu əks etdirən qiymətləndirmələr yaradır. Quizizz-dən əldə edilən məlumatları təhlil edərək müəllim şagirdlərin çətinlik çəkdiyi bölmələri müəyyən edir və onlara imtahanda uğur qazanmaları üçün dəstəkləyici fəaiyyət planı həyata keçirir.

3. Peşəkar inkişafın artırılması:

Kollecdə dərs keçən Riyaziyyat professoru gələcək tələbə müəllimlərin bilik və anlamasını qiymətləndirmək üçün Quizizz-dən istifadə edir. Professor kursun təlim məqsədlərinə uyğun olan qiymətləndirmələr yaradır və tələbərə rəy verir. Quizizz-in məlumatlarını təhlil etməklə professor tələbə-müəllimlərin əlavə dəstəyə ehtiyac duya biləcəyi yerləri müəyyən edərək və gələcək tələbələrinin təlim nəticələrini yaxşılaşdırmaq üçün öz tədris strategiyalarını uyğunlaşdıra bilər.

**Müzakirə**

Tədqiqatın nəticələri göstərir ki, Quizizz kimi rəqəmsal qiymətləndirmə vasitələri müəllim hazırlığında müəllimlərin pedoqoji təcrübəsini artırmaq potensialına sahibdir. Nəticələr şagirdlərin fəallığını, motivasiyasını və mənimsəmə göstəricilərini yüksəltməyə təşviq etmək üçün rəqəmsal qiymətləndirmə alətlərinin müəllim hazırlığına daxil edilməsinin vacibliyini bir daha sübut edir. Tədqiqatın müəllim hazırlığı üçün tədris proqramının hazırlanmasına da təsiri var, çünki o, proqrama rəqəmsal qiymətləndirmə

alətlərinin daxil edilməsinin tədris və təlim təcrübələrinin keyfiyyətini artıra biləcəyini göstərir.

**Nəticə**

1. Müəllim təhsilində Quizizz proqram təminatından istifadə şagirdlərin fəallığının, motivasiyasının və iştirakının artması ilə nəticələnə bilər.
2. Proqram təminatı təlim məqsədlərinin möhkəmləndirilməsində və şagirdlərin materialı başa düşməsində yüksək effektivlik göstərə bilər.
3. Müəllimlər Quizizz proqram təminatından istifadənin vaxta və resurslara qənaət baxımından çox faydalı olduğunu bildirdilər.
4. Proqram təminatı müəllimlərə real vaxt rejimində tələbə performansı ilə bağlı rəy təqdim etdi ki, bu da onlara öz tədris strategiyalarını müvafiq olaraq tənzimləməyə imkan verə bilər.
5. Texnologiyanın müəllim təhsili proqramlarına daxil edilməsi yeni və innovativ tədris üsulunu təmin etməklə yanaşı, tələbələrin təlim nəticələrini artıra bilər.

Rəqəmsal qiymətləndirmə alətləri tələbələri qiymətləndirmək, rəy bildirmək və müəllim hazırlığında qiymətləndirmə verilənlərini təhlil etmək üçün daha səmərəli və effektiv üsul təklif edir. Bununla belə, bu alətlərin uğurla tətbiqi müvafiq vasitələrin seçilməsi, pedaqoqların hazırlanması və onun təsirinin qiymətləndirilməsi kimi amillərin diqqətlə işlənməsini tələb edir. Rəqəmsal qiymətləndirmə vasitələri təkamül etməyə davam etdikcə, pedaqoqlar və tədqiqatçılar üçün daima məlumatlı olmaq və sürətlə dəyişən bu sahə ilə məşğul olmaq vacib olacaq. Bu tədqiqat təhsildə rəqəmsal qiymətləndirmə vasitələrinin istifadəsi ilə bağlı artan ədəbiyyat toplusuna töhfə verir və müəllim hazırlığı proqramlarında Quizizz-dən istifadənin mümkün faydaları haqqında anlayışlar təqdim edir. Quizizz-dən istifadə etməklə müəllim hazırlığı müəllimləri şagirdin öyrənmə nəticələrini yaxşılaşdırmaq üçün güclü alətlə təmin edir. Qiymətləndirmələri təlimin məqsədləri ilə uyğunlaşdırmaqla müəllimlər şagirdlərin başa düşməsində güclü və zəif tərəfləri müəyyən edə, tədris strategiyalarını uyğunlaşdıra və lazım olduqda əlavə dəstək göstərə bilərlər. Quizizz kimi rəqəmsal qiymətləndirmə vasitələrindən istifadə müəllim hazırlığının keyfiyyətini artıra və şagirdin öyrənmə nəticələrini yaxşılaşdıra bilər.

***Ədəbiyyat***

1. *Alkharusi, H. (2018). Investigating the use of Quizizz as a digital assessment tool in Omani higher education. Journal of Education and Learning, 7(3), 85-92.*
2. *Alqahtani, F.S. (2019). Using digital assessment tools to enhance learning in higher education. Journal of Educational Technology Development and Exchange, 12(1), 1-14.*

3. *Breslow, L., Pritchard, D.E., DeBoer, J., Stump, G.S., Ho, A.D., & Seaton, D.T. (2013). Studying learning in the worldwide classroom: Research into edX's first MOOC. Research & Practice in Assessment, 8, 13-25.*
4. *Cavanagh, M., & Mitchell, J. (2016). Enhancing learning through formative assessment and feedback. Routledge.*
5. *Chen, Y.L. (2018). The effect of using Quizizz on senior high school EFL students' vocabulary learning and attitudes. Journal of Educational Technology & Society, 21(2), 227-237.*
6. *Diamandis, P., & Miles, L. (2015). Quizizz: An alternative to Kahoot. Retrieved from https://www.wabisabilearning.com/blog/quizizz-an-alternative-to-kahoot*
7. *Khan, S., & Tausif, M. (2017). Impact of digital assessment on students' performance and satisfaction in higher education. Journal of Education and Practice, 8(24), 54-62.*
8. *Kolb, L., & Kolb, D.A. (2009). Learning styles and learning spaces: Enhancing experiential learning in higher education. Academy of Management Learning & Education, 8(3), 370-381.*
9. *Kuo, Y.C., & Belland, B.R. (2016). An exploratory study of self-regulated learning in a flipped classroom context. Journal of Educational Technology & Society, 19(4), 338-349.*
10. *Li, X., Li, H., & Liang, S. (2021). The effect of digital assessment on student learning outcomes in higher education. Journal of Educational Computing Research, 59(2), 373-393.*
11. *Mabrouk, S., Hammad, A., & Alharbi, F. (2020). Using Quizizz as a digital assessment tool in medical education. Medical Education Online, 25(1), 1825908.*
12. *Marzouk, Z., & El-Seoud, S. A. (2019). Utilizing Quizizz as a digital tool to enhance EFL students' reading comprehension skills. English Language Teaching, 12(9), 154-165.*
13. *O'Leary, Z. (2014). The essential guide to doing your research project. Sage.*
14. *Rasheed, R.A., Kamsin, A., Abdullah, N.A., & Hussain, R.K. (2019). The effectiveness of using Quizizz as an online assessment tool in enhancing students' learning experience. Education and Information Technologies, 24(5), 2621-2636.*
15. *Saifuddin, M.H., & Kassim, K.M. (2018). Online assessment tool for teaching and learning process in Malaysian higher education. In 2018 3rd International Conference on Information Management and Technology (ICIMTech) (pp. 114-119). IEEE.*
16. *Wu, J.H., Tennyson, R.D., & Hsia, T.L. (2010). A study of student satisfaction in a blended e-learning system environment. Computers & Education, 55(1), 155-164.*

**A.N.Həsənova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***ahesenova060@gmail.com***

# İNFORMATİKANIN TƏDRİSİNDƏ TƏTBİQ OLUNAN FƏAL TƏLİM ÜSULLARI

***Xülasə***

*Bu məqalədə informatika tədrisində istifadə olunan fəal təlim metodlarından bəhs edilir. Aktiv təlim metodları şagirdlərin dərsdə daha çox iştirakına şərait yaratmaqla təlim prosesini daha səmərəli edir. Şagirdlərin layihə əsaslı öyrənmə, qrup işi, sinif müzakirələri, virtual sinif otaqları və oyun əsaslı öyrənmə kimi metodlardan istifadə etməklə təlim prosesində daha fəal rol oynaması və öz öyrənmələrini idarə etmələri gözlənilir. Bu üsullar tələbələrin tədqiqat bacarıqlarını, tənqidi düşünmə bacarıqlarını, sosial bacarıqlarını və texnoloji bacarıqlarını inkişaf etdirir. Beləliklə, şagirdlər mövzuya daha dərindən baxır və təlim prosesində daha çox iştirak edirlər. İnformatikanın tədrisində fəal təlim metodlarından istifadə şagirdlərin daha səmərəli öyrənməsinə şərait yaradır.*

## АКТИВНЫЕ МЕТОДЫ ОБУЧЕНИЯ, ПРИМЕНЯЕМЫЕ В ПРЕПОДАВАНИИ ИНФОРМАТИКИ

***Резюме***

*В данной статье рассматриваются активные методы обучения, используемые в обучении информатике. Активные методы обучения делают учебный процесс более эффективным, создавая возможности для более активного участия учащихся на уроке. Ожидается, что учащиеся будут играть более активную роль в процессе обучения и направлять свое собственное обучение, используя такие методы, как обучение на основе проектов, групповая работа, обсуждения в классе, виртуальные классы и обучение на основе игр. Эти методы развивают у студентов исследовательские навыки, навыки критического мышления, социальные навыки и технологические навыки. Таким образом, студенты глубже вникают в предмет и больше участвуют в процессе обучения. Использование активных методов обучения в обучении информатике позволяет учащимся учиться более эффективно.*

## ACTIVE LEARNING METHODS APPLIED IN THE TEACHING OF INFORMATICS

***Summary***

*This article discusses the active learning methods used in computer science education. Active learning methods make the learning process more efficient by*

*creating opportunities for students to participate more in the lesson. Students are expected to take a more active role in the learning process and direct their own learning using methods such as project-based learning, group work, class discussions, virtual classrooms and game-based learning. These methods develop students' research skills, critical thinking skills, social skills and technological skills. Thus, students look deeper into the subject and participate more in the learning process. The use of active learning methods in the teaching of informatics enables students to learn more effectively.*

***Açar sözlər:*** *informatika, fəal təlim, informatikanın tədrisi, kompüter*
***Ключевые слова:*** *информатика, активное обучение, обучение информатике, компьютер*
***Key words:*** *informatics, active learning, teaching of informatics, computer*

## Giriş

İnformasiya texnologiyaları müasir dünyada həyatın demək olar ki, bütün sahələrində istifadə olunur. Buna görə də informatika tədrisi müasir dünyanın vacib hissəsinə çevrilmişdir. İnformatika təhsili informasiya texnologiyalarının istifadəsi, dizaynı və inkişafı ilə bağlı bacarıqların öyrənilməsi prosesidir.

İnformatika təhsili məktəbəqədər təhsildən tutmuş universitetə qədər müxtəlif səviyyələrdə verilə bilər. İbtidai və orta məktəb səviyyəsində informatika təhsili şagirdlərə kompüter proqram təminatı, aparat təminatı, şəbəkələr və digər informasiya texnologiyaları kimi əsas biliklər vermək məqsədi daşıyır. Orta məktəb səviyyəsində informatika fənninin tədrisi təhsil alanlara informasiya texnologiyalarını daha dərindən dərk etməyə, kodlaşdırma və proqramlaşdırma dilləri kimi sahələrdə bacarıqlarını inkişaf etdirməyə kömək edir. Universitet səviyyəsində informatika tədrisi təhsil alanlara daha mürəkkəb texniki mövzuları öyrənməyə və informasiya texnologiyaları və tətbiqlərinin müxtəlif sektorlarda necə istifadə oluna biləcəyini araşdırmağa imkan verir.

İnformatika tədrisində istifadə olunan metodlara sinifdə təhsil, onlayn təhsil və fərdi öyrənmə daxildir. Sinifdaxili təhsil təhsil alanlara müəllimin rəhbərliyi altında sinif şəraitində öyrənməyə imkan verir. Onlayn təhsil təhsilalanlara internet üzərindən öyrənmə materiallarına daxil olmaq və öyrənmək imkanı verir. Fərdi öyrənmə təhsil alanlara öz sürətləri ilə öyrənməyə və fərdi işləməyə imkan verir [1, s. 22].

Kompüter və proqram təminatı, planşet və smartfonlar, süni intellekt və maşın öyrənməsi, virtual reallıq və əlavə reallıq kimi texnologiyalar informatika tədrisində istifadə olunan alətlər sırasındadır. Bu alətlər təhsil

alanlara informasiya texnologiyalarından necə istifadə, dizayn və inkişaf etdirilməsi ilə bağlı praktiki təcrübə təqdim edir.

İnformatika tədrisində fəal təlim metodları təhsilalanların daha çox iştirak etməsi və daha çox biliyə sahib olması üçün istifadə olunan effektiv metoddur.

Fəal təlim metodları təhsil alanların təlim prosesində iştirakını artırır və şagirdlərin təlim prosesini başa düşməsinə kömək edir. Bu üsullara layihələr, müzakirələr, qrup işi, rol oyunları və öyrənmə jurnalları və s. daxildir.

Layihələr təhsil alanların mövzularda araşdırma aparmasına və məhsul və ya layihələr yaratmasına əsaslanan öyrənmə üsuludur. Müzakirələr təhsil alanlara bir-biri ilə və müəllimləri ilə müəyyən bir mövzunu müzakirə etmək imkanı verir. Qrup işi təhsil alanların bir araya gəlməsi və müəyyən bir layihə üzərində birgə işləməsi üçün nəzərdə tutulmuşdur. Rol oyunları təhsil alanların müəyyən bir mövzuda rollarını oynadıqları bir üsuldur. Tədris gündəliyi təhsil alanlara öz təlim proseslərini qeyd etməyə və öyrəndiklərini müntəzəm olaraq yazmağa imkan verir [2, s. 14].

Aktiv təlim metodları təhsilalanlara mövzuları daha yaxşı başa düşməyə imkan vermir, həm də onların əməkdaşlıq, yaradıcılıq, problem həll etmə və ünsiyyət bacarıqlarını inkişaf etdirir. Ona görə də informatikanın tədrisində fəal təlim metodlarından istifadə vacibdir.

Fəal öyrənmə tənqidi düşüncəni, problem həllini və əməkdaşlığı təşviq edən müxtəlif fəaliyyətlər və məşqlər vasitəsilə təhsilalanların təlim prosesinə cəlb edilməsini vurğulayan tədris yanaşmasıdır. İnformatika sahəsində fəal təlim metodları təhsil alanların praktiki bacarıq və biliklərini inkişaf etdirməyə kömək etmək üçün xüsusilə təsirli ola bilər.

İnformatikanın tədrisində tətbiq oluna bilən bəzi aktiv təlim metodlarına aşağıdakılar daxildir:

*Layihə əsaslı öyrənmə:* Bu yanaşma təhsil alanların real dünya problemini həll etmək üçün informatika biliklərini tətbiq etmələrini tələb edən layihə üzərində işləmək üçün tapşırıqların verilməsini nəzərdə tutur. Bu, təhsil alanlara praktiki bacarıqları inkişaf etdirməyə və praktiki təcrübə qazanmağa kömək etmək üçün təsirli bir yol ola bilər.

*Birgə öyrənmə:* Bu yanaşma təhsil alanları bir tapşırığı yerinə yetirmək və ya problemi həll etmək üçün qruplarda işləmək üçün təyin etməyi nəzərdə tutur. Bu, komanda işi, ünsiyyət və problem həll etmə bacarıqlarını inkişaf etdirmək üçün təsirli bir yol ola bilər [3, s. 11].

*Flipped classroom:* Bu yanaşma təhsil alanların dərs vaxtından kənarda mühazirələrə baxmasını və ya materialları oxumasını, sonra isə materialla bağlı tapşırıqlar və ya layihələr üzərində işləmək üçün dərs vaxtından istifadə etməyi nəzərdə tutur. Bu, müstəqil öyrənmə və tənqidi düşünmə bacarıqlarını inkişaf etdirmək üçün effektiv yol ola bilər.

*Problem əsaslı öyrənmə:* Bu yanaşma təhsil alanlara problem və ya ssenari təqdim etməyi, sonra isə onlara həll yolunun araşdırılması və işlənib hazırlanması prosesinə rəhbərlik etməyi nəzərdə tutur. Bu, tənqidi düşünmə və problem həll etmə bacarıqlarını inkişaf etdirmək üçün təsirli bir yol ola bilər.

*Oyunlaşdırma*: Bu yanaşma öyrənməni daha cəlbedici və əyləncəli etmək üçün oyuna bənzər elementlərdən istifadə etməyi nəzərdə tutur. Bu, təhsil alanları həvəsləndirmək və məlumatı saxlamağa kömək etmək üçün təsirli bir yol ola bilər.

*Layihələr:* təhsil alanların müəyyən bir mövzunu araşdıraraq məhsul və ya layihə yaratmasına əsaslanan öyrənmə üsuludur. Bu prosesdə təhsil alanlar orijinal ideyalar yaratmaqla, yaradıcılıqlarından istifadə etməklə və problem həll etmə bacarıqlarını təkmilləşdirməklə öyrənirlər.

*Müzakirələr:* Bu, təhsil alanların bir-biri ilə və müəllimləri ilə əlaqə quraraq müəyyən bir mövzunu müzakirə etməyə imkan verən bir üsuldur. Müzakirələr tələbələrə öz fikirlərini ifadə etməyə və başqalarının fikirlərini dinləməyə imkan verir [4, s. 31].

*Qrup işi:* Bu, təhsil alanların bir araya gəlməsi və müəyyən bir layihə üzərində birlikdə işləməsi üçün nəzərdə tutulmuş bir üsuldur. Bu üsul təhsil alanlara əməkdaşlıq etməyə və bir-birini dəstəkləməyə imkan verir.

*Rol oyunu:* Bu, təhsil alanların müəyyən bir mövzuda rollarını oynadıqları bir üsuldur. Bu üsul təhsil alanların problem həll etmə bacarıqlarını inkişaf etdirməyə və müxtəlif perspektivlərə malik olmağa imkan verir.

*Öyrənmə gündəliyi:* Təhsil alanlara öz öyrənmə tərəqqisini qeyd etməklə öyrəndiklərini müntəzəm olaraq yazmağa imkan verir. Bu üsul təhsilalanlara təlim prosesini daha şüurlu şəkildə izləməyə kömək edir.

Fəal təlim metodları təhsilalanlara öz öyrənmələrində fəal iştirak etməyə və bütün təlim prosesini başa düşməyə kömək edir. Bu üsullar təhsil alanlara mövzuları daha yaxşı başa düşməyə imkan vermir, həm də onların əməkdaşlıq, yaradıcılıq, problem həll etmə və ünsiyyət bacarıqlarını təkmilləşdirir.

Ümumilikdə, aktiv təlim metodları informatikanın tədrisi üçün güclü vasitə ola bilər, təhsil alanlara real dünyada tətbiq oluna bilən praktiki bacarıq və bilikləri inkişaf etdirməyə kömək edir [5, s. 55].

## Nəticə

Nəticədə informatikanın tədrisində fəal təlim metodları təhsilalanlara təlim prosesində daha çox iştirak etmək və öz öyrənmələrini idarə etmək imkanı verir. Təhsilalanların tədqiqat bacarıqları, tənqidi düşünmə bacarıqları, sosial bacarıqları və texnoloji bacarıqları layihə əsaslı öyrənmə, qrup işi, sinif müzakirələri, virtual sinif otaqları və oyun əsaslı öyrənmə kimi üsullardan istifadə edilərək inkişaf etdirilir. Bu yolla şagirdlər fənlərə daha dərindən baxır

və təlim prosesində daha çox iştirak edirlər. İnformatikanın tədrisində fəal təlim metodlarından istifadə şagirdlərin daha səmərəli öyrənməsinə şərait yaradır və təhsil sistemini daha səmərəli edir.

***Ədəbiyyat***

1. *Şahzadə, M. (2004). Aktiv öyrənmə işləyirmi? Araşdırmaya baxış. Mühəndislik Təhsili Jurnalı, 93(3), 223-231.*
2. *Hmelo-Silver, C.E. (2004). Problem əsaslı təlim: Tələbələr nəyi və necə öyrənirlər?. Təhsil psixologiyası icmalı, 16(3), 235-266.*
3. *Slavin, R.E. (1995). Kooperativ öyrənmə: nəzəriyyə, tədqiqat və təcrübə (2-ci nəşr). Boston: Allyn və Becon.*
4. *Johnson, D.W. və Johnson, R.T. (1987). Birlikdə və tək öyrənmək: Kooperativ, rəqabətli və fərdi öyrənmə (2-ci nəşr). Englewood Cliffs, NJ: Prentice Hall.*
5. *Lave, J. və Wenger, E. (1991). Situasiyalı öyrənmə: Qanuni periferik iştirak. Cambridge University Press.*

**L.Ə.Səlimova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***salimovalamiya9@gmail.com***

# "AĞ ÖLÜM"ÜN "QARA" KÖLGƏSİ

***Xülasə***

*Bu gün dünyanın inkişaf etmiş dövlətlərinə nəzər salsaq, görərik ki, onların inkişaflarının əsas göstəricisi yüksək səviyyədə inkişaf etmiş insan kapitalına malik olmaqlarıdır. Ona görə də inkişaf etmək istəyən hər bir cəmiyyət mütləq inkişaf etmiş vətəndaşlara sahib olmalıdır. İnkişaf dedikdə isə həm fiziki, həm də emosional cəhətdən inkişaf nəzərdə tutulur. Hamımızın yaxşı tanıdığı, bu gün demək olar ki, bütün dünyanı öz cənginə alan narkomaniya problemi nəinki böyüklərə, həmçinin uşaq və yeniyetmələrə də öz təsirini göstərir. O, sadəcə adi bir problem deyil, o, gələcəymizi məhvə sürükləyən, sözün əsl mənasında bir bataqlıq hesab olunur. Əgər uşaqlarımızı vaxtında bu bataqlıqdan qurtarmasaq, o zaman onlar hər keçən gün daha da dərinə batmağa davam edəcəklər.*

# «ЧЕРНЫЙ» ОТТЕНОК «БЕЛОЙ СМЕРТИ»

***Резюме***

*Если мы сегодня посмотрим на развитые страны мира, то увидим, что главным показателем их развития является то, что они обладают высокоразвитым человеческим капиталом. Поэтому любое общество, которое хочет развиваться, должно иметь развитых граждан. Развитие означает как физическое, так и эмоциональное развитие. Проблема наркомании, которую мы все прекрасно знаем и которая сегодня захватывает практически весь мир, затрагивает не только взрослых, но и детей и подростков. Это не просто обычная проблема, это буквально трясина, обрекающая наше будущее. Если мы вовремя не вытащим наших детей из этой трясины, то с каждым днем они будут погружаться все глубже.*

# THE "BLACK" SHADE OF "WHİTE DEATH"

***Summary***

*If we look at the world's developed countries today, we will see that the main indicator of their development is that they have highly developed human capital. Therefore, any society that wants to develop must have developed citizens. Development means both physical and emotional development. The problem of drug addiction, which we all know very well, and which is taking over almost the whole world today, affects not only adults,- but also children and adolescents. It's not just an ordinary problem, it's considered a literal quagmire that is dooming our future. If we don't get our children out of this quagmire in time, they will continue to sink deeper each day.*

***Açar sözlər:*** *narkomaniya, asılılıq, risk, uşaq və yeniyetmə, gələcək*
***Ключевые слова:*** *наркомания, риск, ребенок и подросток, будущее*
***Key words:*** *drug addiction, addiction, risk, child and adolescent, future*

Narkomaniya bütün dünyada cəmiyyət üçün ən böyük təhlükələrdən birinə çevrilib. Bu maddələrin qanunsuz istehsalı, yayılması və istehlakının qarşısının alınması istiqamətində böyük mübarizə aparılır. Onun istifadəsi psixoloji və fizioloji cəhətdən tez bir zamanda asılılığa çevrilir. Asılılıq, fərdlərin zərər gördüklərini bilə-bilə istifadə etməyə davam etdiyi və dozanı daim artırmaq məcburiyyətində qaldığı bir xəstəlikdir. Narkotiklərlə mübarizədə hüquqi tənzimləmələrin və hüquq-mühafizə qüvvələrinin təsiri kifayət qədər böyükdür. Lakin bu mübarizənin əsas amili cəmiyyəti narkomaniyadan uzaq tutmağın yollarını axtarmaq və ondan istifadənin qarşısını almaq üçün lazımi tədbirlərin görülməsidir. Həm ailə, həm də yaxın çevrə münasibətlərində ünsiyyətin səviyyəsi və keyfiyyəti ətraf mühitə və narkotiklərə əlçatanlığa meylli şəxslər üçün həvəsləndirici amildir. Asılılıq riski və nə qədər tez asılı olduğunuz narkotikdən asılı olaraq dəyişir. Narkotik asılılığının simptomları:

- Müntəzəm olaraq dərman qəbul etməyin hiss edilməsi;
- Hər hansı düşüncələrdən uzaqlaşmaq üçün dərmanlara yönəlmə;
- Zaman keçdikcə eyni təsiri almaq üçün alınan dozanın artırılması;
- Daimi olaraq dərman ehtiyyatı yaratmağa meyl etmək;
- İmkan olmadıqda belə dərmana pul xərcləmək;
- Narkotik istifadəsi səbəbindən öhdəliklərə və iş öhdəliklərinə əməl etməmək, sosial və ya istirahət fəaliyyətlərini azaltmaq;
- Həyatda problemlərə səbəb olduğunu, fiziki və ya psixoloji zərər verdiyini bildiyi halda, dərmanı istifadə etməyə davam etmək;
- Ani kilo itkisi;
- Heç bir səbəb olmadan qorxu keçirmə, paranoya görmək;
- Fiziki görünüşün pisləşməsi.

Aristotel yazırdı ki, heç kim dostsuz yaşamaq istəməz. Aristotel üçün dostluq bir insanın digəri ilə edə biləcəyi ən vacib münasibətdir. Aristotelin fikrincə, düzgün dostlar bizi daha yaxşı insanlar edə bilər, çünki onlar bizə fəzilət tətbiq etmək üçün daha çox imkanlar verməklə mənəvi xarakterimizi yaxşılaşdırmağa kömək edə bilərlər. Bunun əksi də var; yanlış dostlar bizi aşağı sala bilər. Məlumdur ki, məktəblilər arasında narkomaniyanın yaranmasının səbəblərindən biri də həmyaşıd təsiridir. Aparılan araşdırmalardan məlum olduğu kimi məktəblilər arasında çox təəssüflər olsun ki, narkotik maddənin istifadə yaşı 14 yaşdır. İstənilən yaşda narkotik qəbulu asılılığa səbəb ola bilsə də, narkotikdən istifadə nə qədər tez başlasa, asılılığa çevrilmə ehtimalı bir o qədər yüksəkdir. Bu, xüsusilə yeniyetmələr üçün

problemlidir. Beynində qərar qəbul etmə, mühakimə və özünüidarə etməyə nəzarət edən sahələr hələ də inkişaf etmədiyi üçün yeniyetmələr xüsusilə riskli davranışlara, o cümlədən narkotik maddələrdən istifadə etməyə meylli ola bilərlər. Narkotik maddələrdən yeniyetmələr müxtəlif səbəblər ucbatından istifadə edə bilərlər:

1. Cansıxıcılığı aradan qaldırmaq;
2. Yaxşı hiss etmək;
3. Problemlərinin həllindən qaçmaq;
4. Maraqlarını təmin etmək;
5. Özünü böyümüş hiss etmək;
6. Müstəqilliklərini göstərmək;
7. Müəyyən bir qrupa aid olduğunu göstərmək.

Əsasən, məktəbyaşlı uşaqlarda görünən əlamətlər barədə maarifləndirmə işləri həm valideynlər, həm də məktəbin pedaqoji heyəti arasında daim aparılmalıdır. Bu həyati önəm kəsb edən məsələdə bir neçə nüansa - əlamətə diqqət yetirək:

1. Maddələrdən istifadə etməyə başlayan insanlarda ilk dəyişiklik, ətraflarında etdikləri dəyişikliklərdir. Köhnə dostları yeni dostlar əvəz edir. Maddəyə daha asan çıxışı təmin edə bilən insanlarla yaxınlaşır, köhnə dostları ilə görüşmür.
2. Emosional vəziyyəti çox tez dəyişir. Bu dövrdə çox şən, bəzən çox qəzəbli, narahat və kefsiz ola bilirlər.
3. Təhsilalmada ani dəyişikliklər olur. Qiymətlər aşağı düşməyə başlayır, dərsdən yayınma halları müşahidə olunur.
4. Evdə tək qalmaq və ya harada olduğunu bildirmədən çöldə dostları ilə görüşməyə başlayır.
5. Ailəsi ilə münasibətlərini mümkün qədər uzaq tutmağa başlayır. Ailəsi ilə konflikt olmasın deyə evdə daha az vaxt keçirmək istəyir.
6. Paltar və ya görünən bir şey almadığı halda çox pul xərcləməyə başlayır.
7. Şəxsi qayğı azalıb. O, geyiminə əhəmiyyət vermir. Gözləri qızarır, şişir, bədənində dəyişikliklər başlayır.
8. Əsəbilik, gərginlik, şəxsiyyətlərarası münasibətlərdə problemlər yaşayır, diqqət dağınıqlığı və diqqətsizlik başlayır.
9. Yuxu rejimi dəyişir. Ya çox yatır, ya da çox az yuxuya ehtiyacı var.
10. Psixologiyasında bədbinlik, ümidsizlik və ya inamsızlıq kimi emosional vəziyyətlər ola bilir.

Narkomaniya ilə mübarizə ilk olaraq maarifləndirmə tədbirləri ilə başlayır. Maarifləndirmə işləri çoxşaxəli ola bilər. Maarifləndirmə işləri həm dövlət tərəfindən böyük miqyaslı - müxtəlif dövlət proqramlarının qəbulu və bu sahədə görülən tədbirlərdən ibarət ola bilər. Eyni zamanda məktəbyaşlı uşaqlar

və yeniyetmələr arasında məktəblərdə aparılan maarifləndirmə tədbirləri sağlam gələcəyə açıq bir təhdid olan narkomaniyaya qarşı ən effektiv mübarizə yollarını təşkil edir. Məktəblərdə və digər təhsil ocaqlarında aparılan maarifləndirmə ən yaxşı təcrübəyə malik müəllimlər və təlimçilər tərəfindən keçirilir. Burada əsas məqsəd yeniyetmələrin düzgün məlumat almalarını təmin etməkdir. Bu həm də onların gələcəkdə yarana biləcək asılılıqlarla nisbətən daha rahat mübarizə aparmalarını təmin edəcəkdir. Məktəblilər bu məlumatları almalıdırlar ki, "hamı bunu edir", "bir dəfədən heç nə olmaz" kimi yalanlara inanmasınlar. Aydın məsələdir ki, yeniyetmə və məktəbyaşlı uşaqlar arasında narkomeylliyin ilk səbəblərindən biri maraqdır. Buna hazırlıqlı olmaq üçün maarrifləndirmə və məlumatlandırma işlərinin aparılması zəruri haldır. Bu həm də məktəbyaşlılar arasında narkomeylliliyi azaldan əsas istiqamətlərdəndir. Lakin burda bir sıra xırda, diqqət edilməsi vacib nüanslar vardır. Pedaqoqlar ehtiyatlı olmalıdırlar ki, alkoqol və ya narkotikdən istifadəni həyəcan verici, hətta qorxu kimi təqdim etməsinlər. Narkotikdən istifadə edən insanları ləkələyən sözlərdən istifadə etməkdən çəkinmək yaxşıdır. Sinifdə narkotik istifadəsinin damğalanması onların kömək istəmələrinə mane ola bilər. Narkotiklərə qarşı maarifləndirmə təhsili hər bir gəncin alkoqol və ya digər narkotik vasitələrdən istifadə etməsinin qarşısını ala bilməsə də, müəyyən qədər onun qarşısını ala bilər.

Maarifləndirmə və müalicənin digər həyati əhəmiyyətli ocağı ailədir. Ailə hər hansı sağlamlıq probleminin, o cümlədən narkotik maddələrdən istifadənin müalicəsində mərkəzi rol oynayır. Ailə işi bir çox müalicə yanaşmalarının güclü və davam edən mövzusuna çevrilmişdir. Əsas məqsəd, maddə asılılığının müalicəsi diqqətinin fərddən ailəyə qədər genişləndirilməsidir. Narkomaniyanın müalicəsində ailənin iştirakının dəyərini danmaq olmaz. Ailə üzvlərinin dəstəyi yalnız uğurlu müalicə ehtimalını artırmır, həm də asılılıqdan azad həyata zehni uyğunlaşmanı yaxşılaşdırmağa kömək edir. Ailə daxilində narkotikdən istifadə o ailədəki hər kəsə təsir edir. Hər bir ailə üzvü zərərlidən təhlükəliyə qədər öz mübarizə mexanizmlərini yaratmalıdır. Çünki, ailədə artıq yeni bir rejim, dinamika qurulmalıdır. Ailənin hər bir üzvünün asılılıq haqqında məlumatı olmalı və müalicə prosesində iştirak etməlidirlər. Ailə təhsili uğurlu sağlamlığın açarıdır.

Ailədə narkomaniya profilaktikasının ilk mərhələsi söhbətlərin aparılmasıdır. Bu situasiyalarda valideynlər adətən uşağın fikrinə hörmət etmirlər, ona qulaq asmırlar, amma uşaq səhv edəndə, adətən, onu cəzalandırırlar və çox vaxt ona niyə səhv etdiyini və bu səhvi aradan qaldırmağın yollarını başa salmırlar. Belə halda uşaq ailəsindən uzaqlaşır, problemlərini öz yoldaşları ilə bölüşməsinə və yanlış məlumat almasına səbəb olur. Ona görə də ailədə onların fikirlərinə, düşüncələrinə diqqətlə yanaşılmalı, onlarla nəinki valideyn, hətta dost səviyyəsində münasibət qurulmalıdır.

Uşaqlara düzgün yol göstərilməli, dost seçimində məsləhət verilməli, hətta lazım gələrsə, şübhəli məqamlarda özlərindən xəbərsiz izlənmələri də məqsədəuyğun olardı. Əgər valideynlər işə bu cür yanaşarlarsa, gələcəkdə övladları tərəfindən baş verə biləcək problemlərin qarşısını almış olarlar.

Məktəbli azyaşlılar və yeniyetmələr arasında narkomaniyanın profilaktikası mütləq və aydın başa düşüləcək tərzdə olmalı, yeniyetmələr tərəfindən çox ciddi qəbul olunmalı və birmənalı olaraq onlarda narkotiklərdən uzaq durma mövqeyi formalaşdırılmalıdır. Narkomaniyaya qarşı profilaktika sistematik olmalı və kütləvi xarakter daşımalıdır. Uğurlu profilaktika mühazirələr, plakatlar və yeniyetmələrlə müsahibə formasında mümkündür.

Müasir dünyada narkomaniya ona qarşı yeni mübarizə üsullarının yaranmasından daha sürətlə yayılır və buna görə bu bəla ilə sistematik profilaktik mübarizə aparılması çox vacibdir.

***Ədəbiyyat***

1. *Apaydın. C. Tütün tutsaklığı ve insan sağlığı. Türkiye Tapibler Vakfi, Sigara Sempozyumu.*
2. *https://psikolaj.com.tr/cocuklariniza-zaman-ayirin.html*
3. *https://www.ntv.com.tr/saglik/cocugun-madde-bagimlisi-oldugunu-gosteren 12-isaret,zk8JCOlQaE-645H-omXDlQ*
4. *Альмшулер В.Б. Патологическое влечение к алкоголю и наркотикам: вопросы и терапии. – М., 1999. – 216с.*
5. *Киселёва Т.Г., Жарков А.Д., Чижиков В.М. Культура против наркотиков. Отраслевая программа. – М., 2001. – 135с.*
6. *Николов А.С. За пеленою «кайфа»: О наркомании. – Краснодар: Кн. издательство, 1987. – 28с.*
7. *Причины наркомании, лечение и профилактика. (gp3ии.ru)*
8. *Причины употребления наркотиков (surgut-pnd.ru)*
9. *Addiction: Complications and consequences (medicalnewstoday.com)*
10. *Drugs, Brains, and Behavior: The Science of Addiction: Drugs and the Brain / NIDA (nih.gov)*

**A.E.Mehdiyeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***aynurmehdiyeva35@gmail.com***

# TARİX DƏRSLƏRİNDƏ PORTRET VƏ İLLÜSTRASİYALARDAN İSTİFADƏNİN ƏHƏMİYYƏTİ

***Xülasə***

*Məqalədə mövzunun aktuallığı əsaslandırılıb, mövzunun tədqiq edilməsi ilə bağlı məsələlərə münasibət bildirilib. Tarix dərslərində portret və illüstrasiyalardan istifadə edilməsinin mahiyyəti, səmərəli yolları əks olunmuşdur. Eyni zamanda tarix dərslərində portret və illüstrasiyalardan istifadənin əhəmiyyəti ilə bağlı məsələlər vurğulanmışdır. Nəticə olaraq, tarixin tədrisində təlimin keyfiyyətinin və səmərəliliyinin yüksəldilməsinə nail olunur.*

## ВАЖНОСТЬ ИСПОЛЬЗОВАНИЯ ПОРТРЕТОВ И ИЛЛЮСТРАЦИЙ НА УРОКАХ ИСТОРИИ

***Резюме***

*В статье обосновывается актуальность темы, обсуждаются вопросы, связанные с исследованием темы, отражаются сущность и эффективные способы использования портретов и иллюстраций на уроках истории. использование портретов и иллюстраций на уроках истории. В результате достигается повышение качества и эффективности преподавания истории.*

## THE İMPORTANCE OF USİNG PORTRAİTS AND İLLUSTRATİONS İN HİSTORY LESSONS

***Summary***

*The relevance of the topic is justified in the article, and the issues related to the research of the topic are discussed. The essence and effective ways of using portraits and illustrations in history lessons are reflected. At the same time, issues related to the importance of using portraits and illustrations in history lessons are emphasized. As a result, improvement of the quality and efficiency of teaching in the teaching of history is achieved.*

***Açar sözlər:*** *əyani vasitələr, portret, illüstrasiya, şərh etmək, tarixin tədrisi, araşdırma*

***Ключевые слова:*** *наглядные пособия, портретная живопись, иллюстрация, комментирование, преподавание истории, исследование*

***Key words:*** *visual aids, portraiture, illustration, interpretation, history teaching, research*

Tarix dərslərinin ənənəvi tədris üsullarına uyğun keçirilməsinin mərkəzində şagirdlər üçün dərsin abstrakt işlənməsi, ümumiyyətlə şifahi ifadələrdən istifadə etmək və ardınca tarixin davamlı olaraq əzbərlənəcəyi məntiqinin formalaşması yerləşir. Bu məntiqin formalaşmasına əsasən tarix dərslərində xüsusilə gənc öyrənənlər keçmişdə baş vermiş hadisələri öyrənməkdə və şərh etməkdə bəzi problemlərlə qarşılaşırlar. Bu problemlərdə müəllimin şərh etməsi ilə tələbələr dinləyici mövqeyindədir və tədris əzbərçilik əsasında həyata keçirilir.

Tarix dərsi kimi şifahi ifadənin yüksək olduğu dərslərdə şagirdləri dərsə həvəsləndirmək, dərsi canlı saxlamaq və asanlaşdırmaq, başa düşülməsini təmin etmək üçün dərslərdə müxtəlif əyani vasitələrdən istifadə zərurəti günü-gündən artır. Müasir dövrdə texnoloji inkişaflara uyğun olaraq əyani vasitələrdən qabaqcıl səviyyədə istifadə olunmağa başlanılır.

Tarix dərslərində istifadə olunan əyani təsvirlər dərsin məqsədinə və şagirdlərin yaş xüsusiyyətlərinə uyğun seçilməli və istifadə edilməlidir. Əyani təsvirlər əsasən iki vəzifəni yerinə yetirmək məqsədi daşıyır. Bunlardan birincisi müəllimə tədris mühitində dəstək olmaq, ikincisi isə şagirdlərin öyrənmə prosesinin səmərəli şəkildə həyata keçirilməsinə şərait yaratmaqdır.

Müəllimlərin sinif mühitində ilkin qaynaqları və bunlar arasında əyani resurslardan istifadə edilən dərslər şagirdlərin dərslərdə daha fəal olmasına şərait yaradır. Bu, onlara tarixi bilik və bacarıqlarını inkişaf etdirməyə imkan verə bilər. Çünki portretlərin, illüstrasiyaların, xəritələrin və bütün digər vizual materialların istifadəsində şagirdlərə “nə gördün?” sualı verilərək onların müşahidələr aparması təmin edilə bilər. Bununla da, şagirdlərdə araşdırma və tədqiqatçılıq bacarıqları formalaşdırılır.

Beləliklə, müəllimlər şagirdlərə birbaşa cavab vermək əvəzinə, onlara müxtəlif suallar verərək, onların öz fikirlərinə və şərhlərinə əsaslanaraq onları istiqamətləndirməklə nəticəyə çatmalarına kömək etməyə çalışmalıdır.

Dərslərdə əyani təsvirlərdən istifadə edilməsi, xüsusilə də çətin mövzuların, anlayışların öyrənilməsində şagirdlər üçün son dərəcə əhəmiyyətli olduğunu göstərmişdir [1, s. 83].

Tarix tədrisində istifadə olunan əyani resurslar, insanların keçmişi düzgün qavraması baxımından böyük əhəmiyyət kəsb edir. XX əsrin əvvəllərindən başlayaraq əhəmiyyət qazanmağa başlayan vizuallıq tarixi araşdırmaların da mühüm hissəsinə çevrilir.

Tarix dərslərində mənbə kimi istifadə edilən əyani materiallar arasında portretlər, illüstrasiyalar, xəritələr və s. xüsusi yer tutur. İstifadə olunan portret və illüstrasiyalar tarixi məlumatların öyrənilməsində və ötürülməsində mühüm əhəmiyyətə malik olan vasitələrdir. Tarixçi olaraq elmdə əyani materiallardan istifadə edən Barbara Maria Stafford “dünya haqqında elmi biliyin

strukturunun zaman keçdikcə yazılı sənədlərə deyil, vizual sənədlərə əsaslandığını müdafiə edirdi".

Tarix dərslərində istifadə olunan portret və illüstrasiyaların üstünlüklərini aşağıdakı şəkildə sıralamaq mümkündür:

1. Tarix dərslərində istifadə olunan portret və illüstrasiyalar tarixi mövzuların anlaşılmasını və canlandırılmasını təmin edir.
2. Tarixi araşdırmalarda istifadə olunan əyani vasitələr keçmişdə mövcud olan mədəniyyətlərin yazılmamış hissələri haqqında bizlərə məlumat verməklə yanaşı, həmçinin yazılı mətnlərin hissələrini tamamlayırlar və yazılı mətnlərdə gözdən qaça bilən və sözlə ifadə olunmayan hissələr ifadə olunur.
3. Tarixin tədrisində portret və illüstrasiyalardan istifadə şagirdlərin vizual yaddaşını inkişaf etdirir, tarixi hadisələrlə bağlı onların zehnlərində tarixi təsəvvürlərin formalaşmasına imkan verir. Şagirdlərin tarixi hadisələri asanlıqla mənimsəmələrini təmin edir.
4. Şagirdlərin fərdi xüsusiyyətlərinə uyğun şəkildə öyrənmə mühiti yaratmağa kömək edir. Tədris prosesində məlumatların portret və illüstrasiyalardan istifadə etməklə təqdim edilməsi şagirdlərin diqqətini cəlb edərək, onların dərsə daha yaxşı motivasiya olmalarını təmin edir.
5. Tarixin tədrisində portret və illüstrasiyalardan istifadə edilməsi tarixi mövzuların vacib məqamlarının və nümunələrinin buraxılmadan ardıcıl olaraq məzmunun əsaslı bir şəkildə təqdim edilməsini təmin edir.
6. Müxtəlif tədris üsullarından istifadə etməyə imkan verərək tədrisin səmərəli keçirilməsinə şərait yaradır və öyrənmə mühitini zənginləşdirir. [2, s. 350].

Tarix dərslərində istifadə olunan mövzu ilə bağlı portret və illüstrasiyalar əsas mənbələrdən biri olmaları baxımından onların düzgün seçilməsi, həmçinin sözlərlə izah edilməsi çətin olan bir çox məsələlərin asanlıqla şagirdlərə ötürülməsinə və dərs prosesini zənginləşdirməyə kömək edir. Müəllimlər tarix dərslərində istifadə edəcəkləri portret və illüstrasiyaları seçərkən onların bir sıra meyarlarına diqqət etməlidir.

Tarixin tədrisi prosesində portret və illüstrasiyaların seçilməsində və onlardan düzgün istifadə edilməsində bir neçə prinsiplər nəzərə alınmalıdır:

1. Dərs prosesində istifadə olunan dərsliklər, metodik vəsaitlər, tarixi sənədlər ilə istifadə olunan portret və illüstrasiyalar arasında əlaqə düzgün qurulmalıdır.
2. Müəllim mövzunu izah edərkən onun şərhi ilə portret və illüstrasiyalardan istifadə etməsi paralel şəkildə həyata keçirilməlidir. Bu proses şagirdlərin mövzunu asanlıqla mənimsəmələrində əhəmiyyətli rol oynayır.

3. Portret və illüstrasiyalardan istifadə edərkən müəllim müxtəlif tarixi qaynaqlardan istifadə edərək, şagirdlərin cavablaya biləcəyi, düşündürücü suallar verməlidir.

4. Müəllim dərs prosesi zamanı öyrənilməsi, araşdırılması vacib olan məsələləri diqqət mərkəzində saxlayaraq, portret və illüstrasiyaların müzakirə edilməsi zamanı şagirdlərdə araşdırma, tədqiqatçılıq, müstəqil işləmə bacarıqlarını formalaşdırılmalıdır.

Tarix dərslərində mövzunun öyrədilməsində istifadə olunan portret və illüstrasiyalar yuxarıda göstərilən prinsiplərə uyğun istifadə edilməsi ilə yanaşı, eyni zamanda onlara eyniylə digər yazılı mənbələr kimi müxtəlif yanaşmalar irəli sürülməlidir.

Tarix dərslərində istənilən yaş səviyyəsində olan şagirdlər üçün illüstrasiyaların əhəmiyyəti şübhəsizdir. Tarixin tədrisində illüstrasiyaların seçilməsi qədim insanların tarixi, mədəniyyəti, incəsənəti, dini haqqında şagirdlərə müəyyən qədər hərtərəfli təsəvvürlər vermək səylərindən ibarətdir. Düzgün seçilən illüstrasiyalar tarix dərsliyinin məzmunun ayrılmaz tərkib hissəsini təşkil edir, bilavasitə, mətnin əyani təsvir rolunu oynayır. Belə hallarda müəllim müvafiq materialı izah etdikdən sonra həmin materiala aid olan illüstrasiyaları da şagirdlərlə birlikdə araşdırır [3, s. 56].

Bir sıra hallarda isə illüstrasiyalar dərsliyin mətnini tamamlayır və konkretləşdirir. Dərsliklərdə dərc olunmuş illüstrasiyalardan istinasız olaraq, dərsdə elə istifadə olunmalıdır ki, müəllimin rəhbərliyi altında məktəblilər illüstrasiyada olan idraki materialı qavrasın, onları lazım gəldikdə tətbiq edə bilsin və illüstrasiyalar şagirdlərin fəal iş predmeti olsun.

Fəal iş illüstrasiyanın xarakterindən və məzmunundan, şagirdlərin yaşından və hazırlıq səviyyələrindən asılı olaraq müsahibə şəklində aparıla bilər. İllüstrasiya üzrə müsahibə keçirilərkən, suallar şagirdləri həmin təsvirə diqqətlə nəzər yetirməyə məcbur etməli, həmin illüstrasiya əsasında şagird verilmiş suallara cavab verməli, bu suallar həmin əyani təsvirdən bilik almağa kömək etməli, yalnız illüstrasiyanın məzmununu araşdırdıqdan sonra ümumiləşdirmə və nəticə tələb edən suallar qoyulmalı, illüstrasiya üzrə suallar əyani material üzrə mümkün qədər kiçik idraki məsələlərdən ibarət olmalıdır [3, s. 57].

Vizual vəsaitlər içərisində portretin də mühüm əhəmiyyəti vardır. Portret tarixi şəxsiyyətlərin obrazını konkretləşdirir, onu məktəblinin şüurunda formalaşdırır. Müəllim portretə tarixi-bioqrafik material və tarixi şəxsiyyətin xüsusiyyətləri ilə bağlı müraciət edir. Portretin əhəmiyyəti, bir qayda olaraq, onun tarixiliyidir, tədqiq olunan dövrün sənət əsəridir [4, s. 48].

Dərslikdəki portret və illüstrasiyalardan istifadənin ən zəruri aspektlərindən biri də müəyyən emosional əhvalın yaradılmasıdır (zülmkarlara, işğalçılara qarşı nifrətin, zəhmətkeşlərə münasibətdə şəfqət və hörmətin,

vətənpərvərlik və beynəlmilər hisslərinin bəslənməsi və s.). Konkret paraqrafda hansı rəsmlərin sinifdə nəzərdən keçiriləcəyini, ev tapşırığını yerinə yetirməklə rəsmlərin hansı şagirdlər tərəfindən təhlil olunacağını dəqiq müəyyənləşdirmək lazımdır. Ev tapşırığını izah etməklə, həm də rəsmlərlə işə müəyyən istiqamətlər vermək, cavabları bilavasitə onladan əldə olunan sualları ev tapşırığına daxil etmək lazımdır [5, s. 288].

Tarix dərslərində istifadə olunan digər vasitələrlə yanaşı portret və illüstrasiyalar da şagirdlərdə tənqidi düşünmə, emosional təsir prosesində, analitik düşünmə və təfəkkür fəaliyyətində mühüm rol oynayır.

Müəllimlər və şagirdlər tarix dərslərində portret və illüstrasiyaların mövzu ilə əlaqəli şəkildə öyrənilməsinin bütün nöqtələrini nəzərə almalıdırlar. İstifadə olunan portret və illüstrasiyaların növləri, onlardakı məlumatların şagirdlərə düzgün şəkildə çatdırılması əsas məsələlərdən biridir.

**Dərs nümunəsi:** VII sinif Ümumi tarix.

**Standartlar:**

1.1.1. Mühüm tarixi faktları davametmə müddətinə görə fərqləndirir.

4.1.1. Dövlətlərin və mədəniyyətlərin inkişafında şəxsiyyətlərin (Attila, Xlodviq, Bumın xaqan, Məhəmməd peyğəmbər, Böyük Karl, Mahmud Qəznəvi, Alp Arslan, Məlik şah, Çingiz xan, Qara Yusif, Uzun Həsən, Batı xan, II Mehmet, Əmir Teymur, Sultan Sultan Süleyman Qanuni, Əkbər şah, Şah İsmayıl, I Təhmasib, Oranlı Vilhelm, IV İvan) rolunu izah edir.

4.1.2. Dövlətin və mədəniyyətin inkişafında tarixi şəxsiyyətlərin rolu ilə bağlı məlumatlar toplayır və təqdimatlar hazırlayır.

**Təlim məqsədləri:**

1. Böyük Səlcuq dövlətində mühüm tarixi faktları davametmə müddətinə görə fərqləndirir.
2. Böyük Səlcuq dövlətinin və mədəniyyətinin inkişafında Alp Arslanın və Məlik şahın rolunu izah edir.
3. Böyük Səlcuq dövlətinin və mədəniyyətinin inkişafında Alp Arslanın və Məlik şahın rolu ilə bağlı məlumatlar toplayır və təqdimatlar hazırlayır.

**Təlim forması:** Böyük qruplarla iş.

**Təlim üsulları:** Beyin həmləsi, rollu oyunlar.

**Dərsin gedişi:**

**Motivasiya:** Mövzu ilə bağlı motivasiya qurmaq üçün mövzu ilə bağlı təsvirlər göstərilir və onlara suallar verilir:

- Bu təsvirlər haqqında nə deyə bilərsiniz?
- Sizcə, keçəcəyimiz dərs hansı dövlətə aid ola bilər?

Şagirdlərin cavabları ümumiləşdirilir, tədiqat sualı elan edilir, yeni dərsə keçid edilir.

**İkinci üsul.** Şagirdlərə türk dilinin Yaxın Şərqdə və Ön Asiyada əsas danışıq dilinə çevrilməsi barədə yığcam məlumat verməklə onları yeni dərsə maraqlandırmaq olar. Motivasiya məqsədilə 3-cü mövzunun icmalından da istifadə etmək olar.

**Tədqiqat sualı:** Alp Arslan və Məlik şahın Böyük Səlcuq dövlətinin və mədəniyyətinin inkişafında hansı rolu olmuşdur ?

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Dərsin bu mərhələsində əldə olunan nəticələri müəyyən edin. Qarşıya qoyulan məqsədə çatmaq üçün siz köməkçi suallardan istifadə etməli olacaqsınız. Köməkçi suallar kimi aşağıdakı suallardan istifadə edə bilərsiniz. Bu zaman sizə dərslikdəki suallar da kömək edə bilər:

- Səlcuqların Aral bölgəsində nüfuzunu artıran amillər hansılar idi?
- Səlcuqların Bizansa kəşfiyyat yürüşünün nəticəsi nə oldu?
- Səlcuq dövləti necə yaradıldı?
- Sultan Toğrulun Bağdad səfərinin nəticəsini necə dəyərləndirərdiniz?
- Malazgird döyüşünün dünya tarixində rolu nə oldu?
- Böyük Səlcuq dövlətinin və mədəniyyətinin inkişafında Alp Arslanın rolunu necə izah edərdiniz?
- I Məlikşahın dövründə dövlətin çiçəklənməsinin səbəbləri nə idi?
- Böyük Səlcuq dövlətinin və mədəniyyətinin inkişafında Məlik şahın rolunu necə izah edərdiniz?
- Sizcə, Böyük Səlcuq dövlətinin süqutunun səbəbləri nə idi?

**Ev tapşırığı:** Böyük Səlcuq dövlətinin və mədəniyyətinin inkişafında Alp Arslanın və Məlik şahın rolu ilə bağlı məlumat toplayıb təqdimat hazırlayın.

**Qiymətləndirmə meyarları:** fərqləndirmə, izahetmə, məlumat toplama, təqdimat hazırlamaq. Şagirdlərin qiymətləndirilməsi sizin dərs izləməniz nəticəsində baş verməlidir. Bu mərhələ zamanı siz müxtəlif suallar verməklə də təlim prosesində izləmiş olduğunuz şagirdin hansı meyara cavab verdiyini dəqiqləşdirə və səviyyələr üzrə qiymətləndirə bilərsiz. Sonuncu meyar (məlumatlar toplayıb təqdimatlar hazırlama) üzrə şagirdləri qiymətləndirmək onlara verdiyiniz ev tapşırığının icrasından sonra mümkün olacaqdır.

**Mövzunun aktuallığı:** Tarix fənninin tədrisində portret və illüstrasiyalardan səmərəli şəkildə istifadə edilməsidir. Bu sahədə boşluğun doldurulması xüsusi əhəmiyyət kəsb edir.

**Məqalənin elmi yeniliyi:** Tarix dərslərində portret və illüstrasiyaların istifadə edilməsinin səmərəli yolları, üsulları müəyyənləşdirilmişdir.

**Məqalənin nəzəri əhəmiyyəti** ondan ibarətdir ki, məqalədə irəli sürülən müddəalar və yeniliklər tarixin tədrisi metodikası elminin məzmununu zənginləşdirə bilər.

**Məqalənin praktik əhəmiyyəti:** Məktəblərdə şagirdlərdə tarixi təsəvvürlərin, anlayışların formalaşdırılması və onların təfəkkür fəaliyyətinin inkişaf etdirilməsi məqsədilə tarixin tədrisində portret və illüstrasiyalardan istifadə edilməsi ilə əhəmiyyətli nəticə alınır ki, bundan tarix müəllimləri gündəlik pedaqoji fəaliyyətlərində istifadə edə bilərlər.

***Ədəbiyyat***

1. *Erdal Aslan "Tarih öğretiminde fotoğraf kullanımı" – 2008.*
2. *Hasan Aslan, İbrahim Turan. "Tarih öğretmenlerinin görsel materyal kullanımı düzeyleri " - 2016.*
3. *Məmmədova M.S. " Tarixin tədrisinin aktual problemləri" Bakı – 2015.*
4. *Довгялло М.С., Козик Л.А. "Методика преподавания истории" – 2018.*
5. *Əmirov M.M "Ümumtəhsil məktəblərində tarixin fəal (interaktiv) təlimi metodikası " Bakı – 2014.*

**S.H.Şahmarova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti, Cəlilabad filialı**
*sevdashahmarova02@gmail.com*

# GƏNCLƏRİN FORMALAŞMASINDA KÖNÜLLÜLÜYÜN ƏHƏMİYYƏTİ

***Xülasə***

*Məqalədə günümüzdə könüllülüyün vacibliyi, gənclərin formalaşmasında könüllülüyün əhəmiyyəti tədqiq edilmişdir. Könüllülüyün üstünlükləri araşdırılıb və nümunələr əsasında göstərilmişdir. Gəncləri düzgün yola istiqamətləndirməklə yanaşı, onları neqativ yollardan da çəkindirir. Çünki gənclər bununla asudə vaxtlarını daha səmərəli keçirirlər.*

# ЗНАЧЕНИЕ ВОЛОНТЕРСТВА В ФОРМИРОВАНИИ МОЛОДЕЖИ

***Резюме***

*В статье изучено значение волонтерства на сегодняшний день, значение волонтерства в становлении молодежи. Исследованы и проиллюстрированы преимущества волонтерства. Помимо направления молодежи на правильный путь, это также предотвращает их от негативных путей. Потому что с ним молодые люди проводят свое свободное время более эффективно.*

# THE IMPORTANCE OF VOLUNTEERING IN YOUTH FORMATION

***Summary***

*The importance of volunteering today, the importance of volunteering in the formation of young people has been studied in the article. The benefits of volunteering are explored and illustrated. Besides guiding the youth to the right path, it also prevents them from negative paths. Because young people spend their free time more effectively with it.*

***Açar sözlər:*** *gənclər, könüllülük, formalaşma*
***Ключевые слова:*** *молодежь, волонтерство, формирование*
***Key words:*** *youth, volunteerism, formation*

Biz bilirik ki, gənclərin formalaşması məsələsi günümüzün ən aktual məsələlərindən biridir. Gənclərin formalaşmasında təhsil, idman kimi mühüm sahələr rol oynayır. Onlardan biri də gənclərin könüllülük fəaliyyətidir.

Təhsilin tərbiyəedici, öyrədici, inkişafetdirici xüsusiyyətləri, məzmunu dərsliklərlə konkretləşir. Son illərdə təhsil məkanında qazandığımız uğurlardan ən ümdəsi dərslik tərtibatı ilə bağlıdır. Respublikamızda dərsliklərin tərtibi sahəsində çox geniş təcrübə toplanmış, şagirdlərin istifadəsi üçün məzmunlu, maraqlı dərslik nümunələri hazırlanmışdır. 2005-ci ildə Təhsil Nazirliyində qeyri-dövlət təşkilatlarının nümayəndələri də cəlb olunmaqla "Ümumi təhsil

sistemində dərslik siyasəti" sənədi hazırlanıb və Nazirlər Kabineti ilə razılaşdırıldıqdan sonra 2006-cı ildə təsdiq edilib [3].

Son dövrlərdə təhsil sahəsində aparılan islahatlar, fənn kurikulumunun tətbiqi dərsliklərin tərtibi məsələsini daha da aktuallaşdırmışdır. Ana dili kurikulumunda nəzərdə tutulan fənn məqsəd və vəzifələrini müəyyənləşdirən standartların reallaşması, şagirdlərə ana dilini sevdirəcək əlifbanın öyrədilməsi, oxu və yazı texnikasının, hüsnxət qaydalarının, düzgün, sürətli, şüurlu və ifadəli oxu üzrə ilkin bacarıqların mənimsənilməsi, lüğət ehtiyatının tədricən zənginləşdirilməsi, ən zəruri qrammatik qaydaların və ədəbi tələffüz normalarının tətbiq olunması, ekspressiv nitq bacarıqlarının formalaşdırılması, Azərbaycan xalqının dili, tarixi, əxlaqi-mənəvi keyfiyyətləri, mədəniyyəti və adət-ənənələri haqqında ilkin anlayışların yaradılmasını təmin edəcək dərsliklərə daha çox üstünlük verməliyik [4].

Müasir dərsliklər əvvəlkilərdən strukturuna, məzmununa görə çox fərqlənir. VIII sinifdə dərslik komplekti müəllim üçün nəzərdə tutulmuş metodik vəsaitdən və dərslikdən ibarətdir. Azərbaycan dili fənni üzrə VIII sinif "Azərbaycan dili" dərsliyinə və MMV-ə nəzər yetirək:

Dərslikdə bölmələrin hər biri özünəməxsus sahələri ehtiva etməklə aşağıdakı qruplar üzrə təsnif edilmişdir:

I bölmədə - söz birləşmələri, onların quruluşuna görə növləri, tərəflərin ifadə vasitələrinə görə növləri, ismi və feili birləşmələr; mürəkkəb adlar və onların yazılış qaydaları (qeyd edək ki, mürəkkəb adların yazılış qaydalarının müxtəlif bölmələrdə kontekstdən çıxış edərək öyrədilməsi nəzərdə tutulmuşdur);

II bölmədə - sintaktik əlaqələr və onların növləri;

III bölmədə - cümlə üzvləri, onların ifadə vasitələri, söz sırası;

IV bölmədə - həmcins üzvlər və əlavələr, onlarda durğu işarələrinin işlənməsi;

V bölmədə - ara sözlər və xitablar, onlarda durğu işarələrinin işlənməsi;

VI bölmədə - söz-cümlələr, cümlənin məqsəd və intonasiyaya, şəxsə görə növləri [2, s.3].

Sözügedən dərslikdə şagirdlərin dünyagörüşünün zənginləşdirilməsi, həm yazılı, həm də şifahi nitqinin formalaşdırılması üçün mətnlər 6 bölmədə qruplaşdırılmışdır. Bölmələr "Bilik xəzinədir", "Tarixin daş yaddaşı", "Milli-mənəvi dəyərlərimiz", "Şəxsiyyətlər", "Mətbuat: dünən və bu gün", "Sənət dünyasına səyahət" kimi ad qruplarında verilmişdir.

Bölmələrdəki nəqletmə və yazı fəaliyyəti, oxu və dinləmə materialları mövzu və məqsədi ilə bağlıdır. Hər bir dərs özündə məzmun standartlarını ehtiva edir.

Metodik vəsaitdə dərslərin bəzilərinə bir, bəzilərinə iki, bəzilərinə isə üç saat vaxt ayrılmışdır. Məzmun standartlarının həyata keçirilməsi üzrə saat

bölgüsünü müəllim özü tənzimləyir. Müasir dərs prosesində inteqrasiyanın reallaşdırılması tələb kimi qarşıya qoyulur. Buna mətnlərin məzmunu, onların həyatla səsləşməsi imkan yaradır.

Hər bir bölməyə daxil olan mətnlər şagirdlərin nitq bacarıqlarının (oxu, yazı, dinləmə, danışma) inkişafına xidmət edir. Mətnlərlə əlaqəli kompleks şəkildə dil qaydalarının mənimsədilməsi, söz ehtiyatının zənginləşdirilməsi məsələsi də təlim prosesinin ayrılmaz hissəsi hesab olunmalıdır.

Bəzi mətnlərə və dialoqlara ad verilməmişdir. Burada məqsəd ondan ibarətdir ki, şagird öyrəndiyi və oxuduqlarına əsaslanıb özü mətni adlandıra bilsin. Buna nail olmaqla müvafiq standartlar reallaşdırılmış olur.

Dərsliyə daxil edilmiş mətnlər üslubca rəngarəngdir: məişət, elmi, bədii və kütləvi mətnlərdir. Mətnlərə aid iş elə qurulub ki, şagidlər sözügedən mətnləri özləri cürbəcür formada işləyə bilsinlər. Sadədən mürəkkəbə dorğu istiqamətlənmiş tapşırıqlar şagirdlərdə dil vasitələrindən cəmiyyətin müxtəlif sahələrində istifadə etmək vərdişi yaradır. Mətnin dialoqa çevrilməsi, ayrı-ayrı materiallardan, faktlardan istifadə etməklə mətn tərtib olunması, senari qurulması, esse, inşa, hekayə yazılması, dialoqda təzahürünü tapan faktları seçib mətn yazılması belə tapşırıqlardandır.

Dərsliyə diqqət etsək, hər bir bölmənin dialoqla başladığını görə bilərik. Bu dialoqlar şagirdlərdə məlumatı başqalarıyla bölüşmək vərdişi, əldə edilən məlumatı yazılı nitqə çevirmək qabiliyyəti, dialoqu mətnə çevirmək, ünsiyyət qurmaq bacarığı formalaşdırılmasında mühüm əhəmiyyət kəsb edir.

Müəllimlər dərslikdə verilmiş tapşırıqlara yaradıcı yanaşaraq, sinifdəki şagirdlərin səviyyəsini, potensialını nəzərə alaraq onlardan yararlana bilərlər. Dərslikdə mətnlə işləmək üçün verilən "önəmli faktları seç", "genişləndir", "ideyanı müəyyənləşdir", "qısa şərh et", "mətnin hissələrini (giriş, əsas və sonluq hissə) müəyyənləşdir", "bir cümlə ilə hər abzası ifadə et" və s. kimi tapşırıqlar öyrənənlərin mətn üzərində işləmək bacarığını formalaşdırmağa və inkişaf etdirməyə istiqamətlənmişdir.

Bütün dərslər bu yöndə qurulur: oxuma yaxud dinləyib-anlama, danışma, lüğət ehtiyatının zənginləşdirilməsi (lüğət üzərində iş), dil qaydalarının həm şifahi, həm də yazılı nitqə yönləndirilməsi, yazı vərdişlərinin yaradılması.

Daimi mühakimələr, müzakirələr, diskussiyalar, debatlar zəruri faktların düzgün şəkildə təhlil edilməsi, qavranılması kimi lazımlı bacarıqları formalaşdırır. Yeni bacarıqların formalaşdırılması prosesi dərs zamanı sistemli, ardıcıl şəkildə inkişaf etdirilməlidir.

Azərbaycan ədəbi dilinin şagird tərəfindən hərtərəfli mənimsənilməsində və bu yöndə şagirdin özündə zəruri bacarıqları inkişaf etdirib formalaşdırmasında müəllimlərin rolu böyükdür. Müəllim üzərinə düşən öhdəliyi şagirdin, sinfin səviyyəsini nəzərə alaraq yerinə yetirməlidir.

Ədəbi dilimizin öyrənilməsi zamanı orfoqrafik, orfoepik qaydaların üzərində iş aparılması, leksik müzakirələr edilməsi çox əhəmiyyətlidir. Buna görə də dərslikdə və MMV-də bu baxımdan lazımı səviyyədə üsul və qaydaların həyata keçirilməsi üçün materiallar mövcuddur.

Şagirdlərin icra etməsi üçün dərslikdə 2 layihə də verilmişdir:

- Qəzet hazırlamaq;
- Kompleks lüğət hazırlamaq.

Müəllimin şagirdlərin istək və arzularına, əsasən də bacarıqlarına görə sinfi qruplara bölərək hər bir qrupa bir layihə tapşırması daha məqsədəmüvafiqdir.

Layihə hazırlamaqda məqsəd şagirdlərin məlumatı sistemləşdirmək, toplamaq, onu təqdim eləmək bacarığını formalaşdırmaq, yaradıcı, tənqidi, məntiqi təfəkkürünü inkişaf etdirməkdən ibarətdir.

Müəllim üçün nəzərdə tutulmuş vəsaitdə hər dərsin strukturu, onun keçirilməsi barədə tövsiyələr qeyd edilmişdir. Burada standartın reallaşdırılması üçün məqsədəuyğun olan üsulların seçilməsi, tapşırıq və çalışmaların işlənmə məqsədləri aydın şəkildə təsvir edilmişdir. Lakin "bələdçi" müəllim üçün nəzərdə tutulmuş metodik vəsaitdə verildiyi kimi dərsi keçməməlidir. Müəllim öz işinə yaradıcı yanaşmağı bacarmalıdır. Əsas prinsip və məqsəd təlim prosesinin yekununda məzmun standartlarının reallaşmasında özünü biruzə verir.

MMV-də 8-ci sinif Azərbaycan dili fənni üzrə məzmun standartları, təlim formaları, Azərbaycan dili dərsinin təşkilində istifadə olunan metod və üsullar, illik planlaşdırma cədvəli, şagird nailiyyətlərinin qiymətləndirilməsinə dair tövsiyələr, cari planlaşdırma nümunələri, KSQ vasitələri, şagirdlərin öyrənmə tərzi, istifadə olunmuş və müəllimin istifadə edə biləcəyi mənbələr öz əksini tapmışdır.

Azərbaycan dili fənni üzrə dərslik komplektləri hazırlanarkən müəllim və şagirdlərin materialı lazımlı şəkildə dərk etmələri üçün onların dizayn elementlərinə də xüsusi diqqət yetirilmişdir. Hər bir ünsür fərqli rənglərdə verilmişdi. Bu isə məktəblidə estetik zövq formalaşdırır.

### *Ədəbiyyat*

1. *Hacıyev T., Bektaşi S., Vəliyeva M., Hüseynova Y. Ümumtəhsil məktəblərinin 8-ci sinfi üçün Azərbaycan dili fənni üzrə dərslik, Bakı, "Şərq-Qərb", 2019, 160 s.*
2. *Hüseynova Y., Bektaşi S. Ümumtəhsil məktəblərinin 8-ci sinfi üçün Azərbaycan dili fənni üzrə dərsliyin metodik vəsaiti, Bakı, "Şərq-Qərb", 2019, 160 s.*
3. *https://old.525.az/print_preview_a.php?id=38121*
4. *http://www.anl.az/down/meqale/az_muellimi/2011/iyul/194129.files/194130.htm*

**S.R.Əzizova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**azizsona00@gmail.com**

# TƏLƏBƏLƏRİN GÖZÜ İLƏ DİSTANT TƏHSİL VƏ MOBİL ÖYRƏNMƏ

***Xülasə***

*Bu tədqiqat yalnız distant təhsilə daxil olan magistr tələbələri, bakalavr və magistr tələbələri üçün nəzərdə tutulub. Oxşar tədqiqatlar COVID-19 prosesini yaşamış formal təhsildə universitet tələbələri ilə aparıla bilər və nəticələr müqayisə edilə bilər.*

# ДИСТАНЦИОННОЕ ОБУЧЕНИЕ И МОБИЛЬНОЕ ОБУЧЕНИЕ ГЛАЗАМИ СТУДЕНТОВ

***Резюме***

*Это исследование предназначено только для аспирантов, студентов и аспирантов, обучающихся на дистанционном обучении. Аналогичные исследования можно провести со студентами университетов, обучающимися в рамках формального образования, которые испытали на себе процесс COVID-19, и результаты можно будет сравнить.*

# DISTANCE EDUCATION AND MOBILE LEARNING THROUGH STUDENT EYES

***Summary***

*This study is intended only for graduate students, undergraduate and graduate students enrolled in distance learning. Similar studies could be done with university students in formal education who have experienced the COVID-19 process and the results can be compared.*

Mövcud koronavirus (COVID-19) epidemiyası təhsil sahəsinə, eləcə də insan sağlamlığına mənfi təsir göstərmiş, 63 milyon müəllim və 1,5 milyard şagird epidemiyadan təsirlənmişdir (UNESCO, 2020). Ömürboyu təhsilin bir parçası və formal təhsilə alternativ olaraq görülən distant təhsil epidemiyadan əvvəl bir çox ölkə, qurum və təşkilatlar tərəfindən istifadə olunurdu. Məsələn, 2015-ci ildə ABŞ-da 6 milyondan çox tələbənin distant təhsil aldığı məlumdur. 1800-cü illərə təsadüf edən distant təhsil ilk dəfə 1840-cı illərdə məktub tədrisi ilə başlamışdır. 1960-cı illərdə televiziya vasitəsilə distant təhsil, 1969-cu ildə

isə BBC və Britaniya hökumətinin dəstəyi ilə universitet səviyyəsində radio və televiziya verilişləri və mühazirələr davam etdirilmişdir (Bates, 2015). Müxtəlif yerlərdə olan qruplar, resurslar və təlimçilər telekommunikasiya sistemlərindən istifadə etməklə bir araya gətirilir. Distant təhsil birdən çox texnologiyadan istifadə etməklə, sinxron və ya asinxron olaraq verilən təhsildir, burada tələbə və müəllim müxtəlif yerlərdə olur və burada istifadə olunan texnologiyalar bunlar hesab olunur: İnternet, açıq yayım, qapalı dövrə, kabel, mikrodalğalı, genişzolaqlı xətlər, fiber optik, peyk və ya simsiz rabitə cihazları. Birtərəfli və ikitərəfli ötürmə vasitələrindən ibarətdir [1].

**Tədqiqatın Modeli**

Tədqiqatda distant təhsil alan tələbələrin öyrənməyə hazır olmaları ilə distant təhsili qavrayış səviyyələri arasında cins, yaş və təhsil səviyyəsinə görə fərq, onların öyrənmə ilə distant təhsili qavrayış səviyyələri arasındakı əlaqə araşdırılmışdır. Tədqiqatda təsviri və əlaqəli skrininq modelindən istifadə edilmişdir (Fraenkel & Wallen, 2005). M - öyrənməyə hazırlıq və distant təhsil üçün qavrayış səviyyələri vahid skanlama modeli ilə təsvir edilmişdir. İki və ya daha çox dəyişən arasındakı dəyişikliyi müəyyən etmək üçün istifadə edilən relational sorğu modeli ilə [Karasar, 2017] distant təhsil alan tələbələrin m-öyrənməyə hazırlığı və distant təhsil qavrayış səviyyələri arasındakı fərqlər cins, yaş və təhsil səviyyəsi dəyişənlərinə görə araşdırılmışdır. Distant təhsil alan tələbələrin m - öyrənməyə hazırlığı və qavrayış səviyyələri (r) əmsalı arasında əlaqə yoxlanılmışdır. Sorğunun son hissəsində distant təhsilin qiymətləndirilməsində dərsin məzmunundan məmnunluq dərəcəsi 5-dən 2,7-si olaraq müəyyən edilib. Buradan görünür ki, tələbələr yazılı məzmunu videolardan qismən daha adekvat hesab edirlər. Bu nəticə dərslərin daha çox şifahi olması ilə bağlı ola bilər. Sistem adekvatlığı, Pedaqoji Heyət haqqında rəylər 5-dən orta hesabla 2,7-dən bir qədər məmnunluq göstərir. İmtahanlara baxdıqda, digər şöbələrlə müqayisədə daha yüksək məmnunluq nisbəti görünür. İmtahanlar tədqiqatın aparıldığı universitetdə üzbəüz aparılır. Bu məmnuniyyətin sənətlərin üz-üzə olması ilə bağlı olduğu şərh edilə bilər, ancaq sənətlərin də distant təhsillə edildiyi bir sistemlə yellənmənin öyrənilməsinə daxil edilməmişdir. Əməliyyatda orta göstəriciyə yaxın nəticə müşahidə edildi. Ümumi məmnunluq ortalaması 5-dən 2,8 olaraq müəyyən edilmişdir. Buradan da şagirdlərin qismən razı qaldığı şərh oluna bilər, lakin nöqsanların olduğunu düşünənlərin də mühüm kütləni təşkil etdiyini unutmaq olmaz. Bu səbəbdən təklif oluna bilər ki, həm tədqiqatın aparıldığı universitet, həm də oxşar təcrübələri həyata keçirən orqanlar bu məmnunluq və səmərəlilik səviyyəsini maksimuma çatdırmaq üçün təfərrüatları xüsusilə tədqiqatın keyfiyyət hissəsində nəzərə almalı və ön tədqiqat aparmalıdırlar: müraciətin ediləcəyi auditoriyaya bənzər tədqiqatlar və proses tədqiqatları [1].

Tədqiqatın keyfiyyət hissəsi olan ikinci hissəsində ilk olaraq müsahibə formasında tələbələrdən ümumi kurslarda distant təhsilin hansı üstünlükləri olduğu soruşulmuş və təhlil nəticəsində müəyyən edilmişdir ki, onlar bunu xüsusilə üstünlüklü hesab edirlər: zamandan və məkandan müstəqil olmaq. Yenə mənfi cəhətləri soruşduqda, davamsızlıq qorxusu və qarşılıqlı əlaqənin olmaması diqqət çəkən çatışmazlıqlar arasındadır. Bu baxımdan praktikantlara tələbə-müəllim qarşılıqlı əlaqəsini təmin etmək üçün təklif oluna bilər ki, qiyabi sistemi qurarkən tələbənin fikirləri nəzərə alınsın və kurs müddətində heç olmasa vaxtaşırı olaraq asinxron təhsil əvəzinə qarışıq və ya birbaşa sinxron təhsil verilsin və əks əlaqəni asanlaşdıracaq infrastruktur yaradılsın. Formal təhsilə üstünlük verən səbəblər araşdırıldığında davamlılıq və qarşılıqlı əlaqənin ön plana çıxdığı görülür. Bu nəticə sinxron və ya birgə təhsilin vacibliyini bir daha vurğulayır. Distant təhsili seçmə səbəblərinə baxdığımızda təkrar etmək şansı diqqət çəkən cavablar arasındadır. Tədqiqatda şagirdlərin distant təhsilə dair təsəvvürlərinin, ümumiyyətlə orta səviyyədə olduğu nəticələrin orta qiymətləri araşdırıldığında onların yüksək qavrayış səviyyəsinə yaxın olduğu görülür. Tədqiqatın nəticələrinin əksinə olaraq, müəllim namizədləri ilə aparılan araşdırmada onların distant təhsillə bağlı təsəvvürlərinin qeyri-sabit səviyyədə olduğu aşkar edilmişdir. Yenə müəllimlərin veb-əsaslı tədrisə münasibətinin araşdırıldığı tədqiqatda onların qeyri-sabit səviyyədə olduğu müəyyən edilmişdir. Universitet tələbələri ilə aparılan başqa bir araşdırmada tələbələr mobil proqramdan dərsdə aktiv iştirakın aşağı olduğunu, buna səbəb isə dərs zamanı mobil cihazların kiçik ekranlarında mesaj yazmağın çətin olduğunu göstəriblər. Demək olar ki, mobil cihazlarda interaktiv dərslərin keçirilməsi dezavantaj ola bilər. Tələbələrə daxil olmaq üçün mobil cihazlardan istifadə ilə bağlı sual verildikdə, şagirdlərin 68,6%-nin mobil girişdən istifadə etdiyi görüldü. Mobil proqramın tələbləri bir çox tələbə tərəfindən üstünlük təşkil edilməsi distant təhsil tətbiqlərində mobil girişin əhəmiyyətini vurğulayır. Bu baxımdan distant təhsildə mobil proqramların əhəmiyyəti və inkişafı həm universitetlərə, həm də müvafiq sahənin üzvlərinə tövsiyə oluna bilər [2].

**Tədqiqatda tələbələrin distant təhsilə münasibəti ilə**

Tədqiqatda tələbələrin distant təhsili qavraması ilə bütün amillər arasında yüksək səviyyədə əlaqə olduğu görülmüş, müsbət əlaqə aşkar edilmişdir. Bu gün distant təhsil daha az vaxt, aşağı qiymət, bütün yaş qruplarından olan tələbələrə xidmət, imkan bərabərliyi, məlumatın istehsalı və yayılması, asan və sürətli çıxış kimi bir çox üstünlüklər təklif edir. Əks təqdirdə uğursuz olacaqlarını bilən öyrənməyə həvəsli və yüksək motivasiyalı insanlardır. Bu səbəbdən tədqiqatda iştirak edən tələbələrin distant təhsilə və mobil təhsilə hazırlığı ilə onların alt faktorları arasında əlaqələr yüksək səviyyədə ola bilər. Tələbələrə daxil olmaq üçün mobil cihazlardan istifadə ilə

bağlı sual verildikdə, şagirdlərin 68,6%-nin mobil girişdən istifadə etdiyi görüldü. Bundan əlavə, araşdırmanın keyfiyyət hissəsində mobil tətbiqlərdən istifadə etməyənlərin səbəbləri (məlumatlılıq, faydalılıq, infrastruktur və s.) yer almayıb. Təhsil metodunun seçimi araşdırıldıqda daha çox formal təhsilə üstünlük verildiyi və kursa görə də dəyişdiyi məlum olur. Sorğu bölməsində distant təhsilə, ümumiyyətlə üstünlük verilməməsi, lakin ümumi kursların qane olması bu fikri təsdiqləyir. Bu nöqtədə oxşar mövzularda araşdırma aparacaq tədqiqatçıların subyektlər mövcud nöqsanı nəzərə alaraq bu mövzunun təfərrüatlarını araşdırır. Mobil təhsil mobil cihazların informasiyaya asan çıxış funksiyasından istifadə etməklə həyata keçirilən modeldir. Tədqiqat zamanı əldə edilən distant təhsili qavrayış səviyyəsi ilə mobil təhsilə hazırlıq arasında orta müsbət əlaqə, insanların mobil cihazlar vasitəsilə zaman, məkan və məkandan asılı olmayaraq, mobil cihazlar vasitəsilə istənilən vaxt məlumat əldə edə bilməsi və həmçinin distant təhsilin üstünlüklərinin ortaya çıxmasına səbəb olur [2].

**Məqalənin aktuallığı:** Bu məqalənin aktuallığı distant təhsilin və mobil təhsili araşdırmaq və onların müxtəlifliyini nəzərdən keçirməkdir.

**Məqalənin elmi yeniliyi:** Məqalədə distant təhsil yolu ilə təhsil alan tələbələrin olduğu, həmçinin vəziyyətə görə fərqli olub-olmadığını ortaya qoymağa çalışılıb.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi:** Təhsilalanlar bu məqalə ilə distant təhsil səviyyəsinin təşkili ilə bağlı əsas məlumatları öyrənə bilərlər.

***Ədəbiyyat***

1. *Андреев А.А. Введение в дистанционное обучение: учебно- методическое пособие. --М.: ВУ, 1997.*
2. https://dergipark.org.tr/en/pub/etku/article/797164

**Ş.H.Musayeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***musaevashabnam49@gmail.com***

# STEAM. STEAM ƏSASLI DƏRS

***Xülasə***

*Məqalədə STEAM dərsləri və STEAM əsaslı dərslərin fərqli və oxşar xüsusiyyətləri araşdırılmışdır. Dərs prosessində STEAM əsaslı dərslərdən istifadənin üstünlükləri qeyd olunmuşdur. Bu dərs modelinin uğurlu tətbiqi şagirdin gələcəkdə XXI əsrin tələblərinə uyğun peşəkar kadr olaraq yetişməsinə müsbət təsir edir. Müəllim dərsi tədris edən zaman mövzunu izah edərkən STEAM metodundan istifadə etdikdə şagirdlərdə problemli həll etmə və proqnozlaşdırma, yeniliklər yaratmaq, metodlar seçmək, ixtira etmək, məntiqi düşünmə, özünəinam, texnoloji savadlılıq kimi müsbət keyfiyyətlər formalaşır. Şagirdlərin yaradıcı, tənqidi, sistemli və alternativ düşünmə bacarıqları inkişaf edir. Qazanılmış biliklərin tətbiq olunaraq yaddaşda daha uzun müddət saxlanılmasını təmin edir.*

# STEAM. УРОК НА ОСНОВЕ STEAM

***Резюме***

*В статье рассматриваются различные и схожие черты уроков STEAM и уроков на основе STEAM. Отмечены преимущества использования STEAM-уроков в учебном процессе. Успешное применение данной модели обучения положительно влияет на развитие студента как профессионального кадра в соответствии с требованиями XXI века в будущем. Когда учитель использует метод STEAM при проведении урока, у учащихся развиваются такие положительные качества, как решение проблем и прогнозирование, создание инноваций, выбор методов, изобретательство, логическое мышление, уверенность в себе, технологическая грамотность. Учащиеся развивают навыки творческого, критического, систематического и альтернативного мышления. Это гарантирует, что полученные знания сохраняются в памяти в течение более длительного периода времени.*

# STEAM. STEAM BASED LESSON

***Summary***

*The article examines the different and similar features of STEAM lessons and STEAM-based lessons. The advantages of using STEAM-based lessons in the teaching process have been mentioned. The successful application of this teaching model has a positive effect on the development of the student as a professional staff in accordance with the requirements of the XXI century in the future. When the teacher uses the STEAM method while teaching the lesson, students develop positive qualities such as*

*problem solving and forecasting, creating innovations, choosing methods, inventing, logical thinking, self-confidence, and technological literacy. Students develop creative, critical, systematic and alternative thinking skills. It ensures that the acquired knowledge is retained in the memory for a longer period of time.*

***Açar sözlər:*** *STEAM dərsləri, STEAM əsaslı dərslər, yaradıcılıq, alternativ düşünmə, öyrənmə modelləri*
***Ключевые слова:*** *STEAM-уроки, STEAM-уроки, креативность, альтернативное мышление, модели обучения*
***Key words:*** *STEAM lessons, STEAM-based lessons, creativity, alternative thinking, learning models*

STEAM dərs modeli dünyanın bir sıra inkişaf etmiş ölkələrində fənlərarası inteqrasiyaya əsaslanan yeni dərs modelidir. Science (Elm), Technology (Texnologiya), Engineering (Mühəndislik), Art (İncəsənət) və Mathematics (Riyaziyyat) sözlərinin baş hərflərinin birləşməsindən əmələ gəlmişdir. STEAM dərs modelinin əsas məqsədi təhsilalanların 21-ci əsrin tələblərinə cavab verməsidir [1]. Eyni zamanda onların gündəlik həyatda qarşılaşdıqları problemlərin asanlıqla həll yollarını axtarıb taparaq gələcəyə hazırlanmasıdır. STEAM bir fənn olaraq dünyanın bir çox inkişaf etmiş ölkələrində, həmçinin Azərbaycanda da tədris olunur. Bu dərs modeli şagirdlərdə yaradıcı, tənqidi, sistemli və alternativ düşünmə bacarıqlarını inkişaf etdirir, qazanılmış biliklərin tətbiq edilərək yaddaşda daha uzun müddət saxlanılmasını təmin edir.

Bəs STEAM əsaslı dərslər nədir? STEAM dərslərində bir neçə öyrənmə modelləri vardır. Bu öyrənmə modelləri aşağıdakılardır:

- Problem əsaslı öyrənmə (PrBL);
- Layihə əsaslı öyrənmə (PBL);
- Araşdırma əsaslı öyrənmə (İBL);
- Dizayn əsaslı öyrənmə;
- Oyun əsaslı öyrənmə;
- Analogiyaya əsaslanan öyrənmə;
- Mobil əsaslı öyrənmə;
- Tinkering (kustarlıq) - kiçik dəyişikliklər etməklə düzəltməyə əsaslanan öyrənmə.

Yuxarıda qeyd olunan öyrənmə modellərini dərs prosesinə tətbiq edərək STEAM əsaslı dərsləri yaratmaq mümkündür. Bundan başqa müasir təhsildə istifadə edilən E öyrənmə modelindən (5E,7E öyrənmə modelləri) istifadə edilməsi dərsin məqsədəuyğun formada tədrisinə imkan verir [4]. STEAM əsaslı dərslər digər dərslərdən bir sıra xüsusiyyətlərinə görə fərqlənir. Bu xüsusiyyətləri nəzərdən keçirək:

1. STEAM əsaslı dərslər şagirdlərdə tədqiqatçılıq bacarıqlarını inkişaf etdirir. Qarşıya qoyulmuş problemi həll etmək və ya layihə hazırlamaq üçün şagirdlər mütləq araşdırmalar aparmalıdır. Əməkdaşlıq şəklində axtarışların aparılması, məsuliyyət bölgüsü şagirdlərdə bir sıra şəxsi keyfiyyətlərin formalaşmasında böyük rol oynayır. Onlar fikir mübadiləsi aparır, öz biliklərini digərlərinə ötürür, çətinlikləri müəyyənləşdirir, onların həlli yollarını birlikdə tapmağa çalışırlar. Bu zaman müəllim yalnız fasiliatordur, şagirdə hazır bilik vermir. STEAM əsaslı dərslər şagirdyönümlüdür, yəni təhsilalanların fəaliyyəti üstünlük təşkil edir.

2. STEAM əsaslı dərslər şagirdləri komanda şəklində işləməyə yönləndirir. STEAM əsaslı dərslərin şagirdlərin məqsədyönlü, sistemli və tələblərə uyğun fəaliyyətini təmin etmək olduqca çətin prosesdir. Xüsusilə də sinifdə şagirdlərin sayı çox olduqda dərsin təşkilində bir sıra çətinliklər meydana çıxa bilər. Buna görə də fənn müəllimi bir sıra məsələlərə diqqət yetirməlidir. Şagirdlərin komandalarda qruplarla işinin təşkili zamanı bir-biri ilə ünsiyyət yarada bilən, həmfikir olan şagirdləri qruplaşdırmaq dərsin daha səmərəli və uğurlu keçməsinə şərait yaradır. Hər bir komandaya lider təyin edərkən onların sinifdəki nüfuzunu, bacarıq və qabiliyyətlərini mütləq nəzərə alın. Bu proses fənn müəlliminə komandaları idarə etməkdə çox kömək olur. STEAM əsaslı dərslərdə fənn üzrə laborantların da qrupların fəaliyyətinin izlənilməsinə cəlb edilməsi daha məqsədəuyğun olardı. Komanda şəklində işləyən şagirdlərdə ünsiyyət, fikirlərini aydın şəkildə ifadə etmək, cəsarət, özünəinam kimi xüsusiyyətlər formalaşır.

3. STEAM əsaslı dərslər şagirdlərdən hazırladıqları layihələri elmi baxımdan izah etməyi və dəqiq riyazi hesablamalar aparmağı tələb edir. Texnologiya dərslərində şagirdlər hər hansı bir modeli hazırlayan zaman bu modelin hazırlanması üçün lazım olan texnoloji biliklər əldə edirlər. Lakin raket modeli düzəldərkən şagirdlər raketin hazırlanması üçün lazım olan materialların fizika, kimya və biologiya əsasında izahını vermirlər. STEAM əsaslı dərslərdə isə şagirdlər mütləq şəkildə hazırladıqları prototipin elmi əsasını, işləmə prinsipini izah etməlidirlər. İstənilən model hazırlanan zaman onun ölçüləri, sahəsi, həcmi əvvəlcədən nəzərə alınmalı, müəyyən ölçmələr aparılmalıdır. Bu isə şagirdlərdən dəqiq riyazi biliklər tələb edir.

4. STEAM əsaslı dərslərdə ana xətti dizayn və mühəndislik bacarıqlarının formalaşdırılması təşkil etməlidir. Şagirdlər ideyalarını irəli sürdükdən sonra onlara bu ideyaları necə reallaşdıra biləcəkləri ilə bağlı suallar vermək lazımdır. Şagirdlərin cavablarına əsasən belə bir fikir formalaşacaq ki, onlar istənilən bir layihəni hazırlayan zaman maketin modelinin çəkilməsi, prototipin hissələrinin müəyyənləşdirilməsi, rəng və materialların seçilməsi, alətlərin müəyyənləşdirilməsi istiqamətində də araşdırma aparmalıdırlar. Şagirdlər layihəni hazırlayaraq öz əlləri ilə məhsulu dizayn etməklə hətta öz səhvlərini

də özləri tapa biləcəklər. Qurma, hissələrə ayırma, yapışdırma, tikmə, rəngləmə, modelləşdirmə kimi bacarıqlar STEAM əsaslı dərslər üçün xarakterikdir. Şagirdlər müstəqil, sərbəst formada məhsul hazırlayarkən həmin məhsulun yararlılıq səviyyəsini, praktik tətbiq imkanlarını, gündəlik həyatdakı yerini də özləri müəyyənləşdirir [3]. Beləliklə, dərsin sonunda əldə olunan bilik və bacarıqlar ömür boyu şagirdin yaddaşında qalır.

Bəzən STEAM dərsləri ilə STEAM əsaslı dərsləri qarışdırırlar. STEAM dərsləri ilə STEAM əsaslı dərslərin aşağdakı fərqli xüsusiyyətləri vardır.

STEAM dərsləri:

- Fənlərarası inteqrasiyaya əsaslanır;
- Dövlət tərəfindən müəyyən edilən məzmun standartları yoxdur;
- Fənn müəllimi öz fənnini əsas götürə bilməz;
- Fənlərarası inteqrasiya əsas rol oynayır;
- Hər hansı bir fənn üzrə mövzunun tədrisi əsas götürülə bilməz;
- STEAM dərslərinin tədrisi üçün zəruri olan cihaz və avadanlıqlardan, fənlərarası əlaqəyə yönəlmiş layihələrdən istifadə edilməlidir;
- Gündəlik həyatda qarşılaşdığımız problemlərin həllinə yönəlir;
- Təhsilalanların qiymtələndirilməsi üçün dövlət tərəfindən müəyyənləşdirilən qiymətləndirmə meyarları və standartları yoxdur.

STEAM əsaslı dərslərin xüsusiyyətləri:

- Fənnin tədrisində STEAM metodunun tətbiqinə əsaslanır;
- Dövlət tərəfindən müəyyən edilən məzmun standartları var;
- Fənn müəllimi öz ixtisasını əsas götürə bilər;
- Fənlərarası inteqrasiya əsas rol oynamır;
- Fənn üzrə mövzunun tədrisi əsas götürülür;
- Fənnin tədrisi üçün zəruri olan cihaz və avadanlıqlardan, layihələrdən, əl əməyindən (tinkerinq) istifadə edilməlidir;
- Fənnin tədrisində mövzuların məzmununa yönəlir;
- Təhsilalanların qiymətləndirilməsi üçün dövlət tərəfindən müəyyənləşdirilən qiymətləndirilmə meyarları və standartları var.

STEAM fənni ilə STEAM əsaslı dərslərin fərqli xüsusiyyətləri olduğu kimi oxşar xüsusiyyətləri də vardır. Yuxarıda qeyd olunanlardan göründüyü kimi hər iki dərs layihələrə və fənlərarası inteqrasiyaya əsaslanır [2]. Buradan bu nəticəyə gəlmək olar ki, bu dərslər şagirdlərin öyrəndikləri bilikləri praktikada tətbiqinə yönəlmişdir. Dərslərin digər oxşar xüsusiyyətlərindən biri də hər iki dərsdə cihazlardan, ləvazimatlardan və elektron resurslardan istifadə olunmasıdır. Həm STEAM dərsi, həm də STEAM əsaslı dərs şagirdyönümlü

və layihəyönümlüdür. Bu dərslərdə müəllim şagirdlərə hazır bilik verməməli, şagirdlərin öz araşdırmaları ilə gözlənilən nəticəyə gəlməsinə çalışmalıdır.

STEAM əsaslı dərs modelinin təşkilində müasir təhsildə istifadə edilən E öyrənmə modelindən istifadə edilməsi dərsin məqsədəuyğun formada tədrisinə imkan verir. İlk dəfə Amerika psixoloqu Benjamen Blum tərəfindən verilən təlim taksonomiyaları 2001-ci ildə alimin davamçıları olan L.Anderson və D.Kratvol tərəfindən təkmilləşdirildi. Koqvitiv prosesin taksonomiyasında aparılan təkmilləşdirmələr nəticəsində Blum taksonomiyasının yeni versiyası irəli sürüldü [5] (Şəkil 1.1).




**Şəkil 1.** L.Anderson və D.Kratvol tərəfindən təkmilləşdirilən Blum taksonomiyasının yeni versiyası

STEAM əsaslı dərslər didaktik xüsusiyyətlərinə görə də digər fənlərdən fərqlənir. Belə dərs modelinin uğurlu tətbiqi şagirdin gələcəkdə XXI əsrin tələblərinə uyğun peşəkar kadr olaraq yetişməsinə müsbət təsir edir. Müəllim dərsi tədris edən zaman mövzunu izah edərkən STEAM metodundan istifadə etdikdə şagirdlərdə problemli həll etmə və proqnozlaşdırma, yeniliklər yaratmaq, metodlar seçmək, ixtira etmək, məntiqi düşünmə, özünəinam, texnoloji savadlılıq kimi müsbət keyfiyyətlər formalaşır. Fənnin tədrisinin keyfiyyətini artırmaq baxımından da STEAM əsaslı dərs modeli xüsusi əhəmiyyət daşıyır. Bununla da biz deyə bilərik ki, STEAM əsaslı dərs modelinin dərs prosesinə tətbiq olunması keçirilən dərsi daha effektiv edir.

***Ədəbiyyat***

1. *Ebbinghaus, H. (1885). Memory: contributions to experimental psychology// Annals of neurosciences, volume 20, number 4, october, 2013, 155-156 pp.*
2. *https://elearning.tki.org.nz/Teaching/Future-focused-learning/STEM-STEAM*
3. *https://xqsuperschool.org/rethinktogether/what-is-steam-education/*
4. *https://elearning.tki.org.nz/Teaching/Future-focused-learning/STEM-STEAM*
5. *Murquzov M., Abdurazaqov R., Əliyev R., Əliyeva D., Bayramlı H., 11-ci sinif üçün Fizika fənni üzrə dərsliyin Metodik Vəsaiti, Bakı, 2020 – 224 səh.*

**B.E.Abdullayeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***abdullayevabahar97@gmail.com***

# İNKLÜZİV TƏHSİLİN TƏTBİQİNDƏ AİLƏ-MƏKTƏB ƏMƏKDAŞLIĞININ ÖYRƏNMƏYƏ TƏSİRİ

***Xülasə***

*Şagirdlərin məktəb həyatında əldə etdikləri uğurlar yalnız müəllim-şagird əməkdaşlığı çərçivəsində deyil. Bu uğurlara təsir edən mühüm amillərdən biri ailə-məktəb əməkdaşlığı hesab edilir. Ailə-məktəb əməkdaşlığı bütün şagirdlərin təhsili üçün vacibdir. Bu əməkdaşlıq şagirdlərin akademik uğurlarını, dərslərə olan həvəsini artırır.*

# ВЛИЯНИЕ СОТРУДНИЧЕСТВА СЕМЬИ И ШКОЛЫ НА ОБУЧЕНИЕ ПРИ РЕАЛИЗАЦИИ ИНКЛЮЗИВНОГО ОБРАЗОВАНИЯ

***Резюме***

*Успехи, достигнутые учащимися в школьной жизни, не только в рамках сотрудничества учителя и ученика. Одним из важных факторов, влияющих на эти успехи, является сотрудничество семьи и школы. Сотрудничество семьи и школы важно для образования всех учащихся. Это сотрудничество повышает успеваемость учащихся, их энтузиазм к занятиям.*

# IMPACT OF FAMILY-SCHOOL COLLABORATION ON LEARNING IN IMPLEMENTING INCLUSIVE EDUCATION

***Summary***

*The achievements of students in school life are achieved not only within the framework of teacher-student cooperation. One of the important factors influencing these successes is considered to be family-school cooperation. Family-School cooperation is essential for the education of all students. This cooperation increases the academic success of students, their enthusiasm for classes.*

***Açar sözlər:*** *əməkdaşlıq, təhsil, inklüziv təhsil, ailə, məktəb*
***Ключевые слова:*** *сотрудничество, образование, инклюзивное образование, семья, школа*
***Key words:*** *cooperation, education, inclusive education, family, school*

Əməkdaşlıq, ümumi məqsədə çatmaq üçün iki və ya daha çox şəxsin birgə iş tərzidir. Əməkdaşlıq fəaliyyətinin uğurlu olması üçün ünsiyyət vacib

şərtdir. Ünsiyyət olmadan əməkdaşlıq həyata keçirilə bilməz. Əməkdaşlığın səmərəli olması üçün könüllülük prinsipi olmalıdır. Qarşıya qoyulmuş məqsədə nail olmaq üçün insanlar könüllü fəaliyyət göstərməlidirlər. Qrup üzvlərinin bərabərhüquqlu olaraq qəbul edilməsi də əməkdaşlıq üçün şərait yaradır. Əməkdaş tərəflər ortaq məqsəd uğrunda fəaliyyət göstərməli, qərar qəbulu prosesində eyni məsuliyyəti bölüşməli və nəticələrə görə isə kollektiv şəkildə məsuliyyət daşımalıdırlar [8, s.96-99]. İnsanların başqa bir şəxslə işləməsi onların əməkdaşlıq etdiyi mənasına gəlmir. Əməkdaşlıq insanların nə etdikləri ilə deyil, birlikdə necə işlədikləri ilə bağlıdır. Həyatımızın bir çox sahəsində istifadə olunan əməkdaşlıq anlayışı təhsil sistemində də geniş yayılmışdır. Bildiyimiz kimi məktəblərdə və siniflərdə maraqları, bacarıqları, öyrənmə sürəti və alışqanlıqları müxtəlif olan şagirdlər var. Bu fərqliliklərin müxtəlif səbəbləri var ki, bunlardan genetik faktorları, iqtisadi imkanları, sosial-mədəni mühiti qeyd edə bilərik. Bu səbəblə müxtəlif sinif təcrübələrini həyata keçirmək üçün, başqa sözlə desək, inklüziv təhsili həyata keçirmək bacarığına malik müəllimlərin olması vacibdir. Keyfiyyətli inklüziv təhsilin təşkili üçün əməkdaşlıq müəllimlər, təhsil idarəçiləri, valideynlər, şagirdlər, digər mütəxəssislər və icma üzvləri arasında həyata keçirilə bilər [7, s. 46].

İnklüziv təlim mühitləri xüsusiyyətlərindən və ehtiyaclarından asılı olmayaraq bütün şagirdlərin birlikdə effektiv öyrənmə təcrübəsinin olduğu mühitlərdir. İnklüziv öyrənmə mühitlərində tələbələrin ehtiyaclarına, dəstək sahələrinə, maraqlarına, bacarıqlarına, güclü tərəflərinə və inkişaf xüsusiyyətlərinə uyğun tənzimləmələr mövcuddur. İnklüziv təhsil həm də qrup işini və əməkdaşlığı dəstəkləyən, dinamik olan, inkişaf etdirə bilən və müxtəlif öyrənmə üslublarına uyğunlaşdırıla bilən mühitlərdir. İnklüziv təlim mühitlərində inklüziv proqramlar və tədris strategiyalarına uyğun olaraq bütün uşaqların keyfiyyətli təhsil alması hədəflənir [9, c.3; s.3].

Şagirdlərin məktəb uğuruna təsir edən amilləri məktəbdaxili və məktəbdənkənar olmaqla iki qrupa ayırmaq olar. Məktəbdənkənar amillər içərisində ailə faktoru önəmli yer tutur. Ailə uşağın informal təhsil prosesinin başladığı, həyati vacib məlumatları əldə etdiyi, hörmət, sevgi, ünsiyyət, empatiya kimi sosial bacarıqların təməlinin qoyulduğu yer olduğu üçün inklüziv təhsil prosesində də mühim əhəmiyyət kəsb edir. Uşaqlar həyat haqqında ilk bilik və bacarıqları ailələrini seyr edərək, müşahidə edərək öyrənirlər. İnklüziv təhsil təcrübələri yalnız sinif fəaliyyəti ilə məhdudlaşmamalıdır. Ailənin iştirakı bütün uşaqların təhsili üçün vacibdir. Ailənin iştirakı valideynlərin uşaqları ilə qarşılıqlı əlaqəni artırmaqla onların ehtiyaclarına daha həssas olmağa kömək edir. Ailə ilə bağlı fəaliyyətlər vasitəsilə pedaqoqlar ailələrin mədəniyyəti və müxtəlifliyi haqqında daha dərindən anlayış əldə edirlər. Ailələrin hörmət və etimad göstərildiyi sosial və təhsil mühitinə daxil edilməsinin təmin edilməsi məktəb-ailə əməkdaşlığının

təmin edilməsi prosesində nəzərə alınacaq ilk addımdır. Çünki səmərəli məktəb-ailə əməkdaşlığı qarşılıqlı etimada, hörmətə və uşaqların və gənclərin təhsili ilə bağlı məsuliyyətlərin bölüşdürülməsinə əsaslanır. Məktəblər şagirdlərə ev mühitində nəzarət edə bilmədikləri üçün bu işdə ailələr şagirdlərin inkişafına müsbət təsir edəcək fəaliyyətlərə dəstək verərək məktəb ilə əməkdaşlıq edirlər. Valideynlər övladlarını motivasiya edə, onlara ev tapşırıqlarında kömək edə bilərlər [6; s. 183].

Şagirdlərin təhsildə əldə etdikləri uğurda ailələrin rolu böyükdür. Ailələrin bu prosesdə iştirakı ilə keyfiyyətli təlim-tədris arasında əlaqə olduğu bildirilir. Xüsusilə inkişaf etmiş ölkələrdə ailələrin məktəb ilə fəal əməkdaşlığı və övladlarının təhsil məsuliyyətini müəllimlər və məktəb rəhbərliyi ilə birgə öz üzərilərinə götürmələri məktəbdəki qərarqəbuletmə prosesində iştirakları ilə mümkündür [1; s. 124-127].

Ailə uşağın informal təhsil prosesinin başladığı, həyati vacib məlumatları əldə etdiyi, hörmət, sevgi, ünsiyyət, empatiya kimi sosial bacarıqların təməlinin qoyulduğu yer olduğu üçün inklüziv təhsil prosesində də mühim əhəmiyyət kəsb edir. Uşaqlar həyat haqqında ilk bilik və bacarıqları ailələrini seyr edərək, müşahidə edərək öyrənirlər. İnklüziv təhsil təcrübələri yalnız sinif fəaliyyəti ilə məhdudlaşmamalıdır. Ailənin iştirakı bütün uşaqların təhsili üçün vacibdir. Ailənin iştirakı valideynlərin uşaqları ilə qarşılıqlı əlaqəni artırmaqla onların ehtiyaclarına daha həssas olmağa kömək edir. Ailə ilə bağlı fəaliyyətlər vasitəsilə pedaqoqlar ailələrin mədəniyyəti və müxtəlifliyi haqqında daha dərindən anlayış əldə edirlər. Ailələrin hörmət və etimad göstərildiyi sosial və təhsil mühitinə daxil edilməsinin təmin edilməsi məktəb-ailə əməkdaşlığının təmin edilməsi prosesində nəzərə alınacaq ilk addımdır. Çünki səmərəli məktəb-ailə əməkdaşlığı qarşılıqlı etimada, hörmətə və uşaqların və gənclərin təhsili ilə bağlı məsuliyyətlərin bölüşdürülməsinə əsaslanır. Effektiv məktəb-ailə əməkdaşlığını dəstəkləyən əsas prinsiplər aşağıdakılardır: [10; c.4; s.9-1]

- Ailələr övladlarının ilk və davamlı tərbiyəçiləridir;
- Bütün ailələr və məktəblər uşaqlar üçün ən yaxşısını istəyirlər;
- Ailə və məktəb əməkdaşlığı qarşılıqlı məsuliyyət, hörmət və etimada əsaslanır;
- Məktəblər ailələrin müxtəlifliyini qiymətləndirir və ondan mənbə kimi istifadə edirlər;
- Məktəb-ailə əməkdaşlığı şagirdlərin motivasiyasını artırır;

Bu prinsipləri nəzərə alaraq məktəb-ailə əməkdaşlığı aşağıdakı əsaslara söykənməlidir: [10; c.4 s.9-14]

- Şagirdlərin ehtiyac və üstünlüklərinə hörmət etmək;
- Şagirdlər üçün daha yaxşı proqramlar, imkanlar və öyrənmə prosesləri yaratmaq;

- Məktəbdə qərar qəbul etmə və idarəetmə prosesinə ailələrin müvafiq töhfə vermək imkanlarını yaratmaq;
- Xüsusilə daha əvvəl iştirak etməyən ailələrin iştirakını təmin etməyə çalışmaq.

Ənənəvi bürokratik quruluşa malik məktəb modelləri düşünür ki, məktəb və ailə bir-birindən ayrıdır, onların ayrı-ayrı vəzifə və öhdəlikləri var. Bu isə məktəb və ailə arasında uyğunsuzluğa, münaqişəyə səbəb ola bilər. Müasir yanaşmalar isə ənənəvi yanaşmanın əksinə olaraq məktəb və ailələrin şagird üzərində ortaq məsuliyyət daşıdığını, məktəb və ailə əməkdaşlığının əhəmiyyətini vurğulayır [5; s.124]. Valideynlərin inklüziv təhsilin mühim komponentlərindən biri olduğunu nəzərə alaraq, onların dəstəyi və iştirakı təmin olunmayan bir prosesdə inklüziv təhsildən danışmaq mümkün deyil. İnklüziv təhsil yanaşması, əlbəttə ki, uşaqların məktəbdənkənar həyat təcrübələri ilə məktəbdə qurulan təhsil arasında əlaqə yarada bilən məktəb təcrübələrini tələb edir. Bu mənada valideynləri əhatə edəcək strategiyaların necə hazırlana biləcəyi müzakirə edilməli olan məsələlər sırasındadır [2; s. 9].

Məktəb-ailə işbirliyinin məqsədi əməkdaşlığı təmin etmək, valideynlərə tədris prosesi ilə məlumat vermək, ailələrin bilik və bacarıqlarından faydalanmaqdır [3; s.2563]. Şagirdlərin məktəb həyatında qazandıqları uğurlarda ailələrin rolu olduqca böyükdür. Ailənin məktəb ilə əməkdaşlığı şagirdlərin akademik uğurlarını, dərslərə olan həvəsini artırır. Məktəb ilə ailə əməkdaşlığı şagirdlərin bilik və bacarıqlarına diqqət etməyə, valideynlərin də iştirak etdiyi sosial fəaliyyətlərin təşkili ilə şagirdlərin motivasiyası arta və mənfi davranışlardan uzaqlaşa bilərlər [4; s.44-45]. Təhsilin keyfiyyətinin artmasında ailə-məktəb əməkdaşlığı mühim rol oynayır. Bu əməkdaşlıq zamanı ünsiyyət mühim əhəmiyyət kəsb edir. Ünsiyyət yalnız ailə və məktəb arasında məlumat alış-verişi deyil, eyni zamanda bir-birləri haqqında ətraflı məlumat əldə etməyə kömək edir. Ünsiyyət vasitəsilə məktəblər ailələrin ehtiyaclarını başa düşə bilirlər. Məktəblər ünsiyyət vasitəsilə ailələrin özlərini dəyərli hiss etmələrini təmin edə bilər. Uşaqların uğurlu olmaqları üçün məktəb və ailələr arasında ortaq gözləntilər olmalıdır. Müəllimlər şagirdlərin fərdi xüsusiyyətləri haqqında valideynlərdən məlumat alaraq tədris prosesinin keyfiyyətini daha da artıra bilərlər. Valideynlərin məktəb fəaliyyətinə qatılmasının bir neçə səbəbi var ki, bunlara aşağıdakılar aiddir [12; s. 9-16]:

1. Valideynlər övladlarının ilk tərbiyəçiləri olduqları üçün;
2. Valideynlərin iştirakı şagirdlərin akademik nailiyyətlərini artıra bilər;
3. Bu, valideynlərin haqqıdır;
4. Valideynlərin övladlarının üzərində uzunmüddətli məsuliyyətləri var.

Redding məktəb-ailə əməkdaşlığının səmərəliliyini artıracaq bir neçə xüsusiyyətin olduğunu qeyd etmişdir. Bunlara aiddir:

1. Ailələr məktəb və təhsilin bir hissəsi olaraq qəbul edilməlidir;
2. Ailələrin bir-biri ilə əlaqəsi nəticəsində ailə iştirakı başlayır;
3. Ailələrin iştirakında əsas prioritetlər övladlarının təhsilinə töhfə vermək, ailələrin bir-birinə verdiyi töhfələr və ailələrin bir-birinin övladlarının təhsilinə verdiyi töhfələr olaraq sıralana bilər [12; s. 22].

Bəzən əlilliyi olan uşaqların valideynləri özlərini günahkar hiss edirlər. Məktəb-ailə əməkdaşlığı zamanı müəllimlər valideynlərə emosional dəstək göstərərək, onlara bu düşüncələrdən, günahkarlıq, tənhalıq hissindən azad olmağa kömək edə bilərlər. Müəllimlər valideynləri ruhlandırmaq üçün onlara övladlarının uğurları haqqında məlumat verə bilərlər. Əlilliyi olmayan uşaqların valideynləri ilə birlikdə əlilliyi olan uşaqların da valideynlərinin iclaslarda, qərar qəbulu zamanı birlikdə iştirakı onlara müəllimlərin dəstəyini hiss etdirə bilər. Bu əməkdaşlıq zamanı müəllimlər, məktəb psixoloqu valideynlərə övladları ilə bağlı, onların inkişafı haqqında məlumat verə bilərlər. Valideynlər ilə ünsiyyət zamanı qeyri-səmimi, gərgin münasibətdən uzaq olmaq üçün terminlərdən istifadə etməmək, onlara övladları haqqında dəqiq informasiya vermək kimi kiçik nüanslara diqqət edilə bilər [11; s. 54-57].

Valideynlər və ailə üzvləri uşaqları ən yaxşı tanıyan şəxslər olduqlarından, onlar uşaqların davranışını, maraq və ehtiyaclarını digər şəxslərdən daha yaxşı bilirlər. Bu səbəbdən valideynlərlə ünsiyyət müəllimlərə təlim-tədris prosesinin daha yaxşı təşkili üçün kömək edir. Valideynlər uşaqların inkişafında və öyrənməsində əhəmiyyətli rol oynadıqlarından onların övladları ilə bağlı qərarvermə prosesində iştirakı vacibdir. Müəllimlərin bu əməkdaşlıq zamanı şagirdlər haqqında əldə etdikləri məlumat tədris prosesinin təşkili zamana faydalı ola bilər [13; s.65-67].

***Ədəbiyyat***

*1. Aslanargun E. Okul - aile işbirliği ve öğrenci başarısı üzerine bir tarama çalışma. Sosyal bilimler dergisi. Sayı:18, s.120-135. 2007.*
*2. Ayan M., Kapsayici eğitim: okul pratikleri, öğretmen ihtiyaçları. İstanbul – 2016.*
*3. Bozkurt E., Bayar A., Üstün A. Okul yöneticilerinin okul çevre ilişkileri ile ilgili sorunlari ve çözüm önerileri. Hitit Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi,11(3), 2561-2574. Yıl: 2018.*
*4. Ceylan M, Akar B. Ortaöğretimde Okul - Aile işbirliği ile ilgili Öğretmen ve Veli Görüşlerinin incelenmesi. Çankırı Karatekin Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi 2 (2010) 43-64.*

5. *Çalık C. Okul - çevre ilişkisinin okul geliştirmedeki rolü:Kavramsal bir çözümleme. GÜ, Gazi Eğitim Fakültesi Dergisi, Cilt 27, Sayı 3 (2007) 123-139.*
6. *Gökçe F, Kahraman P.B. Etkili Okulun Bileşenleri: Bursa İli Örneği//Eğitim Fakültesi Dergisi XXIII (1), 2010, 173-206.*
7. *H.Sakız, İ.Göksu, N.Ergün, F.Özdaş, A.Ekinci, Ö.M.Öter, M. Savuncu. Kapsayıcı eğitim: Tüm çocuklar için katılım öğrenme ve gelişim modeli. Mardin Artunlu Üniversitesi yayınları, 2022.*
8. *Loreman T., Deppeler J., Harvey D. İnklüziv təhsil: Sinifdə müxtəlifliyin dəstəklənməsi üçün təcrübi təlimatlar, 2005. Tər. Orucova L. 2020. Bakı: "ideal print" mətbəəsi, səh.324.*
9. *Öner G. Kapsayıcı öğrenme ortamları: Kendi kendine öğrenme, 2020. Modul3*
10. *Öner G. "Kendi Kendine Öğrenme" Modülü: modül -4: okul, aile ve toplum işbirliği. 2020.*
11. *TİPİİ, İnklüziv siniflərdə təlimin təşkili. Oxu materialı, 2018. 68 səh.*
12. *Topuz Y. Okulun dışsal çevre ile olan ilişkisi: Veliler. Marmara Universitesi Eğitim bilimleri enstitüsü. 2015.*
13. *UNİCEF və RİİB- İnklüziv siniflərdə təlimin təşkili. Oxu materialı. 80 səh.*

**Ç.N.Mahmudova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**mahmudovacinare2000@gmail.com**

# MÜƏLLİMİN PEŞƏKAR PEDAQOJİ MƏDƏNİYYƏTİ

***Xülasə***

*Pedaqoji mədəniyyətin məzmunu müəllimin fərdi peşəkar keyfiyyətlərinin aparıcı komponentlərini və funksiyalarını müəyyən edən sistem vasitəsilə nəzərdən keçirilir. Peşəsi pedaqoji fəaliyyətin həyata keçirilməsi ilə bağlı olan şəxs peşə və pedaqoji mədəniyyətin daşıyıcısı hesab edilir.*

# ПРОФЕССИОНАЛЬНО-ПЕДАГОГИЧЕСКАЯ КУЛЬТУРА УЧИТЕЛЯ

***Резюме***

*Содержание педагогической культуры рассматривается через систему, конкретизирующую ведущие компоненты и функции индивидуальных профессиональных качеств педагога. Лицо, профессия которого связана с осуществлением педагогической деятельности, считается носителем профессионально-педагогической культуры.*

# TEACHER'S PROFESSIONAL PEDAGOGICAL CULTURE

***Summary***

*The content of pedagogical culture is considered through a system that concretizes the leading components and functions of the individual professional qualities of the teacher. A person whose profession is related to the implementation of pedagogical activities is considered a carrier of professional and pedagogical culture.*

***Açar sözlər:*** *şagird, müəllim, məktəb, şəxsiyyət, kompetensiya*
***Ключевые слова:*** *ученик, учитель, школа, личность, компетентность*
***Key words:*** *student, teacher, school, personality, competence*

Təhsil sahəsində müasir paradiqma XXI əsrin informasiya və sosial mədəniyyəti şəraitində müasir tələb və çağırışlara cavab verməyə qadir olan rəqabətqabiliyyətli mütəxəssisə tələbat ilə və pedaqoji kadrların ixtisas səviyyəsinin yüksəldilməsi ilə müəyyən edilən tələblərlə xarakterizə olunur.

Müasir peşə və təhsil mühiti ali təhsil müəssisələrinin məzunlarının, o cümlədən psixoloji və pedaqoji profillilərin peşə ixtisaslarının səviyyəsinin qiymətləndirilməsi ilə bağlı diqqətin yenilənməsinə yönəlmişdir. Tələbələrin

inklüziv mühitdə gənc nəslin tərbiyəsi ilə bağlı məqsədyönlü və sistemli şəkildə təşkil edilmiş təlim prosesini həyata keçirməyə hazır olması bilavasitə onların müstəqil şəxsi təhsili üçün zəmin yaradan ümumi mədəni, mənəvi-əxlaqi inkişafı və peşə hazırlığı üçün əsasların olması ilə əlaqədardır.

Müəllimlərin hazırlanması zamanı respublikanın sosial-iqtisadi inkişafının doğurduğu aparıcı amilləri nəzərə almaq və onları tədris prosesinin təşkilinə daxil etmək lazımdır. Bu müddəa psixoloji və pedaqoji kadrların hazırlanmasında xüsusi aktuallıq kəsb edir, çünki gənc nəslin şəxsi keyfiyyətlərinin formalaşması əsasən ümumtəhsil məktəbi ilə təmsil olunan təhsil prosesinin keyfiyyəti ilə bağlıdır.

Mədəni fəaliyyətin bir sıra forma və növləri arasında pedaqoji fəaliyyətə xüsusi yer ayrılır.

Peşəkar fəaliyyətin xüsusi növü şəklində təqdim olunan pedaqoji fəaliyyətin məzmunu təlim, tərbiyə, təhsil və şəxsi inkişafla müəyyən edilir. Pedaqoji fəaliyyət təhsil, tərbiyə və inkişaf prosesi ilə əhatə edilən şagirdlərin və onları öyrədən müəllimin birgəfəaliyyəti ilə xarakterizə olunur.

Şəxsin peşə mədəniyyətinin formalaşmasına həsr olunmuş bir sıra tədqiqatlarda fərdin peşə təhsili və peşə özünütəyinatı sisteminin qeyri-münasib şəraiti, şərtləri və meylləri aşkar edilmişdir.

Ümumiyyətlə, mövcud sosial-mədəni vəziyyət əhalinin əsas hissəsinin keyfiyyətli təhsil almaqdan getdikcə daha çox imtina etməsinə səbəb olur. Müasir dünyanın kommersiyalaşması səbəbindən bu gün ümumi əhali üçün ali təhsil əlçatmazdır və bu, təhsil sistemində özünü ödənişli təhsil forması ilə göstərir. Müasir cəmiyyətin paradiqması kontekstində bazar münasibətləri təhsildə keyfiyyət problemini aktuallaşdıraraq, onu mütəxəssislərin hazırlığı ilə (texnoloji, ümumi mədəni və psixoloji) əlaqələndirir, bu da onlarda peşəkar mədəniyyətin formalaşmasını nəzərdə tutur.

Bu baxımdan, müəllimin şəxsi pedaqoji mədəniyyəti onun peşəkar fəaliyyətində uğur qazanmaq üçün əsas şərtdir. Müasir tədqiqatçılar pedaqoji mədəniyyəti müəllimin peşəkar fəaliyyətinin müvafiq səviyyəsini təmin edən təbii və qazanılmış şəxsi keyfiyyətləri özündə birləşdirən şəxsiyyət xüsusiyyətlərinin inteqrasiyası kimi nəzərdən keçirirlər.

“Peşəkar pedaqoji mədəniyyət”in mahiyyəti “peşəkar və pedaqoji mədəniyyət” anlayışı ilə bağlıdır.

Fikrimizcə, bu kontekstdə peşə mədəniyyəti oxşar peşə fəaliyyəti ilə məşğul olan bir qrup insanların peşə fəaliyyət və xüsusiyyətlərinin əmək differensasiyası yolu vasitəsilə nəzərdən keçirilməlidir.

Peşəkar fəaliyyət məqsədləri, vəzifələri, mövzusu, vasitələri, metodları və nəticələri daxil olmaqla mürəkkəb struktura malik olan sosial-mədəni hadisədir. Mütəxəssisin yüksək peşəkar mədəniyyəti peşəkar problemləri həll

etmək bacarığını təmin edən inkişaf etmiş peşəkar düşüncə və şüurla xarakterizə olunur.

Ənənəvi olaraq, peşəkar mədəniyyət anlayışı müəyyən əmək fəaliyyəti sahəsində bir sıra xüsusi nəzəri biliklər və praktik bacarıqlarla bağlıdır. Peşəkar mədəniyyətin formalaşmasına mədəniyyətin inkişafı, qorunub saxlanılması və yayılması ilə bağlı qurumların yaranması kömək etmişdir. Bu silsilədə gənc nəslin təlim və tərbiyəsinə yönəlmiş və sosial forma kimi mədəni prosesləri təchiz edən peşə təhsili sistemi xüsusilə qeyd edilməlidir.

Peşə mədəniyyəti fərdin öz peşə sahəsində problemlərin həlli üsullarını və vasitələrini müəyyən dərəcədə mənimsəməsi deməkdir.

Uzun müddət "pedaqoji mədəniyyət"in nəzərdən keçirilməsi konkret elmi izahat olmadan gündəlik şüurun kateqoriyalarının psixoloji-pedaqoji planda təhlili əsasında həyata keçirilirdi. Və o, pedaqoji taktika, pedaqoji texnika və bacarıq, pedaqoji təhsil kontekstində normalar, davranış qaydaları ilə təmsil olunurdu.

Müəllimin şəxsi mədəniyyəti – müəllim adının özündə mədəniyyət, mədəni olmaq mənaları vardır. Müəllim deyəndə göz önünə gələn xüsusiyyətlərdən biri onun mədəniyyəti, mədəni davranışına malik olmasıdır. N.Q.Çernişevski yazırdı ki, tərbiyəçi tərbiyə etdiyi uşaqdan nə düzəltmək istəyirsə, özü də elə olmalıdır. Bəli, müəllim əgər öz yetişdirmələrini savadlı, mədəni, yüksək mənəvi keyfiyyətlərə malik şəxslər kimi görmək istəyirsə, ilk növbədə özü bu keyfiyyətlərə malik olmalıdır. Müəllimin şəxsi mədəniyyəti onun özünəməxsus keyfiyyət kimi nüfuzunu yüksəldir, onu hörmətli edir. Ümumi mədəniyyətin tərkib hissəsi olan şəxsi mədəniyyət bəzən cəmiyyətin müəyyənləşdirdiyi ümummədəni maraqlardan da yüksəyə qalxır və müəllimin nüfuzunu daha da artırır.

Ümumi mədəniyyətin tərkib hissəsi olan müəllimin peşə mədəniyyəti müəllimin hərəkət və davranışının, sözünün, münasibətinin mənəvi normalar daxilində olması deməkdir. Müəllim harada, hansı şəraitdə - sinifdə, məktəbdə, məktəbdən kənarda, cəmiyyət içərisində olursa olsun müəllim olduğunu, müəllim kimi yüksək ad daşıdığını yaddan çıxarmamalı və mədəni hərəkət etməlidir. Bu həm müəllim peşəsinin, həm də bu adın daşıyıcısı kimi müəllimin özünün nüfuzunu artıran amillər kimi də mühüm əhəmiyyət kəsb edir. Müəllimin ümumi mədəniyyətə malik olması, yəni şəxsi mədəniyyəti pedaqoji prosesdə mühüm rol oynayır.

Müəllimin şəxsi mədəniyyətinin bir sıra komponentləri vardır. Bunların içərisində əxlaq mədəniyyəti və estetik mədəniyyəti xüsusi qeyd etmək olar. Əxlaq mədəniyyəti müəllimin hərəkət və davranışının əxlaqi prinsip və normalara uyğun olması, əxlaqi keyfiyyətlərinin yerindən, zamanından asılı olmayaraq sabitliyi, ünsiyyət mədəniyyətinin olması, dinləməyi bacarmaq, çətin situasiyalarda özünü ələ ala bilmək, obyektivlik, şagird şəxsiyyətinə

hörmətlə yanaşmaq, danışıq və davranışında müəyyən həddi gözləmək, tələb etdiklərinə özünün əməl etməsinə və s.-dən ibarətdir.

Müəllimin bu keyfiyyətlərə malik olması əxlaqi sərvətlər, dəyərlər kimi onun nüfuzunu artırır. Bunlar həmçinin müəllimin mədəni dünyagörüşünü artırır. Onun xarakterinin formalaşmasına təsir göstərir. Müəllimin estetik mədəniyyəti onun əxlaqı mədəniyyətindən heç də az rol oynamır. Onun estetik sərvətlərə – dəyərlərə yiyələnməsi ziyalılıq səviyyəsinin əsas göstəricilərində birinə çevrilir. Müəllimin təbiətə və cəmiyyətə estetik münasibəti, bədii mədəniyyətə yiyələnməsi, xalq sənətinə, həmçinin dünya bədii sənətinə, incəsənətinə bələd olması, nəhayət, estetik zövqə, hissə və qabiliyyətə malik olması onun bir müəllim – ziyalı nüfuzunun yüksəlməsinə mühüm təsir göstərir. Mədəni xarici görünüş, təmiz, səliqəli, zövqlü geyimdə bu prosesdə az əhəmiyyət kəsb etmir.

Bir sıra tədqiqat işlərində müəllimin şəxsi mədəniyyətinin komponentləri: metodik, əxlaqi-estetik, texnoloji, kommunikativ, mənəvi və fiziki və s. pedaqoji mədəniyyətin bir sıra sahələrini və aspektlərini əhatə edən fəlsəfi, sosioloji, pedaqoji və psixoloji elmlərdə mədəni yanaşma kontekstində baxılmağa başladı. Pedaqoji mədəniyyət müəllimin peşəkar keyfiyyətlərinə və müəllim peşəsinin xüsusiyyətlərinə əsaslanan pedaqoji kadrların ümumi mədəniyyətinin mühüm tərkib hissəsi kimi təqdim olunur. Müəllimin şəxsi keyfiyyətlərinin ümumiləşdirilmiş inteqrativ göstəricisi, onun effektiv pedaqoji fəaliyyəti üçün şərait və ilkin şərtlər onun peşəkar səriştəsi və özünü peşəkar təkmilləşdirmə məqsədi ilə müəyyən edilir.

Beləliklə, pedaqoji mədəniyyətin məzmunu müəllimin fərdi peşəkar keyfiyyətlərinin aparıcı komponentlərini və funksiyalarını konkretləşdirən sistem vasitəsilə nəzərdən keçirilir. Peşəsi pedaqoji fəaliyyəti həyata keçirilməsi ilə bağlı olan şəxs peşə və pedaqoji mədəniyyətin daşıyıcısı hesab olunur.

Peşəkar və pedaqoji mədəniyyətin mahiyyəti, onun dərk edilməsi ümumi və peşə mədəniyyəti arasındakı əlaqələri müəyyən edən bir sıra ilkin metodoloji şərtlərlə əlaqələndirilir. Peşəkar və pedaqoji mədəniyyətin spesifik xüsusiyyətləri bir sıra müəlliflər tərəfindən aşağıdakı müddəalar vasitəsilə nəzərdən keçirilir:

- peşə və pedaqoji mədəniyyət pedaqoji reallığı müəyyən edən universal xüsusiyyət kimi qəbul edilməlidir;
- peşə və pedaqoji mədəniyyət konkret pedaqoji fəaliyyətə ümumi mədəniyyətin spesifik proyeksiyası kimi nəzərdən keçirilməlidir;
- peşə və pedaqoji mədəniyyət öz təşkilatı strukturu və funksional komponentləri ilə təmsil olunan sistemdir; bununla belə, o, ətraf mühitlə seçmə qarşılıqlı və vahid inteqrativ əlaqələrlə təmsil olunur ki, bu da həmişə onun komponentlərinin ayrı-ayrı xüsusiyyətləri ilə əlaqədar deyil;

- yaradıcılıq fəaliyyətinə peşə-pedaqoji mədəniyyətin təhlili vahidi kimi baxılmalıdır;
- müəllimin peşəkar pedaqoji mədəniyyətinin formalaşması və həyata keçirilməsində səciyyəvi cəhətlər onun fərdi yaradıcılıq, psixofizioloji və yaş xüsusiyyətləri, mövcud sosial-pedaqoji təcrübəsi kontekstində nəzərə alınmalıdır.

***Ədəbiyyat***

1. *İlyasov M. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri. Monoqrafiya. Bakı: “Elm və təhsil”, 2018, 208 s.*
2. *Mehrabov A.O. Səriştəli müəllim hazırlığının problemləri. Bakı: Elm və təhsil.*
3. *Берулава М.Н. Гуманизация образования: направление и проблемы // Педагогика , 1996, № 7, с.24-27.*

**G.Y.Abdunova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***gulareabdunova@gmail.com***

# ÖYRƏNƏN MƏKTƏB ANLAYIŞININ TƏHLİLİ

***Xülasə***

*Ətraf mühitdə baş verən sürətli dəyişikliklər müəssisələri bu dəyişikliklərə uyğunlaşmağa məcbur edir. Təbii ki, bu dəyişikliklər təşkilatları bir sıra problemlər ilə üz-üzə qoyur. Həmin problemlərin öhdəsindən gəlmək üçün kollektiv üzvlərinin fərdi və kollektiv inkişafının təmin olunması ilə bağlı yaranan zərurət təşkilati öyrənmə anlayışının formalaşmasına səbəb olmuşdur. Öyrənən təşkilatlar haqqında həyata keçirilən araşdırmalar öyrənən məktəb anlayışının formalaşmasına şərait yaratmışdır. Məqalədə təşkilati öyrənmə və öyrənən məktəb anlayışları, onların əhatə dairəsi nəzərdən keçirilmişdir.*

# ПОДХОД К КРИТЕРИЯМ ЭФФЕКТИВНОГО УПРАВЛЕНИЯ ШКОЛОЙ

***Резюме***

*Быстрые изменения внешней среды заставляют предприятия приспосабливаться к этим изменениям. Конечно, эти изменения ставят организации перед рядом проблем. Для того чтобы справиться с этими проблемами, необходимость обеспечения индивидуального и коллективного развития членов коллектива привела к формированию концепции организационного обучения. Исследования обучающихся организаций создали условия для формирования концепции обучающейся школы. В статье рассматриваются понятия организационного обучения и школьного обучения, их объем.*

# APPROACH TO CRİTERİA FOR EFFECTİVE MANAGEMENT OF SCHOOL

***Summary***

*Rapid changes in the environment force enterprises to adapt to these changes. Of course, these changes make organizations face a number of problems. In order to cope with these problems, the need to ensure the individual and collective development of team members led to the formation of the concept of organizational learning. Researches about learning organizations have created conditions for the formation of the concept of learning school. The article reviews the concepts of organizational learning and learning school, their scope.*

***Açar sözlər:*** *öyrənmə, öyrənən təşkilat, öyrənən məktəb, kollektiv inkişaf*

***Ключевые слова:*** *обучение, организация обучения, школа обучения, коллективное развитие*

***Key words:*** *learning, learning organization, learning school, collective development*

Öyrənmə canlıların malik olduğu və onları digər varlıqlardan fərqləndirən ən mühüm xüsusiyyət kimi müəyyən olunur. Öyrənmə canlıların ömür boyu ətraf mühitə uyğunlaşması prosesində mühüm əhəmiyyət daşıyır.

İlk növbədə qeyd etmək lazımdır ki, öyrənmə anadangəlmə sosial hadisədir. Öyrənərək biz yalnız informasiya əldə etmiş olmuruq, eyni zamanda başqa insanlar ilə əlaqələr yaratma şansı da qazanırıq. İnsanların ətraf mühitlə əlaqə qurması isə onlara təcrübə qazandırır və beləliklə, onlar öyrənmiş olurlar. Öyrənmə müəyyən bir yaş dövrünü əhatə edən bir fəaliyyət deyil, biz yaşadıqca, ətrafımızdakı insanlar ilə ünsiyyətdə olduqca bu proses davam edir.

İnsanlar kimi təşkilatlar da fəaliyyətlərini davam etdirə bilmək üçün mühitdə baş verən dəyişikliklərə uyğunlaşırlar, öyrənirlər, beləliklə, tədricən inkişaf etmiş olurlar. Ətraf mühitdən təcrid olunmuş təşkilatlar fəaliyyətlərinin davamlılığını təmin edə bilmir və beləliklə süquta uğrayır. Bu səbəbdən təşkilatlar daima öyrənməli, inkişaf etməli və fürsətləri dəyərləndirməyi bacarmalıdırlar. Onlar öyrəndikcə ətraf mühitdə baş verən yenilikləri müəyyənləşdirmə və həmin dəyişikliklərə müvafiq reaksiya verməyi bacarıqları da təkmilləşmiş olur.

Hazırki dövrdə bütün təşkilatlar öyrənən təşkilat olmaqla bağlı müəyyən bir təzyiq altındadırlar. Buna səbəb olaraq isə rəqabət, qloballaşma və texnologiyanı göstərmək olar. Xüsusilə qeyd etmək lazımdır ki, son zamanlar "fərdi öyrənmə" anlayışı "təşkilati öyrənmə" anlayışı ilə əvəz edilməyə başlanmışdır. Bildiyimiz kimi təşkilatların inkişafı fərdi deyil, komanda işinin nəticəsi olaraq baş verir. Bu səbəbdən fərdi inkişaf sistemin müvəffəq olması üçün kifayət etmir. Beləliklə, təşkilatların davamlı fəaliyyətini təmin etmək üçün kollektiv öyrənmə zərurət kimi müəyyən olunmuşdur.

Təşkilati öyrənmə ilə bağlı ilk araşdırmalardan biri Chris Argyrisə məxsusdur. Argyris'ə görə təşkilati öyrənmə maneələrin aşkarlanması və aradan qaldırılması prosesidir. Təşkilati öyrənmə bu prosesin nəticəsi kimi təsvir olunur. Yəni, öyrənmənin baş tutması üçün xətaların müəyyənləşdirilməsi kifayət etmir, onlar aşkar edildikdən sonra müvafiq tədbirlərin görülməsinə ehtiyyac duyulur. McGill təşkilati öyrənmə prosesini "təşkilatın müşahidə, təcrübə və təhlillər nəticəsində əldə etdiyi təcrübələr vasitəsilə yeni bilik və bacarıqlar əldə etmə" kimi təsvir etmişdir. Edwin Nevis və isə təşkilati öyrənməni "təşkilatın öz təcrübələrinə əsaslanaraq məhsuldarlığını artırmağa nail olması" kimi təsvir etmişdir [11].

Geniş mənada təşkilati öyrənmə anlayışı "bütün işçilərin fəal iştirak etdiyi, fərdi öyrənmədən kollektiv öyrənməyə keçidin təmin edildiyi, davamlı inkişaf və dəyişikliyə əsaslanmış bir müddəti əhatə edir.

Ümumilikdə təşkilati öyrənmə ilə bağlı irəli sürülmüş təriflərə nəzər saldıqda öyrənən təşkilatlara xas bir çox xüsusiyyətlərin olduğunu görmək mümkündür. Yazıcıya görə (2001) öyrənən təşkilatlarda:

- Sistem düşüncəsi böyük əhəmiyyət kəsb edir.
- Öyrənmə təşkilatın strukturunun bütün hissələrində baş verir, təşkilat tək bir beyin kimi çıxış edir.
- Öyrənmə davamlı, strateji şəkildə təşkil olunan prosesdir.
- Təşkilatın hər bir üzvü təşkilat miqyasında öyrənmənin təşkil olunmasının onların gələcək nailiyyətlərində daşıdığı əhəmiyyəti dərk edir.
- Yaradıcılığa önəm verilir.
- Bütün işçilərin təşkilatın uğurlu failiyyətində mühüm rol oynayan informasiya resurslarına çıxışı mövcuddur.
- Fərdi və qrup şəklində öyrənməni dəstəkləyən təşkilat mədəniyyəti mövcuddur.
- Dəyişikliklər, gözlənilməz yeniliklər və xətalar öyrənmək üçün bir fürsət olaraq qiymətləndirilir.
- Kollektiv üzvləri ətraf mühitdə baş verən dəyişikliklərə qarşı həssas və çevikdirlər.
- Daima dəyişən mühitə müvafiq olaraq adaptasiya olmaq və özünü yeniləmək bacarığına malikdirlər.

Təşkilati öyrənmə prosesi 3 müxtəlif mərhələdən ibarətdir:

**Bir mərhələli öyrənmə:** Bu öyrənmə prosesi Fiol və Lyles tərəfindən aşağı səviyyəli öyrənmə kimi təsvir olunur. Bu proses müəssisə tərəfindən yol verilmiş xətaların müəyyən olunması və ortadan qaldırılması ilə məhduddur. Bir mərhələli öyrənmə zamanı suallar verilmir və problemin yaranma səbəbi araşdırılmır. Müəssisə problemi həll etdikdən sonra müvcud şəraitə uyğunlaşdığına görə bu öyrənmə metodunu adaptiv öyrənmə də adlandırmaq mümkündür [8].

**İki mərhələli öyrənmə:** Bu öyrənmə zamanı təşkilatın siyasəti, missiya və hədəfləri araşdırılaraq problemlər aradan qaldırılır. Məhsuldar öyrənmə olaraq təsvir edilən bu öyrənmə zamanı müəyyən bir problemi həll etmək üçün mövcud şərait nəzərdən keçirilir, problemin yaranma səbəbi müəyyən edilir və təşkilatın məqsədləri, mədəniyyəti, strukturu ilə bağlı genişmiqyaslı dəyişikliklər həyata keçirilir [11].

**Öyrənməni öyrənmə:** Hazırkı dövrdə öyrənmə prosesi hər hansısa bir informasiyanın yalnız mənimsənilməsi ilə məhdudlaşmır. Artıq öyrənənlərdən informasiyanı əldə etdikdən sonra öz şüurunda təsvir və təhlil etməsi, qarşılaşdığı bir problemin həllində istifadə edə bilməsi də tələb olunur. Əks

halda öyrənilən məlumat səmərəsiz hesab olunur [1]. Probst və Buchelə görə öyrənməni öyrənmək öyrənmə proseslərinin ən yüksək səviyyəsidir. Burada məqsəd yalnız öyrənmək deyil, eyni zamanda də öyrənmə prosesinin necə baş verdiyini dərk etməkdir. Məhz buna görə öyrənməni öyrənmək bir mərhələli və iki mərhələli öyrənmədə müşahidə olunan fəaliyyətlərin daha yüksək səviyyəyə çatdırmaqla nail olunan bir proses kimi təsvir olunur [7].

Senge (2018) görə, öyrənən təşkilatların formalaşması üçün beş amilin varlığına ehtiyyac duyulur. Bu beş amil bir-birindən ayrı formalaşsalar da, onlar digər amillərin formalaşmasında böyük əhəmiyyət kəsb edirlər. Bu amillər şəxsi ustalıq, paylaşılan vizyon, komanda şəklində öyrənmə, zehni modellər və sistem düşüncəsidir.

**Şəxsi Ustalıq:** Sengeə (2018) görə, şəxsi ustalıq insanların ətraf mühitdə mövcud olan şəraitdən xəbərdar olmasını və şəxsi məqsədlərini nail olmasına təmin edən təcrübələr toplusudur. Bu fəaliyyətlərin nəticəsində biz mövcud şəraiti təhlil edib, müvafiq addımlar ataraq məqsədlərimizə yaxınlaşmış oluruq. Burada nəzərə alınmalı əsas məqam insanın davamlı olaraq öz inkişafını təmin etməsidir. Buna nail olmaq üçün fərd özünə suallar verməlidir. İnsan özünü sorğuladıqca, zehni modellərinin fərqinə varacaq və onları təkmilləşdirmək üçün səy göstərəcəkdir [4]. Nəzərə almaq lazımdır ki, fərdi öyrənmə təşkilati öyrənmə prosesinin baş tutması üçün ilkin şərt kimi qəbul olunur.

**Paylaşılan Vizyon:** Paylaşılan vizyon, anlayışını "Biz nə yaratmaq istəyirik?" sualının cavabı kimi təsvir etmək mümkündür. Öyrənən təşkilatlar üçün paylaşılan vizyonun mövcudluğu böyük əhəmiyyət kəsb edir. Şəxsi yanaşmalar fərdlər üçün nə qədər vacibdirsə, təşkilatlar üçün də paylaşılan vizyonun olması o qədər vacib sayılır. Çünki ortaq vizyon işçilərin ortaq məqsəd və dəyərlərini özündə ehtiva edir və bu amillər işçilərin motivasiyasında, məhsuldarlığında, müəssisəyə bağlılığında mühim rol oynayır. Paylaşılan vizyon anlayışı kollektiv üzvləri arasında birlikdə öyrənməyə diqqət, maraq və əzmkarlıq yaradır. Beləliklə təşkilatda "mən" anlayışının "biz" ilə əvəzlənməsi, əməkdaşlıq münasibətlərinin formalaşması üçün şərait yaranır.

**Komanda şəklində öyrənmə:** Komanda anlayışını müəyyən bir məqsəd və vəzifələrə nail olmaq məqsədilə bir araya toplaşan fərdlər kimi ifadə olunur. Komanda məqsədyönlü şəkildə təşkil olunur, yəni müəyyən bir məqsədə çatmaq üçün qurulur [6]. Komanda şəklində öyrənmə fəaliyyətinin əsasını insanların komanda şəklində düşünməsi və zamanla birlikdə hərəkət etməsi dayanır. Komandanın yaranması üçün iştirakçıların bir-birlərinə bənzəməsinə ehtiyac duyulmur. Komanda iştirakçılarından müntəzəm şəkildə ünsiyyətdə olmaları, öncədən müəyyən edilmiş məqsəd istiqamətində ahəngdar fəaliyyət göstərmələri gözlənilir. Komanda şəklində öyrənmə mühitinin

formalaşması üçün şəxsi ustalıq və paylaşılan vizyon amilləri böyük rol oynayır. Ancaq qeyd etmək lazımdır ki, sadalanan amillərin mövcudluğu komanda şəklində öyrənmə fəaliyyətinin müvəffəq olması üçün kifayət etmir.

**Zehni Modellər:** Düşünə bilmək bacarığı zehni modellərinin əsas mahiyyətini əhatə edir. İnsanların şüurundakı düşüncələr, fərziyyələr, obrazlar onların müxtəlif hadisələri təhliletmə, qavrama tərzinə və həmin hadisələrə verdiyi reaksiyalara təsir edir. Zehni modellər bizim məsələlərə yanaşma tərzimizdəki çatışmazlıqları, qərəzləri ortaya çıxarır. Öyrənmə fəaliyyətinin arzu olunan səviyyədə təşkil olunması üçün zehni modellərin təkmilləşdirilməsi ilə bağlı zərurət ortaya çıxır. Yalnız bu yolla insanlar fikirlərini açıq şəkildə ifadə edə bilər və başqaları ilə fikir mübadiləsi edərək düzgün qərarlar əldə edə bilərlər [3]. Buradan aydın olur ki, yeni bilik və bacarıqları öyrənmək qədər onları real həyat şəraitində tətbiq edərək səmərəli nəticələr almaq da vacibdir.

**Sistem düşüncəsi:** Senge (2018) təşkilatın müəyyən etdiyi məqsədlərinə çatması üçün bir bütöv kimi fəaliyyətdə olmalarının zəruri olduğunu qeyd etmişdir. Onun fikrincə, yalnız kollektivin hər bir üzvü bir istiqamətdə irəlilədiyi halda səmərəli nəticələr əldə etmək olar. Əks halda müxtəlif istiqamətlərdə baş verən prosesləri və onların nəticələrini idarə etmək mümkünsüzdür. Sistem düşüncəsi də bu fikirləri dəstəkləyir. Sistem düşüncəsi müəssisədə nizam-intizamın yaranmasına, əməkdaşlıq münasibətlərinin möhkəmlənməsinə, məsuliyyət hissinin formalaşmasına töhvə verir. Beləliklə, əməkdaşlar hər hansısa bir problem ilə qarşılaşdıqda təqsirkar axtarmaq yerinə özlərinin hansı davranışlarının bu vəziyyətin yaranmasına gətirib çıxardığını təhlil edirlər.

Öyrənmə prosesinin baş tutduğu ən mühüm qurum, şübhəsiz ki, məktəblərdir. Məktəblər dövrün tələblərini qarşılaya bilmək üçün daima baş verən dəyişiklikləri izləməli, özünü daim yeniləməyi bacarmalıdır. Öyrənən məktəblər birlikdə öyrənməni məqsəd olaraq qəbul edən qurumlardır. Bu məktəblər kollektiv üzvlərinin inkişafını vacib hesab edir və birlikdə öyrənmənin əhəmiyyətini vurğulayan müvafiq mühit yaratmaq üçün səy göstərirlər [10]. Bu istiqamətdə təşkil olunan fəaliyyətlərin səmərəliliyini təmin etmək üçün məktəb rəhbərliyi öyrənmə prosesinin yalnız qısa müddətli nəticədən ibarət olmadığını, onun ömürboyu davam edən bir fəaliyyət olduğunu mənimsəməli və düzgün ünsiyyət strategiyalarından istifadə edərək kollektivin digər üzlərinə aşılamağı bacarmalıdırlar. Qeyd etmək lazımdır ki, müəllimlərin tədqiqatyönümlü fəaliyyətləri, bilik, bacarıq və təcrübə mübadiləsinə əsaslanan münasibətlər öyrənən məktəb anlayışının inkişafına töhvə verən amillərdəndir [5].

Öyrənən məktəblərin fəaliyyətinin keyfiyyətinə təsir edən amilləri aşağıdakı kimi göstərmək olar [2]:

- Müəllimlərin fərdi öyrənmək istəyi. Bu proses daima stimullaşdırılmalıdır.
- Məktəb mədəniyyəti. Dövrün gətirdiyi dəyişiklik və yeniliklərə açıq olan məktəb mədəniyyəti yaradılmalıdır.
- Kollektiv öyrənmə. Qrup şəklində öyrənmə fəaliyyətinə nail olmaq üçün əvvəlcə fərdi öyrənmə təmin edilməlidir. Yalnız bu mərhələdə uğurlu olduqdan sonra qrup və institusional formada öyrənmə prosesi baş tuta bilər.
- Məktəb direktorunun idarəetmə tərzi. Ədalətli, hörmət və sevgiyə əsaslanan münasibətlərin mövcud olduğu, yeni idarəetmə yanaşmalarına müvafiq olan idarəetmə prosesi təşkil olunmalıdır.
- Məktəbin ətraf mühit ilə mövcud əlaqələri. Məktəb öz mühiti ilə bir bütöv təşkil etməli və ətraf mühitə bütünün bir hissəsi kimi baxmalıdır. Yəni məktəb rəhbərliyi ətraf mühitdə baş verən dəyişiklikləri müəyyənləşdirməyi və təhlil etməli bacarmalı, əldə olunan nəticələrə əsasən öz fəaliyyətində müvafiq dəyişiklikləri təmin etməlidir.
- Tədris texnologiyasından istifadə səviyyəsi. Təlim-tədris fəaliyyətlərinin səmərəliliyini və keyfiyyətini artırmaq məqdəsi ilə yenilikçi və effektiv təlim strategiyalarının prosesə inteqrasiya olunması təmin edilməlidir.
- Şagird nailiyyətləri. Şagird nailiyyətlərinin tək göstəricisi onların imtahan nəticələri olmamalıdır, bu zaman onların fərdi öyrənmə ehtiyyacları və xüsusiyyətləri, təlim-tədris prosesinə göstərdikləri maraq da nəzərə alınmalıdır.
- İxtisasartırma təlimində iştirak. Təlim-tədris fəaliyyətinə təsir göstərən yeniliklər barədə məlumatlılığı təmin etmək üçün təlim və seminarlar təşkil edilməli və kollektiv üzvlərinin iştirakı təmin olunmalıdır.
- Təhsilalanlar və təhsilverənlər üçün stimulların təyin olunması. Məktəb rəhbərliyi müvəffəqiyyətli müəllim və şagirdlərin mükafatlandırılmasına xüsusi diqqət ayırmalıdır.

Beləliklə, məktəblərdə öyrənən məktəb mədəniyyətinin formalaşdırılması üçün bir sıra təkliflər də etmək mümkündür. İxtisasartırma təlimlərində iştiraka cəlb olunan müəllimlərin əsas şikayətinin vaxt azlığı ilə bağlı olduğunu nəzərər alaraq, müəllimlərin iş yükünün azaldılması müsbət nəticələr doğura bilər. Müəllimlərin qərar qəbuletmə prosesində iştirakının təmin olunması nəticəsində müəllimlər özlərini daha dəyərli hiss edər və məktəbin aşıladığı ortaq vizyon anlayışını daha çox mənimsəmələrinə kömək edər.

***Ədəbiyyat***

1. *Atak, M. ve Atik, İ. (2007). Örgütlerde Sürekli Eğitimin Önemi ve Öğrenen Örgüt Oluşturma Sürecine Etkisi. Havacılık ve Uzay Teknolojileri Dergisi, 3 (1), 63-70.*

2. *Balcı, A. (2002). Etkili Okul: Kuram, Uygulama ve Araştırma.* Ankara: Pegem Akademi Yayıncılık.
3. Bayraktaroğlu, *S. ve Kutanis, R. Ö. (2002). Öğrenen Kamu Örgütlerine Doğru. Kocaeli Üniversitesi* Sosyal Bilimler Dergisi, 3, 51-65.
4. *Çetin,* M., *Doğan, B. ve Tatık, R. Ş. (2016). Okul Yöneticilerinin Öğrenen Okula İlişkin Görüşlerinin İncelenmesi.* Akademik Sosyal Araştırmalar Dergisi, 4 (25), 388-400.
5. *Doğan, S. ve Yiğit, Y. (2015). Öğreten Okulların Tamamlayıcısı: Öğrenen* Okullar. Elektronik Sosyal Bilimler Dergisi, 14(53), 318-336.
6. *Elma, C. (2004). Öğrenen Örgütler. Ankara: Sandal Yayınları.*
7. *Güleş,* H. (2007). *İstanbul İli Bayrampaşa İlçesindeki Resmi İlköğretim Okulu Yönetici ve Öğretmenlerinin Öğrenen Organizasyona İlişkin Algıları. Yayımlanmış Yüksek Lisans Tezi.* Yeditepe *Üniversitesi* Sosyal *Bilimler* Enstitüsü, İstanbul.
8. *Güzelgörür, F. (2017). Öğretmen ve Yönetici Görüşlerine Göre İlkokul ve Ortaokulların Öğrenen Örgüt Özelikleri. Yayımlanmamış Yüksek* Lisans Tezi. *Sütçü İmam Üniversitesi* Sosyal *Bilimler Enstitüsü,* Kahramanmaraş.
9. *Senge, P.(2018). Beşinci disiplin (19. Baskı) (A. İldeniz, A. Doğukan &* B. Pala, *Çev.). Yapı Kredi.*
10. *Töremen, F. (2011). Öğrenen okul (2. Basım).* Nobel Akademik.
11. *Yazıcı, S. (2001). Öğrenen Organizasyonlar. Bursa: Alfa Yayınları.*

**R.A.Əsədov**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
rsidsdov@gmail.com

# ŞƏKİ RƏSSAMLARININ BOYAKARLIQ ƏSƏRLƏRİNDƏ FƏLSƏFİ FİKRİN TƏCƏSSÜMÜ

***Xülasə***

*Məqalədə Şəkinin ictimai fikir tarixində özünəməxsus yer tutan görkəmli nümayəndələrindən bir neçəsinin adları sadalanmışdır. Bununla yanaşı təsviri sənət əsərlərində də sənətkaların müəyyən fikri ifadə etməsinə rast gəlindiyi qeyd edilmişdir. Qədim abidələrin monumental divar rəngkarlıq nümunələri buna misal olaraq göstərilmişdir. Həmçinin bu gün də rəssamlarımız fəlsəfi fikir ifadə edən əsərlər ərsəyə gətirməkdədirlər. Buna əsasən məqalədə Şəki rəssamları Sahib Əhmədov, Nicat Məmmədov və Asim Abbasovun yaradıcılığındakı fəlsəfi fikri əks etdirən boyakarlıq əsərlərinə müraciət edilmişdir. Onların hər biri təsvir və təhlil olunaraq ifadə etdiyi əsas fikir ortaya qoyulmuşdur. Əsərlərdə xüsusi diqqət çəkən məqamlardan biri rəssamların təsvirlərində milli tarixi keçmişimiz ilə müasir ənənələri birgə əks etdirməsidir.*

# ВОПЛОЩЕНИЕ ФИЛОСОФСКОЙ МЫСЛИ В ЖИВОПИСНЫХ ПРОИЗВЕДЕНИЯХ ХУДОЖНИКОВ ШЕКИ

***Резюме***

*В статье перечислены имена нескольких видных представителей Шеки, занимает особое место в истории общественного мнения. Кроме того, было отмечено, что произведения искусства выражают определенную идею. В качестве примера показаны образцы монументальной настенной росписи памятников старины. Наши художники и сегодня создают произведения, выражающие философские идеи. Исходя из этого, в статье рассматриваются живописные произведения, отражающие философскую мысль в творчестве шекинских художников Сахиба Ахмедова, Ниджата Мамедова и Асима Аббасова. Каждое из них описывается и анализируется, выявляется основная высказанная мысль. Одним из особых моментов внимания в работах является то, что в их описаниях художников отражают вместе наше национальное историческое прошлое и современные традиции.*

# THE EMBODIMENT OF PHILOSOPHICAL THOUGHT IN THE PAINTING WORKS OF THE ARTISTS OF SHAKI

***Summary***

*In the article, the names of several prominent representatives of Sheki, who have a special place in the history of public opinion, are listed. In addition, it was*

*noted that works of art express a certain idea. Samples of monumental wall painting of ancient monuments are shown as an example. Even today, our artists create works that express philosophical ideas. Based on this, the article addresses the painting works reflecting the philosophical thought in the works of Shaki artists Sahib Ahmadov, Nijat Mammadov and Asim Abbasov. Each of them is described and analyzed, and the main idea expressed is revealed. One of the special points of attention in the works is that the artists' in their descriptions reflect our national historical past and modern traditions together.*

***Açar sözlər:*** *Şəki, təsviri incəsənət, boyakarlıq, fəlsəfi fikir, Sahib Əhmədov, Nicat Məmmədov, Asim Abbasov*

***Ключевые слова:*** *Шеки, изобразительное искусство, рисование, философская идея, Сахиб Ахмедов, Ниджат Мамедов, Асим Аббасов*

***Key words:*** *Sheki, fine art, painting, philosophical idea, Sahib Ahmadov, Nijat Mammadov, Asim Abbasov*

Şəki XIX əsrdə Azərbaycan ictimai fikir tarixinə Mirzə Fətəli Axundov kimi böyük mütəfəkkir, yazıçı və dramaturq, İsmi bəy Nakam kimi şair, Rəşid bəy Əfəndiyev kimi maarifpərvər, dramaturq və pedaqoq, şeirləri dillər əzbəri olan aşıq Molla Cümə, Ələsgər Abdullayev kimi məşhur xanəndə, yüzlərlə xalq sənətkarı bəxş etmişdir [1, s.29-30]. Bundan əlavə Şəkinin qədim tarixi abidələrində istifadə olunmuş monumental rəngkarlıq təsvirlərində müxtəlif fikirləri özündə ehtiva edən təsvirlər geniş yer tutur. Hansı məqsəd üçün istifadə olunmasından asılı olaraq otaqların hər birindəki divar rəngkarlıq nümunələri həm təsvir olunma, həm də mövzu baxımından müxtəliflik təşkil edir. Qonaq otağında xanın gücünü təmsil edəcək döyüş səhnələri, qadınlar üçün otaqlarda daha çox naxışlar, gül-çiçək motivləri, ibadət otağında isə əsasən ağ rəngdə divar olmaqla yalnız divarların aşağısında zolaq daxilində təkrarlanan sadə naxışlardan istifadə olunmuşdur. Bu ona dəlalət edir ki, hələ o vaxtlardan rəssamlar özündə fəlsəfi fikri daşıyan təsvirləri tikililərin divarlarında əks etdirmişlər. Zəngin mədəni tarixə malik olan bu diyarın günümüzdəki rəssamları da qədim ənənələrdən bəhrələnərək müasir dövrümüzə uyğun olaraq fəlsəfi fikri özündə daşıyan əsərlər yaratmaqdadırlar.

Şəkili gənc rəssam Sahib Əhmədovun “Zaman” adlı əsəri kətan üzərinə yağlı boya texnikası ilə yerinə yetirilmişdir. Əlvan rənglərlə zəngin palitradan istifadə edilmişdir ki, bu da özünü tabloda göstərir. Zaman məfhumunun simvolik göstəricisi kimi rəssam dairəvi saatı əsərin mərkəzində iri görünüşlə əks etdirmişdir. Gənc rəssam əsərində saatın üzərindəki əqrəblərin və rəqəmlərin hər birinin təsvirində simvolik mənalardan istifadə etmişdir. Belə ki, rəssam saatın saniyə əqrəbini qırmızı rənglə, ürək döyüntüsünün kardioqramma görüntüsü olan ziqzaqşəkilli təsvirlə əks etdirmişdir. Ürək döyündüyü zaman onun ritmik hərəkətinin kardioqrammada hər saniyədə bu

şəkildə əks olunmasını özündə ehtiva etdiyindən burada rəssamın saniyə əqrəbi üçün təmsili olaraq bu görüntünü kompozisiyada istifadə etməsi anlaşılandır. Dəqiqə əqrəbi də eynilə saniyə əqrəbində olduğu kimi dairəvi formada təsvir edilib ki, bunu da zamanın dövr etməsini təmsil etməsi kimi şərh etmək olar. Dəqiqə əqrəbinin uc hissəninin yaxınlığına nəzər yetirdikdə onun sanki sınmış, qırılmış şəkildə olduğunu görürük. Rəssamın emalatxanasında onunla müsahibə zamanı qeyd etdi ki, bu cür təsvirlə o, "hər dəqiqənin öz hökmü var" ifadəsini təcəssüm etdirməyə çalışmışdır. Qarşıdan gələn bir dəqiqə sonra belə başımıza nə gələcəyini bilmirik və bu dəqiqələr həyatımızda yaxşı və ya pisə doğru dəyişikliklərə səbəb ola bilər. Ancaq uc tərəf təsvirdə sınmış formada təsvir olunsa belə, həmin hissə əqrəbdən tam olaraq ayrılmayıb, kiçik bir xətlə belə olsa birləşir. Bunu isə bir dəqiqə sonra belə nə baş verəcəyini bilməsək belə, gələcəyə doğru daim ümidlə addımlamağın, nikbin baxışla irəliləməyin ifadəsi kimi şərh edə bilərik. Saat əqrəbini isə rəssam pilləkən formasında təsvir edib. Hansı ki, həmin pilləkənlər əqrəblərin qovuşduğu saatın mərkəzinə doğru perspektiv təsvirlə tabloda əks olunub. Bu təsviri isə bu cür ifadə edə bilərik ki, insanın ömrü məlum olduğu kimi qısadır və biz həyatımızın hər saatında sanki bu pillələri bir-bir addımlayaraq onun sonuna doğru daha da yaxınlaşırıq. Saatın rəqəmlərinə diqqət etsək, hər birində sarı, qırmızı, yaşıl, göy və s. kimi fərqli rənglərdən istifadə olunduğunu görürük. Bunu da onunla əlaqələndirə bilərik ki, günün hər saatında insanın əhval-ruhiyyəsi yaxşıya və ya pisə doğru dəyişkənlik göstərir, təsvir də bunu təmsil edir. Saatın fonunda qara rəng üzərinə əlvan rənglərin qarışıq şəkildə yaxmaları istifadə edilib. Hansı ki, bu da ümumi kompozisiyada kainat görüntüsünü xatırladır. Həmçinin bütünlüklə kompozisiyada istifadə edilmiş sərbəst rəng yaxmalarını, rənglərin sanki axmasını və bir-birinə qarışmasını zamanın hərəkətlə birbaşa bağlı olmasına bir vurğu kimi şərh edə bilərik. Rəssam vaxtı ölçmək üçün istifadə etdiyimiz saatla, ən geniş şəkildə zaman məhfumunu özündə ehtiva edən kainat görüntüsünü tabloda məharətlə sintez etməyə nail olmuş və baxımlı kompozisiya yaratmışdır.

Sahib Əhmədovun digər əsəri kətan üzərinə yağlı boya texnikası ilə yerinə yetirilmişdir. "Şuşa" adlı əsəri də maraqlı və bir o qədər düşündürücü kompozisiyaya malikdir. Şaquli formatda işlənmiş tabloda yuxarıda göz, aşağıda isə ürək təsvirini görürük. Fonda mavi rəngdən istifadə edilib. Rəssam əsərini Vətən müharibəsindəki qalibiyyətimizdən ilhamlanaraq ərsəyə gətirmişdir. Məlum olduğu kimi, Şuşa şəhərinin nəzarətimizə alınması ilə artıq müharibənin taleyi bərqərar olmuşdur. Əsərdə təsvir edilmiş ürəkdən xarıbülbülün sanki cücərərək uzandığını görə bilərik. O, uzanaraq yuxarıdakı gözün qarşısında sonlanır. Kompozisiyada bu görüntü göz bəbəyini xatırladır. Gözün içərisində isə xarıbülbülün fonunda Şuşa qalasının təsviri verilib. Rəssam ürək və gözü həm xarı bülbüldən, həm də onların fonunda açıq rəng

tonlarında rəng yaxılarından istifadə etməklə kompozisiyadakı predmetlərin vahid şəkildə baxılmasını təmin edə bilmişdir. Fondakı mavi rəng saflığı, həmçinin mənəvi yüksəkliyi simvolizə edir. Əsərdə ürəkdən gözə doğru uzanan xarıbülbül gülünün təsvirilə rəssam illərdir ürəyimizdə qalan vətən nisgilinə artıq son qoyularaq arzularımızın gerçəkləşməsini ifadə etmişdir. Rəssamla müsahibə zamanı o, öz kompozisiyanı ümumilikdə bir cümlə ilə ifadə etdi: "Şuşa bizim görən gözümüz, döyünən ürəyimizdir."

Digər gənc şəkili rəssam Nicat Məmmədovun "Dünyanın yükü" adlı əsəri 40x73 sm ölçüsündə kətan üzərinə yağlı boya texnikası ilə yerinə yetirilmiş tablodur. Bu əsərdə rəssam heyvanat aləmində insanların yükünü daşımaqla mükəlləf olan uzunqulaq təsvirini kompozisiyada irihəcmli olaraq yerləşdirmişdir. Onun üzərindəki təsvirlərlə isə zəhmətkeş insanların həyat yolunu çatdırmağa çalışmışdır. Bu təsvirlər kənd həyatındandır, hansı ki, əməksevər insanları kənd həyatı olmadan təsəvvür etmək çətin olardı, buna görə də rəssam bu cür təsvirlə təmsil etmişdir. Yüklərə diqqət yetirdikdə öndə, sağ tərəfdə su səhəngi və sünbül təsvir olunub. Kənd təsərrüfatına xas olan bu təsvirlərdəki sünbülü, su səhəngini uyğun olaraq qida və su kimi həyat mənbəyini ifadə etdiyini qeyd edə bilərik. Hansı ki, buna əsasən bu iki təsvirin həyatı, yaşamı təmsil etdiyini söyləyə bilərik. Kompozisiyada nisbətən arxada, sol tərəfdə isə dəryaz və yaba təsvirləri yerləşdirilib. Bu təsvirləri isə insan həyatının sonlu olduğuna işarə etməklə ölümü simvolizə etməsi kimi şərh etmək olar. Səmaya diqqət etdikdə Günəş, Ay təsvirlərinin kompozisiyanın sağ və sol hissəsində yer aldığını görərik. Rəssam gecə və gündüzü təmsil edən Ayı, Günəşi səmada eyni vaxtda yanaşı əks etdirib. Bu cür təsviri isə əzabkeş insanların gecə-gündüz əmək fəaliyyəti ilə məşğul olmaları ilə əlaqələndirilərək təsvir olunduğunu qeyd etmək olar. Kiçik kənd evlərinin təsvirlərinə diqqət etsək, onların sonunun görünmədiyinin şahidi oluruq. Rəssam kompozisiyada perspektiv təsvirdən istifadə etməklə ucsuz-bucaqsız evlərin görüntüsünü əks etdirib. Bununla da o, dünyanın yükünü daşıyan zəhmətkeş insanlar buradan köçüb getsə belə onlardan yadigar kimi qalan maddi və ya mənəvi izlərinin qalıcı, bitib-tükənməz olduğunu ifadə edib.

Şəkinin gənc rəssam nümayəndələrindən olan Asim Abbasovun "Günəş" adlı 90x70 sm ölçüsündə kətan üzərinə yağlı boya əsəri özündə bir neçə fəlsəfi fikri cəmləmişdir. Rəssam kompozisiyada qadın obrazı, xalça, onu toxumaq üçün ip yumaqları və fonda tül pərdəni xatırladan təsvirləri məharətlə sintez edərək baxımlı təsvir ərsəyə gətirmişdir. Tablo al-əlvan rəngləri ilə göz oxşayır və kompozisiya baxımından uğurlu alınmışdır. Əsəri bir neçə konteksdən ələ aldıqda fərqli yanaşmalar ilə şərh etmək mümkündür. Tablodakı xalça təsvirini kainatın metaforası kimi hesab edə bilərik. Planetlər kainatın bir hissəsini təşkil etdiyi kimi eynilə əsərdə onları təmsil edən ip yumaqları da xalçanın ərsəyə gəlməsində rolu olduğundan burada milli

mədəniyyətimizdə və məişətimizdə geniş yer tutan xalçanın dəyərini ifadə etmək üçün bu şəkildə təsvir edildiyini də söyləmək olar. Gənc rəssamın əsərində sürrealizm cərəyanını xatırladan məqamlara rast gəlirik. Məlumdur ki, sürrealizmdə sürrealistlər xəyalpərəst, fantastik obrazlar ortaya qoymaq üçün tez-tez gözlənilməz əlaqələrdən, sintezlərdən və qeyri-adi perspektivlərdən istifadə edirlər. Bu kontekstdən yanaşdıqda qadının saçının xalça ilə birləşməsi tamaşaçının reallığı qavramasına və dərk etməsinə meydan oxumaq məqsədi daşıyan sürreal element kimi qiymətləndirilə bilər. Bununla da, qadın obrazının gözlərini yumaraq saçını daramasını da yuxuda, dərin düşüncələr və ya xəyallar aləmində cərəyan edən hadisələrin ifadəsi kimi qəbul etsək, bu zaman sürrealizm izlərini xatırladan yanaşmamız daha da əsaslandırılmış olar. İp yumaqları planetləri xatırladacaq şəkildə təsvir olunub. Onlar mərkəzdəki qadın fiqurunu əhatələyəcək şəkildə əks edilib. Buna əsasən tablonun adını aldığı Günəşin məhz bu qadın obrazı ilə təsvirdə simvolizə edildiyini müəyyənləşdirə bilərik. Əsər ilk baxışda xaosu əks etdirmiş kimi görünsə də, əslində bu qarışıqlıq içərisində rəssam nizam qurub və onunla öz fikrini ifadə etməyə çalışıb. Qadın fiquru saçını darayan anda təsvir edilib. Onun saçının davamı isə xalça kimi təsvir edilib. Türk xalqlarında daraq xüsusi önəm verilən əşya idi. Hətta yuxu yozmalarına görə saçını daramaq qayğını ifadə edir. Qadının saçının xalça ilə birləşməsi onun ətrafı ilə inteqrasiyasının əyani təsviri kimi qiymətləndirilə bilər. Xalça onun məişətlə əlaqəsini, saçı isə onun fərdiliyini və özünü ifadəsini simvolizə edə bilər. İkisinin birləşməsi qadın və ətrafı arasında ahəngdar bir tarazlıq kimi ifadə edilə bilər. Bu məlumatlara əsasən rəssamın təsvirdə sanki qadın obrazının dünyəvi qayğılarından azad olaraq arzularını, istəklərini xalçada ifadə etdiyini söyləyə bilərik. İp yumaqlarının hər biri qadının saçlarına toxunmuşdur. Yəni planetlər Günəşin ətrafında fırlanaraq ondan asılı olduğu kimi, təsvirdə yumaqlardan uzanan iplər də qadının saçıyla birləşmişdir. Bununla da rəssam planetləri simvolizə edən yumaqların Günəşi təmsil edən qadın fiqurundan asılı olmasını simvolizə edərək kosmologiya bilikləri ilə ifadə etmək istədiyi düşüncələrini sintez etmiş və qadının zərifliyinə baxmayaraq, onun zəhmətilə xalqımıza verdiyi töhfələri qabardaraq ön plana çəkməyə çalışmışdır.

***Ədəbiyyat***

1. *K.Kərimov - Şəki: bələdçi / Bakı: Azərnəşr, 1969 / 62 s.*

**“Magistrant” dövri elmi jurnalında nəşr olunmaq məqsədi ilə təqdim edilən məqalələr üçün**

# TƏLƏBLƏR

- “MAGİSTRANT” dövri elmi jurnalında magistraturada təhsil alan magistrantların nəşr olunmamış elmi məqalələri qəbul edilir. Məqalə **Azərbaycan, ingilis, türk və ya rus** dilində jurnalın elektron ünvanına – **j.magistrant@adpu.edu.az**, **(müvafiq kafedra iclasının qərarı və elmi rəhbərin müsbət rəyi ilə)** göndərilir.
- Məqalə **Microsoft Word** proqramında Times New Roman şrifti ilə 12 pt. ölçüdə 1,0 intervalla yazılmalıdır. Səhifə ölçüləri: sağdan və soldan 2,0 sm, yuxarıdan 2,5 sm, aşağıdan 2,2 sm olmalıdır.
- **Başlıq** ortada qara və böyük hərflərlə yazılmalıdır.
- Məqalənin quruluşu: müəllifin adı, ata adı və soyadı, iş yeri, elmi dərəcəsi və elmi adı, üç dildə açar sözlər və xülasə (70-100 sözdən ibarət, 11 pt. ilə) ədəbiyyat siyahısı. Hər üç dildə yazılmış xülasələr bir-birinin eyni və məqalənin məzmununa uyğun olmalıdır.
- Məqalədə verilən **şəkil, rəsm, qrafik və cədvəllər** düzgün, aydın və mətn içərisində olmalı, onlara aid olan yazılar altında yazılmalıdır.
- Məqalənin həcmi **4-7 səhifə (15000-18000 işarə)** həcmində qəbul edilir.
- **İstinadlar** mətn içərisində kvadrat mötərizədə göstərilməklə məqalənin sonunda əlifba sırası ilə nömrələnməlidir. Məsələn: [5, s.152].
- Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Simpozium, konfrans materiallarına və ya tezislərinə istinad edilərkən məqalə və ya tezisin adı göstəriməlidir.
- Redaksiya düzəlişlər etmək üçün məqaləni müəllifə qaytara bilər.
- Məqalədə verilən hər hansı bir elmi yenilik, tezis və s. üçün müəllif şəxsən məsuliyyət daşıyır.
- Jurnalda dərc olunmayan məqalə geri qaytarılmır.

*Çapa imzalanmış 10.06.2023*
*Kağız formatı 60x84  1/16, çap vərəqi 26*
*Sifariş 185, sayı 100*

*ADPU-nun nəşriyyatı*
*Bakı, Ü.Hacıbəyli küçəsi, 68*
*Tel: (+912)493-74-10*
*E-mail: poliqrafiya@mail.ru*